HEYDƏR ƏLİYEV

MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

iyirminci kitab

aprel, 1999 - iyul, 1999

AZƏRNƏŞR
BAKI-2007

HEYDƏR ƏLİYEV

çıxışlar • nitqlər

bəyanatlar • müsahibələr

məktublar • məruzələr

müraciətlər • fərmanlar

3679

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

AZƏRNƏŞR
BAKI-2007

BBK 32
Ə 56

Buraxılışına məsul

RAMİZ MEHDİYEV

ƏLİYEV HEYDƏR
Ə 56 Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 2007, 536 səh.

Müstəqil Azərbaycan dövlətçiliyinin memarı Heydər Əlirza oğlu Əliyevin əsərlərinin oxuculara təqdim olunan bu növbəti cildində Azərbaycanın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, demokratik dövlət quruculuğu sahəsində strateji xəttin reallaşması ilə əlaqədar irəli sürdüyü mülahizələr, eləcə də Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəldilməsinə, dünya dövlətləri arasında özünəlayiq yer tutmasına yönəldilmiş siyasi xətti parlaq əksini tapmışdır.

Kitabda Heydər Əliyevin NATO-nun 50 illik yubileyinə həsr olunmuş Zirvə görüşündə ABŞ prezidenti Bill Klintonla, ABŞ Konqresinin, hökumətinin, Dövlət Departamentinin, nüfuzlu dairələrin nümayəndələri, iri şirkətlərin rəhbərləri ilə görüşləri, dərin məzmunlu danışıqları, dünyanın aparıcı mətbuat orqanlarına və televiziya şirkətlərinə verdiyi dolğun bəyanat və müsahibələri, həmçinin Azərbaycan xalqına müraciətləri, Antalyada qısamüddətli istirahəti zamanı Türkiyə Cümhuriyyətinin dövlət rəhbərləri ilə görüşləri, söhbətləri geniş yer tutmuşdur.

Bütün cildlərdə olduğu kimi bu cilddə də ulu öndərin Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinə aid ATƏT, Avropa Şurası,NATO rəhbərləri ilə görüşləri, bu münaqişə ilə əlaqədar onun prinsipial mövqeyi öz parlaq təzahürünü tapmışdır.

Ə 0801000000
M – 651(07) – 2007

BBK -32

© Azərnəşr, 2007

GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVAYA HƏSR EDİLMİŞ «ZƏRİFƏ XANIM ƏLİYEVA» KİTAB-ALBOMUNUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

Rəşid Behbudov adına
Dövlət Mahnı Teatrı

14 aprel 1999-cu il

Hörmətli xanımlar və cənablar!
Əziz dostlar!

Bu axşam biz burada birlikdə Zərifə xanım haqqında olan kitab-albomun təqdimat mərasimini, eyni zamanda bir xatirə gecəsini yaşadıq.

Bugünkü mərasim məni və ailə üzvlərimi bir daha on dörd il bundan öncə olan günlərə, aylara qaytardı. Nə qədər çox il keçsə də, bizim ailəmiz bu itkinin ağrısını-acısını həmişə hiss edir. Hesab edirəm ki, nəinki biz, mənim nəvələrim də, onların davamçıları da bu hisslərlə yaşayacaq və bizim hamımız üçün əziz, unudulmaz Zərifə xanım həmişə qəlbimizdə yaşayacaqdır.

Zərifə xanım haqqındakı kitab onun şəxsiyyətinə, həyat yoluna, insani keyfiyyətlərinə, mənəviyyatına layiq bir kitabdır. Bu kitabı hazırlayanlara, çapdan çıxaranlara təşəkkür edirəm.

Bugünkü gecə bizim üçün çox təsirlidir, eyni zamanda olduqca maraqlıdır. Bu gecənin hazırlanması böyük incəsənət, mədəniyyət nümunəsidir. Bunun hazırlanması böyük istedad tələb edir. Bu gün biz bu istedadların şahidi olduq. Gecəni

hazırlayanlara və proqramı aparanlara, burada çıxış edənlərin hamısına təşəkkür edirəm.

Bu gün buraya bizim yaxın qohumlarımız, bunlarla bərabər, dostlarımız, xarici ölkələrin Azərbaycandakı səfirləri, elm, mədəniyyət xadimləri, vaxtilə Zərifə xanımla bir yerdə çalışmış, uzun illər dostluq etmiş çox dəyərli insanlar dəvət olunublar. Bu gecədə iştirakımıza görə mən sizin hamınıza təşəkkür edirəm.

Gecənin proqramı xatirə anlayışına uyğundur. Ona görə də bu, qəmli-kədərli bir gecəyə çevrildi. Bəlkə də biz bu hissiyyatları yaşamağımızdan da məmnunuq. Eyni zamanda, hörmətli dostlarımız, qonaqlarımız, bu hissiyyatlarımızı siz bizimlə bərabər yaşadınız. Bunlara görə, bugünkü gecədə iştirak etdiyinizə görə hamınıza təşəkkür edirəm.

Bu gün burada dəfələrlə qeyd olundu ki, Zərifə xanımın ən gözəl xüsusiyyətlərindən biri o idi ki, o, həyatda çox nikbin, şən idi. İnsanlarla çox mehriban münasibətdə olmaq onun üçün əsas şərt idi. O, insanları sevirdi, insanlar da onu sevirdilər. Ona görə də mən bu gecəni bir növ dostluq, birlik gecəsi adlandırıram. Bu, Zərifə xanımın xatirəsinə ən dəyərli bir abidədir. Bu gecədə nə qədər təsirləndinizsə, eyni zamanda mən istəyirəm ki, buranı tərk edərkən şad əhval-ruhiyyədə dağılışasınız.

Sizin hamınıza cansağlığı, həyatınızda səadət, xoşbəxtlik, hər birinizə işlərinizdə uğurlar arzulayıram. Bir daha hamınıza təşəkkür edirəm. Sağ olun.

BAKIDA «KASPİAN-AMERİKAN TELEKOM» (KATEL) AZƏRBAYCAN–AMERİKA BİRGƏ MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

14 aprel 1999-cu il

Hörmətli xanımlar və cənablar!
Hörmətli qonaqlar!

Sizi, Azərbaycanın rabitəçilərini bu gün Bakıda yeni və tam müasir texnikaya, texnologiyaya malik olan telefon stansiyasının açılışı münasibətilə təbrik edirəm.

Son illər Azərbaycanda rabitənin inkişafı sürətlə gedir və aparılan işlər, əldə olunan nəticələr təqdirə layiqdir. Bu işlərdə Azərbaycanın Rabitə Nazirliyi, rabitəçilər xüsusən xarici investisiyadan istifadə edirlər və xarici ölkələrin müvafiq şirkətləri ilə birgə iş görərək uğurlar əldə edirlər, eyni zamanda Azərbaycana qabaqcıl, müasir texnika, texnologiya gətirirlər.

Son 3–4 ilin içərisində Azərbaycanda rabitə tamamilə yeni bir şəkil alıbdır. Bir neçə il bundan öncə insanlar mobil telefonların olmasını və onlardan istifadə edilməsini ancaq düşünə bilərdilər. Bizim vətəndaşlarımız ayrı-ayrı ölkələrdə mobil telefonlardan istifadə edilməsinə əvvəllər həsrətlə baxırdılar. Mobil telefonların Azərbaycana gəlməsi böyük hadisə oldu. Bu telefonlar ilk vaxtlar az bir təbəqəni əhatə edirdi. Ancaq indi mobil telefonlar yayılıb, Azərbaycanda həddindən çox insan bundan istifadə edir. Mobil telefonların imkanları da o qədər artıbdır ki, Azərbaycanın dövlət və özəl televiziyalarında bu telefonlar hər gün təbliğ edilir, reklam olunur.

Bu, sevindirici haldır. Bu, ümumiyyətlə, bizim iqtisadiyyatımızın bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirildiyinə

əyani sübutdur. Bu, Azərbaycanın xarici ölkələrlə səmərəli əlaqə qurmasına əyani sübutdur. Biz bunların hamısını təqdir edirik və gələcəkdə də rabitədə belə yeniliklərin meydana çıxmasını arzulayırıq.

Bu gün burada, telefon stansiyasının açılışında telefon stansiyasına qoyulan sərmayə, onun imkanları, perspektivləri haqqında məlumatlar verildi. Bunlar hamısı çox xoş təəssürat yaradır. Bunun əhəmiyyəti xüsusən ondan ibarətdir ki, Azərbaycanın rabitəçiləri, respublikamızın Rabitə Nazirliyi Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə əməkdaşlıq edirlər. Biz bu əməkdaşlığın yaxşı nəticəsini görürük.

Bu telefon stansiyasının açılışı yeni bir hadisədir. Yəni simsiz telefon Azərbaycanda ilk dəfədir ki, həyata keçirilir və onun da çox gözəl perspektivləri vardır. Güman edirəm ki, biz gələcəkdə bu proqramın, layihənin bütünlüklə həyata keçirilməsinin şahidi olacağıq.

Bugünkü hadisə Amerika–Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdiyini göstərir, eyni zamanda, Azərbaycanın qeyri-neft sektoruna külli miqdarda investisiyanın gəldiyini göstərir. Bilirsiniz ki, ölkəmiz 1994-cü ildən başlayaraq Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının müştərək işlənilməsi üçün dünyanın bir çox böyük şirkətləri ilə müqavilələr bağlayıb və həmin müqavilələri həyata keçirir. Bunların nəticəsində Azərbaycana böyük miqdarda investisiyalar gəlir. Ancaq biz eyni zamanda, Azərbaycanın iqtisadiyyatını, bazar, sərbəst iqtisadiyyatını inkişaf etdirərək, ölkəmizin iqtisadiyyatının, sənayesinin, infrastrukturunun, sosial sahəsinin başqa tərəflərinə də xüsusi fikir veririk və qayğı göstəririk. Bunları inkişaf etdirmək üçün xarici ölkələrin şirkətləri ilə müştərək işlər görülür və ölkəmizə sərmayələr gətirilir. Bir telefon stansiyasının tikilməsi üçün məhz buraya 42 milyon ABŞ dolları dəyərində investisiya gələcəkdir. Bu, sevindirici haldır.

Beləliklə, Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Azərbaycana xarici investisiya təkcə neft sektoruna yox, digər sahələrə də gəlir. Bunlar da Azərbaycanda sərbəst iş görmək, xarici şirkətlərin ölkəmizdə fəaliyyət göstərməsi üçün yaradılmış əlverişli şəraitin olduğunu sübut edir. Bunlar onu göstərir ki, Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik ölkəmizin vətəndaşlarına, sahibkarlara səmərəli iş görmək üçün imkanlar veribdir. Eyni zamanda, ölkəmizdəki ictimai-siyasi sabitlik Azərbaycana xarici investisiyanın gəlməsini əsas şərt olaraq təmin edir.

Bir daha qeyd edirəm, bütün bunlar çox sevindirici haldır. Bildirmək istəyirəm ki, bu işlər Azərbaycanda bundan sonra da sürətlə davam edəcəkdir, Azərbaycanın iqtisadiyyatı gündən-günə inkişaf edəcəkdir, Azərbaycan vətəndaşlarının rifah halı yaxşılaşacaqdır.

Mən Azərbaycanın rabitəçilərini əldə etdikləri müsbət nailiyyətlərə görə və bu gün bu telefon stansiyasının açılışı münasibətilə bir daha təbrik edirəm. Sizə bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

TÜRKİYƏNİN ANADOLU AJANSI MÜXBİRİNİN SUALINA CAVAB

14 aprel 1999-cu il

S u a l: Cənab prezident, Siz Türkiyə dövlətinin ən nüfuzlu mükafatına – «Atatürk beynəlxalq sülh mükafatı»na layiq görülmüsünüz. Sülh uğrunda mübarizə aparan dünya və Azərbaycan gənclərinə nə arzulardınız?

C a v a b: Çox məmnunam ki, mən Mustafa Kamal Atatürk mükafatına layiq görülmüşəm. Mənə bu barədə məlumat verilibdir. Mən çox şadam, məmnunam, təşəkkür edirəm.

Türkiyə və Azərbaycan gənclərinə arzum budur ki, öz cümhuriyyətlərini Mustafa Kamal Atatürk kimi qorusunlar, inkişaf etdirsinlər, daha da yüksəklərə qaldırsınlar. Mən həm Türkiyə Cümhuriyyətinin, həm də Azərbaycan Cümhuriyyətinin daha yüksəklərə qalxmasını arzu edirəm və bütün bu işlərdə gənclərin daha da fəal iştirak etməsini arzulayıram. Fürsətdən istifadə edib, Türkiyə xalqına, vətəndaşlarına öz hörmətimi, sayğımı, məhəbbətimi bildirirəm. Sağ olun.

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

Möhtərəm cənab prezident!
Əziz dostum və qardaşım!

Dünyanın ən nüfuzlu mükafatlarından olan «Atatürk Beynəlxalq Sülh Mükafatı»na layiq görülməyimdən hədsiz şərəf və qürur hissi duyuram. Bu mükafat XX əsrin ən böyük tarixi simalarından biri – Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıdığına görə mənim üçün daha qiymətli və əzizdir.

Əslində bu ali təltif Azərbaycanın istiqlaliyyətinə və dövlətçiliyinə verilən yüksək qiymətdir. Bu sülh mükafatı ilk növbədə Azərbaycan dövlətinin sülhsevər siyasəti, Ermənistan-Azərbaycan hərbi münaqişəsinin sülh yolu ilə həll olunması uğrunda ardıcıl, gərgin fəaliyyətimizlə bağlıdır və o, müstəqil Azərbaycanda əmin-amanlığın, daxili ictimai-siyasi sabitliyin təmin olunmasında əldə edilən nailiyyətlərə obyektiv münasibətin təzahürü kimi qəbul olunmalıdır.

Azərbaycanın xarici siyasətində və ilk növbədə Qafqazda apardığı strateji kursunda böyük Atatürkün «Yurdda sülh, cahanda sülh» prinsipləri gerçəkləşdirilərək daim həyata keçirilir.

Atatürk mükafatı sarsılmaz Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının parlaq ifadəsi olaraq bizim siyasi-iqtisadi və mədəni əlaqələrimizin daha yüksək mərhələyə çatdırılmasını tələb edir. Əminəm ki, üzümüzə gələn əsrdə Türkiyə-Azərbaycan əlaqələri dünyada gedən iqtisadi inteqrasiya proseslərinə öz layiqli töhfəsini verəcəkdir.

Bu mükafat məni, dövlətimizi, xalqımızı Azərbaycanın müstəqilliyini möhkəmləndirməyə, yaşatmağa, onu əbədi etməyə ruhlandırır.

Atatürk mükafatı ilə mənim fəaliyyətimə verilən yüksək qiymətə, mənə, Azərbaycan xalqına göstərilən qayğı, diqqət və ehtiramınıza görə Sizə, cənab prezident, komitə üzvlərinə hədsiz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Böyük öndər Mustafa Kamal Atatürkün şəxsiyyətinə, onun yüksək amallarına və bəşəriyyətə bəxş etdiyi ən dəyərli miras olan Türkiyə Cümhuriyyətinə dərin məhəbbət, hörmət və ehtiramımı ifadə edirəm.

Əziz dostum!

Sizə, qardaş türk xalqına səmimi minnətdarlığımı bildirir, səadət, əmin-amanlıq və tərəqqi arzulayıram.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 aprel 1999-cu il*

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ, ATATÜRK BEYNƏLXALQ SÜLH MÜKAFATI KOMİTƏSİNİN SƏDRİ CƏNAB BÜLƏND ECEVİTƏ

Hörmətli Baş nazir!

«Atatürk Beynəlxalq Sülh Mükafatı»nın mənə verilməsindən həddsiz məmnunam. Bəşəriyyətin ən müdrik siyasətçilərindən olan dahi Mustafa Kamal Atatürkün xatirəsini əbədiləşdirən bu mükafat bütün Azərbaycan xalqı üçün xüsusilə qiymətlidir.

Azərbaycan Respublikasının prezidenti kimi dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi, Ermənistan–Azərbaycan hərbi münaqişəsinin sülh yolu ilə həll olunması yolunda səylərimin, respublikada ictimai-siyasi sabitliyin bərqərar olmasına və bölgədə sülhün, əmin-amanlığın qorunmasına yönələn fəaliyyətimin belə yüksək mükafata layiq görülməsi mənim üçün olduqca xoşdur.

Bu mükafatı Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlığın parlaq təzahürü kimi qəbul edərək əmin olduğumu bildirirəm ki, bu önəmli hadisə ölkələrimizin və xalqlarımızın daha da sıx əməkdaşlığına, regionda sülhün və sabitliyin bundan sonra da möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Hörmətli Baş nazir!

Atatürk mükafatı ilə mənim fəaliyyətimə verilən yüksək qiymətə, mənə, Azərbaycan xalqına göstərilən qayğı və diqqətə görə Sizə və Türkiyənin görkəmli dövlət, elm, ictimai və siyasi xadimlərinin daxil olduğu Atatürk Beynəlxalq Sülh

Mükafatı Komitəsinin üzvlərinə dərin minnətdarlığımı bildirir, qardaş Türkiyə xalqına, onun hər bir vətəndaşına sülh, səadət və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *16 aprel 1999-cu il*

BAKI–SUPSA NEFT KƏMƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

Supsa

17 aprel 1999-cu il

Zati-aliləri, hörmətli Gürcüstan prezidenti Eduard Şevardnadze!

Zati-aliləri, hörmətli Ukrayna prezidenti Leonid Kuçma!

Xanımlar və cənablar, qonaqlar, dostlar!

Mən sizi ürəkdən salamlayıram və bu xoş görüşlə əlaqədar çox böyük sevinc hissi keçirdiyimi bildirirəm. Gürcü xalqına, bütün Gürcüstan vətəndaşlarına səmimi salamımı yetirir, sülh, firavanlıq və tərəqqi arzulayıram.

Bu gün biz tarixi bir hadisənin şahidiyik. Bakı–Supsa neft kəmərinin inşasına dair böyük səmərəli iş başa çatdırılmışdır və biz Azərbaycanın Xəzər nefti yüklənmiş ilk tankerinin dünya bazarlarına yola salınmasını təntənəli şəraitdə qeyd edirik.

Əsrimizin əvvəllərində Bakı–Batumi neft kəməri – Avropada ilk neft kəməri çəkilmişdir. İndi, XX–XXI əsrlərin ayrıcında biz Bakı – Supsa neft kəməri çəkmişik və o, Azərbaycan neftinin dünya bazarlarına ixracını həyata keçirəcəkdir. Bu, Gürcüstanın, Azərbaycanın və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinə daxil olan neft şirkətlərinin birgə səyləri sayəsində mümkün olmuşdur. Bu, 1995–1996–1997-ci illərdə başlanmış səylərimizin məntiqi nəticəsidir. Bu, Azərbaycanda 1994-cü il sentyabrın 20-də Azərbaycan Dövlət Neft Şirkəti

ilə dünyanın 9 ölkəsini təmsil edən 11 ən iri neft şirkətləri arasında imzalanmış «Əsrin müqaviləsi»nin praktiki surətdə həyata keçirilməsidir. 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanması müstəqil Azərbaycanın yeni neft strategiyası və doktrinasının başlanğıcıdır.

Azərbaycan qədim neft və qaz ölkəsidir. 50 il bundan öncə Azərbaycan dünya praktikasında ilk dəfə olaraq dənizin dərinliklərindən sənaye üsulu ilə neft çıxarmağa başlamışdır. 1949-cu ilin noyabrında Xəzər dənizində, Neft Daşlarında güclü neft fontanı vurmuş və bu, dünyaya dənizdə neft hasilatının yeni mərhələsinin başlandığını bildirmişdir.

Bizim zəmanəmizdə Azərbaycan dünyanın bir çox ölkələrinin neft şirkətlərinin iştirakı ilə Xəzər dənizində karbohidrogen xammalı hasilatının təşəbbüsçüsü olmuşdur. 1994-cü ildə imzalanmış «Əsrin müqaviləsi» bu neft doktrinasının həyata keçirilməsinin başlanğıcını qoymuşdur. Bu, asan olmamışdır. Biz müqaviləni imzalamaq, həyata keçirmək üçün böyük sınaqdan çıxmalı, böyük maneələri dəf etməli olmuşuq.

Lakin biz müqavilə imzalandıqdan sonra da böyük çətinliklərlə, hətta faciəli hadisələrlə qarşılaşdıq. Bilin ki, müqavilə imzalandıqdan cəmi bir neçə gün sonra Azərbaycanda ölkəmizin siyasi xadimlərinə qarşı terror aktları keçirildi. Bundan bir neçə gün sonra Azərbaycanda silahlı dövlət çevrilişi cəhdi oldu, onu bəzi ölkələrin xüsusi idarələri və daxili irtica etmişdi.

Ancaq bununla iş qurtarmadı. Bir neçə aydan sonra dövlət çevrilişi cəhdi yenidən təkrar edildi. Sonra bir sıra terror aktları törətməyə cəhd göstərildi. Bütün bunlar məhz onunla bağlı idi ki, müstəqil dövlət olan Azərbaycan müstəqil siyasət aparmağa başlamışdı, Azərbaycan özünün təbii ehtiyatlarından, neft və qaz sərvətlərindən necə istifadə etməyi özü, müstəqil surətdə müəyyənləşdirdi və bunu qərbin neft şirkətləri ilə birlikdə həyata keçirməyi qərara alaraq Azərbaycana və bü-

tün Xəzər hövzəsi məkanına xarici sərmayələrin axınını təmin etmişdi.

Biz bütün çətinlikləri dəf etdik, «Əsrin müqaviləsi» həyata keçirilir. 1997-ci ilin noyabrında biz «Çıraq» yatağmdan ilk nefti çıxartdıq və onu Bakı–Novorossiysk neft kəməri ilə nəql etməyə başladıq. Bu neft kəməri Rusiya Federasiyası ilə Azərbaycan arasında imzalanmış müqavilə əsasında xüsusi olaraq bunun üçün çəkilmişdi.

Lakin biz hələ onda, neftin dünya bazarlarına ixracı marşrutlarını planlaşdırdığımız vaxtlarda qərb marşrutu üzrə alternativ neft kəmərinə malik olmağı lazım bildik. Açığını deyim ki, bu, bəzi dairələrdə, bəzi ölkələrdə böyük narazılıqla, etirazla qarşılandı. Amma biz öz istədiyimizə nail olduq – Gürcüstan ilə Azərbaycan arasında saziş imzalayaraq Bakı – Supsa neft kəmərini layihələşdirməyə başladıq və bu boru kəmərinin praktiki surətdə inşası üçün işləri təşkil etdik.

Bu gün mən son dərəcə sevinc hissi keçirirəm ki, neftin hasilatına və ixracına dair çox böyük proqramı dörd ildən bir qədər artıq müddətdə reallaşdırmağa müvəffəq ola bilmişik.

Təbii ki, bunların hamısı ümumi səylərin nəticəsidir. Əlbəttə, biz 1994-cü ildə ilk müqaviləni imzalayaraq, bu işi dünyanın bir çox neft şirkətləri ilə davam etdiririk. Dünyanın neft şirkətlərinin dəstəyi, Xəzərdəki, Xəzər dənizinin Azərbaycan sektorundakı təbii ehtiyatlara, karbohidrogen xammalına onların böyük marağı, xarici sərmayələr bu layihənin uğurla həyata keçirilməsini təmin edəcəkdir.

1994-cü ilin sentyabrından sonra ötən dövrdə Azərbaycan Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorundakı və Azərbaycan ərazisinin quru hissəsindəki neft və qaz yataqlarının birgə işlənilməsi haqqında daha 15 iri müqavilə imzalamışdır. Bu müqavilələrdə dünyanın 14 ölkəsini təmsil edən 32 iri neft şirkəti iştirak edir. Bu, Xəzər dənizinin təbii ehtiyatlarının istismarı üçün sərmayələr cəlb olunması sahə-

3679

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

sində apardığımız çox böyük işdir. Biz bu təşəbbüsü göstərməklə Xəzər dənizinin başqa sektorlarında da neft və qaz hasilatı işini stimullaşdırdıq. Qazaxıstan, Türkmənistan, Rusiya, İran sektorlarında böyük iş görülür. Bütün bunlar bizi sevindirir, çünki Xəzər dənizində olduqca böyük neft və qaz ehtiyatları var, bunlar bütün Xəzəryanı ölkələr üçün kifayət edər. Hər ölkə öz sektoruna malikdir və Xəzər dənizindəki öz sektorunda ehtiyatların sahibidir. Azərbaycan öz sektorunun hüdudları daxilində fəaliyyət göstərir, Azərbaycan sektorunda böyük neft və qaz ehtiyatları var.

Neft strategiyamızın həyata keçirilməsinə mane ola bilməyən bəzi düşmən dairələr müxtəlif xəbərlər, fikirlər uydurub yaymağa başladılar ki, demə, Azərbaycan Dünya Birliyinə yalan məlumat verib, Xəzər dənizində güman edildiyi qədər neft yoxdur və guya bəzi neft şirkətləri Xəzər dənizinə və xüsusən Azərbaycan sektoruna marağı itirirlər. Bu yalandır, uydurmadır!

Təbii ki, bu yalan informasiyalar ictimai rəyi dəyişdirə bilməz. Lakin aydın olsun deyə bildirmək istəyirəm ki, imzalanmış 16 müqavilə üzrə Azərbaycana təxminən 50 milyard dollar məbləğində sərmayə qoymaq nəzərdə tutulur. Bu müqavilələrin əhatə etdiyi ərazilərdə neftin həcmi 4 milyard tondan 10 milyard tonadək qiymətləndirilir. Lakin bütün bunlar hələ ilkin rəqəmlərdir. Yeri gəlmişkən, bizdə Xəzərdə və quruda öz istismarını gözləyən neft yataqları hələ çoxdur. Yaxın vaxtlarda Amerikanın neft şirkətləri ilə üç iri müqavilə imzalanması nəzərdə tutulur. Bax, bu, bəzi ölkələrin müxtəlif kütləvi informasiya vasitələrində yayılan uydurma xəbərlərə cavabdır.

Beləliklə, 1994-cü ildə başlanmış işlər artıq öz praktiki nəticələrini verir. Bakı-Supsa neft kəməri, burada tikilmiş gözəl terminal, müvəffəqiyyətlə işləmək və nefti fasiləsiz olaraq

vurmaq, onu dünya bazarlarına daşımaq üçün yaradılmış gözəl şərait buna inandırıcı sübutdur.

Bakı – Supsa neft kəməri Gürcüstan ilə Azərbaycan arasında dostluğa, əməkdaşlığa parlaq misaldır. Bizim xalqlarımız həmişə səmərəli və müvəffəqiyyətlə əməkdaşlıq etmişlər. Gürcü və Azərbaycan xalqlarının çoxəsrlik dostluğu bizim əvəzsiz sərvətimizdir. Biz bu dostluğu qoruyur və yeni şəraitdə inkişaf etdirir, genişləndiririk.

Gürcüstanın və Azərbaycanın səmərəli əməkdaşlığına dair misallar çoxdur. Lakin Bakı–Supsa neft kəməri, şübhəsiz ki, indiki mərhələdə bu əməkdaşlığın zirvəsidir.

Bununla yanaşı, əməkdaşlığımızın böyük perspektivi var. Ötən ilin oktyabrında Ankarada biz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşası haqqında bəyannamə imzalamışıq. Bu iş davam edir. Lap bu yaxınlarda, bir neçə gün öncə Amerika Birləşmiş Ştatlarının strateji tədqiqatlar mərkəzi Bakı–Tbilisi–Ceyhan layihəsinin İstanbulda böyük müzakirəsini keçirmişdir. Müzakirədə indi burada olan cənab Morninqstar və cənab Kalitski, Türkiyə və Azərbaycan nümayəndələri iştirak etmişlər. Orada Bakı–Tbilisi–Ceyhan neft kəməri inşasının həyata keçirilməsinə dair konkret praktiki tədbirlər haqqında Türkiyə ilə Azərbaycan arasında protokol imzalanmışdır. Müəyyən edilmişdir ki, Bakı–Tbilisi–Ceyhan layihəsinin həyata keçirilməsinin növbəti mərhələsinə başlamaq üçün bütün texniki və maliyyə məsələləri üç ay ərzində diqqətlə öyrənilməlidir.

Digər mühüm layihə Türkmənistan qazının Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə nəqli barədədir. Bu haqda saziş ötən ilin oktyabrında Türkiyə ilə Türkmənistan arasında imzalanmışdır və layihə indi həyata keçirilir. Bu layihənin həyata keçirilməsində Gürcüstan da, Azərbaycan da mühüm yer tutur.

Bir sözlə, qarşıda böyük işlər durur. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Türkmənistan–Azərbaycan – Gürcüstan–Türkiyə qaz kəməri əməkdaşlığımızı, xüsusən Gürcüstan ilə Azərbaycan arasında əməkdaşlığı təmin edəcək çox iri layihələrdir.

Deməliyəm ki, bütün bu işlərdə biz dostlarımızın dəstəyini, xeyirxah münasibətini görürük. Bu dostların arasında Ukrayna və onun prezidenti çox hörmətli Leonid Daniloviç Kuçma da var. Azərbaycanın, Gürcüstanın Ukrayna ilə əməkdaşlığı, prezident Leonid Daniloviç Kuçmanın bu sahədə fəal səyləri çox mühüm rol oynayır. Bizim səylərimiz sayəsində Xəzər dənizi ilə Qara dəniz iqtisadi cəhətdən birləşir. Qara dənizdə Ukrayna və Gürcüstan, Xəzərdə Azərbaycan, Qazaxıstan, Türkmənistan, Rusiya və digər ölkələr regionumuzun iri layihələrinin həyata keçirilməsi üçün daha sıx birləşməlidirlər.

Bütün bu işlər, indiki halda Bakı–Supsa neft kəməri Qafqazda sabitliyin və sülhün möhkəmlənməsinə mühüm töhfədir. Sülh bizə çox gərəkdir, bizə dinc Qafqaz gərəkdir, bizə sabitlik gərəkdir, biz silahlı münaqişələrə son qoymalı, Qafqaz ölkələri ilə regionumuzu əhatə edən ölkələr arasında ən yaxşı və mehriban münasibətlər yaratmalıyıq. Bununla əlaqədar Bakı- Supsa neft kəməri regionumuzda sabitliyin, sülhün böyük amilidir.

Bütün bu işlərdən danışarkən Xəzər dənizinin karbohidrogen ehtiyatlarından istifadə edilməsinə maraq göstərən dünyanın bir çox ölkələrinin, xüsusən Amerika Birləşmiş Ştatlarının böyük dəstəyini qeyd etməliyəm. Biz 1994-cü ildə «Əsrin müqaviləsi» imzalanarkən aldığımız dəstəyi qiymətləndiririk. Biz Qərb, Bakı–Supsa marşrutunun çəkilişi məsələsinin həlli zamanı aldığımız dəstəyi qiymətləndiririk. Biz indi Bakı–Tbilisi–Ceyhan neft kəmərinin inşası barədə aldığımız dəstəyi qiymətləndiririk. Amerika Birləşmiş Ştatları hökumətinin çox böyük səyləri sayəsində Türkmənistan–Türkiyə Transxəzər qaz kəməri layihəsi reallığa çevrilmişdir. Bu gün biz Amerika

Birləşmiş Ştatlarının prezidenti Bill Klintonun bu təntənəli hadisə ilə əlaqədar təbrik göndərməsindən böyük sevinc hissi keçiririk. Hesab edirəm ki, bütün bunlar Gürcüstanın da, Azərbaycanın da, Ukraynanın da Qərb, Avropa ölkələri ilə, Avropa Birliyi, Amerika Birləşmiş Ştatları ilə əməkdaşlığı üçün yaxşı bünövrə qoymuşdur. Biz buna böyük əhəmiyyət veririk və bu əməkdaşlığın daha uğurlu olması üçün gələcək işlərimizdə bütün tədbirləri görəcəyik.

Əziz dostlar, Gürcüstan prezidentini, dostum Eduard Şevardnadzeni, bütün gürcü xalqını, buraya toplaşan bütün dostları bu əlamətdar hadisə münasibətilə ürəkdən təbrik edirəm. Əziz dostlar, sizə xoşbəxtlik, firavanlıq və yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini «Əsrin müqaviləsi»nin həyata keçirilməsində, Bakı–Novorossiysk və Bakı–Supsa neft kəmərlərinin inşasında nail olduğu gözəl nəticələr münasibətilə təbrik edirəm. Qısa müddətdə çox böyük iş görülmüşdür. Qeyd etməliyəm ki, bizim planlarımıza müqavimət göstərən qüvvələr o vaxtlar deyirdilər ki, bu layihə real deyil, həyata keçirilə bilməz. Bu ilin sentyabrında müqavilənin imzalanmasının beş ili tamam olacaq, amma bir baxın, necə böyük iş görülmüşdür və işin bundan sonra da davam etməsi üçün necə böyük bünövrə qoyulmuşdur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin konsorsiumuna daxil olan bütün şirkətlər və bu şirkətin rəhbərləri çox sağ olsunlar.

Leonid Daniloviç Kuçmanı burada, Gürcüstanda, eyni zamanda Azərbaycanda, - bunun fərqi yoxdur, eyni şeydir, - ürəkdən salamlayıram. Gürcüstanda olmaq həm də Azərbaycanda olmaq deməkdir. Onu salamlayıram və şadam ki, o, bu hadisəyə böyük diqqət göstərmişdir. Şadam ki, Xəzər dənizinin ehtiyatlarından istifadə barəsində Ukraynanın öz planları var. Hesab edirəm ki, Odessa–Brodı və oradan Polşaya çəkiləcək neft kəməri də reallıqdır və biz bu reallığı

nəzərdə tutmalı, onun üzərində işləməliyik. Buna görə də Ukrayna prezidenti hörmətli Leonid Kuçmanın burada olması tamamilə qanunauyğundur və eyni zamanda bizim hamımız üçün fərəhli hadisədir.

Sizin hamınızı ürəkdən təbrik edir və inanıram ki, Bakı – Supsa neft kəməri bütün XXI əsr ərzində yaşayacaq və işləyəcəkdir.

Diqqətinizə görə çox sağ olun, sizin hamınıza möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edirəm.

POTİ–İLİÇOVSK–VARNA BƏRƏ KEÇİDİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

Poti limanı

17 aprel 1999-cu il

Zati-aliləri Gürcüstan prezidenti, hörmətli Eduard Şevardnadze!

Zati-aliləri Ukrayna prezidenti, hörmətli Leonid Kuçma!

Möhtərəm xanımlar və cənablar, dostlar!

Sizin hamınızı əlamətdar hadisə – Poti–İliçovsk–Varna bərə keçidinin açılışı münasibətilə ürəkdən təbrik edirəm.

Poti–İliçovsk bərə keçidi Transqafqaz dəhlizinin mühüm elementi və tərkib hissəsidir. Bu gün TRASEKA planları, TRASEKA proqramının həyata keçirilməsi ilə bağlı olan planlarımız reallığa çevrilir. Mərkəzi Asiyanı Avropa ilə və Avropanı Mərkəzi Asiya ilə birləşdirən Transxəzər nəqliyyat dəhlizindən istifadəyə dair bir neçə il öncə Gürcüstan, Özbəkistan, Türkmənistan və Azərbaycan arasında saziş imzalanmışdır. Sonra həmin sazişə bu magistral boyunca yerləşən digər dövlətlər də qoşulmuşlar.

Ölkələrimizdə bir sıra digər tədbirlər də görülmüşdür və bunlar Qafqazda Şərq-Qərb TRASEKA proqramının həyata keçirilməsini təmin etmişdir. Ötən ilin sentyabrında Bakıda TRASEKA proqramına dair, böyük tarixi İpək yolunun bərpasına dair beynəlxalq konfrans keçirilmişdir. Bu gün biz hamımız ona səfərbər edilmişik ki, TRASEKA proqramı, tarixi İpək yolunun bərpası proqramı reallaşsın, çünki bu, ölkə-

lərimizin hamısına böyük iqtisadi fayda gətirir. Odur ki, Poti-İliçovsk bərə keçidinin – Ukrayna ərazisi ilə, Qara dəniz, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan vasitəsilə və buradan o yana yüklərin Qərbdən Şərqə, Şərqdən Qərbə müvəffəqiyyətlə hərəkətini təmin edəcək keçidin yaradılması bizim planlarımızın son dərəcə mühüm vəsiləsidir, böyük İpək yolunun bərpası proqramının mühüm vəsiləsidir.

Biz Azərbaycanda buna böyük əhəmiyyət veririk, Trans-xəzər dəhlizinin səmərəli inkişafına kömək üçün hər şey edirik və bu nəqliyyat dəhlizinin imkanlarını genişləndirmək və yüklərin Qərbdən Şərqə, Şərqdən Qərbə daha fəal hərəkətini təmin etmək üçün bundan sonra da hər şey edəcəyik.

Şadam ki, bu gün mənə bu təntənəli tədbirdə iştirak etməyə imkan verilmişdir. Gürcüstan prezidenti hörmətli Eduard Şevardnadzeni, Ukrayna prezidenti hörmətli Leonid Kuçmanı, Avropa Birliyinin, Şərq-Qərb nəqliyyat dəhlizinin həyata keçirilməsində iştirak edən bütün ölkələrin burada olan nümayəndələrini təbrik edirəm və hamıya tərəqqi və uğurlar, bu böyük proqramın inkişafı naminə yeni-yeni xarüqələr arzulayıram.

Poti-İliçovsk bərə keçidi proqramının həyata keçirilməsinin bütün iştirakçılarına təşəkkür edir və hörmətli dostlar, sizin hamınıza yeni nailiyyətlər, yeni uğurlar arzulayıram. Diqqətinizə görə sağ olun.

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

Hörmətli cənab prezident, əziz dost!

Mən Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılmasında irəliləyiş olmaması ilə əlaqədar keçirdiyim dərin narahatlığı Sizə bildirmək istərdim. Azərbaycanın ərazi bütövlüyü əvvəlki kimi pozulmuş olaraq qalır, Azərbaycan torpaqlarının 20 faizi hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, doğma yerlərindən zor gücünə qovulmuş bir milyon azərbaycanlı qaçqın beş ildir ki, böyük məhrumiyyətlər içərisindədir. Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələri yerinə yetirilmir.

Məlum olduğu kimi, münaqişənin sülh yolu ilə aradan qaldırılması məqsədi ilə 1992-ci ilin mayında ATƏT-in Minsk qrupu yaradılmış və gələcək sülh konfransının mandatı müəyyən edilmişdir. Konfransda Ermənistan və Azərbaycan münaqişədə iştirak edən tərəflər kimi, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları isə maraqlı tərəflər kimi tanınmışlar. Buna baxmayaraq, Ermənistan Respublikasının Azərbaycana qarşı 1988-ci ildə başlanmış təcavüzü davam etdirilmiş və Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti ilə yanaşı, daha yeddi iri rayonu işğal edilmişdir.

Ötən yeddi il ərzində Minsk qrupu çərçivəsində effektli danışıqlar prosesi yaradılması üçün çox səylər göstərilmişdir. Amma Ermənistan Respublikasının pozucu mövqeyi ilə əlaqədar olaraq danışıqlar daim düyünə düşmüş və heç bir müsbət nəticə verməmişdir.

Münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün bizim göstərdiyimiz səylər və bu səylərin Minsk qrupu tərəfindən dəstəklənməsi nəticəsində 1994-cü ilin may ayında atəşkəs əldə edilmişdir və indiyədək davam edir. Sülh sazişi imzalandıqdan sonra regiona daxil olub silahlı münaqişənin nəticələrinin aradan qaldırılmasını təmin etməli olan çoxmillətli beynəlxalq qüvvələrin yaradılması haqqında 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt sammitində çıxarılmış qərar, habelə 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitinin münaqişənin aradan qaldırılmasının beynəlxalq hüquqi bazasını müəyyən etmiş qərarları Ermənistan–Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq üçün son dərəcə vacib olan böyük siyasi nailiyyət sayıla bilər. Lakin Ermənistan Respublikası tərəfindən davam etdirilən obstruksiya və ATƏT-in onu yola gətirməyə qadir olmaması nəticəsində həmin sammitlərin qərarları yerinə yetirilməmişdir.

Məlum olduğu kimi, 1997-ci il iyunun 1-də Rusiyanın, ABŞ-ın və Fransanın timsalında ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin aradan qaldırılmasının Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən – silahlı münaqişənin dayandırılması və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar hissələrdən ibarət hərtərətli sazişin layihəsini təqdim etmişdilər. Azərbaycan tərəfi həmsədrlərin bu təkliflərini qəbul etdiyi halda, Ermənistan həmin təkliflərlə qətiyyən razılaşmadığını bildirmişdir. Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımaq istəmədiyinə görə, habelə Minsk konfransı çağırılmamış ilkin mərhələdə Dağlıq Qarabağın statusunu müəyyənləşdirməyin yolverilməzliyini bəhanə gətirərək Ermənistan həmsədrlərin təkliflərini rədd etmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1997-ci il iyunun 20-də ABŞ-da məşhur Denver görüşü zamanı Rusiyanın, ABŞ-ın və Fransanın prezidentləri xüsusi bəyanatda həmin təklifləri dəstəklədiklərini bildirmişlər.

1997-ci il sentyabrın 19-da Minsk qrupunun həmsədrləri münaqişənin mərhələlərlə aradan qaldırılmasını nəzərdə tutan yeni

təklif, Lissabon sammitindən sonra ikinci təklif irəli sürmüşlər. Həmin təklifə uyğun olaraq birinci mərhələdə, Laçın rayonu istisna olmaqla, Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarından kənarda yerləşən altı işğal olunmuş rayonunun azad edilməsi, ATƏT-in sülhü qorumağa yönəlmiş əməliyyatının həyata keçirilməsi, qaçqınların azad edilmiş ərazilərə qaytarılması, habelə müharibə nəticəsində dağılan, Ermənistanın və onun tərəfindən işğal olunmuş Dağlıq Qarabağın həyat fəaliyyəti üçün zəruri olan kommunikasiyaların bərpa edilməsi nəzərdə tutulurdu. Bundan sonra ikinci mərhələdə tərəflər silahlı münaqişənin nəticələrinin aradan qaldırılmasının ardınca Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi Dağlıq Qarabağın statusunu müəyyənləşdirməklə və onun təhlükəsizliyi üçün tədbirlər görməklə məşğul olmalı idilər.

1997-ci il oktyabrın 10-da Strasburqda Azərbaycan və Ermənistan iki ölkənin prezidentləri səviyyəsində 1997-ci ilin 19 sentyabr tarixli təklifləri əsasında danışıqlar prosesini davam etdirməyə razılıq vermişdilər ki, bu da münaqişənin ədalətlə aradan qaldırılmasına nail olmaq üçün danışıqlar prosesinin müvəffəqiyyətinə ümid etməyə imkan verirdi. Amma sonradan Ermənistanın prezidenti Levon Ter-Petrosyanın istefa verməsi və Ermənistanın yeni rəhbərliyinin öz mövqeyini sərtləşdirməsi bu ədalətli təməl üzərində danışıqların davam etdirilməsi imkanını puça çıxartdı.

Minsk qrupu həmsədrlərinin təmsilçiləri uzun sürən fasilədən sonra, görünür, danışıqlar prosesini yenidən canlandırmaq istəyi ilə 1998-ci il noyabrın 9-da Azərbaycan tərəfini çox məyus edən və danışıqların davam etdirilməsinə imkan yaratmayan sayca üçüncü təklifi irəli sürmüşlər. Bu təklif dünya praktikasında mövcud olmayan «ümumi dövlət» ideyasına əsaslanırdı və ATƏT-in iki sammitinin təsdiq etdiyi qərarlardan və prinsiplərdən irəli gələn əvvəlki mövqedən geri çəkilməkdən başqa bir şey deyildi. Bu təkliflər əslində Dağlıq Qarabağı respublika

formasında dövlət ərazi qurumu kimi ayırır və ona uydurma «ümumi dövlət» çərçivəsində Azərbaycan ilə bərabər status verirdi. Həm də bu «ümumi dövlət»in Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində yaradılmalı olduğuna istinad edilməsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü üçün təminat yaratmır, əslində bunları pozur.

Mən belə hesab edirəm ki, vasitəçilərin düşünülməmiş hərəkətləri, şübhəsiz, nizamasalma prosesinə ciddi ziyan vurmuş və onu dala salmışdır. Bu da bizdə dərin təşviş və narahatlıq doğurur, xüsusən ona görə ki, bizim dəfələrlə bəyan etdiyimiz kimi, Rusiya Federasiyası Ermənistan Respublikasını ciddi-cəhdlə silahlandırmaqda davam edir, Ermənistana qanunsuz yollarla 1 milyard ABŞ dolları dəyərində Rusiya silahları verilməsinin ardınca ona MİQ-29 təyyarələri və S-300 raketləri göndərilməsi buna aydın sübutdur.

Mənim əqidəmcə, həmsədrlər qətiyyət göstərməsələr, ABŞ, Rusiya və Fransa rəhbərliyi tərəfindən fəal tədbirlər görülməsə, Ermənistan – Azərbaycan münaqişəsinin ədalətlə aradan qaldırılmasına nail olmaq mümkün deyildir. Lissabon sammitinin dünyanın 53 dövləti tərəfindən lehinə səs verilmiş üç prinsipinə sədaqət göstərilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bunları nəzərə alaraq, hörmətli cənab prezident, mən Sizə həm də ATƏT-in Minsk qrupunun həmsədri olduğunuza görə müraciət edirəm və təkidlə xahiş edirəm ki, getdikcə uzanan, Avropada sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olan bu münaqişənin Lissabon sammitinin prinsiplərini həyata keçirərək tezliklə aradan qaldırılması üçün şəxsi fəaliyyətinizi, habelə ölkənizin xarici siyasət idarəsinin işini gücləndirəsiniz.

Səmimiyyətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *20 aprel 1999-cu il*

FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRİ JAN PYER GİNYUT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

Prezident sarayı

20 aprel 1999-cu il

J a n P y e r G i n y u t: Cənab prezident, Sizinlə görüşdən şərəf duyduğumu bildirirəm. Vaxt tapıb məni qəbul etməyiniz bizim fəaliyyətimiz üçün böyük dəstəkdir. Bilirəm ki, vaxtınız çox məhduddur, ona görə də çalışacağam ki, bir sıra məsələlər barədə Sizə qısa məlumat verim.

Cənab prezident, Fransa prezidentinə Ermənistan–Azərbaycan münaqişəsinin həlli ilə bağlı yazdığımız məktuba cənab Jak Şirak cavab göndərmişdir. İcazə verin həmin məktubu Sizə təqdim edim. Cənab Jak Şirak Sizin məktubunuzu çox diqqətlə öyrənibdir. Mən dəqiq bilirəm ki, Sizin məktubunuza cavabında Jak Şirak bir çox yerləri öz əli ilə düzəldib, öz fikirlərini, sözlərini yazıbdır. Bu, bizim üçün çox böyük əhəmiyyətə malikdir. Prezident Jak Şirak bu cavab məktubunda Sizin narahatlığınıza şərik olduğunu bildirmişdir.

Cavab məktubunda prezident Jak Şirak Sizi əmin edir ki, Ermənistan–Azərbaycan münaqişəsinin həllində o, həmişə fəal iştirak edəcəkdir. Cənab Şirak belə hesab edir ki, Azərbaycanın mövqeyinə çox ciddi münasibət göstərmək, onu nəzərə almaq lazımdır. Ona görə də o bildirir ki, Azərbaycanın son dəfə qəbul etmədiyi və rədd etdiyi təkliflərin üzərinə bir də qayıtmağa ehtiyac yoxdur. Cənab Şirak belə hesab edir ki, indi, prosesin davam etmədiyi bir vaxtda bu mövqe

üzərində dayanmaq mümkün deyildir. Bununla əlaqədar olaraq o öz məktubunda bu münaqişənin həlli ilə bağlı ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş hər üç prinsipə tamamilə tərəfdar olduğunu bir daha bildirmişdir.

Cənab prezident, Siz həmin məktubda görəcəksiniz ki, prezident Jak Şirak həm də azərbaycanlı qaçqınların Dağlıq Qarabağa, öz evlərinə qayıtması məsələsində təkid edir. Bu elə bir prinsipdir ki, bu barədə ilk dəfə 1997-ci ildə Fransanın xarici işlər naziri Sizə öz fikrini bildirmişdi. Ümumiyyətlə, Fransa Sizin mövqeyinizdə bu amili də çox qəti dəstəkləyir. Fransa prezidenti Sizin bu sahədəki fəaliyyətinizə və Ermənistanla Azərbaycan arasındakı siyasi əlaqələrə çox böyük əhəmiyyət verir.

Cənab Şirak Bakıdakı binalardan birinin qarşısına general Şarl de Qollun xatirə lövhəsinin vurulması barədə Sizin sərəncamınızı çox yüksək qiymətləndirir.

Cənab prezident, mən bir daha bildirirəm ki, prezident Şirak Ermənistan–Azərbaycan münaqişəsinin həll edilməməsi ilə bağlı Sizin narahatlığınıza şərik çıxır. O, bu münaqişənin həllində və Azərbaycan – Fransa əlaqələrinin daha da möhkəmləndirilməsində fəallığın artırılmasının vacib olduğunu bildirir.

Heydər Əliyev: Sağ olun, təşəkkür edirəm. Prezident cənab Şirakın mənə göndərdiyi məktuba görə də təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürümü prezident Jak Şiraka çatdırasınız.

Bildiyiniz kimi, həm cənab Şiraka, həm cənab Klintona, həm də cənab Yeltsinə göndərdiyim məktublarda bəhs etdiyim bu məsələ bizim üçün ən vacib məsələdir. Ermənistan – Azərbaycan münaqişəsinin həlli, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi qarşımızda duran ən əsas, ən böyük vəzifədir.

Fransa 1997-ci ildən Minsk qrupunun həmsədrlərindən biri kimi fəaliyyətə başlayandan bəri biz cənab Jak Şirakla çox səmərəli əməkdaşlıq edirik. Ancaq mən məktubumda göstərdiyim kimi, son vaxtlar, xüsusən 1998-ci ildə və 1999-cu ilin qış aylarında ümumiyyətlə, Minsk qrupu həmsədrlərinin fəaliyyəti çox zəifləyibdir, məsələ çox ləngiyir. Ona görə də mən narahatçılığımı bildirərək prezident Jak Şiraka, prezident Bill Klintona, prezident Boris Yeltsinə bu məktubları göndərmişdim.

Mən prezident cənab Şirakın cavab məktubunu diqqətlə oxuyacağam. Ancaq bu məktubun məzmunu barədə Sizin verdiyiniz məlumatlar məni məmnun edir. Qeyd etmək istəyirəm ki, 1997-ci ilin yanvar ayında Parisdə prezident Jak Şirakla mənim görüşüm zamanı biz bu məsələni çox ətraflı müzakirə etmişdik. Mən cənab Jak Şirakın ondan sonrakı dövrdə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi məsələsinə olduqca böyük qayğı göstərdiyini yaxşı bilirəm. Cənab Şirakın bu barədə çox aydın, dəqiq və obyektiv mövqeyi məni həmişə məmnun edibdir. Sizin məlumatınızdan bir daha hiss etdim ki, bu məktubunda da prezident Jak Şirak həmin mövqeyində, yəni məsələnin obyektiv, ədalətli həll edilməsi mövqeyində durur. Bu, bizə yeni ümidlər verir.

Belə hesab edirəm ki, mənim məktubuma prezident Bill Klintonun, prezident Jak Şirakın, prezident Boris Yeltsinin verdiyi cavablarda əks olunmuş fikirlər sülh, danışıqlar prosesini gücləndirməyə kömək edəcəkdir. Biz danışıqlar prosesini gücləndirərək, sürətləndirərək münaqişənin tezliklə həll edilməsinə çalışacağıq.

Bu gün bir daha bəyan edirəm ki, biz münaqişənin tezliklə sülh yolu ilə, ədalətli həll olunmasını istəyirik. Mən yaxın vaxtlarda Vaşinqtonda olduğum zaman da bu məsələni ətraflı müzakirə edəcəyəm. Mənim Ermənistan prezidenti Pobert

Koçaryanla ikitərəfli görüşüm olacaqdır. Ümidvaram ki, Vaşinqtonda biz cənab Jak Şirakla da görüşə biləcəyik. Beləliklə, indi bu məsələnin həll olunması üçün ciddi addımlar atılması barədə yeni bir imkan yaranır.

Bir daha xahiş edirəm, prezident Jak Şiraka mənim təşəkkürümü çatdırasınız, ona bildirəsiniz ki, bu münaqişənin həll edilməsində onun gələcəkdə də fəal olmasını istəyirəm. Biz onun fəaliyyətinə ümidlər bağlayırıq.

RUSİYA PREZİDENTİNİN YUQOSLAVİYADA BÖHRANIN ARADAN QALDIRILMASI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ VİKTOR ÇERNOMIRDİN VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

20 aprel 1999-cu il

Heydər Əliyev: Hörmətli Viktor Stepanoviç, hörmətli qonaqlar, sizi Azərbaycanda, Bakıda salamlamağa şadam, bizə xoş gəlmisiniz. Təbiidir ki, mən həm Rusiya üçün, həm də Azərbaycan üçün qarşılıqlı maraq doğuran məsələləri müzakirə etməyə şadam.

Viktor Çernomırdin: Sağ olun, Heydər Əliyeviç. Mən Sizə səmimi qəlbdən minnətdaram ki, Siz görüşməyə macal tapdınız. Çünki bu görüş hər cür planlardan kənardır və ancaq razılaşma əsasında keçirilir. Buna görə də hər şeydən öncə Sizə təşəkkür etmək və prezident Boris Nikolayeviç Yeltsindən çox böyük salamı, habelə onun kiçik bir məktubunu yetirmək istərdim. Məktubda o, səfərimizin əsas məqsədini şərh etmişdir.

Heydər Əliyeviç, Sizinlə burada, Bakıda görüşmək mənə bir daha çox xoşdur. Bir daha deyə bilərəm ki, burada çox illər keçirdiyimə görə ürəyim bir qədər qövr etdi. Əslinə qalsa, o keçmiş illərdə mən Azərbaycanın neft məsələləri ilə bağlı azacıq iş görmüşdüm. Mən çox razıyam ki, bizim o əməyimiz hədər getmədi. Neft sənayesi yaşayır və yaşayacaqdır. Mən

şadam və Azərbaycanın neft sənayesində nələr baş verdiyini həmişə izləyirəm. Ümidvaram ki, bizdən əvvəl başlanmış işləri biz əslində davam etdirmişik. Biz Artur Rasizadə ilə ötən illərimizi xatırladıq. Mən çox şadam ki, Azərbaycan bu gün də bütün neft işləri sahəsində ön sıradadır.

Heydər Əliyeviç, bizim səfərimiz qeyri-adi, plandan kənardır və ilk növbədə və ancaq Balkan böhranı ilə bağlıdır. Prezident mənə bu problemlə məşğul olmağı tapşırıb, indi mən məhz bu problem üzrə xüsusi müvəkkiləm. Bu problem nəinki və əsasən Rusiya üçün, eləcə də bizim hamımız üçün, dünya üçün çox əhəmiyyətlidir. Bu gün Balkan yarımadasında, Avropanın mərkəzində baş verən bütün hadisələr hər halda təhlükəli nümunədir. Bu gün əslində biz hamımız təhlükəli vəziyyətlə qarşılaşmışıq. Buna görə də hesab edirəm ki, hamının ümumi vəzifəsi bu problemin həlli yolunu tapmaqdan ibarətdir.

Mən bir neçə gündür işləyirəm. Biz prezidentin rəhbərliyi ilə işləyir, həmin problem barəsində hökumətin mövqeyini, Rusiyanın mövqeyini işləyib hazırlayırıq. Odur ki, harasa getməzdən, Balkan yarımadasında görüşlər keçirməzdən və ya başqaları ilə görüşməzdən qabaq mən prezidentə əvvəlcə öz yaxın adamlarımızla görüşməyi təklif etdim.

Buna görə də dünən mən İslam Əbdüqəniyeviç Kərimovla çox uzun və ətraflı söhbət etdim. Eduard Şevardnadze ilə danışdım, bu gün biz onun yanında idik. İndi isə Sizin yanınızdayıq. Buradan Ukraynaya getmək istəyirəm. Sonra isə digər yerlərə planlaşdırılmış səfərlər başlanacaqdır.

Mən hesab etmişəm və edirəm ki, Rusiyanın mövqeyi, Sizin mövqeyiniz, başqalarının mövqeyi çox mühüm mövqedir. Çox vacibdir ki, biz gərək belə münaqişələrin həlli mexanizmini tapaq. Bu gün dünyada 100-dək, bəlkə bundan da çox münaqişə var. Onların mənşəyinin təbiəti əslində eynidir – bu gün çox parlaq təzahür edən separatizm. Onu dayan-

dırmaq lazımdır, yoxsa dönməz proseslər başlanacaqdır. Buna isə yol vermək olmaz.

Bizim Rusiyada Çeçenistanla bağlı olmuş problemlər, burada Dağlıq Qarabağ problemi, Abxaziya problemi, başqa yerlərdəki problemlər, Türkiyədəki, Yunanıstandakı, Kiprdəki problemlər – bu sadalamanı davam etdirmək olar. Əslinə qalsa, bütün bu məsələlər məhz həmin problemlə bağlıdır və bir yol tapmaq lazımdır. Ona görə də bizim fikrimizcə, Rusiyanın mövqeyi ondan ibarətdir ki, o, problemin həllində vasitəçi və ancaq vasitəçi kimi iştirak edəcəkdir. Vəssalam. Lakin əgər bu problemi həll etmək məqsədi ilə biz hamımız öz səylərimizi birləşdirsək, onda istərdik ki, bir nəticə olsun. Buna görə də problemin həllinin hansısa ümumi prinsiplərini, yollarını təklif edəcəyimizə çox ümid bəsləyirəm. Biz bu prinsipləri bütün tərəflərə – Yuqoslaviyaya da, NATO ölkələrinə də çatdıracağıq. Biz hesab edirik ki, bu, çıxılmaz vəziyyətdir. Bu gün gedən dağıdıcı proseslər, endirilən raket-bomba zərbələri münaqişənin həllinə gətirib çıxarmayacaq, əksinə, vəziyyəti ancaq mürəkkəbləşdirəcəkdir. Hesab edirik ki, bunu dayandırmaq və bu prosesin həllinə başlamaq lazımdır. Bizim fikrimizcə, adamları öz yerlərinə qaytarmaq, bundan ötrü onlara şərait yaratmaq lazımdır. Yəni əslində, minlərlə insanın müsibətlərinə və kədərinə səbəb olan dağıdıcı prosesi dayandırmaq gərəkdir.

Heydər Əliyeviç, bax, buna görə də mənim deyəcəyim başqa məsələlər yoxdur. Sizin rəyinizi, Sizin məsləhətinizi, Sizin fikrinizi eşitmək istəyirəm. Bu bir həftədə mən bir çox dövlətlərin, o cümlədən NATO-ya daxil olan dövlətlərin rəhbərləri ilə danışmışam. Məndə elə təsəvvür var ki, bu gün hamı başa düşür ki, bu böhranın həlli yolunu tapmaq lazımdır. Amma yəqin ki, istəklə yanaşı, tədbirlər və hərəkətlər də gərəkdir. Sizin yanınıza gəlməkdə əsas vəzifəmiz, əsas məqsədimiz, bax, bundan ibarətdir.

Heydər Əliyev: Mən hər şeydən öncə çox böyük məmnunluq duyuram ki, siz Azərbaycana, Bakıya gəlmisiniz. Xatirinizdədirmi, Rusiya Federasiyası hökumətinin sədri vəzifəsində fəaliyyət göstərdiyiniz dövrdə biz sizi Azərbaycana dəfələrlə dəvət etmişdik, amma arzularımızı həyata keçirmək heç cür mümkün olmurdu, - siz məşğul idiniz, - bizim isə sizinlə görüşməyə böyük ehtiyacımız vardı. Xüsusən də ona görə ki, Azərbaycan, Bakı sizin üçün müəyyən dərəcədə doğma bir yerdir, çünki keçmişdə siz Sovetlər İttifaqının naziri işləyərkən neft və qaz problemləri ilə, - o cümlədən Azərbaycanda, - çox fəal məşğul olurdunuz. Keçmişdə, öz elmi əsərləriniz üzərində işlədiyiniz dövrdə alimlərimizlə sizin əlaqələriniz bizə yaxşı məlumdur. Buna görə də sizin Azərbaycana gəlməyiniz sizin üçün də, bizim üçün də hər cəhətdən çox zəruri idi.

İndi bu yeni vəzifənizlə əlaqədar buraya gəlməyiniz də Sizin burada olmağınız, hərçənd qısa müddətdə olmağınız üçün imkandır və biz sizi Azərbaycanda, Bakıda gördük. Odur ki, sizi məhz bununla əlaqədar salamlayıram.

Konkret olaraq haqqında danışdığınız məsələyə gəldikdə, mən nə deyə bilərəm? Bizim ölkəmiz münaqişədən və separatizmdən, ədalətsizlikdən hamıdan çox əziyyət çəkir. Hələ 11 il bundan əvvəl Azərbaycanda münaqişə – Dağlıq Qarabağla bağlı olan və Azərbaycan ərazisinin bir hissəsinə göz dikən Ermənistan tərəfindən törədilmiş münaqişə başlandıqda, adamlar və dövlət xadimləri, o cümlədən və ələlxüsus Sovetlər İttifaqının rəhbərliyi çox uzaqgörməz oldular. Çox uzaqgörməz. Onlar görə bilmədilər ki, o vaxtlar təkcə Sovetlər İttifaqı məkanında deyil, həm də dünyada birinci olan bu münaqişə çox ağır nəticələrə gətirib çıxara bilər. Çünki separatizm çox yoluxucu təzahürdür. Əgər separatçılar bir yerdə nəyəsə nail ola bilirsə, eynilə bu cür əhval-ruhiyyəli, eynilə bu cür niyyətli adamlar digər yerdə də baş qaldırırlar.

Odur ki, separatizm barəsində Dünya Birliyində vahid mövqe olmalıdır. Mən bu məsələ ilə artıq bir çox illər məşğul olaraq yəqin etmişəm ki, bu məsələ, deyək, bu və ya digər böyük ölkənin maraqlarına toxunmadıqda, onlar bundan yan keçir, sanki deyirlər, «bu, bizim işimiz deyil, qoy başqaları məşğul olsunlar». Buna görə də o vaxt Sovetlər İttifaqı rəhbərliyinin, o cümlədən SSRİ-nin o zamankı rəhbəri şəxsən Qorbaçovun buraxdığı səhv Azərbaycana da, Ermənistana da, bütün Qafqaza da, - məgər təkcə Qafqazamı? – çox baha başa gəldi. Çünki bu, zəncirvari bir reaksiya kimi yayıla-yayıla getdi. Bundan sonra keçmiş Sovetlər İttifaqı məkanında abxaz-gürcü münaqişəsi, osetin münaqişəsi, Çeçenistan münaqişəsi, Moldovada münaqişə başlandı, bu yandan da Yuqoslaviya münaqişəsi və bir çox başqaları. Ona görə də bizim buna münasibətimiz tamamilə aydındır – separatizmə yer olmamalıdır. Amma burada hamı vahid mövqe ilə çıxış etməli və elə olmamalıdır ki, bu separatizmə qarşı çıxmaq lazımdır, başqa separatizmə isə göz yummaq və ya onu hətta təşviq etmək və ona kömək etmək olar.

Ona görə də biz bundan çox əziyyət çəkirik. Bax görürsünüzmü, indi Kosova hadisələri, Yuqoslaviya hadisələri bütün dünyanı həyəcana gətirmişdir. Bir fikir verin, bu işə nə qədər ölkə, nə qədər qüvvə cəlb edilmişdir. Əlbəttə, Azərbaycan prezidenti olaraq istəyirəm ki, bu məsələ ədalətlə, dinclikle, bütün beynəlxalq hüquq normalarına əsasən həll edilsin. Bununla bərabər, belə bir hiss keçirirəm – nə üçün neçə illərdir biz öz münaqişəmiz barədə, yəni Ermənistanla Azərbaycan arasında münaqişə barəsində haray qaldırdığımız halda, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildiyi halda, Azərbaycanın 7–8 milyon əhalisindən bir milyonu neçə illərdir öz doğma yerlərindən didərgin salındığı və çadırlarda, çox ağır şəraitdə yaşadığı halda Dünya Birliyi, böyük dövlətlər indiyədək bizim müna-

qişəmizə lazımi diqqət yetirməmişlər. Yeri gəlmişkən, diqqət yetirmədilər və öz səhvlərinin, belə münaqişələrə, xüsusən burada, Qafqazda Ermənistanla Azərbaycan arasında gedən münaqişəyə öz etinasız münasibətinin bəhrələrini görürlər.

Təkrar edirəm, mən istəyirəm ki, Yuqoslaviya münaqişəsi ədalətlə, dinclikle və ona cəlb olunmuş bütün tərəflərin mənafeyinə uyğun həll edilsin. Bununla bərabər, sözün düzü, həmişə peşmançılıqla, təəssüflə düşünürəm: nə üçün bizim regiona belə maraq yoxdur? Nə üçün Dünya Birliyi, böyük dövlətlər, o cümlədən Rusiya və digər Avropa dövlətləri, Amerika Birləşmiş Ştatları – hamı indi onunla məşğul olur, buna nə qədər vəsait sərf edirlər? Niyə buradakı münaqişəni aradan qaldırmaq, burada haqq-ədalətə nail olmaq üçün tədbirlər görmədilər?

Bütün bunlar bu məsələyə mənim ilk reaksiyamdır – deyərdim ki, ağrılı-acılı reaksiyamdır, ona görə ki, mənim dərdim, xalqımın dərdi haradasa Kosovada, başqa yerlərdə olan dərdlərdən daha ağırdır.

Atəşkəs haqqında saziş bağlamağımızın may ayında beş ili tamam olur. Sazişi ondan ötrü bağladıq ki, atəş olmasın, müharibə olmasın, qan tökülməsin, məsələ sülh yolu ilə həll edilsin. Amma heç cür həll olunmur. Təsəvvür edirsinizmi, atəşkəs haqqında saziş bağlandığı vaxtdan beş il ötür, oradan olan köçkün insanlar isə öz yerlərini hələ xeyli əvvəl tərk etmək məcburiyyətində qalmışdılar. Onlar altı, yeddi ildir çadırlarda yaşayırlar. Amma məsələ həll edilmir.

Yeri gəlmişkən, Minsk qrupu, Minsk konfransı ATƏT-in qərarına əsasən bu məsələ ilə məşğul olmalıdır. Amma pis məşğul olur. Viktor Stepanoviç, siz 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə çox fəal iştirak etdiniz. Yadınızdadırmı, biz sizinlə necə fəal əməkdaşlıq edirdik? Mən şəxsən sizə və bütün Rusiya nümayəndə heyətinə təşəkkür edirəm ki, o vaxt Rusiya nümayəndə heyətinin rəhbəri kimi siz Rusiya-

nın adından düzgün, prinsipial mövqe tutmuşdunuz. Ermənistanın pozucu mövqeyi qərar qəbul etməyə imkan vermirdi. Lakin o vaxt siz və Lissabon zirvə görüşünün digər iştirakçıları – Ermənistan istisna olmaqla, 54 dövlətdən 53-ü Ermənistanla Azərbaycan arasında münaqişənin dincliklə nizama salınması üçün orada qəbul edilmiş prinsiplərə səs verdiniz. Bu fürsətdən istifadə edərək, o vaxt bizimlə fəal əməkdaşlığa görə, Rusiya Federasiyası adından tutduğunuz düzgün, çox doğru, ədalətli mövqeyə görə sizə bir daha təşəkkür etmək istəyirəm. Əslində, sizin bu mövqeyiniz Ermənistan–Azərbaycan münaqişəsinin dincliklə nizama salınmasının prinsiplərini müəyyənləşdirmiş həmin sənədin qəbul olunmasına kömək etdi, çox mühüm kömək etdi.

Lakin ondan sonra iki ildən çox vaxt ötsə də, bu prinsiplər həyata keçirilmir. Ermənistan pozucu mövqe tutur, Minsk konfransının həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa isə heç nə edə bilmirlər. Ermənistan istəmir – odur ki, heç kim heç nə edə bilmir. İndi də hər dəfə bizə deyirlər ki, gedin, Ermənistanla özünüz razılığa gəlin. Əgər Ermənistanla razılığa gəlmək mümkün olsaydı, onda Minsk konfransı nəyə gərək idi, nəyə gərək idi ki, dünyanın üç böyük dövləti bu məsələnin tənzimlənməsi üzrə Minsk konfransının həmsədrləri olsunlar? Həmsədr olmağına oldular, böyük dövlətlər çox geniş imkana, hər şeydən çox böyük təsirə malikdirlər, məsələ isə həll edilmir.

Buna görə də mənim, necə deyərlər, ürəyim ağrıyır, bütün bunlardan ürək ağrısı ilə danışıram, çünki görürəm ki, hansısa digər münaqişə ilə məşğul olurlar, bu işə bütün dünya cəlb edilmişdir, bizim münaqişə isə artıq unudulmuşdur, onunla heç kim məşğul olmaq istəmir və deyirlər – get ermənilərlə razılığa gəl. Ermənilər deyirlər: bilirsinizmi, sizin ərazinizin 20 faizini işğal etmişik, bizim şərtlərimizlə razılaşın. Biz isə onlarla razılaşa bilmərik. Üstəlik, 1996-cı ilin dekabrında Lis-

sabon zirvə görüşü prinsiplərinin qəbul edilməsində çox mühüm rol oynayan Rusiya, təəssüf ki, 1998-ci ilin noyabrında bu məsələnin həlli üçün ümumi dövlət barədə tamamilə aydın olmayan və qeyri-müəyyən bir təklif irəli sürür. Gör nə uydurublar? Dünyada, dünya praktikasında, beynəlxalq hüquqda «ümumi dövlət» adında şey yoxdur. Demə, biz Azərbaycan ərazisində ümumi dövlətə malik olmalıyıq – Azərbaycanla birlikdə Dağlıq Qarabağ. Bu, Dağlıq Qarabağa müstəqillik verməyə bərabərdir. Onu belə pərdələmək nəyə gərəkdir? Bu da Rusiya Federasiyasının təklifidir. Yeri gəlmişkən, onu Amerika Birləşmiş Ştatları da, Fransa da dəstəkləmişlər. Noyabrda biz bunu rədd etdik, ancaq indiyədək heç nə yoxdur – yəni «siz rədd etdiniz, indi gedin fikirləşin».

Viktor Stepanoviç, bu, əlbəttə, sizə aid deyildir, amma bununla bərabər, bütövlükdə Rusiyaya aiddir. Ona görə də bu bizi narahat edir və həyəcanlandırır.

İndiki halda Kosovo, Yuqoslaviya probleminə gəldikdə isə, - artıq bir aydır ki, bu münaqişə ilə əlaqədar hərbi qarşıdurma gedir, - açığını desək, öz problemlərimizə, özümüzün məsələmizə başımız o qədər qarışıb ki, hətta düşünməyə belə imkanımız yoxdur ki, bəs Kosovoda nə etmək lazımdır, bəs Yuqoslaviya nə etməlidir?

İkincisi. Məndən bəzən soruşurdular, zənnimcə, bizim hətta mənəvi haqqımız yoxdur ki, bu işdə iştirak edək və ya bu məsələ barəsində öz rəyimizi söyləyək. Çünki biz öz münaqişəmizi heç cür həll edə bilmirik, - mən Ermənistan–Azərbaycan münaqişəsini nəzərdə tuturam.

Bu məsələ barəsində nə deyə bilərəm? Biz ATƏT-in prinsiplərini, beynəlxalq hüquq prinsiplərini əsas tutaraq, əlbəttə ki, separatizmin hər hansı formasının əleyhinəyik, - bu gün bir daha bəyan edirik, - əleyhinəyik. Burada hər halda konyunktura deyil, məhz beynəlxalq hüquq işləməlidir. Axı biz dəfələrlə, o cümlədən MDB-də, belə hallarla qarşılaşırıq ki,

hər hansı bir sənədi qəbul etmək lazım gəldikdə, orada separatizmin pisləndiyini yazmaq zəruri olduqda, Ermənistan etiraz edir və sənədi qəbul etmək mümkün olmur. Ona görə də bu gün bəyan edirəm ki, biz separatizmin hər hansı formasının əleyhinəyik. Separatizm beynəlxalq hüququ pozur, separatizm Dünya Birliyini dağıdır, biz onun əleyhinəyik.

Bununla bərabər, biz etnik təmizləmənin də əleyhinəyik. Əleyhinəyik. Biz Miloşeviçin Kosovoda həyata keçirdiyi etnik təmizləmə ilə razılaşa bilmərik, biz bunun əleyhinəyik. Viktor Stepanoviç və bizim bütün əziz qonaqlarımız, biz ondan da, bundan da – separatizmdən də, separatizmin nəticələrindən də əziyyət çəkirik, yəni Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağda, Xocalıda Azərbaycan xalqına qarşı soyqırımı törədərək həyata keçirdiyi etnik təmizləmədən, bəzilərinin köməyi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycan rayonlarından adamlarımızı qovaraq orada törətdikləri etnik təmizləmələrdən əziyyət çəkirik.

Əlbəttə, indi Dünya Birliyi çox narahatdır – Miloşeviç Kosovodan albanları qovub çıxarır, hamı onların barəsində düşünür. Ermənistan silahlı qüvvələri adamları Azərbaycanın doğma torpaqlarından, Dağlıq Qarabağın özündən – Dağlıq Qarabağ Azərbaycanın doğma torpağıdır – Şuşadan, Laçından, Kəlbəcərdən, Ağdamdan, Füzulidən, Cəbrayıldan, Zəngilandan, Qubadlıdan, - bir baxın, neçə inzibati rayondur, - qovub didərgin salanda, bu adamlar hər şeyi atıb gedəndə, orada nə qədər insan həyatını itirəndə, nə qədər əmlak itiriləndə isə heç kim səsini qaldırıb demədi ki, bu, etnik təmizləmədir. Ona görə də biz bu etnik təmizləmələrin faciəsini görmüş ölkəyik, xalqıq. Biz Miloşeviçin və onun hökumətinin Kosovoda etnik təmizləmə hərəkətlərinə heç cür haqq qazandıra bilmərik. Bilmərik.

Burada vəziyyət son dərəcə ağır, ziddiyyətlidir. Bir tərəfdən yolverilməz separatizm, digər tərəfdən soyqırımı, etnik

təmizləmə var. Nə o, nə də digəri yolverilməzdir. Buna görə də bizim mövqeyimiz belədir: onu da dayandırmaq lazımdır, bunu da dayandırmaq lazımdır. Məsələni ədalətlə həll etmək gərəkdir.

Viktor Stepanoviç, məsələn, biz sizin iştirakınızla qəbul olunmuş ATƏT-in həmin sənədini təqdim edirik. Orada Dağlıq Qarabağ üçün Azərbaycanın tərkibində yüksək dərəcədə özünüidarə nəzərdə tutulur. Biz bununla razıyıq, özü də, dünya praktikasında olan ən yüksək statusa razıyıq. Amma bu keçmir. ATƏT qəbul etmişdir, Ermənistan isə razılaşmır – bu keçmir. Orada isə Miloşeviç Kosovonun muxtariyyətini ləğv etmişdir. Niyə ləğv etmişdir? O, Kosovonun muxtariyyətini ləğv edərkən nə üçün heç kim onu dayandırmadı? Onu dayandırmadılar. O, öz «hüquq»unun tam təsdiqinə nail olmaq üçün etnik təmizləməni indi də davam etdirir. Biz Dağlıq Qarabağa yüksək özünüidarə statusu veririk. Mən hətta «muxtariyyət» sözünü işlətmirəm, çünki onlar bunu heç yaxına buraxmaq istəmirlər. Dağlıq Qarabağ üçün yüksək özünüidarə statusu. Qoy Dünya Birliyi, böyük dövlətlər – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa, başqaları bizə bu işi həyata keçirməyə kömək göstərsinlər. Amma heç kim kömək etmir.

Təkrar edirəm, buna görə də bizim mövqeimiz belədir ki, Kosovo albanları özünüidarə hüququna, muxtariyyət şəklində və ya bilmirəm, daha nə şəkildə, - bu, həmin məsələ ilə məşğul olan adamların işidir, - özünüidarə hüququna malikdirlər. Mən öz prinsipial mövqeyimi, dövlətimizin mövqeyini bildirirəm.

Bununla bərabər, mövcud formadakı separatizm yolverilməzdir. Separatizmin olmaması üçün adamlara lazımi muxtariyyət, hüquq vermək gərəkdir. Onlar isə bunu da vermirlər. Separatizmi də yatıra bilmirlər, ona görə də adamları məhv etmək yolu ilə, etnik təmizləmə yolu ilə gedirlər.

Viktor Stepanoviç, bizim münasibətimiz bax, belədir. Mən bu barədə bir qədər həyəcanla danışıram, siz məni başa düşürsünüz.

Viktor Çernomırdin: Sizinlə razılaşmaya bilmərəm. Mən bu məsələ barəsində də bir çox iclasların, müşavirələrin intirakçısıyam. Yadımdadır, belə bir güclü qərarın qəbul edilməsi üçün necə çətinliklər çəkməli, necə tədricən inandırmalı olduq. Mən ancaq təəssüf edə bilərəm ki, bu gün bütün bunlar yerinə yetirilmir.

Mən burada heç kimə haqq qazandırmaq niyyətində deyiləm və bu gün məhz burada baş verənlər barəsində belə həyəcanla və ürək ağrısı ilə danışmaqda tamamilə haqlısınız. Bu, həqiqətən ilk siqnal idi, amma o vaxt buna diqqət yetirmədilər, lazımi əhəmiyyət vermədilər. Budur, bu da nəticəsi. O, həqiqətən ilk siqnal idi. Dünyada deyə bilmərəm, ancaq hər halda, Avropa qitəsində ilk siqnal olmuşdur. Biz belə şey görməmişdik. Bəlkə də kürd problemi ilə əlaqədar olmuşdu – bu problem çoxdan mövcuddur.

Buna görə də bu məsələdə mən Sizinlə razıyam və məni buraya gətirən bəlkə də məhz həmin səbəbdir. Dünya Birliyi nəhayət, başa düşməlidir – biz ya bu problemin həllinin açarını tapacağıq, ya belə problemlərin həlli mexanizmini tapacağıq, ya da Dünya Birliyi anlayacaq ki, nə separatizmə, nə də etnik təmizləmələrə yol verməmək üçün qərarları həm də zor gücünə qəbul etmək lazımdır. Mən sizinlə razıyam, separatizm də, etnik təmizləmələr də – bunların hamısı normalardan kənara çıxmaq deməkdir. Nə o, nə də digəri baş verməməlidir. Nə ona, nə də digərinə yol vermək olmaz, onu da, bunu da islah lazımdır.

Buna görə bəlkə də bu, bir daha təsdiq edir ki, biz bu gün Dünya Birliyinə bir daha müraciət etməliyik ki, - əslində, mən də istəyirəm, - biz ya hər şeyi uçurub dağıtmalı və suveren dövlətin yerində rəqs meydançası düzəltməli, hamını və hər

şeyi – canlıları da, cansızları da məhv etməliyik, bilmirəm, onda nə olacaq, - ya da əvvəl-axır biz münaqişələrin həlli yollarını axtaracağıq. Biz özümüz Çeçenistan problemlərini gördük, bu, baha başa gəldi. Ən bahası bu idi ki, bir çox insanlar həyatlarını itirdilər, onların hamısı rusiyalıdır. Siz həyəcanla danışırsınız və mən Sizi başa düşürəm. Buna görə də bir daha yəqin edirəm ki, məhz təsirli bir iş görülməlidir.

Siz nüfuzlu bir dövlətin rəhbərisiniz, Sizi nəinki yaxın ətrafınızda, yaxın xaricdə, - indi belə demək dəbdədir, - həm də dünyada tanıyırlar. Bu gün biz ucadan bəyan etməliyik – əgər qərarlar qəbul ediriksə, onları məntiqi sonluğa çatdırmaq lazımdır. Deməli, hər şeyi yerinə qoymaq, nə soyqırımına, nə də vəhşicəsinə hücumlara və raket-bomba zərbələrinə yol verməmək üçün, - bunlar kədərdən savayı heç nə gətirmir,- bu açarları və mexanizmləri axtarıb tapmaq gərəkdir. Başa düşürəm ki, adamlar beş ildən çoxdur çadırlarda yaşayırlar, lakin bu, beş il bundan əvvəl deyil, xeyli qabaq başlayıbdır. O vaxt elə düşünürdülər ki, hər şey bu gün-sabah qurtaracaqdır. Amma bir baxın, illər ötüb keçmişdir, adamlar isə hələ də əziyyət çəkirlər.

Odur ki, bu məsələnin, əlbəttə, həllini tapmaq lazımdır. Heydər Əliyeviç, Sizin mövqeyiniz çox əhəmiyyətlidir. O, çox əhəmiyyətlidir və səslənməlidir.

Mən Sizə Rusiyanın mövqeyi haqqında danışdım. Hər şeydən əvvəl, vasitəçilər kimi biz bu münaqişənin həllində iştirak etməyə çağırmalıyıq. İştirak etməliyik. İnsanların öz yerlərinə qayıtmasının, təhlükəsizliyinin təmin olunması üçün biz sülhyaratma qüvvələrinin tərkibində iştirak etməyə hazırıq. Mühüm cəhətlər çoxdur. Bu, elə bir incə prosesdir ki, Siz onu məndən pis yox, daha yaxşı bilirsiniz. Bu münaqişələrin həlli üçün dünya ictimaiyyətinin bütün qüvvələrini birləşdirmək yəqin ki, indi həmişəkindən daha vacibdir. Buna görə də mən Sizi başa düşürəm. Sizə bəlkə də həqiqətən daha ağır

gəlir. Siz bu problemlə neçə illərdir məşğul olursunuz və onu həll edə bilmirsiniz. Mən ancaq təəssüflə deyə bilərəm ki, Minsk qrupu hər şeyi məntiqi sonluğa fəallıqla çatdırmır. Halbuki, indi bu istiqamətdə real addımlar gərəkdir. Heydər Əliyeviç, çox ümidvaram ki, Sizin səsiniz, olduqca mühüm səsiniz Miloşeviçə, digər dövlətlərin rəhbərlərinə çatdırılacaqdır. Mən görüşəcəyim adamlarla bu barədə hökmən danışacağam və onları buna çağıracağam ki, məsələni, nəhayət, lazımınca həll etmək lazımdır. Yoxsa bu, daha da artacaq, biz qazandığımızdan çox itirəcəyik.

Heydər Əliyev: Viktor Stepanoviç, mən mövqeyimizi şərh etdim, ancaq bir daha konkretləşdirə bilərəm. Bizim mövqeyimiz, Azərbaycanın mövqeyi belədir – hər bir dövlətin ərazi bütövlüyü pozulmazdır. Biz ərazi bütövlüyünə tərəfdarıq. Bununla bərabər, biz ərazi bütövlüyünün təmin olunması naminə törədilən soyqırımının əleyhinəyik, etnik təmizləmənin əleyhinəyik. İkincisi, biz hesab edirik ki, əgər hər hansı dövlətdə etnik qrup varsa və o, beynəlxalq hüquq, ATƏT-in prinsipləri əsasında müəyyən bir hüquq iddiasındadırsa, bu qrupun özünüidarəyə hüququ var. Yəni biz Kosovoya müstəqillik verilməsinin əleyhinəyik, biz Yuqoslaviyanın ərazi bütövlüyünə tərəfdarıq. Lakin biz buna da tərəfdarıq ki, Kosovoda yaşayan albanlar özünüidarə statusuna malik olsunlar. Elə status ki, o, həm Yuqoslaviyanın bütövlüyü prinsiplərinə, həm də milli, etnik istəklərə və prinsiplərə uyğun olsun.

Bizim prinsipial mövqeyimiz bax, belədir. Əslinə qalsa, mövqeyimiz ATƏT-in 1975-ci il Helsinki Aktının prinsipləri ilə tam uyğun gəlir. Təkrar edirəm, məsələn, bizim MDB-nin sənədlərində və digər sənədlərdə ərazi bütövlüyü məsələsi ortaya çıxdıqda, Ermənistan imza atmır və buna görə sənəd ya qəbul edilmir, ya da xüsusi bir rəy olur. Bax bu yaxınlarda, aprelin 2-də biz Moskvaya toplaşdıq və dövlət başçı-

larının görüşündə bir sənəd- gələcək əməkdaşlığın prinsipləri haqqında bəyannamə təqdim edildi. Orada bir çox məsələlər, o cümlədən ərazi bütövlüyü məsələsi var. Amma Ermənistan ərazi bütövlüyünə qarşı etirazını bildirdi. Yaxşı ki, sənədi qəbul etdik. Bəzən də elə olur ki, Ermənistan etirazını bildirir deyirlər, gəlin, qəbul etməyək. Yaxşı ki, bu dəfə sənədi qəbul etdik, ancaq Ermənistanın xüsusi rəyi ilə. Bəs nəyə görə Ermənistan ərazi bütövlüyünün əleyhinədir? Ona görə ki, o, Azərbaycanın ərazi bütövlüyünü pozmuşdur və hesab edir ki, bu qanunidir, Azərbaycanın ərazi bütövlüyü pozulmalıdır. Ermənistanın ərazi bütövlüyü pozulsa, bilmirəm, o nə edəcəkdir. Biz, məsələn, Rusiya Federasiyasının ərazi bütövlüyünə tamamilə tərəfdarıq və buna görə də Rusiyada hər hansı separatizmi və ya kiminsə Rusiya Federasiyasının tərkibindən çıxıb dövlət müstəqilliyi əldə etmək arzusunu dəstəkləmirik. Biz bunun əleyhinəyik.

Buna görə də burada bizim mövqeyimiz tamamilə dəqiq və aydındır. Hesab edirəm ki, məsələni bu prinsiplər əsasında həll etmək lazımdır və heç kimə – nə ona, nə də başqasına üstünlük vermək olmaz.

Əlbəttə, onu da deməliyəm ki, Miloşeviç təqsirkardır. O, bunda təqsirkardır ki, Kosovonun bir çox onilliklər ərzində mövcud olmuş muxtariyyətini ləğv etmişdir. O, bunda təqsirkardır. Odur ki, o, özünün bu təqsirini anlamalı və bu səhvinin nəyə gətirib çıxardığını, yaxud, bilmirəm, düzgün olmayan hərəkətlərinin belə qırğına gətirib çıxardığını dərk etməlidir. Buna görə də hesab edirəm ki, məsələni bu prinsiplər əsasında həll etmək lazımdır.

Lakin mən yenidən öz problemimə qayıdıram. Müharibə gedir, Kosovoda vuruşurlar, Kosovo albanları döyüşürlər, Miloşeviç böyük bir orduya malikdir, müharibə edir. Müharibə onun nəyinə gərəkdir? Bu qan tökülməsi nəyə gərəkdir? Biz 1994-cü ildə atəşkəsə nail olana qədər bu müharibənin

dəhşətlərinə məruz qaldıq. Lakin biz bu gün də arxayın deyilik ki, müharibə başlana bilməz. Hətta bizim bölgəmizdə. Nəyə görə? Ona görə ki, Ermənistan çox güclü silahlanır. Viktor Stepanoviç, bilirsiniz ki, 1997-ci ilin əvvəllərində məhz sizdə belə məlumatlar yayıldı ki, əvvəlki üç ildə Rusiya Federasiyasının Müdafiə Nazirliyi Ermənistana bir milyard dollarlıq silah, döyüş sursatı, hərbi texnika göndərmişdir. Biz bu məsələni Rusiya Federasiyası qarşısında, prezident qarşısında dəfələrlə qaldırdıq. Rusiya Federasiyasının Prokurorluğuna bu məsələ ilə məşğul olmaq tapşırıldı, amma sonra ört-basdır etdilər. MDB dövlət başçılarının iclasında mən həmin məsələni bu dəfə məhdud bir tərkibdə yenə də qaldırdım, çox açıq dedim: yaxşı, hər halda bir cavab verin – nə üçün Ermənistana bir milyard dollarlıq silah göndərilmişdir və bu silah indiyədək geri qaytarılmır? Heç bir izahat verilmir. Mən yazılı bəyanat verməli oldum, o, dövlət başçılarının iclasında yayıldı.

Yaxud, məsələn, biz açıqca deyirik və fürsətdən istifadə edərək bu gün də deyəcəyəm: Biz başa düşmürük, Ermənistanda hərbi baza Rusiyanın nəyinə gərəkdir? Hərbi baza mövcuddur, indi genişləndirilir, oraya S-300 raketləri, MİQ-29 təyyarələri göndərilir. Mən bu məsələ ilə əlaqədar Boris Nikolayeviç Yeltsinə məktubla müraciət etdim. Mən cavab aldım, cənab Draçevski də mənə deyir ki, bilirsinizmi, bu, Azərbaycana qarşı yönəldilməyibdir. Bununla belə, Ermənistan və Azərbaycan hərbi münaqişə vəziyyətində olduğu halda, Ermənistan ərazisində Rusiya Federasiyasının əlavə silahlı qüvvələri yerləşdirildiyi halda təminat varmı ki, bundan Azərbaycana qarşı istifadə edilə bilməz? Bu birincisi. İkincisi isə, kimə qarşı istifadə edilə bilər? Məsələn, dövlət başçılarının görüşü zamanı mən Boris Nikolayeviçə birbaşa sual verdim: bu, kimə qarşı yönəldilibdir? Mən cavab almıram. Kimsə bəzən mənə deyir ki, bu, NATO-ya qarşıdır. Am-

ma, sözün düzü, deməyə məcburam ki, bu, ciddi deyildir. Ona görə ki, NATO qərbdədir. Ermənistan isə burada.

Viktor Çernomırdin: Türkiyə ki, yaxınlıqdadır, o, NATO-nun üzvüdür.

Heydər Əliyev: Nə olsun ki? Yoxsa, Ermənistan və ya Rusiya Türkiyədən hansısa hücum olacağını gözləyir?

Viktor Çernomırdin: Bu, prinsipcə Rusiyanın cənub hüdudlarıdır.

Heydər Əliyev: Razı deyiləm. Əgər Türkiyə ərazisindən Rusiyaya hücum olarsa, sizin çox böyük ümumi sərhədləriniz var. Ona qalsa, Qara dəniz vasitəsilə, başqa dənizlər vasitəsilə NATO Rusiyaya hücum etmək üçün çox böyük imkanlara malikdir.

Viktor Çernomırdin: Düşünürəm ki, vəziyyət o yerə gəlib çatmayacaqdır.

Heydər Əliyev: Yaxşı, çatmayacaqsa, onda bu sizin nəyinizə gərəkdir?

Viktor Çernomırdin: Bilirsinizmi, bu, Ermənistan yox, Rusiyadır. Bu, Rusiya bazasıdır. Gürcüstanda da Rusiya bazası var.

Heydər Əliyev: Əvvəla, bu Rusiya qoşunlarında xidmət edənlərin 50 faizi ermənidir. Bu, bizə məlumdur. İkincisi isə, mən prinsipcə hesab edirəm ki, əgər Rusiya Ermənistanla Azərbaycan arasında münaqişəni həll etmək istəyirsə, bu zaman, bu münaqişə aradan qaldırılana qədər öz qoşunlarını Ermənistan ərazisində yerləşdirməməlidir. Yerləşdirməməlidir. Məncə, buna qarşı heç kim etiraz edə bilməz. Amma Rusiya bununla hesablaşmır. Biz Ermənistanla hərbi münaqişədəyik. Rusiya vasitəçilik edir və bu münaqişəni həll etmək istəyir. Lakin bununla bərabər, Ermənistan ərazisindəki öz silahlı qüvvələrini durmadan artırır. Yox, mən bununla razı deyiləm və bu barədə öz fikrimi bu gün bir daha söyləməyi lazım bilirəm.

Bunun bəlkə də Yuqoslaviya böhranına birbaşa dəxli yoxdur. Ancaq hərə öz dərdindən danışır.

Yaxşı, Viktor Stepanoviç.

Viktor Çernomırdin: Sağ olun, Heydər Əliyeviç. Bu, əsas məsələdir. Mən başa düşürəm ki, burada biz bütün bu cür problemlərə münasibətdə tamamilə yekdilik. Bu, təkcə Yuqoslaviya və Albaniyaya aid deyildir, hamıya aiddir. Bir daha deyirəm, bu, bizi narahat etməyə bilməz. Biz başa düşürük, məhz sadəcə olaraq iştirak etməmək Rusiya üçün də böyük məsuliyyətdir, çünki bu münaqişə istənilən yerdə başlaya bilər. Bu gün bax, buna yol vermək olmaz. Siz tamamilə doğru deyirsiniz ki, nə birini, nə də digərini nəinki sadəcə olaraq dəstəkləmək olmaz, əslində tədbirlər görmək lazımdır. Bu gün orada görülən tədbirləri biz çıxılmaz vəziyyət hesab edirik. Güclü zərbələr endirilir, bütöv şəhərlər, müəssisələr yer üzündən silinir, qan tökülür, minlərlə qaçqın var. Bütün bunlar bir-birinə qarışır və indi atılan hər hansı səhv addım dəhşətli nəticələrə gətirib çıxara bilər. Bu barədə də bir daha deyirəm ki, bəli, burada tədbirlər görmək lazımdır. Düşünürəm ki, bu məsələdə biz Sizinlə yekdilik.

Heydər Əliyev: Yaxşı.

Viktor Çernomırdin: Çax sağ olun, Heydər Əliyeviç.

NATO-nun 50 İLLİK YUBİLEYİ MƏRASİMLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

22 aprel 1999-cu il

S u a l: Cənab prezident, qarşıdakı səfər NATO–Azərbaycan əlaqələrinin inkişafına və regionda sülhün, təhlükəsizliyin təmin olunmasına necə təsir göstərəcəkdir? Bu barədə Sizin fikrinizi bilmək istərdik.

C a v a b: Qarşıdakı səfər birinci növbədə NATO-nun 50 illik yubileyi ilə əlaqədardır. Mən o yubiley mərasimlərində iştirak edəcəyəm. Şübhəsiz ki, orada NATO-nun gələcək fəaliyyəti haqqında çox mühüm sənədlər təqdim olunubdur və onlar müzakirə ediləcək, qəbul olunacaqdır.

Səfərimin əsas məqsədi bundan ibarətdir. Amma eyni zamanda, siz bilirsiniz ki, Vaşinqtonda mən Ermənistan prezidenti Koçaryanla görüşəcəyəm, sonra Amerika Birləşmiş Ştatlarının dövlət katibi, xarici işlər naziri xanım Olbraytın iştirakı ilə cənubi Qafqaz ölkələrinin – Gürcüstan, Azərbaycan və Ermənistanın prezidentlərinin görüşü olacaqdır. Bizim bölgəmizdə əməkdaşlığın inkişaf etdirilməsi üçün, sülhün yaranması üçün başqa bir çox görüşlər də keçiriləcəkdir. Mənim Amerika Konqresində görüşlərim olacaqdır, başqa dövlət xadimləri ilə görüşlərim olacaqdır. Əgər vaxt imkan versə,

başqa ölkələrin prezidentləri ilə də bir neçə görüş nəzərdə tutulubdur. Neft müqavilələri imzalanacaqdır. Qısa müddətdə görəcəyimiz işlər çoxdur.

Bilirsiniz ki, bizim bütün səfərlərimizdə məqsədimiz birinci, Azərbaycanın reallığını bütün ölkələrə, dünyaya çatdırmaq, Azərbaycanın inkişafı üçün bütün bu imkanlardan istifadə etmək, ən əsası isə Azərbaycanda sülhün, əmin-amanlığın təmin olunması üçün, bölgədə münaqişənin, xüsusən Ermənistan–Azərbaycan münaqişəsinin ləğv olunması üçün lazımi addımlar atmaqdır. Məqsədimiz budur. Güman edirəm ki, bu, bizim üçün xeyirli olacaqdır.

S u a l: Cənab prezident, Siz Vaşinqtonda məsələ qaldıracaqsınızmı ki, Balkan münaqişəsinə nisbətən Dağlıq Qarabağ münaqişəsinə az fikir verilir?

C a v a b: Bəli, mütləq olacaqdır. Yəqin siz müşahidə etdiniz, - mən Viktor Çernomırdinlə görüşəndə onunla bu barədə çox ciddi danışıqlar apardım. Biz həmişə hesab edirik ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi daha da böyük diqqətə layiqdir. Çünki bu münaqişə çox uzunmüddətli münaqişədir və bizim ölkəmizə çox böyük zərərlər gətiribdir.

S u a l: Cənab prezident, Amerika Birləşmiş Ştatları tərəfindən bu məsələyə dair yeni təkliflər ola bilərmi?

C a v a b: Hər şey ola bilər. Amma indi nə demək olar ki, hər şey ola bilər.

Sağ olun.

NATO-nun 50 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

Vaşinqton

22 aprel 1999-cu il

Hörmətli cənab sədr!
Xanımlar və cənablar!

NATO-nun 50 illik yubileyi münasibətilə üzv ölkələrin və tərəfdaşların dövlət və hökumət başçılarını, Şimali Atlantika İttifaqının rəhbərliyini ürəkdən təbrik edirəm.

Biz dünyada sülhün və sabitliyin təmin olunmasında NATO-nun böyük rolunu yüksək qiymətləndiririk, onu ümumavropa təhlükəsizliyinin olduqca mühüm vasitəsi hesab edirik.

Dünya sosialist sistemi və Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan sonra XXI yüzilliyin astanasında tamamilə yeni bir vəziyyət yaranmaqdadır. Demokratiya və azadlıq, insan hüquqlarının müdafiəsi dünyanın bir çox ölkələrinin və xalqlarının ali idealına çevrilir. Çox böyük təbii, enerji ehtiyatları, Avropa ilə Asiyanın qovuşuğunda nadir coğrafi-strateji mövqeyi olan Azərbaycan Respublikası bazar iqtisadiyyatına malik demokratik dövlət quruculuğu, Dünya Birliyinə tam inteqrasiya yolu ilə gedir. Milli məqsədlərin və idealların ümumiliyi Azərbaycan ilə ABŞ və Avropa tərəfdaşları arasında geniş əməkdaşlığın inkişafı üçün möhkəm bünövrəyə çevrilmişdir.

Bununla yanaşı, totalitar rejimlərin dağılması milyonlarla adama ölüm və fəlakətlər gətirən, planetin müxtəlif

regionlarında sülh və sabitlik üçün təhlükə yaradan silahlı münaqişələr, separatçılıq, etnik təmizləmələr kimi nəticələr doğurmuşdur.

Azərbaycan xalqı son on il ərzində bütün bu dəhşətli hallar ilə qarşılaşır.

Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürən qonşu Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının iyirmi faizə qədəri işğal edilmiş, bir milyondan çox həmvətənimiz öz ərazisində etnik təmizləməyə məruz qalmış və qaçqın vəziyyətinə düşmüşdür.

Biz Ermənistan ilə münaqişənin sülh yolu ilə tez bir zamanda aradan qaldırılması üçün hər cür səy göstərir, ATƏT-in Minsk qrupunun və Rusiyanın, ABŞ-ın və Fransanın simasında onun həmsədrlərinin fəaliyyətinə böyük ümidlər bəsləyirik. Münaqişənin tərəflərindən birinə qeyri-qanuni silah göndərilməsini, regionda sürətlə silahlanma cəhdlərini qətiyyən yolverilməz hesab edirik.

Biz bütün mövcud münaqişələrin, istər postsovet məkanındakı, istərsə də Yuqoslaviyadakı münaqişələrin tezliklə sülh yolu ilə aradan qaldırılmasının, Kosovoda etnik təmizləmələrə son qoyulmasının, dinc əhalinin doğma yurd-yuvalarına qayıtmasının tərəfdarıyıq. Dünya Birliyi təcavüzkar etnik barışmazlığın və separatçılığın meydan oxumasına adekvat cavab verməlidir.

Biz «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində NATO ilə əməkdaşlığa böyük əhəmiyyət veririk və Azərbaycanın Şimali Atlantika Müqaviləsi Təşkilatı ilə münasibətlərinin daha da dərinləşdirilməsinə öz tərəfimizdən hər cür kömək göstərəcəyik. Biz Vaşinqton sammitində irəli sürülmüş NATO-nun yeni strateji konsepsiyasını alqışlayırıq.

Polşanın, Macarıstanın və Çexiyanın prezidentlərini onların dövlətlərinin NATO-ya daxil olması münasibətilə təbrik edirəm. NATO-nun tərkibinə yeni dövlətlərin qəbul edilməsi,

şübhəsiz ki, bütün Avroatlantika məkanında, o cümlədən də Qafqaz regionunda təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə kömək edəcəkdir.

Sülhün, təhlükəsizliyin və sabitliyin təmin edilməsi, bəşəriyyətin yüksək ideallarının gerçəkləşdirilməsi sahəsində NATO-nun nəcib missiyasının həyata keçirilməsində ona yeni-yeni uğurlar arzulayıram.

Diqqətinizə görə minnətdaram.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ SENATORLARI VƏ GÖRKƏMLİ İCTİMAİ-SİYASİ XADİMLƏRİ İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Vaşinqton, «Metropoliten» klubu

22 aprel 1999-cu il

H e y d ə r Ə l i y e v: Məni səmimi və xoş hisslərlə qarşıladığınıza görə Sizə təşəkkür edirəm. Səfərimin məramını açıqlayaraq, xüsusi qeyd etmək istəyirəm ki, dünyada sülhün və təhlükəsizliyin təmin edilməsində NATO böyük rol oynayır. Bu təşkilatın 50 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirakımdan məmnunluq hissi duyduğumu bildirirəm.

Görüşə toplaşanlara məlumat verim ki, respublikamız müstəqillik yolu ilə qətiyyətlə irəliləyir, ölkəmizdə demokratiyanın dərinləşdirilməsi, bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması sahəsində bir sıra tədbirlər görülmüşdür.

Qeyd etmək istəyirəm ki, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizə qədəri qəsb olunmuş, bir milyondan çox soydaşımız doğma yurd-yuvalarından didərgin düşmüşdür. Azərbaycan xalqı

---

* Görüşdə ABŞ Senatının üzvləri – Senatın Büdcə Komitəsinin sədri Pit Dominiçi, Silahlı Qüvvələrə Yardım Komitəsinin sədri Con Uorner, Kənd Təsərrüfatı, Ərzaq və Meşəçilik Komitəsinin sədri Riçard Luqar, İdarəetmə Məsələləri Komitəsinin sədri Ared Tompson, həmçinin senatorlar Ted Kokren, Pol Koverdell, ABŞ-ın keçmiş dövlət katibi səfir Lourens İqlberger, görkəmli ictimai xadim Hovard Beyker və səfir Corc Krenvell Montqomeri iştirak edirdilər.

ağır itkilərə və məhrumiyyətlərə baxmayaraq münaqişənin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarıdır və bu işdə beynəlxalq təşkilatlara, ilk növbədə ATƏT-in Minsk qrupunun fəaliyyətinə böyük ümidlər bəsləyir.

Bildirim ki, ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında keçirilmiş Lissabon sammitində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması prinsipləri müəyyən edilmiş, zirvə toplantısından sonra ATƏT-in Minsk qrupuna həmsədrliyi ABŞ, Rusiya və Fransa öz üzərinə götürmüşlər. Həmsədrlərin fəaliyyətinin hələlik heç də lazımi səmərə vermədiyindən narahat və narazı olduğumu, münaqişənin nizamlanması ilə əlaqədar bu ilin əvvəllərində ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin prezidentlərinə – B.Klintona, J.Şiraka və B.Yeltsinə bir daha məktubla muraciət etdiyimə və münaqişənin danışıqlar yolu ilə aradan qaldırılmasında onların öz səylərini artıracaqlarına ümidvar olduğumu bildirirəm.

Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın münaqişə tərəflərindən birinə – Ermənistana qeyri-qanuni olaraq bir milyard dollar məbləğində silah verdiyini, oradakı hərbi bazalarını genişləndirdiyini, hazırda isə S-300, MİQ-29 təyyarələri göndərdiyini, təcavüzkarı silahlandıraraq birtərəfli mövqe tutduğunu görüş iştirakçılarının nəzərinə çatdırmaq istəyirəm.

Vurğulayım ki, Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuş, respublikamız NATO ilə əməkdaşlığa, bu proqram çərçivəsində birgə tədbirlərə böyük əhəmiyyət verir.

Azərbaycanın əlverişli coğrafi-strateji mövqeyi, zəngin təbii sərvətləri dünya dövlətlərinin respublikamıza marağını artırmışdır. ABŞ-ın Qafqaz regionundakı proseslərdə fəal iştirakının vacibliyini nəzərə çatdırmaq istəyirəm. Mən Xəzər

neftinin istehsalı və nəqli sahəsində beynəlxalq əməkdaşlığa yüksək qiymət verir, bu il aprelin 17-də Bakı-Supsa kəmərinin işə salınmasından məmnun olduğumu bildirirəm. Görüş iştirakçılarına məlumat verim ki, Bakı-Ceyhan əsas neft boru kəməri layihəsi ilə əlaqədar böyük işlər görülmüşdür.

Hazırda NATO-nun Yuqoslaviyada həyata keçirdiyi əməliyyatlardan söhbət açaraq bildirmək istəyirəm ki, Yuqoslaviyanın ərazi bütövlüyünün saxlanılması zəruridir, eyni zamanda etnik təmizləmə siyasətinin yolverilməzliyini də qeyd edim. Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılmasında da ABŞ-ın öz səylərini artıracağına ümidvar olduğumu bildirirəm.

Lourens İqlberger: Azərbaycanda olarkən qaçqınların yaşadıqları çadır şəhərciklərinə baş çəkdim və onların vəziyyətindən son dərəcə mütəəssir olduğumu bildirirəm. Neçə ildən bəri çadırlarda yaşayan qocalar, qadınlar və uşaqlar doğma yurdlarına qayıtmaq ümidlərini itirmirlər.

Heydər Əliyev: Mən ölkəmizin sosial-iqtisadi inkişafına mənfi təsir göstərən bədnam 907-ci düzəliş barədə söhbət açmaq istəyirəm. Vaxtilə erməni lobbisinin səyləri sayəsində ABŞ Konqresi tərəfindən qəbul edilmiş bu sənəd Azərbaycan xalqına qarşı tarixi ədalətsizlikdir. Ermənistan–Azərbaycan münaqişəsində zərərçəkən tərəf olan ölkəmizə qarşı yönəldilmiş bu sənəd respublikamızı ABŞ dövlətinin birbaşa yardımlarından məhrum etməklə, bazar iqtisadiyyatı yolunda islahatlar keçirilməsini, insanların sosial müdafiəsini çətinləşdirmişdir. Mən ABŞ prezidentinin, dövlət katibinin və bir sıra hökumət xadimlərinin, senator və konqresmenlərin 907-ci düzəlişin ləğvi sahəsində apardıqları işə müsbət qiymət verir, lakin eyni zamanda, həmin sənədin hələ də ləğv olunmamasından təəssüfləndiyimi, bu ədalətsizliyin tezliklə aradan qaldırılacağına əmin olduğumu bildirirəm.

Con Uorner: Cənab prezident, Bakıya səfərimi böyük məmnuniyyət hissi ilə xatırlayaraq, bildirmək istəyirəm ki, Senatda 907-ci düzəlişin ləğvi sahəsində xeyli irəliləyişlər əldə edilmişdir və bu istiqamətdə işlər davam edir.

Riçard Luqar: Əlavə olaraq, qeyd edim ki, senator Sem Braunbek 907-ci düzəlişin ləğvi sahəsində böyük səylər göstərmiş, İpək yolu strategiyası haqqında qanun layihəsi hazırlayarkən Senatın bütün üzvlərinə müraciət edərək onları bu layihəni dəstəkləməyə və 907-ci düzəlişin ləğvinə səs verməyə çağırmışdır. Hazırda 907-ci düzəlişin ləğvi sahəsindəki iş növbəti mərhələyə qədəm qoymuşdur.

Hovard Beyker: Görüşə gəldiyinizə görə Sizə səmimi təşəkkürümü bildirirəm. Siz həmişə olduğu kimi, yenə də bizi valeh etdiniz. Biz Sizin iradənizə, cəsarətinizə heyranıq və qeyd etdiyimiz kimi, dünyanın çox təhlükəli bir regionunda yerləşən dövlətinizə necə rəhbərlik etdiyinizə vurğunuq. Bizim bir çoxumuz Sizin ölkənizdə olmuşuq. Biz Sizin çox yüksək qonaqpərvərliyinizə, açıq və cəsarətli mülahizələrinizə, fikir mübadiləsi aparmaq məharətinizə məftunuq.

Dövlətiniz zəngin təbii sərvətlərə malikdir. Sizin böyük xidmətləriniz sayəsində ABŞ ilə Azərbaycan arasında möhkəm dostluq və əməkdaşlıq əlaqələri yaranmışdır və ölkələrimizin münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir. ABŞ ilə Azərbaycanın bütün sahələrdə, o cümlədən də Xəzərin enerji ehtiyatlarından istifadə sahəsində əməkdaşlığının gündən-günə genişlənməsi bizi sevindirir.

Əminik ki, qarşıya çıxan çətinliklər Sizin güclü liderliyiniz sayəsində tezliklə və müvəffəqiyyətlə aradan qaldırılacaqdır. Sizə çox dərin hörmətimiz var. Biz Sizin ölkənizə müvəffəqiyyətlər arzulayırıq.

Heydər Əliyev: Təşəkkürümü bildirirəm. Xoş sözlərə görə minnətdaram.

Lourens İqlberger: Dünyada çox az prezident olubdur ki, onlarla görüşlərdən sonra mən belə qənaətə gəlmişəm ki, nə isə öyrəndim. Siz sayca çox az olan belə prezidentlərdən birisiniz.

Sizinlə ünsiyyətdə olduğumuzdan məmnunluq hissini ifadə edirik. Maraqlı söhbətə görə Sizə öz təşəkkürümüzü bildiririk. Sizin gərgin və çoxcəhətli fəaliyyətinizi yüksək qiymətləndiririk. Sizə və Azərbaycan xalqına yeni-yeni uğurlar arzulayırıq.

Heydər Əliyev: Mənimlə görüşə toplaşanlara öz təşəkkürümü bildirirəm. ABŞ-ın nüfuzlu ictimai xadimləri ilə ətraflı fikir mübadiləsinin əhəmiyyətli olduğunu vurğulayıram. Sağ olun.

YƏHUDİ XALQININ SOYQIRIM TARİXİNİ ƏKS ETDİRƏN «XOLOKOST» XATİRƏ MUZEYİNDƏ ÇIXIŞ

Vaşinqton

22 aprel 1999-cu il

Hörmətli xanımlar və cənablar!

«Xolokost» muzeyini ziyarət etmək çox əhəmiyyətlidir. Ancaq eyni zamanda bu ziyarət ağır hissiyyat doğurur.

Alman faşistlərinin yəhudilərə qarşı həyata keçirdiyi soyqırım bəşər tarixində ən dəhşətli, ən faciəli hadisələrdən biridir. Biz Azərbaycanda soyqırımın nə olduğunu bilirik. XX əsrdə bizim də xalqımıza qarşı bir neçə dəfə soyqırım siyasəti həyata keçirilmiş və azərbaycanlılar dəhşətli faciələrə düçar olmuş, məhv olmuşlar. Bunları görərək, xalqımız bu faciələrin şahidi olaraq, biz yəhudilərin dünyada nə qədər faciələrlə rastlaşdığını da bilirik və bunu öz faciəmiz kimi qəbul edirik.

Alman faşistlərinin yəhudilərə qarşı həyata keçirdiyi soyqırım siyasəti dünyada misli görünməmiş, dəhşətli şəkildə olubdur. «Xolokost» muzeyi bunu əyani şəkildə göstərir. Doğrusu, bu faciələri bilməyimizə, ayrı-ayrı kinofilmlərdə bunları gördüyümüzə baxmayaraq, bu gün «Xolokost» muzeyindəki eksponatları görmək, müşahidə etmək çox ağır və çətindir. Bəzən təsəvvür etmək mümkün deyil ki, insan insana qarşı bu qədər vəhşilik edərmi? Ancaq bu həqiqətdir. Yəhudilərə qarşı belə vəhşiliklər edilmişdir, bunu alman faşistləri etmişlər.

Yəhudi xalqı tarix boyu çox böyük sınaqlara çəkilmiş və çox böyük çətinliklərlə üzləşmişdir. Ancaq bunlara baxmaya-

raq, yəhudi xalqı bütün bu sınaqlardan keçərək öz qədim, zəngin mədəniyyətini, öz mənliyini qoruyub saxlamışdır. Yəhudi xalqını tamamilə məhv etməyə çalışmışlar. Ancaq heç kəs buna nail ola bilməmişdir. Ona görə nail ola bilməmişdir ki, yəhudi xalqı bəşər mədəniyyətini zənginləşdirmiş və bəşər tarixində böyük izlər qoymuş bir xalqdır. Tarix sübut etmişdir ki, bu xalqı məhv etmək mümkün deyildir.

«Xolokost» muzeyi yəhudilərin başına gəlmiş bəlaları, müsibəti, faciəni çox əyani şəkildə göstərir. Bu muzeyi yaradanlar, eksponatları buraya toplayanlar, bəşəriyyətə yüksək səviyyədə təqdim edənlər tarixi missiyanı həyata keçirirlər. Alman faşizminin, nasizmin bəşəriyyətə qarşı etdiyi vəhşiliyi dünyaya – bugünkü və gələcək nəsillərə göstərmək lazımdır. Bəşəriyyət bir daha belə hallara yol verməməlidir.

Ona görə də «Xolokost» muzeyi çox böyük əhəmiyyət kəsb edir. Muzey həm bu faciəni əks etdirir, eyni zamanda insanları daha da sayıq olmağa dəvət edir, insanları belə faciələrə qarşı mütəşəkkil olmağa dəvət edir. Muzeyin yaradıcıları və bu eksponatları buraya toplayanlar böyük xeyirxah iş görmüşlər.

Mən bu gün burada, muzeydə yanan əbədi məşəl önündə, həlak olmuşların xatirəsi qarşısında baş əydim. Bu muzeyi yaradanların və onu dünyaya nümayiş etdirənlərin xidmətləri qarşısında da baş əyirəm. Bu muzey təkcə yəhudilər üçün yox, dünyanın bütün xalqları üçün lazımlıdır. Hər bir insan bu muzeylə tanış olarkən, eksponatları seyr edərkən özü üçün nəticə çıxarmalıdır. Yeganə nəticə ondan ibarətdir ki, bəşəriyyət bundan sonra heç yerdə, heç bir xalqa qarşı soyqırıma yol verməməlidir. Dünya Birliyi müharibə alovlarını söndürməli, münaqişələri ləğv etməli, dünyada sülhün, əmin-amanlığın yaranması üçün daha çox səylər göstərməlidir. Bunlar muzeyə baxarkən çıxarılan nəticədir.

Mən sizə təşəkkür edirəm. Çox sağ olun, bizə çox geniş məlumatlar verdiniz.

Azərbaycanda yəhudilər qədim zamanlardan yaşayıblar. Onlara Azərbaycan xalqı tərəfindən heç vaxt ayrıseçkilik edilməyibdir. Yəhudilər Azərbaycanda həmişə bərabər hüquqa malik olublar. İkinci dünya müharibəsi zamanı alman faşizminin Sovetlər İttifaqına hücum etməsi nəticəsində işğal olunmuş torpaqlardan 60 minə yaxın yəhudi Azərbaycan ərazisinə köçürülmüşdü. Müharibə illərində Azərbaycanın daxilində olan çətinliklərə baxmayaraq, yəhudilərə böyük qayğı göstərilib, onlar yerləşdirilib və yaşamaları üçün lazımi şərait yaradılıbdır.

Yəhudilər əvvəllər də – 20-ci illərdə Ukraynadan, Rusiyadan Azərbaycana köçürülüblər, Azərbaycanda özlərinə vətən tapıblar, doğma vətənləri kimi Azərbaycanda yaşayıb, qurub, çalışıblar.

İndi müstəqil Azərbaycanda yəhudilər tam bərabərhüquqlu insanlar, vətəndaşlar kimi yaşayır, işləyir, ölkəmizin ictimai-siyasi həyatında iştirak edirlər. Azərbaycanda müsəlman, islam konfessiyası ilə yanaşı, xristian və yəhudi konfessiyaları da fəaliyyət göstərir. Bunlar müstəqil Azərbaycanın bugünkü reallığıdır. Biz yəhudi xalqına öz həyatını qurmaqda və öz arzularına çatmaqda uğurlar arzulayırıq.

Mən sizin muzeyə 20-ci illərdə Azərbaycana köçürülmüş yəhudilər haqqında da bəzi arxiv materialları təqdim etmək istəyirəm. Bu materiallarla tanış olarkən görəcəksiniz ki, Azərbaycana köçürülmüş yəhudilərə o vaxt nə qədər böyük qayğı göstərilibdir. Güman edirəm ki, bu materiallar sizin üçün əhəmiyyətli olar. Sizə bir daha təşəkkür edirəm.

* * *

H e y d ə r Ə l i y e v: Bu arxiv materiallarını təqdim edərkən onu da bildirim ki, vaxtilə Azərbaycanın böyük heykəltəraşı, rəssamı Sabsay çox gözəl fikirlər söyləyibdir. Bu ma-

teriallar arasında onun yazısı da var. Bunlar sizin üçün əhəmiyyətli olar.

Mən muzeyə kitablar və İsrailin Baş naziri Benyamin Netanyahunun Bakıya səfəri barədə albom da bağışlayıram.

Muzeyin nümayəndəsi: Cənab prezident, çox gərgin səfər cədvəlinizdən vaxt ayırıb muzeyimizi ziyarət etdiyinizə görə Sizə təşəkkürümüzü bildiririk. Yəhudilərə qarşı törədilmiş soyqırımın yad edilməsi üçün ictimaiyyət qarşısında verdiyiniz bəyanata görə Sizə təşəkkür edirik. Salonları gəzib muzeyimizlə tanış olarkən keçirdiyiniz kədər hisslərini anlayır və hesab edirik ki, muzeyimiz insanlarda məhz bu cür hisslər doğurmaq üçün yaradılmışdır. Muzeyimizə verdiyiniz hədiyyəyə görə də Sizə təşəkkürümüzü bildiririk. Bu sənədlər yəhudilərin başına gəlmiş hadisələrin ictimaiyyətə daha ətraflı şəkildə çatdırılması üçün bizə yardımçı olacaqdır.

Hesab edirik ki, yəhudilərin aqibəti təkcə Avropanı deyil, dünyanın bir çox ölkələrini əhatə edibdir. Biz Sizinlə tamamilə razıyıq ki, Xolokostu – yəhudi soyqırımını dərk etmək demokratik dəyərlərin, azadlıq amallarının inkişafı, çiçəklənməsi işinə yardımçı olmaq üçün hər birimizə lazımdır və gərəklidir. İcazənizlə, bu kitabı Sizə təqdim edim. «Dünya gərək unutmasın» adlanan bu kitabda, muzeydə gördüyünüz kimi, «Xolokost»un tarixindən bəhs olunur. Ümidvarıq ki, kitab tarixin bu mühüm anını yad etməkdə Sizə həmişə yardımçı olacaqdır.

Sizə bir daha təşəkkürümüzü bildirir və xahiş edirik ki, Azərbaycan xalqına bizim salamlarımızı yetirəsiniz.

Heydər Əliyev: Təşəkkür edirəm.

Muzeyin xatirə kitabına ürək sözləri:

«Xolokost» müzeyini ziyarət edərkən yəhudi xalqının keçirdiyi faciəni, iztirabları ürəkdən təsəvvür etdim. Yəhudi xalqı ilə iki əsrdən artıq soyqırım siyasətinə məruz qalmış Azərbaycan xalqının həyatında oxşarlıq çoxdur. Özlərinin keçmişini unutmayan xalqlarımız həm tarixi həqiqəti bərpa etmək, həm də üzləşdikləri iztirabların hazırda və gələcəkdə baş verməməsi üçün birgə səylər göstərməlidirlər.

Öz adımdan, eləcə də Azərbaycan xalqı adından dərin kədər hissimi bildirərək bütün tərəqqipərvər bəşəriyyəti «Xolokost» faciəsini unutmamağa və hər hansı bir zorakılığa qarşı mübarizə aparmağa çağırıram».

ABŞ-ın HƏRBİ DƏNİZ AKADEMİYASINDA KURSANTLAR QARŞISINDA ÇIXIŞ

Vaşinqton

23 aprel 1999-cu il

Əziz dostlar!

Mən sizi səmimi qəlbdən salamlayıram, sizə təhsildə və gələcək hərbi xidmətinizdə uğurlar arzulayıram.

Mən bu dəvəti böyük məmnuniyyətlə qəbul edib Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Donanması Akademiyası ilə tanış olmağa gəlmişəm. Sizin təhsil aldığınız hərbi akademiya böyük tarixə və zəngin ənənələrə malikdir.

Amerika Birləşmiş Ştatları dünyanın ən böyük dövlətlərindən biridir və eyni zamanda coğrafi vəziyyətinə görə onun ərazisi hər tərəfdən okeanlarla, dənizlərlə əhatə olunmuşdur. Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Donanması ölkənin silahlı qüvvələrində həmişə görkəmli yer tutubdur. Amerika Birləşmiş Ştatlarının Silahlı Qüvvələrində Hərbi Dəniz Donanması sahəsində xidmət edən hərbçilər, şübhəsiz ki, öz təhsillərini məktəblərdə, akademiyalarda, kolleclərdə alıblar.

Bu sahədə sizin akademiyanın çox böyük xidmətləri var. Mən bilirəm ki, Amerika Birləşmiş Ştatlarının silahlı qüvvələrində keçmişdə və bu gün xidmət edən görkəmli sərkərdələrin bir çoxu Hərbi Dəniz Akademiyasının məzunları olmuşlar. Amerika Birləşmiş Ştatlarının dövlət, siyasi xadimlərinin də bir qismi vaxtilə sizin akademiyada təhsil almış şəxslərdir.

Bir neçə dəqiqə bundan öncə mən sizin akademiyanın ərazisi, binaları və buradakı şərait ilə qısaca tanış oldum. Akademiyanızın zəngin tarixi və çox əzəmətli binaları, bugünkü vəziyyəti məni heyran etdi. Akademiya ilə tanış olarkən, sizinlə görüşərkən düşünürəm ki, Amerika Birləşmiş Ştatlarının gəncləri, vətəndaşları – sizin akademiyada təhsil alıb buranı bitirənlər, şübhəsiz, xoşbəxt adamlardır. Bütün bunlara görə də mən bu gün sizinlə görüşməyimdən və akademiya ilə tanış olmağımdan çox şadam.

Təbiidir ki, sizi bizim Azərbaycan, ölkəmiz haqqında məlumatlar maraqlandırır. Bildirmək istəyirəm ki, Azərbaycan Avropanın Asiya ilə birləşdiyi yerdə – Qafqazda yerləşən ölkədir. Azərbaycan Xəzər dənizinin sahilində yerləşir, eyni zamanda Qafqaz dağları ilə əhatə olunubdur. Azərbaycan şimalda Rusiya, cənubda İran, qərbdə isə Gürcüstan və Ermənistan ilə həmsərhəddir. Azərbaycan ərazisinin şərq hissəsi isə Xəzər dənizinin sahilləridir.

Azərbaycan gənc müstəqil dövlətdir. 1991-ci ildə Sovetlər İttifaqı dağılan zaman Azərbaycan öz dövlət müstəqilliyini əldə edibdir.

Azərbaycanın qədim, çox zəngin tarixi var. XX əsrdə isə Azərbaycan 70 il Sovetlər İttifaqının tərkibində müttəfiq respublika kimi yaşayıb və dediyim kimi, 1991-ci ildə Sovetlər İttifaqı dağılan zaman öz müstəqilliyini əldə edibdir.

Azərbaycan zəngin təbiətə və çox zəngin təbii ehtiyatlara, xüsusən enerji ehtiyatlarına malikdir. Azərbaycan qədimdən Odlar diyarı adlandırılıb, qədim neft ölkəsidir. Azərbaycanda neftdən çox qədim zamanlarda istifadə olunmuşdur. Ancaq neftin sənaye üsulu ilə çıxarılmasının başlanması 1850–1852-ci illərə təsadüf edir. Tarixdən məlumdur ki, Azərbaycanda ilk neft fontanı 1848-ci ildə vurubdur. Bu, dünyada ilk böyük neft fontanı olubdur.

Amerika Birləşmiş Ştatları da qədim neft diyarıdır. Ancaq ABŞ-da ilk neft fontanı Azərbaycandan bir neçə il sonra, Pensilvaniyada vurubdur. Bu mənada ölkələrimizin oxşar tarixi var.

1991-ci ildə dövlət müstəqilliyini əldə edərkən Azərbaycan ağır bir vəziyyət keçirirdi. Azərbaycana qonşu olan Ermənistan 1988-ci ildə ölkəmizə qarşı torpaq iddiası ilə çıxış edərək Azərbaycanın ərazisində Dağlıq Qarabağ vilayətini ələ keçirmək məqsədi ilə hərbi təcavüz etmişdir. Bu hərbi təcavüz sonra Ermənistanla Azərbaycan arasında müharibəyə çevrilmişdir. Müharibə davam etmiş və dünyanın bir neçə ölkəsinin çox böyük yardımı nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər. İşğal olunmuş torpaqlardan azərbaycanlılar zorla çıxarılmış, bu torpaqlarda etnik təmizləmə aparılmış, Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirilmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaş zorla çıxarılıb və bir çox ildir ki, onlar Azərbaycanın başqa bölgələrində çadırlarda yaşayırlar.

Beş il bundan öncə Ermənistan – Azərbaycan münaqişəsinin həll olunması üçün atəşkəs rejimi əldə etmişik və bu barədə saziş imzalamışıq. Artıq döyüşlər yoxdur, müharibə getmir, amma eyni zamanda Azərbaycan torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Biz münaqişəni sülh yolu ilə həll etməyə, işğal olunmuş torpaqları azad edərək vətəndaşlarımızı bu torpaqlara, özlərinin yerinə-yurduna qaytarmağa, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməyə çalışırıq.

Bu məsələləri həll etmək üçün 1992-ci ildə ATƏT xüsusi Minsk Konfransı, Minsk qrupu yaradıbdır. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa, - qrupun tərkibinə başqa ölkələr də daxildir, - məsələnin sülh yolu ilə həll olunması problemi ilə məşğuldurlar. Danışıqlar

aparılır, ancaq hələ müsbət nəticə əldə edilməyibdir. Ona görə əldə edilməyib ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutub, Dağlıq Qarabağ kimi kiçik bir yerə dövlət müstəqilliyi statusu əldə etmək istəyir.

Dağlıq Qarabağ Azərbaycanın tərkibində kiçik bir vilayətdir, onun ərazisi 4 min kvadrat kilometrdir. 1988-ci ildə münaqişə başlayarkən bu vilayətin ərazisində cəmi 170 min əhali yaşayırdı. Əhalinin 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar idi. Münaqişə nəticəsində azərbaycanlılar Dağlıq Qarabağdan zorla çıxarılıblar, indi orada ermənilər yaşayır. Ancaq münaqişə ilə əlaqədar ermənilərin də çoxu oradan köçübdür. İndi orada çox az miqdarda əhali yaşayır.

1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə məsələnin sülh yolu ilə həll olunması üçün prinsiplər müəyyən edilibdir. Bu prinsiplərə görə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməlidir. Biz bu prinsipləri qəbul etmişik, ancaq Ermənistan tərəfi qəbul etmir. Ona görə də məsələ indiyə qədər həll olunmayıbdır.

Azərbaycanın əhalisi 8 milyon nəfər, ərazisi 86 min kvadrat kilometrdir. Azərbaycan böyük sənaye, eyni zamanda çox böyük kənd təsərrüfatı ölkəsidir. Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra iqtisadi potensialını inkişaf etdirməyə, təbii ehtiyatlarından daha da səmərəli istifadə etməyə çalışır. Dövlət müstəqilliyi əldə edəndən sonra biz keçmiş kommunist ideologiyasından imtina etmişik. Azərbaycanın öz tarixi ənənələrinə, dünyada bütün sınaqlardan çıxmış demokratiya prinsiplərinə uyğun olaraq ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi həyata keçirilir. Biz Azərbaycanda ciddi islahatlar – həm siyasi, həm də iqtisadi islahatlar həyata keçiririk. Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurub

inkişaf etdirməyə, Azərbaycanı dünya iqtisadiyyatı ilə daha sıx bağlamağa çalışırıq.

Bu sahədə Azərbaycanın enerji ehtiyatlarından istifadə olunması xüsusi əhəmiyyət daşıyır. İndiyə qədər Azərbaycan ərazisində çox neft hasil olunubdur. Ancaq Azərbaycan ərazisinin həm quru hissəsində, həm də Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqları indi də mövcuddur. Bunlardan səmərəli istifadə etmək üçün biz son illərdə dünyanın böyük neft şirkətləri ilə müştərək iş görmək məqsədi ilə bir çox tədbirlər həyata keçirmişik. O cümlədən, Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri Azərbaycanda bizimlə birgə iş görürlər.

Biz 1994-cü ildə Amerika Birləşmiş Ştatlarının və başqa Qərb ölkələrinin iri neft şirkətləri ilə bərabər böyük bir müqavilə imzalamışıq. O, «Əsrin müqaviləsi» adlandırılıbdır. İndi bu müqavilə həyata keçirilir və bunun nəticəsində 1997-ci ildə ilkin neft almışıq. Həmin neftin ixracı üçün Bakıdan Qara dənizdəki Novorossiysk limanına böyük bir neft kəməri yaratmışıq. Bu kəmər vasitəsilə nefti ixrac edirik.

Biz ikinci neft kəməri də yaratmışıq. O, Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına çəkilmişdir. Bu da istismara verilib və onun vasitəsilə neft Qara dənizə, oradan da dünya bazarına icrac olunur.

Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarında təxminən 4 milyard tondan 10 milyard tona qədər neft ehtiyatları aşkar edilmişdir. Bu yataqların müştərək işlənilməsi və neft hasilatı üçün imzalanmış müqavilələr əsasında Azərbaycana təxminən 50 milyard dollar həcmində investisiya qoyulması nəzərdə tutulur. Neftin dünya bazarlarına ixrac edilməsi üçün biz yeni – əsas neft kəmərinin çəkilməsinə də başlayacağıq. Bu, Bakı–Ceyhan neft kəməridir, Bakıdan Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkilməlidir.

Xəzər dənizi böyük neft ehtiyatlarına malikdir. Biz Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının işlənilməsinə başlamışıq. Amma Xəzər dənizinin digər sektorlarında da zəngin neft yataqları var. Beləliklə, Xəzər dünyanın ən böyük enerji ehtiyatlarına malik olan regionudur.

Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri – «AMOKO», «Yunokal», «Penzoyl» «Eksson», «Mobil», «Şevron» və başqaları Azərbaycanda artıq bizimlə müştərək iş görürlər. Bu günlərdə Vaşinqtonda Amerikanın neft şirkətləri ilə Azərbaycan arasında üç böyük müqavilənin imzalanması nəzərdə tutulubdur.

Beləliklə, biz Xəzər dənizini dünyaya təqdim etmişik. Onun enerji ehtiyatlarının dünya ölkələri üçün istifadə olunmasından ötrü böyük imkanlar yaratmışıq.

Azərbaycan çox əlverişli coğrafi-strateji mövqeyə malik ölkədir, Avropa ilə Asiyanın qovuşduğu bir yerdə və tarixi böyük İpək yolunun keçdiyi ərazidə yerləşir. Ona görə Azərbaycan tarixi İpək yolunun bərpası sahəsində də son illər çox ciddi işlər görmüşdür. Bizim neft strategiyamızın əsasında və tarixi İpək yolunun bərpa edilməsi sayəsində Şərqlə Qərbin, Avropa ilə Asiyanın daha sıx iqtisadi əlaqələr saxlaması üçün böyük imkanlar yaradırıq.

Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir. Biz bütün ölkələrlə sülh və əmin-amanlıq prinsipləri əsasında əməkdaşlıq etməyə çalışırıq. Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizə strateji nöqteyi-nəzərdən baxırıq. Bu əlaqələr strateji əhəmiyyət kəsb edir. 1997-ci ilin avqust ayında Amerika Birləşmiş Ştatlarına rəsmi səfər etdiyim zaman biz ABŞ-ın prezidenti və hökumət üzvləri ilə çox səmərəli danışıqlar aparmış və ölkələrimiz arasında çox mühüm sənədlər imzalamışıq. Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi bütün sahələrdə inkişaf etdirməyə çalışırıq. Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında fəal iştirak edir və

biz bundan sonra da bu proqramın həyata keçirilməsində iştirak etməyə çalışacağıq.

Bildiyiniz kimi, mən buraya NATO-nun 50 illik yubileyi münasibətilə gəlmişəm. NATO-nun 50 illik yubileyi ilə bağlı mərasimlərdə iştirak edəcəyəm və bu günlər biz NATO ilə əməkdaşlığın özümüz üçün çox vacib olduğunu nümayiş etdiririk.

Azərbaycanın Silahlı Qüvvələri, ordusu gəncdir. Xəzər dənizində Azərbaycanın hərbi dəniz donanması da var. Bilirsiniz ki, Xəzər qapalı dənizdir, ona görə orada dəniz qüvvələri də o qədər güclü deyildir. Ancaq Azərbaycanın da hərbi dəniz donanmasının tarixi və yaxşı ənənələri vardır. Mən sizi Azərbaycana dəvət edirəm. Güman edirəm ki, hər biriniz Azərbaycanı ziyarət etsəniz, çox yaxşı təəssürat əldə edə bilərsiniz.

Mən təhsilinizdə və gələcək işlərinizdə sizə bir daha uğurlar arzulayıram. İndi isə sizin suallarınıza cavab verməyə hazıram.

R a s s e l *(Hərbi Dəniz Akademiyasının professoru)*: Cənab prezident, təşəkkür edirəm. İndi isə mən bu mərasimi suallar üçün açıq elan edirəm. Fürsətdən istifadə edərək istərdim ki, Sizə ilk sualla mən müraciət edim.

Azərbaycanın çox mühüm coğrafi-strateji mövqeyi vardır. Xəzər dənizinin Azərbaycan sektorunda, habelə Mərkəzi Asiyada çox zəngin təbii sərvətlər var. Eyni zamanda Azərbaycanda insan ehtiyatları da böyükdür. Çox zaman Azərbaycan qapalı halda olan, lakin çox zəngin məkana bənzədirlər. Bilmək istərdim ki, belə zəngin ehtiyatlara malik olan ölkənin Rusiya ilə münasibətləri necədir, Rusiya–Azərbaycan münasibətləri barədə nə deyə bilərsiniz?

H e y d ə r Ə l i y e v: Azərbaycanın Rusiya ilə münasibətləri normaldır. Biz həmişə çalışırıq ki, sulhsevər siyasət aparaq, Rusiya ilə – o, şimalda bizim böyük qonşumuzdur, -

bütün sahələrdə əməkdaşlıq edək və əlaqələrimizi inkişaf etdirək. Bu ikitərəfli Rusiya–Azərbaycan münasibətləri son illər, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra sürətlə inkişaf edir.

Azərbaycan, demək olar, 200 il Rusiyanın tərkibində olubdur. XIX əsrin əvvəlində Rusiya Azərbaycanı zəbt edib və Azərbaycan o vaxtdan Çar Rusiyasının müstəmləkəsi vəziyyətində yaşayıbdır. 1920-ci ildə Rusiyanın ordusu gəlib Azərbaycanda müstəqil ölkənin, müstəqil dövlətin hakimiyyətini devirib və sovet hakimiyyətini yaradıbdır. Ondan sonra Azərbaycan 70 il Sovetlər İttifaqının tərkibində, demək olar ki, yenə də Rusiyanın tərkibində olmuşdur. Ona görə Rusiya ilə Azərbaycan arasında iqtisadi əlaqələr çox dərin, geniş və hərtərəflidir. İnsani əlaqələr də çox genişdir.

Rusiya şimalda bizim qonşumuz, çox böyük ölkədir. Ona görə biz istəyirik ki, Rusiya–Azərbaycan əlaqələri həmişə yaxşı istiqamətdə inkişaf etsin. Ancaq təəssüf ki, Rusiyanın bəzi dairələri Azərbaycana qarşı ədalətsiz hərəkətlər edir və ədalətsiz siyasət aparırlar. Biz xüsusən Ermənistan–Azərbaycan münaqişəsində Rusiyamn mövqeyindən narazıyıq. Minsk qrupunun həmsədri kimi Rusiya Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində çalışır. Amma təəssüflər olsun ki, son illər aşkar olubdur ki, Rusiya Ermənistanı gizli surətdə silahlandırır. 1994-cü ildən sonra təxminən iki il müddətində Rusiya Ermənistana gizli olaraq qanunsuz bir milyard dollar dəyərində silah-sursat və hərbi texnika vermişdir. Bu isə bizi çox narahat edir. Bizi narahat edən bir də odur ki, Rusiya Ermənistan ərazisində özünün hərbi bazasını yaradıb və o bazanı get-gedə daha güclü silahlarla silahlandırır. Son vaxtlar Rusiya Ermənistan ərazisində olan hərbi bazasında güclü müasir silahlar – S-300 raketləri, MİQ-29 təyyarələri yerləşdiribdir. Biz buna etiraz edirik, etirazımızı bildiririk, ancaq bunlar da bir nəticə vermir.

Beləliklə, görürsünüz ki, Rusiya ilə münasibətlərimizdə müsbət cəhətlər çoxdur, ancaq bizi narahat edən cəhətlər də vardır. Ümumiyyətlə, biz istəyirik ki, Qafqazda silah olmasın, Qafqazı militaristləşdirmək lazım deyildir. Əksinə, Qafqazı sülh bölgəsi etmək lazımdır. Təəssüf ki, Rusiya bunun əksinə hərəkət edir.

S u a l: Cənab prezident, bilmək istərdim ki, Xəzər dənizindən neftin ixrac marşrutları barəsində sizin ölkənin mövqeyi necədir? Bəzi neft şirkətləri bu neftin Rusiya və ya İran vasitəsilə ixracına tərəfdardırlar. Amerika Birləşmiş Ştatlarının mövqeyi isə Xəzərin enerji ehtiyatlarının Qərbə ixracını nəzərdə tutur. Bu məsələdə Sizin dövlətin mövqeyi necədir?

H e y d ə r Ə l i y e v: Bu barədə bizim mövqeyimiz Amerika Birləşmiş Ştatları dövlətinin və şirkətlərinin mövqeyi ilə üst-üstə düşür. Mən artıq bildirdim ki, biz Azərbaycandan nefti dünya bazarlarına çatdırmaq üçün qısa bir zamanda iki neft kəmərinin çəkilməsinə nail ola bilmişik. Birinci neft kəməri şimal istiqamətində – Rusiyanın Qara dənizdəki Novorossiysk limanına çəkilibdir. Bu kəmərlə neft artıq ixrac olunur. İkinci neft kəməri qərb istiqaməti ilə gedir, Bakıdan *Gürcüstanın Qara dəniz sahilindəki Supsa limanına* çəkilibdir. Bir neçə gün bundan öncə həmin kəmər vasitəsilə də neft ixracına başlanıbdır.

Üçüncü neft kəməri isə əsas kəmərdir, Bakıdan Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkiləsi neft kəməridir. Bu, böyük neft kəməridir və gələcəkdə Xəzər dənizində, təkcə Azərbaycanda deyil, hətta Qazaxıstanda və Türkmənistanda da hasil edilən neftin dünya bazarına çıxarılması üçün çox əhəmiyyətli kəmər olacaqdır. Amerika Birləşmiş Ştatlarının hökuməti bu neft kəmərinin çəkilməsinə çox böyük maraq göstərir. Biz də bu neft kəmərinin çəkilməsini çox mühüm bir strateji hadisə hesab edirik. Güman edirəm ki, neft şirkətləri, o cümlədən Amerikanın şirkətləri ilə birlikdə bu neft

kəmərinin çəkilməsi üçün də lazımi işlər görüb onun inşasına başlayacağıq. Nəticə etibarilə bu, Qərb ölkələri şirkətlərinin bütün maraqlarını təmin edəcəkdir.

S u a l: Cənab prezident, bilmək istərdik ki, nüvə silahları sahəsində çalışan Rusiya alimləri ilə İranın birgə əməkdaşlığı Azərbaycan–İran münasibətlərinə necə təsir edir?

H e y d ə r Ə l i y e v: Biz istəyirik ki, Azərbaycan – İran münasibətləri normal olsun. Çünki İran cənubda bizim qonşumuz və böyük ölkədir. İranın nüvə silahlarına maraq göstərməsi bizi narahat edir. Onun Rusiya ilə əməkdaşlığı da sizə və bütün dünyaya məlumdur. Biz ümumiyyətlə nüvə silahının əleyhinəyik. Xüsusən yaxın qonşumuz İranın nüvə silahı əldə etməsi bütün region üçün çox təhlükəlidir. Hesab edirik ki, bütün imkanlar vasitəsilə bunun qarşısı alınmalıdır.

* * *

R a s s e l: Cənab prezident, xahiş edirik nəzərə alasınız ki, akademiyanı ziyarət etməyiniz bizim üçün çox tarixi bir hadisə oldu. Ona görə xahiş edirik Hərbi Dəniz Akademiyasının tarixini əks etdirən bu kitabı hədiyyə olaraq qəbul edəsiniz. Bu görüşümüzün tarixi əhəmiyyətini bir daha vurğulamaq məqsədi ilə görüşdə iştirak edən hər bir kursant kitabı imzalayıbdır.

H e y d ə r Ə l i y e v: Hədiyyə üçün təşəkkür edirəm. Mənim Amerika Birləşmiş Ştatlarına səfərimlə əlaqədar tərtib edilmiş kitabı və Azərbaycanın NATO ilə əməkdaşlığına həsr olunmuş kitabı sizə təqdim edirəm.

* * *

ABŞ Hərbi Dəniz Akademiyasının 4 min kursantı ilə birgə nahar mərasimində çıxış

Mən sizi səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Amerika Birləşmiş Ştatları Hərbi Dəniz Donanmasının Akademiyası ilə tanış olmaq mənə çox böyük təsir etdi. Buranın şəraiti, binaları, bütün bu kompleks çox əzəmətlidir, nəhəngdir və fəxredicidir. Ancaq mənə hər şeydən çox akademiyanın kursantları, tələbələri, Amerika Birləşmiş Ştatlarının Silahlı Qüvvələrində xidmət etməyə hazırlaşan siz gənclər təsir etdiniz. Amerika Birləşmiş Ştatlarına, onun silahlı qüvvələrinə, Hərbi Dəniz Donanmasına və sizin akademiyaya, şəxsən hər birinizə öz hörmət və ehtiramımı bildirirəm. Amerika Birləşmiş Ştatlarının Silahlı Qüvvələrinin inkişaf etməsində, hərbi qüdrətinin güclənməsində öz şəxsi xidmətlərinizdə sizə uğurlar arzulayıram. Sizə cansağlığı, səadət, yeni-yeni uğurlar arzu edirəm.

* * *

Akademiyanın xatirə salonunda «Vaşinqton post» qəzeti müxbirinin suallarına cavab

Xatirə salonu həqiqətən böyük bir muzeyi xatırladır. Burada hər şey çox yüksək səviyyədədir. Mən xüsusən, burada təhsil alanların yüksək səviyyədə olduğunu gördüm. Çox möhkəm nizam-intizam, qanun-qayda var. Təhsil alanların yüksək mənəvi keyfiyyətləri hiss edilir. Bunlar hamısı doğrudan da çox böyük hissiyyatlar doğurur. Amerika Birləşmiş Ştatlarının Hərbi Dəniz Qüvvələri çox güclüdür. Belə böyük hərbi məktəbdə təhsil alan insanlar, şübhəsiz ki, yaxşı da xidmət edirlər.

Yeməkləri də çox gözəldir. Mən də yedim, çox xoşuma gəldi. Mən 4 min adamın bir yerdə yemək yeməsini heç gör-

məmişdim. Özü də yüksək nizam-intizam vardır, qısa bir zamanda yeyib qurtardılar. Bu, hər şeyin yaxşı təşkil olunduğunu göstərir.

* * *

Akademiyanın rektoru, vitse admiral super intendant Con Rayan ilə görüşdəki söhbətdən

C o n R a y a n: Cənab prezident, akademiyamızı ziyarət etməklə bizi son dərəcə şərəfləndirdiniz. Ümidvarıq ki, ziyarətinizdən tam razı qaldınız. Yəqin ki, 4 min kursantla qısa bir zamanda olan naharı da xoşladınız. 4 min gənc adamı ilin 365 günündə hər gün üç dəfə yedirtmək asan iş deyildir. Mənə bildirdilər ki, Siz bizim kursantlar qarşısında çıxış etmisiniz. Əminəm ki, kursantlarımız Sizin çıxışınızdan çox faydalanmışlar. Bu işlər üçün vaxt ayırdığınız üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm.

H e y d ə r Ə l i y e v: Mən zəngin tarixə malik ABŞ Hərbi Dəniz Akademiyasına gəlməyimdən, bu hərbi təhsil ocağı ilə tanış olmağımdan məmnun qaldığımı vurğulamaq istəyirəm. Akademiyada gördüyüm nizam-intizam, mütəşəkkillik məndə böyük təəssürat doğurmuşdur. Bu akademiya ABŞ Hərbi Dəniz Donanmasını yüksək ixtisaslı zabitlərlə təmin edən yeganə hərbi təhsil müəssisəsidir.

C o n R a y a n: Cənab prezident, vaxt əldə edib bizim akademiyaya gəlməyiniz çox xoşdur və bu ziyarətiniz tarixi bir hadisə oldu. Xahiş edirəm, bu görüşdən xatirə olaraq akademiyanın fəaliyyətini əks etdirən albomu və xatirə hadiyyəsini qəbul edəsiniz.

H e y d ə r Ə l i y e v: Təşəkkürümü bildirirəm. İcazənizlə mən də sizə Azərbaycan rəssamının rəsm əsərini, Azərbaycan – Amerika münasibətlərindən, ölkəmizin NATO ilə əlaqələrindən bəhs edən kitabları hədiyyə edim.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ BİLL KLİNTON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Vaşinqton, Ağ ev

24 aprel 1999-cu il

Bill Klinton: Cənab prezident, Heydər Əliyev, Sizi Vaşinqtonda, Ağ evdə yenidən salamlamaqdan böyük məmnunluq duyduğumu bildirirəm. Amerika ilə Azərbaycan arasında qarşılıqlı surətdə faydalı əlaqələrin inkişaf etdirilməsi sahəsində göstərdiyiniz səylərə görə Sizə minnətdarlıq edirəm. Sizinlə mənim aramızda yaranmış şəxsi dostluq münasibətlərini yüksək qiymətləndirirəm.

Cənab prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında Sizin xidmətlərinizi yüksək qiymətləndiririk.

Bakı-Supsa boru kəmərinin istismara verilməsi münasibətilə Sizi təbrik edirəm. Xəzərin zəngin ehtiyatlarının dünya bazarlarına alternativ yollarla ixrac olunması region dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaqdır.

Heydər Əliyev: Hörmətli cənab prezident, mən də Sizi yenidən görməyimdən çox şadam. Sizinlə görüşüm mənim yaxşı xatirimdədir. NATO-nun 50 illik yubileyinə həsr edilmiş görüşdə iştirak etdiyimə çox şadam. Onu da qeyd edim ki, NATO-nun Vaşinqton sammitində irəli sürülmüş yeni konsepsiyanı dəstəkləyir və alqışlayıram. Bakı–Supsa neft boru kəmərinin istismara verilməsi münasibətilə səmimi

təbrikinizə görə Sizə təşəkkür edirəm. Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması, 907-ci düzəlişin ləğv olunması barədə, habelə Amerika-Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi ilə bağlı göndərdiyiniz məktubları yüksək qiymətləndirir və bunlara görə bir daha Sizə təşəkkür edirəm. Ümidvaram ki, birgə səylərimiz nəticəsində Azərbaycan–Amerika əməkdaşlığının parlaq gələcəyini təmin edəcəyik.

Xəzər dənizi regionunda ABŞ-ın iqtisadi maraqlarının təmin olunmasında Azərbaycanın aparıcı rol oynadığını vurğulayaraq qeyd etmək istəyirəm ki, bizim nailiyyətlərimiz həm Azərbaycanın, həm də bütün regionun inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Hörmətli prezident, Sizə məlumdur ki, Ermənistan ilə Azərbaycan arasında gedən müharibəni 1994-cü ilin may ayında dayandıra bilmişik. Beş ildən artıqdır ki, cəbhədə atəşkəsə nail olunmuşdur. Biz münaqişəni sülh yolu ilə həll etməyə çalışırıq. Respublikamızın göstərdiyi bütün səylərə, BMT-nin müvafiq qərarlarına, ATƏT-in Minsk qrupunun bu istiqamətdə göstərdiyi işlərə baxmayaraq, hələ də sülh əldə edilməmişdir. Ümid edirəm ki, Azərbaycan xalqının həyatına böyük müsibətlər gətirmiş bu münaqişənin sülh yolu ilə nizamlanmasına ABŞ daha çox fəallıq göstərəcəkdir.

Bill Klinton: Cənab prezident, bəyan edirəm ki, mən prezidentlik vəzifəsini başa çatdıranadək mütləq səylər göstərib bu münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olacağam.

Sizinlə olan şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm. Sizi həm Amerikanın, həm də şəxsən mənim dostum hesab edirəm. Hesab edirəm ki, ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da inkişaf etməsi üçün gələcəkdə də fəal əməkdaşlıq etməliyik.

FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Vaşinqton

24 aprel 1999-cu il

J a k Ş i r a k: Cənab prezident, Sizi səmimiyyətlə salamlayıram, NATO-nun 50 illiyinə həsr olunmuş yubiley tədbirlərində Sizi görməkdən məmnun qaldığımı bildirir, Sizinlə yenidən görüşməyimə çox şadam.

H e y d ə r Ə l i y e v: Səmimi və xoş sözlərə görə təşəkkürümü, hörmət və ehtiramımı bildirirəm. Qeyd etmək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunun həmsədri kimi, Fransanın bu sahədə səylərinə böyük ümidlər bəsləyirəm. Bu münasibətlə bu ilin fevral ayında Fransa prezidentinə göndərdiyim məktuba aldığım cavaba görə Sizə, hörmətli Jak Şirak, təşəkkürümü bildirirəm.

Mən Minsk qrupu həmsədrlərinin «Ümumi dövlət» barədə təkliflərinin Azərbaycan üçün qəbul edilməz olduğunu qeyd etmək istəyirəm. Minsk qrupu həmsədrlərinin öz fəaliyyətlərini daha da genişləndirmələrini arzu edirəm.

---

* Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev aprelin 24-də Vaşinqtonda həmçinin, Bolqarıstan prezidenti Petar Smoyanov, Polşa prezidenti Aleksandr Kvasnevski, Belçikanın Baş naziri Jan Lük Dean, Latviya prezidenti Qyutes Ulmanis ilə görüşmüş, ölkələrimizin və xalqlarımızın mənafeyinə uyğun, qarşılıqlı surətdə faydalı əməkdaşlığın perspektivlərini nəzərdən keçirmişlər.

J a k Ş i r a k: Münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunda Fransanın bundan sonra da fəal rol oynayacağına əmin ola bilərsiniz. Təəssüflə qeyd etmək istəyirəm ki, keçən il sülh əldə edilməsinin çox yaxın olmasına baxmayaraq, prezident Ter-Petrosyanın istefa verməsi Minsk prosesində fasilə yaratdı. Lakin buna baxmayaraq, ümidvar olduğumu bildirirəm ki, Minsk qrupunun həmsədrləri tərəfləri razı sala bilən və bölgədə tam sülhün bərqərar olunmasına yol açan yeni təşəbbüslər göstərəcəklər. Bu məqsədə nail olmaq üçün mən Fransa prezidenti kimi, öz səylərimi artıracağımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Cənab prezident, bu fəaliyyətinizə görə Sizə təşəkkür edirəm. Azərbaycan ilə Fransa arasında dostluq münasibətlərinin daha da dərinləşdirilməsi, iki ölkənin iqtisadiyyat və mədəniyyət sahələrində əməkdaşlığı bizi daha da sevindirir.

J a k Ş i r a k: Ölkələrimizin əlaqələrinin gündən-günə inkişaf etməsini mən də yüksək qiymətləndirirəm. Bütün bunlar bizi daha da yaxınlaşdırır.

GUÖAM ÖLKƏLƏRİNİN DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ BƏYANAT

Vaşinqton, Özbəkistan səfirliyi

24 aprel 1999-cu il

Hörmətli xanımlar və cənablar!

Bu gün burada, Vaşinqtonda, Özbəkistan səfirliyində GUAM təşkilatına daxil olan ölkələrin dövlət başçılarının görüşü keçirildi. Mühüm hadisə baş vermişdir – bizim təşkilatımız Özbəkistanı böyük məmnuniyyətlə öz üzvliyinə qəbul etdi. Özbəkistanın bizim təşkilatın üzvü olması münasibətilə mən prezidentlər adından Özbəkistanı və onun prezidenti İslam Kərimovu alqışlayıram.

Biz təşkilatımızın keçən vaxt ərzindəki fəaliyyətini müzakirə etdik və təsdiq etdik ki, ötən müddət təşkilatın zəruriliyini və həyat qabiliyyətinə malik olduğunu göstərmişdir. Təşkilat hər şeydən öncə coğrafi prinsipə əsaslanır, ona daxil olan ölkələrin iqtisadi əməkdaşlığı və daha çox Transqafqaz magistralı vasitəsilə əməkdaşlığı məqsədlərinə xidmət edir. Transqafqaz magistralından ölkələrimizin iqtisadi mənafeləri naminə istifadə etmək üçün ötən vaxt ərzində çox iş görülmüşdür. Məsələn, ötən ilin sentyabrında Bakıda keçirilmiş beynəlxalq konfrans böyük İpək yolunun gələcək inkişafının, TASİS proqramının reallaşdırılmasının əsas prinsiplərini işləyib hazırlamışdır.

Xəzər dənizindən çıxarılan Azərbaycan neftinin ixracı üçün bu yaxınlarda istismara buraxılmış Bakı–Supsa neft kəməri

artıq işləyir. Aprelin 17-də Poti-İliçovsk dəmir yolu bərə keçidinin təntənəli açılışı olmuşdur və o, Transqafqaz magistralının imkanlarını genişləndirir. Bunlar hamısı bizim təşkilatımızın real nailiyyətləridir. Ancaq eyni zamanda bunlar yaxşı perspektivdən xəbər verir.

Biz inanırıq ki, təşkilatımız ölkələrimizin mənafeyinə xidmət edir. Biz inanırıq ki, təşkilatımız təkcə onun üzvlərinin deyil, ötən ilin sentyabrında Bakıda konfransa toplaşan 30-dan çox ölkənin də maraq göstərdiyi böyük İpək yolunun bərpasına fəal surətdə kömək edəcəkdir. Bax, bu hisslərlə də biz öz görüşümüzü qurtardıq. Biz təşkilatımızın icraçı katibliyinin yaradılması haqqında razılığa gəldik. Diqqətinizə görə sağ olun.

QAFQAZ VƏ ORTA ASİYA ÖLKƏLƏRİ RƏHBƏRLƏRİNİN VƏ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜNDƏ* ÇIXIŞ

Vaşinqton, Kapitoli binası

24 aprel 1999-cu il

Hörmətli cənab senator Braunbek!
Hörmətli prezidentlər!
Xanımlar və cənablar!

Sizi ürəkdən salamlayıram və tarixi hadisə – Amerika Konqresində böyük İpək yolu haqqında qanunun müzakirəsi münasibətilə təbrik edirəm.

Böyük İpək yolunun bərpası haqqında Amerika Konqresinin qanun qəbul etməsi üçün senator Braunbekin təşəbbüsünü alqışlayıram.

Bu gün bizim Vaşinqtona, Amerika Konqresinə toplaşaraq, Avrasiya prosesi, bütün dünya birliyi üçün çox böyük əhəmiyyətə malik məsələni müzakirə etməyimiz tarixi hadisədir. Lakin bu məsələ bizim üçün – tarixi İpək yolunun marşrutu üstündə bilavasitə yerləşən Avrasiya qitəsinin ölkələri üçün xüsusilə böyük əhəmiyyətə malikdir.

---

*Görüşü ABŞ senatının seçilmiş, Beynəlxalq Münasibətlər Komitəsinin üzvü, «İpək yolu strategiyası» haqqında qanun layihəsinin təşəbbüsçüsü senator Sem Braunbek təşkil etmişdir.

Görüşdə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Moldova, Tacikistan, Özbəkistan, Rumıniya və Türkiyə prezidenləri, habelə Türkmənistan, Qırğızıstan və Ermənistanın xarici işlər nazirləri çıxış etdilər.

Senator Braunbekə bu təşəbbüsə görə təşəkkür edirəm. Burada cənab Bekkerin, cənab Bzejinskinin, cənab Bergerin çox dəyərli fikirlərini eşitmək mənə xoş idi. Bu çıxışlar tam inam yaradır ki, böyük tarixi İpək yolunun bərpasına dair təşəbbüs Amerika Konqresində dəstəklənəcək, qanun qəbul ediləcək və biz XXI əsrin əzəmətli layihəsinin həyata keçirilməsinin şahidləri olacağıq.

Azərbaycan tarixi İpək yolunun mərkəzində yerləşir, bu layihənin həyata keçirilməsində mühüm məntəqədir. Biz bu təşəbbüsü həmişə alqışlamışıq, İpək yolunun problemləri ilə çoxdan məşğul oluruq və artıq xeyli iş görmüşük. Bir çox ölkələrlə və Amerika Birləşmiş Ştatlarının, Avropanın və digər ölkələrin bir çox neft şirkətləri ilə birgə işimiz konkret nəticələrə gətirib çıxarmışdır. Biz artıq Xəzər dənizinin zəngin neft ehtiyatlarını mənimsəyirik və onları çəkilmiş olan Bakı-Novorossiysk və Gürcüstanın Qara dəniz sahilinə gedən Bakı–Supsa neft kəmərləri ilə dünya bazarlarına ixrac etmək imkanına malikik. Biz gələcəkdə Xəzər dənizindən bol neftin ixracı üçün Azərbaycandan başlayıb Gürcüstan vasitəsilə Türkiyəyə, Aralıq dənizi sahilindəki Ceyhan limanına gedən Bakı-Ceyhan böyük neft kəməri üzərində işləyirik.

Biz İpək yolu ilə, Transqafqaz magistralı ilə yük daşımaları layihələrinin həyata keçirilməsi üçün çox işlər görmüşük. Biz Transqafqaz dəhlizi yaratmışıq, bu marşrutla Şərqdən Qərbə və Qərbdən Şərqə yüklər daşınmasını həyata keçiririk.

Lakin bu başlanğıcdır. Ötən ilin sentyabrında Bakıda böyük İpək yolunun bərpasına dair TRASEKA proqramının həyata keçirilməsinə həsr edilmiş beynəlxalq konfrans olmuşdur. Bu konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmişlər. Biz çox mühüm sənədlər qəbul etdik və bu sənədlər İpək yolu proqramının yerinə yetirilməsi üçün əsasdır. Ancaq Amerika Konqresinin bu məsələ haqqın-

da qanun qəbul etməsi həmin layihənin həyata keçirilməsində, şübhəsiz, son dərəcə mühüm rol oynayacaqdır.

Biz bu layihənin həyata keçirilməsini iqtisadiyyatımızın daha da inkişaf etməsi, müstəqilliyimizin möhkəmlənməsi, əziyyət çəkdiyimiz münaqişələrin aradan qaldırılması üçün bir vasitə kimi qiymətləndiririk. Qafqazdakı hərbi münaqişələr ölkələrimizə, Qafqazda sülhə və sabitliyə olduqca böyük ziyan vurur. Ümidvarıq ki, qanunun qəbul olunması, onun əməli surətdə həyata keçirilməsi münaqişələrin, o cümlədən Ermənistanla Azərbaycan arasında artıq 10 ildən çoxdur davam edən münaqişənin tamamilə aradan qaldırılmasında bizə kömək edəcəkdir. Bu münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, etnik təmizləmələr nəticəsində oradan bir milyon nəfərdən artıq azərbaycanlı köçürülmüşdür və indi onlar çox ağır şəraitdə, çadırlarda yaşayırlar.

Biz Ermənistanla Azərbaycan arasında münaqişənin dinclikl nizama salınması üçün tədbirlər görürük. Biz bu tədbirləri bundan sonra da həyata keçirəcəyik. Ümidvaram ki, İpək yolu haqqında qanun qəbul olunması münaqişələrin, o cümlədən də bizim əziyyət çəkdiyimiz münaqişənin aradan qaldırılması üçün bütün tədbirlərin görülməsinə kömək edəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Sizin hamınıza uğurlar, sülh və sabitlik arzulayıram. Diqqətinizə görə sağ olun.

ABŞ-ın KEÇMİŞ DÖVLƏT KATİBİ, GÖRKƏMLİ SİYASİ XADİM HENRİ KİSSİNCER İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Vaşinqton

24 aprel 1999-cu il

Henri Kissincer: Cənab prezident, Sizi səmimiyyətlə salamlayıram. Sizin ölkəmizə səfərinizi və Bakıda keçirdiyimiz görüşləri məmnuniyyətlə xatırlayıram. Sizin ilə hər bir görüşdən məmnunluq duyduğumu və Sizə böyük hörmət və ehtiram bəslədiyimi bildirirəm.

Heydər Əliyev: Xoş sözlərə görə təşəkkür edirəm. NATO-nun 50 illik yubileyinə həsr olunmuş tədbirlərdə iştirakıma böyük əhəmiyyət verdiyimi nəzərə çarpdırıram. Görüş iştirakçılarına məlumat verim ki, indi Azərbaycan müstəqil dövlətdir, müstəqil dövlət kimi fəaliyyət göstərir, çoxpartiyalı sistem əsasında demokratik parlament seçilmiş, xarici sərmayələrin ölkəmizə böyük axını başlanmışdır. Müstəqillik əldə etmiş Azərbaycan heç vaxt bu yoldan dönməyəcəkdir.

Qafqazdakı mövcud münaqişələrə gəlincə, onu deyim ki, bu ilin mayında Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində atəşkəs rejimi əldə edilməsinin 5 ili tamam olacağına baxmayaraq, münaqişə hələ də aradan qaldırılmamışdır. ATƏT-in Minsk qrupunun fəaliyyətindəki passivliyi

---

* Görüşdə keçmiş dövlət katibi Loyrens İqlberger, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə keçmiş müşaviri Brend Skonkroft, «Enron» şirkətinin prezidenti Lej Kennet iştirak edirdilər.

xüsusi vurğulamaq istəyirəm. Böyük coğrafi-strateji və iqtisadi əhəmiyyəti olan Qafqaz regionunda sülh və sabitlik əldə edilməsi məqsədi ilə münaqişələrin həllində ABŞ-ın daha fəal iştirakı vacibdir.

Məlumat verim ki, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində ərazilərimizin 20 faizi işğal altındadır, bir milyondan çox vətəndaşımız çadırlarda ağır vəziyyətdə yaşayır. Biz münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün bu ilin əvvəlində Minsk qrupunun həmsədrləri olan ölkələrin prezidentlərinə – B.Klintona, J.Şiraka, B.Yeltsinə məktub göndərərək onları öz səylərini fəallaşdırmağa çağırmışıq. Həmçinin ATƏT-in Minsk qrupunun «ümumi dövlət» haqqında son təklifinin Azərbaycan tərəfindən rədd edildiyini, bu təklifin dövlətimiz üçün qətiyyən yolverilməz olduğunu xüsusi vurğulamaq istəyirəm.

Görüş iştirakçılarının nəzərinə çatdırmaq istəyirəm ki, Rusiyanın münaqişə tərəflərindən biri olan Ermənistanı silahlandırması, Ermənistana qanunsuz və gizli olaraq bir milyard dollar məbləğində silah göndərməsi faktı aşkar edilmişdir. Rusiya buradakı hərbi bazasını genişləndirir. Hazırda Ermənistana S-300 raketləri, MİQ-29 təyyarələri göndərmişdir. Azərbaycan bütün bunlardan çox narahatdır.

Hazırda Avropanın mərkəzində – Yuqoslaviyada baş verən hadisələr dünya üçün çox təhlükəli nümunədir. Bütün münaqişələrin beynəlxalq hüquq normaları çərçivəsində həllinin zəruriliyini qeyd edərək bildirirəm ki, biz bu ölkənin ərazi bütövlüyünü tanıyırıq, lakin etnik təmizləmə siyasətini qətiyyətlə pisləyirik.

B r e n d S k o u k r o f t: Cənab prezident, mən Xəzər neftinin hasilatı və nəqli məsələləri ilə maraqlanıram. Bu barədə nə deyə bilərsiniz?

H e y d ə r Ə l i y e v: Məlumat verim ki, Azərbaycan 1994-cü ildə Amerika Birləşmiş Ştatlarının və Qərb ölkələri-

nin iri neft şirkətləri ilə «Əsrin müqaviləsi» adlanan böyük bir müqavilə imzalamış, sonralar da beynəlxalq şirkətlərlə neft müqavilələri bağlamışdır. Xəzər neftinin nəqlində Qərb istiqamətinin marşrutları əsas götürülmüşdür.

Ley Kennet: Mən Xəzərin zəngin neft və qaz ehtiyatları barədə kifayət qədər informasiyaya malik olduğumu və başçılıq etdiyim şirkətin Azərbaycandan qazın nəqli sahəsində əməkdaşlığa hazır olduğunu bildirirəm.

Heydər Əliyev: Azərbaycanın bütün dünyanın iş adamları üçün açıq olduğunu, xarici şirkətlərin ölkəmizdə geniş fəaliyyət göstərməsindən ötrü hər cür şərait yaradıldığını vurğulayaraq bildirirəm ki, biz öz iqtisadiyyatımızın dünya birliyi ilə sıx bağlanmasına, beynəlxalq inteqrasiyaya xüsusi diqqət yetiririk və bu sahədə uğurlu nəticələr əldə etmişik.

Nəzərə çarpdırım ki, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün dünyanın bir sıra nüfuzlu şirkətləri ilə imzalanmış müqavilələr tarixi əhəmiyyət daşıyır. Geniş potensial imkanlara, zəngin təbii ehtiyatlara malik olan Azərbaycan bütün sahələrdə xarici iş adamları ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa daim böyük maraq göstərir.

Brend Skoukroft: Biz erməni lobbisinin üzdəniraq səyləri ilə 1992-ci ildə Konqres tərəfindən qəbul edilmiş 907-ci düzəlişin ABŞ–Azərbaycan münasibətlərinin inkişafına mənfi təsir göstərdiyini bilirik. Sizə məlumat verərək bildiririk ki, hazırda bu sənədin ləğvi üçün müvafiq işlər görülür.

Lourens İqlberger: Mən Sizin şəxsiyyətinizə və müdrikliyinizə heyran olduğumu bildirirəm. Amerikada Azərbaycanın daha çox təbliğ edilməsi üçün bu sahədə işin gücləndirilməsi lüzumunu qeyd etmək istəyirəm.

Henri Kussincer: Mən Azərbaycana dərin hörmət bəslədiyimi və mühüm coğrafi-strateji mövqeyə malik ölkənizlə siyasi, iqtisadi əlaqələrə böyük əhəmiyyət verdiyimi vurğu-

layaraq, prezident Heydər Əliyevlə həmişə olduğu kimi, bu görüşümdən də çox məmnun qaldığımı bildirirəm. Maraqlı söhbət üçün Sizə, cənab prezident, hədsiz minnətdarlığımı bildirir və ən xoş arzularımı ifadə edirəm. Sizinlə hər bir görüş bizim üçün çox maraqlı və dəyərlidir.

Heydər Əliyev: Yüksək diqqət və ehtirama görə Sizə, görüş iştirakçılarına dərin təşəkkürümü bildirir və Sizin hamınızı Azərbaycana dəvət edirəm.

NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ KELYE MAQNE BONDEVİK İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Vaşinqton

24 aprel 1999-cu il

B o n d e v i k: Sizi səmimi-qəlbdən salamlayır və bu görüşdən məmnun qaldığımı bildirirəm. Norveç iqtisadi cəhətdən zəngin və mühüm coğrafi-siyasi mövqeyə malik olan Azərbaycan ilə hərtərəfli əməkdaşlığa böyük maraq göstərir. Norveçin «Statoyl», «Kverner» və başqa şirkətləri Azərbaycanla sıx əməkdaşlıq etdiyini bilirəm və bu iş birliyinin daha da inkişaf etdirilməsi və genişləndirilməsi lüzumunu vurğulamaq istəyirəm. Biz Azərbaycandakı vəziyyət və iqtisadi islahatların gedişi ilə daim maraqlanırıq.

H e y d ə r Ə l i y e v: Ölkəmiz haqqında xoş sözlərinizə görə, əməkdaşlığa hazır olduğunuza və böyük maraq göstərdiyinizə görə Sizə, Norveçin Baş nazirinə təşəkkürümü bildirirəm. Mən Norveçə səfərimi razılıq hissi ilə xatırlayıram. Azərbaycanın müstəqillik yolu ilə inamla irəlilədiyini nəzərə çarpdıraraq vurğulayım ki, ölkəmiz müstəqilliyə sadiq dünyanın bütün ölkələri ilə əlaqələrin genişləndirilməsinə maraqlıdır. Ökəmizdə həyata keçirilən iqtisadi islahatlar sahəsində, o cümlədən enerji ehtiyatlarının hasilatında və nəqlində qazanılmış uğurları yüksək qiymətləndirirəm. 1994-cü ildə imzalanmış və Norveçin «Statoyl» şirkətinin də iştirak etdiyi «Əsrin müqaviləsi»nə əsasən ilk neftin artıq dünya bazarlarına çıxarıldığını məmnuniyyətlə bildirirəm. 1999-cu il aprelin

17-də Bakı-Supsa neft kəmərinin açıldığını da razılıq hissi ilə nəzərə çarpdırıram və neft müqavilələrinin böyük gələcəyi olduğunu bildirirəm.

Qeyd edim ki, ölkəmizdə bazar iqtisadiyyatı islahatlarının gedişi, özəlləşdirmə proqramının həyata keçirildiyi sayəsində respublika iqtisadiyyatı xeyli canlanmışdır.

Bütün bunlara baxmayaraq demokratik, hüquqi cəmiyyət quran Azərbaycanın problemləri də vardır. Bildirim ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 10 ildən bəri davam edir. Azərbaycan torpaqlarının 20 faizə qədəri Ermənistan tərəfindən işğal olunmuş, erməni təcavüzü nəticəsində bir milyondan çox soydaşımız öz ev-eşiyini tərk edərək qaçqın, məcburi köçkün vəziyyətində yaşayır. Atəşkəs rejiminin 5 ildən bəri davam etdiyini nəzərə çarpdırmaq istəyirəm. Lakin münaqişənin hələ də tam aradan qaldırılmadığını təəssüf hissi ilə vurğulayıram. Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinin tərəfdarı olduğunu dəfələrlə nəzərə çarpdırmışdır. ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə münaqişənin aradan qaldırılması prinsiplərinin müəyyən edildiyini Sizin xatirinizə salmaq istəyirəm. Bu sammitdən sonra ABŞ, Fransa və Rusiya Minsk qrupuna həmsədrlik etdilər. ATƏT-in hazırkı sədrinin Norveçin xarici işlər naziri olduğunu nəzərə çarpdıraraq ümidvaram ki, münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in hazırkı sədri tərəfindən daha təsirli tədbirlər görüləcəkdir.

B o n d e v i k: Geniş və maraqlı söhbətə görə Sizə səmimi təşəkkürümü bildirirəm və ölkəmizin Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsində və dərinləşdirilməsində böyük marağı olduğunu xüsusi vurğulayıram. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün ATƏT-in hazırkı sədri kimi, Norveçin öz səylərini artı-

racağına əmin olduğumu bildirir və Minsk qrupu həmsədrlərinin işinin xeyli fəallaşdırılması lüzumunu qeyd edirəm.

Heydər Əliyev: Cənab Baş nazir, maraqlı söhbət üçün sizə təşəkkürümü bildirirəm və sizi Azərbaycana səfərə dəvət edirəm.

Bondevik: Sağ olun, dəvəti məmnuniyyətlə qəbul edirəm.

ABŞ-ın DÖVLƏT KATİBİ MADLEN OLBRAYTIN SƏDRLİYİ İLƏ AZƏRBAYCAN, GÜRCÜSTAN, ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ*

25 aprel 1999-cu il

M a d l e n O l b r a y t: Mən müstəqil inkişaf yoluna qədəm qoymuş Cənubi Qafqaz respublikalarının prezidentlərini səmimiyyətlə salamlayaraq bildirirəm ki, bu ölkələrin inkişafı regionda sülh və sabitlikdən asılıdır.

Dünya Birliyinin Cənubi Qafqaza böyük diqqət yetirdiyini, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyətindən narahat olduğunu bildirirəm. ATƏT-in Minsk qrupunun və onun həmsədrlərindən biri olan ABŞ-ın bu münaqişənin sülh yolu ilə nizamlanması sahəsində apardığı işdən söhbət açaraq vurğulayıram ki, həmin regionda sülhün və sabitliyin bərqərar edilməsində ölkəmizin böyük marağı var.

E d u a r d Ş e v a r d n a d z e: Qafqaz ölkələri liderlərinin görüşünü təşkil etdiyinizə görə, xanım Olbrayt, Sizə səmimi minnətdarlığımı bildirirəm və görüş iştirakçılarını salamlayıram. Bir-biri ilə qırılmaz tarixi əlaqələri olan Qafqaz xalqlarının və region ölkələrinin əməkdaşlığı vacibdir. Gürcüstanın Azərbaycan ilə xüsusi dostluq və qardaşlıq münasibətlərini,

---

* Görüşdə Böyük Britaniyanın, Almaniya Federativ Respublikasının, Fransanın, Türkiyənin və Norveçin xarici işlər nazirləri, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Semuel Berger iştirak edirdilər.

«Dinc Qafqaz uğrunda» təşəbbüsü çərçivəsində əməkdaşlıq etdiyini nəzərinizə çarpdırmaq istəyirəm. Regionda uğurlu əməkdaşlıq üçün iri iqtisadi layihələr böyük əhəmiyyət daşıyır. Neft və qaz kəmərlərinin çəkilişində, böyük İpək yolunun bərpasında, TRASEKA proqramı çərçivəsində, Transqafqaz magistralından birgə istifadə sahəsində əməkdaşlığı yüksək qiymətləndirirəm.

Regionda sabitlik, əmin-amanlıq və əməkdaşlıq üçün tezliklə münaqişələrin sülh yolu ilə aradan qaldırılması vacibdir. Xanım Olbrayt'ın sədrliyi ilə Cənubi Qafqaz dövlətləri başçılarının hazırkı görüşünə böyük əhəmiyyət verirəm. Bu cür görüşlərin gələcəkdə davam etdirilməsini son dərəcə məqsədəuyğun hesab edərək növbəti görüşün Gürcüstanda keçirilməsini təklif edirəm.

H e y d ə r Ə l i y e v: Cənubi Qafqaz ölkələri başçılarının görüşünü təşkil etdiyinizə, regionun problemlərinə ABŞ-ın göstərdiyi maraq və diqqətə görə Sizə səmimi təşəkkürlərimi bildirərək, bu tərkibdə keçirilən ilk görüşün gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğumu bildirirəm.

Müstəqil inkişaf yolana qədəm qoymuş Azərbaycanda ictimai-siyasi həyatın demokratikləşdirilməsi, bazar iqtisadiyyatı quruculuğu yolunda böyük uğurlar qazanılmışdır.

Xəzər dənizinin enerji ehtiyatlarından ölkəmizin və xalqımızın rifahı naminə istifadə edildiyini xatırladıram. Xəzərin neft yataqlarının istismarına dair bağlanmış müqavilə üzrə hasil olunan neftin Bakı–Novorossiysk və bu ilin aprelində işə salınmış Bakı–Supsa kəmərləri ilə dünya bazarlarına çıxarıldığını görüş iştirakçılarının nəzərinə məmnuniyyət hissi ilə çarpdırıram.

Qeyd edim ki, Xəzər dənizinin enerji ehtiyatlarından istifadəyə dair həyata keçirilən layihələr, 1998-ci ilin sentyabrında Bakıda böyük İpək yolunun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi və onun mühüm qərarları Transqafqaz magis-

tralının inkişafı və Azərbaycanın Dünya Birliyi ilə sıx inteqrasiyası üçün geniş imkanlar açmışdır.

Müstəqillik yolu ilə irəliləyən Azərbaycanın inkişafı üçün böyük çətinliklər doğuran Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli böyük zərurət kəsb edir. Münaqişənin 10 ildən çox davam etdiyini, 5 ildən bəri atəşkəsin qüvvədə olduğunu nəzərinizə çarpdırıram. Münaqişənin tezliklə aradan qaldırılmasının, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasının, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqların azad edilməsi, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan çox soydaşımızın doğma yurdlarına qaytarılmasının zəruriliyini xüsusi vurğulayıram.

Diqqətinizə çatdırıram ki, münaqişənin sülh yolu ilə tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk prosesinin canlandırılması, Cənubi Qafqaz regionunda sülhün bərqərar edilməsi üçün səylərin artırılması çox vacibdir.

Biz üç il bundan əvvəl Gürcüstan prezidenti Şevardnadze ilə «Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq» haqqında bəyannamə imzaladıq. Regionda sülhün və təhlükəsizliyin təmin olunmasının və bu təşəbbüsə başqa ölkələrin də qoşulmasının vacibliyini qeyd edərək bildirirəm ki, bu, bizim istəyimizdir və biz bunu reallığa çevirmək niyyətindəyik.

Robert Koçaryan: Mən də Cənubi Qafqaz ölkələri başçılarının görüşünü təşkil etdiyinə görə xanım Olbrayta minnətdarlığımı bildirir və görüş iştirakçılarını salamlayıram. Regionda vəziyyət və əməkdaşlıq perspektivləri barədə öz mülahizələrimi söyləyərək, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi probleminin ATƏT-in Minsk qrupu çərçivəsində aradan qaldırılmasının tərəfdarı olduğumu bildirirəm.

Yuber Vedrin *(Fransanın xarici işlər naziri)*: Görüş iştirakçılarını salamlayaraq Ermənistan–Azərbaycan münaqi-

şəsinin sülh yolu ilə aradan qaldırılması üçün səyləri artırmağın vacibliyini nəzərə çarpdırıram. Sərhədlərin toxunulmazlığı və ərazi bütövlüyü prinsiplərini dəstəklədiyi və münaqişənin həlli üçün Minsk qrupunun bu istiqamətdə fəaliyyətinin gücləndirilməsini zəruri hesab edirəm.

Knut Vollebek (*Norveçin xarici işlər naziri, ATƏT-in hazırkı sədri*): Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində həll edilməsini və atəşkəs rejiminə əməl olunmasını mühüm amillər hesab edərək, bu münaqişənin heç bir ölkənin mənafeyinə uyğun gəlmədiyini nəzərə çarpdırıram. Atəşkəs rejimini yüksək qiymətləndirirəm və münaqişənin tezliklə tam aradan qaldırılması lüzumunu qeyd edirəm.

Robin Kuk (*Böyük Britaniyanın xarici işlər naziri*): Dünya Birliyinin region ölkələri ilə hərtərəfli əməkdaşlığının böyük perspektivləri olduğunu diqqətinizi cəlb edirəm. Mühüm coğrafi-strateji mövqeyə malik regiondakı Dağlıq Qarabağ münaqişəsinin hələ də aradan qaldırılmadığından narahatlığımı bildirirəm və məndən əvvəl çıxış etmiş natiqlərin atəşkəs rejiminin saxlanılması barədə mülahizələrini dəstəklədiyimi, bundan istifadə edərək münaqişənin sülh yolu ilə həlli üçün yeni-yeni yollar axtarılmasının zəruri olduğunu söyləyirəm.

Yoşka Fişer (*Almaniya Federativ Respublikasının xarici işlər naziri*): Cənubi Qafqaz regionunun istər siyasi, istərsə də iqtisadi baxımdan Avropa ilə Asiya arasında mühüm mövqe tutduğunu xüsusi vurğulayaraq bildirirəm ki, regionun inkişafı üçün sülh və sabitlik gərəkdir.

Avropa Birliyinin münaqişələrin aradan qaldırılmasında regiona kömək etməyə hazır olduğunu bildirir və atəşkəs rejimini dəstəklədiyini, lakin bununla yanaşı, daha irəli gedərək münaqişənin sülh yolu ilə tamamilə nizamlanmasına nail olmağı zəruri hesab etdiyini bildirirəm.

İ s m a y ı l C ə m *(Türkiyənin xarici işlər naziri)*: Dağlıq Qarabağ münaqişəsinin tezliklə sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini nəzərə çarpdıraraq, Qafqaz üçün sülh və sabitliyin vacibliyini, bu məqsədlə bütün mexanizmlərdən istifadə etmək lüzumunu vurğulayıram.

M a d l e n O l b r a y t: Görüşə yekun vuraraq, maraqlı fikir mübadiləsinə görə iştirakçılara təşəkkürümü bildirir və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün beynəlxalq birliyin, ATƏT-in səylərinin artırılması zəruriliyinə diqqəti bir daha xüsusi cəlb edirəm.

STRATEJİ VƏ BEYNƏLXALQ ARAŞDIRMALAR MƏRKƏZİNDƏKİ* (SBAM) GÖRÜŞDƏ NİTQ

Vaşinqton

26 aprel 1999-cu il

Robert Zoelik (*SBAM-nin prezidenti*): Cənab prezident, Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinə xoş gəlmisiniz. Sizin hamınızı bu gün burada görməkdən böyük məmnunluq duyuruq.

Cənab Heydər Əliyev 1993-cü ildə Azərbaycan Respublikasının prezidenti seçilmişdi və keçən il yenidən bu vəzifəyə seçilmişdir. Hamımız yaxşı bilirik ki, çox gərgin region olan Mərkəzi Asiya regionunda sülh və sabitliyin bərqərar olmasında prezident Əliyevin xidmətləri əvəzsizdir. Onu da bilməliyik ki, prezident Əliyevin ABŞ-a indiki səfəri zamanı Amerika şirkətləri ilə üç yeni müqavilənin imzalanması nəzərdə tutulur. Xəzərin zəngin enerji ehtiyatlarından istifadə üçün 40 milyard dollardan çox investisiya qoyulmasını nəzərdə tutan müqavilələr imzalanıbdır.

Biznesin inkişafında fəaliyyət göstərmiş şəxs kimi mən yaxşı bilirəm ki, belə rəqəmlər mütləq diqqətinizi cəlb etməlidir. Onu da gözəl bilirik ki, zəngin neft ehtiyatları olmasının və onlardan istifadənin ölkə üçün müəyyən mənfi effektlərini də

* Mərkəzin salonuna ABŞ konqresinin, hökumətinin, dövlət departamentinin, nüfuzlu dairələrin nümayəndələri, iri şirkətlərin rəhbərləri, mətbuat işçiləri toplaşmışdılar.

gözəl dərk edən prezident Azərbaycanda iqtisadiyyatın digər sahələrinin və infrastrukturun inkişafı üçün də əlavə tədbirlərin görülməsi və investisiyaların cəlb edilməsi ilə məşğuldur.

Prezident Əliyev Kosovoda baş verən münaqişə ilə əlaqədar öz mövqeyini açıqlamışdır. Şübhəsiz, hamınız bilirsiniz ki, Dağlıq Qarabağ münaqişəsində bir milyondan çox vətəndaş öz yurd-yuvasından didərgin düşüb və qaçqın vəziyyətində yaşayır. Öz qonşuları ilə əlaqədar üzərinə müəyyən risk götürməsinə daxmayaraq, prezident Əliyev cəsarətli bəyanatlar verərək Kosovoda törədilən vəhşilikləri pisləmiş və Kosovo əhalisinə özünüidarə hüququ verilməsinin tərəfdarı kimi çıxış etmişdir.

Çox gərgin bir regionda yerləşən ölkənin prezidenti olan Əliyev Amerika Birləşmiş Ştatlarının yaxın dostudur və çox məmnunuq ki, o, bu gün bizimlə bir yerdədir. Bildiyimizə görə, prezident dağlıq bölgədə boya-başa çatıb və belə bölgədən olan insanların uzunömürlülüyü də hamıya bəllidir.

Cənab prezident, bu gün bizimlə bir yerdə olduğunuza görə Sizə bir daha təşəkkür edirik. İndi isə söz sizə verilir.

Heydər Əliyev: Hörmətli cənab prezident!

Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi-qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümü çox mühüm hadisə hesab edirəm.

Amerika Birləşmiş Ştatlarının çox məşhur Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzində mənim bu çıxışıma toplaşmış insanların hamısına təşəkkürümü bildirir və bu auditoriyada çıxış etməyi özüm üçün şərəf hesab edirəm.

Hörmətli cənab prezident, Azərbaycan haqqında, mənim fəaliyyətim haqqında dediyiniz sözlərə görə təşəkkür edirəm. Onu deyə bilərəm ki, Siz bunların hamısını obyektiv izah etdiniz.

Azərbaycan Qafqazda yerləşən kiçik bir ölkədir. Siz yəqin ki, ölkəmiz haqqında ətraflı məlumata maliksiniz, ona görə

bəzi detalları deyib vaxt almaq istəmirəm. Ancaq onu bildirmək istəyirəm ki, Azərbaycan Sovetlər İttifaqı dağılan zaman – 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edibdir. Azərbaycan ilk dəfə öz dövlət müstəqilliyini XX əsrdə – 1918-ci ildə, Rusiya imperatorluğu dağılan zaman əldə etmişdir. Ancaq qısa bir müddətdə – 23 ay fəaliyyət göstərən ilk Azərbaycan demokratik dövləti Azərbaycanda sovet hakimiyyəti qurulması ilə əlaqədar süqut etmişdir. Azərbaycan 70 il müttəfiq respublika statusunda Sovetlər Birliyinin daxilində, sovet hakimiyyətinin idarəsi altında olmuşdur və qeyd etdiyim kimi, 1991-ci ilin sonunda Sovetlər İttifaqının dağılması ilə əlaqədar yenidən öz müstəqilliyini əldə etmişdir.

1991-ci ildən bu tərəfə olan illər Azərbaycanın həyatında çox mürəkkəb bir dövr olmuşdur. Mən deyə bilərəm ki, Sovetlər İttifaqına mənsub olmuş digər respublikalardan fərqli olaraq, Azərbaycanın daxili vəziyyəti olduqca gərgin, çətin və faciəli olmuşdur. Bunun əsas səbəbi ondan ibarətdir ki, hələ 1988-ci ildə, Azərbaycan Sovetlər İttifaqının tərkibində olarkən ölkəmizə qarşı əsassız torpaq iddiası ilə çıxış edən Ermənistan Azərbaycanın Dağlıq Qarabağ vilayətini öz əlinə keçirib Ermənistana bağlamaq istəmişdir. Bununla əlaqədar Ermənistanla Azərbaycan arasında hərbi münaqişə başlamış, bununla da Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü başlamışdır. Bilirsiniz ki, bu təcavüz indiyə qədər davam edir. Mən bu barədə sonra bir neçə kəlmə deyəcəyəm.

Azərbaycanın vəziyyətini mürəkkəbləşdirən ikinci səbəb ondan ibarət olmuşdur ki, Azərbaycan hələ Sovetlər İttifaqı zamanı onun rəhbərliyi tərəfindən çox ədalətsizliklərlə rastlaşmışdır. Bunun ən tutarlı sübutu ondan ibarətdir ki, 1990-cı ilin yanvar ayında sovet hökuməti Bakıya, Azərbaycana böyük qoşun hissələri yeritmiş və Azərbaycan xalqına qarşı hərbi təcavüz etmişdir. 1990-cı ilin qanlı Yanvar faciəsi zamanı dinc, günahsız insanlar şəhid olmuşdur. Bu hadisə də

Azərbaycanın daxili ictimai-siyasi vəziyyətini çox gərginləşdirmişdi.

Azərbaycanın dövlət müstəqilliyi əldə etməsi bu hadisələrin fonunda olmuşdur. Bu hadisələr Azərbaycanın daxilində müxtəlif qanunsuz silahlı qüvvələrin, müxtəlif qrupların hakimiyyət uğrunda mübarizə məqsədi ilə bir-biri ilə vuruşmasına gətirib çıxarmışdır. Bunların nəticəsində 1992-ci ildə və 1993-cü ildə Azərbaycanda hakimiyyət dəyişikliyi baş vermişdir.

Daxili çəkişmələr, toqquşmalar 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi törətmişdi və Azərbaycan böyük fəlakət – parçalanmaq təhlükəsi qarşısında durmuşdu. Belə bir şəraitdə Azərbaycana həm Ermənistanın təcavüzü güclənmişdi, həm də xarici qüvvələrin təzyiqi artmışdı. 1993-cü ildə biz Azərbaycanın daxilində olan vətəndaş müharibəsinin qarşısını böyük çətinliklə aldıq. Ancaq daxildə yaranmış qruplaşmalar və qanunsuz silahlı dəstələr hakimiyyət uğrunda mübarizəni yenə də davam etdirirdilər. Məhz bu qanunsuz silahlı dəstələrin, ayrı-ayrı siyasi qrupların bu cür dağıdıcı fəaliyyəti nəticəsində 1994-cü ilin oktyabr ayında, 1995-ci ilin mart ayında Azərbaycanda silahlı dövlət çevrilişinə cəhdlər göstərilmişdir. Bunların qarşısı alınmışdır. Ancaq terrorist qruplar, dəstələr sonra da Azərbaycanda təxribatlar və terror aktları həyata keçirməyə cəhdlər etmişlər. Xarici ölkələrin xüsusi xidmət orqanları Azərbaycanda bir neçə təxribat əməliyyatı keçirmiş, 1994-cü ildə Bakı metropolitenində iki dəfə güclü partlayış törədilmişdir. Biz bunların hamısının qarşısını ala bilmişik.

1995-ci ilin oktyabr ayında Azərbaycanın ilk konstitusiyası qəbul olunub, Azərbaycan parlamentinə ilk dəfə çox demokratik prinsiplər əsasında seçkilər keçirilibdir.

İndi Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Biz bu sabitliyə, demək olar ki, 1995-ci ildən nail olmuşuq, Azərbaycan dövləti ölkə ərazisinə tam nəzarət edir.

Daxildəki bütün bu gərgin vəziyyətlə yanaşı, Ermənistanın Azərbaycana təcavüzü davam etmişdir. Ermənistan Silahlı Qüvvələri həm Azərbaycanın daxilindəki zəiflikdən, qeyri-sabitlikdən, həm də bəzi dövlətlərin onlara göstərdiyi böyük yardımdan istifadə edərək Azərbaycanın ərazisinin 20 faizini işğal etmişlər. İşğal edilmiş torpaqlarda bir milyondan artıq azərbaycanlı etnik təmizləməyə məruz qalmış və köçməyə məcbur olmuşdur. Onlar Azərbaycanın başqa bölgələrində, çadırlarda yaşayırlar. Siz bu xəritədə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarını görürsünüz. Burada qırmızı rənglə Dağlıq Qarabağın ərazisi rənglənibdir. Amma Dağlıq Qarabağın ərazisindən əlavə, onun ətrafında Azərbaycanın yeddi inzibati rayonu da işğal olunubdur. Bu torpaqlar indiyə qədər Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

1994-cü ilin may ayında Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs rejimi əldə olunubdur, biz atəşkəs haqqında saziş imzalamışıq. Beş ildir ki, atəşkəs rejimini qoruyub saxlayırıq. Beş ildir çalışırıq ki, Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Bunu həll etmək üçün 1996-cı *ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə prin*siplər qəbul olunmuşdur. Biz o prinsiplər əsasında məsələni sülh yolu ilə həll etməyə çalışırıq. O prinsiplər bundan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun. Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində yüksək dərəcəli özünüidarə statusu verilsin. Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan çəkilsin və yerindən-yurdundan didərgin düşmüş azərbaycanlılar öz torpaqlarına qayıtsınlar. Amma Ermənistan tərəfi bu prinsipləri qəbul etmir.

Bilirsiniz ki, bu məsələnin həll olunması üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılıbdır. 1997-ci ilin əvvəlindən Minsk qrupuna dünyanın üç böyük dövləti – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa sədrlik edir. ATƏT-in Minsk

qrupu məsələnin həll olunması üçün 1997-ci ildə – iyun ayında, sonra isə sentyabr ayında təkliflər irəli sürmüşdü. 1997-ci ilin sentyabrında Minsk qrupunun irəli sürdüyü təklif bundan ibarətdir ki, Azərbaycanın Dağlıq Qarabağ ətrafındakı işğal olunmuş altı rayonu işğaldan azad edilsin, ondan sonra Dağlıq Qarabağa özünüidarə statusu verilsin. İki rayonun – Laçın və Şuşa rayonlarının aqibəti isə bundan sonra həll edilsin.

Yəni bu, mərhələ xarakteri daşıyan təklifdir: birinci mərhələdə – işğal olunmuş rayonlar azad edilsin, ikinci mərhələdə – Dağlıq Qarabağın statusu müəyyən edilsin. Biz bu təklifi qəbul etdik. 1997-ci ilin sentyabr-oktyabr aylarında Ermənistan da bəyan etdi ki, onlar bu təklifi qəbul etmək istəyirlər. Ermənistanın keçmiş prezidenti Levon Petrosyan bu təklifə tərəfdar çıxmış, onun qəbul olunmasını əsaslandırmış və bu barədə öz fikirlərini mətbuatda da bildirmişdi. Ancaq Ermənistanın daxilində gedən siyasi proseslər nəticəsində 1998-ci ilin fevral ayında prezident Ter-Petrosyan istefa verdi, Ermənistanda hakimiyyət dəyişdi. Beləliklə də bu təklif nəticəsiz qaldı.

Minsk qrupu, demək olar, 1998-ci ildən fəaliyyətsiz olmuşdur. 1998-ci ilin noyabr ayında Minsk qrupunun həmsədrləri Rusiyanın təşəbbüsü ilə yeni bir təklif irəli sürmüşlər. Bu təklifin də mənası ondan ibarətdir ki, Azərbaycanda «ümumi dövlət» qurulsun, onun çərçivəsində Azərbaycanın ərazisində Dağlıq Qarabağa «dövlət» statusu verilsin.

Birincisi, dünya təcrübəsində, beynəlxalq hüquq normalarında hələ indiyə qədər belə dövlət quruluşu forması yoxdur. Bunu Minsk qrupu yox, Minsk qrupundakı Rusiya nümayəndələri icad ediblər. Amma bizim üçün əsas cəhət ondan ibarətdir ki, bunu heç vaxt qəbul edə bilmərik. Çünki bu, Dağlıq Qarabağa üstüörtülü şəkildə dövlət müstəqilliyi statusu vermək deməkdir.

Bu təklifin müəllifi Minsk qrupunun tərkibində olan Rusiya nümayəndələridir. Biz onlara öz narazılığımızı bildirmişik. Təsadüfi deyil ki, Ermənistan tərəfi ilk dəfə olaraq Minsk qrupunun həmin bu «ümumi dövlət» konsepsiyası təklifini qəbul edibdir. Bildirmək istəyirəm ki, Ermənistan tərəfi indiyə qədər Minsk qrupunun bütün təkliflərini, o cümlədən 1997-ci ildə iki təklifini rədd edibdir. Amma onlar «ümumi dövlət» prinsipini dərhal qəbul ediblər, çıxış edirlər və bunu qəbul etməyi təklif edirlər.

Biz məsələnin Minsk qrupu vasitəsilə həll olunması üçün bundan sonra da çalışacağıq. Ümidvarıq ki, Minsk qrupu hər iki tərəf üçün münasib olan yeni təklif verəcəkdir.

Güman edirəm, bizim bölgədə, Azərbaycanda sizi maraqlandıran məsələlərdən biri də Azərbaycanın enerji ehtiyatlarından istifadə olunması, Xəzər dənizi problemidir. Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. Azərbaycanın qurudakı ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda çox zəngin neft və qaz yataqları var. Bu enerji ehtiyatlarından həm Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, xalqın rifahını yaxşılaşdırmaq məqsədi ilə daha da geniş istifadə etməyə çalışmışıq, eyni zamanda dünyanın neftə və qaza olan tələbatını təmin etmək üçün bu işlərə başlamışıq.

1994-cü ilin sentyabr ayında ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalamaqla biz Xəzər dənizinin bütün ehtiyatlarını dünyaya təqdim etmişik. Məmnuniyyətlə deyə bilərəm ki, «Əsrin müqaviləsi» ardıcıl surətdə həyata keçirilir. 1997-ci ilin noyabr ayında biz ilkin neft almışıq. Ancaq, eyni zamanda bu neftin ixracı üçün boru kəmərlərinin yaradılması ilə də məşğul olmuşuq. İlkin neftin ixracı üçün birinci kəməri – Rusiyanın Qara dənizdəki Novorossiysk limanına gedən Bakı –Novorossiysk neft kəmərini çəkmişik. Siz onu xəritədə görürsünüz. Ancaq, eyni zamanda biz əvvəldən də nəzərdə tutmuşduq ki, alternativ neft kəməri çəkilsin. Onun üçün də

Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına ikinci, alternativ neft kəmərinin çəkilməsini qərara almışdıq. Bu kəməri də inşa edib aprel ayının 17-də istismara verdik. İndi artıq Qərb kəməri ilə neft axır və ilk tankerlər nefti Supsa limanından dünya bazarına çıxarırlar.

Eyni zamanda biz əsas neft kəmərinin hazırlanması və inşası ilə də məşğuluq. Bakıdan Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına neft kəmərinin çəkilməsi nəzərdə tutulur. Türkiyə hökuməti ilə aparılan son danışıqlarda nəzərdə tutulubdur ki, neft kəmərinin çəkilməsi üçün texniki və maliyyə məsələləri üç ay müddətində həll olunacaq və ondan sonra layihənin həyata keçirilməsinə başlanacaqdır.

Azərbaycan təkcə öz ehtiyatlarının deyil, Xəzər dənizində olan bütün enerji ehtiyatlarının Dünya Birliyi üçün istifadə edilməsində təşəbbüskar olmuşdur. Xəzər dənizinin Qazaxıstan, Türkmənistan, Rusiya, İran sektorlarında da işlər gedir və neft-qaz hasil etmək üçün lazımi tədbirlər həyata keçirilir.

1994-cü ildən indiyə qədər Azərbaycan dünyanın iri neft şirkətləri ilə 16 böyük müqavilə imzalayıbdır. Bu şirkətlər dünyanın 14 ölkəsini təmsil edirlər. O cümlədən, Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri də Azərbaycanda iş görürlər. Sabah burada, Vaşinqtonda üç yeni müqavilə imzalanacaqdır.

1994-cü ildə «Əsrin müqaviləsi» imzalanandan sonra Azərbaycanın neft ehtiyatları dünyada çox böyük maraq doğurmuşdur. Bir tərəfdən dünyanın, o cümlədən Amerika Birləşmiş Ştatlarının neft şirkətləri Azərbaycana gəlib, ölkəmizin Xəzər dənizində olan yataqlarından istifadə etmək üçün təkliflər irəli sürüblər və bizimlə bərabər iş görürlər. İkinci tərəfdən, Azərbaycanın neft siyasətinə, neft strategiyasına etiraz edənlər, bunun əleyhinə çıxanlar, buna mane olan qüvvələr də çoxaldı.

Azərbaycanın neft strategiyası ondan ibarətdir ki, biz öz təbii sərvətlərimizi, enerji ehtiyatlarımızı dünyaya təqdim edirik və dünyanın hər bir ölkəsi ilə, xüsusən Qərb ölkələri, Amerika Birləşmiş Ştatları ilə bu sahədə geniş əməkdaşlıq təklif edirik. Amma bəzi ölkələr, bəzi dairələr isə bizim neft strategiyamızın əleyhinədir. Onlar belə hesab edirlər ki, Azərbaycanın neft ehtiyatları, Xəzər dənizi yalnız bu bölgədəki ölkələrin təsir dairəsində olmalıdır. Onlar Qərb ölkələrinin, Amerika Birləşmiş Ştatlarının Xəzər dənizinə gətirilməsinə etiraz edirlər.

Bizim neft strategiyamızın əleyhinə olaraq Xəzər dənizinin statusu məsələsi ortaya atıldı. Bəzi dövlətlərdən səslər gəldi ki, Xəzər dənizinin statusu müəyyən edilməmiş oradakı neft yataqlarından istifadə etmək olmaz. Bizim əleyhimizə bir çox başqa tədbirlər həyata keçirildi.

Tam əsasla deyə bilərəm ki, 1994-cü, 1995-ci illərdə Azərbaycanda dövlət çevrilişinə silahlı cəhdlər, terror aktları və təxribat əməlləri də məhz ölkəmizin sərbəst, müstəqil neft strategiyasının qarşısını almaq məqsədi ilə həyata keçirilmişdi. Ancaq bu təxribatların, bizim əleyhimizə yönəldilən müxtəlif əməllərin heç birisi bizi qorxuda, dayandıra bilməmişdir. Biz öz neft strategiyamızı ardıcıl surətdə həyata keçirmişik. Bildirmək istəyirəm ki, Qərblə, yəni Avropa ölkələri və xüsusən Amerika Birləşmiş Ştatları ilə bu sahədə əməkdaşlığımızdan çox razıyıq və bu əməkdaşlığa xüsusi əhəmiyyət veririk.

Bizim neft strategiyamızın əleyhinə aparılan bütün bu işlər nəticə vermədiyi halda, son vaxtlar bəzi ölkələrin mətbuatında, o cümlədən Amerika Birləşmiş Ştatlarında, Avropada, Rusiya mətbuatında Xəzərin Azərbaycan sektorunda neft ehtiyatlarının az olması və əvvəl verilən məlumatların guya yanlış olması haqqında müxtəlif məqalələr dərc edilmişdir. Bütün bu fikirlər, məqalələr uydurmadır, əlbəttə ki, bizim əleyhimizə yönəldilibdir. Deyə bilərəm ki, bunlar hamısı yanlışdır. Azərbaycanın neft ehtiyatları çox böyükdür, Xəzər

dənizinin neft ehtiyatları həddindən artıqdır. Güman edirəm ki, Xəzər dənizinin, o cümlədən Azərbaycan neftinin böyük perspektivini gələcəkdə hamı görəcəkdir.

İlkin hesablamalara görə, Azərbaycanın neft ehtiyatları 4-10 milyard ton arasındadır. İndiyədək imzalanmış və sabah imzalanacaq müqavilələr hamısı birlikdə Azərbaycanın neft sənayesinə 50 milyard dollar miqdarında investisiya qoyulmasını nəzərdə tutur. Ötən üç il müddətində Azərbaycanın neft sənayesinə 2 milyard 200 milyon dollar həcmində investisiya qoyulub ki, bunun da 1 milyard dolları Amerika Birləşmiş Ştatları şirkətlərinin payına düşür. Güman edirəm, bunlar bizim neft strategiyamızın əleyhinə çıxanlara çox tutarlı cavabdır.

Azərbaycanın iqtisadiyyatı çoxsahəlidir. Biz Azərbaycanda iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə formalaşdırırıq. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur, özəlləşdirmə proqramı ardıcıl surətdə həyata keçirilir. Torpaq islahatı müvəffəqiyyətlə aparılır və torpaq, demək olar ki, tamamilə şəxsi mülkiyyətə, kəndlilərə verilibdir.

Keçmiş Sovetlər İttifaqına mənsub olan başqa ölkələr kimi, bizim ölkəmiz də keçid dövrünü yaşayır. Bir iqtisadi-siyasi sistemdən digər iqtisadi-siyasi sistemə keçirik. Şübhəsiz ki, keçid dövrünün iqtisadiyyata çox mənfi təsiri var. Biz bunların qarşısını alırıq. Baxmayaraq ki, Azərbaycanda bir milyondan artıq qaçqın var və onlar işsizdir, çadırlarda yaşayırlar. Son üç ildə Azərbaycanın iqtisadiyyatı inkişaf edir. 1990-cı ildən başlayaraq Azərbaycanda iqtisadiyyat tənəzzülə uğramışdı və hər il 20 faiz aşağı düşürdü. Biz bu tənəzzülün qarşısını aldıq və 1995-ci ildə sabitləşməyə nail olduq. Ondan sonrakı illərdə iqtisadiyyatımızda hər il artım müşahidə olunur. 1995-ci ildə inflyasiyanın qarşısını aldıq. 1994-cü ildə inflyasiya 1400 faiz idi. Amma 1997-ci ildən başlayaraq inflyasiya tamamilə azalıb, indi Azərbaycanda

inflyasiya yoxdur. Azərbaycanın milli valyutasının – manatın dəyəri sabitdir.

Xarici şirkətlər, o cümlədən Amerika Birləşmiş Ştatlarının şirkətləri Azərbaycanda özəlləşdirmə proqramına çox maraq göstərirlər. Biz bunu alqışlayırıq və Azərbaycanda özəlləşdirmədə iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının iş adamlarını dəvət edirik.

Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın münasibətləri müsbət istiqamətdə inkişaf edir. Biz ABŞ-la əlaqələrimizə xüsusi əhəmiyyət verir və bunu strateji tərəfdaşlıq əlaqələri hesab edirik. Eyni zamanda arzu edirik ki, Amerika Birləşmiş Ştatları Qafqaz regionunda öz təsirini daha da artırsın və Azərbaycanın dövlət müstəqilliyinin inkişafı, gördüyümüz işlər naminə bizə daha çox dəstək versin.

Bilirsiniz ki, mən buraya NATO-nun 50 illik yubileyi münasibətilə gəlmişəm. Bütün tədbirlərdə iştirak etmişəm. Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edir. Biz öz tərəfimizdən bu işə çox böyük əhəmiyyət verir, «Sülh naminə tərəfdaşlıq» proqramını yüksək qiymətləndiririk. NATO-nun bu günlər Vaşinqtonda irəli sürdüyü yeni strateji konsepsiyasını da bəyənirik, alqışlayırıq.

Mən sizə çox söz deyə bilərəm, ancaq hesab edirəm ki, suallarınıza da vaxt ayırmaq lazımdır.

K. B u ş *(Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin xüsusi proqramlarının rəhbərlərindən biri)*: – Prezident Əliyev suallara cavab verməyə razıdır. Biz çoxsaylı suallar almışıq və mən bunları qruplaşdıraraq prezidentə suallar verəcəyəm.

S u a l: Cənab prezident, Ermənistanla Azərbaycan arasında hərbi münaqişəni nəzərə alsaq, Siz hansı tədbirləri görə biləcəksiniz ki, çəkiləcək boru kəmərləri sabotaja məruz qalmasın?

C a v a b: Bilirsiniz, boru kəmərlərini tək biz çəkmirik. Boru kəmərlərini Azərbaycanda bizimlə əməkdaşlıq edən neft

şirkətləri birlikdə çəkirlər. Məsələn, həm Şimal istiqamətində olan neft kəməri, həm də bu ilin aprel ayında istifadəyə verilmiş Bakı–Supsa kəməri 11 şirkətin daxil olduğu konsorsium, - o, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradıbdır, - tərəfindən çəkilibdir. Bakı–Supsa neft kəmərinin çəkilməsinə 590 milyon dollar vəsait qoyulubdur. Bu, həmin 11 şirkətin vəsaitidir. Ona görə neft kəmərləri təkcə bizə deyil, həm də bu şirkətlərə mənsubdur. Biz hamımız birlikdə bu kəmərlərin təhlükəsizliyini təmin edirik və güman edirəm ki, təmin də edəcəyik.

S u a l: Cənab prezident, Azərbaycanın qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün hökumət tərəfindən hansı tədbirlər görülür və Siz ölkənizdə ətraf mühitin qorunması problemləri ilə bağlı hansı tədbirləri həyata keçirirsiniz?

C a v a b: Biz bu barədə çox tədbirlər görürük. Birincisi, özəlləşdirmə proqramını həyata keçiririk. Özəlləşdirmə qeyri-neft sektorunda olan istehsal sahələrini daha da canlandıracaq və inkişaf etdirəcəkdir. Qeyri-neft sektorunun böyük bir hissəsini aqrar sahə təşkil edir. Azərbaycanda aqrar sektor çox böyük yer tutur. Mən dedim ki, biz torpaqları özəlləşdirmişik, şəxsi mülkiyyətə vermişik. Artıq bu torpaqlardan səmərəli istifadə edilməsinin nəticələrini görürük. Kənd təsərrüfatı məhsullarının emalı sənayesi də çox böyük sahədir. Biz onun müəssisələrini də özəlləşdirmişik. Bunun da müsbət nəticəsini görürük.

Telekommunikasiya çox böyük sahədir, yaxın vaxtlarda onu özəlləşdirəcəyik. Avtomobil nəqliyyatını özəlləşdiririk. Başqa nəqliyyat sahələri də özəlləşdiriləcəkdir.

Bizdə ağır sənaye çox böyük yer tutur. Kimya, metallurgiya, maşınqayırma sənayelərində özəlləşdirmə bir qədər çətin gedir. Ancaq biz çalışırıq ki, bunları da inkişaf etdirək.

Ətraf mühitin mühafizəsi bizim üçün əsas məsələlərdən biridir. Neft hasilatı prosesində buna xüsusi fikir veririk.

İmzalanmış bütün müqavilələrdə ətraf mühitin mühafizəsi məsələləri xüsusi yer tutur.

S u a l: Cənab prezident, Siz əminsinizmi ki, Türkiyə Bakı-Ceyhan boru kəmərinin reallaşması üçün əlverişli təkliflər irəli sürəcək? Bilmək istərdik ki, Türkiyənin son təkliflərində bir barrel neftin ixracı üçün hansı tariflər nəzərdə tutulub və əminsinizmi ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti bu təkliflərlə razılaşacaqdır?

C a v a b: Bilirsiniz, bu məsələ çox geniş müzakirə olunub. Çünki Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Bakı-Ceyhan neft kəmərinin ümumi dəyərini 3 milyard 700 milyon dollar müəyyən etmişdi. Bu isə iqtisadi cəhətdən səmərəli deyildi. Ancaq Türkiyə tərəfi özü bu barədə lazımi araşdırmalar, hesablamalar aparıbdır. Onların bildirdiklərinə görə, Bakı–Ceyhan neft kəmərini çəkmək üçün 2 milyard 400 milyon dollar vəsait lazımdır. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin fikrincə, əgər neft kəməri həqiqətən bu xərclə çəkilsə, buna etiraz etmirlər.

İndi əsas boru xəttinin qiyməti müəyyən olunur. Tariflər isə sonranın işidir. Türkiyə tərəfi bəyan edir ki, onlar Bakı-Ceyhan boru xəttinin çəkilməsi üçün bütün təminatları verəcəklər.

S u a l: Cənab prezident, Siz öz nitqinizdə Transxəzər boru kəməri məsələsinə toxunmadınız. Türkmənistan qazının dünya bazarlarına ixracını nəzərdə tutan bu boru kəmərinin reallığa çevrilməsi ehtimalı necədir? Bu məsələ Türkmənistan ilə Azərbaycan arasında neft yataqları məsələsi barəsində mübahisələrə son qoyulmasına necə yardımçı ola bilər?

C a v a b: Mən bu məsələyə ona görə toxunmadım ki, bilirdim siz sual verəcəksiniz. İndi ki, sual verildi, bəli, biz Türkmənistan qazının Xəzər dənizindən, Azərbaycandan, Gürcüstandan Türkiyəyə nəqlinin tərəfdarıyıq. Bu barədə Azərbaycanla Türkmənistan arasında heç bir mübahisə

yoxdur. Türkmənistan prezidenti Saparmurad Niyazov bu məsələ ilə əlaqədar mənə müraciət edib, məktub yazıbdır və Türkmənistan qazının Xəzər dənizi vasitəsilə Azərbaycandan keçməsi haqqında mənim razılığımı istəyibdir. Mən buna Azərbaycan dövlətinin razılığım bildirmişəm və ona cavab məktubu göndərmişəm. Bu məsələ ilə əlaqədar bizim telefon danışıqlarımız olubdur. Heç bir problem yoxdur. Amerika Birləşmiş Ştatlarının bu məsələ ilə məşğul olan şirkətlərini qəbul edib razılığımızı onlara bildirmişəm. Güman edirəm ki, bu məsələ artıq reallaşıbdır.

S u a l: Cənab prezident, Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda bugünkü rolu nədən ibarətdir? Rusiya bu regionda hələ də sabitliyin pozulması xarakteri daşıyan siyasət aparır, yoxsa Abxaziya, Ermənistan–Azərbaycan münaqişələrinin həll olunmasında müsbət rol oynaya bilərmi?

C a v a b: Rusiya böyük dövlətdir, bizim şimal qonşumuzdur. Biz arzu edirik ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər normal olsun və həmişə müsbət istiqamətdə inkişaf etsin. Rusiya Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün yaranmış Minsk qrupunun həmsədrlərindən biridir. Ona görə biz həmişə arzu edirik ki, Rusiya bu missiyasını yerinə yetirsin. Təəssüf ki, hələ müsbət bir nəticə yoxdur. O cümlədən, Amerika Birləşmiş Ştatlarının, Fransanın da bu sahədəki missiyalarında müsbət nəticə yoxdur.

Bizi narahat edən odur ki, Ermənistan və Azərbaycan münaqişə vəziyyətində olduqları halda, Rusiya Ermənistanla xüsusi əlaqələr saxlayır. 1997-ci ilin əvvəlində aşkar oldu ki, Rusiya ötən üç il ərzində Ermənistana gizli surətdə, qanunsuz olaraq 1 milyard dollar dəyərində silah-sursat veribdir. Ermənistanda Rusiyanın hərbi hissələri yerləşdirilib və Rusiya ilə Ermənistan arasında hərbi müttəfiqlik haqqında

müqavilə imzalanıbdır. Rusiyanın Ermənistandakı hərbi hissələrinə hərbi baza statusu verilibdir.

Son aylar Rusiya Ermənistanda yeni silahlar – S-300 raketləri, müasir MİQ-29 təyyarələri yerləşdirir. Bütün bunlar Qafqazda sabitliyi, sülhü pozur və Azərbaycan üçün böyük təhlükə doğurur. Biz Rusiyanın bu siyasətinə və hərəkətlərinə qəti etiraz edirik. Biz öz etirazımızı rəsmi bəyanatlarla bildirmişik və mən bu barədə Rusiya prezidenti Boris Yeltsinə xüsusi məktublar göndərmişəm. Aprel ayının 2-də Moskvada MDB ölkələri dövlət başçılarının görüşündə də mən Rusiyanın Ermənistana qanunsuz silah verməsi, Ermənistan ərazisində hərbi baza, yeni silahlar yerləşdirməsi barədə etirazımı bildirmiş və rəsmi bəyanat vermişəm.

Sübut etməyə heç də ehtiyac yoxdur ki, Rusiyanın bu cür siyasəti, hərəkəti onun Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək missiyasına olduqca böyük zərər gətirir, Cənubi Qafqazda sülhü, sabitliyi pozur, Ermənistanda hərbi baza yaradılmasına etirazımıza Rusiya belə cavab verir ki, bu, Azərbaycana qarşı deyil, ancaq NATO-ya qarşıdır. Biz bunların hamısını Rusiyanın Qafqazda qeyri-düzgün siyasəti kimi qiymətləndiririk. Görürsünüz ki, Rusiya Ermənistanla nə qədər sıx bağlıdır.

S u a l: Sonuncu sual. Siz Müstəqil Dövlətlər Birliyinin gələcəyini necə görürsünüz və Azərbaycanın MDB ilə münasibətləri barədə nə deyə bilərsiniz?

C a v a b: Onu deyə bilərəm ki, aprel ayının 2-də Moskvada Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin dövlət başçılarının görüşündə kollektiv təhlükəsizlik haqqında müqavilənin vaxtı keçdiyinə görə, onun müddətinin uzadılması məsələsi müzakirə edilirdi. Azərbaycan, Gürcüstan, Özbəkistan, Ukrayna, Moldova bu müqavilənin vaxtının uzadılmasına razılıq vermədilər və biz müqaviləni imzalamadıq. Görürsünüz ki, beləliklə, kollektiv təhlükəsizlik haqqında

müqavilədə cəmi 6 dövlət qaldı – Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Ermənistan.

Beləliklə, Müstəqil Dövlətlər Birliyi ötən dövr ərzində hələ ki, lazımi qədər formalaşa bilməyibdir. Onun fəaliyyətinin səmərəli olmadığı indi artıq göz qabağındadır. Qalanını gələcək göstərəcəkdir.

K. B u ş: Bizə verdiyi böyük şərəfə görə Azərbaycan prezidenti Əliyevə təşəkkürümüzü bildiririk.

H e y d ə r Ə l i y e v: Bir daha qeyd edirəm ki, sizinlə görüşümdən çox məmnunam. Sizin hamınızı – Azərbaycanı sevənləri də, sevməyənləri də Azərbaycana dəvət edirəm. Güman edirəm ki, Azərbaycana nə qədər çox gəlsəniz, Azərbaycan haqqında o qədər də doğru-düzgün, ədalətli məlumat əldə edə biləcəksiniz.

Sizə cansağlığı, səadət, Amerika xalqına, Amerika dövlətinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

ABŞ-ın DÖVLƏT KATİBİ XANIM MADELİN OLBRAYT İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Vaşinqton, Dövlət Departamenti

26 aprel 1999-cu il

M a d e l i n O l b r a y t: Cənab prezident, Sizinlə bu görüşümdən, NATO-nun 50 illik yubileyi ilə əlaqədar tədbirlərdə Sizin də iştirak etməyinizdən çox məmnun qaldığımı bildirirəm və əvvəlki görüşlərimizi də böyük razılıq hissi ilə xatırlayıram. Sizin açıq və qətiyyətli mövqeyinizə yüksək qiymət verərək, Sizə böyük hörmət hisslərimi ifadə edirəm.

---

* Azərbaycan prezidenti Heydər Əliyev aprelin 26-da Vaşinqtonda Ermənistan prezidenti Robert Koçaryan ilə görüşdü.

Görüşün əvvəlində ABŞ-ın dövlət katibi xanım Madelin Olbrayt iştirak etdi. Xanım Olbrayt bu görüşün böyük əhəmiyyəti olduğunu söylədi. O, Qafqazda sülhün bərqərar olunması üçün Amerika Birləşmiş Ştatlarının daha fəal rol oynamaq niyyətini bildirdi. Xanım Olbrayt bəyan etdi ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, işğal olunmuş torpaqların azad olunması, qaçqınların və məcburi köçkünlərin öz yurd-yuvalarına qaytarılması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarəetmə statusu verilməsi şərti ilə münaqişənin həllinin tərəfdarıdır. Dövlət katibi Azərbaycan və Ermənistan prezidentləri arasında görüşlərin davam etdirilməsinin xüsusi əhəmiyyətini vurğulayaraq, sülhün bərqərar olunması üçün şəxsən fəal rol oynamağa hazır olduğunu bir daha bildirdi.

Görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması barədə ətraflı fikir mübadiləsi aparıldı.

Mən Xəzərin enerji ehtiyatlarından istifadə sahəsində iki ölkənin iş birliyinə böyük əhəmiyyət verdiyimi vurğulayır və ABŞ ilə Azərbaycan arasındakı münasibətlərin səviyyəsinin yüksəldiyini məmnuniyyətlə qeyd etmək istəyirəm.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması problemindən söhbət açaraq bildirirəm ki, vəzifədə olduğumuz müddətdə prezident Klintonun və şəxsən özümün bu münaqişənin həllinə nail olmaq əzmini, ATƏT-in Minsk qrupunun həmsədri kimi ABŞ-ın bu prosesdə öz rolunu fəallaşdırmağa hazır olduğumu vurğulayıram və Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Silahlı Qüvvələrinin işğal olunmuş torpaqlardan çıxarılması və qaçqınların öz yurdlarına qaytarılması sahəsində praktik addımlar atılmasının zəruriliyini nəzərə çarpdırıram.

Aprelin 25-də Azərbaycan, Ermənistan, Gürcüstan prezidentlərinin Böyük Britaniya, Almaniya Federativ Respublikası, Fransa, Türkiyə və Norveçin xarici işlər nazirlərinin iştirakı ilə keçirilmiş görüşündən razı qaldığımı bildirir və Norveçin xarici işlər naziri, ATƏT-in hazırkı sədri Knut Bollebekin Minsk prosesini sürətləndirmək üçün səyləri artırmağa hazır olduğunu məmnuniyyətlə qeyd edirəm.

H e y d ə r Ə l i y e v: NATO-nun 50 illik yubileyi ilə əlaqədar zirvə görüşünün yüksək səviyyədə keçdiyini qeyd etmək istəyirəm, xanım Olbrayt ilə həmişə böyük məmnuniyyətlə görüşdüyümü bildirir və Azərbaycana göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirirəm və qətiyyətlə vurğulayıram ki, NATO-nun yeni strateji konsepsiyası Azərbaycan tərəfindən müdafiə edilir. Hazırda Yuqoslaviyada, Kosovoda baş verən hadisələrə toxunaraq bildirirəm ki, hər bir ölkənin ərazi bütövlüyünün toxunulmazlığı təmin edilməlidir, lakin etnik təmizləmə siyasəti yolverilməzdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsi üzərində dayanaraq bildirirəm

ki, münaqişə ATƏT-in Lissabon sammiti tərəfindən qəbul edilmiş prinsiplər əsasında tezliklə həll olunmalıdır. Münaqişənin aradan qaldırılması prosesində ABŞ-ın daha fəal rol oynamasının böyük əhəmiyyətini nəzərə çarpdıraraq qeyd etmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistan Silahlı Qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması, qaçqınların doğma yurd-yuvalarına qaytarılması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusu verilməsi prinsipləri Lissabon sammitində qəbul olunmuşdur.

Atəşkəs rejiminin 5 ildən bəri davam etdiyini xatırlayır, ötən müddət ərzində Ermənistanın qeyri-konstruktiv mövqe tutması nəticəsində ATƏT-in Minsk qrupu çərçivəsində nizamlama prosesində irəliləyişlər əldə edilmədiyini narahatlıq hissi ilə bildirirəm.

Mən, eyni zamanda, Minsk qrupunun həmsədrlərindən biri olan Rusiyanın münaqişədə iştirak edən digər tərəfə – Ermənistana qanunsuz və gizli olaraq bir milyard dollar məbləğində silah verməsindən, hazırda isə Ermənistandakı hərbi bazasını genişləndirməsindən, oraya S-300 raketləri və MİQ-29 təyyarələri göndərməsindən və bununla əlaqədar Azərbaycanın müraciətlərinin Rusiya tərəfindən cavabsız qaldığından da narahatlığımı və narazılığımı bildirirəm.

Madelin Olbrayt: Mən Dağlıq Qarabağ münaqişəsinin *nizamlanması vəziyyətindən* ABŞ hökumətinin narahatlığını bildirir, öz ölkəsinin Minsk prosesində səyləri artıracağını vurğulayaraq münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılmasının zəruriliyini bir daha bəyan edirəm.

«VAŞİNQTON-POST» QƏZETİNİN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ*

Vaşinqton, «Monarx» oteli

26 aprel 1999-cu il

H e y d ə r Ə l i y e v: Sizi səmimi-qəlbdən salamlayıram. Mətbuatla görüş həmişə çox maraqlı olur. Xüsusən dünyada məşhur olan belə bir qəzet – «Vaşinqton-post» qəzetinin nümayəndələri ilə. Mən sizi salamlayıram və təşəkkür edirəm ki, siz vaxt tapıb bizimlə görüşməyə gəlmisiniz.

Adətən qəzetçilər suallar verirlər. Yəqin ki, sizin də suallarınız vardır.

S t i v R o z e n f e l d: Cənab prezident, Sizə çox təşəkkür edirik ki, bizi dəvət etmisiniz. Bəli, doğru buyursunuz, Sizə çoxlu suallarımız vardır. Əgər etiraz etməsəydiniz elə birbaşa suallardan başlayaq.

H e y d ə r Ə l i y e v: Buyurun, başlayın.

S u a l: Cənab prezident, bilmək istərdik ki, Siz NATO-nun Kosovodakı əməliyyatlarını necə qiymətləndirirsiniz və Sizcə, NATO-nun Kosovo barədə qərarları sülhün bərqərar olmasına gətirib çıxaracaqmı?

C a v a b: Əvvəlcə mən istəyirəm sizə təşəkkür edim ki, qəzetiniz və siz Azərbaycana, Azərbaycanın prezidentinə bu günlər çox böyük diqqət göstərmisiniz. Aprel ayının 22-də

* Görüşdə ABŞ-ın nüfuzlu mətbuat orqanlarından olan «Vaşinqton-post» qəzetinin jurnalistləri Stiv Rozenfeld, Fred Xayyat, Stiv Kolb, Nora Bostani və Devid İqnatius iştirak etmişlər.

bizim Vaşinqtona gəlməyimizlə əlaqədar siz aprelin 23-də öz qəzetinizdə bizim gəldiyimizi bəyan etmisiniz və hətta bir şəkil də vermisiniz. Deyirlər ki, «Vaşinqton-post» qəzetində belə bir fotonun yerləşdirilməsi bu qəzetin xüsusi münasibətini göstərir. Ondan sonrakı gün bizim Hərbi Dəniz Akademiyasında olmağımız haqqında sizin qəzetdə bir məqalə verilibdir. Bunlara görə təşəkkür edirəm. Bizim Azərbaycanda deyirlər ki, göz dəyməsin, həmişə belə olsun. Çünki burada prezidentlər çoxdur. İndi siz bizə belə diqqət göstərmisiniz. Ola bilər, buna görə də göz dəysin.

Sizin sualınıza cavab olaraq onu deyə bilərəm ki, şübhəsiz, Yuqoslaviya, Kosovo problemi çox mürəkkəb bir problemdir. Amma siz bilirsiniz ki, biz, Azərbaycan on ildir belə bir problemin içində yaşayırıq. Yəqin sizə məlumdur ki, Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini 1988-ci ildə Ermənistan Azərbaycandan ayırıb özünə bağlamağa çalışıbdır. Bunun nəticəsində müharibə baş veribdir və Ermənistan silahlı qüvvələri müəyyən səbəblərə görə Azərbaycan ərazisinin 20 faizini işğal edibdir.

Buna baxmayaraq, biz beş il öncə atəşkəs haqqında saziş imzalamışıq, atəşi dayandırmışıq və məsələni sülh yolu ilə həll etmək istəyirik. Məsələni sülh yolu ilə həll etmək üçün Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verməyə razıyıq. Amma Ermənistan tərəfi bununla razı deyildir. Ona görə də indiyə qədər bu məsələ həll olunmur.

Yuqoslaviyada isə Miloşeviç Kosovonun muxtariyyətini ləğv edibdir və beləliklə, o, beynəlxalq hüquq normalarını pozubdur, ədalətsizlik edibdir və Kosovo albanlarının özünüidarəetmə statusu almaq cəhdlərinə görə də orada müharibə başlayıbdır. O, etnik təmizləmə ilə məşğul olur. Bizim bu barədə fikrimiz beladir ki, hər bir ölkənin ərazi bütövlüyü toxunulmaz olmalıdır. Ona görə də biz Yuqoslaviyanın ərazi

bütövlüyünü müdafiə edirik, dəstəkləyirik. Biz separatçılığın əleyhinəyik. Amma eyni zamanda etnik təmizləmənin də, soyqırımın da əleyhinəyik.

Şübhəsiz ki, biz Kosovo albanlarına müstəqillik vermək, müstəqil dövlət yaratmaq təklifinin əleyhinəyik. Amma, eyni zamanda Kosovo albanlarının hüquqlarının tapdalanmasının da əleyhinəyik. Biz hesab edirik ki, bu məsələdən ən düzgün çıxış yolu budur ki, Yuqoslaviyanın ərazi bütövlüyünün toxunulmazlığı şərti ilə Kosovo albanlarına Yuqoslaviya dövlətinin tərkibində muxtariyyət hüququ verilməlidir və hər iki tərəf belə bir prinsip əsasında münaqişəyə son qoymağa məcbur edilməlidir. Bu baxımdan NATO-nun Yuqoslaviyada apardığı əməliyyatlar, görünür ki, son qərardır. Yəni bütün başqa imkanlar nəticə vermədiyinə görə NATO bu cür əməliyyatlara başlayıbdır.

Ümumiyyətlə, biz hərbi əməliyyatların əleyhinəyik. Ancaq Miloşeviçin hərəkətlərinin qarşısını yəqin ki, başqa cür almaq mümkün deyildir. Ona görə də biz NATO-nun bu əməliyyatlarını da məqsədəuyğun hesab edirik.

Təbiidir ki, məsələnin sülh yolu ilə həll edilməsi hər şeydən yaxşı olardı. Əgər Miloşeviç bununla razı olmursa və özünü bu qədər sərbəst aparırsa, onda onu məcbur etmək lazımdır.

Birləşmiş Millətlər Təşkilatının nizamnaməsində sülhə məcbur etmək kimi bir müddəa var. Ona görə də biz hesab edirik ki, əgər NATO bu yol ilə gedibsə, bu yol ilə də məsələni sona çatdırıb həll etməlidir. Bu, mənim prinsipial fikrimdir. Amma taktiki cəhətlər, şübhəsiz ki, NATO-nun özündən asılıdır.

S u a l: Siz «Bu münaqişəyə son qoyulmalıdır» deyərkən, əgər lazım olarsa, quru qoşunlarının da Kosovoya göndərilməsinin tərəfdarısınızmı?

C a v a b: «Bilirsiniz, indi vəziyyət elədir ki, Miloşeviç bütün dünyaya meydan oxuyur.

Rusiyanın məsələni sülh yolu ilə həll etmək fikri ilə razıyam. Amma əgər Miloşeviç heç bir təklifi qəbul etmirsə və özbaşınalıq edib soyqırımı siyasəti həyata keçirirsə, bunun başqa yolu yoxdur.

S u a l: Cənab prezident, İraq Küveyti işğal edərkən Sovetlər İttifaqı beynəlxalq səylərə qoşularaq bu təcavüzə qarşı çıxış etdi. Sizcə, indi Rusiya nə üçün beynəlxalq qüvvələrlə bir mövqedən çıxış etmir?

C a v a b: Buna mən tam cavab verə bilmərəm. Onu Rusiyadan soruşmaq lazımdır. Ancaq bizi narahat edən bir məsələ ondan ibarətdir ki, Rusiyada bu dəqiqə şovinist, millətçilik əhval-ruhiyyəsi çox geniş yayılıbdır.

Şübhəsiz ki, hər dövlət öz siyasətini özü bildiyi kimi aparır. Amma Rusiyada slavyan birliyi, yaxud da pravoslav, xristian birliyi şüarı altında onlar bu ədalətsizliyə dəstək verirlər. Mən hesab edirəm ki, Rusiya o qədər də düzgün siyasət aparmır. Ümumiyyətlə, Rusiyanın məsələləri sülh yolu ilə həll etmək prinsipi əsaslı fikirdir. Ancaq məlumdur ki, NATO da bu məsələni sülh yolu ilə həll etməyə çalışır. Amma bunlar nəticə vermədi. Rusiya da həmin o əlaqə qrupunun, yaxud da Rambuyedəki danışıqların iştirakçısı idi. Gərək o, həmin vaxt çalışaydı və Miloşeviçlə xüsusi əlaqəsi olduğuna görə gərək ona başa salaydı ki, bu cür hərəkətlərdən əl çəksin. Amma buna nail olmayaraq, eyni zamanda NATO-nun əməliyyatlarının əleyhinə çıxmaq, şübhəsiz ki, anlaşılmazdır. Rusiya deyir ki, məsələni danışıqlarla həll etmək lazımdır. Bu, düzgün fikirdir. Ancaq əgər danışıqlar nəticə vermirsə?

Məsələn, biz beş ildir Ermənistanla danışıqlar aparırıq ki, məsələni sülh yolu ilə həll edək. Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edibdir. İndi də deyir ki, «Dağlıq Qarabağa müstəqillik vermək lazımdır». Biz nə qədər çalışırıq, münaqişəni həll edə bilmirik. Minsk qrupunun həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa da

Ermənistanı bu məsələnin sülh yolu ilə həll olunmasına təhrik edə bilmirlər. Məsələ həll olunmur, torpaqlarımız işğal altındadır, bir milyondan artıq həmvətənimiz qaçqın vəziyyətində çadırlarda yaşayır.

Məsələn, Dağlıq Qarabağda müharibə etmək lazım deyildir. Sadəcə, Ermənistan tərəfinə daha da güclü təsir olsaydı ki, onlar düzgün mövqe tutsunlar, məsələni həll etmək mümkündür.

Görünür ki, indi Miloşeviç həm özünə arxayındı, həm də başqa şeylərə arxayındır. O, heç bir ədalətli fikrə məhəl qoymur. Mənim fikrim bu qədər.

S u a l: Cənab prezident, öncə bildirdiniz ki, Siz Dağlıq Qarabağa Azərbaycanın tərkibində geniş statuslu muxtariyyət verməyə razısınız. Bilmək istərdik ki, bu «geniş muxtariyyət» deyərkən nəyi nəzərdə tutursunuz? Yəni mən Dağlıq Qarabağda yaşayan erməni çoxluğuna geniş muxtariyyət verilməsini nəzərdə tuturam. Ümumiyyətlə, «geniş muxtariyyət» deyərkən nəyi nəzərdə tutursunuz? Bir az bu məsələnin spesifik cəhətlərinə vara bilərsinizmi?

Məsələn, Siz Dağlıq Qarabağa özünün polis qüvvələrini saxlamağa və silah gəzdirərək yerli əhalinin təhlükəsizliyini təmin etməyə, yaxud Dağlıq Qarabağ ilə Ermənistan arasında planlı şəkildə körpünün fəaliyyət göstərməsinə, dəhlizin olmasına icazə verərsinizmi? Xahiş edirəm, geniş muxtariyyətin detallarında nəyi nəzərdə tutduğunuz barədə bizə ətraflı məlumat verəsiniz.

C a v a b: Bilirsiniz, əgər Ermənistan tərəfi bu geniş muxtariyyətin tərəfdarı olsa, biz onlarla birlikdə bu məsələni daha da dəqiqləşdirə bilərik.

Məsələn, prinsip etibarilə siz dediyinizə, - əlbəttə ki, Dağlıq Qarabağda polis qüvvələrinin saxlanmasına və silahlı polisin olmasına biz tamamilə razıyıq. Ermənistanla daim əlaqə saxlamaq – buna da biz tamamilə razıyıq. Biz onlara iqtisa-

diyyatda da çox böyük səlahiyyətlər verməyə hazırıq, yaxud, xarici ölkələrlə müstəqil iqtisadi əlaqələr saxlanmasına da biz razıyıq, «yüksək muxtariyyət» deyəndə, orada bir neçə məsələlər üzrə onlar gərək Azərbaycan hökuməti ilə mütləq bağlı olsunlar. Qalan məsələlərdə isə biz onlara geniş səlahiyyət veririk.

Dünyada çox belə muxtariyyətlər var, muxtariyyət statusu vardır. Biz bəyan etmişik ki, Ermənistan tərəfi üçün uyğun olan muxtariyyət statusunu biz onlara verməyə hazırıq. Amma Ermənistan tərəfi bununla razı deyildir.

S u a l: Cənab prezident, mən mövzunu dəyişərək İrandakı cari siyasi durum barədə Sizin fikirlərinizi bilmək istərdim. Sizcə, İranın cari siyasi vəziyyəti nə qədər sabitdir və Siz gələcəyə baxdıqda İranda nələrin baş verə biləcəyini görürsünüz?

C a v a b: Bu barədə qəti bir söz demək çox çətindir. İranda olan rejim, islam dövləti rejimi, şübhəsiz ki, gücə **arxalanan** bir rejimdir. İran əhalisinin çox hissəsinin dindar olması və dinin İranda çox güclü təsiri olması, şübhəsiz ki, bu rejimi daha da möhkəmləndirir.

İranda təxminən 30 milyona qədər azərbaycanlı yaşayır. Bu, İran əhalisinin təxminən yarısıdır. Onlar istəyirlər ki, öz dillərində məktəb olsun, kitab olsun, qəzet olsun. Onlar başqa bir şey istəmirlər.

Baxmayaraq ki, vaxtilə öz konstitusiyalarında belə hüquqların verilməsi haqqında maddə yazılıbdır və bugünkü prezident Xatəmi də prezident seçkiləri vaxtı söz veribdir ki, prezident seçilsə Konstitusiyanın 15-ci maddəsini həyata keçirəcəkdir, ancaq onu həyata keçirmir.

S u a l: Cənab prezident, Sizcə, prezident Xatəmi İranda mövcud olan mühafizəkar qüvvələr və kəşfiyyat orqanları üzərində öz ideyaları ilə qalib gələ biləcəkmi və Siz Xatəmini yaxın 5-10 il ərzində İranda önəmli rol oynayan siyasi fiqur kimi görürsünüzmi?

C a v a b: Şübhəsiz ki, prezident Xatəmi bir siyasi fiqur kimi İranda böyük rol oynayır və gələcəkdə də oynaya bilər. O, Qərblə müəyyən bir dialoq etmək təklifini irəli sürübdür.

S u a l: Bu səfəriniz zamanı prezident Klinton ilə söhbət etmək imkanınız oldumu? Xüsusilə, Azərbaycana humanitar yardım göstərməsinə qoyulmuş qadağa barədə onunla söhbət edə bildinizmi? Azərbaycana qarşı tətbiq olunmuş bu maddənin aradan qaldırılması və bu vəziyyətin düzəldilməsi üçün yeni təşəbbüslər edəcəyi barədə onun tərəfindən vədlər almısınızmı?

C a v a b: Ayın 24-də axşam görüşümüz zamanı mən onunla qısa söhbət etdim və aprelin 25-də NATO-nun toplantısı bitəndən sonra biz yenə də bir neçə dəqiqə söhbət etdik. Bu söhbətlər zamanı bizim əsas fikirlərimizi mən ona bir daha çatdırdım. Bizim üçün əsas iki məsələdir: biri Ermənistan–Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasında Amerika Birləşmiş Ştatlarının səylərinin artırılması, ikincisi isə Konqresin qəbul etdiyi 907-ci maddənin, Azərbaycana yardıma qadağa qoyan maddənin aradan götürülməsidir. Ayın 24-də və 25-də apardığımız söhbətimizin ikisində də o, qətiyyətlə bildirdi ki, bu məsələlərlə ciddi məşğul olur və olacaqdır. Hətta belə dedi ki, mən prezidentlik müddətimin sonuna qədər Ermənistan–Azərbaycan münaqişəsinin həll olunmasını mütləq təmin etməliyəm.

Mən bir neçə vaxt, 10–15 gün bundan öncə prezident Klintondan və xanım Olbraytdan məktublar almışam. O məktublarda prezident Klinton və xanım Olbrayt göstərirlər ki, Amerika hökuməti Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün bundan sonra daha da ciddi məşğul olacaqlar. 907-ci maddə haqqında onlar daim bildirirlər ki, bu 907-ci maddənin əleyhinədirlər. Onların bəyanatına görə, hökumət çalışır və bundan sonra da çalışacaq ki, 907-ci maddə aradan götürülsün.

Mən bu gün xanım Olbraytla görüşəcəyəm. Görüş zamanı bu mövzuları mütləq müzakirə edəcəyəm.

S u a l: Cənab prezident, Kosovo mövzusuna toxunan zaman Rusiyada son dövrdə artmaqda olan şovinizm və millətçilik təzahürlərində narahatlığınızı bildirdiniz. Öyrənmək istərdik ki, bu, özünü daha hansı formalarda büruzə verir və Sizin regiona bu halların təsiri necədir?

C a v a b: Rusiyanın siyasətində millətçilik, şovinizm hər yerdə özünü büruzə verir. Mən sizə bildirmək istəyirəm ki, keçmişdə Sovetlər İttifaqının rəhbərliyində olan şəxslərin də siyasətində millətçilik, şovinizm daim hiss olunurdu. İndi isə Rusiya, baxmayaraq ki, onlar demokratik dəyərləri özlərinin əsas prinsipləri elan ediblər, ancaq orada şovinizm, millətçilik əhval-ruhiyyəsi genişdir – həm Rusiyanın daxilində, həm də Rusiyanın müxtəlif dövlətlərlə, ölkələrlə münasibətlərində.

Biz, rus millətinə mənsub olmayanlar bu cür hallara həmişə çox həssasıq. Məsələn, mən Rusiyanın rəhbər vəzifəli şəxslərinə son vaxtlar bir neçə dəfə demişəm ki, siz ölkənizdə münasibətləri milli zəmində qurmaqla özünüz-özünüzə çox böyük zərər verirsiniz. Çünki Rusiya əhalisinin hamısı slavyan deyildir, hamısı pravoslav, xristian deyildir. Rusiyada müsəlmanlar da, yəhudilər də, buddistlər də var və başqa dinlərə, başqa millətlərə mənsub olanlar da vardır. Rusiyada 20 milyon müsəlman var. İndi bu Yuqoslaviya, Kosovo problemində ardıcıl deyəndə ki, «biz slavyanıq, pravoslavıq, xristianıq, biz serblərə kömək etməliyik», bu, müsəlman millətindən, yaxud başqa millətlərdən olan vətəndaşlara toxunur.

Qafqaz ölkələrinə münasibətlərində də bu millətçilik, şovinistlik özünü göstərir.

Məsələn, xatirimdədir, bir dəfə – 1998-ci ilin əvvəlində televiziya vasitəsilə Yeltsin Ermənistanı dəstəkləyərək dedi ki, ermənilər xristiandırlar, onlar bizim strateji təsirimiz altındadırlar, ona görə də biz onlara xüsusi diqqət yetirməliyik.

Şübhəsiz, belə anlamaq olar ki, demək, başqa dinə, yaxud başqa millətə mənsub olan ölkələrə onların münasibəti başqadır. Belə millətçilik, şovinizm siyasəti bizi çox narahat edir.

S u a l: Cənab prezident, Siz hələ Sovetlər İttifaqının siyasi bürosunda çalışdığınız vaxtdan bəri uzun illərdir ki, Rusiyanın prezidenti Boris Yeltsini tanıyırsınız. Bilmək istərdik, Siz onu bir lider və bir şəxs kimi necə qiymətləndirirsiniz? Sizcə o, nəyi düzgün edir, nəyi isə səhv edir?

C a v a b: Bu, çox mürəkkəb sualdır.

S u a l: Cənab prezident, biz bu günlər Gürcüstan prezidenti Eduard Şevardnadze ilə də görüşmüşük. Buna bənzər sualla ona müraciət edəndə o, Rusiyada hökumət ilə hökumətdənkənar qüvvələr arasında bir fərq qoydu. Qeyd etdi ki, Rusiyada bir hökumət dairələri var, bir də hökumətdən kənarda olan qüvvələr vardır ki, onlar daha millətçi, daha şovinistdirlər. Siz də bu fikirlə razılaşırsınızmı, yoxsa Sizcə, elə Rusiyanın hökumət dairələrinin özləri də Sizin regiona qarşı münasibətdə şovinist mövqedədirlər?

C a v a b: Bilirsiniz, mən ümumi fikir söyləyirəm. Bunu araşdırmaq, seçmək çox çətindir. Bu gün hökumətdə olmayan sabah hökumətdədir, bu gün hökumətdə olan isə sabah hökumətdə deyil. Mən ümumi fikrimi deyirəm. Mən bunu fərdiləşdirmək istəmirəm, ümumi əhval-ruhiyyəni deyirəm.

S u a l: Cənab prezident, icazə verin Azərbaycanın şəxsiyyətləri barədə sual verim. Sizin partiyanın üzvlərinin bəziləri məqalələrində yazırlar ki, Azərbaycanın gələcəyi üçün ən ağıllı, ən düzgün yol gələcəkdə Sizin oğlunuzun prezident olmasıdır. Bu fikrə necə münasibət bəsləyirsiniz?

C a v a b: Bizdə fikir müxtəlifliyi, plüralizm vardır. Kim nə cür düşünür, o cür də deyir. Mən hər bir fikrə münasibət bəsləyə bilmərəm.

Son zamanlar Heydər Əliyevin oğlu haqqında müxalifətdə cürbəcür danışıqlar gedir. Həmin müxalifətdə olan insanlar

kimi, Heydər Əliyevin oğlu İlham Əliyev, - o, mənim yanımda oturubdur, - o da Azərbaycanın vətəndaşıdır. Onun seçib-seçilmək hüququ vardır. O da bir vətəndaş kimi öz hüquqlarından nə vaxt, nə cür istifadə etmək istəsə, o vaxt da istifadə edəcəkdir. Bu, tam müstəqildir.

S u a l: Siz ona səs verərdinizmi?

C a v a b: Bəs hesab edirsiniz ki, verməzdim? Əksinə desəydim siz inanmazdınız.

S u a l: Cənab prezident, Xəzər dənizində olan enerji ehtiyatlarının həcmi barədə bizdə müxtəlif hesablamalar, ehtimallar vardır. Əgər biz əvvəllər Xəzər dənizinin çox böyük enerji ehtiyatlarına malik olması barədə fikirlərlə rastlaşırdıqsa, son dövrlər bu ehtiyatların daha məhdud olması barədə fikirlər eşidirik. Sizin hesablamalarınız necədir?

C a v a b: Mən bu gün strateji və beynəlxalq araşdırmalar mərkəzində çıxış edərkən bu mövzuya toxundum. Xəzər dənizinin enerji ehtiyatları dörd il bundan öncə elan edildiyindən də çoxdur.

Biz 1994-cü ildə ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalayanda mən təsəvvür edə bilməzdim ki, cəmi üç il ərzində müqavilələrin sayı 16-ya çatacaqdır. Sabah biz burada, Vaşinqtonda yenə üç müqavilə imzalayacağıq – «Eksson», - «Mobil» və «Monkrift oyl» şirkətləri ilə. Əgər Azərbaycanda, ya Xəzər dənizində neft ehtiyatları az olsa, bu qədər şirkətlər yeni-yeni müqavilələr imzalamaq üçün müraciət edərlərmi?

İndiyə qədər imzalanmış 16 müqavilədə 32 şirkət iştirak edir və bu şirkətlər 14 ölkəni təmsil edirlər. İndi üç müqavilə də imzalanacaqdır və bütün müqavilələrə görə investisiyanın ümumi həcmi 50 milyard dollara qədərdir. Neft ehtiyatlarına gəldikdə isə bizim mütəxəssislərin hesablamaları göstərir ki, Xəzər dənizinin Azərbaycan sektorunda olan neft yataqlarının ehtiyatı 4 milyard tondan 10 milyard tona qədərdir. Hələ bu, ilkin hesablamalardır. Amma həqiqətdə bundan artıqdır.

Məsələn, biz birinci müqaviləni imzalayanda layihədə nəzərdə tutmuşduq ki, oradan 510 milyon ton neft götürüləcəkdir. Amma indi görünür ki, 630 milyon ton götürüləcəkdir. Yəni 120 milyon ton artıq. Biz hər qazılan quyudan sutkada 500 ton neft gözləyirdik, amma indi 2 min ton neft alırıq.

Bilirsiniz, sizin o dediyiniz fikirlər Rusiya mətbuatında, Amerika Birləşmiş Ştatlarının və başqa ölkələrin mətbuatında yayılıbdır. Bu fikirləri yayanlar Azərbaycanın neft strategiyasının əleyhinə olan adamlardır, o cümlədən ermənipərəst qüvvələrdir.

Məsələn, siz bilirsiniz ki, Rusiya bizim bu neft strategiyamızın əleyhinədir, xüsusən Amerika Birləşmiş Ştatları, Avropa ölkələri şirkətlərinin Xəzər dənizinə gəlməsinin əleyhinədir. Ona görə də onlar gördülər ki, bundan bir şey çıxmır, indi bu cür şayiələr yayırlar. Bunlar əsassızdır. Xəzər dənizinin çox böyük enerji ehtiyatları vardır. Təkcə Azərbaycan sektorunda yox, digər sektorlarda da, Xüsusən Qazaxıstan sektorunda.

S u a l: Cənab prezident, Siz mənim indi vermək istədiyim suala qismən cavab verdiniz. Amma yenə bilmək istəyirəm ki, Sizcə, Rusiya Xəzər regionundakı layihələrdə daha fəal iştirak etmək üçün Ermənistana yardım göstərmək vasitəsilə Sizə təzyiq etmək istəyirmi?

C a v a b: Bilirsiniz, şübhəsiz ki, təsir etməyə çalışır. İndi Rusiyanın bizim Xəzər dənizindəki neft yataqlarında fəal iştirak etməyə maddi imkanları, maliyyə imkanları yoxdur. Onların bəziləri hesab edirlər ki, Azərbaycan bu ehtiyatları saxlamalıdır, nə vaxt onların imkanları olacaq o vaxt istifadə edə bilsinlər. Ona görə cürbəcür vasitələrlə təsir etməyə çalışırlar.

1994–95-ci illərdə Azərbaycanda terror aktları, silahlı dövlət çevrilişinə cəhdlər də məhz Azərbaycanın neft strategiyasının qarşısını almaq məqsədi daşıyırdı.

Məsələn, 1994-cü ilin sentyabrın 20-də biz «Əsrin müqaviləsi»ni imzaladıq. Sentyabr ayının 29-da Azərbaycan parlamenti sədrinin müavinini və bir də yüksək rütbəli hərbi zabiti terrorla öldürdülər. Bu zaman Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasına hücum edildi və oradan dörd nəfər siyasi cəhətdən çox cinayətkar adamı çıxarıb Rusiyaya qaçırdılar.

Biz 1994-cü ilin oktyabr ayındakı çevriliş cəhdinin qarşısını aldıq. 1995-ci ilin mart ayında yenidən dövlət çevrilişinə cəhd göstərdilər. 1995-ci ilin avqust aymda Azərbaycan prezidentinin təyyarəsini xaricdən qayıdarkən Azərbaycanın hava limanının üzərində raketlə vurmağa cəhd göstərdilər. Bizə məlumdur ki, burada Rusiyanın xüsusi xidmət orqanlarının rolu vardır. Azərbaycan prezidentini silahlı yolla devirmək, yaxud da ki, ona qarşı terror etmək və beləliklə, Azərbaycanın siyasətini dəyişmək məqsədi var idi.

S u a l: Cənab prezident, bizim ölkəmizdə analitiklər belə hesab edirlər ki, Rusiya təzədən dirçələcək, təzədən güclü bir dövləi olacaq və həm Sizə, həm də Amerikaya təhlükə törədə biləcəkdir. Bu barədə nə düşünürsünüz?

C a v a b: Mən ümumiyyətlə, proqnoz verməkdən çəkinirəm. Ona görə də qəti proqnoz vermək istəmirəm. Hər halda Rusiyanın daxilində gedən proseslər göstərir ki, diqqətli olmaq lazımdır.

S u a l: Cənab prezident, bu ölkədə fikir müxtəlifliyi vardır. Bəziləri zəif Rusiyanın, bəziləri isə sağlam Rusiyanın tərəfdarıdırlar. Lakin hər ikisi razılaşır ki, zəifləmiş Rusiya qonşuları üçün, Qərb üçün təhlükədir, həm də hesab edirlər ki, Rusiyanın sağlamlaşması üçün Beynəlxalq Valyuta Fondu gərək ona yardımlarını davam etdirsin. Hətta baxmayaraq ki, bəzən Siz də, biz də Rusiyanın etdiyi hərəkətlərlə razılaşmırıq. Amma buna baxmayaraq bəzi adamlar hesab edirlər ki, Beynəlxalq Valyuta Fondu Rusiyaya yardımı davam etdirməlidir. Sizin bu fikirlərə münasibətiniz necədir?

C a v a b: Bu da çox ciddi fikirlərdir. Mən bir onu deyə bilərəm ki, biz istəyirik Rusiya demokratik ölkə olsun, Rusiyada ümumbəşəri dəyərlərə, demokratik prinsiplərə söykənən hakimiyyət olsun, Rusiyada imperiya iddiaları inkişaf etməsin və Rusiya imperiya iddialarından əl çəksin, Rusiya sülhsevər ölkə olsun və qonşularına, o cümlədən Cənubi Qafqazda olan qonşularına ədalətli, normal münasibət göstərsin.

S u a l: Cənab prezident, Siz GUAM birliyi və onun əhəmiyyəti barədə nə deyə bilərsiniz? Səhv etmirəmsə, Özbəkistan da bu birliyə daxil olmaq istəyir.

C a v a b: Bəli, biz – prezident Kuçma, prezident Şevardnadze, prezident Luçinski, prezident Kərimov, bir də Azərbaycan prezidenti Əliyev srağagün Özbəkistanın Vaşinqtondakı səfirliyində görüşdük. Biz Özbəkistanı GUAM-a üzv qəbul etdik və GUÖAM-ın bugünkü mövqeyi, fikirləri haqqında birgə bəyannamə imzaladıq. Biz hamımız eyni fikirdəydik ki, il yarım bundan öncə Strasburqda yaranmış bu təşkilat özünün bu gün və gələcək üçün vacibliyini və lazımlılığını sübut edibdir. Biz bu təşkilat çərçivəsində gələcəkdə müştərək fəaliyyət göstərmək haqqında bəyannamədə öz fikirlərimizi bildirdik.

S t i v R o z e n f e l d: Cənab prezident, bizə verdiyiniz çox maraqlı müsahibəyə görə təşəkkürümüzü bildiririk.

H e y d ə r Ə l i y e v: Sağ olun. Amma suallarınız azdır. Mən sizdən daha çox sual gözləyirdim.

Amma mən bütün suallara cavab verdim. Özü də çox geniş cavab verdim və sizinlə çox açıq danışdım. Güman edirəm ki, siz mənim fikirlərimi tam açıqlığı ilə hiss etdiniz.

Mən sizə xatirə olaraq Azərbaycan-Amerika əlaqələrinə həsr olunmuş kitab və bir də Azərbaycanın NATO ilə əlaqələri haqqında kitab təqdim edirəm.

«Vaşinqton post» qəzeti ilə gələcəkdə sıx əməkdaşlıq etmək istəyirəm və hesab edirəm ki, bizim aramızda yaxşı, səmimi

əlaqələr yaranıbdır. Güman edirəm ki, bizim əməkdaşlığımız gələcəkdə də səmərəli, uğurlu olacaqdır.

S t i v R o z e n f e l d: Cənab prezident, çox sağ olun. Sizə dərin minnətdarlığımızı bildiririk. Bizə çox böyük şərəf verdiniz, Sizinlə Bakıda görüşəcəyik.

H e y d ə r Ə l i y e v: Bəli, sizi Bakıya dəvət edirəm. Əgər gəlsəniz çox razı qalacaqsınız. Sağ olun. Təşəkkür edirəm.

AMERİKA–AZƏRBAYCAN TİCARƏT PALATASINDA RƏSMİ QƏBULDA* NİTQ

Vaşinqton, «Poçt» muzeyinin binası

26 aprel 1999-cu il

Hörmətli xanımlar və cənablar, əziz dostlar!

Mən sizi bu axşam Vaşinqtonda, bu əzəmətli salonda səmimi-qəlbdən salamlayıram və sizinlə bir yerdə olmağımdan çox məmnunluğumu bildirirəm.

Amerika–Azərbaycan Ticarət Palatası bir neçə ildir ki, fəaliyyət göstərir və ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etməsinə, ticarətin genişlənməsinə və ümumiyyətlə, dostluğun, əməkdaşlığın yüksəlməsinə dəyərli xidmətlər göstərir. Mən bu fürsətdən istifadə edib Amerika–Azərbaycan Ticarət Palatasını əldə etdiyi nailiyyətlər münasibətilə təbrik edirəm. Palatanın üzvlərinə, tərəfkeşlərinə bu nəcib işlərində yeni-yeni uğurlar arzulayıram.

Amerika–Azərbaycan Ticarət Palatası eyni zamanda Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq əlaqələrinin inkişafına da xidmət edir. Bu gün bir daha bəyan edirəm ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarını özünə strateji tərəfdaş hesab edir. Biz Amerika–Azərbay-

---

* Həmin gün «Poçt» muzeyinin salonuna ölkənin görkəmli siyasi xadimləri, senatorlar, konqresmenlər, ən iri neft şirkətlərinin rəhbərləri, nüfuzlu işgüzar dairələrin nümayəndələri, ABŞ-dakı Azərbaycan lobbisinin təmsilçiləri, Vaşinqtonda yaşayan soydaşlarımız toplaşmışdılar. Rəsmi qəbulu Amerika-Azərbaycan Ticarət Palatasının sədri, səfir Riçard Armitac açaraq Heydər Əliyevi salamlamışdır.

can əlaqələrini strateji tərəfdaşlıq əlaqələri kimi, yüksək qiymətləndiririk, bu əlaqələrə sadiqik və bundan sonra da sadiq olacağıq.

Mən Vaşinqtona NATO-nun 50 illik yubileyi münasibətilə keçirilən mərasimlərdə iştirak etmək üçün gəlmişəm. Bu mərasimlər artıq arxada qalıbdır. NATO-nun 50 illik yubileyi münasibətilə dünən əsas toplantıda hamımız olduq. Hər kəs öz fikirlərini bildirdi. Mən də verilən vaxtdan istifadə edib toplantıda öz sözlərimi dedim. Bu gün onu bəyan edirəm ki, əlli il müddətində NATO Avropada, dünyada sülhün, əmin-amanlığın, sabitliyin təmin olunmasında dəyərli xidmətlər göstərmişdir. Biz NATO-nun fəaliyyətini yüksək qiymətləndiririk. NATO-nun gələcək fəaliyyətinə də dəstək veririk. Vaşinqtonda NATO-nun irəli sürdüyü yeni strategiya konsepsiyasını bəyənir və alqışlayırıq. Əlli il müddətində NATO bəşəriyyət qarşısında böyük xidmətlər göstərib və bu gün əminliklə demək olar ki, o, gələcəkdə öz fəaliyyətini genişləndirəcək, dünyada sülhün, əmin-amanlığın, sabitliyin təmin edilməsində yeni-yeni xidmətlər göstərəcəkdir.

Eyni zamanda Amerika Birləşmiş Ştatlarının NATO-nun əlli illik tarixindəki xidmətlərini də biz yüksək qiymətləndiririk. Əlli il ərzində Amerika Birləşmiş Ştatları NATO-nun digər üzvləri ilə birlikdə böyük sınaqlardan keçmişdir. «Soyuq müharibə» on illərlə davam edibdir. Nəhayət, ona son qoyulubdur. Sosializm sistemi dağılıb və sovet imperiyası, Sovet İttifaqı süqut edibdir. Bunun nəticəsində isə Sovetlər Birliyinə daxil olan, onun tərkibində yetmiş il yaşamış respublikalar öz dövlət müstəqilliyini əldə ediblər. Bu respublikalar içərisində Azərbaycan da 1991-ci ildə Sovet İttifaqının dağılması ilə əlaqədar öz müstəqilliyini əldə edibdir. Bu gün sizə bəyan edirəm ki, ötən səkkiz il ərzində Azərbaycan çox ağır və mürəkkəb vəziyyətdə çətin sınaqlardan keçərək dövlət müstəqilliyini qoruyub saxlayıb, inkişaf etdiribdir. Bu gün Azər-

baycanın dövlət müstəqilliyi möhkəmdir, əbədidir və dönməzdir.

Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycanda siyasi, iqtisadi islahatlar həyata keçirilir. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur və inkişaf etdirir. Azərbaycan sülhsevər xarici siyasət aparır, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa və bunları inkişaf etdirməyə çalışır. Bütün bunlar Azərbaycan dövlətinin daxili və xarici siyasətinin əsaslarını təşkil edir. Mən bu gün burada Vaşinqtonda bir də bəyan edirəm ki, demokratiya yolu Azərbaycan üçün dönməz yoldur. Biz Azərbaycanı tam demokratik dövlət səviyyəsinə qaldıracağıq, buna qadirik və buna nail olacağıq.

Azərbaycanda iqtisadiyyat bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir. Biz özəlləşdirmə proqrammı geniş surətdə həyata keçiririk. Torpaq islahatı proqramını həyata keçiririk, torpağı şəxsi mülkiyyətə, kəndlilərə vermişik. Özəlləşdirmə Azərbaycanın iqtisadiyyatına yeni-yeni nailiyyətlər gətirir.

Bildiyiniz kimi, keçmişdə Sovetlər İttifaqına mənsub olmuş digər respublikaların iqtisadiyyatı kimi, Azərbaycanın iqtisadiyyatı da hazırda keçid dövrünün bütün çətin problemlərini yaşayır. Bu çətinliklərə baxmayaraq, biz həmin problemləri aradan qaldırırıq. Üç il bundan öncə Azərbaycanda inflyasiyanın qarşısı alınıb, əvvəlki illərdə mövcud olan iqtisadi tənəzzülün qarşısı alınıbdır. İqtisadiyyatda sabitlik yaranıb və bunun nəticəsində 1995-ci ildən başlayaraq Azərbaycanın iqtisadiyyatı inkişaf yolu keçib. İnflyasiyanın qarşısını tamamilə almışıq. Azərbaycanın milli valyutasının – manatın dəyəri sabitdir. Azərbaycanda istehsal inkişaf edir. Ümumi daxili məhsul istehsalında ilbəil artım mövcuddur.

Biz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, digər maliyyə mərkəzləri ilə sıx əməkdaşlıq edirik. Bu gün iftixar hissi ilə

sizə bildirmək istəyirəm ki, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının fikrinə görə, Azərbaycan keçmişdə Sovetlər İttifaqına mənsub olmuş, indi Müstəqil Dövlətlər Birliyi tərkibində olan respublikalar içərisində iqtisadiyyatına görə ən yüksək göstəricilər əldə etmişdir.

Nəzərə almalısınız ki, Azərbaycan bütün bu nailiyyətləri ağır şəraitdə əldə edibdir. Azərbaycana qarşı əsassız torpaq iddiası ilə çıxış edən Ermənistan 1988-ci ildən ölkəmizə hərbi təcavüzə başlayıbdır. Bu təcavüz nəticəsində və bir çox ölkələrin böyük yardımı sayəsində Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. Ermənistan silahlı qüvvələrinin apardığı etnik təmizləmə nəticəsində, işğal olunmuş torpaqlardan bir milyon azərbaycanlı zorla köçürülüb və onlar indi çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Biz 1994-cü ilin may ayında Ermənistan–Azərbaycan münaqişəsində atəşkəs sazişi əldə etmişik. Beş ildir ki, atəş yoxdur. Ancaq hələ sülhə də nail olmamışıq, danışıqlar aparırıq. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Bu münasibətlə ATƏT-in Minsk qrupuna və onun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın fəaliyyətinə ümidlər bəsləyirik. Ancaq təəssüflər olsun ki, ATƏT-in Minsk qrupu hələ də öz fəaliyyətini lazımi səviyyəyə qədər qaldırmayıbdır. O cümlədən, ATƏT-in həmsədrlərindən biri olan Amerika Birləşmiş Ştatlarının da fəaliyyəti zəifdir. Mən bu barədə fikirlərimi bu gün dövlət departamentində dövlət katibi xanım Olbraytla görüşümdə bir daha bildirdim. Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün biz Amerika Birləşmiş Ştatlarından daha da ciddi addımlar gözləyirik.

Bu sahədə Amerika Birləşmiş Ştatlarının imkanları böyükdür. O, bu imkanlarından istifadə etməlidir. Çünki biz Amerika Birləşmiş Ştatları ilə çox səmimi, vicdanlı əməkdaşlıq edirik. Amerika Birləşmiş Ştatlarının Qafqazda, o cümlədən

Xəzər dənizində, Azərbaycanda maraqlarının həyata keçirilməsinə yardım göstəririk. Ona görə də biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli sahəsində Amerika Birləşmiş Ştatlarından daha də kəskin fəaliyyət gözləyirik. Ümidvaram ki, biz bu fəaliyyətin şahidi olacağıq.

Nəzərə alınmalıdır ki, - mən bu gün dövlət departamentində bunu da bildirmişəm, - Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsində ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Rusiya son bir neçə ildə Ermənistanı silahlandırıbdır. Son üç il ərzində Rusiyadan Ermənistana qanunsuz, gizli olaraq bir milyard dollar dəyərində silah-sursat, hərbi texnika verilibdir. Ermənistanın ərazisində Rusiyanın hərbi bazası yerləşir. Həmin hərbi bazada böyük miqdarda qoşun hissələri yerləşdirilibdir. Son aylarda hərbi bazaya yeni silahlar, o cümlədən S-300 raketləri, MİQ-29 təyyarələri gətirilir.

Biz Rusiyanın Ermənistanda hərbi baza saxlamasına və Ermənistana qanunsuz, gizli olaraq silah verməsinə etiraz edirik. Bu etirazımızı Rusiyaya bildirmişik və Amerika Birləşmiş Ştatlarına da çatdırmışıq. Ancaq bunlara baxmayaraq, Rusiya öz siyasətini davam etdirir. Bu isə Qafqazda sülhün, əmin-amanlığın təmin olunmasına təhlükə yaradır. Ona görə də Amerika Birləşmiş Ştatları Qafqaz regionuna daha da çox diqqət yetirməlidir. Qafqaz regionuna onun iqtisadi marağı eyni zamanda siyasi marağı ilə uzlaşmalı, birləşməlidir. Bunlar Qafqazda sülhün, əmin-amanlığın qorunmasına xidmət etməlidir.

Ermənistan–Azərbaycan münaqişəsinin mövcud olduğu şəraitdə ölkəmizin ərazisində bir milyondan artıq qaçqın vardır. Keçmiş dövlət katibi cənab İqlberger burada qeyd etdi ki, onlar Azərbaycanda olarkən qaçqın düşərgələrində yaşayan vətəndaşlarımızı görüblər. Təsəvvür edin, insanlar altı ildir çadırlarda, ağır vəziyyətdə yaşayırlar...

Şübhəsiz ki, biz Amerika Birləşmiş Ştatlarının, NATO-nun Balkanda, Yuqoslaviyada Kosovo probleminin həll olunması üçün göstərdiyi səyləri qiymətləndiririk, bunu dünyada münaqişələrin qarşısının alınması yolunda göstərilən xidmət hesab edirik. Ancaq eyni zamanda sual olunur: beş, altı, yeddi il bundan öncə Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarını işğal edərkən, Azərbaycan torpaqlarında etnik təmizləmə siyasəti apararkən, minlərlə insanları şəhid edərkən Amerika Birləşmiş Ştatları nə üçün Azərbaycan xalqının hüquqlarının qorunmasına qalxmadı və öz güclü səsini ucaltmadı? Mən təəccüb edirəm.

Mən bir daha qeyd edirəm, - şübhəsiz ki, Yuqoslaviyada, Kosovoda Amerika Birləşmiş Ştatlarının, NATO-nun tədbirlərini biz bəyənirik və insan azadlığının, hüquqlarının qorunması sahəsində görülən işləri yüksək qiymətləndiririk. Ancaq bu, hər yerdə olmalıdır. O cümlədən Azərbaycanda da olmalıdır, Qafqazda da olmalıdır.

Belə bir şəraitdə, belə ağır vəziyyətdə Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesi gedir. Azərbaycan öz iqtisadiyyatını inkişaf etdirir. Azərbaycan öz iqtisadiyyatını dünya iqtisadiyyatı ilə daha da sıx bağlamaq istəyir.

Bu məqsədlərlə biz Xəzər dənizinin enerji ehtiyatlarını ilk dəfə dünyaya təqdim etməkdə təşəbbüs göstərmişik. Mən hesab edirəm ki, bu, Azərbaycan dövlətinin dünya birliyi qarşısında xüsusi xidmətidir. Çünki Xəzər dənizi böyük enerji ehtiyatlarına malikdir və Azərbaycan Xəzər dənizinin neft ehtiyatlarından istifadə olunmasına hələ 50 il bundan öncə, Sovet İttifaqının tərkibində olarkən başlayıbdır. İlk dəfə 1949-cu ilin noyabr ayında Xəzər dənizinin ortasında, sahildən yüz kilometr məsafədə Azərbaycan neftçiləri neft istehsalına başlayıblar, neft fontanı vurubdur. Bu da dünyada dənizin dərinliklərində neftçıxarma sahəsində ilk addım olmuşdur. Bunlar keçmişdə olubdur. Biz böyük təcrübə toplamışıq.

Azərbaycan müstəqillik əldə edəndən sonra, öz təbii sərvətlərinin, ehtiyatlarının tam sahibi olandan sonra bu təbii sərvətlərdən daha da səmərəli istifadə etməyə başladı. Bu məqsədlə biz dünyanın böyük neft şirkətləri ilə 1994-cü ilin sentyabr ayında ilk müqaviləni imzaladıq. Buna «Əsrin müqaviləsi» adı verildi. Bu müqavilədə Amerika Birləşmiş Ştatlarının bir neçə şirkəti – «AMOKO», «Yunokal», «Penzoyl» şirkətləri iştirak edirlər. O şirkətlərlə və dünyanın başqa şirkətləri – «Bi-Pi», «Statoyl» və digər şirkətləri ilə birlikdə biz Xəzər dənizinin enerji ehtiyatlarından dünya miqyasında istifadə olunması üçün ciddi addım atdıq, bunun əsasını qoyduq.

Son üç-dörd il ərzində bu məsələ çox sürətlə inkişaf edibdir.

Biz ötən illərdə yeni müqavilələr imzalamışıq. Müqavilələrin ümumi sayı 16-ya çatıbdır. Bu müqavilələrə görə Azərbaycana qoyulan investisiya təxminən 50 milyard dollar dəyərindədə olacaqdır. Biz ilk müqavilənin həyata keçirilməsinə nail olmuşuq. 1997-ci ilin noyabr ayında ilkin neft əldə etmişik və o neftin dünya bazarlarına ixrac edilməsinə nail olmuşuq. Şimal marşrutu – Bakı–Novorossiysk marşrutu ilə neft daşınmasına nail olmuşuq. Ancaq, eyni zamanda alternativ neft boru xətti yaratmağa çalışmışıq və buna da nail olmuşuq. Aprel ayının 17-də, on gün bundan öncə Gürcüstanın Qara dənizdəki Supsa limanına çəkilmiş 820 kilometr uzunluğunda Bakı–Supsa neft borusunun istismara verilməsini biz təntənəli qeyd etdik. Bu boru vasitəsilə neft artıq dünya bazarlarına çıxarılır.

Beləliklə, biz Xəzər dənizinin enerji ehtiyatlarını dünyaya tanıtdıq, dünyaya təqdim etdik. İndi Xəzər dənizinin Azərbaycan sektoru ilə yanaşı, digər sektorlarda – Qazaxıstan, Türkmənistan, Rusiya, İran sektorlarında da iş gedir və beləliklə, Xəzər dənizi indi dünyanın neft-qaz istehsal edən ən böyük bir regionuna çevrilibdir. Bu da müstəqil Azərbaycanın

xidmətidir, dünya birliyi qarşısında xidmətidir. Biz bununla fəxr edirik. Bunların hamısını həyata keçirərkən biz Amerika Birləşmiş Ştatları ilə, Amerikanın hökuməti ilə və Amerikanın özəl sektoru ilə, neft şirkətləri ilə sıx əməkdaşlıq edirik.

Sabah Vaşinqtonda yeni üç müqavilə imzalanacaqdır. Bunlar bir daha onu göstərir ki, Xəzər dənizinin enerji ehtiyatları böyükdür, Azərbaycanın enerji ehtiyatlarına Amerika Birləşmiş Ştatlarında maraq artır və bir neçə neft şirkətləri bizimlə yeni müqavilələr imzalamaq üçün təkliflər irəli sürüblər. Bu təkliflərə baxırıq və güman edirəm ki, biz onları da həyata keçirməyə nail olacağıq.

Budur, Azərbaycanın bugünkü reallığı. Ancaq bununla yanaşı, biz böyük çətinliklərlə qarşılaşırıq. Burada cənab İqlberger çox düzgün qeyd etdi ki, 907-ci maddənin Azərbaycana tətbiq olunması, deyə bilərəm ki, dünyada ədalətsizliyin ən parlaq nümunəsidir. Təəssüflər olsun ki, biz belə bir ədalətsizliyə məruz qalmışıq. Biz neçə ildir çalışırıq ki, 907-ci maddəni aradan götürək. 907-ci maddə Azərbaycana qarşı 1992-ci ildə tətbiq olunubdur. Bunun da səbəbi odur ki, guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Ancaq bu, həqiqətdən uzaqdır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal edibdir. Ermənistan Azərbaycanın dəmir yolunun böyük bir hissəsini işğal edibdir, əlinə keçiribdir və beləliklə, bizim imkanlarımızı məhdudlaşdırıbdır. Ancaq Amerika Konqresində isə məsələyə tərsinə baxıblar – Ermənistanı cəzalandırmaq əvəzinə, əksinə, Azərbaycanı cəzalandırıblar. Təəssüf ki, belə hallar da olur.

Biz Amerikaya dünyanın ən demokratik ölkəsi kimi baxırıq. Biz Amerikaya dünyanın ən ədalətli ölkəsi kimi baxırıq. Amerikanın Konqresində, dünyanın belə bir demokratiya mərkəzində, ədalət mərkəzində bu qədər ədalətsizliyi təsəvvür etmək mümkün deyildir. Ancaq bu da reallıqdır. Biz çalışırıq, mən sizə təşəkkür edirəm ki, siz də bizimlə bərabər çalışırsınız

ki, 907-ci maddə götürülsun. Bunun mənəvi tərəfi bizim üçün hər şeydən çətindir. Çünki Azərbaycan belə bir ədalətsizliyə layiq deyildir. Güman edirəm ki, nəhayət, Amerika Konqresində də bu qərarın ədalətsizliyini dərk edəcəklər və biz bu maddənin ləğv olunmasına sizinlə birlikdə nail olacağıq.

Hesab edirəm ki, Azərbaycanın dünya birliyi qarşısında xidmətlərindən biri də odur ki, Azərbaycan qədim böyük İpək yolunun bərpasında təşəbbüskar olubdur. Bilirsiniz ki, qədim böyük İpək yolunun bərpası indi dünyanın bir çox dövlətlərini – Yaponiyadan tutmuş Avropanın qurtaracağına qədər, eləcə də Amerika Birləşmiş Ştatlarını maraqlandırır.

Biz son bir neçə ildə Avropa ilə Asiya arasında, qərblə şərq arasında əlaqələr yaradaraq, boru kəmərləri və Transqafqaz dəzlizi yaradaraq qədim böyük İpək yolunun bərpası üçün əsaslar təşkil etdik. Bunların əsasında Avropa Birliyi ilə keçən ilin sentyabr ayında Bakıda qədim böyük İpək yolunun bərpası ilə əlaqədar beynəlxalq konfrans keçirildi. Bu konfransda dünyanın 32 dövləti təmsil olunurdu, 14 beynəlxalq təşkilat iştirak edirdi. Biz bu konfransda böyük İpək yolunun bərpası ilə əlaqədar mühüm sənədlər imzaladıq. Böyük məmnuniyyətlə bu gün bildirirəm ki, Amerika Birləşmiş Ştatlarının Senatında senator Braunbek bu məsələ ilə bir ildən çoxdur ki, məşğuldur. O, bu barədə qanun layihəsi hazırlayıbdır və qanun layihəsi artıq Senatın komitəsində bəyənilibdir. İki gün bundan öncə burada, Konqresin binasında senator Braunbek İpək yolu üzərində olan ölkələrin prezidentlərini dəvət etdi, bizimlə birlikdə bu məsələ müzakirə olundu və biz hamımız senator Braunbekin bu qanun layihəsini təsdiqlədik. Əmin olduğumu bildirmək istəyirəm ki, Senat, Konqres nəhayət, bu qanun layihəsini qəbul edəcəkdir. Bu, Amerika Birləşmiş Ştatları üçün lazımdır. Bu, Avropa üçün lazımdır. Bu, Asiya üçün lazımdır. Bu, Qafqaz üçün lazımdır. Bu, Azərbaycan üçün lazımdır. Mən bizim bu

sahədə əməkdaşlığımızı uğurlu hesab edirəm və Azərbaycanın xidmətləri də sizin gözünüzün qabağındadır.

Beləliklə, Azərbaycan bir tərəfdaş kimi, öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır. Əmin ola bilərsiniz ki, biz gələcəkdə də dostluğa, əməkdaşlığa, tərəfdaşlığa sadiq olacağıq. Biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi bundan sonra da sürətlə inkişaf etdirəcəyik. Bunun üçün imkanlar böyükdür. Azərbaycanın iqtisadiyyatında Amerika Birləşmiş Ştatlarının özəl sektorunun çox hissəsi iştirak edə bilər və beləliklə, biz əməkdaşlığımızı daha da inkişaf etdirə bilərik.

Hörmətli dostlar, bu sözləri sizə çatdıraraq bugünkü görüşə görə hamınıza bir daha təşəkkür edirəm. Sizin hər birinizə cansağlığı, səadət arzulayıram. Amerika–Azərbaycan Ticarət Palatasına yeni-yeni uğurlar arzulayıram.

Amerika xalqına, Amerika dövlətinə bəşəriyyət qarşısında üzərinə düşən böyük və nəcib missiyanı həyata keçirməsində uğurlar arzulayıram.

Amerika–Azərbaycan dostluğuna və əməkdaşlığına eşq olsun!

Sizin hər birinizə cansağlığı, səadət arzulayıram. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ (ARDNŞ) İLƏ ABŞ-ın «MONKRİFT OYL», «EKSSON» VƏ «MOBİL» ŞİRKƏTLƏRİ ARASINDA ÜÇ NEFT MÜQAVİLƏSİNİN VƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ABŞ-ın TİCARƏT VƏ İNKİŞAF AGENTLİYİ ARASINDA BAKIDA ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİNİN MÜALİCƏSİ ÜZRƏ MAYKL DEBEYKİ VƏ HEYDƏR ƏLİYEV ADINA MƏRKƏZİN TİKİNTİSİNİN TEXNİKİ-İQTİSADİ ƏSASLARININ HAZIRLANMASI BARƏDƏ MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏ* NİTQ

Vaşinqton,
Amerika Birləşmiş Ştatları Senatının binası

27 aprel 1999-cu il

Key Beyli Hatçinson *(senator xanım)*: Hörmətli xanımlar və cənablar, xoş gəlmisiniz!

Bu gün burada Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevi və bizim ölkənin ticarət naziri Uilyam Deylini görməkdən çox məmnunluq duyuruq. Çox önəmli, çox mühüm bir hadisə münasibətilə bu mərasimə toplaşmağınızdan

* Mərasimdə Amerika Birləşmiş Ştatlarının nüfuzlu konqresmenləri, senatorları, ABŞ hökumətinin yüksək vəzifəli şəxsləri, Azərbaycan Dövlət Neft Şirkətinin və Amerikanın iri neft şirkətlərinin, işgüzar dairələrin nümayəndələri, xarici ölkələrin kütləvi informasiya vasitələri, televiziya və radio kanalları təmsilçiləri iştirak edirdilər.

böyük şərəf duyduğumuzu izhar edirik. Çox məmnunam ki, bu gün burada mənimlə bərabər Vayominq ştatından olan senator Tomson, konqresmenlər cənab Dits və Viper də iştirak edirlər. Konqresin digər üzvləri də bu prosesdə bizə qoşulacaqlar. Bizim əksəriyyətimiz Azərbaycanı ziyarət etmişik və orada gedən prosesləri yaxından izləyirik.

Keçən il Azərbaycana etdiyim səfər zamanı mənim gözlərim qarşısında Amerika biznesinin bu ölkədə görə biləcəyi işlər barədə təsəvvür yarandı. Mən bir daha qəti surətdə əmin oldum ki, biz həm amerikalılar üçün, həm də azərbaycanlılar üçün yeni iş yerlərinin açılması ilə nəticələnəcək müştərək, birgə fəaliyyət göstərə bilərik.

Bu gün daha üç böyük müqavilə imzalanacaq ki, bu müqavilələr də dövlətlərimiz arasında olan müttəfiqliyi daha da gücləndirəcəkdir. Biz həmçinin bu gün burada Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyinin, eləcə də doktor Debeyki və onun həmkarlarının yardımı sayəsində Azərbaycanda, Bakıda ürək-damar xəstəliklərinin müalicəsi mərkəzinin açılması üçün texniki-iqtisadi əsaslandırmanın işlənib hazırlanmasını nəzərdə tutan müqavilənin də imzalanması mərasiminin şahidi olacağıq.

Biz çox məmnunuq ki, Azərbaycanda yaşayan, Azərbaycanda çalışan insanlara tibbi xidmətlər göstərilməsi üçün yeni bir mərkəzin yaradılmasına başlayacağıq. Bu mərkəz «Maykl Debeyki – Heydər Əliyev» Ürək-Damar Xəstəliklərinin Müalicəsi Mərkəzi adlandırılacaqdır. İcazənizlə, bəyan edim ki, bu gün burada üç neft müqaviləsinin, həmçinin Bakıda açılacaq ürək-damar xəstəliklərinin müalicəsi mərkəzi haqqında müqavilənin məhz prezident Heydər Əliyevin və Azərbaycan xalqının qəhrəmanlıq nümayiş etdirərək göstərdiyi səylər nəticəsində mümkün olmuşdur. Bu işdə nazir cənab Deylinin rəhbərlik etdiyi Amerika Birləşmiş Ştatları Ticarət Nazirliyinin xidmətlərini də biz yüksək qiymətləndiririk.

Bu gün bu əlamətdar hadisədə bizimlə bərabər öz xidmətlərini göstərmiş Amerika Birləşmiş Ştatları Energetika Nazirliyinin nümayəndələri də iştirak edirlər. İndi mən sözü Amerikanın energetika nazirinin müavini cənab Cey Qlatyeyə verirəm.

C e y Q l a t y e *(ABŞ-ın energetika nazirinin müavini)*: Hörmətli cənab prezident!

Hörmətli nazir!

Hörmətli xanım Hatçinson, Konqresin üzvləri!

Bu gün burada, əlamətdar hadisə münasibətilə toplaşdığımız bu mərasimdə Amerika Birləşmiş Ştatlarının Energetika Nazirliyini təmsil etməkdən məmnunluq duyuram.

Cənab prezident!

Amerika Birləşmiş Ştatlarının energetika naziri cənab Bill Riçardson Sizə ən səmimi salamlarını göndərib və çox təəssüfləndiyini bildirir ki, bu gün bizimlə bərabər bu mərasimdə iştirak edə bilmir.

Hörmətli prezident Əliyev, Natiq Əliyev, İlham Əliyev, «Mobil», «Eksson» və «Monkrift oyl» şirkətlərinin nümayəndələri, biz sizin hamınızı Azərbaycanda iqtisadi fəaliyyəti genişləndirməyiniz, bu gün imzalayacağınız yeni müqavilələr münasibətilə təbrik edirik. Çox məmnunam ki, Amerika şirkətləri Azərbaycandakı fəaliyyətlərini genişləndirirlər.Bu şirkətlər Azərbaycanın neft sektorunda, eləcə də qeyri-neft sektorunda layihələrdə iştirak etməklə Azərbaycanın inkişafına öz töhfələrini vermək məqsədinə sadiqdirlər. Biz Azərbaycan ilə bu tərəfdaşlığımızla fəxr edirik və ümidvarıq ki, bu tərəfdaşlıq bundan sonra da inkişaf edəcəkdir.

Cənab prezident!

Biz Sizin rəhbərliyiniz altında Azərbaycanın enerji sahəsində əldə etdiyi böyük nailiyyətlərin şahidiyik. Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, Azərbaycanda və bütün regionda sülhün və sabitliyin bərqərar olmasına, region

xalqlarının çiçəklənməsinin təmin edilməsinə Sizin göstərdiyiniz rəhbərliyi, liderliyi alqışlayırıq. Bu məqsədlərə nail olunmasında enerji, neft, qaz boru kəmərlərinin həlledici amil rolu oynaması barədə fikirlərinizi tamamilə bölüşürük.

İki həftə bundan öncə biz çox böyük məmnuniyyət hissi ilə cənab Morninqstarın və enerji departamentinin nümayəndəsi xanım Triza Bimanın iştirakı ilə Gürcüstanda Bakı-Supsa boru kəmərinin açılması mərasimində iştirak etdik. Bununla Azərbaycan özünün enerji ehtiyatlarının inkişaf etdirilməsi və ən iri neft ixracatçılarından birinə çevrilməsi, o cümlədən bütün Xəzər regionunun enerji ehtiyatlarının Qərb bazarlarına ixracının mərkəzinə çevrilməsi istiqamətində daha mühüm bir addım atmış oldu. Biz Türkiyənin Aralıq dənizində yerləşən Ceyhan limanına daha uyğun və ən böyük neft boru kəmərinin çəkilməsi istiqamətində də sizinlə birgə fəaliyyətimizi davam etdirəcəyik.

Cənab prezident, cənab Terri Kunts, cənab Uilyam Skaqins, cənab Riçard Monkrift, enerji sahəsindəki münasibətlərimizin, ölkələrimiz arasındakı əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək bu əlamətdar hadisə münasibətilə sizi bir daha təbrik edirik və bu mərasimdə iştirak etməkdən zövq duyuruq. Sizə bir daha ən səmimi təbriklərimizi yetiririk və Azərbaycan xalqına səmimi təbriklərimizi göndəririk.

Key Beyli Hatçinson: Çox sağ olun. Mənim nəzərimi indi cəlb etdi, - konqresmen Teşşinz də indicə bizə qoşuldu. Mən onu salamlayıram.

İndi isə məmnuniyyətlə Amerika Birləşmiş Ştatları üçün çox mühüm xidmətlər göstərən ticarət naziri cənab Uilyam Deylini dinləyirik.

Uilyam Deyli (*ABŞ-ın ticarət naziri*): Hörmətli prezident Heydər Əliyev!

Hörmətli xanımlar və cənablar!

Bilmirəm siz necə hiss edirsiniz, amma mənim üçün günü belə xoş bir hadisə ilə başlamaq çox əlamətdardır. İki milyard dollar həcmində yeni çox mühüm enerji layihələrinin həyata keçirilməsinə başlanmasına, «Eksson», «Mobil», «Monkrift oyl» şirkətləri tərəfindən Xəzər regionuna investisiya qoyulmasına həsr olunmuş bu mərasimə toplaşmaqdan məmnunluq duyuruq.

Heydər Əliyev: Bir dəqiqə bağışlayın. Ola bilər, sizin katibiniz orada rəqəmi düz yazmayıbdır. Bu, 10 milyard dollardır.

Uilyam Deyli: Cənab prezident, mən heç vaxt prezidentlərlə mübahisə etmirəm. Mən aydınlaşdıraram, görüm rəqəmlərə cavabdeh olan bizim şəxslər rəqəmləri nə üçün belə aşağı səviyyədə saxlayıblar.

Heydər Əliyev: Hesab edirəm ki, onu kompüter düz yazmayıbdır.

Uilyam Deyli: Mən də ümidvaram ki, bu, insan tərəfindən buraxılmış səhv deyil. Əgər bu, insan tərəfindən buraxılmış səhv olsa, onda gərək biz həmin şəxsi kompüterlə əvəz edək.

Baxmayaraq ki, imzalanacaq bu cür layihələrdə «Eksson» və «Mobil» şirkətləri ayrıca tərəfdaşlar kimi çıxış edirlər, lakin gələcəkdə bu şirkətlərin birləşərək bir şirkət halında çıxış etməsi, şübhəsiz ki, regionun çox böyük potensialından daha səmərəli istifadə olunmasına öz töhfəsini verəcəkdir.

Bu layihələrin həyata keçirilməsi həm bizdən uzaq məsafədə, dünyanın başqa bölgəsində yerləşən Azərbaycanda və həmçinin Amerika Birləşmiş Ştatlarında yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Şübhəsiz ki, bu layihələrin həyata keçirilməsi nəticəsində neft müqavilələrində yardımçı müqavilələrlə iştirak edəcək digər şirkətlər, həmçinin neft avadanlığı, qazma qurğuları istehsal edən və başqa xidmətlər göstərən bir çox digər şirkətlər üçün də yeni işlər meydana

çıxacaqdır. Bu şirkətlərin hamısı dünyada ən müasir texnologiyaya, yüksək təcrübəyə malikdir və zəngin enerji ehtiyatlarının istismarında səmərəli fəaliyyət göstərmək iqtidarındadırlar.

Cənab prezident, bu şirkətlər ətraf mühitin qorunması standartlarını Azərbaycanda ən yüksək zirvələrə qaldırmaq barədə öz üzərlərinə götürdükləri böyük öhdəliklərə də sadiq olacaqlar. Heç şübhəsiz ki, əgər bu şirkətlər müvəffəq olarlarsa, onda bizim iqtisadiyyatımız inkişaf edəcəkdir və daha böyük tərəqqinin şahidi olacağıq.

Cənab prezident!

Siz bilirsiniz ki, bu, «Eksson» şirkətinin Azərbaycan ilə imzaladığı üçüncü müqavilədir. Şəxsən mənim üçün isə ikinci dəfə belə bir imkan yaranıbdır ki, Amerika şirkətləri ilə Azərbaycan arasında neft müqavilələrinin imzalanmasında şahid kimi iştirak edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, belə müqavilələrin imzalanması bundan sonra da olacaqdır.

Cənab prezident!

Bu gün imzalanacaq dördüncü müqavilənin də çox böyük əhəmiyyəti vardır. Bu müqavilə Amerika Birləşmiş Ştatlarının Ticarət və İnkişaf Agentliyinin dəstəyi ilə Azərbaycanda, Bakıda ürək-damar xəstəliklərinin müalicəsi mərkəzinin tikilməsini nəzərdə tutur. Ümid edirik ki, həmin mərkəz azərbaycanlıların ürəklərinin qüdrətlənməsi, qüvvətlənməsi işinə yardımçı olacaq və beləliklə də biz xalqlarımızın, insanlarımızın bir-birinə daha ürəkdən, daha yaxından bağlanmasının təməlini qoyacağıq. Bu müqavilələrin imzalanması ölkələrimiz arasında iqtisadi, kommersiya münasibətlərinin daha da gücləndirilməsinə xidmət edir və ümumilikdə götürdükdə isə dövlətlərimiz arasındakı münasibətlərin daha da möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Mən burada Sizinlə bərabər olmağımdan şərəf duyduğumu bir daha izhar edirəm. Çox sağ olun.

Key Beyli Hatçinson: Bu gün çox mühüm və əlamətdar mərasimdə iştirak etmək üçün öz iş cədvəlində dəyişiklik edərək bizimlə bərabər olduğuna görə nazir cənab Deyliyə minnətdarlığımı bildirirəm. Amerika şirkətlərinin və xarici şirkətlərin dünyanın müxtəlif bölgələrində öz sərmayə qoyuluşlarını daha da artırması istiqamətində cənab nazir Deylinin və rəhbərlik etdiyi nazirliyin göstərdiyi fəaliyyətə görə də ona təşəkkürümü bildirirəm.

Nazir Deylinin çıxışı zamanı prezident Heydər Əliyev rəqəmi 2 milyarddan 10 milyarda qaldırarkən mən cənab Monkriftə baxdım və onun gözlərindən oxudum ki, o, ümidvar olduğunu büruzə verərək düşünürdü ki, qalan 8 milyard xərc təkcə onun üzərinə düşməsin.

İndi isə çox böyük şərəf hissi ilə mən vaxtilə onu öz ölkəsində ziyarət etdiyim, öz xalqı, dövləti üçün çox böyük xidmətlər göstərən, ölkəsinin iqtisadi əlaqələrini və dövlət quruluşunu möhkəmləndirmək üçün böyük işlər görən və Amerika Birləşmiş Ştatlarının ən böyük dostuna çevrilən Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevə söz vermək istəyirəm.

Heydər Əliyev: Hörmətli senator Hatçinson!

Hörmətli nazir Deyli!

Hörmətli nazir müavini, senatorlar, konqresmenlər, xanımlar və cənablar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram və bu gün Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda Konqresin binasında belə bir mərasim keçirilməsindən hədsiz məmnun olduğumu bildirirəm.

Hörmətli senator Hatçinson, mənim haqqımda və Azərbaycan haqqında dediyiniz xoş sözlərə görə sizə təşəkkür

edirəm və bildirmək istəyirəm ki, siz doğru buyurdunuz ki, mən Amerika Birləşmiş Ştatlarının çox sadiq dostuyam.

Bu mərasimdə nazir Deylinin, senatorların, konqresmenlərin, nazir müavininin və Amerika hökumətinin yüksək səviyyəli nümayəndələrinin iştirak etməsi müqavilələrin imzalanmasına xüsusi qiymət verir. Mən bu gün böyük xoşbəxtlik, iftixar hissləri keçirirəm, ona görə ki, Azərbaycanın 1994-cü ildə dünyaya bəyan etdiyi neft strategiyası ardıcıl surətdə həyata keçirilir və böyük uğurlar qazanır.

1994-cü ilin sentyabr ayında Azərbaycanda böyük bir müqavilə imzalandı. Bu müqaviləyə Amerika Birləşmiş Ştatlarında və dünyada «Əsrin müqaviləsi» adı verildi. Biz bu müqavilə ilə Azərbaycanın Xəzər dənizindəki enerji ehtiyatlarının müştərək istifadə olunması üçün ilk böyük addım atdıq və gələcək üçün böyük perspektivlər açdıq. Böyük sevinc hissi ilə bildirirəm ki, bizim imzaladığımız müqavilə nəzərdə tutulmuş plan, qrafik əsasında həyata keçirilibdir. 1997-ci ilin noyabrında ilkin neft almışıq, onu Bakı–Novorossiysk, şimal marşrutu ilə ixrac edirik. Bu ilin aprel ayının 17-də isə ikinci – qərb neft kəmərini istismara verdik. Bakı–Supsa neft kəməri vasitəsilə də nefti dünya bazarlarına ixrac edirik.

Ötən illər ərzində Azərbaycanın neft strategiyası yeni-yeni mərhələlərinə çatıbdır. «Əsrin müqaviləsi» imzalanandan sonra biz artıq 16 müqavilə imzalamışıq və onların da əməli surətdə həyata keçirilməsi ilə məşğuluq. Məmnuniyyətlə qeyd edirəm ki, bütün bu müqavilələrdə Amerika Birləşmiş Ştatlarının neft şirkətləri görkəmli yer tutur. Ötən dövrdə onlar Azərbaycana külli miqdarda investisiya qoyublar və Amerika Birləşmiş Ştatlarının neft şirkətləri demək olar ki, Azərbaycanın Xəzər dənizində, Azərbaycanda neft strategiyasının həyata keçirilməsində aparıcı rol oynayırlar.

Neft strategiyamız dünyada böyük əks-səda yaratmış, dünyanın bir çox ölkələrində maraq və müsbət münasibət do-

ğurmuşdur. Amma eyni zamanda bizə qarşı əks münasibət də, bizim neft strategiyamıza mane olmaq cəhdləri də müşahidə edilmişdir. Biz bu yolda böyük sınaqlardan keçmişik, böyük çətinliklərin öhdəsindən gəlmişik, böyük maneçiliklərin qarşısını almışıq və bu işlərdə Amerika Birləşmiş Ştatları, onun hökuməti, Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton, ABŞ-ın Energetika Nazirliyi, Ticarət Nazirliyi, digər nazirliklər, Amerika Birləşmiş Ştatlarının Senatı və Konqresi bizə həmişə dəstək vermiş, yardım etmişlər.

Bütün bunlara görə mən bu gün sizə, Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintona, bizə dəstək verən bütün nazirliklərə, Konqresə, Senata öz təşəkkürümü, minnətdarlığımı bildirirəm.

1994-cü ildən sonra bizim neft müqavilələrinin həyata keçirilməsi sahəsində Azərbaycana qoyulan investisiyaların əksəriyyətini Amerika Birləşmiş Ştatlarının neft şirkətləri qoyublar. Azərbaycana bir milyard dollardan artıq Amerika kapitalı gəlibdir və bu müqavilələrlə, onların həyata keçirilməsi üçün nəzərdə tutulmuş investisiyaların ümumi həcmi 50 milyard dollara qədərdir.

Bu gün «Eksson» şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda «Zəfər» və «Məşəl» neft yataqlarında iş görmək üçün 5 milyard dollar həcmində investisiya nəzərdə tutulubdur. «Mobil» şirkətinin Azərbaycan Dövlət Neft Şirkəti ilə imzalayacağı müqavilədə Xəzər dənizinin Azərbaycan sektorunda «Savalan», «Dalğa» «Lerik-dəniz» və «Cənub» neft yataqlarında investisiyanın həcmi 4,5 milyard dollar olacaqdır. «Monkrift oyl» şirkəti isə «Padar» sahəsində quruda olan neft yataqlarında Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə imzalayacaqdır. Senator xanım Hatçinson narahat olmasın, onların üzərinə investisiyanın qalmış hissəsi düşür.

Hörmətli dostlar!

Biz 1997-ci ilin avqust ayının 1-də Vaşinqtonda, Ağ evdə Amerika Birləşmiş Ştatlarının şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında dörd müqavilə imzaladıq. Bizim üçün çox əhəmiyyətlidir ki, ikinci dəfə Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqtonda, bu dəfə Konqresin binasında biz yeni üç neft müqaviləsi imzalayırıq.

Bugünkü hadisənin ən maraqlı cəhəti bir də ondan ibarətdir ki, biz neft sahəsindən kənara çıxıb insanlara çox vacib, əhəmiyyətli olan səhiyyə sahəsində də əməkdaşlığa başlayırıq və burada bu gün bir müqavilə imzalanacaqdır ki, Debeyki mərkəzinin Azərbaycanda ürək-damar xəstəliklərinin müalicə edilməsi üçün yeni bir tibb mərkəzinin yaradılması ilə əlaqədar biz işə başlayırıq. Bunlar hamısı Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələrin ardıcıl surətdə inkişaf etməsini, möhkəmlənməsini və genişlənməsini sübut edir.

Biz Amerika Birləşmiş Ştatları ilə strateji tərəfdaşlıq əlaqələri yaratmışıq və bu əlaqələr çərçivəsində öz işimizi aparır, bu əlaqələri inkişaf etdirməyə çalışırıq. İqtisadiyyat sahəsində imzaladığımız müqavilələr və artıq əldə etdiyimiz nailiyyətlər ölkələrimiz arasında siyasi, iqtisadi, elmi, mədəni sahələrdə də əlaqələrin inkişaf etməsinə böyük imkanlar yaradır. Biz bunlara yüksək qiymət veririk və sizi əmin edirəm ki, biz bu əlaqələrin gələcəkdə də inkişaf etməsi üçün əlimizdən gələni edəcəyik.

Senator Hatçinson Azərbaycan prezidentini – məni Amerikanın böyük dostu kimi təqdim etdi. Mən həqiqətən dostam və dostluğumdan da şərəf, qürur hissi duyuram. Biz Amerika Birləşmiş Ştatlarını, hörmətli dostlar, sizi özümüzün böyük dostumuz hesab edirik, bu dostluğa sadiqik və sadiq də olacağıq.

Bizim apardığımız siyasət Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsini təmin edibdir. Amerika Birləşmiş Ştatları ilə indi mövcud olan əlaqələrimiz Azərbaycanın müs-

təqil siyasət aparmasını dünyaya nümayiş etdirib və Azərbaycanın müstəqilliyinin daimi, əbədi olduğunu sübut edir. Əmin ola bilərsiniz ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarının dostu, sədaqətli tərəfdaşı kimi öz öhdəliklərinə həmişə sadiq olacaqdır.

Mən sizin hamınızı bugünkü əlamətdar tarixi hadisə münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı və səadət arzulayıram. Amerika xalqına sülh, əmin-amanlıq, onun hökumətinə və dövlətinə yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

Key Beyli Hatçinson: Cənab prezident, çox sağ olun. İndi isə birinci müqavilənin imzalanmasına başlayırıq. Mən məmnuniyyətlə bildirirəm ki, birinci müqavilə Amerika işgüzarlığının bariz nümunəsi olacaqdır.

«Monkrift oyl» şirkətini burada təmsil edəcək və onun adından imza atacaq şəxs – cənab Riçard Monkrift mənimlə bərabər Texas Universitetində təhsil alıbdır. «Monkrift oyl» şirkəti bir ailə tərəfindən idarə olunan şirkətdir və bu gün burada cənab Riçard Monkriftlə bərabər, onun qardaşı öz xanımı ilə iştirak edir.

* * *

Sonra müqavilələrin imzalanması mərasimi oldu.

Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ilə «Monkrift oyl» və «Eksson» şirkətləri arasında müqavilələri ARDNŞ-in prezidenti Natiq Əliyev bu şirkətlərin rəhbərləri Riçard Monkrift, Terri Kunts imzaladılar.

ARDNŞ ilə «Mobil» şirkəti arasında müqaviləni Azərbaycan Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti İlham Əliyev və «Mobil» şirkətinin prezidenti Uilyam Skaqins imzaladılar.

Key Beyli Hatçinson: Bununla da neft müqavilələrinin imzalanması başa çatır. Bu, Amerika və Azərbaycan üçün yeni iş yerlərinin açılması deməkdir. Mərasimdə iştirak

etdiklərinə görə ABŞ-ın ticarət naziri cənab Uilyam Deyliyə və energetika nazirinin müavini cənab T.Cey Qlatyeyə təşəkkürümü bildirirəm.

* * *

Daha sonra Azərbaycan Respublikası ilə ABŞ-ın Ticarət və İnkişaf Agentliyi arasında Bakıda Maykl Debeyki və Heydər Əliyev adına Ürək-Damar Xəstəliklərinin Müalicəsi Mərkəzi tikintisinin texniki-iqtisadi əsasları barədə müqavilə bağlandı. Müqaviləni Azərbaycanın xarici işlər naziri Tofiq Zülfüqarov və ABŞ-ın Ticarət və İnkişaf Agentliyi direktorunun müavini Nensi Frey imzaladılar.

Key Beyli Hatçinson: Cənab prezident!

Hörmətli qonaqlar!

İndi isə daha bir şəxsi – Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı səfiri cənab Hafiz Paşayevi Sizə təqdim etmək istəyirəm. Onun xidmətləri olmasaydı, biz bu gün bu mərasimə toplaşa bilməzdik. Cənab prezident, Sizə bildirmək istəyirəm ki, o Sizin ölkənizi – Azərbaycanı burada çox gözəl təmsil edir.

Əziz dostlar, bununla da mərasim başa çatır və beləliklə, biz Azərbaycan ilə Amerika arasında uzunmüddətli münasibətlərin gücləndirilməsi işinə yeni bir töhfə vermiş olduq. Sağ olun.

ABŞ-ın TİCARƏT NAZİRİ UİLYAM DEYLİ İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Vaşinqton

27 aprel 1999-cu il

U i l y a m D e y l i: Hörmətli cənab prezident, Sizi səmimi-qəlbdən salamlayıram və hər dəfə Sizinlə görüşlərimdən çox məmnun qaldığımı bildirirəm. Enerji daşıyıcıları sahəsindəki əməkdaşlığı, neft müqavilələrinin həyata keçirilməsindəki uğurları razılıq hissi ilə bildirərək hesab edirəm ki, başqa məsələlərdə də ABŞ-Azərbaycan əməkdaşlığını yüksək qiymətləndirir və dövlətimizin Azərbaycan ilə bütün sahələrdə əlaqələri genişləndirməyə hazır olduğunu bildirirəm.

C e y Q l y e: Cənab prezident, ABŞ-ın energetika naziri Bill Riçardsonun salamlarını Sizə çatdırır, iki ölkə arasındakı əməkdaşlığın inkişafında xidmətlərinizə görə minnətdarlığımı bildirir və qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da genişləndirilməsi lüzumunu nəzərə çarpdırıram.

H e y d ə r Ə l i y e v: Cənab Uilyam Deyli, səmimi və mehriban görüşə görə Sizə minnətdarlığımı bildirirəm. Qeyd edim ki, ABŞ ilə Azərbaycan arasındakı əməkdaşlıq getdikcə daha da genişlənir və yeni-yeni sahələri əhatə edir. ABŞ-ın iri şirkətlərinin Azərbaycanla əməkdaşlığını yüksək qiymətləndirirəm. Bu sahədə respublikamız ilə birgə iş aparan şirkətlərin sayının dönmədən artmasından və iki ölkə arasında

---

* Görüşdə ABŞ-ın energetika nazirinin müavini Cey Qlye və ticarət nazirinin müşaviri Yan Kalitski də iştirak edirdilər.

əmtəə dövriyyəsi həcminin ardıcıl surətdə genişlənməsindən razılığımı bildirirəm. ABŞ-Azərbaycan münasibətlərinin və əməkdaşlığının daha da genişləndirilməsinə mane olan 907-ci düzəlişin ləğv edilməsi zəruriliyini, bu maddənin Azərbaycana qarşı ədalətsizlik olduğunu görüş iştirakçılarının nəzərinə çarpdırıram və Sizi həmin sənədin tezliklə ləğvi üçün səylərinizi artırmağa çağırıram.

Yan Kalitski: Cənab prezident, Sizinlə görüşlərimi böyük məmnuniyyətlə xatırlayıram. Siz ABŞ-Azərbaycan əməkdaşlığının inkişafı, Azərbaycanın enerji ehtiyatlarının istehsalı, nəqli və dünya bazarlarına çıxarılması işinin təşkilində böyük xidmətlər göstərmisiniz. Bu xidmətlərə görə Sizə öz dərin minnətdarlığımı bildirirəm.

Heydər Əliyev: Mən ölkələrimiz və xalqlarımız arasında faydalı əməkdaşlığın bundan sonra da genişlənəcəyinə və dərinləşəcəyinə ümidvaram.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ NÜFUZLU KONQRESMENLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

Vaşinqton, Kapitoli binası

27 aprel 1999-cu il

Görüş başlanmazdan əvvəl konqresmenlər Azərbaycan prezidentinə təqdim edildilər. Müstəqil respublikamıza böyük maraq göstərdiklərini bildirən konqresmenlər ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinin zəruri olduğunu söylədilər. Onlar dövlətimizin başçısını əmin etdilər ki, Azərbaycanda demokratik dəyərlərin bərqərar olması, gənc dövlətin qarşılaşdığı çətin problemlərin həlli sahəsində səylərini əsirgəməyəcəklər. Konqresmenlər Azərbaycanda yaranmış ictimai-siyasi sabitliyi, ölkəmizdə aparılan islahatları, Azərbaycanın neft strategiyasının uğurlarını yüksək qiymətləndirdilər.

Görüşdən əvvəl Nümayəndələr palatasının xarici əlaqələr komitəsinin və Konqresin işçi qrupunun üzvü Piter Kinqin Amerikanın humanitar yardımı üzərində qadağanın ləğvi haqqında qanun layihəsini yenidən Konqresə təqdim etməsi barədə təcili bəyanatı yayıldı. Bəyanatda deyilir:

«Qafqazdakı xarici siyasətimiz Amerikanın milli maraqlarına pis xidmət edir. İslam təməlçiliyinin və terrorçuluğun qarşısını almağa əlavə olaraq, Amerika Birləşmiş Ştatları

* Görüşdə Nümayəndələr palatasının üzvləri Çet Edvards, Piter Kinq, Çen Bentsen, Ayk Skelton, Vik Snayder, Maykl Kapuana, Selvester Reyes, Kristofer, Cozef Pit, Con Dellahunt, Bill Belahant və digər nüfuzlu konqresmenlər iştirak edirdilər.

davam etməkdə olan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də qərəzsiz yanaşmalıdır. Bu işi səmərəli görmək üçün biz münaqişəyə qatılmış bütün tərəfləri ümumi işə tam cəlb etməli və onlarla əlaqə xətlərini açıq saxlamalıyıq. Yer üzünün strateji cəhətdən çox mühüm olan bu guşəsində Amerika Birləşmiş Ştatlarının siyasəti təəssüf ki, indiyədək birtərəfli olmuşdur. Bir milyon qaçqını olan Azərbaycan dünyada terrorçuluğu dəstəkləməyən yeganə dövlətdir ki, ona Amerika tərəfindən yardım göstərilməsi qadağan edilmişdir. Bu vəziyyəti düzəltmək lazımdır. Belə bir addım bizim milli mənafelərimizə uyğundur. Milli mənafelərimiz isə Amerika Birləşmiş Ştatlarının xarici siyasətini müəyyən edən yeganə meyar olmalıdır. Bununla əlaqədar olaraq mən prezident Əliyevin səfəri ilə eyni vaxtda, Azərbaycana humanitar yardım göstərilməsi üzərində qadağanın dərhal götürülməsi haqqında qanun layihəsini təkrarən təqdim edirəm».

Çet Edvards (*konqresmen*): Cənab prezident, icazə verin, «soyuq müharibə»nin başlandığı bir dövrdə dünyaya göz açmış bir şəxs kimi, bu gün Sizinlə, keçmiş Sovet İttifaqının rəhbərlərindən biri ilə görüşməkdən nə qədər böyük şərəf duyduğumu izhar edim. Heç zaman ağlıma da gəlməzdi ki, mən Sizinlə, Sovet İttifaqının rəhbəri ilə sülh şəraitində, dostluq mühitində görüş keçirə bilərəm.

Heydər Əliyev: Təşəkkür edirəm. Mən özüm də bunu təsəvvür edə bilməzdim.

Çet Edvards: Mənim iki balaca oğlum var. Eşitmişəm ki, Sizin də altı nəvəniz var. Əminəm ki, Sizin göstərdiyiniz liderlik və bizim yardımçı olmaq istəyimiz sayəsində mənim övladlarım və Sizin nəvələriniz daha dinc, daha firavan, daha təhlükəsiz dünyada yaşayacaqlar.

Heydər Əliyev: Mənim də Qafqazda, Azərbaycanda çalışdığım odur ki, bundan sonra heç vaxt müharibə olmasın, heç vaxt qan tökülməsin, münaqişə baş verməsin. Ona görə

də, - baxmayaraq ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin iyirmi faizini işğal edibdir, işğal olunmuş torpaqlarda aparılmış etnik təmizləmə nəticəsində Azərbaycanın bir milyon vətəndaşı zorla çıxarılıbdır, çadırlarda yaşayırlar, - beş il bundan öncə mən müharibəni dayandırmışam, Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi yaratmışam və məsələnin sülh yolu ilə həll olunmasına çalışıram.

Mən çalışıram ki, bizim bölgədə və dünyada daim sülh olsun, sizin uşaqlarınız, mənim nəvələrim, bütün dünyanın uşaqları heç bir fəlakət, müharibə görməsinlər. Siz «soyuq müharibə»ni görmüsünüz. Amma mən İkinci dünya müharibəsini görmüşəm, onun nə qədər dəhşətli olduğunu, nə qədər insanların tələf olduğunu gözümlə görmüşəm. Ona görə də gərək biz heç vaxt müharibənin yenidən baş verməsinə yol verməyək.

Çet Edvards: Cənab prezident, Sizin məqsədlərinizə nail olmağınız üçün, sülhü bərqərar etmək, ölkələrimiz arasında enerji məsələləri üzrə əməkdaşlığı daha da inkişaf etdirmək üçün nə edə bilərik?

Heydər Əliyev: Çox şey edə bilərsiniz. Amerika böyük, qüdrətli dövlətdir. Görürsünüz, Amerika Balkanda – Yuqoslaviyada etnik təmizləmənin qarşısını almaq üçün ədalətsizliyə qarşı çıxaraq nə qədər ciddi tədbirlər həyata keçirir, sülh yaratmaq üçün raketlərdən, bombalardan istifadə edir, atəş açır. Ancaq eyni zamanda, nə üçün Amerika bizim Qafqaz regionunda bu səlahiyyətlərindən istifadə etmir?

Çet Edvards: Cənab prezident, 907-ci maddənin ləğv olunması barədə konqresmen Kinqin bu gün yenidən irəli sürdüyü təşəbbüsün həyata keçirilməsi üçün biz daha çox işləməliyik ki, Konqresin digər üzvlərini, öz həmkarlarımızı Azərbaycandakı vəziyyətlə, o münaqişə ilə daha yaxından tanış edək və düzgün qərar qəbul etmələri üçün onları daha çox məlumatlandıraq.

H e y d ə r Ə l i y e v: Mən çox məmnunam. Ancaq konqresmen Kinq deyə bilərmi ki, bugünkü təşəbbüsünü nə cür həyata keçirir?

P i t e r K i n q: Mən 907-ci maddənin ləğvi barədə əvvəl qaldırdığım təşəbbüsü bu gün Konqresin sessiyasında yenidən irəli sürmüşəm. Zənnimcə, çox önəmli əhəmiyyəti var ki, bu layihəni Konqresin hər iki partiyadan olan üzvləri dəstəkləsinlər. Hesab edirəm ki, bu, bir partiyaya məxsus iş olmamalıdır. Bu, Amerika Birləşmiş Ştatlarının milli mənafelərinə xidmət edən bir iş olduğu üçün hər iki partiyanın dəstəyinə layiqdir.

H e y d ə r Ə l i y e v: Siz bunu harada irəli sürdünüz?

P i t e r K i n q: Nümayəndələr palatasının sessiyasında.

H e y d ə r Ə l i y e v: Böyük sessiyadır. Nə cür qarşılandı?

P i t e r K i n q: Qanun layihəsini artıq qeydiyyatdan keçiriblər. İndi onun həyata keçməsini təmin etmək üçün gərək bir çox başqa konqresmenlər də qanun layihəsini imzalasınlar və layihənin təşəbbüskarı kimi çıxış etsinlər. Əsas məqsədimiz isə bu addımı məhz Sizin bu gün Kapitoliyə gəlməyiniz münasibətilə atmaq, bununla bir vaxta salmaq idi.

H e y d ə r Ə l i y e v: Hörmətli cənab Kinq, mən sizə təşəkkür edirəm. Siz bu sahədə həqiqətən çox cəsarətli fəaliyyət göstərirsiniz. 1997-ci ildə sizin təşəbbüsünüz 907-ci maddənin aradan götürülməsi üçün çox tutarlı bir addım olmuşdur. Bu təşəbbüsü yenidən qaldırmaq bizim üçün çox əhəmiyyətlidir. Təşəbbüsü bu gün həyata keçirmək, bu gün qaldırmaq bizim üçün daha da qiymətlidir.

P i t e r K i n q: Sağ olun, cənab prezident. Bildirmək istəyirəm ki, bu sahədə tərəqqi əldə etmişik. 907-ci maddə ilə bağlı keçirilən müzakirələrin ab-havası da dəyişməkdədir. Əgər iki-üç il bundan öncə bütün çıxışlar yalnız erməni tərəfinin mənafeyinə uyğun idisə, indi müzakirələrdə hər iki tərəfi dəstəkləyən səslər eşidilir. Mənə elə gəlir ki, biz bu mübarizəmizi, savaşımızı davam etdirməliyik.

H e y d ə r Ə l i y e v: Mən sizinlə tamamilə razıyam. Bizdə olan məlumatlar da sizin dediyiniz sözləri təsdiq edir. Bu, sevindirici bir haldır. Xatirimdədir ki, Nümayəndələr palatasında bu təklifin müzakirəsi zamanı əvvəlkinə nisbətən çox səs verilmişdir. Mənə deyilənə görə, təklifin qəbul olunması üçün 20-30 səs çatmamışdır.

P i t e r K i n q: Doğrudur. Onu da əlavə etmək istəyirəm ki, səsvermədə bir sıra konqresmenlər iştirak etməmişdilər. Bunun də səbəbi heç də Azərbaycanla bağlı deyildi. Sadəcə, onların ayrı işləri olduğu, başqa yerdə olduqları üçün səsvermədə iştirak etməmişdilər. Bir daha vurğulamaq istəyirəm ki, 907-ci maddənin ləğv olunması üçün səslər Azərbaycanın tərəfində, bizim tərəfimizdədir.

H e y d ə r Ə l i y e v: Əlavə edim ki, yəni təkcə Azərbaycanın yox, həm də ədalətin tərəfindədir.

Ç e t E d v a r s: Cənab prezident, Azərbaycan xalqına ünvanlayaraq bir məlumat vermək istəyirəm. Bizim dövlət quruluşumuz elədir ki, burada dəyişikliklərə nail olmaq bir az uzun zaman tələb edir. Məsələn, 907-ci maddənin qəbul olunması erməni tərəfini çox canfəşanlıqla müdafiə edən beş-altı nəfər konqresmenin xidməti sayəsində mümkün olmuşdur. İstər bir gün olsun, istər bir ay, bir il olsun, biz Sizə söz veririk ki, əməyimizi sərf edəcəyik, yorulmadan çalışacağıq ki, bu gün buraya – Sizin görüşünüzə gəlmiş konqresmenlərlə birgə səy göstərərək 907-ci maddəni ləğv edək, bu işə eyni sadiqlik göstərək.

A y k S k e l t o n (*konqresmen*): Mən Azərbaycana səfər edərkən 907-ci maddə ətrafında apardığımız müzakirələri çox gözəl xatırlayıram. Bu gün Sizin görüşünüzə gələn şəxslər bilirlər – biz Konqresdə müzakirələr zamanı səylər qoyduq, maddənin ləğv edilməsinə çox yaxın olduq. Amma təəssüf ki, buna nail ola bilmədik. Mənə belə gəlir ki, ən düzgün yol 907-ci

maddəni ləğv etməkdir və bunun üçün əlimizdən gələni edəcəyik.

Cənab Edvards çox düzgün dedi, Amerikada qanunvericilik prosesi bir az ləng gedir. Amma Sizinlə görüşlərimiz zamanı bizə söylədiyiniz fikirlər tam yadımızdadır və yenə deyirəm, hesab edirik ki, ən düzgün qərar 907-ci maddəni ləğv etməkdir.

Sözümün axırında bir şeyi demək istəyirəm: bizi Azərbaycana bir də dəvət edin. Çünki biz oraya səfərimizdən çox məmnun qaldıq.

H e y d ə r Ə l i y e v: Mən sizi, hamınızı dəvət edirəm. Özü də bir dəfə yox, bir neçə dəfə. Yəni bu, açıq, davamlı dəvətdir. Nə vaxt imkanınız olsa, onda səfər edə bilərsiniz.

Ç e t E d v a r d s: Cənab prezident, bilirik ki, Sizin vaxtınız çox məhduddur. Lakin bugünkü görüşümüzdə ABŞ Nümayəndələr Palatası Müdafiə Komitəsinin üç nəfər ən aparıcı üzvü iştirak edir. Ona görə xahiş edərdik ki, İrana göndərilən və nüvə silahı istehsalında istifadə məqsədi daşıyan məhsulların, bu yaxınlarda Balkan yarımadasına göndərilməyə cəhd göstərilən və Amerika əsgərlərinin həyatını təhlükədə qoya biləcək MİQ təyyarələrinin tutulub saxlanılması sahəsində Sizin rəhbərliyiniz altında görülən işlər – Amerikanın milli təhlükəsizliyi baxımından çox önəmli əhəmiyyəti olan məsələlər barədə məlumat verəsiniz.

H e y d ə r Ə l i y e v: Sualınıza cavab verməzdən əvvəl bir neçə kəlmə demək istəyirəm. Bilirsiniz ki, Konqresdən və sizdən əsas xahişimiz və sizə müraciətimiz 907-ci maddə ilə əlaqədardır. Sizə məlumdur və hörmətli konqresmen indi bildirdi ki, 907-ci maddənin qəbul edilməsi cəmi beş-altı nəfər ermənipərəst konqresmen tərəfindən irəli sürülmüş təklif nəticəsində olmuşdur.

Artıq məlumdur və hamınız də bilirsiniz ki, bu, ədalətsiz qanundur. Çünki bu qanunun əsasını təşkil edən odur ki, guya Azərbaycan Ermənistanı blokadaya alıbdır. Bu, tama-

milə yalandır. Həyat da göstərdi və indi burada bu xəritədə də görə bilirsiniz ki, Ermənistan Azərbaycanın ərazisinin böyük bir hissəsini işğal edibdir. Azərbaycandan Ermənistana gedən dəmir yolunun İranla sərhəddə olan böyük bir hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Beləliklə, bu qanunun qəbul edilməsi üçün əsas tutulan iddia tamamilə yalandır. Ona görə də bu qanun ləğv olunmalıdır.

İkinci tərəfdən, son beş-altı il içərisində Amerika Birləşmiş Ştatlarında hamı, o cümlədən Konqres də artıq inanıb ki, Azərbaycan Qafqaz bölgəsində müstəqil siyasət aparır və Qafqazda Amerika Birləşmiş Ştatlarının iqtisadi və başqa maraqlarının təmin olunması üçün çox böyük işlər görür. İşğal edilmiş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlı Ermənistan silahlı qüvvələri tərəfindən etnik təmizləməyə məruz qalaraq, Azərbaycanın başqa yerlərinə köçməyə məcbur olub və indi çadırlarda yaşayırlar.

Azərbaycan belə ağır vəziyyətdə olduğu halda, Amerika Konqresi də Azərbaycana qarşı qadağa qoyub və onun vəziyyətini daha da ağırlaşdırıbdır. Amerika Birləşmiş Ştatları Konqresin qərarı ilə Ermənistana 100 milyon dollardan çox birbaşa yardım göstərir.

Azərbaycan Amerika Birləşmiş Ştatları ilə iqtisadi əlaqələri genişləndirir, biz böyük neft müqavilələri imzalamışıq. Bu müqavilələr ilə Azərbaycana 50 milyard dollar həcmində investisiya gəlir. Bu müqavilələrin əksəriyyətində Amerika Birləşmiş Ştatlarının şirkətləri iştirak edirlər. Bu gün burada, bu binada biz «Eksson», «Mobil», «Monkrift oyl» şirkətləri ilə üç müqavilə imzaladıq. Həmin müqavilələrin ümumi investisiya həcmi 10 milyard dollardır.

Son üç ildə Amerika şirkətləri Azərbaycana 1 milyard dollardan çox investisiya qoyublar. Bu investisiya ilbəil artacaqdır. Deməli, Amerika kapitalı Azərbaycanda yerləşir və Amerika Birləşmiş Ştatları Azərbaycan neftindən böyük

fayda götürəcəkdir. Bu, bizim Amerika Birləşmiş Ştatları ilə etdiyimiz əməkdaşlıq və Amerikanın bu əməkdaşlıqdan götürdüyü faydalardır.

Ermənistan Amerika üçün nə edir? Heç bir şey! Amma ildə 100 milyon dollar yardım alır. İndi gəlin baxaq ki, Ermənistan və Azərbaycan Amerika Birləşmiş Ştatları ilə əlaqədar Qafqazda hansı mövqedə durubdur. Azərbaycan öz müstəqilliyini qoruyur, Rusiyanın təzyiqi altındadır. Ancaq Ermənistanda Rusiyanın hərbi bazası yerləşibdir. Rusiya son vaxtlar o bazaya çox yeni silahlar – S-300 raketləri və MİQ-29 təyyarələri gətiribdir. Rusiyada bəyan edirlər ki, Ermənistandakı hərbi baza NATO-nun əleyhinə yönəldilibdir. Demək, Amerika Birləşmiş Ştatlarının əleyhinə yönəldilibdir.

Amerika Birləşmiş Ştatları Xəzər dənizindəki neft ehtiyatlarından istifadə olunmasına çox maraq göstərir, Mərkəzi Asiyadan, Xəzər dənizindən, Qafqazdan Qərbə çəkilən neft-qaz kəmərlərinə çox böyük maraq göstərir. Biz bunları təmin edirik. Amma Ermənistan heç bir şey etmir. Ona görə də belə bir vəziyyətdə Ermənistana yardım etmək, Azərbaycana qarşı isə ədalətsiz münasibət göstərmək, qadağa qoymaq – mən hesab edirəm ki, Amerika Birləşmiş Ştatlarına, Konqresə bu qədər ədalətsizlik yaraşmır.

Ona görə 907-ci maddənin aradan götürülməsi üçün sizin çox güclü dəlilləriniz var. Amma ermənipərəst konqresmenlərin əlində heç bir dəlil yoxdur. Mən arzu edirəm ki, siz bu dəlillərdən istifadə edəsiniz.

Konqresmen Kinq bu gün çox gözəl təşəbbüs göstərib və 907-ci maddənin ləğv olunması barədə təklif veribdir. Mən təşəkkür edirəm və sizə müraciət edirəm ki, hamınız toplaşın, bu layihənin həyata keçirilməsini təmin edin. Mən bir də deyirəm: biz Azərbaycanda, Qafqazda şimalda Rusiya təzyiqinin, qərbdə Ermənistan təcavüzünün qarşısında durmuşuq. Siz bunu qiymətləndirməlisiniz.

Qafqaz Amerika Birləşmiş Ştatları üçün çox perspektivli əhəmiyyəti olan bir regiondur. XXI əsrdə Amerika Birləşmiş Ştatları Qafqaza daha da güclü gəlməyə məcbur olacaqdır – həm iqtisadi cəhətdən, həm də siyasi cəhətdən. Azərbaycan isə bu işləri təmin edir. Bu barədə sizə deyəcəyim bu qədər.

Ç e t E d v a r d s: Öncə bildirmək istəyirəm ki, Sizin ölkənizin prezidentliyinə necə seçilməyinizə bir daha əmin oldum. Siz çox inandırıcı çıxışlar edirsiniz.

İcazə verirsinizsə, Siz çıxış edərkən salona daxil olan daha iki hörmətli konqresmenimizi təqdim edim: Mayki Kapuana və Vik Snayder.

H e y d ə r Ə l i y e v: Çox sağ olun, mən sizi salamlayıram.

Ç e t E d v a r d s: Cənab prezident, Siz çox gözəl çıxış etdiniz, bizi başa saldınız. İcazə verin deyim ki, Sizin səfiriniz burada, Konqresdə çox işlər görübdür. O, təkbaşına bir ordunun işini görübdür.

S e l v e s t e r R e y e s (*konqresmen*): Mənim sualım yoxdur. Amma istəyirəm fürsətdən istifadə edib, bizim komitənin yüksək rütbəli üzvlərindən biri olan konqresmen Skeltonun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində keçən ilin yanvarında Azərbaycana səfərim zamanı bizə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirim.

Xatırlayırsınızsa, o vaxtkı görüşümüzdə biz bəyan etdik ki, Sizin Vaşinqtona səfəriniz çox əhəmiyyətlidir. Hesab edirik ki, Vaşinqtona indiki səfərinizin 907-ci maddənin ləğv olunması üçün böyük əhəmiyyəti var. Ona görə də bu gün burada olmağınıza görə Sizə təşəkkürümüzü bildirmək istəyirik.

Ç e t E d v a r d s: Cənab prezident, vaxtınızın məhdudluğunu nəzərə alaraq, 907-ci maddə ilə bağlı Sizə əlavə suallar verməyəcəyik. Bildirmək istəyirəm ki, biz Sizin tərəfinizdəyik. Burada iştirak edən konqresmenlər birgə səylər göstərərək, 907-ci maddənin ləğvi barədə konqresmen Kinqin bu gün yenidən irəli sürdüyü qanun layihəsini dəstəkləyəcəklər.

Heydər Əliyev: Sağ olun. Sizi maraqlandıran İrandır. İran Azərbaycanın cənubda olan böyük qonşumuzdur. Bilirsiniz ki, İranda təxminən 30 milyon azərbaycanlı yaşayır. Onların əksəriyyəti İranın şimal hissəsində, yəni Azərbaycan Respublikasına həmsərhəd hissədə yaşayır. Ona görə İranla insani əlaqələrimiz çox genişdir.

Biz çalışırıq ki, İranla çox yaxşı münasibətlərimiz olsun. Amma Amerika Birləşmiş Ştatları ilə dostluğumuz, əməkdaşlığımız, İsrail ilə geniş müsbət əlaqələrimiz İranı çox narahat edir. Biz öz müstəqil siyasətimizi aparırıq. Bizim müstəqil siyasətimiz şimalda olan Rusiyanın da xoşuna gəlmir. Xüsusən Amerikanın, Qərbin neft şirkətlərinin Xəzər dənizinə gəlməsi Rusiyada böyük etirazlar doğurur. Regionda biz Rusiyanın, İranın və Ermənistanın sıx əməkdaşlığını müşahidə edirik.

Biz nüvə silahının yayılmasının əleyhinəyik. Yuqoslaviya, Balkan böhranı başlayan zaman biz Rusiyanın böyük bir təyyarəsini Bakıda saxladıq. O təyyarə Balkanlara gedirdi və içində MİQ təyyarələri var idi. Biz əllidən artıq Rusiya vətəndaşını orada saxladıq, təyyarəni həbs etdik və nəzərdə tutulmuş aksiyanın qarşısını aldıq. Şübhəsiz ki, sonra təyyarəni Rusiyaya verdik, təslim etdik. Ancaq MİQ təyyarələrini Qazaxıstana qaytardıq. Çünki onlar Qazaxıstana məxsus idi. Mən bu barədə prezident Nazarbayevlə telefonla danışdım. Onlar bəyan etdilər ki, təyyarələri başqa yerə göndərməyəcəklər.

Biz bu cəsarətli, qətiyyətli addımları atmaqla özümüzə qarşı yeni etirazlar doğurduq. Amma eyni zamanda biz müstəqil dövlətimizin müstəqil siyasətini ardıcıl surətdə həyata keçiririk. Düşünmürük ki, bu, bizə zərər gətirəcək, ya gətirməyəcəkdir. Mənə belə gəlir ki, sizin sualınıza geniş cavab verdim.

Çet Edvards: Cənab prezident, icazə verin, burada iştirak edən bütün konqresmenlərin adından bildirim ki, biz Sizin liderliyiniz altında atılan cəsarətli addımları çox yüksək qiymətləndiririk.

Bizə göstərdiyiniz liderlikdən bəhrələnərək, nümunə götürərək Konqresdə 907-ci maddənin ləğvinə həsr olunan müzakirələr zamanı eyni liderlik göstərəcəyik. Gərgin iş cədvəlinizdən vaxt ayırıb bizimlə görüşə gəldiyiniz üçün Sizə bir daha təşəkkür edir və bu görüşü özümüz üçün şərəf saydığımızı bildiririk. İki böyük dövlətimiz arasında münasibətləri gələcəkdə də inkişaf etdirmək arzusundayıq.

H e y d ə r Ə l i y e v: Sağ olun. Azərbaycana bu qədər diqqət göstərdiyinizə və bu görüşə toplaşdığınıza görə hamınıza təşəkkürümü bildirirəm. Bu gün bir daha bildirmək istəyirəm ki, Azərbaycanın prezidenti kimi, mən Amerika Birləşmiş Ştatlarına və onun Konqresinə çox böyük hörmət bəsləyirəm. Azərbaycana qarşı ədalətsiz 907-ci maddənin qəbul olunmasına baxmayaraq, mən hesab edirəm ki, Konqres həm Amerika üçün, həm də Dünya Birliyi üçün, sülhün qorunması, demokratiyanın inkişafı üçün çox dəyərli işlər görür. Konqresdə sizin kimi ədalətli, müstəqil fikirli və cəsarətli konqresmenlər var. Bu bizi ruhlandırır və inandırır ki, Konqres Azərbaycana qarşı yaranmış qeyri-obyektiv vəziyyətin də aradan qaldırılmasına nail olacaqdır.

907-ci maddənin ləğv olunması üçün bu gün yenidən təşəbbüs göstərdiyinə görə konqresmen Kinqə xüsusi təşəkkür edirəm. Ümidvaram ki, siz hammız yeni layihənin ətrafında sıx toplaşacaq, onu dəstəkləyəcək və nəhayət, layihənin qəbul edilməsinə nail olacaqsınız. Bu hisslərlə sizdən ayrılır, görüşümüzdən çox məmnun olduğumu bildirirəm.

Sizin hamınızı yenidən-yenidən Azərbaycana dəvət edirəm. Azərbaycanın qapıları sizin üçün açıqdır. Azərbaycanda həmişə dostluq, mehribanlıq, qonaqpərvərlik görəcəksiniz. Sağ olun.

* * *

Azərbaycan prezidenti Heydər Əliyev konqresmenlərlə görüşdən sonra «Amerikanın səsi» radiosunun müxbiri Dilşad Əliyarlının sualına cavab verdi. Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli məsələsində ABŞ-ın mövqeyini açıqlayan prezident ***Heydər Əliyev*** *dedi:*

Dövlət katibi mənimlə görüşündə və sonra prezident Koçaryanla birlikdə görüşümüzdə açıqca bildirdi ki, Amerikanın mövqeyi belədir ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, işğal edilmiş torpaqlar Ermənistan silahlı qüvvələrindən azad olunmalı, qaçqınlar öz yerlərinə qayıtmalıdırlar və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə hüququ verilməlidir. Amerika Birləşmiş Ştatları, onun hökuməti və Konqresi bu prinsipləri dəstəkləyirlər.

***

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Vaşinqtona ziyarəti başa çatdıqdan sonra o, Ohayo ştatının Klivlend şəhərinə gəldi. Aprelin 27-də prezident Heydər Əliyev Klivlend klinikasında tibbi müayinədən keçdi.

Aprelin 29-da həmin klinikada prezident Heydər Əliyevin üzərində aorta koronar şuntlama əməliyyatı aparıldı. Əməliyyat uğurla başa çatdı.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UİLYAM C.KLİNTONA

Oklahoma və Kanzas ştatlarında baş vermiş qasırğa nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni çox kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzu edirəm.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

5 may 1999-cu il

5 may 1999-cu il

May ayının 5-də səhər saat 11.35-də Amerika Birləşmiş Ştatlarının dövlət katibi xanım Madelin Olbrayt Belçikadan Almaniyaya uçarkən ABŞ-ın Ohayo ştatının Klivlend klinikasında müalicəsini davam etdirən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə təyyarədən telefon zəngi etmişdir.

Xanım Olbrayt Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonun salamlarını və ən xoş arzularını prezident Əliyevə çatdırdı. ABŞ-ın dövlət katibi qeyd etdi ki, prezident Bill Klinton və o özü Azərbaycanın dövlət başçısının müalicəsini şəxsən nəzarətdə saxlayır və müalicənin gedişi ilə müntəzəm surətdə maraqlanırlar. O, prezident Klintonun prezident Əliyevə ünvanladığı məktubun yetişdiyinə ümidvar olduğunu söylədi. Amerika Birləşmiş Ştatlarının dövlət katibi Azərbaycanın dövlət başçısının tezliklə sağalaraq vətənə dönməsini arzuladıqlarını bildirdi.

Xanım Olbrayt qeyd etdi ki, prezident Klinton və o, Azərbaycan prezidenti Heydər Əliyevlə əməkdaşlığı bundan sonra da müvəffəqiyyətlə davam etdirmək əzmindədirlər. Amerika Birləşmiş Ştatlarının dövlət katibi əmin olduğunu bildirdi ki, Azərbaycan prezidenti vətənə döndükdən sonra Amerika–Azərbaycan münasibətlərinin daha da inkişaf etdirilməsi və xüsusilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması istiqamətində birgə əməkdaşlığı gücləndirəcəklər.

Xanım Olbrayt aprel ayının 25-də və 26-da Vaşinqtonda prezident Əliyevlə keçirdiyi görüşlər və danışıqlar zamanı ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin və tərəfdaşlıq münasibətlərinin daha da gücləndirilməsi sahəsində Amerika Birləşmiş Ştatlarının öz üzərinə götürdüyü öhdəliklərə sadiq olduğunu bir daha bəyan etdi.

Xanım Olbrayt özünün təşəbbüsü və iştirakı ilə prezident Heydər Əliyev və prezident Robert Koçaryan arasında Vaşinq-

tonda keçirilmiş görüşü Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə aradan qaldırılması istiqamətində atılan mühüm addım hesab etdiyini və belə görüşlərin davam etdirilməsinin vacibliyini vurğuladı.

ABŞ-ın dövlət katibi prezident Heydər Əliyevi bir daha əmin etdi ki, Amerika Birləşmiş Ştatları Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi istiqamətində səylərini daha da artıracaqdır.

Daha sonra dövlət katibi xanım Olbrayt Azərbaycan prezidentinə müraciətlə bildirdi ki, Amerika Birləşmiş Ştatları Heydər Əliyevi özünün yaxın dostu hesab edir. O, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, regionda sülhün, əmin-amanlığın bərqərar olunması, demokratiyanın inkişaf etdirilməsi istiqamətində Azərbaycanla və şəxsən prezident Heydər Əliyevlə əməkdaşlığı daha da gücləndirmək arzularını bildirdi.

Dövlət katibi xanım Olbrayt prezident Klintonun adından və şəxsən öz adından prezident Heydər Əliyevi 10 may – ad günü münasibətilə təbrik etdi. Heydər Əliyev ilə eyni bürc altında anadan olduğunu xüsusilə vurğulayan xanım Olbrayt bunu prezident Heydər Əliyevlə özü arasında olan şəxsi dostluq münasibətlərinin daha da gücləndirilməsi üçün müsbət hal kimi qiymətləndirdi.

May ayını Azərbaycan xalqı üçün bayramlarla dolu olan bir ay kimi qiymətləndirən xanım Olbrayt ümidvar olduğunu bildirdi ki, Azərbaycan prezidenti Heydər Əliyev 28 May – müstəqillik bayramını öz vətəni Azərbaycanda qeyd edəcəkdir.

Xanım Olbrayt Heydər Əliyevi şəxsi dostu hesab etdiyini bildirərək dünyanın harasında olmasından asılı olmayaraq istənilən məsələ ilə əlaqədar tərəddüd etmədən ona müraciət etməsini xahiş etdi.

Xanım Olbrayt prezident Əliyevdən müalicəsini başa vurduqdan sonra vətənə dönərkən ona xəbər verməsini və Bakıya qayıtdıqdan sonra şəxsən onunla əlaqə saxlamasını xahiş etdi.

O, bu cür əlaqələrin Amerika ilə Azərbaycan arasında olan tərəfdaşlıq münasibətlərinin daha da inkişaf edərək yüksəlməsinə yardım edəcəyinə qəti əmin olduğunu vurğuladı.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ona göstərilən diqqətə və qayğıya görə prezident Bill Klintona və dövlət katibi Madelin Olbrayta dərin minnətdarlığını bildirdi. Azərbaycanın dövlət başçısı ABŞ-da müalicə olunarkən bu qayğını daim hiss etdiyini xüsusilə vurğuladı və ona göngərdiyi səmimi məktuba görə təşəkkürlərini prezident Klintona çatdırmağı xahiş etdi. Prezident Əliyev özünü yaxşı hiss etdiyini söyləyərək, prezident Klintonun və dövlət katibi Olbraytın qayğısı sayəsində müalicənin gedişindən və ona göstərilən tibbi xidmətin yüksək səviyyədə olmasından razılığını bildirdi.

Ünvanına söylənilən xoş arzuları yüksək qiymətləndirən Azərbaycanın dövlət başçısı ona göstərilən hörmət və ehtiramı unutmayacağını nəzərə çarpdırdı.

Azərbaycanda qüdrətli, müstəqil, azad, çiçəklənən, demokratik bir dövlət qurmağı, Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təmin etməyi özünün ən böyük arzusu hesab etdiyini vurğulayan prezident Heydər Əliyev ümidvar olduğunu bildirdi ki, Amerika Birləşmiş Ştatları bu işdə Azərbaycana bundan sonra da yardımçı olacaqdır.

Prezident Heydər Əliyev Vaşinqtonda olarkən prezident Klinton və dövlət katibi xanım Olbrayt ilə keçirdiyi görüşləri və apardığı danışıqları yüksək qiymətləndirdiyini qeyd etdi. O, bir daha ümidvar olduğunu bildirdi ki, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə sülh yolu ilə aradan qaldırılması üçün Amerika Birləşmiş Ştatları öz səylərini daha da artıracaqdır.

Prezident Heydər Əliyev qeyd etdi ki, Azərbaycan Amerika Birləşmiş Ştatlarına özünün ən əsas partnyoru kimi baxır. O, Vaşinqtonda olarkən Amerika ilə Azərbaycan arasında strateji

tərəfdaşlıq münasibətlərinin gücləndirilməsinə ehtiyac duyulduğuna bir daha əmin olduğunu bildirdi.

Prezident Heydər Əliyev Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında əməkdaşlığın bundan sonra daha da səmərəli olacağına inandığını vurğuladı.

Azərbaycan prezidenti Heydər Əliyev ümidvar olduğunu bildirdi ki, tezliklə vətənə qayıdaraq qarşıda duran böyük vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsinə nail olacaqdır.

Telefon danışığının sonunda Amerika Birləşmiş Ştatlarının dövlət katibi xanım Madelin Olbrayt prezident Heydr Əliyevi bağrına basdığını və ona tezliklə sağalaraq vətənə dönməyi arzuladığını bildirdi.

AVROPA KOMİSSİYASININ SƏDRİ
ZATİ-ALİLƏRİ
CƏNAB ROMANO PRODİYƏ

Hörmətli Romano Prodi!

Avropa Komissiyasının sədri seçilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Biz Avropa İttifaqının strukturları ilə əlaqələrin genişlənməsinə və sıx əməkdaşlığa böyük əhəmiyyət veririk.

Əminəm ki, yaxın vaxtlarda qüvvəyə minəcək tərəfdaşlıq və əməkdaşlıq haqqında Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında saziş əlaqələrimizin hüquqi bazasını təşkil etməklə onların möhkəm təməl üzərində inkişafını təmin edəcəkdir.

Respublikamıza çoxsaylı humanitar və texniki yardımlarına görə Avropa İttifaqına bir daha minnətdarlığımı bildirirəm. Ümidvaram ki, rəhbərlik etdiyiniz Avropa Komissiyası Azərbaycanın Dünya Birliyi ilə inteqrasiyası proseslərinin gücləndirməsində, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsində bundan sonra da mühüm rol oynayacaqdır.

Sizə işlərinizdə uğurlar diləyir və ən xoş arzularımı yetirirəm.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

7 may 1999-cu il

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTUFLƏKƏ

Hörmətli Əbdüləziz Butuflək!

Əlcəzair Xalq Demokratik Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Əlcəzair Xalq Demokratik Respublikası arasındakı dostluq və əməkdaşlıq xalqlarımızın qarşılıqlı mənafeyi və rifahı naminə daha da genişlənəcək və inkişaf edəcəkdir.

Sizə işlərinizdə uğurlar diləyir, Əlcəzair xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

7 may 1999-cu il

Azərbaycan prezidenti Heydər Əliyevin ABŞ-ın Ohayo ştatının Klivlend klinikasında müalicəsi başlanandan bəri respublikamızın ictimaiyyətinin nümayəndələri, əmək kollektivləri, ölkəmizin ən ucqar kəndlərindən belə sadə əmək adamları tərəfindən Azərbaycanın Amerikadakı səfirliyinə və klinikaya hər gün yüzlərlə teleqramlar, məktublar gəlir, ardı-arası kəsilmədən telefon zəngləri edilir. Xalqımız öz müdrik rəhbərinin tam sağalıb vətənə qayıtmasını səbirsizliklə, intizarla gözləyir. Allaha şükürlər olsun ki, dövlətimizin başçısının səhhəti artıq tam yaxşıdır və o, müalicəni başa çatdırmışdır.

Mayın 9-da Azərbaycan prezidenti Heydər Əliyev Klivlend klinikası hotelinin foyesinə gəldi. Foyeyə toplaşmış bir sıra xarici ölkələrin nümayəndələri respublikamızın rəhbəri, görkəmli dövlət xadimi Heydər Əliyevi görən kimi ona yaxınlaşdılar, hal-əhval tutdular, prezidentimizin səhhətinin tam yaxşı olması münasibətilə azərbaycanlılara gözaydınlığı verdilər, dövlətimizin başçısı ilə xatirə şəkli çəkdirdilər.

Respublikamızın prezidenti mayın 9-da səhər Bakıya zəng vurub xalqımızı, Böyük Vətən müharibəsi veteranlarını faşist Almaniyası üzərində qələbənin 54-cü ildönümü münasibətilə təbrik etmişdi.

Elə həmin gün günorta isə dövlətimizin başçısı Azərbaycan televiziyası vasitəsilə xalqımıza müraciət etdi.

TELEVİZİYA İLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Klivlend şəhəri

9 may 1999-cu il

Əziz həmvətənlər! Bacılar, qardaşlar!

Qələbə bayramı münasibətilə, faşist Almaniyası üzərində qələbə çalınmasının 54-cü ildönümü münasibətilə sizi – Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını ürəkdən təbrik edirəm. Xalqımıza, millətimizə, Azərbaycanın vətəndaşlarına sülh, əmin-amanlıq diləyirəm.

Bu günlər, mən vətəndən uzaqda olduğum zaman, müalicə keçirərkən Azərbaycanın vətəndaşlarından, dünya ölkələrinin dövlət, hökumət başçılarından, ictimai-siyasi xadimlərindən həddindən çox məktublar almışam, teleqramlar almışam. Bunlar mənə olan qayğının, münasibətin təzahürüdür, sağalıb tezliklə gəlmək arzusu ilə dolu olan məktublar, teleqramlardır. Mən bunlara görə bu günlər mənə yüksək qayğı göstərən və mənimlə həmrəy olan insanlara təşəkkürümü bildirirəm.

Xəstəxanada olduğum bu günlərdə mən bir daha hiss etdim ki, Azərbaycanda milli həmrəylik, milli birlik hissləri yüksəlibdir, Azərbaycanda ictimai-siyasi sabitlik artıq dönməz olubdur və bunların da nəticəsində cəmiyyətimiz uğurla inkişaf edir, dövlətimiz öz fəaliyyətini göstərir və beləliklə də xalqımız rahat yaşayır.

Bu, məni bu günlərdə ən çox sevindirən haldır. Bütün bunlara görə də doğma xalqımıza, vətəndaşlarımıza təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Mən artıq müalicəmi başa çatdırıram, sabah xəstəxanadan çıxacağam və tezliklə Bakıya, Azərbaycana, vətənə qayıdacağam.

Bir daha sizi bayram münasibətilə təbrik edirəm. Hamınıza cansağlığı, səadət və yeni-yeni uğurlar arzulayıram.

TELEVİZİYA İLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Klivlend şəhəri

9 may1999-cu il

Əziz həmvətənlər!

Bacılar və qardaşlar, dostlar!

Sizi uzaqdan- Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərindən səmimiyyətlə salamlayıram. Sizə, xalqımıza, ölkəmizə, vətənimizə ən xoş arzularımı bildirirəm.

Sizə məlumdur ki, mən Amerika Birləşmiş Ştatlarında səfərdə olduğum zaman həkimlərin müayinəsindən keçəndən sonra onların məsləhəti ilə cərrahiyyə əməliyyatı keçirilməsi zəruriyyəti qarşısında qaldım. Mən bu əməliyyatın keçirilməsinə razılıq verdim. Çünki həkimlərin dediklərinə həmişə çox diqqət yetirmək lazımdır.

Allaha şükür ki, əməliyyat çox uğurla keçdi. Mən artıq indi sağalmışam, mayın 10-da xəstəxanadan çıxacağam və yəqin ki, bir-iki günə vətənə doğru yola düşəcəyəm.

Bilirəm ki, mənim qəflətən xəstəxanaya düşməyim, eləcə də mənim üzərimdə qəflətən cərrahiyyə əməliyyatı keçirilməsi sizi narahat edib və kədərləndiribdir. Ancaq hər şey arxada qalıbdır. Narahat olmayın. Əmin idim ki, bu cərrahiyyə əməliyyatı uğurla keçəcək, mən sizinlə bərabər ölkəmizin işləri ilə daha da müvəffəqiyyətlə çalışmaq imkanı əldə edəcəyəm.

Buradakı xəstəxanada həkimlər müalicəni çox yüksək səviyyədə aparırlar. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton və Amerika hökumətinin üzvləri mənə çox

böyük qayğı göstərirlər. Mənim müalicəm onların şəxsi nəzarəti altındadır. Ona görə də siz narahat olmayın. Mən də heç narahat deyiləm. İnsan vətəndən ayrı olan zaman, şübhəsiz ki, o qədər də rahat ola bilməz. Ancaq mən çox məmnunam ki, bu qısa müddətdə vətəndə olmadığım zaman ölkəmizdə əmin-amanlıq davam edibdir, insanlar rahat yaşayırlar və hər şey qaydasındadır. Sizin üçün də, mənim üçün də əsas da budur.

Burada müalicəm başlanandan həm respublikamızın vətəndaşları, həm də bir çox xarici ölkələr tərəfindən mənə böyük diqqət və qayğı göstərilir. Təbrik, həmrəylik məktubları göndərilir. Bütün məktublarda, teleqramlarda hamı mənə şəfa diləyir, sağalıb tezliklə vətənə dönməyimi arzulayır.

Gələn teleqramlar və məktublar şübhəsiz ki, məni həmişə sevindirir, mənə dayaq verir, məni ruhlandırır. Eyni zamanda bu, ölkəmizdə milli həmrəyliyin, birliyin mövcud olduğunu bir daha göstərir.

Çox məmnunam ki, xalqımız, millətimiz mən ölkədə olmadığım zaman eyni vəziyyətdə çalışıb işləyirlər. Düşünürəm, bəziləri daha da çox çalışır, səy göstərirlər ki, mənim ölkədə olmamağım hiss edilməsin.

Mən burada mütəmadi olaraq ölkəmizin müvafiq dövlət orqanları ilə əlaqə saxlayıram. Gündə telefon danışıqlarım olur. Vəziyyət və görülən işlər haqqında mənə məlumat verirlər. Mən isə lazımi göstərişlərimi, məsləhətlərimi verirəm. Beləliklə, ölkəmiz yaşayır, işlər davam edir. Ümidvaram ki, bundan sonra da davam edəcəkdir.

Mən bir neçə gündən sonra vətənə dönəcəyəm. Güman edirəm ki, mən daha böyük enerji ilə vətənə dönəcəyəm. Burada məni müalicə edənlər, üzərimdə cərrahiyyə əməliyyatı aparanlar hər halda, belə proqnoz verirlər. Əgər belə olmasaydı, onlar cərrahiyyə əməliyyatı aparmazdılar. Çünki belə bir əməliyyatın keçirilməsinə o qədər də ehtiyac yox idi. Həkimlərin mənə bildirdiklərinə görə, bu əməliyyatın

aparılmasında əsas məqsəd mənim səhhətimi daha da gücləndirmək olubdur.

Mən burada heç bir xəstəliyə düçar olmamışam. Mən Vaşinqtonda işlərimi qurtarıb, aprelin 27-də Bakıya qayıtmalı idim. Ancaq məsləhət gördülər ki, müayinədən keçim, ondan sonra isə dedilər ki, müalicəyə, əməliyyat keçirməyə ehtiyac var. Amma ola da bilərdi ki, əməliyyat keçirilməsin. Mən buradakı həkimlərin fikirləri ilə hesablaşaraq qərar qəbul etdim ki, bir halda ehtiyac var, bunu etmək lazımdır. Mən belə qərar qəbul etməyimdən çox məmnunam.

Bu gün qələbə bayramıdır, alman faşizmi üzərində çalınmış qələbənin 54-cü ildönümüdür. Xalqımız bayram edir. Mən bu bayram münasibətilə sizi ürəkdən təbrik edirəm. Hamınıza cansağlığı, uğurlar arzulayıram. Müharibə, əmək veteranlarını xüsusi təbrik edirəm. Onlara uzun ömür, cansağlığı arzu edirəm. Azərbaycanın Vətən müharibəsi iştirakçılarını, veteranlarını, şəhid ailələrini bu bayram münasibətilə xüsusi təbrik edirəm.

Salamlarımı, ən xoş arzularımı Azərbaycanın hər bir guşəsinə çatdırmağa çalışıram. Güman edirəm, hər bir yerdə mənim səsimi eşidəcəksiniz və arxayın olacaqsınız ki, biz yenə də bir yerdəyik, bərabərik, qarşımızda duran vəzifələrin hamısını yerinə yetirəcəyik.

Mənim Vaşinqton səfərim çox uğurlu olubdur. Bilirəm ki, bu səfər haqqında radio, televiziya, mətbuat geniş məlumatlar veribdir, siz artıq bunları bilirsiniz. Mən isə demək istəyirəm ki, bu səfərimdən çox məmnunam. Biz həm NATO ilə əməkdaşlığımız barədə ciddi addım atdıq, həm də Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün çox faydalı işlər gördük. Əminəm ki, bu işlər öz nəticəsini verəcəkdir.

Mən sizə bir daha cansağlığı arzu edirəm. Hər birinizə səadət, işlərinizdə uğurlar diləyirəm. Sağ olun, Bakıda görüşlərə qədər.

ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Klivlend klinikası

10 may 1999-cu il

Stenli Eskudero: Cənab prezident, mən Sizi səmimi-qəlbdən salamlayıram və tam yaxşı olduğunuzu görməkdən məmnun qaldığımı bildirirəm.

Cənab prezident, mən Sizə iki məktub gətirmişəm. Onların biri ABŞ-ın dövlət katibi xanım Madelin Olbraytdan, digəri isə onun müavini cənab Sestanoviçdəndir. Onların hər ikisi ad gününüz münasibətilə Sizi təbrik edir və tezliklə tam sağalmağınızı arzulayırlar. Mən də onların arzularına qoşuluram.

Heydər Əliyev: Çox sağ olun, təşəkkür edirəm. Mənə burada çox böyük diqqət və qayğı göstərilir. Prezident cənab Bill Klinton, dövlət katibi xanım Olbrayt mənim müalicəmə xüsusi qayğı göstərirlər. Mən vitse-prezident Albert Qordan da məktub almışam. Ümumiyyətlə mənə burada göstərilən diqqət, müalicəm, hətta təhlükəsizliyimin təmin edilməsi çox yüksək səviyyədədir. Doğum günüm münasibətilə təbriklərə görə də təşəkkür edirəm.

Mən buradan gedən günü cənab Klintona, xanım Olbrayta məktub göndərəcəyəm və öz fikirlərimi bildirəcəyəm.

Stenli Eskudero: Onların bu məktubları səbirsizliklə gözləyəcəklərinə və bunlara diqqətlə yanaşacaqlarına əmin ola bilərsiniz.

Cənab prezident, ölkəmizdə səfərdə olduğunuz zaman Sizin təhlükəsizliyinizin təmin edilməsi, ABŞ-ın dövlət orqanları tərəfindən Sizə qayğı göstərilməsi tamamilə qanunauyğun və təbii haldır. Çünki Siz həm müstəqil bir dövlətin prezidenti, həm də çox mühüm bir regionun ən önəmli liderlərindən birisiniz. Biz çox istəyirik ki, Siz vətəninizə qayıdasınız və ölkənizə rəhbərliyi davam etdirəsiniz.

Heydər Əliyev: Səmimi sözlərə görə təşəkkür edirəm. Mən də çalışıram ki, tezliklə Bakıya qayıdım. Həkimlərin dediyinə görə, mənim gücüm əvvəlkinə nisbətən xeyli artıbdır. Təminat verirlər ki, bundan sonra 20 il çox yaxşı işləyəcəyəm. Mənim işlərim də, arzularım da çoxdur.

Stenli Eskudero: Bunları eşitməkdən çox məmnun qaldığımı bildirirəm. Hesab edirəm ki, Sizdə bu arzuları həyata keçirmək imkanı olacaqdır və Siz onları yerinə yetirəcəksiniz.

Cənab prezident, Sizin müalicə olunduğunuz Klivlend klinikası dünyanın ən böyük tibb mərkəzlərindən biridir. Sizin üzərinizdə aparılmış cərrahiyyə əməliyyatı ölkəmizdə adi bir əməliyyat hesab edilir. Mən o fikrə tamamilə şərikəm ki, bu əməliyyatdan sonra Siz əvvəlkindən daha böyük qüvvə ilə işə başlayacaqsınız, ürəyinizin fəaliyyəti daha güclü, uzun ömürlü olacaqdır. Biz hesab edirik ki, bu həm Azərbaycan üçün, həm də ölkələrimizin münasibətlərinin gələcəyi baxımından çox mühüm və yaxşı xəbərdir.

Heydər Əliyev: Doğrudur, mən də bu fikirdəyəm. Burada, Vaşinqtonda keçirdiyim günlər çox faydalı, əhəmiyyətli oldu. NATO-nun toplantılarında iştirakımı çox müsbət qiymətləndirirəm. Bu, çox böyük, tarixi hadisədir, böyük hadisədir. Biz NATO-nun bütün fəaliyyətinə öz dəstəyimizi bildiririk. Ancaq NATO-nun toplantılarından savayı, biz burada çox işlər gördük. Çoxsaylı görüşlər keçirdik və xüsusən, yeni üç böyük neft müqaviləsi imzaladıq. Konqresdə çox

geniş görüşlərim oldu. Bu görüşlərdən birində Nümayəndələr palatasının 12, Senatın 8 nəfər üzvü iştirak edirdi. Cənab Braunbekin qədim İpək yolunun bərpası mövzusunda keçirdiyi iclasın çox böyük əhəmiyyəti vardır. Xanım Olbraytın Cənubi Qafqaz dövlətlərinin – Gürcüstanın, Ermənistanın və Azərbaycanın prezidentlərinin və bir neçə böyük ölkənin xarici işlər nazirlərinin birgə iştirakı ilə keçirdiyi Cənubi Qafqazda vəziyyət və əməkdaşlığın perspektivləri haqqında tədbir çox yüksək səviyyədə başa çatdı.

ABŞ Dövlət Departamenti və şəxsən xanım Olbrayt Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli barədə çox böyük fəallıq göstərdilər. Biz ətraflı danışıqlar apardıq. Biz çox məmnun olduq ki, Amerika bu barədə öz mövqeyini dəqiq bəyan etdi. Ermənistan prezidenti ilə təkbətək görüşüm də çox faydalı keçdi. Çoxsaylı başqa görüşlərim də oldu, ancaq mən ən əsasları barədə söhbət açdım.

Biz çox faydalı işlər gördük. Mən Amerika Birləşmiş Ştatlarında olmağımdan və burada gördüyümüz işlərdən çox razıyam. Nəhayət, mənə müalicə də lazım imiş, onu da aldım.

S t e n l i E s k u d e r o: Sizin Amerikaya səfərinizin hər baxımdan səmərəli olduğunu nəzərə çarpdırıram. Bilirsiniz ki, Klinton hökuməti İpək yolu strategiyasına dair senator Braunbekin irəli sürdüyü qanun layihəsini Cənubi Qafqaz üçün çox faydalı hesab edir. Biz bu layihəni güclü surətdə dəstəkləyirik.

Onu da qeyd edim ki, Cənubi Qafqaz ölkələri dövlət başçılarının xanım Olbraytın təşəbbüsü ilə keçirilmiş bu görüşünə ABŞ dövlət katibi regional əməkdaşlığın inkişaf etdirilməsi baxımından çox əhəmiyyətli bir görüş kimi yanaşır və bu işə böyük həvəslə şəxsən qoşulubdur.

Biz regional strukturların, habelə magistral yolların və dəmir yollarının vəziyyətinin yaxşılaşdırılması üçün konkret işlər görülməsinə başlamışıq. Bu ölkələrin gömrük sistem-

lərinin uyğunlaşdırılması, regionun minalardan təmizlənməsi, qarşı duran tərəflər arasında niozon ofislərin yaradılması işinə də başlamışıq və bilirik ki, bu ideyaları siz də dəstəkləyirsiniz. Avropa ölkələrinin bu proseslərin inkişafında yaxından iştirak etməsi, Dünya Bankının həmin layihələrin reallaşmasına lazımi yardım göstərməyə hazırlaşması da bu layihələrin böyük gələcəyindən xəbər verir.

Cənubi Qafqaz ölkələri baş nazirlərinin qarşıda görüşləri nəzərdə tutulub. Orada əhəmiyyətli təkliflər paketinin razılaşdırılacağına əmin olduğumu bildirirəm.

Cənab prezident, Amerikaya səfərinizin bütün kütləvi informasiya vasitələri, xüsusən «Vaşinqton post» qəzeti tərəfindən geniş işıqlandırılması münasibətilə Sizi təbrik edirəm. Bu qəzetin birinci səhifəsində Sizin Vaşinqtona gəlməyinizə dair çox gözəl bir şəkil dərc olunmuşdur. ABŞ Hərbi Dəniz Akademiyası ilə tanışlığınız barədə həmin qəzetdə dərc edilmiş məqalə də çox heyranedicidir.

Cənab prezident, mən Sizi çoxlarının beş il ərzində edə biləcəklərini bir həftə ərzində həyata keçirməyiniz münasibətilə təbrik edirəm. Siz ölkənizə uğurla liderlik edirsiniz Bu ziyarətiniz zamanı ölkələriniz arasında münasibətlərin genişləndirilməsi və inkişaf etdirilməsi sahəsində böyük nailiyyətlər əldə etmisiniz, öz səhhətinizin yaxşılaşdırılmasına da nail olmusunuz. Əminəm ki, Siz bundan sonra da gərgin fəaliyyətinizi davam etdirəcək, ölkələrimiz arasında münasibətlərin daha da yüksəklərə qaldırılmasına kömək edəcəksiniz.

Heydər Əliyev: Səmimi sözlərə və Amerikada ona göstərilən diqqət və qayğıya görə minnətdarlığımı bildirirəm. Sağ olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AD GÜNÜ MÜNASİBƏTİLƏ KLİVLEND KLİNİKASINDA KEÇİRİLƏN MƏRASİM*

Klivlend klinikasının hoteli

10 may 1999-cu il

İ l h a m Ə l i y e v: Hörmətli mərasim iştirakçıları! Əziz qonaqlar!

Mən sizin hamınızı Azərbaycan Respublikasının prezidenti cənab Heydər Əliyevin adından salamlayıram, sizə xoş gəlmisiniz deyirəm.

Ağlımıza heç vaxt gələ bilməzdi ki, cənab Heydər Əliyevin ad gününü biz Klivlend şəhərində qeyd etməli olacağıq. Ancaq Allah belə buyurubdur ki, biz hamımız yeni dostlarla birlikdə buraya cənab prezidentin ad günü münasibətilə yığışmışıq. Hamımız – cənab prezidentin qohumları, tanışları, dostları belə hesab edirik ki, bizi buraya Allah və bir də Azərbaycan xalqının duaları gətiribdir. Çünki biz yaxşı bilirik ki, bu əməliyyatın keçirilməsi zəruri idi və Allaha şükür ki, vaxtında keçirildi.

Azərbaycan xalqının hələ çox uzun illər cənab Heydər Əliyevə ehtiyacı olacaqdır. Çünki Heydər Əliyev Azərbaycanda və bizim regionda sülhün, əmin-amanlığın, Azərbaycanın müstəqilliyinin, gələcək iqtisadi inkişafının təminatçısıdır. Heydər

---

* Mərasimdə millət vəkili, APDHŞ-nin vitse-prezidenti İlham Əliyev, bir sıra xarici ölkələrin səfirləri, klinikanın həkimləri və tibb işçiləri iştirak edirdilər.

Əliyevin Azərbaycan xalqının gələcəkdə rahat, firavan yaşaması üçün bu günə qədər gördüyü işlər və bundan sonra neçə-neçə illər ərzində görəcəyi işlər həm bizim xalqımız, həm regionumuz üçün, deyə bilərəm ki, bütün dünya üçün lazımdır.

Mən özümü çox xoşbəxt adam hesab edirəm ki, prezident başda olmaqla, bu gün biz hamımız birlikdə burada, yeni dostların arasında bu ad gününü qeyd edirik.

Cənab prezident yeni dostların hamısına deyib ki, onları Bakıya dəvət edir. İnşallah, 2000-ci il mayın 10-da bu tərkibdə hamımız Bakıda yığışaq!

Yaşasın Heydər Əliyev!

Yaşasın Azərbaycan!

İ h s a n D o ğ r a m a c ı (*Türkiyənin məşhur alimi, professor*): Mən bir il bundan öncə prezident Heydər Əliyevin ad günündə iştirak etmək üçün Azərbaycanı ziyarət etdim. Əlbəttə, harada olsaydım mən bura gəlməliydim. Mən Klivlendə dünən gəldim, sabah isə Vətənimə dönəcəyəm.

Mən onu da əlavə etmək istəyirəm ki, Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türkdilli dövlətlərin lideridir. Şübhəsiz ki, bu dövlətlərin arasında Türkiyə də vardır. Mən bu gün bu mərasimdə iştirak etməyimlə həm öz adımdan, həm də bütün Türkiyə xalqı adından prezident Heydər Əliyevə ən xoş arzularımı yetirmək üçün gəlmişəm.

Möhtərəm prezident, doğum gününüz münasibətilə Sizə kiçik bir hədiyyəm var və ümid edirəm, Siz onu məndən qəbul edərsiniz. Bu hədiyyənin üzərində yazılıbdır:

«Hörmətli prezident Heydər Əliyev, anadan olduğunuz gün münasibətilə Sizə Allahdan cansağlığı və uzun ömür arzu edirəm.

İhsan Doğramacı
10 may 1999-cu il. Klivlend –Ohayo»

Bizim çox hörmətli prezidentimiz Heydər Əliyevi o qədər çox sevirəm ki, qorxuram ona göz dəyər. Ona göz dəyməsin deyə, bütün bəd gözlərə zərər olsun deyə, mən ona bir gözmuncuğu bağışlamaq istəyirəm.

Cənab prezident, Sizə cansağlığı, uzun ömür arzulayıram.

Heydər Əliyev: Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən bu gün Amerika Birləşmiş Ştatlarında, Klivlend şəhərində, dünyanın ən böyük tibb mərkəzlərindən biri olan klinikada müalicə keçirəm. Müalicəm artıq sona çatır. Bu gün belə təsadüf edibdir ki, mən doğum günümü öz ölkəmdə, Vətənimdə yox, burada, Amerika Birləşmiş Ştatlarında, Klivlend klinikasında keçirirəm. Bu da həyatın bir qəribəliyidir. Amma eyni zamanda hesab edirəm, bu, çox gözəl haldır ki, mən doğum günümü Amerika Birləşmiş Ştatlarında qeyd edirəm.

Bu gün mənim ətrafımda qohumlarım, dostlarım və bu klinikada mənə xidmət edən həkimlər və tibb işçiləri vardır. Mənə göstərdiyiniz bu diqqətə, qayğıya görə sizin hamınıza təşəkkür edirəm. Sizin bu gün mənə xoş münasibətiniz, təbriklərniz şübhəsiz ki, mənim tezliklə sağalmağıma kömək edəcəkdir.

Mən ən öncə Klivlend klinikasının həkimlərinə, tibb işçilərinə, məni burada müalicə edənlərə, cərrahiyyə əməliyyatı aparanlara, ümumiyyətlə, mənim müalicəmlə məşğul olanların hamısına təşəkkür edirəm.

Mənim ürəyimdə cərrahiyyə əməliyyatı aparılmasının səbəbkarları, «günahkarları» Erten Paşa və Murat Tuzçudur. Mən açıq demək istəyirəm, əgər Erten Paşa olmasaydı, mən Klivlendə gəlməyəcəkdim. Klivlendə gələndən sonra Murat Tuzçu əgər məni cərrahiyyə əməliyyatının mütləq aparılmasına inandırmasaydı, mən buna razı olmayacaqdım. Nəticə etibarilə görürəm ki, onlar çox düz təşəbbüs göstəriblər. Mən öz vəziyyətimi, sadəcə, bilmirdim. Ona görə də onlara xüsusi təşəkkür edirəm.

Mənim ürəyimdə cərrahiyyə əməliyyatı aparan böyük cərrah Brüs Laytl böyük xidmətlər etmişdir. Mən ona xüsusi təşəkkürümü bildirirəm.

Burada klinikanın məni müalicə edən əməkdaşları vardır. Mən onların hamısına səmimi-qəlbdən təşəkkür edirəm. Mənə çox mehriban münasibət göstərirlər və çox da gözəl xidmət edirlər.

Ancaq mənim buraya gəlməyimə yol göstərən isə əziz dostum İhsan Doğramacıdır. Mən Amerikaya gəlməzdən bir neçə gün əvvəl İhsan Doğramacı Erten Paşa ilə xüsusi görüşüb, mənim səhhətim haqqında ondan məlumat alıb və ona məsləhət veribdir ki, prezident Heydər Əliyevi Amerikada mütləq müayinə etmək lazımdır. Erten Paşa əvvəldən də bu təklifləri mənə vermişdi. Ancaq dostum İhsan Doğramacı bu barədə öz fikirlərini ona deyəndən sonra o məni müayinə etmək haqqında sözlərini daha da ürəklə, inamla mənə dedi.

İhsan Doğramacı mənim əziz dostumdur. Bizlərdə deyərlər: Dost dosta yaman gündə gərəkdir. O, 18 saat təyyarədə yol keçib, məni görmək, doğum günümdə mənimlə bərabər olmaq üçün buraya gəlibdir.

Əziz dostum, sənə təşəkkür edirəm. Mən sizin hamınıza təşəkkür edirəm. Hər birinizə cansağlığı arzu edirəm. Arzu edirəm heç biriniz cərrahiyyə əməliyyatına düçar olmayasınız, heç biriniz xəstəxanaya düşməyəsiniz. Əgər sizin başınıza belə hadisə gəlsə, mütləq Klivlend klinikasına gəlin.

Mərasimdə iştirak edən qonaqlara və Klivlend klinikasının həkimlərinə, tibb işçilərinə diqqət və qayğıya görə bir daha dərin minnətdarlığımı bildirirəm.*

---

* Mayın 10-da bir sıra xarici ölkələrin dövlət başçıları, digər yüksək vəzifəli şəxslər Klivlend şəhərinə zəng edərək, məktublar, teleqramlar göndərərək Azərbaycan prezidenti Heydər Əliyevi ad günü münasibətilə səmimi-qəlbdən təbrik etmiş, ona möhkəm cansağlığı, uzun ömür, müstəqil Azərbaycan Respublikasının daha da inkişaf etdirilməsi yolunda yeni-yeni uğurlar arzulamışlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

12 may 1999-cu il

1999-cu il mayın 12-də Ermənistan–Azərbaycan münaqişəsində atəşkəs rejimi müəyyən edilməsinə dair razılaşma əldə olunması gününün beş ili tamam olur.

Silahlı münaqişənin iştirakçıları vasitəçilərin fəal köməyi ilə atəşkəs rejimini hərtərəfli tənzimləmə əldə olunanadək davam etdirmək barədə razılığa gəlmişlər. Buna respublikada vəziyyətin sabitləşdirilməsi, Azərbaycanın nizami ordusunun yaradılması sahəsində çox böyük səylər nəticəsində nail olmaq mümkün olmuşdur. Beş il ərzində ölkənin silahlı qüvvələrini yaratmaq və möhkəmləndirmək mümkün olmuşdur. Silahlı qüvvələrimiz, çox vaxt ümumi komandanlığı olmayan dağınıq dəstələrdən və silahlı qruplardan indi yaxşı təşkil edilmiş və müasir texnika ilə təchiz olunmuş, təcavüzkarı dəf etməyə qadir olan orduya çevrilmişdir. Bütün bunların sayəsində biz təcavüzü dayandıra bilmişik, qan tökülməsinə, dağıntılara, insan tələfatına və müsibətlərə son qoya bilmişik.

Ötən beş il ərzində Azərbaycan Respublikasının keçdiyi inkişaf yolu bu qərarın vaxtında qəbul olunduğunun və düzgünlüyünün parlaq sübutudur.

Atəşkəs rejiminin müəyyən edilməsi nəticəsində biz öz dövlətçiliyimizi möhkəmləndirmək, demokratik islahatlar, özəlləşdirmə aparmaq, bazar iqtisadiyyatına keçmək, Azərbaycan Respublikasının müstəqilliyini və suverenliyini təmin edən dövlət strukturlarını formalaşdırmaq imkanı qazanmışıq. Ölkənin dağılmış iqtisadiyyatı atəşkəs şəraitində dirçəlməyə

başlamışdır. Ölkəyə iqtisadi islahatların uğurla aparılması üçün çox zəruri olan xarici sərmayələr axıb gəlmişdir. Azərbaycan dünyanın ən iri xarici şirkətləri və geniş işgüzar dairələri üçün cəlbedici ölkəyə çevrilmişdir.

Əldə olunmuş sabitlik nəticəsində dünyanın bir çox aparıcı ölkələri ilə Azərbaycan arasında qarşılıqlı strateji və tərəfdaşlıq münasibətləri yaradılmışdır və uğurla inkişaf edir. Neft müqavilələrinin və digər müqavilələrin imzalanması, Avropa-Qafqaz–Asiya dəhlizinin formalaşdırılmasına dair beynəlxalq layihələrin həyata keçirilməsi Azərbaycanın minlərlə vətəndaşı üçün iş yerləri təmin etmişdir.

Bununla yanaşı, Azərbaycan bütün dünyaya nümayiş etdirmişdir ki, o, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına, regionun bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlığa yönəldilmiş sülhsevər siyasət aparır.

Bütün bu deyilənlər beş il əvvəl əldə olunmuş atəşkəs sayəsində qazanılmış nailiyyətlərin yalnız qısa şərhidir. Atəşkəs əldə edilməsəydi, bütün bunlar mümkün olmazdı.

Lakin atəşkəs hələ sülh demək deyildir. Azərbaycan ərazisinin 20 faizindən çoxunun hələ də işğal altında olduğu, bir milyonadək həmvətənimizin yenə də qaçqın və məcburi köçkün vəziyyətində qaldığı bir şəraitdə nə müharibə, nə də sülh vəziyyəti bizi heç cür qane edə bilməz. Ona görə də biz münaqişənin danışıqlar yolu ilə dinclikllə tənzimlənməsi, işğal edilmiş ərazilərin azad olunması və həmvətənlərimizin doğma yurdlarına qayıtmaları üçün bundan sonra da mümkün olan hər şeyi edəcəyik.

Minsk qrupu çərçivəsində aparılan intensiv danışıqların gedişində və Azərbaycanın iştirak etdiyi bütün beynəlxalq məclislərdə bizim fəal mövqeyimiz sayəsində başlıca məqsədə nail olmaq mümkün olmuşdur: Bizim yorulmaz səylərimiz nəticəsində indi Dünya Birliyi Ermənistan–Azərbaycan münaqişəsi haqqında həqiqəti – yəni Azərbaycanın silahlı təcavüz qurbanı olduğunu bilir. Ermənistanla münaqişənin əvvə-

lində Azərbaycanın düşdüyü informasiya blokadası artıq yarılmışdır və indi Ermənistan münaqişənin gedişini və onun tənzimlənməsinə dair səyləri işıqlandıran beynəlxalq informasiya vasitələri üzərində daha inhisara malik deyildir.

Böyük səylər nəticəsində 1994-cü il Budapeşt zirvə görüşündə belə bir qərar qəbul edildi ki, razılaşma əldə edildikdə ATƏT Ermənistan-Azərbaycan münaqişəsi zonasında sülhün qorunması üzrə çoxmilli əməliyyata başlamağa hazır olacaqdır.

1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə bizim səylərimiz və ATƏT-in üzvü olan 53 dövlətin dəstəyi sayəsində üç prinsip müəyyən edildi və bunlar Ermənistan – Azərbaycan münaqişəsinin ədalətlə tənzimlənməsi üçün beynəlxalq hüquqi baza yaratdı. Bu prinsipləri İslam Konfransı Təşkilatının üzvü olan ölkələr də dəstəkləmişlər. Bütün bunlar o deməkdir ki, indi dünyanın 108 dövləti ATƏT-in Lissabon zirvə görüşünün qərarlarını tamamilə dəstəkləyir. Bu qərarlar münaqişənin aşağıdakı əsasda tənzimlənməsini nəzərdə tutur:

- Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü;
- Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək dərəcəli özünüidarəetmə statusu verilməsi;
- Dağlıq Qarabağın bütün əhalisi üçün təhlükəsizliyə təminat verilməsi.

Təəssüf ki, Ermənistanın və münaqişənin davam etməsində maraqlı olan qüvvələrin qeyri-konstruktiv mövqeyi hələlik münaqişənin tənzimlənməsinə nail olmağa imkan verməmişdir. Lakin biz əminik ki, bütün maneələrə baxmayaraq, sülh əldə olunacaq və Cənubi Qafqaz regionunun xalqları sabitlik və təhlükəsizlik şəraitində inkişaf etmək imkanı əldə edəcəklər.

Azərbaycanın prezidenti kimi, mən bu gün bəyan edirəm ki, Azərbaycan Respublikası bundan sonra da, Ermənistan-Azərbaycan münaqişəsinin hərtərəfli tənzimlənməsinə nail olunanadək atəşkəs rejiminə dönmədən əməl edəcəkdir.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA MÜALİCƏSİ UĞURLA BAŞA ÇATMIŞDIR

15 may 1999-cu il

Amerika Birləşmiş Ştatları Ohayo ştatının Klivlend şəhərinin klinikasında müalicəsini uğurla başa çatdıran Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin səhhəti tam yaxşıdır. Dövlətimizin başçısı əvvəlki kimi fəal həyat tərzi keçirir, daim respublikamızın vəziyyəti ilə maraqlanır. Prezident Heydər Əliyev imkan yarananda gəzintiyə çıxır, xarici vətəndaşlarla söhbət edir.

Mayın 15-də Azərbaycan prezidenti Heydər Əliyev «Omni» hotelinin mağazası ilə tanış olmuş, burada satılan malların çeşidi, qiyməti ilə maraqlanmışdır. Prezident Heydər Əliyev töhfələrin yüksək zövqlə hazırlandığını xüsusi qeyd etmişdir. Qonaqlara və alıcılara təklif olunan malların keyfiyyətinə böyük diqqət yetirən respublikamızın rəhbəri Azərbaycanda da yüksək keyfiyyətli hədiyyələr istehsalının təşkilini vacib saydığını bildirmişdir.

Dövlətimizin başçısı Heydər Əliyev demişdir ki, hər bir ölkənin istehsal etdiyi yüksək keyfiyyətli, rəqabət qabiliyyətli məhsullar həmin ölkənin dünya bazarında tanınmasında, ona iqtisadi marağın güclənməsində böyük rol oynayır. Məhz buna görə də ölkəmizdə istehsal olunan malların keyfiyyətinə xüsusi diqqət yetirməliyik.

Azərbaycan prezidenti hotelin mağazasında xidmət səviyyəsindən də razı qalmışdır. Burada satıcılar məhsulların seçil-

məsində alıcılara kömək göstərir, məsləhətlər verirlər, bu da ölkə və onun əhalisi haqqında qonaqlarda xoş təəssürat yaradır.

Mağaza ilə tanışlıqdan sonra prezident Heydər Əliyev orada çalışanlara təşəkkürünü bildirmişdir.

* * *

Azərbaycan prezidenti Heydər Əliyev «Omni» hotelinin dəhlizlərindəki portretlərlə də maraqlanmışdır. O, Klivlend klinikasının yaradıcısının, Birləşmiş Ştatların həyatında mühüm rol oynamış şəxsiyyətlərin portretlərinə xüsusi maraqla baxmışdır. Ölkəmizin rəhbəri portretlər haqqında verilən məlumatları diqqətlə dinləmişdir.

MƏŞHUR MÜĞƏNNİ YAQUB ZURUFÇU İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Klivlend şəhəri, «Omni» hoteli

16 may 1999-cu il

Yaqub Zurufçu: Cənab prezident, Sizinlə görüşmək mənə böyük şərəfdir. Səhhətinizin yaxşı olduğunu görmək isə məni olduqca sevindirir. Mən Sizə bütün dünya azərbaycanlılarının sonsuz məhəbbətini, hörmət və ehtiramını, xoş arzularını çatdırmaq istəyirəm. Sizi xoş əhval-ruhiyyədə görməkdən böyük fərəh duyuram, sevincimin həddi-hüdudu yoxdur.

Heydər Əliyev: Çox sağ olun. Sizi görməyimə çox şadam. Xoş sözlərinizə görə də təşəkkürümü bildirirəm.

Yaqub Zurufçu: Cənab prezident, biz Sizinlə fəxr edirik. Sizə hörmətimizin, məhəbbətimizin sonu yoxdur. Sizi belə gözəl görməyimdən çox məmnunam. Cərrahiyyə əməliyyatının uğurla nəticələnməsinə görə də Sizi təbrik edirəm.

Heydər Əliyev: Səmimi sözlərinə və məni ziyarət etdiyinə görə sənə minnətdaram. Çox sağ ol. Mən də səni çox istəyirəm. O gün səni yada salmışdıq. Erten Paşa ilə «Aman ayrılıq» mahnısını xatırladıq. Dedim ki, o mahnını mən çox eşitmişəm. «Aman ayrılıq» mahnısını Yaqub Zurufçudan başqa ikinci bir oxuyan yoxdur.

---

* Görüşdə millət vəkili, ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev, ölkəmizin ABŞ-dakı səfiri Hafiz Paşayev və digər rəsmi şəxslər iştirak edirdilər.

Yaqub Zurufçu: Sizin söhbətinizi eşitmək mənə xoşdur, cənab prezident. Onu da deyim ki, Sizin müalicənizin uğurla başa çatması Amerikada yaşayan soydaşlarımız tərəfindən böyük sevinclə qarşılanıb. Bu münasibətlə hətta şənliklər də keçirilib. Həmvətənlərimiz Sizə cansağlığı, uzun ömür arzulayırlar.

Heydər Əliyev: Çox sağ olun, Sizin sözləriniz mənə böyük məmnunluq gətirir. Çünki mən də həmvətənlərimi, bütün Azərbaycan xalqını, dünyanın hər bir guşəsində yaşayan azərbaycanlıları çox sevirəm.

Yaqub Zurufçu: Biz də Sizi çox sevirik, cənab prezident. Allah Sizdən razı olsun. Sənətimə verdiyiniz yüksək qiymətə görə də təşəkkür edirəm. O mahnının kassetini gətirmişəm, hədiyyə olaraq Sizə verirəm. Həmişə ayaq üstə olasınız. Bizim vəzifəmiz öz sahəmiz üzrə yaxşı işləməkdir. (Sonra Yaqub Zurufçu pianino arxasına keçdi və «Aman ayrılıq» mahnısını özünəməxsus ustalıqla ifa etdi).

Heydər Əliyev: Çox sağ olun. Siz həmişəki kimi, bəlkə də daha gözəl ifa etdiniz. Təşəkkür edirəm. Həm oxumağınıza, həm də mənə göstərdiyiniz sonsuz hörmət və ehtirama görə. Amerikada yaşayan soydaşlarımıza mənim salamımı və istəyimi çatdırmağınızı xahiş edirəm. Onların həyatı, işi, fəaliyyəti məni həmişə maraqlandırıb. Sizə də, həmvətənlərimə də dərin minnətdarlığımı bildirirəm. Bir daha təşəkkür edirəm. Sağ olun.

Yaqub Zurufçu: Sağ olun, cənab prezident. Var olun.

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV KLİVLENDDƏ GƏZİNTİDƏ OLMUŞDUR

16 may 1999-cu il

Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərində müalicəsinin uğurla başa çatdıran Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin səhhəti sürətlə yaxşılaşmaqdadır.

Ölkəmizin rəhbəri uzaq Amerikada müalicə olunduğu günlərdə doğma Azərbaycan barədə düşünür, tez-tez respublikamızla əlaqə saxlayır. Azərbaycanda sabitliyin dönməz olması, vətəndaş? həmrəyliyinin daha da güclənməsi dövlətimizin başçısına xoş təsir bağışlayır. Dünyanın müxtəlif ölkələrinin dövlət, hökumət rəhbərlərindən, tanınmış siyasi xadimlərindən, məşhur mədəniyyət nümayəndələrindən, sadə peşə sahiblərindən çoxsaylı məktub və teleqramlar alan prezident Heydər Əliyev ona belə səmimi diqqət və qayğı göstərilməsindən son dərəcə məmnun qalır, bu yüksək hörmət etiramdan yeni qüvvə və enerji alır.

Mayın 16-da Azərbaycan prezidenti Heydər Əliyev Klivlenddə gəzintiyə çıxmışdır.

Dövlətimizin başçısı özünün qaldığı «Omni» hotelini gəzdi, ətrafdakı tikililərlə ahəngdar kolmpleks təşkil edən binanın səliqə-sahmanı, dəhlizlərin gözəl dizaynı diqqəti dərhal cəlb edir. Mehmanxananın yaraşıqlı parkı xatırladan həyətində dünyanın müxtəlif yerlərindən gətirilmiş nadir ağaclar və bəzək kolları əkilmişdir. Memarlıq və şəhərsalma məsələlərinə həmişə yüksək zövqlə yanaşan ölkəmizin rəhbəri bu cəhəti müsbət qiymətləndirdi, respublikamızın paytaxtının parklarında, xiya-

banlarında əkilən ağacların, kolların rəngarəngliyinə xüsusi fikir verməyin zəruriliyini vurğuladı. Bununla əlaqədar prezident Heydər Əliyev Bakının Dənizkənarı bulvarının milli parka çevrilməsi haqqında verdiyi fərmanı yada salaraq paytaxtımızın bu istirahət guşəsini necə görmək istədiyi barədə fikirlərini açıqlamaqla bir daha göstərdi ki, onun qəlbi daim doğma Azərbaycandadır.

Ölkəmizin rəhbəri söhbət zamanı dedi ki, respublikamızın zəngin yeraltı və yerustu təbii sərvətləri, əlverişli coğrafi-siyasi mövqeyi, geniş iqtisadi potensialı yaxın illərdə Azərbaycanda əhalinin firavan yaşamasına şərait yaradacaqdır. Bundan ötrü isə bütün imkanlar səfərbər edilməli, ölkəmizin Dünya Birliyinə inteqrasiyası gücləndirilməlidir.

Daha sonra prezident Heydər Əliyev hotelin həyətində bir neçə kilometr piyada gəzdi. Bu zaman o, Birləşmiş Ştatların və Azərbaycanın həyat tərzini müqayisə edir, oxşar və fərqli cəhətləri vurğulayırdı.

TELEVİZİYA VASİTƏSİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Klivlend şəhəri, «Omni» hoteli

17 may 1999-cu il

Əziz həmvətənlər, bacılar, qardaşlar, dostlar!

Sizi Amerika Birləşmiş Ştatlarının Klivlend şəhərindən salamlayıram. Bir müddətdir ki, sizdən ayrı düşmüşəm, çox darıxıram. Bilirəm ki, Vətəndə, Azərbaycanda da məndən ötrü darıxanlar çoxdur.

Mən vətəndaşlarımızdan indiyə qədər çoxlu teleqramlar, məktublar – həm təbrik məktubları, həm də mənə dəstək vermək, dayaq durmaq fikirləri ilə dolu olan məktublar alıram.

Bilirəm ki, xalqımız mənim xəstəliyimlə əlaqədar narahatdır. Mənə göstərdiyiniz bu qayğıya, diqqətə görə hamınıza təşəkkür edirəm, çox sağ olun.

Mənim müalicəm artıq sona çatır. Bir neçə gündür ki, hoteldə, mehmanxanadayam, burada həkimlərin nəzarəti altındayam və tezliklə Vətənimizə, məmləkətimizə qayıdacağam.

Burada məni çox yüksək səviyyədə müalicə ediblər, çox yaxşı qayğı, diqqət göstəriblər. Həm bu klinikanın bütün heyəti, mənim müalicəmlə məşğul olan həkimlər, həm onun rəhbərliyi – hamısı mənə daim qayğı göstəriblər və mənim tezliklə sağalmağım üçün çalışıblar.

Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton mənim buradakı müalicəmi daim nəzarət altında saxlayır, telefonla danışmışıq, mənə çox ürək-dirək veribdir. O da, mən də ümid etmişik ki, mən tezliklə sağlamlığımı bərpa

edəcəyəm və bizim ölkələrimiz arasında indiyə qədər apardığımız müştərək işlər bundan sonra da daha uğurla davam edəcəkdir.

Çox məmnunam ki, mənim burada, xəstəxanada, indi də hoteldə olduğum dövrdə ölkəmizdə insanlar rahat yaşayır, ictimai-siyasi sabitlik bərqərardır, heç bir problem yoxdur. Məmnunam ki, mənim hökumətim, Milli Məclis, Nazirlər Kabineti, Prezident Aparatı, nazirlər, yerli icra orqanlarının hamısı öz işi ilə məşğuldur. Bunlar hamısı bir daha onu göstərir ki, biz Azərbaycanda qanun-qayda yarada bilmişik, ölkəmizdə sabitlik təmin edilibdir və hər kəs öz işi ilə müşğul olaraq öz vəzifəsini yerinə yetirir. Bu günlər mən ölkədə olduğumdan bəlkə də daha çox çalışanlara, Vətənimizin bu günü və gələcəyi üçün öz səylərini əsirgəməyənlərə təşəkkür edirəm.

Mən inanıram ki, bizim respublikamızın gələcəyi çox gözəldir. Mən burada olduğum zaman çox düşüncələr etmişəm, çox şeylər haqqında düşünmüşəm. İnanıram ki, biz qarşımızda duran vəzifələrin hamısını yerinə yetirəcəyik, hamısının öhdəsindən gələcəyik və ölkəmiz, xalqımız üçün ən əsas məsələ olan Ermənistan–Azərbaycan münaqişəsinə son qoyacağıq. Mən buna tam inanıram.

Mən burada olarkən ölkəmiz, insanlar haqqında çox düşünürəm, xüsusən yerindən-yurdundan didərgin düşmüş, çadırlarda ağır vəziyyətdə yaşayan soydaşlarımız haqqında çox düşünürəm.

Əziz dostlar, mən sizi xüsusi salamlayıram. Mən bilirəm ki, sizin vəziyyətiniz ağırdır. Ancaq qara günün ömrü gödəkdir. Hesab edirəm ki, bu günlər arxada qalacaqdır. Sizə xüsusi təşəkkür edirəm ki, siz mənimlə çox maraqlanırsınız, mənim tezliklə Vətənə dönməyimi arzulayırsınız.

Mənim əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl bu gün mənə yenidən telefon etdi. Çox səmimi, mehriban söhbətimiz oldu. Bildirmək istəyirəm ki,

mən burada olarkən prezident Süleyman Dəmirəl mənə daim qayğı, diqqət göstərir, Türkiyə–Azərbaycan dostluğunun, qardaşlığının nə qədər etibarlı, sarsılmaz olduğunu bir daha nümayiş etdirir.

Mən bundan çox məmnunam.

Bu gün prezident Süleyman Dəmirəl məni buradan yola düşərkən Türkiyəyə gəlməyə dəvət etdi, gəlib Türkiyədə bir az dincəlməyimi xahiş etdi. Mən bu qardaşlıq dəvətini böyük minnətdarlıq hissi ilə qəbul etdim. Yəqin ki, yolüstü bir müddət Türkiyədə olacağam, ondan sonra isə Vətənə gələcəyəm.

Mən indi ölkəmizdə sabitliyin, rahatlığın olmasından bir daha, həddindən ziyadə razıyam. Bütün bu işləri təşkil edənlərə, yaradanlara, hər bir vətəndaşımıza öz hörmət, ehtiramımı bildirirəm.

Bu günlər mən bir daha düşündüm ki, bizim xalqımızın birliyi yaranıbdır və indi heç kəs bu birliyi sındıra bilməz, heç kəs onu poza bilməz. Bizim hamımızın borcumuz, vəzifəmiz bu birliyi, həmrəyliyi daha da yüksəklərə qaldırmaq və ölkəmizi daha da yüksəltməkdir. Mən inanıram ki, biz bunlara nail olacağıq.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Hər birinizə işinizdə uğurlar, ailə səadəti arzulayıram. Arzu edirəm ki, heç biriniz heç vaxt xəstələnməyəsiniz, heç biriniz heç vaxt xəstəxanaya düşməyəsiniz. Sizə bunları arzulayıram. Sağ olun, tezliklə görüşlərə qədər. Sağ olun.

May ayının 18-də saat 16.30-da Amerika Birləşmiş Ştatlarının dövlət katibi xanım Madelin Olbrayt ABŞ-ın Ohayo ştatının Klivlend şəhərində müalicəsini və istirahətini başa çatdıraraq Vətənə yola düşməyə hazırlaşan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevə telefon zəngi etmişdir.

Prezident Heydər Əliyevin səhhətinin tam yaxşı olmasından çox məmnun qaldığını bildirən xanım Olbrayt demişdir: «Cənab prezident, mən zəng etdim ki, Azərbaycana yola düşməyinizdən əvvəl bir daha vəziyyətinizi öyrənim və Sizə yaxşı yol arzulayım. Biz Sizi böyük ürəkli bir insan, cəsarətli, müdrik bir lider kimi tanıyırıq. Ümid edirik ki, Siz tezliklə Bakıya qayıdaraq başladığınız böyük işləri bundan sonra da davam etdirəcəksiniz və biz əməkdaşlığımızı genişləndirəcəyik».

Azərbaycan prezidenti Heydər Əliyev ilə Vaşinqtonda keçirdiyi təkbətək görüşdən və Ermənistan prezidenti ilə birgə görüşdən razılıqla söhbət açan xanım Olbrayt Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün belə görüşlərin davam etdirilməsinin, intensivliyinin və səmərəliliyinin artırılmasının vacib olduğunu vurğulamışdır. Münaqişənin tezliklə həllinə nail olmaq üçün Amerika Birləşmiş Ştatlarının daha fəal rol oynayacağı barədə Vaşinqtonda prezident Heydər Əliyevlə görüşündə verdiyi sözə sadiq qaldığını nəzərə çarpdıran dövlət katibi xanım Madelin Olbrayt ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesinə təkan vermək məqsədi ilə cənab Sestanoviçi bu yaxınlarda Azərbaycana göndərəcəyini bildirmişdir.

Xanım Olbrayt cənab Sestanoviçin Azərbaycanın rəsmi dairələri ilə keçirəcəyi görüşlərin mühüm nəticələr verəcəyinə ümidvar olduğunu qeyd etmişdir.

Azərbaycan-Amerika əməkdaşlığının sürətlə inkişaf etməsində görkəmli dövlət xadimi Heydər Əliyevin böyük xidmətləri olduğunu nəzərə çarpdıran xanım Olbrayt daha sonra demişdir: «Cənab prezident, biz Sizinlə ölkələrimiz arasında bütün

sahələrdə qarşılıqlı faydalı əlaqələrin daha da möhkəmlənməsi və inkişaf etməsi üçün birgə fəaliyyəti bundan sonra da davam etdirəcəyik. Cənab prezident, biz Sizinlə sıx əlaqələrimizi və dostluq münasibətlərimizi çox yüksək qiymətləndiririk. İnanıram ki, aramızda yaranmış qiymətli və dəyərli münasibətlər bundan sonra daha da dərinləşəcəkdir».

Azərbaycan prezidenti Heydər Əliyev ona göstərilən diqqət və qayğıya görə prezident Bill Klintona, xanım Olbrayta və ABŞ hökumətinin digər üzvlərinə dərin minnətdarlığını və təşəkkürünü bildirmiş və dövlət katibinin bu telefon zəngindən çox məmnun qaldığını vurğulamışdır.

Bir neçə saatdan sonra Amerikadan ayrılacağını bildirən prezident Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintona, vitse-prezident Albert Qora və dövlət katibi xanım Olbrayta təşəkkür məktubları göndərdiyini nəzərə çarpdırmışdır.

Dövlətimizin başçısı Klivlend şəhərində müalicəsinin və istirahətinin şəxsən prezident Bill Klintonun və ABŞ hökumətinin daimi nəzarəti və qayğısı altında keçməsini yüksək dəyərləndirərək, bu hörmət və ehtirama görə onlara bir daha təşəkkürünü bildirmiş, müalicəsinin müvəffəqiyyətlə başa çatmasından razılıqla söhbət açmışdır.

Prezident Heydər Əliyev prezident Bill Klintonla və xanım Olbraytla Vaşinqtonda keçirdiyi görüşlərə xüsusi əhəmiyyət verdiyini vurğulamışdır. Azərbaycan prezidenti ilə Ermənistan prezidentinin görüşünü təşkil etdiyinə görə xanım Olbrayta təşəkkür edən dövlətimizin başçısı ümidvar olduğunu bildirmişdir ki, ABŞ-ın fəal rolu, prezident Bill Klintonun və dövlət katibi xanım Olbraytın yaxından köməyi ilə Qafqaz bölgəsində tezliklə sülh və əmin-amanlıq bərqərar olunacaqdır.

Cənab Sestanoviçin Azərbaycana qarşıdakı səfərinə böyük ümidlər bəslədiyini qeyd edən prezident Heydər Əliyev onun

görüşlərinin səmərəli keçməsi üçün respublikamızın müvafiq dövlət orqanlarına lazımi tapşırıqlar verəcəyini bildirmişdir.

Prezident Süleyman Dəmirəlin dəvəti ilə bir neçə saatdan sonra qısamüddətli istirahət üçün dost Türkiyə Respublikasına yola düşəcəyini bildirən prezident Heydər Əliyev ABŞ-da olarkən ona göstərilən yüksək ehtiramı və qayğını heç vaxt unutmayacağını vurğulamışdır.

Amerika dövlətinin başçısı ilə bu günlərdə telefonla danışdığını xatırladan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev onun səmimi salamlarını və təşəkkürlərini prezident Bill Klintona çatdırmağı xanım Olbraytdan xahiş etmişdir.

Telefon danışığı zamanı ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barəsində də fikir mübadiləsi aparılmışdır.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİLL KLİNTONA

Hörmətli cənab prezident, aprel ayının 24-25-də Vaşinqtonda NATO-nun əlli illik yubileyinə həsr olunmuş sammitin yüksək səviyyədə təşkil olunması və əla keçməsi münasibətilə Sizi təbrik edirəm, mənə və Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm.

Vaşinqton sammiti NATO-nun böyük gələcəyi olduğunu bir daha nümayiş etdirdi. Mən bu tədbirlərdə iştirak etməyimdən və Sizinlə görüşməyimdən çox məmnun oldum. NATO-nun əlli illik yubileyində müstəqil Azərbaycan Respublikasının prezidentinin iştirakı və suveren Azərbaycan dövləti adından çıxış etməsi xalqımız üçün tarixi bir hadisə oldu.

Fürsətdən istifadə edərək bir daha bildirirəm ki, biz dünyada sülhün, əmin-amanlığın və sabitliyin təmin olunmasında NATO-nun rolunu yüksək qiymətləndirir və NATO-nun Vaşinqton sammitində qəbul olunmuş yeni strategiyasını dəstəkləyirik. Avropa və Atlantika məkanında, o cümlədən, Qafqaz regionunda və bütün dünyada təhlükəsizliyin və dinc yanaşı yaşamanın təmin olunması kimi xeyirxah bir missiyanın həyata keçirilməsi işində Sizə və NATO-ya yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

Vaşinqtona aprel ayının 22-dən başlanan səfərim zamanı Sizin administrasiyanın nümayəndələri, senatorlar və konqresmenlər ilə çoxsaylı görüşlərimiz və səmərəli danışıqlarımız oldu. Zənnimcə, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətləri və qarşılıqlı faydalı əlaqələri bütün sahələrdə inkişaf etdirmək üçün xeyli iş görə bildik.

Aprel ayının 27-də Amerika Birləşmiş Ştatları Senatının binasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən üç zəngin neft yatağının birgə işlənməsi barədə ARDNŞ ilə Amerikanın «Eksson», «Mobil» və «Monkrift oyl» şirkətləri arasında imzalanmış yeni neft kontraktlarını xüsusilə qeyd etmək istəyirəm. Biz Xəzər hövzəsinin zəngin enerji ehtiyatlarının Amerika Birləşmiş Ştatlarının və dünyanın ən böyük neft və qaz şirkətləri ilə birgə istismar olunması və dünya bazarına etibarlı, təhlükəsiz yollarla ixrac edilməsi sahəsində Sizin administrasiyanız və Amerika şirkətləri ilə sıx əməkdaşlığımızı bundan sonra daha da artıracağıq.

Sizinlə görüşümüz zamanı Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həll olunması barədə söylədiyiniz fikirlər məni ruhlandırdı. Ümidvaram ki, münaqişənin danışıqlar yolu ilə aradan qaldırılması və Ermənistan ilə Azərbaycan arasında möhkəm sülhün yaradılması üçün Amerika Birləşmiş Ştatları ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi öz fəaliyyətini artıracaqdır.

Əminəm ki, ölkələrimiz arasında çoxtərəfli faydalı iqtisadi, siyasi əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi 1997-ci il avqustun 1-də Ağ evdə Sizinlə imzaladığımız birgə bəyanatda da qeyd olunan dövlətlərimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Möhtərəm prezident, Vaşinqtondakı görüşlərim başa çatdıqdan sonra Ohayo ştatının Klivlend şəhərinə gəldim. Sizin ölkənizdə olmağımdan istifadə edərək həkimlərin məsləhəti ilə Klivlend klinikasında əvvəlcə müayinədən keçdim, sonra isə ürəyimdə cərrahiyyə əməliyyatı aparıldı.

Burada müalicə olunduğum zaman şəxsən hiss etdim ki, Klivlend klinikası dünyanın ən böyük tibb mərkəzlərindən biridir. Müasir tibb elminin və texnikasının əldə etdiyi ən yüksək nailiyyətlər bu klinikada cəmləşibdir. Cərrah Brüs Laytlın və

kardioloq Murat Tuzçunun rəhbərlik etdikləri həkimlər qrupunun və tibb heyətinin yüksək peşəkarlığı məni heyran etdi. Ümumiyyətlə, Klivlend klinikasında müalicə olunan xəstələrə göstərilən yüksək tibbi xidmət məni valeh etdi və burada hökm sürən dostluq, mehribanlıq və qayğıkeşlik əhval-ruhiyyəsi tezliklə sağalmağıma kömək etdi. İndi özümü lap yaxşı hiss edirəm. Həkimlərin dediyinə görə, ürək-damar sisteminin bütün göstəriciləri normaldır.

Bütün bunlara görə Klivlend klinikasının rəhbərliyinə, orada çalışan və şərəfli əməyi ilə insanlara şəfa verən, həyat bəxş edən minlərlə həkimə və tibb heyətinə dərin minnətdarlığımı bildirirəm.

Klivlend klinikasında müalicədə olunduğum dövrdə mənə göndərdiyiniz səmimi təbrik məktubuna, etdiyiniz telefon zənginə, göstərdiyiniz diqqət və qayğıya görə bir daha Sizə təşəkkürümü bildirir, Sizin administrasiyanızın mənə bəslədiyi yüksək hörmət və ehtirama görə dərin minnətdarlığımı çatdırıram.

Sizin qayğıkeşliyiniz, həssaslığınız və insanpərvərliyiniz, mənə göstərdiyiniz dostluq münasibəti şəxsiyyətinizə olan hörmət və ehtiramımı daha da yüksəklərə qaldırdı.

Sizi əmin edirəm ki, mən bu dostluğa sadiq qalacağam, Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında olan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etməsi və möhkəmlənməsi üçün bundan sonra da var qüvvəmlə çalışacağam.

Sizin gözəl ölkənizdən yola düşərkən bir daha Sizə hörmət və ehtiramımı bildirir, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik diləyir və gələcək işlərinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

Səmimiyyətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Klivlend şəhəri, *18 may 1999-cu il*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ VİTSE-PREZİDENTİ CƏNAB AL.QORA

Amerika Birləşmiş Ştatlarının Ohayo ştatının Klivlend klinikasında müalicə olunduğum zaman mənə göndərdiyiniz səmimi məktuba, göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkürümü bildirirəm.

Əminəm ki, ölkələrimiz arasında qarşılıqlı faydalı dostluq əlaqələrini və strateji tərəfdaşlıq münasibətlərini daha da genişləndirmək və inkişaf etdirmək məqsədi ilə Sizinlə birgə səylərinizi bundan sonra da davam etdirəcəyik.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Klivlend şəhəri, *18 may 1999-cu il*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ XANIM MADELİN OLBRAYTA

Hörmətli xanım Olbrayt, aprel ayının 24–25-də Vaşinqtonda NATO-nun əlli illik yubileyinə həsr olunmuş sammitin uğurla keçməsi münasibətilə Sizi təbrik edirəm.

Müstəqil Azərbaycan Respublikasının prezidenti kimi, NATO-nun əlli illik yubileyi sammitində iştirak etməyimdən məmnun oldum.

Biz NATO ilə «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığımıza böyük əhəmiyyət veririk və öz tərəfimizdən Azərbaycan ilə NATO arasındakı münasibətlərin daha da dərinləşməsi üçün əlimizdən gələni edəcəyik.

Biz dünyanın müxtəlif bölgələrində baş verən hərbi münaqişələrin aradan qaldırılması, o cümlədən Qafqaz regionunda sülhün, sabitliyin və əmin-amanlığın bərqərar olunması sahəsində Amerika Birləşmiş Ştatlarının göstərdiyi səyləri alqışlayırıq. Bu baxımdan Sizin təşəbbüsünüz və iştirakınızla Vaşinqtonda Azərbaycan, Ermənistan və Gürcüstan prezidentlərinin görüşünün keçirilməsini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, Cənubi Qafqaz regionunda sülhün və əmin-amanlığın bərqərar olunması üçün çox mühüm əhəmiyyət kəsb edən belə görüşləri gələcəkdə də davam etdirmək lazımdır.

Aprel ayının 26-da Dövlət Departamentində Sizinlə keçirdiyimiz təkbətək görüşü və Sizin iştirakınızla Ermənistan prezidenti ilə keçirdiyimiz görüşü xüsusilə əhəmiyyətli hesab edirəm.

Biz Ermənistan ilə Azərbaycan arasında olan münaqişənin tezliklə sülh yolu ilə həll olunması üçün Amerika Birləşmiş

Ştatlarının ATƏT-in Minsk qrupunda daha fəal rol oynamasını arzu edirik. Bu baxımdan danışıqlar prosesini irəli aparmaq və tərəflər arasında inamı bərpa etmək üçün irəli sürdüyünüz təklifləri bəyənirəm. Münaqişənin tezliklə dinc yolla həll olunmasına kömək etmək üçün Sizin şəxsən səylər göstərməyə hazır olmağınızı alqışlayıram. Həm Sizinlə keçirdiyimiz ikitərəfli görüş zamanı, həm də Ermənistan prezidentinin iştirakı ilə üçtərəfli görüşümüz zamanı münaqişənin həllinə dair ABŞ-ın mövqeyini qətiyyətlə bildirməyiniz bizi ruhlandırmışdır.

Münaqişənin sülh yolu ilə həll olunması üçün Sizin bəyan etdiyiniz mövqe, yəni Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal olunmuş torpaqların azad olunması, qaçqınların öz doğma yurd-yuvalarına dönməsi və Dağlıq Qarabağa yüksək özünüidarəetmə statusunun verilməsi bizim mövqeyimiz ilə tam üst-üstə düşür. Ona görə də biz münaqişənin bu prinsiplər əsasında tezliklə həll olunması üçün hər cür əlavə səylər göstərməyə hazırıq.

Biz münaqişəyə son qoyulması üçün ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi ABŞ-a böyük ümidlər bəsləyirik. Ermənistan ilə Azərbaycan arasında uzun sürən möhkəm sülhün yaradılması üçün ABŞ-ın Minsk qrupundakı fəaliyyətini daha da artırmasını istəyirik.

Biz ölkələrimiz arasında iqtisadi münasibətlərin bütün sahələrdə genişləndirilməsini arzu edirik. Məmnuniyyətlə bildirmək istəyirəm ki, enerji sektorunda əməkdaşlığımız çox uğurla davam edir. Hesab edirəm ki, aprel ayının 27-də Amerika Birləşmiş Ştatları Senatının binasında ARDNŞ ilə Amerikanın «Eksson», «Mobil» və «Monkrift oyl» şirkətləri arasında üç yeni neft müqaviləsinin imzalanması bu əməkdaşlığa təzə və güclü bir töhfə olmuşdur. Sizi əmin edirəm ki, ölkələrimiz arasındakı iqtisadi əməkdaşlığı bütün sahələrdə inkişaf etdirmək üçün Azərbaycanda geniş imkanlar vardır.

Hörmətli xanım Olbrayt, Sizin ölkənizdə səfərdə olarkən həkimlərin məsləhəti ilə Ohayo ştatının Klivlend klinikasında əvvəlcə müayinədən keçdim, sonra isə ürəyimdə cərrahiyyə əməliyyatı aparıldı. Müalicə olunduğum zaman mənə göstərdiyiniz diqqətə, qayğıya, hörmətə və ehtirama görə Sizə hədsiz minnətdarlığımı bildirirəm.

NATO-nun balkanlarda həyata keçirdiyi əməliyyatların qızğın bir vaxtında, Kosovo böhranına son qoymaq üçün gərgin danışıqlar apardığınız və çoxsaylı səfərlər etdiyiniz bir zamanda başınızın çox qarışıq olmasına baxmayaraq, vaxt tapıb həm cərrahiyyə əməliyyatından əvvəl, həm də sonra mənə bir neçə dəfə telefon zəngi edərək səhhətimlə maraqlanmağınız, müalicəmin gedişinə şəxsən nəzarət etməyiniz Sizin nə qədər yüksək mənəvi keyfiyyətlərə malik, insanpərvər, qayğıkeş bir insan, əsl sadiq dost olduğunuzu bir daha nümayiş etdirdi. Məni qardaş bilib göstərdiyiniz münasibət canıma güc, qüvvət, ürəyimə təskinlik verdi. Telefon edərək ad gününü təbrik etməyiniz məni çox sevindirdi. Sizin bu qayğıkeşliyinizi heç zaman unutmayacağam.

Sizi əmin edirəm ki, mən bu dostluğa həmişə sadiq qalacağam. Amerika-Azərbaycan dostluğunun, dövlətlərimiz arasında strateji tərəfdaşlıq, müttəfiqlik münasibətlərinin daha da güclənməsi və inkişaf etməsi üçün bundan sonra da heç nəyi əsirgəməyəcəyəm.

Sizin vətəninizi tərk edərək bir daha Sizə ən dərin hörmət və ehtiramımı bildirir, Sizə və ailə üzvlərinizə cansağlığı, uzun ömür və xoşbəxtlik arzulayıram.

Səmimiyyətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Klivlend şəhəri, *18 may 1999-cu il*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLO AZELİO ÇAMPİYƏ

Hörmətli Karlo Azelio Çampi!

Sizi İtaliya Respublikasının prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, ölkələrimiz arasındakı mövcud əlaqələr bundan sonra da xalqlarımızın rifahı naminə dönmədən inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İtaliya xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

18 may 1999-cu il

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB EHUD BARAKA

Hörmətli Ehud Barak!

Sizi İsrail dövlətinin Baş naziri seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Biz ölkələrimiz və xalqlarımız arasında təşəkkül tapmış dostluq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, başçılıq etdiyiniz hökumət Azərbaycan-İsrail əlaqələrinin genişləndirilməsi, ölkələrimiz arasındakı əməkdaşlığın dərinləşdirilməsi sahəsində səmərəli fəaliyyət göstərəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsrail xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

18 may 1999-cu il

Azərbaycan prezidenti Heydər Əliyevin Amerikada müalicəsi və istirahəti başa çatdı. Mayın 18-də Klivlend klinikasının həkimləri və tibb işçiləri «Omni» hotelinə gələrək Azərbaycan dövlətinin başçısı ilə səmimiyyətlə, mehribanlıqla görüşdülər, ona yaxşı yol arzuladılar.

Prezident Heydər Əliyev ona göstərilən diqqət və qayğıya görə klinikanın həkimlərinə və tibb işçilərinə dərin minnətdarlığını, təşəkkürünü bildirdi.

Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev mayın 18-də axşam xüsusi təyyarə ilə ABŞ-ın Klivlend şəhərindən Böyük Britaniyanın paytaxtı Londona yola düşdü.

Respublikamızın prezidenti Heydər Əliyev təyyarə səmaya qalxdıqdan sonra onun salonlarını gəzdi, sərnişinlərlə hal-əhval tutdu, bələdçilərlə səmimi söhbət etdi. Dövlətimizin başçısı sonra pilot kabinəsinə keçdi və heyətin üzvləri ilə mehribanlıqla görüşdü. Təyyarəçilər Azərbaycan prezidentini böyük ehtiram və hörmətlə qarşıladılar, görkəmli dövlət xadimi Heydər Əliyevlə görüşdən şərəf duyduqlarını bildirdilər. Onlar dedilər ki, cənab prezident, Siz dünyanın çox məşhur dövlət xadimlərindən birisiniz. Biz Sizin haqqınızda çox oxumuşuq. Böyük bir şəxsiyyətin belə sadə, mehriban bir insan olduğunu görmək bizi ürəkdən sevindirir.

Prezident Heydər Əliyev səmimi sözlərə görə onlara təşəkkür etdi, ömürlərinin böyük bir hissəsini səmada keçirən, insanlara layiqli xidmət göstərən təyyarə heyətinin üzvlərinə möhkəm cansağlığı, işlərində müvəffəqiyyətlər arzuladı.

Mayın 19-da təyyarə Londonun Hitrou hava limanında yerə endi. Azərbaycan prezidenti Heydər Əliyevi bu beynəlxalq hava limanında Böyük Britaniya hökumətinin yüksək vəzifəli şəxsləri və ölkəmizin İngiltərədəki səfiri qarşıladılar.

Dövlətimizin başçısı Heydər Əliyev Hitrou hava limanından onun üçün ayrılmış iqamətgaha gəldi.

TÜRKİYƏ RESPUBLİKASININ BÖYÜK BRİTANİYADAKI SƏFİRİ ÖZDƏM SANBER İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

19 may 1999-cu il

London

Özdəm Sanber: Əziz cümhur başqanım, Sizin səhhətinizin yaxşı olduğunu gördüm, çox məmnun qaldım. Allah Sizi daha gümrah etsin. Sayın cümhur başqanımızın da Sizə gözəl dilәkləri var. İnşallah, bu günlərdə onunla görüşəcəksiniz.

Heydər Əliyev: Təşəkkürümü bildirirəm.

Biz Vaşinqtona getdik, orada çox işlər gördük. NATO toplantısında iştirak etdik. Ancaq ondan başqa, mən çox görüşlər keçirdim. Cənab Klintonla, xanım Olbraytla görüşdüm. Sonra xanım Olbrayt Qafqaz cümhuriyyətlərinin – Gürcüstan, Ermənistan və Azərbaycanın prezidentlərini, bir neçə ölkənin – İngiltərə, Fransa, Almaniya, Norveç və Turkiyənin xarici işlər nazirlərini toplamışdı. Biz Qafqazda sülh, əməkdaşlıq yaradılması ilə əlaqədar çox yaxşı toplantı keçirdik.

Sonra xanım Olbrayt Ermənistan prezidentinin və mənim görüşümü təşkil etdi. Bu, təkbətək görüş idi, ancaq sonra üçümüz bir yerdə görüşdük. Xanım Olbrayt bəyan etdi ki, Ermənistan–Azərbaycan münaqişəsi Lissabon sammitində qəbul olunmuş prinsiplər, yəni Azərbaycanın ərazi bütövlüyü, işğal edilmiş torpaqların azad olunması, qaçqınların öz yerinə qayıtması və Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərki-

bində özünüidarə statusu verilməsi prinsipləri əsasında həll edilməlidir. Ermənistan prezidenti ilə iki saatdan çox təkbətək danışdıq.

Mənim başqa da görüşlərim oldu. Çox böyük üç yeni müqavilə imzaladıq. Bunları Senatın binasında, senatorların, konqresmenlərin iştirakı ilə imzaladıq.

Konqresdə, Senatda çox görüşlərim oldu. Bizə qarşı qoyulmuş qadağanı, 907-ci maddəni bilirsiniz. 1992-ci ildə qəbul edilmiş bu maddə ədalətsiz bir şeydir. İndi hələ onu aradan götürə bilməmişik. Bu barədə çox danışdıq. Prezident Klintonla söhbətimiz oldu. Çox məmnunam.

Ancaq səfər sona çatanda ürəyim məni bir az narahat etdi. Məni orada müayinə etdilər. Mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl 1999-cu ilin yanvar ayından, dörd aydır Erten Paşanı mənə təhkim edibdir. Bilirsiniz, yanvar ayında mən xəstələnmişdim. Ankaraya getdim. Orada Erten Paşa məni müalicə etdi. Bakıya gələndən sonra neçə dəfə gəlib mənə baxmış, müayinə etmişdi. Vaşinqtona Erten Paşa ilə birlikdə getdik. O, həmişə mənim yanımda oldu, dedi ki, geniş müayinə lazımdır və Klivlend klinikasını məsləhət gördü. Çünki Erten Paşa oranı çox yaxşı tanıyır. Türkiyədə də çox tanınır.

Vaşinqtondan oraya getdik. Məni müayinə etdikdən sonra dedilər ki, əməliyyat lazımdır. Mən dedim ki, əgər lazımdırsa, edin. Erten Paşa orada çox xidmətlər göstərdi. Demək olar, yanvar ayından indiyə qədər mənim bütün sağlamlığım Türkiyə Cümhuriyyətinin prezidentinin nəzarəti altındadır və Erten Paşa bilavasitə bu işlərlə məşğuldur.

Əməliyyata razılıq verdim. Əməliyyat yaxşı keçdi. Mənim dostum, qardaşım Süleyman Dəmirəl yenə də məni Türkiyəyə dəvət etdi. Sabah buradan təyyarə ilə uçuruq. Gedirəm orada bir az istirahət edim, Bakıya dönüb işə başlayım.

Özdəm Sanber: Sizi burada görməyi çox arzulayırdım. Sizə həm öz ehtiramımı bildirmək, həm də cümhur

başqanımızın salamlarını yetirmək və Sizi gözlədiyini söyləmək istəyirdim. Siz Azərbaycan–Türkiyə əməkdaşlığının rəmzisiniz. Sayın cümhur başqanımızla Sizin aranızdakı dostluq əlaqələri Türkiyə–Azərbaycan münasibətlərinin daha da genişlənməsinə möhkəm təməl yaradır, töhfə verir. Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr gözəl olduqca Qafqazda və bütün bölgədə əlaqələr daha geniş şəkil alacaqdır. Çünki Türkiyə və Azərbaycandakı sabitlik Qafqazın sabitliyi, bu isə öz növbəsində bölgədə sabitlik deməkdir.

Şükürlər olsun ki, Sizi çox yaxşı görürük. Sizə daha sağlam olmağınızı və uzun illər ömür arzulayırıq. Türk xalqı Sizi çox yaxından tanıyır, Sizə, Azərbaycanın dövlət adamlarına hörməti sonsuzdur. Azərbaycan ilə Türkiyə arasında əlaqələr çox təbiidir. İnşallah, qarşıdakı dövrdə biz birlikdə böyük işlər görəcəyik. Türkiyədə sabitlik olacaqdır.

Burada, Londonda hörmətli səfir Mahmud Məmmədquliyev ilə bizim birgə təşəbbüslərimiz var. Məsələn, son vaxtlar burada Türkiyə, Transqafqaz və Orta Asiya parlament qrupu yaradılıbdır. Bu qrup ingilis və türk iş adamlarından, ingiltərəli dostlarımızdan, parlament üzvlərindən ibarətdir. Mətbuat nümayəndələri də çoxdur, Türkiyə, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Qazaxıstanı təmsil edirlər. Aramızda bir az türkcə, ancaq təbii ki, əsasən ingiliscə danışırıq. Qrupa İngiltərə parlamentinin deputatı başçılıq edir. Keçirdiyimiz toplantılarda adı çəkilən ölkələrdəki vəziyyət barədə məlumat verilir. Deyək ki, Azərbaycandakı son iqtisadi məsələlər, Türkmənistandakı işlər, Türkiyədəki yeniliklər və sairə haqqında danışırıq. Daha çox hansı məsələ maraqlandırırsa, o barədə söhbət aparırıq. Məsələn, neft boru kəmərlərindən danışırdıq. Bilirsiniz ki, buradakı bütün neft şirkətlərinin mərkəzi Londondur.

Yəni bununla ölkələrimizi burada daha çox tanıtmaq imkanı əldə edirik. Bu haqda sizə məlumat vermək istəyirdik.

H e y d ə r Ə l i y e v: Çox gözəl təşəbbüsdür, mən bunu bəyənir, dəstəkləyirəm. Siz də, bizim səfirimiz də çox gözəl iş görmüsünüz. Bu işi davam etdirmək lazımdır. Ümumiyyətlə, İngiltərəni Qafqaza daha da yaxınlaşdırmaq, cəlb etmək lazımdır. Keçən il mən burada rəsmi səfərdə olduğum zaman bir çox sazişlər imzaladıq. Baş nazir Toni Bleyr də, xarici işlər naziri Robin Kuk da dedilər ki, biz Azərbaycandakı səfirliyimizin işçilərinin sayını iki dəfə artırırıq, çünki orada işlərimiz çoxalıbdır. İndi Vaşinqtonda Robin Kuk ilə görüşəndə mənə birinci sözü o oldu ki, icazə vermişəm, İngiltərənin Azərbaycandakı səfirliyinin işçilərinin sayını iki dəfə artırsınlar. Çünki onlar çox iş görməlidirlər.

Mən də bunu çox məmnuniyyətlə qarşıladım. Orada Toni Bleyrlə də görüşdüm, danışdıq.

Ö z d ə m S a n b e r: İndi Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlaması İngiltərədə yaxşı qarşılanmır. Çünki bu, beynəlxalq hüquq normalarına ziddir. Ona görə biz burada həmişə deyirik ki, bu məsələ Minsk qrupu çərçivəsində sülh yolu ilə həll edilməlidir, bu zaman Qafqazda əmin-amanlıq olacaqdır. Türkiyə bu məsələdə hər vaxt Azərbaycanın yanındadır.

H e y d ə r Ə l i y e v: Mən xəstəxanada və sonra hotelda olduğum zaman prezident Klinton mənə məktub göndərdi, telefonla danışdıq. Xanım Olbrayt məktub göndərdi, telefon etdi, vitse-prezident Qor məktub göndərdi. Oradan yola düşməzdən iki-üç saat öncə xanım Olbrayt mənə yenə zəng etdi, çox geniş danışığımız oldu. Danışıqlarımız əsasən Qafqazda sülhün yaranması, Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması məsələləri barədə idi. Ona görə mən ölkəyə daha çox ümidlə qayıdıram. Çünki hiss etdim və dərk etdim ki, artıq Amerika bu məsələlərə daha da çox girişir və güman edirəm, daha da çox çalışacaqdır.

RUSİYANIN NTV TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

London

19 may 1999-cu il

S u a l: Cənab prezident, özünüzü necə hiss edirsiniz?

C a v a b: Normal, indi özümü yaxşı hiss edirəm.

S u a l: Əməliyyat uğurla keçdi?

C a v a b: Əməliyyat çox uğurla keçdi. Əgər mənim üzərimdə cərrahiyyə əməliyyatının aprelin 29-da aparıldığını, bu gün isə mayın 19-u olduğunu nəzərə alsaq, onda hesab edirəm ki, hər şey normal keçmişdir.

S u a l: Siz Rusiyadakı son dəyişiklikləri, Yevgeni Primakovun istefasını necə qiymətləndirərdiniz? Bu, rusiyalılar üçün ağrılı məsələdir.

C a v a b: Bilirsiniz, nə isə demək mənə çətindir. Əvvəla, ona görə ki, bütün bunlar baş verən vaxtda mən xəstəxanada idim və çox şeyi bilmirdim. Hökumətin istefaya göndərildiyini yeni hökumətdən söhbət getdiyini eşitdikdə mənə məlum oldu ki, Sergey Stepaşinin namizədliyi ortaya çıxmışdır, indi isə deyirlər ki, onun namizədliyini Dumada təsdiq etmişlər. Nə demək olar, Rusiyada nə edilirsə, görünür, Rusiya onları öz milli mənafeləri naminə edir.

S u a l: Bu, ölkələrimiz arasında münasibətlərə hansı şəkildəsə təsir göstərəcəkmi?

C a v a b: Deməzdim ki, təsir göstərəcəkdir, çünki xarici siyasət xəttini əsasən prezident müəyyənləşdirir. Doğrudur, bu məsələdə hökumətin sədri, xarici işlər nazirliyi də iştirak

edirlər. Bir sözlə, Rusiyadakı son dəyişikliklər bizim münasibətlərimizə təsir göstərməyəcəkdir.

S u a l: Cənab prezident, Qafqaza bələd olan bir insan kimi Siz bu regionda indiki vəziyyəti necə qiymətləndirərdiniz? Necə bilirsiniz, Rusiyaya yeni Baş nazir gəldikdən sonra vəziyyət dəyişəcəkmi?

C a v a b: Əlbəttə, ümid etmək olar ki, nə isə yaxşı olacaqdır. Hər şeyin birdən-birə dəyişəcəyini söyləmək çətindir, ona görə ki, Qafqazda vəziyyət çox mürəkkəbdir. Sergey Vadimoviç Stepaşin Qafqazla – Çeçenistanla, Dağıstanla və digər Qafqaz respublikaları ilə artıq neçə illərdir bağlıdır. Fikir vermişəm, təxminən son iki-üç ildə o, nəinki Çeçenistanda, həm də Dağıstanda tez-tez olmuşdur. Dağıstanda vəziyyət çox mürəkkəb idi, bu, bizi də narahat edir. O, vəziyyətə bələddir, onu tanıyırlar, hiss olunur ki, orada adamlar ona meyllidirlər. Onun xüsusən Dağıstanda gördüyü tədbirlər müəyyən nəticələr vermişdir. Bütün bunları nəzərə alaraq hesab edirəm ki, bunun yaxşılığa doğru əhəmiyyəti olacaqdır.

S u a l: Bəs bu regiondakı indiki vəziyyəti necə görürsünüz?

C a v a b: Bilirsiniz, bu regionda vəziyyət həmişə mürəkkəbdir. Mən Bakıdan yola düşən vaxtda, yəni təxminən bir ay bundan əvvəl vəziyyət nisbətən sakit idi.

S u a l: Cənab prezident, Balkan böhranına münasibətiniz necədir? Hesab edirsinizmi ki, bu böhran danışıqlar stolu arxasında həll olunmalıdır? Siz Birləşmiş Ştatlarda oldunuz, orada kimlərlə görüşdünüz, kimlərlə danışıqlar aparıldı? Belqradda yaranmış vəziyyətə Sizin və dövlətinizin münasibəti necədir?

C a v a b: Vaşinqtonda görüşlərim çox oldu. Prezident Bill Klintonla, dövlət katibi Olbraytla, Konqresdə, Senatda bir çox digər adamlarla, nazirlərlə görüşdüm. Biz bu məsələni xüsusi olaraq müzakirə etmədik, bu, NATO-nun 50 illiyini

qeyd etməyə gəlmiş ölkələrin yubiley görüşünün müəyyən bir mövzusu idi.

Prinsipcə isə, harada olmağından asılı olmayaraq, münasibətim belədir: biz dünyada hər bir ölkənin ərazi bütövlüyünə tərəfdarıq. Bununla bərabər, biz etnik təmizləmənin əleyhinəyik, soyqırımın əleyhinəyik. Miloşeviç isə orada əslində etnik təmizləmə aparır və neçə illərdir soyqırım törədir. Əlbəttə, buna əsla biganə qalmaq olmaz. Mənim münasibətim bax, belədir.

S u a l: Rusiyada dəyişikliklərə qayıdıram. Necə bilirsiniz, indi, bütün bu yerdəyişmələrdən, dəyişikliklərdən sonra Balkan böhranı Rusiyanın köməyi ilə həll edilə bilərmi?

C a v a b: Bilirsiniz, - mən bunu Vaşinqtonda da hiss etmişdim, - NATO ilə Rusiya arasında əməkdaşlıq getdikcə inkişaf edir. Mən bunu belə hiss etdim. Hər halda, NATO bu cür əməkdaşlığı çox istəyir. Düşünürəm ki, indi Rusiya da bu böhranın həll olunmasını istəyir və NATO da bu böhranın həll edilməsini istəyir. Zənnimcə, onlar ümumi səylərlə bunu həll edəcəklər.

S u a l: Siz hesab edirsiniz ki, məsələ əvvəl-axır danışıqlar stolu arxasında həll olunacaqdır?

C a v a b: Sözsüz ki, hər hansı münaqişə, hər hansı böhran hansı yollarla inkişaf etsə də, nəticə etibarı ilə danışıqlar stolu arxasında həll olunur. Hesab edirəm ki, nəticə etibarı ilə belə də olacaqdır.

S u a l: Siz Amerikadakı görüşləriniz barədə daha ətraflı danışa bilərsinizmi, kimlərlə görüşdünüz?

C a v a b: Görüşlər lap çox oldu. Mən öz səfərimdən, öz görüşlərimdən çox məmnunam. Səfərin məqsədi aydın idi – digər ölkələrin prezidentləri kimi, biz də NATO-nun 50 illiyinə dəvət edilmişdik. Mən oraya bu tədbirlərdən bir neçə gün əvvəl getmişdim və onlardan sonra da bir neçə gün işlərlə məşğul oldum. Prezident Bill Klintonla görüşdüm, onunla

söhbət etdim. Dövlət katibi xanım Olbraytla görüşdüm, onunla çox görüşümüz oldu. İkitərəfli münasibətlərimizin problemləri, xüsusən Ermənistan–Azərbaycan münaqişəsinin həlli məsələsi haqqında təkbətək görüşümüz oldu. Sonra o, Qafqaz respublikalarının – mən Cənubi Qafqazı nəzərdə tuturam, - Gürcüstan, Ermənistan, Azərbaycan prezidentlərinin, zənnimcə, faydalı görüşünü təşkil etdi. Görüşdə onunla yanaşı, Almaniya, Fransa, İtaliya, Norveç, Türkiyə və məncə, daha bəzi ölkələrin xarici işlər nazirləri də iştirak edirdilər. Biz regionumuzda sülhün və sakitliyin bərpası naminə Cənubi Qafqazda əməkdaşlığın inkişafı üçün nə kimi işlər görülməli olduğu barədə fikir mübadiləsi apardıq. Hesab edirəm ki, bu, çox faydalı görüş idi. Görüşdə hamı – prezidentlər də, bütün nazirlər də çıxış etdilər, öz fikirlərini söylədilər. Belə düşünürəm ki, bu, öz nəticələrini verəcəkdir. Sonra xanım Olbrayt Ermənistan prezidenti ilə görüşümüzü təşkil etdi. Biz əvvəlcə üçlükdə görüşdük – xanım Olbrayt, Ermənistan prezidenti və mən. Sonra o, bizi tərk etdi və biz ikilikdə görüşüb çox ətraflı söhbət etdik. Hər halda, Ermənistanla Azərbaycan arasında münaqişənin dinclikla tənzimlənməsi üçün hər iki tərəfdən yollar axtarılır.

Beş il bundan əvvəl biz atəşkəs haqqında saziş imzalamışıq – bu, mayın 12-də olmuşdur. Bu beş il qəti sülhə gəlmək üçün hər halda, kifayətedici müddətdir. Əlbəttə, bundan ötrü əsas prinsiplər var, - onlar xanım Olbraytın çıxışında təsdiqləndi, - Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlar, - onlar isə ərazimizin 20 faizi qədərdir, - azad olunmalı, bu torpaqlardan məcburi köçkün düşmüş, yəni işğal edilmiş rayonların sakinləri öz yaşayış yerlərinə qayıtmalıdırlar və Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək özünüidarə statusu verilməlidir. Bu prinsiplər ATƏT-in 1996-cı ilin dekabrında keçirilmiş Lissabon zirvə görüşünün sənədlərində

öz əksini tapmışdır. Xanım Olbrayt bu prinsiplər əsasında daha da irəliləməyi təklif etdi. Biz bu təklifi dəstəkləyirik, hesab edirik ki, bu yolla irəliləyə bilərik və nəticələrə nail ola bilərik.

S u a l: Cənab prezident, axırıncı sual. Başa düşürəm ki, Londona səfəriniz qısamüddətlidir. Siz burada görüşlər planlaşdırırdınızmı, keçirdinizmi və görüşlər kimlərlə, hansı məsələlər barəsində oldu?

C a v a b: Xeyr, mən burada görüşlər keçirməyi planlaşdırmamışam. Mən sadəcə olaraq yolüstü burada dayandım, axı uçuş məsafəsi hər halda, uzun idi. Sabah Türkiyəyə yola düşürəm. Türkiyə prezidenti, mənim dostum Süleyman Dəmirəl Amerikada müalicəmə çox böyük diqqət və qayğı göstərirdi, məni müalicədən sonra istirahətə dəvət etdi.

Yeri gəlmişkən, deməliyəm ki, Amerikada mənə son dərəcə böyük diqqət göstərirdilər. Prezident cənab Bill Klintonun özü mənə həm telefonla zəng etdi, həm də məktub göndərdi. Mənim bütün müalicəm onun daimi himayəsi, daimi diqqəti altında idi. Xanım Olbrayt mənimlə bir neçə dəfə telefonla danışdı, vitse-prezident cənab Qor mənə məktub göndərdi. Mən orada çox böyük qayğı ilə əhatə olunmuşdum, buna görə onlara çox minnətdaram. Üzərimdə cərrahiyyə əməliyyatı apardıqları və məni müalicə etdikləri klinika çox yüksək səviyyədədir. Cərrah Brüs Laytl son dərəcə istedadlıdır. Hesab edirəm ki, o, cərrahiyyə əməliyyatını uğurla apardı. Orada mənimlə kardioloq Murat Tuzçu məşğul olurdu. Yeri gəlmişkən, bu cavan adam Türkiyədəndir və orada böyük nüfuz qazanmışdır. Bir sözlə, bütün bunlar mənim mümkün qədər tezliklə ayağa qalxmağıma olduqca müsbət təsir göstərirdi.

M ü x b i r: Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Siz sağ olun ki, televiziyanız mənə belə böyük diqqət yetirir.

* * *

M ü x b i r: Cənab prezident, biz Sizə həmişə böyük hörmət bəsləyirik. Sizə ona möhkəm cansağlığı və fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq. Prezident Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşməyi özüm üçün böyük şərəf sayıram, NTV telekanalı Sizin fəaliyyətizə həmişə böyük diqqət yetirir.

Müsahibəni Rusiyanın
NTV telekanalının müxbiri
Andrey Çerkasov aparmışdır

RUSİYA İCTİMAİ TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

19 may 1999-cu il

London

M ü x b i r: Söz yox ki, hələ o dövrlərlə necə deyərlər, bizim hamımız birlikdə olduğumuz dövrlərlə bağlı tam aydın səbəblərə görə Siz rusiyalılarda, Rusiyanın televiziya tamaşaçılarında xüsusi maraq doğurursunuz. Suallar vermək üçün ORT-yə – Rusiyanın birinci telekanalına imkan yaratdığınıza görə sağ olun. Bizi ən çox maraqlandıran birinci sual, əlbəttə, Sizin ABŞ-a getməyinizlə və Türkiyəyə qarşıdakı səfərinizlə bağlıdır. Lakin insani baxımdan bizi ən əvvəl maraqlandıran budur ki, Siz özünüzü necə hiss edirsiniz? Cərrahiyyə əməliyyatı necə və harada aparıldı?

H e y d ə r Ə l i y e v: Özümü yaxşı, normal hiss edirəm. Əməliyyat aprelin 29-da oldu. Bu gün mayın 19-dur, aradan 20 gün keçibdir. Belə düşünürəm ki, gördüyünüz kimi, bu müddətdə sizi həm qəbul etməyə, həm də suallarınıza cavab verməyə qadirəm. Elə bunun özü çox şey deyir.

S u a l: Amerika hökimləri nə deyirlər?

C a v a b: Mən Amerikaya aprelin hələ 22-də, NATO-nun zirvə görüşü başlanmazdan əvvəl gəlmişdim. Mənim çox görüşlərim, olduqca böyük, gərgin işim oldu, sonra NATO-da tədbirlər başlandı. Bundan sonra mənim yenidən görüşlərim oldu. Bax, orada özümü bir az nasaz, bir az narahat hiss etdim. Həkimlər baxıb dedilər ki, yaxşı olar, müayinədən

keçim. Klivlend klinikasını məsləhət gördülər. O, dünyada çox məşhurdur, bütöv bir şəhərcikdir.

Mən oraya getdim, - bu şəhər Vaşinqtonun yaxınlığındadır, - orada məni müayinədən keçirib dedilər ki, ürəyimdə cərrahiyyə əməliyyatı aparmaq lazımdır. Doğrudur, mən razılaşmadım. Çünki yəqin ki, bilirsiniz, 1987-ci ildə infarkt keçirmişdim. Bundan sonra iki-üç il özümü yaxşı hiss etmədim. Lakin 1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra halım xeyli yaxşılaşdı və 1990-cı ildən 1999-cu ilədək əslində həkimlərsiz yaşadım. Mənim həkimim yox idi və hətta heç bir müayinədən keçməmişdim.

1999-cu ilin yanvarında bronxitdən sonra məndə ağırlaşma baş verdi. Ankaraya getdim, iki həftə orada müalicə edildim. Qayıtdım, normal, çox fəal işləyirdim, özümü çox yaxşı hiss edirdim. ABŞ-da mənə dedilər ki, cərrahiyyə əməliyyatı aparmaq lazımdır.

S u a l: Bu, gərək ki, Debeyki deyildi, başqa bir komanda idi?

C a v a b: Xeyr, Debeyki Hyustondadır. Bu, Klivlend klinikasının böyük bir komandası idi. Orada çoxlu adam çalışır. Məni kifayət qədər cavan, - yeri gəlmişkən, mən bunu hətta güman etmirdim, - lakin çox təcrübəli kardioloq, Türkiyədən olan Murat Tuzçu müayinədən keçirdi. O, məni müayinədən keçirib cərrahiyyə əməliyyatı aparılmasını təklif etdi. Təbii ki, sonra çox təcrübəli cərrah olan Brüs Laytlı dəvət etdilər. Orada aldığım məlumata görə, o, az qala 25 ildir bu klinikada işləyir. Mənim üzərimdə əməliyyatı o apardı. Aprelin 28-də razılıq verdim, aprelin 29-da səhər mənim üzərimdə cərrahiyyə əməliyyatı apardılar.

Hesab edirəm ki, hər şey normal, yaxşı səviyyədə keçdi. Əməliyyatdan sonrakı dövr normal gedir.

S u a l: Siz sabah Türkiyəyə yola düşürsünüz. İnformasiya agentlikləri xəbər vermişlər ki, orada Sizə türk xalqı qarşısın-

da görkəmli xidmətlərə görə Türkiyənin nüfuzlu mükafatını təqdim edəcəklər.

C a v a b: İki ay bundan əvvəl mən Türkiyə Respublikasının banisi Atatürkün adını daşıyan mükafata layiq görülmüşəm. Bu, çox nüfuzlu mükafatdır. Zənnimcə, o, 1986-cı ildə təsis olunmuşdur, sülh uğrunda mübarizəyə görə verilir. Bu, sülh mükafatıdır. Mustafa Kamal Atatürkün məşhur sözləri var: «Yurdda sülh, cahanda sülh». Həmin mükafat bu deviz altında mövcuddur. Orada çox nüfuzlu komitə var. Onlar hər şeyi çox diqqətlə öyrənirlər. Ümumiyyətlə, 1986-cı ildən bəri bütün dövr ərzində onlar 8 belə mükafat veriblər. Mən də bu mükafata layiq görülmüşəm. Yeri gəlmişkən, bu gün mayın 19-da mən Ankarada olmalı idim. Orada Mustafa Kamal Atatürk tərəfindən Türkiyədə qurtuluş hərəkatının başlanması ilə bağlı bayramdır. Həmin gün qeyd edilir. Mükafat da adətən həmin günə iki ay qalmış verilir və o, təqdim olunur. Lakin təəssüf ki, mən bu gün orada deyiləm, həmin mükafatı ala bilməyəcəyəm. Görünür, onu mənə sonra təqdim edəcəklər.

S u a l: Sabah isə Siz uçursunuz...

C a v a b: Sabah mən Türkiyəyə uçuram. Lakin Türkiyə prezidenti, mənim dostum Süleyman Dəmirəlin dəvəti ilə gedirəm. Mən xəstəxanada olarkən o mənə çox böyük qayğı göstərmiş, müalicədən sonra məni istirahət üçün təkidlə Türkiyəyə gəlməyə dəvət etmişdir.

S u a l: Yəni bu, diplomatların dediyi kimi, «qalstuksuz görüşdür»?

C a v a b: Bəli, bəli. Mən Antalyaya, dəniz sahilinə gedirəm.

M ü x b i r: Rusiyalılara tanış yerdir.

H e y d ə r Ə l i y e v: Deyirlər, rusiyalılar Antalyada tez-tez olurlar. Doğrudur, mən görməmişəm, orada heç vaxt olmamışam. Lakin dəvəti qəbul etmişəm və ora uçuram. Belə ki, orada bir az dincələcək, sonra isə Bakıya, Azərbaycana gedəcəyəm.

S u a l: Etiraz etmirsinizsə, bir qədər fəal siyasətdən danışaq. Avropa Balkan yarımadasında hərbi münaqişəyə cəlb olunmuşdur. Yuqoslaviya son illərdə qanlı milli münaqişələr mənbəyinə çevrilibdir. Siz bir çoxlarının potensial təhlükəli region adlandırdığı, çox müxtəlif xalqların yaşadığı və kəskin milli, ərazi problemləri olan Qafqazdakı vəziyyəti necə qiymətləndirirsiniz? Yoxsa belə müqayisə əsassızdır?

C a v a b: Bilirsiniz, müqayisə etmək istəmirəm. Hər regionun öz xüsusiyyətləri var. Burada müqayisə o qədər də düz gəlmir. Bununla belə, mən hazırda Qafqazın mürəkkəb vəziyyətdə olması barədə fikrinizlə tamamilə razıyam. Əvvələn, bilirsiniz ki, hələ 11 il bundan əvvəl Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında münaqişə yaranmışdır. Bu münaqişə nəticəsində erməni silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişlər. İşğal olunmuş ərazilərdən bir milyondan çox azərbaycanlı qovulub və onlar köçkün vəziyyətində, əksəriyyəti çadırlarda yaşayır. Doğrudur, beş il bundan əvvəl, 1994-cü il mayın 12-də biz atəşkəs haqqında saziş bağladıq və beş ildir ki, tam sülhə nail olmaq üçün ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar aparırıq.

Bilirsiniz ki, Gürcüstan ərazisində Abxaziya və Osetiya münaqişələri var. Şimali Qafqazın çətinlikləri, vəziyyəti sizə məlumdur. Əlbəttə, Qafqaz özü-özlüyündə qeyri-adi regiondur, son illərdə isə, şübhəsiz ki, millətlərarası toqquşmalar, müstəqillik cəhdləri və sairə buna gətirib çıxarmışdır. Balkanlarda da vəziyyət son dərəcə mürəkkəbləşmişdir.

Doğrudur, deməliyəm ki, 1992–1993-cü illərdə Azərbaycanda vəziyyət yaxşı deyildi. Əlbəttə, indi bütün Dünya Birliyi, Balkan yarımadasında qayda-qanun yaratmaq istəyən dövlətlər etnik təmizləmənin əleyhinə, bu vəhşiliyin əleyhinə çıxırlar və sair. Ermənistan silahlı birləşmələrinin etnik təmizləmə ilə məşğul olduğu və adamları öz yaşayış yerlərindən didərgin saldıqları, torpaqlarımızı işğal etdikləri vaxtlarda

Azərbaycana qarşı da bu cür vəhşilik olmuşdur. Ola bilsin, o vaxtlar Azərbaycan və Ermənistanla bağlı hallara indiki kimi əhəmiyyət verilməmişdir. Ancaq hesab edirəm ki, münaqişə harada olursa olsun, onu aradan qaldırmaq lazımdır.

S u a l: Lakin bununla əlaqədar Siz razısınızmı ki, NATO indi Kosovoda olduğu kimi, məsələn, haradasa daha yaxında, sizin Qafqaz regionunda sakitləşdirici rolunu oynasın, qayda-qanun yaratsın?

C a v a b: Bilirsiniz, açığını deyəcəyəm, kim bizdə, - mən Cənubi Qafqazı nəzərdə tuturam, - qayda-qanun yarada bilərsə, Ermənistanla Azərbaycan arasında münaqişəni aradan qaldırarsa, biz onları məmnunluqla qəbul edərik. Ona görə ki, bizə sülh gərəkdir. Başa düşürsünüzmü, bizə sülh gərəkdir, bizə əmin-amanlıq gərəkdir. Xalqımız sülh şəraitində yaşamaq istəyir. Biz özümüz beş ildir danışıqlar aparırıq. Düzdür, danışıqları tək aparmırıq. Biz bunu həmsədrləri Rusiya, Birləşmiş Ştatlar və Fransa olan Minsk qrupunun iştirakı ilə edirik. Buna görə də biz hər şeyə hazırıq.

S u a l: Ötən 10 il nəinki coğrafi sərhədləri labüd surətdə dəyişdirmiş, həm də xalqlarımızı bir-birindən bir qədər uzaqlaşdırmışdır Lütfən deyin, Siz indiki vəziyyəti və Müstəqil Dövlətlər Birliyinin perspektivlərini necə təsəvvür edirsiniz? Yoxsa, hesab edirsiniz ki, gələcək hər halda müsəlman dünyasının coğrafi cəhətdən Orta Asiyada, Qafqazda yerləşən ölkələrinin daha kiçik, daha məhəlli ittifaqlarınındır?

C a v a b: Bilirsiniz, heç bir proqnoz vermək istəməzdim. Əgər hər hansı ittifaq, hər hansı birlik iqtisadi inteqrasiyaya, ölkələr arasında qarşılıqlı münasibətlərin yaxşılaşmasına, ən başlıcası isə, möhkəm sülhün bərqərar olmasına xidmət edirsə, məqbuldur. Buna görə də əgər Müstəqil Dövlətlər Birliyi, - doğrudur, o, çox ağır irəliləyir, - ən əvvəl özünün daxilindəki münaqişələrin tənzimlənməsi üçün belə səviyyəyə gəlib çıxarsa, bu, gözəl olardı. Məsələn, mən hələ 1993-cü ildə dövlət

başçılarının görüşü zamanı bəyanat verərək bildirmişdim ki, birliyin daxilindəki münaqişələri ləğv etmək üçün, gəlin qüvvələri hər halda səfərbərliyə alaq. Əgər birliyin daxilində, hər hansı ittifaqın daxilində ölkələr arasında münaqişələr varsa, onda bu birlik möhkəm, etibarlı ola bilməz. Ümumiyyətlə, siz dünyadakı digər ittifaqlara nəzər salsanız, onların daxilində münaqişə edən, bir-biri ilə müharibə aparan ölkələr olduğunu heç yerdə görməzsiniz. Təəssüf ki, bizim birliyimiz bu məsələni həll edə bilmir.

S u a l: Xahiş edirəm deyəsiniz, Siz bu fikirlə razısınızmı ki, Azərbaycanı MDB-nin ən çox qərbpərəst və ya Qərbə meylli ölkələrindən biri adlandırırlar? Yəni iqtisadi əlaqələr vasitəsilə, Xəzər nefti vasitəsilə Britaniya ilə xüsusi əlaqələr yaranıb, Britaniyanın isə ABŞ ilə xüsusi əlaqələri var. Beləliklə, Bakının da təkcə Londonla deyil, həm də Vaşinqtonla xüsusi əlaqələri var. Siz bununla razısınızmı?

C a v a b: Bilirsiniz, müstəqil dövlət olaraq biz öz siyasətimizi belə elan etmişik: biz dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq etmək istəyirik. Başa düşürsünüzmü, biz fərq qoymuruq. Bizə öz iqtisadiyyatımızı inkişaf etdirmək lazımdır, xalqımızın həyat səviyyəsini yüksəltmək lazımdır. Bizim iqtisadi potensialımız, təbii ehtiyatlarımız və bir çox digər sərvətlərimiz var. Digər MDB ölkələrində olduğu kimi, biz də indi bütün bunlardan öz gücümüzlə istifadə edə bilmirik. Buna görə də kimlərlə, necə deyərlər, özümüz üçün faydalı, səmərəli əməkdaşlıq edə biliriksə, onlarla da əməkdaşlıq edirik. Biz Amerika Birləşmiş Ştatları ilə, Avropa ölkələri ilə – Böyük Britaniya, Fransa, Almaniya və təbii ki, MDB ölkələri ilə də əməkdaşlıq edirik. Başa düşürsünüzmü, əsla belə mülahizələr yürütmək olmaz, bir halda ki, biz MDB-dəyik, deməli, bütün dünyadan təcrid olunmalıyıq. Axı MDB-də başlıca tərəfdaşımız olan Rusiya təcrid olunmur. İndi təcrid olmaq hamıya ziyandır. Odur ki, belə mülahizələr

və yeri gəlmişkən, təəssüflər olsun, Rusiyanın kütləvi informasiya vasitələrində verilən belə qiymətlər ədalətsizlikdir. Mən onlarla razı deyiləm.

S u a l: Azərbaycan NATO-nun genişlənməsinə necə baxır? Siz Şimali Atlantika Assambleyasına daxil olmaq istərdinizmi?

C a v a b: Bilirsiniz, siz belə birbaşa sualları əbəs yerə verirsiniz. Ancaq NATO-nun genişlənməsi prinsipcə artıq reallığa çevrilmişdir. NATO-nun genişlənməsinin əleyhdarları olsa da, Avropanın üç dövləti bu təşkilata daxil olmuşdur. Sonra, Şimali Atlantika Assosiasiyasına təxminən 50 ölkə daxildir, oraya bütün MDB ölkələri də daxildir. Yeri gəlmişkən, onların hamısı Vaşinqtonda NATO-nun 50 illiyində təmsil olunmuşdu...

M ü x b i r: Demək olar, hamısı.

H e y d ə r Ə l i y e v: Rusiya istisna olmaqla. Amma Pusiya da təmsil edilə bilərdi... Yadınızdadır ki, bir vaxtlar Parisdə Rusiya ilə NATO arasmda xüsusi xartiya imzalanmışdı. Bu nəyi göstərir? Onu göstərir ki, Rusiya NATO ilə ən əvvəl əməkdaşlıq etmək istəyir. Buna görə də belə düşünmək ədalətli deyildir ki, Rusiya NATO ilə əməkdaşlıq edə bilər, amma başqaları yox.

M ü x b i r: Cavaba görə sağ olun. Əlbəttə, Rusiyada baş verən dramatik hadisələr haqqında Sizin rəyinizi bilmək bizim üçün çox maraqlı olardı. İndi Rusiyanın yeni Baş naziri var – Sergey Stepaşin. O, bir ildən bir qədər az müddətdə üçüncü Baş nazirdir.

H e y d ə r Ə l i y e v: Bilirsiniz, bu, Rusiyanın daxili işidir. Mən bu işə qarışmaq və qiymət vermək istəmirəm. Xalq tərəfindən seçilmiş prezident Yeltsin, hər halda, ölkəyə rəhbərlik edir və öz məsələlərinin həlli üçün müəyyən tədbirlər görür. Əgər o bunu indi etmişdirsə, görünür, daha yaxşı nəticəyə ümid bəsləyir. Biz isə istəyirik ki, Rusiyada vəziyyət yaxşı olsun. Ona görə ki, biz Rusiya ilə çox, olduqca sıx

bağlıyıq. İqtisadi cəhətdən də bağlıyıq, Rusiyada çoxlu azərbaycanlı yaşayır, insani əlaqələr olduqca çoxdur, lap çoxdur. Biz 200 il Rusiya ilə birlikdə olmuşuq. Buna görə də bir neçə ildə, on ildə bir-birindən ayrılmaq qeyri-mümkündür və lazım deyildir. Əgər biz bütün dünya ilə inteqrasiya etmək istəyiriksə, onda nə üçün 200 il birlikdə olduğumuz ölkədən uzaqlaşmalıyıq? Buna görə də biz istəyirik ki, Rusiyada vəziyyət getdikcə yaxşılaşsın. Yeri gəlmişkən, bunu iqtisadi əlaqələrimiz də tələb edir. Məsələn, Rusiyada iqtisadi böhran oldu, bundan biz də çox çətinlik çəkdik. Doğrudur, biz tab gətirdik, Azərbaycanda inflyasiyanın, böhranın inkişaf etməsinə imkan vermədik. Buna baxmayaraq, təzyiq güclü idi. Ona görə də Rusiyada vəziyyət nə qədər yaxşı olarsa, bizim üçün də bir o qədər yaxşı olacaqdır.

O ki qaldı dəyişikliklərə, təkrar edirəm, bu, Rusiyanın daxili işidir. Mən Sergey Vadimoviç Stepaşini tanıyıram, o, təcrübəli, zənnimcə, bir çox vəzifələrdə sınanmış adamdır. Bilirəm ki, Rusiyada kifayət qədər nüfuza malikdir. Görünür, buna belə bir fakt sübutdur ki, Rusiya hökumətinin sədri vəzifəsinə onun namizədliyini Duma elə ilk dəfədən təsdiq etmişdir. Buna görə də ümidvarıq ki, vəziyyət yaxşı olacaqdır.

M ü x b i r: Heydər Əliyeviç, suallarıma ətraflı, diplomatikcəsinə və olduqca maraqlı cavablar verdiyinizə görə çox sağ olun. Biz Sizə ən əvvəl möhkəm cansağlığı və uğurlar arzulayırıq. Sağ olun.

Heydər Əliyev: Mənə göstərdiyiniz diqqətə görə siz də çox sağ olun. Televiziyanız vasitəsilə bütün rusiyalılara öz salamımı və ən yaxşı arzularımı yetirirəm.

M ü x b i r: Çox sağ olun.

Müsahibəni Rusiya
ictimai televiziyasının müxbiri
Aleksandr Panov aparmışdır

Bİ-Bİ-Sİ RADİOSUNUN MÜXBİRİNƏ MÜSAHİBƏ

London

20 may 1999-cu il

S u a l: Cənab prezident, xahiş edirəm mənim təbrikimi qəbul edəsiniz. Özü də bu, ikiqat təbrikdir. Çünki Siz taleyin yeni bir sınağından uğurla çıxmısınız. Digər tərəfdən isə Sizi Türkiyədə Mustafa Kamal Atatürk adına beynəlxalq sülh mükafatı gözləyir. Siz bu mükafatı nə zaman qəbul etməyə hazırsınız?

C a v a b: Sağ olun. Sizin təbrikinizə görə təşəkkür edirəm. Minnətdaram.

Mən bu gün Türkiyəyə gedirəm. Türkiyənin proqramına görə, onlarda qəbul olunmuş qanuna görə, Mustafa Kamal Atatürk adına beynəlxalq sülh mükafatı mayın 19-da verilir. Çünki 19 may Mustafa Kamal Atatürkün Samsundan yürüşə, vuruşa başlaması günüdür. Bu bayramdır. Ancaq mən o günə çatdıra bilmədim. Görünür ki, müəyyən bir gün təyin olunacaq və mükafat mənə veriləcəkdir. Əsas mükafatla təltif olunmaqdır, onun hansı vaxtda alınması o qədər də əhəmiyyətli deyildir.

S u a l: Cənab prezident, Sizin Amerikada Robert Koçaryanla görüşünüz olub və həmin görüşdən sonra Ermənistan prezidenti bizim Vaşinqtondakı müxbirimizə deyib ki, ümumiyyətlə, bu görüşlər çox səmərəli keçibdir. Çünki artıq bu görüşdən sonra o, prezident Heydər Əliyevi daha yaxşı başa düşür. Siz həmin görüşdən hansı nəticəni çıxartdınız?

C a v a b: Mən də bu görüşün əhəmiyyətli olduğunu və səmərəli olduğunu təsdiq edirəm. Mən də belə fikirdəyəm.

Mən Robert Koçaryanla 1994-cü ildə bir neçə dəfə görüşmüşəm və o, Ermənistanın prezidenti seçiləndən sonra da bizim onunla Moskvada iki dəfə görüşlərimiz olubdur. Ancaq Vaşinqtondakı görüş daha da səmərəlidir və görünür ki, o, məni daha da yaxşı tanıdığı kimi, mən də onu daha da yaxşı tanıyıram. Yəni tanımaq imkanı əldə edirəm və bunlar da ümid verir ki, biz danışıqlarda müəyyən qədər irəliyə gedə bilərik.

S u a l: Cənab prezident, Siz Bakıdan çıxandan sonra bir müddətdir ki, Azərbaycanda hansısa mənada hakimiyyət boşluğu hiss olunur. Yəni baxmayaraq ki, Siz kənardasınız, ölkədən xaricdəsiniz, əlbəttə, əminəm ki, Siz bütün problemləri və məsələləri nəzərdən keçirirsiniz. Amma bizim dinləyicilər və bir çox insanlar, mütəxəssislər Bakıda hiss edirlər və deyirlər ki, bəlkə prezident vəzifəsinin hansısa bir hissəsini Konstitusiyaya müvafiq şəkildə kiməsə həvalə etsəydi, bu, Azərbaycanda siyasi vəziyyətin yaxşılaşmasına və səmərəli şəkildə inkişafına kömək edərdi.

C a v a b: Sizin dediyiniz o sözlər, - yəni bilmirəm bu, öz sözünüzdür, yaxud da sizin dinləyicilərin sözləridir, - onlar səhvdir. Azərbaycanda qətiyyən hakimiyyət boşluğu yoxdur. Hakimiyyət tam yerindədir.

Mən Amerika Birləşmiş Ştatlarına rəsmi işdən ötrü getmişdim. Bir həftədən çox bu işlərlə məşğul olmuşam. Bundan sonra cərrahiyyə əməliyyatı keçirilən zaman mənim cəmi bir gün Bakı ilə, Azərbaycanla əlaqəm olmayıbdır. Qalan vaxtlar həmişə əlaqələrim olubdur. Öz vəzifələrini yerinə yetirənlərlə mütəmadi telefon əlaqələrim vardır. Lazım olan məsələləri mənimlə məsləhətləşirlər, mən lazım olan göstərişləri verirəm.

Onu qeyd edə bilərəm ki, mən 1993-cü ildən, Azərbaycana rəhbərlik etdiyim dövrdən indiyə qədər demək olar ki, bu

qədər uzun müddətdə ölkədən kənarda olmamışdım. Ancaq bu, eyni zamanda mənim üçün sınaq oldu və bizim ölkəmiz üçün də sınaq oldu ki, demək, mən bəlkə bundan artıq, uzun müddət də ölkədən kənarda ola bilərəm. Bizim hakimiyyət artıq çox mütəşəkkildir. Hərə öz işi ilə məşğuldur, hərə öz işini aparır və mən deyə bilərəm ki, bu bir ay müddətində Azərbaycanda heç bir sahədə hansısa bir zəiflik yoxdur.

Mən hər gün Milli Məclisin sədri ilə, Baş nazirlə, Prezident Aparatının başçısı ilə, nazirlərin çoxu ilə, Bakı Şəhər İcra Hakimiyyəti ilə telefon əlaqəsi saxlayıram. Onlar mənə məruzə edirlər və hər dəfə də mənə işlərin yaxşı getdiyini deyirlər. Mən bir onların məruzəsindən yox, başqa yerdən aldığım məlumatlara görə də hesab edirəm ki, bu, elə bizim ən böyük nailiyyətlərimizdəndir. Yəni Azərbaycanda artıq sabitlik yaranıbdır, istiqrar yaranıbdır, ictimai-siyasi sabitlik möhkəmdir, əsaslıdır və onu pozmaq, dəyişdirmək mümkün deyildir. Bu xəstəlik mənim üçün xəstəlik oldu, eyni zamanda ümumi dövlət işimizdə müəyyən bir sınaq dövrü oldu. Bu sınaqdan da biz çox gözəl çıxırıq.

M ü x b i r: Çox gözəl. Cənab prezident, Sizə təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun. Mən də sənə təşəkkür edirəm.

Müsahibəni Bi-Bi-Si
radiosunun müxbiri Famil
İsmayılov aparmışdır

20 may 1999-cu il

May ayının 20-də Türkiyə vaxtı ilə axşam saat 18.00-da Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəlin dəvəti ilə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Ankaraya gəlmişdir. Esenboğa hava limanında Azərbaycanın dövlət başçısını Türkiyə prezidenti Süleyman Dəmirəl qarşılamışdır.

Qarşılanma mərasimindən sonra prezidentlər vertolyotla Çankaya köşkünə gəlmişlər.

Həmin axşam Azərbaycan prezidentinin iqamətgahında prezident Süleyman Dəmirəl ilə prezident Heydər Əliyev arasında qısa görüş olmuşdur.

May ayının 21-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev Gülhanə Hərbi Tibb Akademiyasında müayinədən keçmişdir. Müayinənin nəticələri Amerika Birləşmiş Ştatlarının Ohayo ştatının Klivlend klinikasında prezident Heydər Əliyevin ürəyində aparılmış cərrahiyyə əməliyyatının çox uğurlu keçməsini və müalicədən sonra prezidentin səhhətinin tam yaxşı olmasını bir daha təsdiqləmişdir.

Həftənin sonunda Azərbaycan prezidenti Heydər Əliyev qısamüddətli istirahət üçün Antalyaya yola düşəcəkdir.

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI NAZİRLƏR ŞURASININ DOQQUZUNCU GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

Hörmətli görüş iştirakçıları!

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan qardaş dövlətlərin nümayəndə heyətlərini, habelə nüfuzlu beynəlxalq təşkilatların nümayəndələrini ürəkdən salamlayır və sizin hamınıza səmərəli və uğurlu iş arzulayıram.

Bakıda keçirilən indiki görüş dövlətlərimiz və xalqlarımız arasında çoxəsrlik tarixi proses nəticəsində yaranmış dostluq münasibətlərinin möhkəmləndirilməsi və genişləndirilməsi yolunda mühüm mərhələdir. İƏT üzvü olan ölkələr arasında çoxtərəfli əməkdaşlıq regionumuzda sülh və sabitlik üçün də son dərəcə vacibdir.

Müstəqillik əldə etdikdən az sonra İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olmuş Azərbaycan qarşılıqlı surətdə faydalı əməkdaşlığın möhkəmləndirilməsində, İƏT çərçivəsində iri iqtisadi layihələrdə, xüsusilə nəqliyyat, ticarət, energetika və telekommunikasiya kimi sahələrdəki layihələrdə fəal iştirak edir. Şübhəsiz ki, bu əməkdaşlıq iqtisadiyyatın digər sahələrinin inkişafına təkan verəcək, regionda inteqrasiya proseslərini sürətləndirəcək, İqtisadi Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrin xalqlarının rifahının yüksəlməsinə səbəb olacaqdır.

Əminəm ki, biz birgə səylərlə, qarşılıqlı maraqları nəzərə almaqla əməkdaşlığımızı xalqlarımızın potensialına, tələbatına və istəklərinə uyğun gələn səviyyəyə qaldıra biləcəyik.

Ümidvaram ki, XXI əsrin astanasında keçirilən Bakı görüşü İqtisadi Əməkdaşlıq Təşkilatının xalqlarımızın tərəqqisinə və çiçəklənməsinə yönəldilmiş fəaliyyətində mühüm mərhələ olacaqdır.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

21 may 1999-cu il

TÜRKİYƏ RESPUBLİKASI
BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ
ZATİ-ALİLƏRİ CƏNAB
YILDIRIM AKBULUTA

Hörmətli Yıldırım Akbulut, Sizi Türkiyə Respublikası Böyük Millət Məclisinin sədri seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Biz qədim tarixi kökləri olan xalqlarımızın əbədi dostluq və qardaşlıq münasibətlərini yüksək qiymətləndiririk. Azərbaycan ilə Türkiyə arasındakı qırılmaz əlaqələr və əməkdaşlıq xalqlarımızın mənafeləri naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost və qarşaq Türkiyə xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

22 may 1999-cu il

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ YILDIRIM AKBULUT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Ankara, Çankaya köşkü

22 may 1999-cu il

H e y d ə r Ə l i y e v: Xoş gördük, cənab Akbulut! Görüşümə gəldiyiniz üçün Sizə təşəkkür edirəm. Fürsətdən istifadə edərək, Türkiyə Böyük Millət Məclisinin sədri seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Onu da deməliyəm ki, mən Türkiyə parlamentinin yeni sədrinin seçilməsini mühüm bir hadisə kimi qiymətləndirirəm.

Y ı l d ı r ı m A k b u l u t: Səmimi sözlərinizə görə Sizə təşəkkür edirəm, cənab prezident. Zati-alilərinizin Türkiyəyə gəlməsindən çox məmnun olduq. Türkiyə Konstitusiyasına və Məclisin daxili nizamnaməsinə görə parlamentdə sədrlik və Sədrlik Şurası təşkil olunur. Hazırda ölkədə eyni zamanda, yeni hökumətin qurulması prosesi gedir. İndi parlamentin yeni sədri seçildi, Sədrlik Şurasına isə yaxın günlərdə seçkilər keçiriləcəkdir.

H e y d ə r Ə l i y e v: Türkiyədəki siyasi həyat Azərbaycan üçün daim böyük əhəmiyyət daşıyır. Biz Türkiyədə seçkilərin gedişini diqqətlə izləyirdik və çox məmnun olduq ki, seçkilər normal, uğurla keçdi. Seçkilərdən sonra Böyük Millət Məclisi öz işinə başlamış, parlamentin sədrini seçmişdir. Ümid edirəm ki, yaxın vaxtlarda hökumət qurulacaq və Türkiyə Cümhuriyyəti daha da irəliləyəcəkdir.

Yıldırım Akbulut: Cənab prezident, ölkələrimizin əlaqələrinin gündən-günə inkişaf etməsi çox vacibdir. Biz istəyirik ki, həm Türkiyədə, həm də qardaş Azərbaycanda çox yaxşı bir əməkdaşlıq, demokratik qaydalar çərçivəsində vətəndaşlarımızın rifah halı daha da yüksəlsin və inkişaf etsin.

Heydər Əliyev: Mən Sizin sözlərinizə tam şərikəm, cənab sədr, çünki bu, bizim də diləyimizdir. Türkiyə – Azərbaycan əlaqələri çox güclüdür, möhkəmdir, sarsılmazdır. Yaşadığımız hər gün, hər ay bu əlaqələrimizi daha da genişləndirir, inkişaf etdirir. Ümid edirəm ki, Türkiyədə yeni seçkilər keçiriləndən sonra bu əlaqələrin daha da genişləndirilməsi üçün yeni addımlar atılacaqdır. Şübhəsiz ki, bu uğurların başında əziz dostum, qardaşım, prezident Süleyman Dəmirəl durur. Onun Azərbaycana olan münasibəti, ölkəmizə göstərdiyi diqqət, qayğı Azərbaycanın daimi inkişafını təmin edir.

Yıldırım Akbulut: Hörmətli cənab prezident, çox doğru deyirsiniz. Biz prezident Süleyman Dəmirəlin bu sahədəki fəaliyyətini ürəkdən dəstəkləyirik.

Heydər Əliyev: Həm Azərbaycan, həm Türkiyə regional problemlərin, ölkələrimizi maraqlandıran məsələlərin həllində eyni mövqedən çıxış edir. Mən əminəm ki, bu, həmişə belə olacaqdır. Türkiyə parlamentinin bu sahədəki fəaliyyəti də ölkələrimizin arasındakı əlaqələrin daha da möhkəmlənməsinə yönəldiləcəkdir.

Yıldırım Akbulut: Elədir, cənab prezident. Bizim istəklərimiz eynidir.

Heydər Əliyev: Mən Sizi Azərbaycana rəsmi səfərə dəvət edirəm. Buyurun gəlin.

Yıldırım Akbulut: Minnətdaram, cənab prezident. Dəvətinizi böyük məmnuniyyətlə qəbul edirəm.

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Ankara, Çankaya köşkü

22 may 1999-cu il

Bülənd Ecevit: Cənab prezident, Sizi ürəkdən salamlayıram. Səhhətinizin tam yaxşı olduğunu görməkdən məmnun qaldığımı bildirir və Türkiyəyə gəldiyinizə görə Sizə təşəkkür edirəm.

Heydər Əliyev: Səmimi sözlərə və dostluq münasibətlərinə görə, cənab Ecevit, Sizə təşəkkürümü bildirir və doğma bir torpağa, öz vətənimə gəldiyimi nəzərinizə çarpdırıram.

Hörmətli Baş nazir, mən Sizi təbrik edirəm. Siz seçkilərdə böyük nailiyyət əldə etdiniz, partiyanız birinci yerə çıxdı. Mən sizin partiyanıza və Türkiyə Cümhuriyyətinə yeni-yeni uğurlar arzulayıram. Bilirəm ki, seçkilərdən sonra hazırda yeni hökumət qurursunuz. Əminəm ki, çox dəyərli bir hökumət qurursunuz. Siz əziz dostum, qardaşım prezident Süleyman Dəmirəl ilə birlikdə Türkiyə Respublikasını daha da yüksəklərə qaldıracaqsınız və inkişaf etdirəcəksiniz. Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı onu tələb edir ki, Türkiyə həmişə güclü, inkişafda və qüdrətli olsun, Türkiyənin dostu, qardaşı olan Azərbaycan Türkiyə ilə əl-ələ verib daha da irəliyə getsin.

Bülənd Ecevit: Ölkələrimizin əlaqələrinin sürətli inkişafında prezident Heydər Əliyevin böyük xidməti olduğunu

vurğulamaq istəyirəm. İmzalanmış neft müqavilələrinin həyata keçirilməsi sahəsində görülmüş işlər çox maraqlıdır.

Bakı–Ceyhan boru kəmərinin çəkilişi əsasən başlanmışdır.

Biz keçən ilin oktyabrında Ankarada birgə bəyannamə imzaladıqdan sonra işlər yaxşı gedir. İki ay bundan əvvəl İstanbulda protokol imzalandı, texniki və maliyyə məsələlərinin üç ay müddətində həll edilməsi qərara alındı.

Bu kəmərin çəkilişinə edilən maneələr, onun xərcinin guya çox baha olması barədə söz-söhbət artıq geridə qalmışdır. Vaxtilə deyirdilər ki, kəmər 3,7 milyard dollara başa gələcəkdir, amma belə olmadı. Türkmənistan qazının da Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Gürcüstana, oradan da Türkiyəyə nəqli çox faydalı olacaqdır. Bu məsələ çoxdan müzakirə edilirdi, Qərb də, Amerika da bunu istəyirdi. Ancaq bəzi səbəblərə görə bu alınmırdı. İndi isə bu, tam realdır. Mən Vaşinqtona getməmişdən əvvəl Türkmənistan qaz kəmərinin çəkilişi ilə məşğul olan Amerika şirkətləri Bakıya gəlmişdilər. *Mən onlarla görüşdüm. Həmin şirkətlər məndən bir daha* icazə istədilər. Dedim ki, biz buna çoxdan icazə vermişik, çünki bu qaz Türkiyəyə gedəcəkdir.

Bülənd Ecevit: Bütün bu məsələlərin həllində böyük xidmətlərinizə görə Sizə təşəkkür edirik. Mən Sizə Mustafa Kamal Atatürkün şəklini bağışlamaq istərdim.

Heydər Əliyev: Bu, mənim üçün çox dəyərli hədiyyədir. Bu, bir də ona görə dəyərlidir ki, siz mənə «Atatürk Beynəlxalq Sülh Mükafatı»nı vermisiniz. Çox sağ olun.

Bülənd Ecevit: Prezident Süleyman Dəmirəlin dəvətini qəbul edib Türkiyəyə gəldiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Bilirsiniz, Antalya dünyanın ən gözəl istirahət ocaqlarından biridir.

Heydər Əliyev: Mən müstəqil Azərbaycan Respublikasının prezidenti olduğum altı ildən bəri heç vaxt istirahət etməmişəm. Əziz dostum, qardaşım Süleyman Dəmirəl məni

dəfələrlə Türkiyəyə istirahətə dəvət etmişdi, amma gələ bilmirdim. İndi isə istirahət etməyə məcburam.

Sizə Vaşinqton səfərimdən söhbət açmaq istəyirəm. Biz orada çox işlər gördük. Prezident Bill Klintonla görüşdük, danışdıq. Dövlət katibi xanım Olbraytla görüşlərimiz oldu. Sonra xanım Olbraytın iştirakı ilə Gürcüstan, Azərbaycan, Ermənistan prezidentlərinin, bir sıra xarici ölkələrin – Amerikanın, Fransanın, Almaniyanın, İngiltərənin, Norveçin, Türkiyənin xarici işlər nazirlərinin Qafqazda barışın, sülhün, əməkdaşlığın, iş birliyinin yaranması barədə görüşü oldu.

ABŞ-ın dövlət katibinin iştirakı ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü, sonra isə Azərbaycan və Ermənistan prezidentlərinin təkbətək görüşü oldu.

Bilirsiniz ki, Ermənistan–Azərbaycan münaqişəsi 11 ildir ki, başlayıbdır. 1994-cü il mayın 12-dən atəşkəs elan edilibdir. Yəni beş ildir atəş yoxdur, amma sülh, barış da yoxdur. Torpaqlarımızın 20 faizi işğal altındadır. Bir milyondan çox qaçqın vətəndaşımız çadırlarda yaşayır.

Amerika, Fransa və Rusiya Minsk qrupunun həmsədrləridirlər. Onlar bu münaqişənin sülh yolu ilə həll edilməsinə çalışdılar, lakin 1998-ci ildə Ermənistanın o vaxtkı prezidenti istefaya getdi, yeni prezident seçildi, nəticədə danışıqlar prosesi müəyyən qədər ləngidi. Ona görə də mən Vaşinqtona getməmişdən əvvəl Amerikanın, Rusiyanın və Fransanın prezidentlərinə məktub yazdım. Onlara yazdım ki, siz bu münaqişənin həllini öz üzərinizə götürmüsünüz, amma mən bu işdə çox passivlik görürəm. Mən Bill Klintondan, Boris Yeltsindən, Jak Şirakdan cavab aldım. Vaşinqtonda cənab Klintonla, cənab Şirakla, xanım Olbraytla görüşüb bu barədə söhbət etdim. Mən bir daha bildirdim ki, biz Dağlıq Qarabağa müstəqillik verə bilmərik. Onlar dedilər ki, bu münaqişə ATƏT-in Lissabon zirvə görüşündə qəbul edilmiş prinsiplər əsasında həll olunmalıdır. Mən Vaşinqtondakı görüşlərdən

hiss etdim ki, biz bu münaqişənin həlli məsələsini irəliyə apara bilərik.

Senator Sem Braunbekin «İpək yolu strategiyası» qanun layihəsi hazırlandı. 1998-ci ildə Avropa Birliyinin himayəsi ilə Bakıda qədim İpək yolunun bərpası mövzusunda beynəlxalq konfrans keçirildi. Bu konfransda 35 ölkədən, 15 beynəlxalq təşkilatdan nümayəndə heyətləri, 9 ölkənin prezidentləri iştirak edirdilər.

TRASEKA proqramı çərçivəsində keçirilən bu konfransda biz çox mühüm sənədlər qəbul etdik.

1997-ci ildə mən Amerikada rəsmi səfərdə olarkən prezident Bill Klintonla birgə bəyanat imzaladıq. Orada yazılıb ki, Amerika hökuməti 907-ci düzəlişin ləğv edilməsini istəyir və buna çalışacaqdır. Bu məsələ son dəfə konqresdə müzakirə edilərkən bizim üçün cəmi 28 səs çatmadı. Bu isə o deməkdir ki, biz ABŞ Konqresində də Azərbaycana münasibətdə müsbət dəyişikliyə nail ola bilmişik. Əminəm ki, cənab Braunbekin hazırladığı qanun layihəsi qəbul olunacaq və 907-ci maddə də öz təsir gücünü itirəcəkdir.

Vaşinqtona səfərim zamanı Amerikanın iri neft şirkətləri ilə ARDNŞ arasında 3 yeni müqavilə imzalandı. Bunları mən yüksək qiymətləndirirəm. Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənməsi üzrə artıq 19 müqavilə imzalanmışdır. Biz 1997-ci ildə ilkin neftin dünya bazarına çıxarılmasına başladıq. Biz bu il Gürcüstanda Bakı-Supsa boru kəmərinin açılışı mərasimini keçirdik. İndi Bakı nefti iki istiqamətdə – Bakı–Novorossiysk, Bakı–Supsa kəmərləri vasitəsilə dünya bazarına çıxarılır. Biz Bakı–Ceyhan kəmərinin çəkilişini də başa çatdıracağıq.

Mən ABŞ Konqresində, Senatında maraqlı görüşlər keçirdim. Əminəm ki, apardığım danışıqlar öz müsbət nəticəsini verəcəkdir. Sizə məlumdur ki, Rusiya Ermənistana qeyri-

qanuni yolla silah verir və həmin respublikada hərbi baza saxlayır.

Mən MDB ölkələri dövlət başçılarının bu yaxınlarda Moskvada keçirilmiş toplantısında bir daha protest verdim ki, nə üçün Rusiya Ermənistanda ordu saxlayır? Mən bu məsələni dəfələrlə qaldırmışam. Yeltsin mənə deyir ki, bu, Azərbaycana qarşı deyil.

Bülənd Ecevit: Cənab prezident, bizim bu səmimi görüşümüzə görə Sizə minnətdarlığımı bildirirəm.

Heydər Əliyev: Mən Sizə böyük uğurlar arzulayıram. Çox arzu edirəm ki, tezliklə yeni hökuməti qurub, işə başlayasınız.

Bülənd Ecevit: Bu görüşdən bir daha şərəf duyduğumu bildirir, Sizə möhkəm cansağlığı arzulayıram. Sağ olun.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL VƏ HƏYAT YOLDAŞI NƏZMİYYƏ XANIMLA GÖRÜŞÜ* VƏ DÖVLƏT BAŞÇILARININ JURNALİSTLƏR QARŞISINDA BƏYANATI

Ankara, Çankaya köşkü

23 may 1999-cu il

Türkiyə Prezidenti Süleyman Dəmirəlin bəyanatı

Qardaş, dost və qonşu Azərbaycanın dəyərli cümhur başqanı, əziz qardaşım Heydər Əliyevi görməkdən hər zaman böyük şərəf və məmnunluq duyuruq. O, Amerika Birləşmiş Ştatlarında NATO-nun zirvə toplantılarında iştirak etdikdən sonra cərrahiyyə əməliyyatına məruz qalmışdır. İndi yaxşılaşmışdır. Öz adımdan və xanımım adından, qardaş türk xalqı adından ona «keçmiş olsun» deyirik. Türkiyədə bir müddət dincəldikdən sonra Azərbaycana, Bakıya iş başına dönəcəkdir.

Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər iki qardaş ölkə arasında olan münasibətlər kimi çox yaxşıdır və daha da genişlənəcəkdir. Azərbaycan müstəqilliyinə qovuşduqdan bu yana hörmətli prezident Heydər Əliyevin rəhbərliyi ilə əvvəla, sabitliyə nail olmuş, sonra isə inkişafını davam etdirmişdir. İndi Azərbaycan dünya dövlətləri arasında sayılan önəmli məmləkətə çevrilmişdir.

---

* Görüşdə Azərbaycanın millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev iştirak edirdi.

Orada hamımızı daxilən incidən, üzən Qarabağ hadisəsidir. Bu hadisə nəticəsində bir milyona yaxın azəri qardaşımız yerindən-yurdundan, evindən didərgin düşmüşdür və hələ də köçkün vəziyyətindədir. Azərbaycan xoş məramla, soyuqqanlılıqla məsələnin sülh yolu ilə həllini axtarmaqda davam edir. Türkiyə olaraq biz də sülh yolunu dəstəkləyirik. İstəyirik ki, məsələ dincliklə həll olunsun, qaçqın qardaşlarımız yerlərinəyurdlarına dönsünlər.

Azərbaycan bu üzüntülər içində yaşamaqla yanaşı, digər tərəfdən haqsızlıqlara da məruz qalır. Bu haqsızlıqların birincisi Amerikanın qoyduğu qadağadır. Amerika Konqresinin qəbul etdiyi 907-ci düzəliş bu qadağanı qoymuşdur. Onun aradan qaldırılması barədə mən də Amerika prezidentinə bir neçə dəfə müraciət etmişəm.

Digər tərəfdən, Azərbaycan inkişafını davam etdirir. Müstəqilliyə qovuşduğu gündən bu yana çox şey yaxşılaşmışdır. Neft və qaz yataqlarının işlənilməsi istiqamətində mühüm yol keçilmişdir. Ümid edirik ki, qarşıdakı qısa müddətdə Azərbaycan dünyanın mühüm neft ölkələrindən birinə çevriləcəkdir. Qədimdən neft diyarı kimi tanınan Azərbaycanın yenidən dirçəlişini təmin etmək, inkişafını daha da sürətləndirmək üçün ehtiyacı olan qaynaqlara mütləq qovuşmasını diləyirəm. Bakı- Ceyhan boru xətti bu məqsədlə çəkiləcəkdir. Bununla bir tərəfdən həm Orta Asiya neftinin, həm də Xəzərin Azərbaycan sektorundakı neftin dünya bazarlarına çıxarılmasına imkan yaranacaq, digər tərəfdən də Azərbaycanın hələ istifadə edilməyən təbii sərvətləri işlənəcək, onları ölkənin rifahına yönəltmək mümkün olacaqdır.

Eyni zamanda Türkmənistan qazı Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə Türkiyəyə gələcək və buradan da Avropa bazarlarına çatdırılacaqdır. Bu layihə də gündəlikdədir.

Biz Azərbaycanın yüksəlişinə imkanımız daxilində hər cür dəstək veririk və verəcəyik. Azərbaycanı narahat edən məsələ

dünya səhnəsinə də çıxmışdır. ATƏT və beynəlxalq birlik bu problemin həllinə qoşulur. Hörmətli Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın göstərdiyi səylər hər zaman təqdirlə qarşılanır. Məsələni güc işlətmədən, dialoq yolu ilə həll etmək üçün iztirablar çəkilmiş, amma səbr göstərilmişdir.

Hörmətli Əliyevə təkrar-təkrar «keçmiş olsun», «öz vətəni olan Türkiyəyə xoş gəlmişdir!» deyirəm.

Azərbaycan Prezidenti Heydər Əliyevin bəyanatı

Hörmətli prezident, əziz dostum, qardaşım Süleyman Dəmirəl!

Mən bu gün Türkiyədə olmaqdan və Sizin çevrənizdə olmaqdan son dərəcə məmnunam, Amerikada NATO-nun toplantısında birgə çalışdıq və Türkiyə üçün də, Azərbaycan üçün də birgə çox işlər gördük. Ondan sonra əməliyyat keçirmək məcburiyyətində oldum.

Əziz dostum, qardaşım, ancaq o andan, o gündən indiyə qədər mən Sizin böyük diqqətiniz, böyük qayğınız, böyük hörmətiniz altında yaşayıram. Mən bu dostluğu, qardaşlığı fövqəladə, dünyada insanlar arasında dostluğun nümunəsi hesab edirəm. Əziz dostum, bu dostluğu, qardaşlığı da, Sizin nə qədər insanpərvər, nə qədər insansevər olduğunuzu, dosta nə qədər sadiq, sədaqətli olduğunuzu da həmişə göstərmisiniz. Amma indi, mən xəstə olduğum zaman bunu xüsusi hiss etdim. Mən bunlara görə Sizə təşəkkür edirəm. Xəstəxanada olduğum zaman Siz daim əlaqə saxlamısınız, əməliyyat aparan və müalicə edən həkimlərlə danışmısınız, halımı soruşmusunuz. Mənim özümlə danışmısınız, mənə ürək-dirək, ruh vermisiniz, məni ruhlandırmısınız. Bunlar hamısı mənim xəstəliyimin tezliklə aradan qaldırılmasına da kömək edibdir.

Xəstəliyi sağaldan təkcə dərman, həkim deyil, eyni zamanda insanların, dostların göstərdiyi münasibət, qayğı, diqqətdir. Mən bu gözəl münasibəti, qayğını, diqqəti ilk olaraq, ən

yüksək səviyyədə Sizdən görürəm və buna görə də təşəkkür edirəm. Məni Türkiyəyə dəvət etdiyinizə görə bir daha, bir daha təşəkkür edirəm.

Amerika Birləşmiş Ştatlarında xəstəxanadan çıxandan sonra məhz Türkiyəyə gəlməyim mənim üçün çox böyük əhəmiyyət kəsb edir. Çünki Türkiyə mənim üçün müqəddəs bir yer, müqəddəs ölkədir, müqəddəs bir torpaqdır. Eyni zamanda bu, mənim öz məmləkətimdir. Siz görürsünüz ki, mən buraya gələn dəqiqədən vəziyyətim günbəgün yaxşılaşır və sağlamlığım artır. Bu, yenə də Sizin xidmətinizin nəticəsidir, Türkiyədə olan ab-havanın, iqlimin, Sizin qayğınızın, münasibətinizin nəticəsidir. Bunlara görə təşəkkür edirəm.

Mənə çox yüksək qonaqpərvərlik, müsafirpərvərlik göstərirsiniz. Bu qədər yüksək qonaqpərvərliyi hər adam göstərə bilməzdi. Əziz qardaşım, bu, Sizin nə qədər böyük qəlbə malik olduğunuzu, nə qədər böyük insan olduğunuzu, nə qədər böyük dost olduğunuzu bir daha göstərdi. Bu, təkcə mənim üçün yox, Türkiyə üçün, Azərbaycan üçün, bütün dünya üçün göstərir ki, böyük insan nə cür olur. Böyük insan Süleyman Dəmirəldir, böyük qəlbli insan Süleyman Dəmirəldir. *Bunların hamısına görə təşəkkür edirəm.*

Azərbaycan haqqında, mənim haqqımda dediyiniz sözlərə görə Sizə təşəkkür edirəm, çox sağ olun. Həqiqətən, Azərbaycan müstəqilliyə qovuşandan sonra çox ağır və çətin bir yol keçir. Amma Türkiyə Cümhuriyyəti və əziz dostum, şəxsən Siz Azərbaycanın müstəqillik, istiqlaliyyət qazandığı andan indiyə qədər Azərbaycana qayğı, yardım göstərirsiniz, dostluq qayğısı, dostluq yardımı göstərirsiniz.

O cümlədən, Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılması üçün, bu məsələni həll etmək üçün də Siz daim diqqət, qayğı göstərirsiniz. Türkiyə Cümhuriyyəti Minsk qrupunun üzvüdür, Minsk qrupunun tərkibində çalışır. Minsk qrupu da Ermənistan–Azərbaycan münaqişəsinin

sülh, barış yolu ilə həll olunması üçün 1992-ci ildə yaranıbdır. Ancaq, əziz dostum, qardaşım, əziz cümhur başqanı, Siz şəxsən bu məsələ ilə daim məşğul olursunuz. Mən Sizə minnətdaram ki, Klintona və başqa ölkələrin prezidentlərinə bu barədə xüsusi məktublar, müraciətlər göndərmisiniz. Bunlar hamısı bizə yardımdır. Yəni biz Ermənistanla üz-üzə durduğumuz, torpaqlarımızın 20 faizi işğal olunduğu, bu torpaqlardan çıxarılan insanlar çadırlarda yaşadığı şəraitdə ən böyük dəstəyi, ən böyük yardımı, köməyi biz Türkiyə Cümhuriyyətindən və Türkiyənin prezidenti Süleyman Dəmirəldən alırıq. Bunlara görə də təşəkkür edirəm. Ümidvaram ki, Sizinlə birlikdə biz bu məsələni həll edəcəyik.

Artıq beş ildir ki, biz atəşkəs rejimində yaşayırıq. Nə qədər ağır, çətin olsa da, belə yaşamaq döyüş aparmaqdan, qan tökməkdən daha üstündür. Mən belə hesab edirəm. İndi dünya sülhə, barışa gedir. Biz də çalışmalıyıq ki, bu münaqişəni sülh, barış yolu ilə həll edək. Biz bu barədə daim Sizinlə məsləhətləşirik, Sizin fikirlərinizi öyrənirik, onlardan istifadə edirik. Güman edirəm ki, biz bunu həll edəcəyik.

Azərbaycanın inkişafı haqqında dediyiniz sözlərə görə də *çox təşəkkür edirəm. Həqiqətən, belə bir ağır şərtlər içərisində*, torpaqların 20 faizi işğal olunduğu halda, insanlar çadırlarda yaşadığı bir zamanda biz müstəqil Azərbaycanın inkişafını təmin edə bilmişik. Bu baxımdan, xüsusən 1994-cü ildə imzaladığımız ilk neft müqaviləsi, - onu «Əsrin müqaviləsi» adlandırıblar, - ondan sonra gördüyümüz işlər həm Azərbaycan üçün, həm də Türkiyə üçün böyük gələcək açır, böyük zənginlik gətirəcəkdir. Biz bu işlərlə məşğul oluruq və bu sahədə də bərabərik, bir yerdəyik.

İndi Türkiyə neft ölkəsi olubdur. Çünki Türkiyənin neft şirkətləri Azərbaycanda bir neçə müqavilədə faizlərini alıblar. 1994-cü ildə biz ilk neft müqaviləsini imzalayanda konsorsiumda Türk Petrolları şirkətinin 1,7 faizi vardı. Amma indi

başqa müqavilələrdə 30 faizə qədər çatıbdır. Bu da bizim istəyimizdir. Çünki bizə Türkiyədən yaxın ölkə yoxdur.

Bakı–Ceyhan boru xətti haqqında. Məlumdur ki, bir neçə ildir danışıqlar gedir. Amma biz və Azərbaycan prezidenti olaraq şəxsən mən ilk gündən, 1994-cü ildə ilk müqaviləni imzalayandan o müqavilədə əks etdirmişik ki, Azərbaycanın Xəzər neftinin ixrac edilməsi, dünya bazarlarına çıxarılması üçün əsas boru xətti Bakı–Ceyhan xəttidir.

Bakı–Ceyhan boru xəttinin tikilməsi üçün biz çox maneələrlə, etirazlarla qarşılaşdıq. Bir çox ölkələr bunun əleyhinə çıxmağa çalışdılar. Amma bunların heç birisi bizim iradəmizi sındıra bilmədi. Mən çox məmnunam ki, nəhayət, keçən il oktyabrın 29-da Türkiyə Cümhuriyyətinin 75 illiyi bayramında biz böyük bir anlaşma imzaladıq və bununla da Bakı–Ceyhan boru xəttini tam reallaşdırdıq. Ondan sonra aparılan işlər göstərir ki, qısa bir zamanda Bakı–Ceyhan boru xəttinin tikilməsinə başlanacaqdır.

Amerika Birləşmiş Ştatlarında olduğum zaman bu ölkənin üç şirkəti ilə yeni müqavilələr imzaladıq. 1994-cü ildə biz birinci müqaviləni imzaladıq, indi artıq 19 müqavilə var. Bunlarda 14 ölkədən 32 şirkət iştirak edir. Amerika şirkətləri çoxdur. Bunlar hamısı Xəzər dənizində nə qədər zəngin neft olduğunu göstərir və gələcəkdə Bakı–Ceyhan xəttinin tam tutumu ilə işləməsi üçün neft çıxarılması imkanları yaradır.

Başqa işlərdə də nailiyyətlərimiz var. Bunların hamısını da biz Sizinlə bərabər edirik. Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı xüsusən Azərbaycan müstəqillik qazandıqdan sonra gündən-günə inkişaf edir, möhkəmlənir, güclənir. Bu dostluğu, qardaşlığı heç bir qüvvə sarsıda bilməz. Bizim dostluğumuz, qardaşlığımız əbədidir, sarsılmazdır və belə də olacaqdır. Biz xalqımızı da bu ruhda tərbiyə edirik, bu ruhda yol göstəririk, bu yolu elə açmışıq ki, Azərbaycan xalqının bütün

gələcək nəsilləri də bu yolla gedəcəklər. Bizim başqa yolumuz yoxdur və ola da bilməz.

Əziz dostum, mən həddən ziyadə xoşbəxtəm ki, Sizin kimi belə bir dostum var. Mən həyatda çox çətinliklər, çox ağır dövrlər keçirmişəm. İndi isə bu xəstəlik, ürəyimdə əməliyyat aparılması mənim üçün çox ağır dövr oldu. Ancaq Sizin kimi dostumun olması mənə həmişə ürək-dirək verdi, ruh verdi və indi bu xəstəlikdən xilas olmuşam, burada Sizin qonağınızam. Bütün bunlara görə Sizə bir daha təşəkkür edirəm.

Nəzmiyyə xanım, Sizə təşəkkür edirəm. Siz mənim əziz bacımsınız, Süleyman Dəmirəlin də çox sədaqətli xanımısınız. Siyasət adamı üçün böyük bir işdir ki, onun xanımı da çox dözümlü olsun. Çünki siyasət adamının işlərinə dözmək çox da asan deyildir. Amma bilirəm ki, Siz on illərlə bu işlərə dözürsünüz və mənim əziz dostum Süleyman Dəmirəlin əldə etdiyi nailiyyətlərdə Sizin payınız, xidmətləriniz çoxdur. Əziz bacım, mən Sizə təşəkkür edirəm. Sizinlə, bu ailə ilə bu qədər dost, mehriban olmağımdan həddən ziyadə xoşbəxtəm. Demək istəyirəm ki, övladlarım, - mənim oğlum da buradadır, - nəvələrim də həmişə bu ailəyə sadiq olacaqlar. Gələcək bizim dostluğumuzla irəli gedəcəkdir.

Mən Sizə bir daha təşəkkür edirəm, çox sağ olun, var olun, min yaşayın!

* * *

Türk jurnalistinin suallarına cavab:

Mənim sağlamlığımın vəziyyətini görürsünüz, qarşınızda durmuşam. Heç bir narahatlıq yoxdur, buraya gələndən daha yaxşıyam və gündən-günə daha da yaxşılaşıram. Müalicəm davam edir. Bilin, əziz dostum, qardaşım Süleyman Dəmirəlin təhkim etdiyi doktor, Tibb Akademiyasının kardioloqu

Ertan Dəmirtaş Amerikada, Klivlend xəstəxanasında həmişə mənimlə olubdur. O, müalicə edir, bu gün də mənimlədir. Bu da mənə göstərilən xüsusi qayğıdır ki, mənim sağlamlığımla dostum Süleyman Dəmirəl məşğul olur, - Türkiyənin ən böyük kardioloqlarından olan Ərtan Dəmirtaşı təhkim edib, o da səhhətimlə məşğuldur, Amerikada olduğum birinci gündən mənimlə bərabərdir. Mən həyatımı, bütün sağlamlığımı Türkiyəyə etibar edirəm.

Ən böyük siyasi görüşlərim mənim dostum Süleyman Dəmirəl iledir. Biz bir neçə məsələni hələ müzakirə edəcəyik. Ancaq Baş nazir hörmətli Büləvd Ecevitlə, Böyük Millət Məclisinin sədri hörmətli Yıldırım Akbulutla, Ana Vətən Partiyasının sədri hörmətli Məsud Yılmazla da görüşlər keçirmişəm.

TÜRKİYƏNİN ANA VƏTƏN PARTİYASININ SƏDRİ, MİLLƏT VƏKİLİ MƏSUD YILMAZ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Ankara, Çankaya köşkü

23 may 1999-cu il

Məsud Yılmaz: Zati-aliləri, vaxt tapıb məni qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Səhhətinizin çox yaxşı olduğunu görmək mənə böyük məmnunluq gətirir.

Heydər Əliyev: Çox sağ olun. Mən də sizi görməyimə çox şadam. İşləriniz necədir?

Məsud Yılmaz: Möhtərəm cənab prezident, Sizə məlumdur ki, hal-hazırda Türkiyənin yeni hökumətinin qurulması üçün danışıqlar aparılır. Sədri olduğum Ana Vətən Partiyası da hökumətdə iştirak etmək məqsədilə fəaliyyətdədir.

Heydər Əliyev: Sizə uğurlar arzulayıram. Mən özüm NATO-nun 50 illiyi münasibətilə Vaşinqtonda keçirilən yubiley mərasimində iştirak etdim. Orada çoxlu görüşlər keçirdim. Prezident Bill Klinton və dövlət katibi Madlen Olbraytla apardığım danışıqlar çox böyük əhəmiyyət daşıyır. Onu da deyim ki, hələ 1992-ci ildə ABŞ Konqresi tərəfindən Azərbaycana qarşı qəbul edilmiş ədalətsiz 907-ci düzəlişin ləğv olunması üçün görülən işlərdə xeyli irəliləyiş əldə olunmuşdur. Mən əminəm ki, Amerika Konqresində, senatında apardığım danışıqlar öz müsbət nəticəsini verəcəkdir.

Məsud Yılmaz: Biz də buna əminik, cənab prezident.

Heydər Əliyev: Siz bilirsiniz ki, ötən ilin sentyabrında Bakıda Avropa Birliyinin himayəsi ilə TRASEKA proqramı çərçivəsində beynəlxalq konfrans keçirildi. Müstəqil Azərbaycan dövlətinin həyatında tarixi hadisə kimi qiymətləndirilən bu beynəlxalq tədbirdə 35 ölkənin və 15 beynəlxalq təşkilatın nümayəndə heyətləri, 9 ölkənin rəhbəri iştirak etdi.

Məsud Yılmaz: Bu, doğrudan da region dövlətləri, o cümlədən Türkiyə üçün də əhəmiyyətli hadisədir, cənab prezident.

Heydər Əliyev: Bu işlərin daha uğurlu həyata keçirilməsi üçün əmin-amanlığın bərqərar olması vacib şərtlərdəndir. Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Vaşinqtonda dövlət katibi Madlen Olbraytla, eləcə də Ermənistan prezidenti ilə keçirdiyim görüşlər ümidvaram ki, ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların gedişinə müsbət təsir göstərəcəkdir. Onu da deməliyəm ki, Amerika dövləti həmsədrlərdən biri kimi bu münaqişənin həllində öz fəallığını artırmışdır. Düzdür, Amerika tərəfi bu məsələdə öz mövqeyini bir daha bəyan edərək bildirmişdir ki, Ermənistan–Azərbaycan münaqişəsi ATƏT-in 1996-cı ildə Lissabonda keçirilən zirvə görüşündə qəbul olunmuş prinsiplər əsasında aradan qaldırılmalıdır.

Məsud Yılmaz: Cənab prezident, mən ümidvaram ki, regionun əmin-amanlığına ciddi təsir göstərən bu münaqişə sülh yolu ilə həll olunacaqdır.

Heydər Əliyev: Biz də bunu istəyirik. Ancaq Azərbaycanın maraqlarına zidd olan hər hansı bir təklifi biz qəbul edə bilmərik. Elə buna görə də Minsk qrupunun «Ümumi dövlət» yaradılması barədə son təklifini rədd etdik. Biz heç vaxt Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağa müstəqillik verə bilmərik. Sizə məlumdur ki, Rusiya Ermənistanda bu gün də hərbi baza saxlayır, bu yaxınlarda isə qeyri-qanuni yolla Ermənistana silah verib. Bütün bunlar, əlbəttə

ki, münaqişənin sülh yolu ilə həll olunması işində əngəllər törədir, Azərbaycanın maraqlarına ziddir.

Məsud Yılmaz: Cənab prezident, sözsüz ki, Azərbaycanın maraqlarına toxunan təklifləri qəbul etmək qeyri-mümkündür. Münaqişənin sülh yolu ilə həll olunması regionun bütün dövlətləri üçün mühüm əhəmiyyət kəsb edir.

Heydər Əliyev: Bu çox vacib məsələdir. Bu gün biz Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən nefti dünya bazarlarına çıxaran kəmərlərin, xüsusilə əsas boru kəməri olacaq Bakı–Ceyhan marşrutunun çəkilişi üçün, bununla yanaşı, bölgədəki vəziyyəti nizama salmaq üçün əlimizdən gələni edirik.

Məsud Yılmaz: Cənab prezident, bir daha Sizə təşəkkür edirəm, sağlamlıq, səadət, xoşbəxtlik arzulayıram. Sağ olun.

TÜRKİYƏNİN «NƏRGİZ-TV» TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

Ankara, Çankaya köşkü

23 may 1999-cu il

S u a l: Cənab Əliyev, «Atatürk Beynəlxalq Sülh Mükafatı»na bu il siz layiq görüldünüz. Bu, Türkiyədə böyük önəmə malik olan bir mükafatdır. Hansı hissləri keçirirsiniz?

C a v a b: Çox böyük qürur hiss edirəm. Çünki, həqiqətən, Atatürk adına Beynəlxalq Sülh Mükafatı Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatlarından biridir. Ancaq eyni zamanda bu mükafat mənim üçün əzizdir ona görə ki, Mustafa Kamal Atatürkün xatirəsinə təsis olunubdur və onun adını daşıyır.

Mustafa Kamal Atatürk XX əsrdə dünyanın ən böyük şəxsiyyətlərindən biridir, Türkiyə Cümhuriyyətini quran, qurtuluş savaşında qalib gələn, Türkiyə Cümhuriyyətini yaşadan bir şəxsiyyətdir. O, elə bir cümhuriyyət yaradıbdır ki, ölümündən 60 il keçəndən sonra da yaşayır, Türkiyəni dünyanın böyük, qüdrətli, iqtisadi cəhətdən zəngin dövlətlərindən biri edibdir. Mən çox məmnunam ki, Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti Mustafa Kamal Atatürkün yolu ilə gedir. Mustafa Kamal Atatürk bizlər üçün qəhrəmanlıq rəmzidir, müdriklik rəmzidir, dövlətçilik rəmzidir, demokratiya rəmzidir. Bütün bunlara görə də iftixar edirəm ki, mənə Türkiyə Cümhuriyyətinin belə bir mükafatını almaq nəsib olubdur.

Mən həyatımda çox mükafatlar almışam. Keçmişdə yaşadığımız Sovetlər Birliyi kimi böyük dövlətin ən yüksək mükafatlarını almışam. Başqa dövlətlərin də mükafatlarını almışam. Ancaq bu mükafat – Atatürk adına Beynəlxalq Sülh Mükafatı mənim üçün hamısından əziz, indiyə qədər aldığım bütün mükafatlardan üstündür.

S u a l: Cənab prezident, Siz dünyanın bu bölgəsindəki siyasəti uzun illərdən bəri ən fəal şəkildə həyata keçirən, daim siyasətçilərin içində olan bir insansınız. XX əsrin son ilini yaşayırıq. Sizcə, bölgəmizdəki siyasətlər, güc əməliyyatları necə olacaqdır? Rusiyadakı, Balkandakı, Qafqazdakı vəziyyət və s. barədə Sizin fikirlərinizi bilmək istərdik.

C a v a b: Əzizim, bu, çox böyük bir mövzudur. Buna qısa cavab vermək mümkün deyildir. Buna cavab vermək üçün gərək 15-20 dəqiqə danışasan. Amma qısa olaraq onu demək istəyirəm ki, XX əsrin son onilliyi dünya üçün çox böyük dəyişikliklər illəri, dövrü olmuşdur.

Birincisi, soyuq müharibə bitmiş, Sovetlər Birliyi dağılmış, Varşava paktı, müqaviləsi, yəni Sovetlər Birliyi ilə bərabər, Avropanın bir neçə sosialist ölkəsinin NATO-ya qarşı yaratdığı əsgəri iş birliyi dağılmışdır. Ən önəmli də odur ki, Sovetlər Birliyinin içində olan 15 cümhuriyyət öz istiqlaliyyətinə nail olmuş, dövlət müstəqilliyini əldə etmişdir. Bu, xüsusən bizim Azərbaycan üçün çox əhəmiyyətlidir, önəmlidir. Azərbaycanın XX əsrin ərzində ikinci dəfə istiqlaliyyət alması, ancaq birincidən fərqli olaraq bu dəfə istiqlaliyyəti qoruyub saxlaması Azərbaycan xalqı üçün tarixi bir hadisədir.

Sonra baş verən hadisələr, Balkanlarda olan hadisələr, Avropada olan hadisələr – bu təbiidir. Çünki bir çox sistemlər dağılmış və xalqlar daha da çox istiqlaliyyət əldə etmək istəmişlər. Bunlar hamısı da bəzi dəyişikliklərə gətirib çıxarmış-

dır. Mən hesab edirəm ki, əgər böyük dünya tarixini götürsək, bu dövr tarixi cəhətdən önəmli bir dövrdür.

S u a l: Cənab prezident, iyun ayında Azərbaycanda türkdilli ölkələrin prezidentlərinin zirvə toplantısı keçiriləcəkdir. Bu zirvə toplantısının əhəmiyyəti nədən ibarətdir?

C a v a b: Bilirsiniz, türkdilli dövlətlərin birliyi 1992-ci ildə yaranıbdır. Bunun yaranmasının təşəbbüskarı Türkiyədir, Türkiyənin cümhur başqanı, mənim əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəldir və Türkiyənin sabiq cümhur başqanı mərhum Turqut Özaldır. Bu da tarixi bir hadisədir, XX əsrin sonunda dünya tarixinə yazılası bir işdir. Çünki türk xalqları, türkdilli dövlətlər əsrlər boyu bir-birindən ayrı düşmüşlər. Bu dövlətlərin Türkiyədən başqa heç birinin istiqlaliyyəti olmamışdır. Ancaq bu türkdilli dövlətlər, cümhuriyyətlər istiqlal əldə etdilər və 1991-ci ilin sonunda istiqlaliyyət əldə edən kimi, bir neçə aydan sonra – 1992-ci ildə türkdilli dövlətlərin birliyinin əsası qoyuldu, yarandı. Artıq 7 ildir ki, bu birlik, bu qurum yaşayır və mən Azərbaycanın prezidenti kimi, 1993-cü ildən bu qurumun iştirakçısıyam. İlbəil, yəni hər ildən-ilə bu dövlətlərin iş birliyinin daha da genişlənməsi müşahidə olunur. Buna görə də türkdilli dövlətlərin başçılarının zirvə görüşü hər il bir ölkədə keçirilir. Bu il növbə Azərbaycanındır. Zirvə görüşümüz iyun ayının 14-də keçiriləcəkdir və güman edirəm ki, bu görüş də türkdilli dövlətlərin inkişafı üçün, gələcək istiqbalı üçün çox önəmli olacaqdır.

Bu görüşün böyük əhəmiyyəti, önəmi bir də ondan ibarətdir ki, iyun ayının 15-də bizim hamımızın müştərək milli sərvəti olan «Kitabi-Dədə Qorqud»un 1300 illiyini biz Azərbaycanda yubiley edəcəyik. Türkdilli dövlətlərin başçılarının hamısı bir yerə toplaşaraq tarixi köklərimizə bir daha hörmətimizi və minnətdarlığımızı bildirəcəyik və «Kitabi-Dədə Qorqud»un 1300 illiyini qeyd edəcəyik. Bunlar çox önəmlidir.

S u a l: Cənab prezident, keçmiş 15 sovet ölkəsinin, o cümlədən müstəqillik qazanan ölkələrdən biri kimi, Azərbaycanın inkişafı üçün iqtisadiyyatın inkişafının böyük rolu vardır. Bu baxımdan Xəzər neftinin dünya bazarına çıxarılması ilə və Bakı–Ceyhan layihəsinin həyata keçirilməsi ilə bağlı işlər necə gedir?

C a v a b: Bunlar çox yaxşı gedir. Biz – Azərbaycan, tarixi bir iş görmüşük. 1994-cü ildə böyük bir müqavilə imzaladıq – 7 ölkəyə mənsub olan 11 böyük neft şirkətinin yaratdığı konsorsiumla anlaşma, müqavilə imzaladıq. Bu müqaviləyə görə Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» və «Günəşli» zəngin neft yataqlarından neftin çıxarılması və dünya bazarlarına daşınması nəzərdə tutulmuşdur. Müqavilənin müddəti 30 ildir və bu müqaviləni həyata keçirmək üçün 8 milyard dollar yatırım, sərmayə planlaşdırılmışdır.

Bununla biz Xəzər dənizini dünyaya açdıq. Xəzər dənizinin çox zəngin təbii sərvətləri- nefti və qazı vardır. Biz bunun təkcə Azərbaycan üçün yox, təkcə bu bölgədə olan ölkələr üçün yox, dünya ölkələri üçün də istifadə olunmasının əsasını, təməlini qoyduq. O müqavilədən sonra Xəzər dənizi dünyanın bütün ölkələrinin diqqətini cəlb etdi. Bu, dünyanın ən zəngin neft, qaz bölgələrindən birinə çevrildi. Yəni bunlar var idi, amma biz bunu dünya üçün açdıq, anlatdıq və böyük neft şirkətləri Azərbaycana gəldilər, yeni-yeni təkliflər irəli sürdülər və 1994-cü ildən indiyə qədər, - sentyabr ayında 5 ili tamam olacaqdır, - biz 19 müqavilə, anlaşma imzalamışıq. Bunların da hamısında Azərbaycan Cümhuriyyətinə təxminən 50 milyard dollar sərmayə qoyulması nəzərdə tutulubdur.

Biz 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalayarkən o müqavilədə yazılıbdır ki, bu nefti ixrac etmək üçün, dünya bazarlarına çıxarmaq üçün ilkin neftin ixracı üzrə boru xətti yaratmaq lazımdır. Ancaq böyük neftin ixracı üçün əsas neft boru xətti yaratmaq lazımdır. Bu da Bakı–Ceyhandır.

Ötən illər ərzində biz iki neft boru xətti yaratdıq. Biri Bakı – Novorossiysk xəttidir. Rusiyanın Qara dənizdə olan Novorossiysk limanına gedən xətti biz 1997-ci ilin noyabr ayında açdıq. Çünki biz «Çıraq» yatağından neftin çıxarılmasına nail olduq və həmin boru ilə nefti ixrac edirik. Ancaq biz alternativ, ikinci xəttin, boru kəmərinin də tikilməsini lüzumlu bildik və ona da başladıq.

Bu il aprel ayının 17-də biz Gürcüstanın Qara dənizdəki Supsa limanına gedən Bakı–Supsa boru xəttini də açdıq. Neft artıq oradan da dünya bazarlarına ixrac olunur. Ancaq ən böyük neft, əsas neft Bakı–Ceyhan boru xətti ilə getməlidir. Biz dörd ildir çalışırıq ki, Bakı–Ceyhan boru xəttini reallaşdıraq. Bunun qarşısına çox çıxdılar. Yəni guya bu, lazım deyil. Bəzi neft şirkətləri, konsorsiumda olanlar, digər ölkələr neftin buradan, Türkiyədən və Ağ dənizə getməsinin əleyhinə olaraq, başqa yollarla getməsini lüzumlu hesab edərək, tələb edərək Bakı–Ceyhan boru xəttinin qarşısına çıxdılar, buna çox məneələr etdilər, müxtəlif təbliğatlar apardılar və s. Ancaq biz bunların hamısının qarşısını aldıq.

1994-cü ildə qəbul etdiyimiz qərarı biz ardıcıl surətdə yerinə yetiririk və Azərbaycan burada da öz iradəsini göstərdi. Burada da Türkiyə ilə Azərbaycanın iş birliyi üçün 1994-cü ildə biz bəyan etdiyimiz Bakı–Ceyhan boru xəttinin tikilməsi, reallaşdırılması üçün hər cür tədbirləri gördük və nəticə də aldıq. Nəticə də ondan ibarətdir ki, keçən il oktyabr ayının 29-da Türkiyə Cümhuriyyətinin 75 illik yubileyində biz burada, Ankarada böyük bir anlaşma imzaladıq. Bu anlaşmanı Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan imzaladılar ki, yəni Qazaxıstan da, Özbəkistan da öz neftini bu boru xətti ilə nəql edəcək və Azərbaycan bütün nefti bu xətt ilə keçirəcəkdir. Bu, Gürcüstanın ərazisindən də keçəcək, Türkiyədən Ağ dənizə gedəcəkdir. Ancaq yenə də

bizim o konsorsiumda bunun əleyhinə çıxanlar var idi – guya bunun çox baha olduğunu söyləyirdilər.

Bir neçə aydır ki, biz bu barədə danışıqlar aparırıq və Türkiyə ilə Azərbaycan arasında çox böyük tədbirlər, yəni ilişkilər gedir. Nəhayət, onlara da anlatdıq və güman edirəm ki, yaxın vaxtlarda son qərar qəbul olunacaq və Bakı-Ceyhan neft boru xəttinin tikilməsinə başlanacaqdır.

S u a l: Cənab prezident, hazırda bu qərarın qarşısını alan əngəl varmı və varsa, hansıdır?

C a v a b: Elə bir əngəl yoxdur. Sadəcə, burada Türkiyənin hökuməti də gərək bəzi şeyləri həll etsin. Çünki o vaxtkı konsorsiumun içində olan şirkətlər bəyan etdilər ki, Bakı – Ceyhan boru xəttinin çəkilişi bahadır, bunun dəyəri 3,7 milyard dollardır. Ancaq sonra Türkiyə də bu işə çox qatıldı, Amerika bu işə çox dəstək verdi və araşdırmalar aparıldı. Sübut olundu ki, yox, bu, doğru rəqəm deyildir. Bunun təxminən 2,7 milyard dollar, ya ondan da az olması artıq sübut, isbat edildi. Bunların hamısı, yəni bəzi maliyyə, texniki məsələlər çözülməlidir. Başqa bir şey yoxdur.

M ü x b i r: Cənab prezident, mənim soruşmaq istədiklərim bu qədər. Sizin söyləmək istədiyiniz fikir varsa, buyurun.

H e y d ə r Ə l i y e v: Sağ olun. Mən sizə təşəkkür edirəm. «Nərgiz-TV» kanalı çox gözəl bir kanaldır. Bilirsiniz ki, bu, Azərbaycanda da yayımlanır və onu Azərbaycanda da çox məmnuniyyətlə seyr edirlər.

Mən heç unutmaram ki, 1997-ci ildə sizin apardığınız sorğulara görə Türkiyənin «NTV» televiziya kanalı Azərbaycanın prezidentini, cümhur başqanını «dünyanın siyasət adamı» kimi qiymətləndirdi, İstanbulda gözəl bir mərasim keçirildi və mənə mükafat verildi. Mən bunu çox yüksək qiymətləndirirəm.

Mən Türkiyənin «NTV» kanalına uğurlar, müvəffəqiyyətlər diləyirəm. «Nərgiz –TV»nin seyrçilərinə də, bütün Türkiyə

vətəndaşlarına da uğurlar, sülh, əmin-amanlıq, rifah və gözəl istiqbal, gələcək arzulayıram. Mənim ürəkdən gələn salamlarımı bütün Türkiyənin vətəndaşlarına çatdırmağınızı rica edirəm. Sağ olun.

Müsahibəni Türkiyənin «Nərgiz-TV» televiziyasının Ankaradakı təmsilçisi Murat Yetrin aparmışdır

MUSTAFA KAMAL ATATÜRKÜN ÇANKAYA KÖŞKÜNDƏKİ EV MUZEYİNDƏ

24 may 1999-cu il

... Cənab prezident, Mustafa Kamal Atatürk 56 illik ömrünün xeyli hissəsini bu binada yaşamışdır. 1921-ci ilin əvvəllərində bu bina Atatürkə hədiyyə edilmişdir. Mustafa Kamal Atatürk bu binanı türk ordusunun balansına vermiş və onu «Ordu köşkü» adlandırmışdır. 1924-cü ildə memar Məhmət Vədat bu binaya bəzi əlavələr etmişdir. Həmin köşkdən 1932-ci ilin iyun ayına qədər Türkiyə Respublikasının ilk prezident iqamətgahı kimi istifadə olunmuşdur. Türkiyə Cümhuriyyətinin tarixində mühüm yer tutan bu bina yeni köşk tikilməndən sonra muzeyə çevrilmişdir.

Heydər Əliyev: Bu çox düzgün və dövlət əhəmiyyətli addımdır. Burada nümayiş etdirilən orijinal eksponatlar, çox ustalıqla yaradılmış əsərlər, nəfis şəkildə hazırlanmış əşyalar çox maraqlıdır, çünki onların hər biri Türkiyə Cümhuriyyətinin yaradıcısı Mustafa Kamal Atatürkün əziz xatirəsini yaşadır.

* * *

Muzeyin xatirə kitabına yazdığı ürək sözləri:

«Böyük Mustafa Kamal Atatürkün ev muzeyini qürur hissi ilə ziyarət etdim. Bu, mənim üçün tarixi hadisədir.

Muzey Atatürkün həyatının nə qədər sadə və nə qədər də mənalı, zəngin olduğunu gözəl əks etdirir. Atatürkün qurduğu Türkiyə Cümhuriyyəti ona abidə kimi yaşayır. Türk xalqına uğurlar olsun.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

24 may 1999-cu il»

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İOHANES RAUYA

Hörmətli İohanes Rau, Sizi Almaniya Federativ Respublikasının prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, ölkələrimiz arasındakı mövcud əlaqələr bundan sonra da xalqlarımızın rifahı naminə dönmədən inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

24 may 1999-cu il

ANTALYAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL ÇANKAYANIN CAMLI KÖŞKÜNDƏKİ FƏXRİ QONAQLAR KİTABINA YAZDIĞI ÜRƏK SÖZLƏRİ

«Ankarada Camlı köşkdə yaşamağımdan çox məmnunam. Burada gözəl, mehriban insanlar çalışır. Mənə böyük qayğı və diqqət göstərilir, təşəkkür edirəm.

Burada çalışanlara cansağlığı, səadət, uğurlar diləyirəm.

Heydər Əliyev

25 may 1999-cu il»

ANTALYANIN HAVA LİMANINDAKI ALİ QONAQLAR OTAĞINDA TELEVİZİYA VƏ MƏTBUAT İŞÇİLƏRİNƏ BƏYANAT

25 may 1999-cu il

Hörmətli mətbuat işçiləri, dostlar!

Mən sizin hamınızı salamlayıram. Siz bilirsiniz ki, mən Amerikada cərrahiyyə əməliyyatı keçirmişəm. Orada müalicəm başa çatandan sonra Türkiyənin cümhur başqanı, əziz dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl məni Türkiyəyə istirahətə dəvət edibdir. Mən bu dəvəti çox məmnuniyyətlə qəbul etmişəm və mayın 20-də Ankaraya gəlmişəm. Bu günə qədər Ankarada oldum, bir neçə görüşlər keçirdik. Birincisi, mənim dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl ilə çox söhbətlər etdik.

Mən sizin qarşınızda bir daha bildirmək istəyirəm ki, Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı bizim xalqımız – Azərbaycan xalqı üçün çox önəmlidir, çox əhəmiyyət kəsb edir.

Ölkəmiz öz istiqlaliyyətini, müstəqilliyini əldə edəndən sonra Azərbaycan ilə Türkiyə arasındakı dostluq, qardaşlıq əlaqələri, ilişkiləri gündən-günə inkişaf edir. Biz bunu yüksək qiymətləndiririk. Mən dəfələrlə demişəm, bu gün də sizə bəyan edirəm ki, biz bu dostluğa, qardaşlığa daim sadiqik. Bu dostluğumuz, qardaşlığımız çox yüksək dərəcələrə çatıbdır və əbədidir, sarsılmazdır.

Mən dostum, qardaşım, cümhur başqanı hörmətli Süleyman Dəmirəlin Türkiyə–Azərbaycan dostluğunun yaranmasında və inkişaf etməsində xüsusi xidmətlərini məmnuniyyətlə qeyd edirəm.

Hörmətli Süleyman Dəmirəl mənə çox böyük qayğı, diqqət göstərir. Bilirsiniz ki, bu ilin yanvar ayında mən xəstələnmişdim, rahatsız olmuşdum. O məni dərhal Türkiyəyə dəvət etdi. Mən iki həftə Türkiyədə müalicə olundum və vətənə döndüm. Prezident Süleyman Dəmirəl mənə çox qayğı, dostluq, mehribanlıq münasibəti göstərdi. İndi məni yenidən Türkiyəyə dəvət edibdir. Amma buna qədər mən Amerikada, Klivenddə olarkən o, bizimlə hər gün əlaqə saxlayıbdır, mənim həkimlərimlə danışıbdır, səhhətimi, sağlamlığımı daim izləyibdir.

Hörmətli cümhur başqanı ilə bizim bu günlər çox gözəl danışıqlarımız, söhbətlərimiz oldu. Bu söhbətlər Türkiyə-Azərbaycan dostluğunu, qardaşlığını, bizim əlaqələrimizi inkişaf etdirməkdən ibarətdir. Mən bütün bu söhbətlərdən, danışıqlardan çox məmnunam.

Ankarada bir neçə başqa görüşlərim də oldu. Baş nazir hörmətli Büləncd Ecevitlə, Türkiyə Böyük Millət Məclisinin başqanı hörmətli Yıldırım Akbulutla, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə, Ana Vətən Partiyasının sədri hörmətli Məsud Yılmazla və digər şəxslərlə mənim görüşlərim oldu. Mən Türkiyə televiziyası vasitəsilə də bir çox məsələləri söylədim. Güman edirəm ki, siz onları dinləmisiniz, eşitmisiniz.

Mən çox məmnunam ki, Amerikada keçirdiyim rahatsızlıqdan sonra Türkiyədəyəm, öz məmləkətimdəyəm, öz ölkəmdəyəm. Türkiyə bizim üçün nəinki dost, qardaş, doğma bir yerdir, mənim üçün müqəddəs bir yerdir. Ona görə Türkiyəyə gələndən sonra mənim durumum daha da yaxşılaşıbdır.

Bu gün də Antalyaya gəlmişəm. Mən burada heç vaxt olmamışam. Buranı çox gözəl bir yer deyirlər. Dünyanın hər yerindən buraya turistlər gəlir. İnsanlar buranı çox sevirlər. Azərbaycanda da buranı sevirlər. Ancaq indiyə qədər buraya gəlməyə imkanım olmayıbdır. Cümhur başqanı, hörmətli

Süleyman Dəmirəl məni buraya hər il dincəlməyə, istirahət etməyə dəvət edir. Ancaq imkanım olmayıbdır. İndi isə dincəlməyə, istirahət etməyə müəyyən qədər məcburən gəlmişəm. Buraya gəlməyimdən çox məmnunam. Güman edirəm, burada bir neçə gün istirahət edəndən sonra vətənə – Bakıya, Azərbaycana dönəcəyəm.

Mən sizi və sizin şəxsinizdə Antalyanın, Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarını bir daha salamlayıram, öz hörmət və ehtiramımı bildirirəm. Türkiyə Cümhuriyyətinə uğurlar arzulayıram. Türkiyə vətəndaşlarının hər birinə can-sağlığı, səadət, həyatlarında, işlərində uğurlar arzulayıram. Sağ olun.

Mətbuat işçiləri də hər yerdə – Ankarada da, digər yerlərdə də həmişə mənə çox diqqət göstərirlər. Mən sizə təşəkkür edirəm ki, bu gün buraya, mənimlə görüşməyə gəlmisiniz. Təşəkkür edirəm. Çox sağ olun.

TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASINA MÜSAHİBƏ*

Antalya, Simena köşkü

28 may 1999-cu il

M ü x b i r: Sevimli tamaşaçılar, axşamınız xeyir olsun. Burada, Antalyada Azərbaycan Respublikasının möhtərəm prezidenti Heydər Əliyevin qonağıyıq. Möhtərəm cümhur başqanı, çox təşəkkür edirik ki, bizi qəbul etdiniz. Çətin bir əməliyyata məruz qaldınız, amma çox yaxşı görünürsünüz. İndi sağlamlığınız necədir?

H e y d ə r Ə l i y e v: Yaxşıyam. Türkiyəyə, Antalyaya gələndən sonra günü-gündən yaxşılaşıram. Səhhətim tam yaxşılaşıbdır.

S u a l: Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti yaranmasının 81-ci ildönümünü bayram edir. Siz bu münasibətlə xalqa müraciət etdiniz. Bu barədə duyğu və düşüncələrinizi söylərdinizmi?

C a v a b: Mən dünən sizin televiziya vasitəsilə buradan birbaşa Azərbaycana və Respublika sarayında toplaşmış Azərbaycan vətəndaşlarına milli bayramımız – 28 May günü, istiqlaliyyət günü münasibətilə təbriklərimi bildirdim, qəlbimdə olan sözləri bütün Azərbaycan vətəndaşlarına çatdırdım. Sizə təşəkkür edirəm ki, «Samanyolu» televiziyası bu işi təşkil etdi. Eyni zamanda Sizin televiziya kanalınız mənim

* Müsahibə canlı efir vasitəsilə birbaşa yayımlanmışdır.

xalqa dünənki müraciətimi Türkiyəyə yaydı, Azərbaycana yaydı. Buna görə Sizə təşəkkür edirəm.

Bu gün bizim istiqlaliyyət bayramımızdır. Mən səhərdən Azərbaycanla, Bakı ilə telefon əlaqəsi saxlayıram. Mənə məlumat verdilər ki, istiqlal bayramı Bakıda, Azərbaycanın bütün şəhərlərində, hər yerdə böyük ruh yüksəkliyi ilə qeyd olunur. İnsanlar sevinir, şadlanırlar ki, artıq səkkizinci ildir Azərbaycan müstəqil dövlətdir və müstəqillik şəraitində yaşayır. Dünən dediyim kimi, bu səkkiz il müddətində bir çox nailiyyətlər əldə olunubdur. Bunlara görə mən bu gün çox xoşbəxtəm, çox sevinirəm. Həm də məmnunam ki, sizinlə yenidən görüşmüşəm.

S u a l: Sayın cümhur başqanı, çox təşəkkür edirəm. O məmnuniyyət bizə aiddir. Təbii ki, hər bir müstəqillik böyük zəhmətlə əldə edilir. Azərbaycan da müstəqilliyini qazanarkən xalqımız böyük fədakarlıq göstərdi. Azərbaycan müstəqil türkdilli dövlət olaraq dünyada şərəfli yerini tutdu. Biz bundan çox məmnunuq.

Siz bu yaxınlarda «Atatürk Beynəlxalq Sülh Mükafatı»na layiq görülmüsünüz. Bununla əlaqədar duyğu və düşüncələrinizi bilmək istərdik.

C a v a b: Mən çox xoşbəxtəm, çox böyük qürur hissi keçirirəm, çox fəxr edirəm ki, mənə Türkiyə Cümhuriyyətinin ən yüksək mükafatı – «Atatürk Beynəlxalq Sülh Mükafatı» verilibdir. Mən həyatımda çox mükafatlar almışam. Keçmişdə, Sovetlər Birliyində bu böyük dövlətin ən yüksək mükafatlarını almışam, bir neçə başqa dövlətlərin də mükafatlarını almışam.

Ancaq böyük Mustafa Kamal Atatürkün adını daşıyan bu sülh mükafatı mənim üçün həyatımda aldığım mükafatların hamısından qiymətlidir, üstündür və hamısından şərəflidir. Mən çox məmnunam ki, Türkiyə Cümhuriyyətinin Atatürk Mükafatı Komitəsi böyük araşdırmalardan sonra mənim

Azərbaycanda gördüyüm işlərə, Azərbaycanın prezidenti kimi fəaliyyətimə və xüsusən Azərbaycanda sülhün, əmin-amanlığın yaranmasında gördüyüm işlərə və fəaliyyətimə yüksək qiymət veribdir və məni bu mükafatla təltif edibdir. Mən çox minnətdaram ki, Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl bu komitənin çıxardığı qərarı təsdiqləyib, beləliklə, mənə bu mükafatın verilməsi elan olunubdur.

Bilirsiniz ki, Azərbaycan on bir il bundan öncə Ermənistanın təcavüzü nəticəsində hərbi münaqişəyə qatılıbdır. 1988-ci ildən 1994-cü ilin may ayına qədər Azərbaycan döyüşlər, müharibə içərisində idi. Azərbaycan bu döyüşlərdə çox itkilər verdi, çox qanlar töküldü. 1994-cü ilin may ayında biz Ermənistanla atəşkəs haqqında saziş imzaladıq. Beləliklə, beş ildən artıqdır ki, xalqımız atəşkəs şəraitində yaşayır.

Siz onu da bilirsiniz ki, təkcə atəşkəslə iş bitmir. Bildiyiniz kimi, Azərbaycanın daxilində də çox çarpışmalar, çəkişmələr, toqquşmalar vardı.

M ü x b i r: Zati-aliniz cümhur başqanı seçildikdən sonra Sizin ilk məqsədiniz Azərbaycanın daxilində sabitlik yaratmaq oldu.

H e y d ə r Ə l i y e v: Bəli. Bilirsiniz ki, 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi başladı, insanlar bir-birinə qarşı durdular, qan töküldü. Azərbaycan artıq parçalanırdı. Bu zaman məni Naxçıvandan Bakıya dəvət etdilər. Bakıya gəlib bir həftə məsələləri öyrənəndən sonra razılıq verdim ki, məni Azərbaycan Milli Məclisinin sədri seçsinlər. Bir neçə gündən sonra isə Azərbaycan prezidentinin səlahiyyətləri mənə verildi. 1993-cü il oktyabr ayının 3-də isə mən Azərbaycanın prezidenti seçildim.

O vaxt Azərbaycanda vəziyyətin necə olduğunu siz yaxşı bilirsiniz. Çünki bilirəm ki, siz hələ 1992-ci ildən Azərbaycandaydınız – sizi həm Bakıda, həm də Naxçıvanda görmüşdüm.

Çox ağır vəziyyət idi. Bir tərəfdən, ermənilərlə müharibə gedirdi. İkinci tərəfdən, Azərbaycanın daxilində sabitlik yox idi, ayrı-ayrı qanunsuz silahlı dəstələr, ayrı-ayrı insanlar hakimiyyət uğrunda mübarizə aparırdılar, beləliklə də ermənilərə fürsət verirdilər ki, onlar daha da irəliləsinlər, daha çox torpaqlarımızı işğal etsinlər.

Ona görə mənim üzərimə çox böyük vəzifələr düşdü. Bir tərəfdən, mən gərək Azərbaycanın torpaqlarının qorunmasını təmin edəydim. Amma Azərbaycanın daxilində vəziyyəti normallaşdırmasaydıq, yəni ictimai-siyasi sabitlik yarada bilməsəydik, bunu edə bilməzdik. Bu da asan bir şey deyildi. Bunun üçün biz çox çalışdıq. Bir neçə il – 1993-cü ildə, 1994-cü ildə, 1995-ci ilə qədər daxili məsələlərimizin normallaşması, sabitliyin əldə edilməsi üçün çalışdıq. Çünki 1993-cü ildə vətəndaş savaşının qarşısını alandan sonra, 1994-cü ilin oktyabr ayında da Azərbaycanda yeni bir silahlı dövlət çevrilişi cəhdi oldu. Ondan sonra, 1995-ci ilin mart ayında OMON dəstəsi silahla ayağa qalxdı, Azərbaycanın hakimiyyətini, prezidentini məhv etmək, devirmək istədilər. Bunların da qarşısını aldıq.

Ondan sonra bir neçə terror, təxribat aktları oldu. Bunların da qarşısını aldıq. Nəhayət, 1995-ci ilin sonundan başlayaraq Azərbaycanda ictimai-siyasi sabitliyi təmin etdik. Bu gün, bayram günü mən onu deyə bilərəm ki, bu illərdə bizim ən böyük nailiyyətimiz odur ki, Azərbaycanın daxilində ictimai-siyasi sabitlik yaratdıq. Bu sabitlik də gündən-günə möhkəmlənir və hesab edirəm ki, Azərbaycanın müstəqil dövlət kimi yaşaması və inkişaf etməsi üçün bu, ən əsas şərtdir. Biz buna nail olmuşuq.

S u a l: Yəni ən əvvəl daxili sabitlik gərəkdir. Çünki bütün dünyanın gözü müstəqil Azərbaycan dövlətində idi.

C a v a b: Bəli. Ona görə də mən daxildə sülh yaratdım. Həm də ki, ermənilərlə atəşkəs əldə etdim. Böyük Mustafa

Kamal Atatürk demişdir: «Yurdda sülh, cahanda sülh». Mən yurdda sülh yaratdım, cahanda da sülhün yaranması üçün bütün səylərimi qoyuram.

S u a l: Zati-alilərinin sayəsində Ermənistanla imzalanmış atəşkəs sazişi sülh üçün çox önəmli köməkdir. Hörmətli cümhur başqanı, bundan sonra sülh üçün nə iş görülür?

C a v a b: Biz atəşkəs sazişi imzaladıq ki, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Beş ildir ki, biz bu barədə çalışırıq.

Bilirsiniz ki, 1992-ci ildə ATƏT Ermənistan – Azərbaycan münaqişəsinin həll edilməsi üçün Minsk qrupu yaradıbdır. Minsk qrupunun da həmsədrləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon zirvə görüşündə böyük bir nailiyyət əldə etdik. O da ondan ibarətdir ki, 54 dövlətdən 53-ü səs verdi ki, Ermənistan-Azərbaycan münaqişəsi hansı prinsiplər əsasında həll oluna bilər.

Bu, bizim üçün çox önəmlidir. Azərbaycanın ərazi bütövlüyü o deməkdir ki, Azərbaycanın işğal edilmiş 20 faiz torpağı azad olunmalıdır, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz evinə-obasına qayıtmalıdır. Təhlükəsizlik də ondan ibarətdir ki, daha müharibə olmamalıdır. Dağlıq Qarabağa Azərbaycan dövlətinin daxilində yüksək dərəcəli özünüidarəetmə statusu verilməsi normal bir şeydir.

Ancaq ermənilər bunu qəbul etmədilər. 1997-ci ildə, 1998-ci ildə bunu qəbul etmədilər. Baxmayaraq ki, Lissabonda ATƏT-in 54 üzvündən 53-ü bu prinsiplərə səs verdi, ancaq Ermənistan etiraz etdi.

Ondan sonra yeni danışıqlar aparırıq. Bilirsiniz ki, mən son vaxtlar Ermənistanın prezidenti ilə də görüşmüşəm. Rusiyanın prezidenti, Fransanın prezidenti ilə görüşmüşəm, Amerikanın prezidenti Klintonla görüşmüşəm və hər biri söz verir ki, onlar çalışırlar və bundan sonra da çalışacaqlar ki,

məsələnin sülh yolu ilə həllinə nail olsunlar. Hətta Amerikanın prezidenti cənab Bill Klinton Vaşinqtonda mənimlə danışarkən belə bir söz dedi ki, 2000-ci ildə prezidentlik səlahiyyətim bitir. Hesab edirəm ki, mənim əsas vəzifələrimdən biri prezidentlik səlahiyyətim bitənə qədər Ermənistan-Azərbaycan münaqişəsini, Qarabağ məsələsini həll etməkdən ibarətdir. Mən bunu sizə söz verirəm.

Mən çox məmnun oldum, çünki onların bu işdə fəallığı, əlbəttə ki, məsələnin həll edilməsinə gətirib çıxara bilər.

S u a l: Sayın cümhur başqanı, Azərbaycan çox çətin günlərdən keçərək bu gözəl günlərə gəldi, müstəqil dövlətdir. Bizim indiki canlı yayımımız Azərbaycandakı türk məktəblərinin növbəti dərs ilinin başa çatması münasibətilə Bakıda toplaşan uşaqlar və onların valideynləri tərəfindən də izlənilir. Mən bu barədə də suahımı verəcəyəm.

İndi isə soruşmaq istərdim ki, Azərbaycanın gələcəyini necə təsəvvür edirsiniz?

C a v a b: Azərbaycanın gələcəyi mənim üçün çox açıq görünür. Birincisi, Azərbaycanın müstəqilliyi – bu, əsas şərtdir. Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq və onu dönməz, əbədi etmək bizim əsas vəzifəmizdir. Səkkizinci ildir ki, Azərbaycan müstəqillik dövrünü yaşayır. Altı ildir ki, mən Azərbaycana rəhbərlik, prezidentlik edirəm. Qürur hissi keçirirəm ki, bu illərdə, ağır illərdə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına xalqla, millətlə birlikdə, bütün ölkə ilə birlikdə nail ola bilmişəm. Bu, mənim gördüyüm ən böyük işlərdəndir.

Azərbaycanın gələcəyi də bununla bağlıdır. Azərbaycanın imkanları böyükdür ki, müstəqil yaşayanda iqtisadiyyatı inkişaf etsin, insanların rifah halı yaxşılaşsın, Azərbaycanın mədəniyyəti, elmi, təhsili inkişaf etsin. Mən Azərbaycanın gələcəyini çox gözəl görürəm, çox gözəl. Əgər biz Ermənistan – Azərbaycan münaqişəsini tezliklə həll edə bilsək, bölgə-

mizdə sülh yarada bilsək, Azərbaycanın işğal olunmuş torpaqlarını azad edə bilsək, soydaşlarımızın öz yerinə-yurduna qayıtmasını təmin edə bilsək, ondan sonra Azərbaycanın bütün problemlərini çox gözəl və asanlıqla həll edəcəyik.

M ü x b i r: Azərbaycanın üfüqü, önü açıqdır...

H e y d ə r Ə l i y e v: Üfüqü açıqdır, önü açıqdır. Azərbaycan irəliyə gedir, dünyanın ən gözəl dövlətlərindən biri olacaqdır. Elə indi də Azərbaycan Dünya Birliyində, dünya dövlətləri içərisində öz yerini tutubdur. Azərbaycana böyük hörmət edirlər, maraq göstərirlər.

Azərbaycan dünyanın strateji nöqtələrindən biridir. Siz bilirsiniz, biz bu barədə çox işlər görürük. Qədim, tarixi İpək yolunun bərpa edilməsi sahəsində Azərbaycanın gördüyü işlər dünyada bu məsələnin canlanmasına, həll olunmasına gətirib çıxarıbdır. Məsələn, Yaponiya hökuməti İpək yolu haqqında qərar çıxarıb. Yaxud, Amerika senatoru Braunbek İpək yolu haqqında qanun layihəsi hazırlayıbdır ki, Konqresdə İpək yolu barədə qanun qəbul olunsun. Bu işlərin əsasını, təməlini biz Azərbaycanda qoymuşuq.

S u a l: Bir az öncə buyurdunuz ki, Azərbaycan dövlətinə etibar edilir. Demək istəyirəm ki, Azərbaycan dövləti zatialilərinizin rəhbərliyi sayəsində bu nöqtəyə gəldi. İki gündür ki, Sizin qonağınızıq, təşəkkür edirik. Fikir verirəm ki, Siz hər an, hər dəqiqə bütün dünya ilə əlaqə saxlayırsınız. Mətbuat vasitəsilə, telefonla əlaqə saxlayırsınız. Burada davamlı olaraq Azərbaycanla bağlı yeni layihələr üzərində çalışırsınız.

C a v a b: Bəli, tamamilə doğru deyirsiniz. Yeni layihələr üzərində çalışıram və əminəm ki, bu layihələrin hamısını həyata keçirə biləcəyik.

S u a l: İnşallah, inanırıq ki, belə də olacaqdır. Sayın cümhur başqanı, Amerikada da bir müddət oldunuz, oraya da işlər görmək üçün getmişdiniz. Mühüm görüşlər keçirdiniz, hörmətli Klintonla, başqa liderlərlə görüşdünüz.

Bu sualı çox vermişəm, izn versəydiniz, bir də soruşardım. Bakı–Ceyhan boru xətti məsələsində son vəziyyət necədir?

C a v a b: Mən Amerikaya NATO-nun toplantısına, zirvə görüşünə getmişdim. Bu, çox önəmli bir hadisədir. Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edir. Bu proqram çərçivəsində biz NATO ilə çox geniş əməkdaşlıq edirik. Bu əməkdaşlıqdan, iş birliyindən də çox məmnunuq. Məsələn, iki-üç gün bundan öncə NATO-nun böyük bir heyəti, altmış nəfər NATO-nun Baş katibi köməkçisinin rəhbərliyi ilə Azərbaycana gəlmişdi. Bir neçə gün Azərbaycanda olmuş, 8 ölkənin təmsilçilərini dəvət edib «Sülh naminə tərəfdaşlıq» proqramının irəlilədilməsi üçün tədbirlər görmüşlər. Bunu gəlib Azərbaycanda ediblər, Azərbaycana 8 ölkədən təmsilçilər gəlibdir. Bu, Azərbaycanla NATO arasında əlaqələrin nə qədər yaxşı inkişaf etməsini göstərir.

Mən Vaşinqtonda NATO-nun bütün mərasimlərinə qatıldım, bütün görüşlərdə oldum. NATO-nun zirvə görüşündə mən Azərbaycan adından söz dedim, münasibətimizi bildirdim, NATO-nun yeni strateji konsepsiyasını dəstəkləmişəm.

Amma NATO-nun toplantısından iki-üç gün öncə də və ondan sonra da Vaşinqtonda çox görüşlər keçirdim. Prezident cənab Bill Klintonla, dövlət katibi xanım Olbraytla, bir çox senatorlarla, nazirlərlə, konqresmenlərlə görüşdüm. Biz orada Amerikanın böyük şirkətləri ilə üç yeni neft müqaviləsi imzaladıq. Beləliklə, 1994-cü ildən indiyə qədər Azərbaycan neft şirkətləri ilə 19 müqavilə imzalayıbdır.

Sonuncu üç müqaviləni Amerika senatının binasında – senatorların, konqresmenlərin iştirakı ilə imzaladıq. Bu, çox önəmli bir hadisədir.

Başqa görüşlərimiz də oldu. Məsələn, Amerikanın dövlət katibi xanım Olbrayt Qafqaz dövlətlərinin prezidentlərini – Gürcüstan, Azərbaycan, Ermənistan prezidentlərini bir yerə

topladı, bir neçə ölkənin xarici işlər nazirləri ilə birlikdə Qafqazda iş birliyi haqqında, müştərək işlər görülməsi haqqında məsələlər müzakirə edildi. Sonra Ermənistanın prezidenti ilə görüşdüm. Bir çox başqa işlər də gördük.

Bunları bitirəndən sonra isə mənə dedilər ki, səhhətimi yoxlamaq lazımdır. Mən o qədər də istəmirdim. Mənim indi bir doktorum var – Ertan Dəmirtaş. O da Türkiyədəndir, gözəl bir insandır, paşadır, admiraldır, böyük bir kardioloq, professordur. O da Vaşinqtonda mənim yanımda idi və mənə dedi ki, mütləq lazımdır. Mən onun sözünə baxdım, getdik Klivlendə. Orada mənim səhhətimi yoxladılar, dedilər ki, əməliyyat lazımdır. Dedim ki, lazımdır, lazımdır – əməliyyatı keçirdim. Sizə bunları demək istədim.

Sualınız Bakı–Ceyhan boru xətti barədədir. Bakı–Ceyhan neft kəməri haqqında qərarı biz 1994-cü ildə ilk müqaviləni imzalayanda yazmışıq. Amma sonrakı dövrdə bu layihəni həyata keçirmək üçün çox maneələrlə, etirazlarla rastlaşdıq. Bəzi ölkələr tərəfindən bizə təzyiq edildi, çox çətin oldu. Son olaraq konsorsiumun üzvləri də Bakı–Ceyhan xəttinin baha olduğunu bəyan edərək dedilər ki, Azərbaycanda, Xəzər dənizindən çıxarılan nefti dünya bazarına hələlik iki boru xətti ilə daşımaq olar: biri Bakı–Novorossiysk kəməri ilə Rusiyanın Novorossiysk limanına, ikincisi də, - aprel ayının 17-də biz Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına boru xəttini açdıq, - Bakı–Supsa kəməri ilə çatdırmaq olar.

Ancaq mən dedim yox, Bakı–Ceyhan neft kəməri barəsində 1994-cü ildən çalışıram. Nəhayət, keçən il oktyabr ayının 29-da Ankarada, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümü münasibətilə böyük bir toplantıda idik, orada böyük bəyannamə imzalandı. Onu Türkiyənin, Azərbaycanın, Gürcüstanın, Qazaxıstanın və Özbəkistanın prezidentləri imzaladılar. Amerika Birləşmiş Ştatlarının energetika naziri Ruçardson

da ona imzasını atdı. Beləliklə, biz Bakı-Ceyhan boru xəttinin reallaşmasını həyata keçirdik.

Ondan sonrakı aylarda bəzi maliyyə məsələləri, texniki məsələlər həll olunur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, yəni konsorsium çox böyük qiymət göstərmişdi – 3,7 milyard dollar. Amma indi Türkiyənin bu işlə məşğul olan adamları, maliyyəçiləri, onlar neçə vaxtdır Azərbaycanla danışıqlar, müzakirələr aparırlar, - bəyan edirlər ki, ola bilər, bunun qiyməti 2,4 milyard dollar olsun. Bu da tamamilə yaxşıdır.

İndi Türkiyədə yeni hökumət quruldu.

M ü x b i r: Quruldu, əfəndim. Hörmətli Baş nazirimiz Büləndd Ecevit ortaq partiyalarla bir protokol imzaladılar. Hörmətli cümhur başqammıza təklif ediləcək, yəni «hökumət quruldu» deyə bilərik.

H e y d ə r Ə l i y e v: Hörmətli prezident Süleyman Dəmirəl bu gün mənə telefon etmişdi. Azərbaycanın istiqlaliyyət günü münasibətilə məni təbrik etdi, eyni zamanda dedi ki, hökumət artıq qurulur. Beləliklə, Türkiyədə hökumət qurulandan sonra Bakı–Ceyhan boru xəttinin bir çox məsələsini də tezliklə həll etmək mümkün olacaqdır.

S u a l: Sayın cümhur başqanı, canlı yayınımızdır, bayaq ərz etdiyim kimi, minlərlə Azərbaycan gəncinin də dərs ilinin qurtarması ilə əlaqədar mərasim keçirilir. Böyük Atatürkün göstərdiyi məqsədlər yönündə Azərbaycanda türk kollecləri açıldı və ötən illərdə Sizin himayənizlə onlar beynəlxalq müsabiqələrdə Azərbaycan dövlətinin bayrağını ən yüksək nöqtədə dalğalandırdılar. Çox birinciliklər qazandılar. Təbii ki, bu gənclər böyük Azərbaycanın gələcəyində çox önəmli xidmətlər göstərəcəklər. Bu məktəblər barədə düşüncələrinizi söyləməyinizi rica edərdim.

C a v a b: Bilirsiniz, Azərbaycanda türk məktəblərinin açılmasını mən hələ Naxçıvanda olarkən, hələ 1992-ci ilin

əvvəllərində hiss etdim. Sizin adamlar Naxçıvana gəldilər, mənimlə görüşdülər. Naxçıvanda türk məktəbinin açılmasını rica etdilər, mən də bunu dəstəklədim və türk məktəbi açıldı.

Amma bu məktəblər Azərbaycanın başqa yerlərində də açılmağa başlamışdı. 1993-cü ildə mən Bakıya gələndən sonra Azərbaycanda türk məktəblərinin açılması haqqında mənə geniş məlumat verdilər. Mən bunu həmişə dəstəkləmişəm, buna həmişə yardım etmişəm, bu gün də edirəm, sabah da edəcəyəm.

Çünki bu məktəblər Azərbaycanın təhsil sistemində bir yenilik yaradır. Azərbaycanın təhsil sistemi keçmiş Sovetlər Birliyinin təhsil sistemidir. İndi biz o təhsil sistemində – həm orta məktəb təhsilində, həm ali, universitet təhsilində bir çox islahatlar həyata keçiririk və bundan sonra da keçirəcəyik. Ona görə də Türkiyənin məktəblərinin, kolleclərinin təcrübəsi Azərbaycan üçün lazımdır. Bu, birincisi.

İkincisi də, sizin bu məktəblərdə Azərbaycanın uşaqları, gəncləri təhsil alırlar, oxuyurlar. Bildiyimə görə, onların təhsil alması üçün çox gözəl şərait yaratmısınız. Onlara yaxşı təhsil verirsiniz. Bunun da nəticəsində onlar dünya olimpiadalarında medallar alırlar, gözəl yerlər tuturlar. Mənə məlumat verdilər ki, sizin məktəbləri bitirənlərin 99 faizi Azərbaycanın universitetlərinə qəbul olunurlar. Bu da böyük işdir, çox böyük işdir. Ona görə də mən sizə təşəkkürümü bildirirəm. Güman edirəm ki, siz Azərbaycanda bu işləri davam etdirəcəksiniz.

M ü x b i r: Sizin sayənizdə.

H e y d ə r Ə l i y e v: Bəli, mən sizə yardım edəcəyəm. Sizi də təbrik edirəm. Bu gün mənə dedilər ki, Bakıda, Respublika sarayında türk məktəblərinin məzunları toplaşıblar, onlar bizi dinləyirlər. Mən onların hamısını salamlayıram, əldə etdikləri nailiyyətlərə görə təbrik edirəm. Bu gənclərin, Azərbaycan gənclərinin hər birinə gözəl gələcək arzulayıram. Ali təhsil

almağı, gələcəkdə yaxşı işləməyi və müstəqil Azərbaycanın irəliyə getməsində, inkişaf etməsində iştirak etməyi arzulayıram.

S u a l: Sayın cümhur başqanı, yayımımızda iştirak etdiyinizə görə çox təşəkkür edirəm. Bu anda Sizi həm türk xalqı, həm də Azərbaycan xalqı dinləyir. Sizi dinləyən minlərlə azərbaycanlı gəncə, Azərbaycan xalqına sözlərinizi eşitmək istərdik.

C a v a b: Sizin televiziyanız vasitəsilə bu gün, Azərbaycanın istiqlaliyyət günü Azərbaycan xalqını, Azərbaycanın vətəndaşlarını bir daha təbrik edirəm. Hər bir Azərbaycan vətəndaşına cansağlığı, səadət, bütün işlərdə uğurlar arzulayıram. Azərbaycanın gənclərini təbrik edirəm, onlara gələcəkdə xoşbəxt həyat, yaxşı təhsil və Azərbaycanın inkişaf etməsində fəal iştirak etmələrini arzulayıram.

M ü x b i r: Sayın cümhur başqanı, yayımımızda iştirak etdiyinizə görə bir daha çox təşəkkür edirik. Bizə şərəf verdiniz, Sizi sağlam görüb çox sevindik. Bizi qəbul etdiyiniz üçün çox minnətdarıq.

H e y d ə r Ə l i y e v: Sağ olun, mən də bu görüşdən çox məmnunam. Xüsusən ona görə məmnunam ki, mənim buradan, - Türkiyədən, Antalyadan dediyim sözləri sizin televiziya vasitəsilə Azərbaycanda dinləyirlər. Dediniz ki, eyni zamanda Azərbaycan televiziyası vasitəsilə, elədirmi?

M ü x b i r: Elədir.

H e y d ə r Ə l i y e v: Mən bundan çox məmnunam. Mənim qəlbim Azərbaycandadır. Amma belə əlaqəni bütün Azərbaycanın vətəndaşları ilə yaratmaq dünən də mümkün oldu, bu gün də. Mən bundan çox məmnunam. Sizə təşəkkür edirəm, çox sağ olun.

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər, bacılar və qardaşlar, dostlar!

Sizi Türkiyədən – Antalyadan səmimi-qəlbdən salamlayıram. Sizi, Azərbaycanın bütün vətəndaşlarını istiqlaliyyət günü, Respublika günü – 28 May günü münasibətilə ürəkdən təbrik edirəm.

Əsrin əvvəlində – 1918-ci ildə Azərbaycan xalqı öz müstəqilliyinə nail ola bildi, xalq cümhuriyyəti yarandı. Azərbaycanda Şərq aləmində ilk dəfə demokratik, hüquqi dövlət yarandı, xalq cümhuriyyəti qısa bir zamanda çox işlər gördü. Ən mühümü odur ki, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin əsaslarını qurdu, Azərbaycan dövlətinin, hökumətinin təsisatlarını yaratdı.

Ancaq 23 aydan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bu gün müstəqil Azərbaycanda 1918-ci ildə xalq cümhuriyyətini yaradanları, təşkil edənləri – Məmməd Əmin Rəsulzadəni, Fətəli Xan Xoyskini, Əlimərdan bəy Topçubaşovu, Nəsib bəy Yusifbəylini, xalq cümhuriyyəti hökumətinin bütün üzvlərini böyük minnətdarlıq hissi ilə xatırlayırıq. Onların gördüyü işlər, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

Ondan sonrakı dövrdə Azərbaycan Sovetlər İttifaqının tərkibində respublika olaraq yaşadı, inkişaf etdi. O dövrdə Azərbaycan böyük inkişaf yolu keçdi. Azərbaycanın elminin, mədəniyyətinin, iqtisadiyyatının, həyatının bütün sahələrinin inkişafında xidmətlər göstərmiş soydaşlarımızı bu gün məmnuniyyət hissi ilə xatırlayırıq.

1991-ci ilin sonunda Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdi. Səkkizinci ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır. Azərbaycanın dövlət müstəqilliyi gündən-günə möhkəmlənir, inkişaf edir və dönməz olmuşdur. Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu prosesi gedir. Biz ötən illərdə müstəqil Azərbaycanın bütün sahələrdə inkişaf etməsi üçün xeyli işlər görmüşük və böyük nailiyyətlər əldə etmişik.

Azərbaycan demokratiya yolu ilə gedir, Azərbaycan öz dövlətçiliyini inkişaf etdirir. Azərbaycan dövlətinin, hakimiyyətinin bütün qanadları yaranıbdır və fəaliyyət göstərir. Azərbaycan müstəqil dövlət kimi ilk Konstitusiyasını qəbul etdi. Azərbaycanda iqtisadi, siyasi islahatlar gedir.

Bu dövrdə bizim ən böyük nailiyyətimiz ondan ibarətdir ki, Azərbaycanı siyasi və iqtisadi böhrandan çıxara bildik. 1993-cü ildən etibarən Azərbaycanda daxili ictimai-siyasi sabitliyi möhkəmləndirməyə başladıq. Vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycan parçalanmaq təhlükəsindən qurtardı. Azərbaycanın daxilində müxtəlif qanunsuz dəstələr, qruplar ləğv olunubdur. Azərbaycanın hakimiyyəti möhkəmlənib və indi Azərbaycanda tam ictimai-siyasi sabitlik əldə olunubdur. Bu, Azərbaycan dövlətinin ən böyük nailiyyətidir.

Azərbaycanın iqtisadiyyatı böhrandan çıxaraq inkişaf yoluna düşmüşdür. Son üç ildə Azərbaycanın iqtisadiyyatı ardıcıl surətdə inkişaf edir. Qeyd etdim ki, Azərbaycanda iqtisadi islahatlar keçirilir, torpaq islahatı həyata keçirilir, özəlləşdirmə proqramı həyata keçirilir. Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir.

Azərbaycan dünyanın bir çox ölkələri ilə çox önəmli iqtisadi əlaqələr qurubdur. Bunların nəticəsində indi Azərbaycana xarici ölkələrin sərmayələri gəlir. Bu baxımdan 1994-cü ildə Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın bir çox böyük şirkətləri arasında imzalanmış birinci neft müqa-

viləsi – «Əsrin müqaviləsi» Azərbaycan iqtisadiyyatının inkişafına böyük yol açdı. Azərbaycan Dövlət Neft Şirkəti son günlərdə Vaşinqtonda artıq indi 19-cu müqaviləni imzaladı. Bu müqavilələr Azərbaycanın gələcəyi üçündür, gələcək nəsillər üçündür.

Böyük məmnuniyyət hissi ilə deyirəm ki, 1994-cü ildə imzalanmış müqavilə artıq öz bəhrələrini verir. 1997-ci ildə biz «Çıraq» neft yatağından ilkin neft aldıq və yaratdığımız neft kəməri – Bakı–Novorossiysk kəməri vasitəsilə xarici bazarlara çıxarırıq. İkinci neft kəmərini də tikdik, başa çatdırdıq. Aprel ayının 17-də Bakı–Supsa neft kəmərini işə saldıq. Beləliklə, Azərbaycan həm xarici şirkətlərlə müştərək iş görərək neft hasil edir, həm də onu dünya bazarına çıxarır.

İndi bizim qarşımızda duran başlıca vəzifə Azərbaycanın böyük neftini ixrac etmək üçün əsas neft kəmərini yaratmaqdır. Bu da Bakı–Ceyhan neft kəməridir. Keçən il oktyabr ayının 29-da, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi zamanı Bakı–Ceyhan neft kəmərinin tikilməsi üçün Ankarada bəyannamə imzaladıq. Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri bu bəyannaməni imzaladılar və bunun əsasında indi Bakı–Ceyhan neft kəmərinin tikilməsi üçün hazırlıq işləri görülür.

Azərbaycana xarici sərmayə gəlir. Bu günlərdə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, yəni ilk konsorsiuma daxil olan şirkətlər tərəfindən Azərbaycana 2 milyard dollardan artıq sərmayə qoyulması elan edildi. Biz Azərbaycan iqtisadiyyatının başqa sahələrində də xarici ölkələrlə sıx əməkdaşlıq edirik və bu sahələrə də xarici sərmayə gəlir. Bunlar hamısı Azərbaycanda iqtisadiyyatın inkişafına çox böyük imkanlar yaradıbdır və gələcək üçün çox böyük əsas qoyubdur. Bunlar hamısı Azərbaycan xalqının həyat tərzinin, güzəranının, rifah halının yaxşılaşması üçündür. Məmnuniyyətlə qeyd edə bilərəm ki, son illərdə vətəndaşlarımızın rifah

halı az da olsa yaxşılaşır. Amma gələcəkdə daha da yaxşı olacaqdır.

Azərbaycanın ən böyük problemi Ermənistan–Azərbaycan münaqişəsidir. Beş il bundan öncə biz Ermənistan–Azərbaycan münaqişəsində atəşkəs rejimində yaşayırıq. Şübhəsiz ki, bu, döyüşlərdən, müharibədən, davadan yaxşıdır. Ancaq eyni zamanda bu, bizi tam təmin etmir. Biz atəşkəs haqqında saziş imzalamışıq ki, bu müddətdə Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasını təmin edək.

Ötən illərdə biz bu sahədə çox işlər görmüşük və hesab edirəm ki, müəyyən qədər irəliləmişik. Bilirsiniz ki, bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur. Minsk qrupunun həmsədləri Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadır. Biz Minsk qrupunun başçıları ilə daim əlaqə saxlayırıq, daim görüşlər keçiririk. Bilirsiniz ki, son vaxtlarda Ermənistanın prezidenti ilə də mənim bir neçə görüşlərim olmuşdur. Bunlar hamısı Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün edilir. Güman edirəm ki, görülən işlər əsasında biz bu münaqişənin ləğv edilməsinə nail olacağıq.

Bizim məqsədimiz Azərbaycanın işğal olunmuş torpaqlarının erməni silahlı qüvvələrindən təmizlənməsi, azad edilməsidir. Bizim məqsədimiz yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızın öz evinə, obasına qayıtmasıdır. Bizim məqsədimiz Azərbaycanın ərazi bütövlüyünün tamamilə təmin olunmasıdır. Mən inanıram, inanıram ki, biz buna nail olacağıq.

Bizi sıxan, çox narahat edən yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımızın ağır vəziyyətdə, çətin şəraitdə yaşamasıdır, çadırlarda yaşamasıdır. Biz hər gün, hər dəqiqə bunu düşünürük və bununla məşğul oluruq. Çadırlarda yaşayan soydaşlarımıza son vaxtlar müəyyən yardımlar edilibdir və bundan sonra da ediləcəkdir. Onların şəraitinin müəyyən qədər yaxşılaşdırılması üçün tədbirlər görülübdür, bundan

sonra da görüləcəkdir. Mən əminəm, əminəm ki, gördüyümüz işlər bizim məqsədimizə nail olmağa imkan verəcəkdir və sevimli soydaşlarımız çadırlardan çıxıb öz evlərinə, elinə, obasına qayıdacaqlar.

Azərbaycan müstəqil dövlət olaraq uğurlu xarici siyasət aparır və biz dünyanın bütün ölkələri ilə qarşılıqlı faydalı əlaqələr qurur və inkişaf etdiririk. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu əlaqələr də öz bəhrəsini verir. Azərbaycan artıq dünya birliyində öz yerini tutubdur. Azərbaycanın dünya birliyində artıq öz ismi var. Azərbaycan bütün beynəlxalq təşkilatlarda təmsil olunubdur. Azərbaycan beynəlxalq təşkilatlarla – Müstəqil Dövlətlər Birliyi ilə, Avropa Birliyi ilə, Avropa Şurası ilə, Birləşmiş Millətlər Təşkilatı ilə və başqa beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir. Biz bunu çox əhəmiyyətli hesab edirik və bunun Azərbaycana olan faydalarını açıqca görürük.

Bildiyiniz kimi, aprel ayının 22-dən mən Amerika Birləşmiş Ştatlarında, Vaşinqtonda səfərdə olmuşam. Səfərin də məqsədi NATO-nun 50 illik yubileyində iştirak etmək idi. Azərbaycan oraya dəvət edilmişdi. NATO-nun 50 illik yubileyində, o mərasimlərdə, tədbirlərin hamısında mən iştirak etdim, Azərbaycan nümayəndə heyəti iştirak etdi. NATO-nun zirvə görüşündə Azərbaycan öz sözünü, fikirlərini bildirdi.

Amerika Birləşmiş Ştatlarında olarkən biz başqa çox işlər də gördük. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla, dövlət katibi, xarici işlər naziri xanım Olbraytla, Amerikanın konqresmenləri, senatorları ilə çox səmərəli görüşlərimiz, danışıqlarımız oldu. Bunların hamısı Azərbaycan üçün çox faydalıdır. Bu günlərdə görülən işlər bir daha onu göstərdi ki, Amerika–Azərbaycan əlaqələri sürətlə inkişaf edir.

Amerikada görülən işlərdən biri də odur ki, senator Braunbekin təşəbbüsü ilə, qədim İpək yolunun bərpası ilə əlaqədar onun Konqresə hazırladığı qanun layihəsi müzakirə olundu. Bu müzakirədə Qafqaz və Mərkəzi Asiya ölkələrinin prezidentləri, Amerikanın senatorları, konqresmenləri iştirak etdilər. Amerika prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Stenli Berger iştirak etdi və nitq söylədi, Amerikanın keçmiş dövlət katibi Beyker nitq söylədi, milli təhlükəsizlik məsələləri üzrə keçmiş köməkçi Bjezinski nitq söylədi. Bunlar hamısı İpək yolu haqqında Senata, Konqresə hazırlanan qanun layihəsinə daha da güc verdi. Biz böyük ümidlər bəsləyirik ki, bu qanun Amerikanın Konqresində qəbul olunacaq, bu da 907-ci maddənin gücdən salınmasına imkan verəcəkdir. Bilirsiniz ki, 1992-ci ildən tətbiq olunmuş ədalətsiz 907-ci maddə Amerika – Azərbaycan əlaqələrinin inkişaf etməsinə və xüsusən Amerikanın Azərbaycana birbaşa yardımına maneçilik törədir. Güman edirəm ki, qəbul olunacaq qanun bunlara da çarə qılacaqdır və biz əlaqələri inkişaf etdirmək üçün daha da böyük imkanlar əldə edəcəyik.

Amerika Birləşmiş Ştatlarında olduğum zaman mən bir daha hiss etdim ki, ABŞ–Azərbaycan əlaqələri sürətlə inkişaf edir. Biz bundan çox məmnunuq.

Bildiyiniz kimi, mən Amerikada xəstəxanaya getməli oldum. Mənə qəlb cərrahiyyə əməliyyatı keçirildi. Bu zaman – həm əməliyyat keçirilməzdən öncə, həm də əməliyyat keçirilməndən sonra xəstəxanada olduğum zaman Amerika hökumətinin, Amerika prezidenti cənab Bill Klintonun, dövlət katibi xanım Olbraytın, hökumət üzvlərinin, konqresmenlərin, senatorların mənə böyük diqqətini və qayğısını gördük. Bunlar hamısı məni çox ruhlandırdı, müalicə olunmağıma çox kömək etdi. Eyni zamanda bunlar hamısı Amerika Birləşmiş Ştatlarının Azərbaycana göstərdiyi qayğının təzahürüdür. Mən bunu belə hesab edirəm. Bu gün, bayram

günümüzdə Amerikanın prezidenti cənab Bill Klintondan müstəqillik günü münasibətilə aldığım təbrik məktubu ilə əlaqədar mən Amerika Birləşmiş Ştatlarının hökumətinə, prezident cənab Bill Klintona hədsiz minnətdarlığımızı bildirirəm.

Bilirsiniz ki, Azərbaycanın xarici ölkələrlə əlaqələrində Türkiyə xüsusi yer tutur. Türkiyə Cümhuriyyəti Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkədir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə – Azərbaycan əlaqələri ilbəil inkişaf edir və indi çox yüksək zirvəyə qalxmışdır. Bu, Azərbaycan üçün çox əhəmiyyətlidir. Türk xalqı ilə Azərbaycan xalqı arasında qədim tarixi əlaqələr, dostluq əlaqələri bir kökdən olan xalqların əlaqələridir. Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra bu əlaqələr sürətlə inkişaf edir.

Bu əlaqələrin də çox gözəl təzahürü mən yanvar ayında Türkiyədə müalicə edildiyim zaman və Amerikada cərrahiyyə əməliyyatı keçirdiyim zaman Türkiyə Cümhuriyyətinin və Azərbaycan xalqının böyük dostu, əziz dostum və qardaşım, hörmətli Süleyman Dəmirəlin mənə göstərdiyi daimi diqqət və qayğıdır. Bu, Azərbaycan xalqına göstərilən diqqət və qayğıdır. Eyni zamanda bu, Türkiyə–Azərbaycan dostluğunun nə qədər yüksək səviyyədə olduğunu göstərir. Mən Amerikada xəstəxanada olarkən hörmətli cənab Süleyman Dəmirəl daim bizimlə əlaqə saxlayıbdır, mənim müalicəmə nəzarət edib, qayğı göstəribdir. Ondan sonra da məni Türkiyəyə dəvət edibdir.

Bildiyiniz kimi, Türkiyədə beş gündən artıq Ankarada oldum. Orada hörmətli cənab prezident Süleyman Dəmirəllə çox səmərəli görüşlərimiz, danışıqlarımız oldu. Biz Türkiyə – Azərbaycan əlaqələri, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi haqqında, bütün başqa məsələlər haqqında çox ətraflı söhbət elədik, müzakirələr apardıq. Hörmətli Süleyman Dəmirəl çox dəyərli məsləhətlər verdi.

Bildiyiniz kimi, Ankarada olduğum zaman Türkiyə Cümhuriyyətinin Baş naziri cənab Büləncd Ecevitlə, Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin sədri cənab Yıldırım Akbulutla görüşlərimiz, danışıqlarımız oldu. Türkiyə Cümhuriyyəti Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə çox əhəmiyyətli görüşlərimiz, danışıqlarımız oldu. Ana Vətən Partiyasının başçısı hörmətli Məsud Yılmazla görüşüm, danışığım oldu. Başqa hökumət adamları ilə görüşdük, danışdıq. Yəni bu günlər Türkiyə–Azərbaycan əlaqələri üçün çox səmərəli oldu.

İndi isə, bilirsiniz ki, mən Antalyadayam. Buraya da əziz dostum, qardaşım hörmətli Süleyman Dəmirəlin dəvəti ilə gəlmişəm. Müalicədən sonra burada müəyyən qədər istirahət edirəm. Ona görə də mən bu gün sizdən müəyyən qədər ayrıyam. Amma qəlbim sizinlədir, qəlbim Azərbaycandadır. Mənim nəbzim Azərbaycanın nəbzi ilə döyünür. Burada, Antalyada, Türkiyədə mənə böyük qayğı göstərilir və bu qayğının nəticəsində istirahətimi başa çatdırıb Azərbaycana dönəcəyəm.

Bu bayram günü mən Türkiyə – Azərbaycan əlaqələrinin inkişaf etməsində Türkiyə Cümhuriyyətinin, hökumətinin xidmətlərini xüsusi qeyd edirəm, Türkiyənin prezidenti hörmətli cənab Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd edirəm. Azərbaycana göstərdikləri diqqət və qayğıya görə, şəxsən mənə göstərdikləri diqqət və qayğıya görə hədsiz təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Əziz dostlar, əziz bacılar, qardaşlar! Bu gün, bu bayram günü mən sizi Antalyadan salamlayıram. Azərbaycanın bütün vətəndaşlarına bayram salamımı göndərirəm. Azərbaycanda şəhid ailələrinə, Qarabağ döyüşlərində xəsarət alanlara, Qarabağ döyüşlərinin, müharibəsinin veteranlarına səmimi salamlarımı göndərirəm. Çadırlarda yaşayan, yerindən-yurdundan didərgin düşmüş, mənim üçün çox əziz olan soydaş-

larımıza, vətəndaşlarımıza, hər bir çadıra, yerindən –yurdundan didərgin düşmüş insanların yaşadığı hər bir yerə bayram salamımı göndərirəm.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ötən illər Azərbaycanın Silahlı Qüvvələri, milli ordusu yaranıb və inkişaf edibdir. Tam qətiyyətlə deyə bilərəm ki, Azərbaycanın milli ordusu bu gün Azərbaycanı hər bir hadisədən qorumağa qadirdir, Azərbaycanın müstəqilliyinin, dövlətçiliyinin keşiyində durubdur. Azərbaycanın əsgərləri, zabitləri cəbhədədirlər, onlar ermənilərlə üz-üzə durublar, Azərbaycanın torpaqlarını qoruyurlar, Azərbaycanın dövlətçiliyinin keşiyindədirlər. Mən onlara – səngərlərə, cəbhəyə, Azərbaycan əsgərlərinə, Azərbaycan zabitlərinə, milli ordunun bütün şəxsi heyətinə xüsusi bayram salamı göndərirəm.

Hamınızı salamlayıram, hamınızı qucaqlayıram, bağrıma basıram. Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm. Sizi əmin edirəm ki, Azərbaycanın dövlətçiliyi, müstəqilliyi, Azərbaycanın gələcək inkişafı yolunda bundan sonra da çalışacağam, əlimdən gələni edəcəyəm. Mən inanıram ki, biz ilbəil inkişaf edəcəyik, irəliyə gedəcəyik. Azərbaycan xalqının xoşbəxt gələcəyi var və biz hamımız birlikdə bu gələcəyə qovuşacağıq. Mən buna inanıram, əmin ola bilərsiniz.

Mən sizi bir daha salamlayır, bir daha təbrik edirəm. Sizin hər birinizə cansağlığı, səadət, işlərinizdə uğurlar arzulayıram. Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıram. Sağ olun, bayramınız mübarək olsun!

DÜNYA BANKININ PREZİDENTİ CEYM VULFENSON VƏ XANIMI ELEYN VULFENSON İLƏ GÖRÜŞDƏN* SONRA ONLARIN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

Antalya, Simena köşkü

29 may 1999-cu il

Cənab prezident Vulfenson! Xanım Vulfenson!

Sizin buraya, mənim ziyarətimə gəlməyinizdən, dəvətimi qəbul edərək Azərbaycana səfər etməyinizdən çox məmnunam. Sizə bir daha təşəkkür edirəm.

Hesab edirəm ki, Sizinlə bu gün Azərbaycan üçün səmərəli və əhəmiyyətli söhbətlər etdik. Bir daha demək istəyirəm ki, Sizin fikirləriniz, dəyərli məsləhətləriniz, təkliflərəniz məni çox sevindirdi.

Mən 1997-ci ildə Vaşinqtonda olarkən Sizi Azərbaycana dəvət etdim. O vaxtdan gözləyirəm. İndi qismət belə gətirdi ki, Siz Azərbaycana gedirsiniz, mən isə Azərbaycanda deyi-

---

* Görüşdən sonra prezident Heydər Əliyev və cənab Vulfenson «Ceylan holdinq» qrupunun rəhbərləri Mahmud və Zülküf Ceylan qardaşlarının müşayiəti ilə Antalyanın məşhur istirahət ocağının görməli yerləri ilə tanış oldular, dəniz sahilində söhbət etdilər.

Gəzinti zamanı Ceyms Vulfensona Antalya, onun gözəl təbiəti və istirahət zonası haqqında ətraflı məlumat verildi. Antalyanın gözəlliyinə heyran olduğunu bildirən Dünya Bankının prezidenti imkan düşən kimi hökmən buraya istirahətə gələcəyini söylədi.

Görüşdə və ziyafətdə millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev, «Ceylan holdinq» qrupunun rəhbərləri Mahmud və Zülküf Ceylan qardaşları da iştirak edirdilər.

ləm. Ona görə də Sizin buraya gəlməyiniz, Sizinlə görüşüm və xüsusən apardığımız söhbətlər məni çox sevindirdi.

Təsəvvür edə bilməzdim ki, Siz mənim dəvətimlə Azərbaycana səfəri bu qədər gecikdirərək, eyni zamanda çox geniş bir proqramla gələcəksiniz. Bir daha bildirmək istəyirəm ki, Sizin bütün təkliflərinizi, məsləhətlərinizi, çox dəyərli fikirlərinizi məmnuniyyətlə qəbul edirəm. Hesab edirəm ki, Dünya Bankı ilə Azərbaycanın əməkdaşlığının yeni mərhələsi başlanır. Ümid edirəm ki, bu əməkdaşlıq uzun sürən, daimi və səmərəli olacaqdır.

Mən ümid edirəm ki, sizin təkliflərəniz, fikirləriniz əsasında bizim əməkdaşlığımız Azərbaycanın inkişafını güclü surətdə irəliyə aparacaqdır. Bir daha bəyan edirəm ki, Azərbaycanın Dünya Bankı ilə əməkdaşlığı strateji xarakter daşıyır. Biz bu əməkdaşlıqdan indiyə qədər faydalanmışıq və inanıram ki, bundan sonra daha da çox faydalanacağıq.

Bizim istəyimiz, arzumuz Azərbaycanı demokratik, ədalətli, hüquqi, dünyəvi dövlət etməkdir, ölkəmizdə bazar iqtisadiyyatının inkişafını təmin etməkdir, respublikamızda özəl sektora geniş yol açmaqdır, özəlləşdirmə proqramını axıra çatdırmaqdır. Güman edirəm ki, sizin köməyiniz və sizinlə əməkdaşlıq nəticəsində biz bunların hamısına nail olacağıq.

Beləliklə, mən Azərbaycanın gələcəyini çox gözəl görürəm. Siz də bəyan etdiniz ki, Azərbaycan üçün proqramlar təklif edərək, respublikamıza yardım edərək Azərbaycanı inkişaf etmiş dövlət kimi görmək istəyirsiniz. Güman edirəm ki, müştərək işlərimizlə, sizin yardımınızla biz buna nail olacağıq.

Mən sizə bir daha minnətdarlığımı bildirirəm, sizinlə partnyorluq etməkdən çox böyük qürur hissi duyuram. Sizə, ailənizə və xanımınıza cansağlığı arzu edirəm. Sizə və Dünya Bankına gələcək işlərinizdə uğurlar arzulayıram.

Sizin şərəfinizə, xanımınızın şərəfinə badə qaldırıram.

Sağ olun!

İRAN İSLAM RESPUBLİKASININ TÜRKİYƏDƏKİ SƏFİRİ MƏHƏMMƏD HƏSƏN YƏVASANİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Antalya, Simena köşkü

29 may 1999-cu il

Y ə v a s a n i: Zati-aliləri, çox məmnunam ki, imkan tapıb məni qəbul edirsiniz. Ölkəmizin prezidenti cənab Xatəmi Sizin ürəyinizdə cərrahiyyə əməliyyatı keçirilməsi xəbərini eşitdikdən sonra mənə tapşırıq veribdir ki, Sizi burada ziyarət edim və onun xoş salamlarını Sizə yetirim. Gözləyir ki, mən ona Sizin özünüzü yaxşı hiss etməyiniz və səhhətinizin tam yaxşı olması barədə xəbərlər yetirim. Çox şadam ki, Sizi özünüzü çox yaxşı hiss etdiyiniz vəziyyətdə görürəm.

Cənab prezident, bilirəm ki, bu gün səhər tezdən çalışırsınız, görüşlər keçirirsiniz. Bu, bir daha onu göstərir və məni də şad edir ki, Siz özünüzü çox sağlam hiss edirsiniz. Mən əminəm ki, bizim prezidentimiz Sizin özünüzü gümrah hiss etməyiniz barədə xəbəri eşitdikdə çox şad olacaqdır.

Fürsətdən istifadə edərək, qardaşım səfir Məmməd Əliyevə təşəkkürümü bildirirəm ki, gün ərzində mənə qonaqpərvərlik göstəribdir.

İcazənizlə, İran ilə Azərbaycan arasında ikitərəfli münasibətlər barədə bir neçə kəlmə söyləyim. Bizim xarici işlər naziri cənab Xərrazi 10 gün bundan əvvəl Azərbaycanı ziyarət edərək, EKO-nun üzvü olan ölkələrin xarici işlər nazirlərinin Bakıda keçirilən görüşündə iştirak edibdir. Cənab Xərrazi

Azərbaycanın xarici işlər naziri ilə görüşüb və Baş nazir tərəfindən qəbul edilibdir. O mənə zəng edərək bildiribdir ki, Azərbaycandakı görüşləri çox səmərəli və faydalı olubdur.

Bildiyimə görə, Sizin göstərişiniz və razılığınız ilə Azərbaycan parlamentinin sədri İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin parlament sədrlərinin üç həftədən sonra Tehranda keçiriləcək toplantısında iştirak etmək üçün ölkəmizi ziyarət edəcəkdir.

Ölkələrimiz arasında yaradılmış müştərək komissiya Bakıda görüş keçirməli idi, lakin Siz Azərbaycanda olmadığınıza görə onun vaxtını bir az dəyişdirdik. İnşallah, Siz Azərbaycana qayıdandan sonra nə vaxt göstəriş versəniz, həmin komissiya Bakıda öz işini davam etdirəcəkdir.

Cənab prezident, bizim ölkəyə rəsmi səfər etməyiniz barədə dəvət artıq Sizə göndərilibdir. Ümidvarıq ki, Siz gələn ay İranı ziyarət edəcəksiniz. İranın Azərbaycandakı səfiri Bikdeli də mənimlə əlaqə saxlayaraq Sizi səbirsizliklə gözlədiyini bildiribdir. O dedi ki, İrana səfəriniz barədə yazılı rəsmi dəvəti Siz Bakıya qayıdandan sonra Sizə çatdıracaqdır.

Bütün bunlar onu göstərir ki, iki qardaş müsəlman ölkəsi arasında münasibətlər gündən-günə yaxşılaşır və bu, belə də olmalıdır.

Mənə məlumat veriblər ki, bizim xarici işlər naziri Xərrazi bir dəfə Sizinlə görüş zamanı söyləyibdir ki, Azərbaycan ilə İran dost ölkələrdir. Siz onun sözünə düzəliş edərək demisiniz ki, qardaş ölkələrdir. Bu, tamamilə doğrudur – biz qonşuyuq, qardaş ölkələrik, iki müsəlman dövlətiyik.

Mən Sizin səfirinizlə söhbət zamanı da qeyd etdim ki, bizim ölkənin prezidenti Xatəminin həyata keçirdiyi siyasət İranın bütün qonşuları – Azərbaycan, Gürcüstan, ərəb ölkələri və digər qonşularla əlaqələrdə gərginliyin aradan qaldırılmasına yönəldilibdir.

Mən bir ildir ki, Türkiyədə səfir kimi fəaliyyətə başlamışam. Bu bir il ərzində bizim Türkiyə ilə də münasibətlərimiz yaxşılaşmağa doğru gedir. Ümidvarıq ki, Sizin köməyinizlə bu münasibətlər də yaxşılaşa bilər.

Cənab prezident, mən əminəm ki, zati-alilərinizin xəbəri var, - Xatəminin Səudiyyə Ərəbistanına səfəri çox uğurlu olmuşdur. Bir müddət sərin münasibətlərdən sonra bu, yaxşılığa doğru inkişaf edir. Mən əminəm ki, belə xoş münasibətlər Azərbaycan ilə İran, Türkiyə ilə İran və digər qonşu dövlətlər arasında da mövcud ola bilər.

Xatırlayıram ki, Türkiyə Cümhuriyyətinin 75 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdə görüşümüz zamanı mən Sizə farsca müraciət etdim. Siz mənə farsca cavab verdiniz. Siz fars dilində də bəzi sözləri bilirsiniz.

Məni qəbul etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Prezident Xatəminin, İranın lideri Xamneinin Azərbaycanla dostluq və qardaşlıq münasibətlərini inkişaf etdirmək arzularını Sizə yetirirəm.

Heydər Əliyev: Səmimi sözlərə görə Sizə təşəkkürümü bildirirəm.

Mən çox məmnunam ki, İran İslam Cümhuriyyətinin prezidenti cənab Xatəmi mənim səhhətimlə maraqlanır, sizi mənim yanıma göndəribdir və sizin vasitənizlə arzularını, salamını mənə çatdırır. Mən buna görə təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürümü, minnətdarlığımı prezident cənab Xatəmiyə çatdırasınız.

Mənim səhhətim artıq yaxşıdır. Biz həmişə İran ilə Azərbaycan arasında əlaqələrin yaxşı, müsbət olmasına, daim inkişaf etməsinə çalışırıq və bunu istəyirik.

Sizin xarici işlər naziri Xərrazinin EKO-nun üzvü olan ölkələrin xarici işlər nazirlərinin Bakıda keçirilən toplantısında iştirak etməsi, Azərbaycanın xarici işlər naziri ilə görüşü və bizim Baş nazirin qəbulunda olması mənə məlumdur.

Onların hamısı barədə mənə məlumat veriblər. Mənə verilən məlumatlara görə, danışıqlar çox səmərəli olubdur.

Hesab edirəm, həm İran, həm də Azərbaycan çalışmalıdır ki, əməkdaşlığımızı inkişaf etdirək və buna mane olan halların hamısını aradan qaldıraq. İran ilə Azərbaycan coğrafi nöqteyi-nəzərdən bir-birinə çox yaxın ölkələrdir. Bizim tarixi keçmişimiz, köklərimiz, adət-ənənələrimiz onu göstərir ki, ölkələrimiz, xalqlarımız arasında dostluq əlaqələri olmalıdır. Biz daim çalışırıq ki, İran ilə Azərbaycanın münasibətləri həmişə müsbət istiqamətdə inkişaf etsin. Biz bundan sonra da buna çalışacağıq.

Mən məmnunam ki, siz dediyiniz kimi, İran prezidenti cənab Xatəmi qonşu ölkələrlə münasibətləri daha da yaxşılaşdırmaq, sizin sözlərinizlə demək istəyirəm ki, olan gərginlikləri aradan qaldırmaq məqsədi daşıyır.

Beləliklə, biz hər iki tərəfdən eyni fikirdəyik. Həqiqətən, İran ilə Azərbaycan arasındakı əlaqələr dostluq və qardaşlıq xarakteri daşıyır. Ancaq biz çalışmalıyıq ki, bu əlaqələri daha da genişləndirək, inkişaf etdirək, daha da yüksəklərə qaldıraq. Biz bu fikirdəyik.

Azərbaycan Milli Məclisinin sədri İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin parlament sədrlərinin İranda keçiriləcək toplantısında olacaqdır. Güman edirəm ki, onun orada müəyyən danışıqlar aparmaq imkanı olacaqdır.

Mənim İrana dəvət olunmağım haqqında verdiyiniz məlumata görə də təşəkkür edirəm. Mən prezident cənab Xatəmini Azərbaycana dəvət etmişəm. Cənab Xatəmi də məni dəvət edir. Biz çalışmalıyıq ki, hər iki dəvət yerinə yetirilsin.

İran–Azərbaycan Müştərək Komissiyasının işini də gücləndirmək lazımdır. Mən Azərbaycana dönəndən sonra, şübhəsiz, münasib vaxtda sizin nümayəndə heyəti gəlib danışıqlar apara bilər.

Mən bir daha təşəkkür edirəm. Prezident cənab Xatəmiyə mənim salamımı, hörmət və ehtiramımı çatdırın. Ayətullah Xamneiyə mənim salamımı, hörmət və ehtiramımı çatdırın.

Bir daha deyirəm, biz öz tərəfimizdən çalışacağıq ki, Azərbaycan ilə İranın əlaqələrini daha da inkişaf etdirək.

Mən bu görüşümüzdən məmnunam. Cənab səfir, sizə öz fəaliyyətinizdə uğurlar arzulayıram.

Yəvasani: Prezident Heydər Əliyevi belə gümrah vəziyyətdə görməkdən bir daha məmnun qaldığımı bildirirəm.

İndi Türkiyədə yeni hökumət qurulub. Biz ümidvarıq ki, İran ilə Türkiyənin münasibətləri daha da yaxşılaşacaqdır.

Cənab prezident, biz ümid edirik ki, bir vaxt Sizin, cənab Xatəminin, cənab Süleyman Dəmirəlin və Baş nazir Ecevitin də birgə görüşünü təşkil edə biləcəyik.

Heydər Əliyev: Bu, çox gözəl olardı. Sağ olun.

ABŞ-ın «ŞEVRON» ŞİPKƏTİNİN PREZİDENTİ RİÇARD MATSKE İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Antalya, Simena köşkü

31 may 1999-cu il

R i ç a r d M a t s k e: Hörmətli cənab prezident, Sizi səmimi-qəlbdən salamlayıram, səhhətinizin çox yaxşı olduğunu görməkdən məmnun qaldığımı bildirirəm. Sizinlə görüşdən şərəf duyuram. Antalyada hava və şərait istirahət üçün həqiqətən gözəldir.

H e y d ə r Ə l i y e v: Xoş sözlərə və məni ziyarət etmək üçün Antalyaya gəldiyinizə görə Sizə, «Şevron»un rəhbərinə təşəkkür edirəm.

Mən Antalyanın istirahət etmək üçün belə gözəl yer olduğunu bilmirdim. Türkiyənin prezidenti Süleyman Dəmirəl bir neçə ildir ki, məni istirahət etmək üçün buraya dəvət edir. Ancaq mənim heç vaxt imkanım olmayıbdır. İndi elə oldu ki, mən buraya gəlməyə məcbur idim, çünki cərrahiyyə əməliyyatından sonra istirahət etmək lazımdır.

Mən buraya gəldiyimdən çox məmnunam, gözəl yerdir. Doğrudan da burada istirahət üçün hər bir şərait yaradıblar. Mənə burada həddindən artıq diqqət və qayğı, mehribanlıq göstərirlər.

---

* Görüşdə millət vəkili, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev iştirak edirdi.

Riçard Matske: Sizin burada da çoxlu görüşlər keçirdiyinizdən xəbərdaram.

Cənab prezident, başa düşürük ki, Sizi istirahət etməyə qoymuruq. Ümid edirik ki, bizimlə bu görüşü bir növ istirahət görüşü kimi qəbul edəcəksiniz. Mən Nigeriyanın yeni seçilmiş prezidentinin andiçmə mərasimində iştirak etdikdən sonra birbaşa buraya gəlmişəm. Bu ölkənin paytaxtını indi Abuçi şəhərinə köçürüblər. Bu şəhər dəniz səviyyəsindən 1000 metr yüksəkdədir, o qədər də isti yer deyildir. Biz 35 ildir ki, Nigeriyada çalışırıq, Anqolada da xeyli iş görmüşük.

Heydər Əliyev: Mən Moskvada işləyərkən, Siyasi Büronun üzvü olarkən Anqolaya getmişdim. O vaxt Sovetlər İttifaqı nümayəndə heyətinin başçısı kimi, Anqolada partiyanın qurultayında iştirak etmişəm. Xatirimdədir, bu, təxminən 1985–1986-cı illərdə olubdur. Sovet İttifaqının neftçiləri o vaxt orada dənizdə bir az neft çıxarırdılar. Amma danışıq gedirdi ki, amerikalılar oraya gəlirlər. Sovet İttifaqı isə orada öz mövqeyini əldən vermək istəmirdi.

Riçard Matske: O dövrdə «Şevron» Anqolada ən çox neft istehsal edən şirkət idi. Lakin o vaxt ABŞ hökuməti bizim bu fəaliyyətimizdən məmnun deyildi. Onlar bizi ümumiyyətlə, Anqolada görmək belə istəmirdilər.

Heydər Əliyev: Çünki Anqola Sovet İttifaqı ilə bağlı idi. Sonra Anqolanın cənubunda UNİTA müharibə aparırdı və Amerika ona kömək edirdi.

Xatirimdədir, o vaxt Sovet İttifaqı Kuba qoşunlarını Anqolaya gətirmişdi. Həmin qoşunlar son məqamda «Şevron» şirkətinin qurğularını müdafiə etməklə məşğul oldular. Mən Kuba qoşunlarının komandanı ilə o vaxt orada görüşdüm.

Anqolanın prezidenti Duş Santuş mənim yaxın dostumdur. O, vaxtilə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda təhsil alıbdır. Öz ölkəsinə qayıtdıqdan sonra onu prezident seçiblər. O, Bakıya gəlmişdi. Mən onunla həm Bakıda, həm

də Anqolada görüşmüşəm. Beynəlxalq toplantılarda da onunla bir-iki dəfə görüşmüşəm.

R i ç a r d M a t s k e: Vətəndaş müharibəsi dövründə Anqolada qəribə bir vəziyyət yaranmışdı. O dövrdə Duş Santuşun «Şevron» ilə çox yaxın dostluq əlaqələri var idi. «Şevron» isə Kuba qoşunları ilə yaxşı təmaslara malik idi. Amerika hökumətinin mövqeyi isə tamamilə bunların əksinə idi. Hətta deyərdim ki, «Şevron» şirkəti 20 il ərzində ABŞ dövləti ilə Anqola arasında ən əsas diplomatik kanal, xətt olmuşdur. Bizim hökumətin Duş Santuşu dəstəkləməməsinə baxmayaraq, «Şevron» şirkəti onun tərəfində idi, onun qalib gəlməsini istəyirdi və nəhayət, o qalib gəldi.

İndi Amerika ilə Anqola arasında münasibətlər normaldır. Həm Amerikada, həm də Anqolada diplomatik nümayəndəliklər vardır. Anqola ABŞ hökumətindən hələ də bir az narazıdır. Çünki UNİTA-nın rəhbəri Savimbi hələ də Duş Santuş üçün problemlər yaratmaqdadır. Duş Santuş istəyir ki, Amerika hökuməti buna bir əncam çəksin. Onlar isə hələ də vuruşurlar.*

Cənab prezident, biz Sizin cərrahiyyə əməliyyatı keçirməyinizdən çox narahat olduq. Amma ondan rahatlıq tapdıq ki, bu əməliyyat çox əla bir xəstəxanada keçdi. Çox məmnun olduq ki, cərrahiyyə əməliyyatından sonra Siz buraya gələrək səhhətinizin tam bərpası üçün istirahət edirsiniz.

---

* Görüşdə Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən nefti dünya bazarına çıxaran Bakı–Novorossiysk, Bakı–Supsa kəmərlərinin hazırkı ixrac imkanlarından, əsas boru kəməri olacaq Bakı–Ceyhan xəttinin perspektivlərindən və bu kəmərin çəkilişi ilə əlaqədar görülən işlərdən də geniş söhbət açıldı.

İxrac olunan neftin həcminin yaxın vaxtlarda artırılacağını bildirdi.

Söhbət zamanı Bakı–Batumi istiqamətində yeni boru kəmərinin çəkilməsi məsələsi də geniş müzakirə edildi. Hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

Heydər Əliyev: Klivlenddəki xəstəxanadan çox razıyam. Mən oranı tanımırdım. Vaşinqtonda işlərimi qurtarandan sonra məni oraya sadəcə müayinə etməyə aparmışdılar. Orada isə dedilər ki, mütləq cərrahiyyə əməliyyatı keçirməlisiniz. Mən istəmirdim, ancaq həkimlər və oğlum İlham mənə bildirdilər ki, lazımdır. Aprelin 29-da əməliyyat keçirildi. ABŞ hökuməti, prezident Bill Klinton, dövlət katibi xanım Olbrayt, nazirlər mənə çox qayğı göstərdilər. Prezident Bill Klinton mənə məktub göndərdi, telefonla danışdı. Xanım Olbrayt da mənə bir neçə dəfə telefon etdi. Onlar mənə çox qayğı göstərdilər. Mənim bütün müalicəm onların nəzarəti altında idi.

Riçard Matske: Cənab prezident, «Şevron» şirkəti son vaxtlar Bakıda xeyli iş görmüşdür. Vurğulayım ki, biz diqqət və qayğınızı daim hiss edirik və bütün bunlara görə Sizə minnətdarlığımı bildirirəm.

Cənab prezident, icazə verin San-Fransisko şəhəri barədə kitab-albomu Sizə bağışlayım və Sizi bu şəhərdə görmək arzusunda olduğumu bildirim.

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARININ RƏHBƏRLƏRİ ŞURASININ V İCLASININ İŞTİRAKÇILARINA

Hörmətli iclas iştirakçıları!

Sizi Azərbaycan Respublikasının paytaxtında salamlayır və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanlarının Rəhbərləri Şurasının V iclasına səmərəli iş arzulayıram.

Əminəm ki, MDB xüsusi xidmət orqanları rəhbərlərinin Bakı görüşü xalqlarımızın mənafelərinə real təhlükə doğuran mütəşəkkil cinayətkarlıqla mübarizədə birlik dövlətlərinin əməkdaşlığı prosesində yeni mərhələ olacaqdır. Bu cinayətkarlığın transmilli xarakter daşıması ölkələrimizin demokratik və iqtisadi islahatlar, dövlət müstəqilliyini möhkəmləndirmək yolu ilə irəliləməsini təmin etmək üçün MDB dövlətlərinin təhlükəsizlik orqanlarının səylərini uzlaşdırmağın zəruriliyini şərtləndirir.

Xüsusi xidmət orqanlarının istər ikitərəfli, istərsə də çoxtərəfli əsasda həyata keçirilən qarşılıqlı fəaliyyəti özünəməqsəd olmayıb birlik dövlətlərinin təhlükəsizliyinin və sabitliyinin təmin edilməsi sahəsində konkret vəzifələrin reallaşdırılmasına xidmət edir. Ümidvaram ki, MDB-nin Təhlükəsizlik və Xüsusi Xidmət Orqanlarının Rəhbərləri Şurasının V iclası mütəşəkkil cinayətkarlıqla mübarizənin aktual məsələləri barədə geniş fikir mübadiləsi aparmaq üçün lazımi şərait yaradacaq, hüquq mühafizəsi sahəsində qarşılıqlı fəaliyyətin

real imkanlarını nümayiş etdirəcək, əməkdaşlığın digər sahələrində inteqrasiya proseslərinə əlavə təkan verəcəkdir. Bu mühüm məsələlərin həllində sizə uğurlar arzulayıram.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

2 iyun 1999-cu il

SLOVAKİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB RUDOLF ŞUSTERƏ

Hörmətli cənab prezident!

Sizi Slovakiya Respublikasının prezidenti seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, ölkələrimiz arasındakı mövcud əlaqələr bundan sonra da xalqlarımızın rifahı naminə dönmədən inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına sülh və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

3 iyun 1999-cu il

SARATOV VİLAYƏTİNİN QUBERNATORU CƏNAB DMİTRİ AYATSKOVA

Hörmətli Dmitri Fyodoroviç!

Sizi və Saratov Vilayəti Xalqları Assambleyasının bütün iştirakçılarını səmimi salamlayıram.

Əminəm ki, bu forum ölkələrimiz və xalqlarımız arasında dostluq münasibətlərinin, qarşılıqlı anlaşmanın və həmrəyliyin möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir.

Sizin təşəbbüsünüzü yüksək qiymətləndirir, assambleyanın iştirakçılarına uğurlu və səmimi iş arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

7 iyun 1999-cu il

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

Antalya, Simena köşkü

8 iyun 1999-cu il

H e y d ə r Ə l i y e v: Əziz dostum, qardaşım Süleyman Dəmirəl! Mən sizi səmimi-qəlbdən salamlayıram. Məni ziyarət etmək üçün Antalyaya gəldiyinizə görə Sizə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

S ü l e y m a n D ə m i r ə l: Qardaş Azərbaycan Respublikasının çox hörmətli prezidenti, əziz dostum, qardaşım Heydər Əliyevi ziyarətə gəlmişəm. Bildiyiniz kimi, o, burada istirahət edir. Mən cənab Heydər Əliyev ilə hər gün telefonda danışıram. Biz dünyada baş verən hadisələr barədə fikir mübadiləsi aparırıq.

Balkan yarımadasında, Kosovoda münaqişənin sülh yolu ilə həll olunmasına böyük bir ümid vardır. Ümid edirik ki, Qafqazda da tezliklə sülh yaranacaqdır. Bilirsiniz ki, Azərbaycan Dağlıq Qarabağ ilə bağlı böyük sıxıntılar keçirmişdir. Bu sıxıntılar davam etməkdədir. Bir milyondan çox azərbaycanlı qaçqın yerindən-yurdundan zorla qovulmuş və onlar neçə illərdir ki, çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Azərbaycan bu münaqişəni əziz dostum, qardaşım prezident Heydər Əliyevin müdrik rəhbərliyi altında sülh yolu ilə

---

* Prezidentlərin görüşünə Türkiyə televiziyasının və mətbuatının çoxsaylı nümayəndələri toplaşmışdılar.

həll etməyə çalışır. Dünyanın nüfuzlu dövlətlərinin iştirakı ilə bu barədə danışıqlar davam edir. Əminəm ki, Azərbaycan bu münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılmasına nail olacaqdır.

Türkiyə ilə Azərbaycan bir millətin iki dövlətidir. Biz bütün sahələrdə sıx əməkdaşlıq edirik, münasibətlərimiz mükəmməldir, bundan sonra da mükəmməl olaraq davam edəcəkdir. Biz müstəqil Azərbaycan Respublikasının daim inkişaf etməsinə, beynəlxalq təşkilatlarda Azərbaycan xalqının və dövlətinin hüquqlarının qorunmasına həmişə dəstək vermişik və indən sonra da dəstək verəcəyik.

Əziz dostum, qardaşım Heydər Əliyev ilə bugünkü görüşümüzdə dünyada, beynəlxalq aləmdə, bölgədə vəziyyət barədə fikir mübadiləsi aparacağıq. Sonra mən Ankaraya dönəcəyəm.

Heydər Əliyev: Əziz dostum, qardaşım, hörmətli cənab prezident, mən sizə hədsiz minnətdaram. Mən təşəkkür edirəm ki, yenidən özünüzə zəhmət, əziyyət vermisiniz, buraya – Antalyaya gəlmisiniz, məni ziyarət edirsiniz.

Mən may ayının 20-dən Türkiyədəyəm. Sabah, iyunun 9-da Bakıya qayıdıram. Mən 20 gündür ki, sizin qonağınızam. Türkiyəyə gələndən indiyədək ölkənizin, əziz dostum, qardaşım, sizin qayğınız və diqqətiniz altındayam. Siz mənə o qədər mehribanlıq, qonaqpərvərlik, dostpərvərlik göstərmisiniz ki, mən, şübhəsiz, belə şey görməmişdim. Ancaq dünyada da belə şeylər nadir haldır. Hörmətli dostum, qardaşım, bu, sizin nə qədər böyük insan və nə qədər böyük insanpərvər olduğunuzu göstərir. Bu, eyni zamanda Azərbaycana, Azərbaycan xalqına, respublikasına nə qədər diqqət və qayğı etdiyinizi göstərir. Mən bunlara görə sizə təşəkkür edirəm.

Mən sabah, iyunun 9-da buradan Bakıya yola düşərək, sizə qəlbimdə olan ən yüksək duyğuları bildirirəm və ümid edirəm ki, bizim dostluğumuz, qardaşlığımız bundan sonra da yüksələcək, möhkəmlənəcəkdir.

Bunlar hamısı Türkiyə–Azərbaycan dostluğunun, qardaşlığının əsasında qurulmuşdur. Mən bu gün bir daha demək istəyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edən andan siz, hörmətli dostum Süleyman Dəmirəl, Azərbaycanla birlikdəsiniz. Azərbaycanın dövlət müstəqilliyinin inkişaf etməsində, möhkəmlənməsində və bugünkü duruma gəlməsində sizin daimi dəstəyiniz bizim üçün böyük yardım olubdur. Biz bu məsələlərdə həmişə sizinlə məsləhətləşmişik və çox gözəl də məsləhətlər almışıq. Bunlara görə mən sizə təşəkkür edirəm.

Türkiyə–Azərbaycan dostluğunun böyük tarixi vardır. Bu dostluğun inkişaf etməsində sizin böyük xidmətləriniz vardır. Ona görə də Azərbaycanda hər bir insan sizə böyük sevgi, məhəbbət hissi ilə yaşayır, sizi öz doğma insanı hesab edir. Onlar hamısı sizi Azərbaycanın böyük dostu hesab edir. Əziz dostum, qardaşım, bütün bunlara görə sizə təşəkkür edirəm. Güman edirəm ki, Türkiyədə olduğum zaman Ankarada və burada apardığımız danışıqlar, söhbətlər Türkiyə–Azərbaycan əlaqələrini daha da inkişaf etdirəcək, möhkəmləndirəcək, Azərbaycan Ermənistan təcavüzündən qurtaracaq, işğal edilmiş torpaqlarımızın azad olunmasına və yerindən-yurdundan zorla qovulmuş bir milyondan artıq Azərbaycan vətəndaşının köçkün vəziyyətində yaşamasına biz sizinlə birgə son qoyacağıq.

Ümumiyyətlə, Ermənistan – Azərbaycan münaqişəsi başlayandan indiyədək siz həmişə bu münaqişənin sülh yolu ilə həll olunmasına səylər qoymusunuz. Hamıya məlumdur, mən bunu bir daha demək istəyirəm ki, siz həm beynəlxalq təşkilatlarda, həm dünyanın böyük dövlətləri ilə olan əlaqələrinizdə, xüsusən Amerika prezidenti Bill Klintona, Fransa prezidenti Jak Şiraka məktublarınızda və başqa dövlət başçıları ilə danışıqlarınızda Azərbaycan məsələsini, yəni Ermənistan – Azərbaycan münaqişəsini, Dağlıq Qarabağ problemini hə-

mişə ön plana çəkmisiniz. Bu, həmişə sizin danışıqlarımızın gündəliyində olubdur. Bunlar hamısı bizə çox böyük yardımdır. Ümidvaram ki, bu münaqişənin həll edilməsinə biz sizinlə birgə nail olacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənəcəkdir.

Mən sizə bir daha, bir daha təşəkkür edirəm. Çox sağ olun.

Hörmətli cənab prezident, icazənizlə Sizə öz minnətdarlıq məktubumu təqdim edim.

Qardaş ölkələrimizin prezidentlərinin görüşünə Türkiyə televiziyasının və mətbuatının çoxsaylı nümayəndələri toplaşmışdılar.

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEUMAN DƏMİRƏLƏ

Əziz dostum və qardaşım Süleyman Dəmirəl!

Bu gün, ilk anlarımdan sizin səmimi və mehriban dostluq, qardaşlıq qayğınız altında keçən uğurlu müalicəmi və istirahətimi artıq sona çatdırıb doğma Türkiyə Respublikasından ayrılaraq Vətənə yola düşərkən qəlbimdə dolu olan hədsiz minnətdarlıq hisslərimi sizinlə bölüşmək üçün bir daha sizə müraciət etməyi özümə borc bildim.

Hər şeydən öncə, sizin liderliyiniz sayəsində Azərbaycan ilə Türkiyə, iki qardaş ölkə, xalq və dövlət arasında qarşılıqlı faydalı münasibətlərin və hərtərəfli əməkdaşlığın yüksək səviyyədə olmasından çox məmnunluq duyduğumu bildirmək istəyirəm.

Azərbaycan dövlət müstəqilliyini, azadlığını əldə etdikdən sonra Türkiyə Azərbaycan üçün dayaq nöqtəsinə, güvənc yerinə çevrilmişdir.

Qüdrətli Türkiyə dövlətinin müdrik rəhbəri kimi siz torpaqlarının iyirmi faizi işğal olunmuş, bir milyondan çox vətəndaşı qaçqın düşmüş Azərbaycanın daim yanında olmuş, onun haqq işini yorulmadan müdafiə etmiş, Ermənistanın təcavüzkar hərəkətlərini birmənalı şəkildə pisləmiş, bütün dünya dövlətlərini, beynəlxalq təşkilatları vətənimizə qarşı edilən təcavüzə, ədalətsizliyə, xalqımıza qarşı törədilən soyqırımına, etnik təmizləməyə biganə qalmamağa çağırmış və bütün Qafqaz regionunda sülhün və əmin-amanlığın bərqərar olması üçün davamlı səylər göstərmisiniz.

Sizin rəhbərliyinizlə qardaş Türkiyə Respublikası öz keçid dövrünü yaşayan gənc müstəqil Azərbaycan dövlətinə qarşı-

laşdığı çətinlikləri aradan qaldırmaq üçün hər türlü yardımlar göstərmişdir.

Əziz qardaşım Süleyman Dəmirəl!

XX əsrin sonunda öz istiqlaliyyətinə yenidən qovuşan Azərbaycan xalqı müstəqilliyinin ilk anlarından başlayaraq ona mənəvi dayaq olmağınızı, Türkiyə- Azərbaycan dostluğunun möhkəmləndirilməsi və inkişaf etməsi üçün göstərdiyiniz misilsiz xidmətləri yüksək qiymətləndirir. Azərbaycan xalqı yaxşı bilir ki, sizin ürəyiniz Türkiyə ilə bərabər Azərbaycanla da vurur, qəlbiniz bütün türk dünyası ilə döyünür.

Siz «Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir» deyən böyük Atatürkün yoluna sadiq qaldınız, onun ruhunu şad etdiyiz, Azərbaycan–Türkiyə dostluğunu, qardaşlığını əbədi, sarsılmaz edərək gələcək nəsillər qarşısında şərəfli bir iş gördünüz.

Bu dostluğun, qardaşlığın ən gözəl təzahürü Azərbaycan prezidenti kimi, mənə göstərdiyiniz diqqət, qayğıdır. Mən bunu bütün Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə göstərilən qayğı kimi qiymətləndirirəm. Bizim dostluğumuz Türkiyə–Azərbaycan dostluğunun sarsılmazlığının ən parlaq təcəssümüdür.

Hələ yanvar ayında, xəstələndiyim ilk gündən dəyərli vaxtınızı sərf edib mənim səhhətimlə çox yaxından və ciddi məşğul olmağınız, mənim taleyimə, Azərbaycanın gələcəyinə biganə qalmamağınız, oğlum İlhama ümid, inam dolu təsəlli verərək bütün əməliyyatları öz əlinizə almağınız, bir-birinin ardınca Ankaradan Bakıya təcili olaraq təyyarələrlə həkimlər qrupu göndərərək ilk tibbi yardımı təşkil etməyiniz, səhhətimə nəzarət etmək üçün şəxsi həkim ayırmağınız və buna qane olmayıb təkid edərək məni Gülhanə Hərbi Tibb Akademiyasına gətirib müalicə etdirməyiniz, oradaca hər gün yanıma gəlməyiniz, məni tək buraxmamağınız, bir an belə mənimlə əlaqəni kəsməməyiniz, sonra isə Amerika Birləşmiş

Ştatlarında müalicəmin gedişini tam nəzarətdə saxlamağınız, həm cərrahiyyə əməliyyatından əvvəl, həm də sonra məni müalicə edən həkimlərlə telefon əlaqəsi saxlamağınız, mütəmadi olaraq mənimlə birbaşa ünsiyyəti davam etdirməyiniz, cərrahiyyə əməliyyatının və müalicəmin uğurla nəticələnməsinə bir qardaş kimi sevinməyiniz və tam sağalmağımın qeydinə qalaraq məni Türkiyəyə istirahətə dəvət etməyiniz, Ankarada məni doğma bir insan, əziziniz kimi qarşılayaraq istirahətimin mənalı keçməsi üçün hər cür şərait yaratmağınız, əziyyət çəkərək və böyük alicənablıq göstərərək xanımınızla məni Antalyada ziyarət etməyiniz, hər an, hər dəqiqə yüksək qonaqpərvərlik, qayğı, diqqət göstərməyiniz, mənə böyük hörmət və ehtiram bəsləməyiniz sizin nə qədər humanist, xeyirxah, insanpərvər bir şəxsiyyət, geniş qəlbli böyük insan, sadiq dost və qardaş olduğunuzu bir daha bariz şəkildə nümayiş etdirdi.

İnanın ki, sizə olan inamım, mənə göstərdiyiniz səmimi, mehriban dostluq münasibəti, qardaşlıq məhəbbəti məni çox ruhlandırdı, ürəyimə güc, qoluma qüvvət, canıma enerji, gözümə işıq verdi, müalicəmin uğurla keçməsinə, tez bir zamanda sağalmağıma, səhhətimin tam yaxşılaşmasına müsbət təsir göstərən ən mühüm amillərdən biri oldu.

Bütün bunlara görə, müasir dünyamızda bənzəri olmayan böyük dostluğunuza görə, mənə göstərdiyiniz yüksək səviyyəli münasibətə, diqqət və qayğıya, hörmət və ehtirama görə sizə hədsiz dərəcədə təşəkkür edir və sonsuz minnətdarlığımı bildirirəm.

Bəşəri dəyərləri özündə birləşdirən böyük insan, sarsılmaz Türkiyə dövlətinin yenilməz rəhbəri, əziz dostum və qardaşım Süleyman Dəmirəl, siz bütün bu nəcib insani hərəkətləriniz və sadiq əməllərinizlə bəşər tarixində əbədi qalacaq möhtəşəm, əzəmətli, monolit bir dostluq abidəsi ucaltdınız, Azərbaycan-Türkiyə dostluğunun daha da möhkəmlənərək əbədi olması

üçün təməli möhkəm zəmin yaratdınız və türk birliyinin sarsılmazlığını bütün dünyaya nümayiş etdirdiniz. Siz bununla sizə minnətdar olan milyonlarla azərbaycanlının məhəbbətini qazandınız.

Sizi əmin edirəm ki, mən və mənim övladlarım bu dostluğa daim sadiq qalacağıq.

Əmin ola bilərsiniz ki, Ankarada və Antalyada sizinlə dövlətlərimizi və regionumuzu əhatə edən taleyüklü məsələlər barədə apardığımız səmərəli danışıqlar, ölkələrimiz arasında strateji müttəfiqliyin və çoxşaxəli əməkdaşlığın daha da dərinləşdirilməsi ilə bağlı Türkiyənin yeni Baş naziri, böyük Millət Məclisinin yeni sədri, Türkiyə Ordusunun Baş Qərargah rəisi, nazirlər və ictimai-siyasi xadimlər ilə keçirdiyimiz görüşlər və apardığımız faydalı müzakirələr zamanı əldə etdiyimiz uğurlu nəticələri həyata keçirmək üçün yeni böyük enerji və tükənməz qüvvə ilə çalışacağam.

Qardaş ölkələrimiz, tarixi köklərlə bağlı olan xalqlarımız arasında qarşılıqlı faydalı əlaqələrin bütün sahələrdə daha geniş vüsətlə inkişaf etməsi, Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının daha da yüksəklərə qalxması, xalqlarımızın rifahının yüksəlməsi, bölgəmizdə və bütün dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün yorulmadan səy göstərəcək və heç nəyi əsirgəməyəcəyəm.

Əziz qardaşım, bir daha sizə dərin minnətdarlığımı, hörmət və ehtiramımı bildirirəm. Sizə və ailənizə cansağlığı, uzun ömür, qardaş Türkiyəyə tərəqqi və çiçəklənmə, qəhrəman türk xalqına sülh, əmin-amanlıq, firavanlıq və xoşbəxt həyat arzulayıram.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Antalya, *8 iyun 1999-cu il*

TÜRKİYƏNİN «CEYLAN-TV» TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB

Antalya, Simena köşkü

8 iyun 1999-cu il

S u a l: Cənab prezident, indi səhhətiniz necədir və bu istirahət ocağı barədə nə deyə bilərsiniz?

C a v a b: Mən Türkiyəyə, Antalyaya gəldiyim zaman səhhətim xeyli yaxşılaşmışdı və burada istirahət edəndən sonra səhhətim tam yaxşıdır. Bu istirahət ocağı barədə fikrim çox yüksəkdir. Bura cənnət kimi bir yerdir. Ancaq bu cənnət kimi yeri daha da gözəlləşdirən buranın sahibləri – Ceylan qardaşlarıdır. Onlar burada böyük bir istirahət, dincəliş mərkəzi yaradıblar. Burada minlərlə insan istirahət edir, öz sağlamlığını möhkəmləndirir. Burada hər şey dünya standartlarına uyğundur. Bu, böyük bir nailiyyət, xoşbəxtlikdir. Çünki Türkiyədə hər şeyi dünya və Avropa standartları səviyyəsinə qaldırmaq asan məsələ deyil. Ona görə də bu istirahət ocağı barədə mənim ən gözəl təəssüratlarım vardır.

S u a l: Cənab prezident, türk xalqına sözünüz varmı?

C a v a b: Türk xalqına sözümü deməmişdən əvvəl istəyirəm məni Türkiyəyə istirahətə dəvət edən əziz dostum, qardaşım, Türkiyənin cümhur başqanı hörmətli Süleyman Dəmirələ hədsiz minnətdarlığımı və təşəkkürümü bildirim.

Mən may ayının 20-dən iyunun 9-dək Türkiyədəyəm, burada istirahət edirəm. May ayının 25-dən isə Antalyadayam. Mənim istirahətim üçün burada ən gözəl şərait yaradılıbdır. Bunların hamısına görə təşəkkür edirəm.

Burada istirahət etdiyim bu iqamətgah Ceylan qardaşlarınındır. Onlar burada mənə çox böyük qonaqpərvərlik, mehribanlıq, dostluq münasibəti göstərdilər. Bunlar hamısı isə mənim yaxşı istirahətimi və sağlamlığımın artmasını təmin edibdir. Mən bütün bunlara görə Ceylan qardaşlarına təşəkkür edirəm. Onları Azərbaycana dəvət edirəm ki, respublikamıza gəlsinlər, bizim dostluğumuz bundan sonra daha da inkişaf etsin.

Türk xalqına isə sözüm ondan ibarətdir ki, türk xalqı qəhrəman xalqdır. Türk xalqı Türkiyəni qısa bir zamanda dünyanın ən qüdrətli və inkişaf etmiş dövlətlərindən birinə çevirdi. Bu, türk xalqının xidmətlərinin nəticəsidir. Mən türk xalqına gözəl istiqbal, rifah, sülh, əmin-amanlıq, ən gözəl uğurlar diləyirəm.

M ü x b i r: Cənab prezident, Sizə dərin təşəkkürümü bildirirəm.

H e y d ə r Ə l i y e v: Sağ olun, mən də sizə təşəkkür edirəm.

RESPUBLİKA TƏHLÜKƏSİZLİK ŞURASININ GENİŞ İCLASINDA NİTQ

Prezident sarayı

10 iyun 1999-cu il

Mən dünən vətənə gəldim, bu gün də işə başladım. Doğrudur, dünən hava limanından da birbaşa aparata gəldim, bəzi məsələlərlə maraqlandım. Ancaq bu gün işə başlamışam. Mən bu gün Təhlükəsizlik Şurasının geniş iclasını çağırmışam.

Mən Amerikada və Türkiyədə olduğum zaman ölkəmizlə daim əlaqədə olmuşam. Ölkədə bütün sahələrdə gedən işlər haqqında mənə mütəmadi olaraq məlumatlar verilibdir. Mən lazımi göstərişləri verib, Azərbaycanda işlərin normal getməsini təmin etməyə çalışmışam və respublikamızdakı vəziyyəti daim nəzarətim altında saxlamışam.

Beləliklə, mən əgər cismən ölkəmizdən kənarda olmuşamsa, ancaq iş nöqteyi-nəzərindən daim ölkəmizlə olmuşam. Bunlara görə də mənə belə gəlir ki, ölkədə olmadığım bu müddətdə Azərbaycanda işlər öz qaydasında gelib, heç bir problem meydana çıxmayıbdır və mənim burada olmamağım bu işlərin zəifləməsinə gətirib çıxarmayıbdır. Mən belə düşünürəm. Bəlkə indi haradasa, nəsə zəifləyibdir, ancaq bu o qədər əhəmiyyətli deyildir. Ümumi götürəndə işlər yaxşıdır. Mən xaricdə olarkən televiziya ilə çıxışlarımda bu barədə demişəm, sizə məlumdur. Ona görə də bu gün sizə bir daha təşəkkür edirəm ki, mən burada olmayanda mütəşəkkillik, nizam-intizam, qayda-qanun olubdur. Bunlar onu göstərir ki,

Azərbaycanda bizim 6 il müddətində qurduğumuz, yaratdığımız dövlət, hakimiyyət orqanları, hakimiyyətin bütün qanadları artıq öz yerlərində möhkəmdirlər, dövlətimiz həqiqətən möhkəm bir dövlətdir, bütün strukturlar düzgün yaranıbdır. Ona görə də işlər həmişə normal gedir.

Mən respublikada olmadığım zaman fəal işlədiyinizə görə sizə təşəkkür edirəm. Təbiidir ki, sizin, təkcə sizin yox, bütün geniş ümumdövlət hakimiyyətinin işlərinin sayəsində Azərbaycanda bu müddətdə hər şey qayda-qanunda olubdur. Mən burada həm Milli Məclisin, həm Nazirlər Kabinetinin, həm Prezident Aparatının fəaliyyətini, həm də bütün nazirlərin, hakimiyyət orqanlarının, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini qeyd edirəm. Xüsusən, Bakı İcra Hakimiyyətinin fəaliyyətini qeyd edirəm. Çünki Bakı bizim paytaxtımızdır və Azərbaycanın böyük bir hissəsidir.

Bizim xalqımızda birlik, ölkəmizdə ictimai-siyasi sabitlik təmin edilmişdir. Baxmayaraq ki, müxalifətdə olan qüvvələr daim çalışırlar ki, Azərbaycanda bir qarışıqlıq yaratsınlar. Mən ölkədə olmadığım zaman bir sıra qəzetlərdə, mətbuat orqanlarında mənəviyyatsızlıq, əxlaqsızlıq göstəriblər. Amma bunlara baxmayaraq, xalqımız Azərbaycan dövlətini, dövlətçiliyini, Azərbaycan prezidentini dəstəkləyib, dəstəkləyir və xalqımızın birliyi, həmrəyliyi təmin olunubdur və hesab edirəm ki, bu əbədidir.

Dünən Bakıya gələrkən məni çox təmtəraqlı qarşıladınız. Mən bunlara görə təşəkkür edirəm. Hesab edirəm ki, dünənki gün bütün Azərbaycana, - təkcə Azərbaycana yox, - nümayiş etdirdi ki, xalqımız yüksək əhval-ruhiyyə ilə yaşayır. Əlbəttə, əksər hissəsi yüksək əhval-ruhiyyə ilə yaşayır, Azərbaycanın dövlətçiliyinə böyük hörmət və ehtiram göstərir, dövlətimizin və Azərbaycan prezidentinin ətrafında çox sıx birləşmişdir. Dünən bizim hamımızın yol boyu gördüyümüz vəziyyət bunu çox açıq şəkildə göstərir.

Bilirsiniz, bəzən, ola bilər, ayrı-ayrı hakimiyyət orqanları insanları harasa gətirsin, toplasın. Ancaq bu, insanların daxili istəyinə, arzusuna, fikirlərinə uyğun deyilsə, o insanlar ya öz yerini bir azdan sonra tərk edə bilər, yaxud da, sadəcə, məcbur olub orada duracaqlar. Ancaq dünən hava limanından şəhərin mərkəzinədək, yəni Prezident sarayına qədər bu insanların hamısında həm səmimiyyət, mehribanlıq, həm də böyük ruh yüksəkliyi və Azərbaycanın dövlətinə, prezidentinə böyük hörmət, ehtiram gördüm. Yəqin siz də görürdünüz, amma bəlkə sizin bəzilərinizsonra geridə qalırdınız, ancaq mən hamısını görürdüm. Görürdüm ki, yaşlı adamlar nə cür həyəcanla münasibət göstərirlər. Görürdüm ki, gənclər, uşaqlar, qadınlar, kişilər necə münasibət göstərirlər. Mən hamısını görürdüm. Əgər insanın daxilindən, içindən gələn hissiyyatlar olmasaydı, bunların heç birisini yaratmaq mümkün deyildi. Onu heç kəs yarada bilməz. Amma mən görürdüm, görürdüm ki, necə candan, ürəkdən sevinirlər. Mən nə qədər «xoş gəlmisiniz!» sözləri, nə qədər belə gözəl sözlər eşidirdim. Qurbanların sayı-hesabı yox idi.

Yenə də deyirəm, bunlar hamısı xalqımızın, millətimizin indi tam həmrəy olmasını, xalqımızda birlik olmasını və xalqımızın Azərbaycan dövlətçiliyinə, prezidentinə sadiq olmasını göstərir. Mən cəsarətlə deyə bilərəm ki, bu elə Azərbaycan dövlətinin bugünkü fəaliyyəti haqqında ümumxalq referendumudur. Bundan artıq nə ola bilər! Mən bilmirəm, biz gələndə Bakının küçələrində neçə yüz min adam var idi? Hər halda çox. İndi bunlar toplaşıb öz istək və arzularını bu cür göstərirlərsə, demək, bu, Azərbaycanın dövlətçiliyinin, prezidentinin dəstəklənməsinin ən gözəl təzahürüdür.

Mən bütün bunlara görə xalqımıza, millətimizə hədsiz minnətdarlığımı bildirirəm. Mən məmnunam ki, biz 6 il müddətində ölkəmizi müsbət istiqamətdə xeyli dəyişdirə bildik. Mən məmnunam ki, keçmişin Azərbaycanda yaratdığı hərc-

mərclik, hakimiyyətsizlik, qanunsuzluq və digər mənfi halları biz ortadan götürə bildik. Şübhəsiz ki, onları aradan qaldırmaq bizim işimizin birinci hissəsi idi. Amma onları ortadan götürəndən sonra Azərbaycanda vəziyyəti sabitləşdirmək və vəziyyəti bu səviyyəyə, bu dərəcəyə gətirib çıxarmaq, şübhəsiz ki, böyük əmək, zəhmət, fədakarlıq tələb edirdi. Hamımız birlikdə, xalqımızla, millətimizlə birlikdə biz bunu edə bilmişik.

İndi deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyinin başqa dövlətləri ilə müqayisə etsək, Azərbaycan ən sabit, ictimai-siyasi sabitliyi çox möhkəm təmin edən bir ölkədir. Mən heç birisinə başqa cür yanaşmaq istəmirəm. Hərənin özünəməxsus xüsusiyyəti vardır. Amma bir şeyi bilmək lazımdır ki, bir neçə respublikada daxili vəziyyət heç vaxt pozulmamışdır. Azərbaycanda isə təxminən 1990-cı ildən 1993-cü ilə qədər daxili vəziyyətin pozulması Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin heç birində baş verməyibdir. Burada nələr baş veribdir?

20 Yanvar hadisələri baş verdi, ondan sonra daxili mübarizə, çarpışma, vuruşma. Bunlar hamısı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar aparılan döyüşlər, tökülən qanlar, verilən şəhidlər, 1992-ci ilin fevral ayında hakimiyyətin devrilməsi, 1993-cü ilin iyun ayında hakimiyyətin tab gətirə bilməməsi və istefa verməsi, qaçıb dağılması, vətəndaş müharibəsinin baş verməsi, ölkəmizin parçalanması təhlükəsinin meydana çıxması və onun bəzi yerlərdə artıq real olması. Görün nə qədər ağır vəziyyət idi! Hansı ölkədə belə bir vəziyyət olubdur? Heç birində. Doğrudur, hər ölkədə müəyyən proseslər gedibdir. Amma Müstəqil Dövlətlər Birliyinə, keçmişdə Sovetlər İttifaqına daxil olan ölkələrin, respublikaların heç birində belə vəziyyət olmayıbdır.

Nəzər salın, 1993-cü ildən sonrakı vəziyyəti xatırlayın. Bəli, 1994-cü ilin oktyabrında burada hakimiyyəti silah gücü ilə, qanunsuz olaraq devirməyə çalışdılar. O vaxt da xalq bizi müdafiə etdi. Xalqın gücü qarşısında heç kəs dura bilmədi. Bəziləri həmin o gecələr çox narahat idi, amma mən arxayın idim. Mən heç vaxt narahat deyildim. Arxayın idim ki, son məqamda mənim ən böyük silahım vardır. O silah da xalqın mənə, Azərbaycan prezidentinə olan münasibətidir. Bunu da sübut etməyə ehtiyac yoxdur, artıq göründü.

Oktyabr ayının 4-dən 5-nə keçən gecə mənim televiziya ilə bir çağırışımla yüz minlərlə insanın Prezident sarayının qarşısına toplaşması və gecə səhərədək mitinq etməsi, Azərbaycan dövlətini, prezidentini qoruması xatirinizdədir. Bu insanların gecə yatmamasına, istirahət etməməsinə baxmayaraq ayın 5-də Azadlıq meydanı insanla ağzınadək dolmuşdu. Orada bir milyona qədər insan var idi. Təkcə Bakıdan yox, Azərbaycanın ayrı-ayrı rayonlarından, şəhərlərindən, bölgələrindən nə qədər insan gəlmişdi. Bu, xalqın birliyini və Azərbaycan dövlətinin nə qədər möhkəm olduğunu, Azərbaycan prezidentinə xalqın nə qədər hörmət, ehtiram, sədaqət göstərdiyini nümayiş etdirdi. Məhz buna görə də biz 1994-cü ilin oktyabr hadisələrindən xilas ola bildik.

Amma 1994-cü ilin oktyabr hadisələri təkcə oktyabrın 4-də başlamamışdı. 1994-cü ilin oktyabr hadisələri 1994-cü il sentyabrın 20-də Azərbaycan ilk böyük neft müqaviləsini imzalayandan sonra, yəni sentyabrın 21-də başlandı.

Xatirinizdədir ki, sentyabrın 21-də Milli Təhlükəsizlik Nazirliyinin həbsxanasından 4 qatı cinayətkarı satqınlıq nəticəsində çıxarıb qaçıra bilmişdilər. Ondan sonra mən Amerikada, Birləşmiş Millətlər Təşkilatının Baş Məclisində olduğum zaman – sentyabrın 29-da iki terror aktı oldu. Milli Məclisin sədrinin müavini Afiyəddin Cəlilovu və Xüsusi İdarənin rəisi polkovnik Şəmsi Rəhimovu qətlə yetirdilər.

Bunları heç vaxt unutmayın. Görün, bu hadisələr bir-birinin ardınca gedir. Sonra, oktyabrın 2-də Azərbaycan Prokurorluğunu cinayətkar adamlar işğal etdilər. Biz iki gün, iki gecə bu cinayətkarlarla danışıq aparırdıq və güc tətbiq etmək istəmirdik. Demək, bunlar hamısı bir-biri ilə bağlı imiş.

Bunun davamı olaraq oktyabrın 4-də Surət Hüseynovun rəhbərliyi ilə silahlı çevriliş cəhdi göstərildi. Bunlar hamısı bir-biri ilə bağlı idi. Bu, həm daxili cinayətkar qrupların, dəstələrin bizə qarşı hazırladığı cinayətkar tədbirlərdir. Amma eyni zamanda bunlar ayrı-ayrı xarici dövlətlərdən də nəinki dəstək alırdı, onlardan müəyyən tapşırıqlar da alırdı. Burada onların da rolu az deyildi.

Bunların bir-biri ilə bağlı olmasını sübut edən bir də odur ki, xatirinizdədir, o gecə, oktyabrın 4-dən 5-nə keçən gecə insanlar buraya Azərbaycan dövlətçiliyini qorumaq üçün toplaşdı. Həmin gecə insanlar oktyabrın 2-də prokurorluğu zəbt etmiş OMON dəstəsinin başçısı Rövşən Cavadovu məcbur etdilər gəlib burada, mitinqdə etiraf etsin ki, səhv ediblər, onlar Azərbaycan prezidentini dəstəkləyirlər. Amma təkcə bu deyildi. O, mənim otağıma gəldi, danışdı, dedi ki, bağışlayın. Mənim otağımdan telefonla Gəncəyə zəng edib Səfixanova dedi ki, «siz qurtarın, biz burada artıq qurtarmışıq. Biz qurtardıq, siz də qurtarın». Başqa bir məlumat da var idi. O vaxt həmin məlumat bundan ibarət idi ki, prokurorluğu zəbt etmək ərəfəsində Rövşən Cavadov Surət Hüseynova telefon etmiş və demişdi ki, «mən gedirəm öz işimi görüm, siz də öz işinizi görün». Onlar prokurorluğu zəbt edəndən sonra da bir telefon etmişdilər ki, «biz işimizi gördük, siz də görün». Bunlar bir-biri ilə bağlı məsələlərdir. İndi görün Azərbaycan nə qədər gərgin vəziyyətdə idi! Onda bizim hələ bu qədər gücümüz yox idi, dövlətçilik o qədər formalaşmamışdı, bizim hakimiyyətdə Surət Hüseynov kimi bir adam oturmuşdu.

Bilirsiniz, biz bu təxribatın, terrorun, dövlət çevrilişinə cəhdlərin qarşısını xalqımızın, millətimizin bizə göstərdiyi dəstəyə, hörmət-ehtirama görə ala bildik. Ancaq xatirinizdədir ki, bununla da iş bitmədi. Bir neçə ay keçmədi ki, mart ayında yeni dövlət çevrilişinə cəhd göstərildi. Həmin o OMON dəstəsi və onun başçıları yenə də hakimiyyət uğrunda mübarizə apardılar.

Təsəvvür edin, əgər onlar o gecə istədiklərinə nail ola bilsəydilər, nələr baş verərdi. Onların əllərində çoxlu silah var idi və çox cinayət işləri törədərək döyüşməkdə, vuruşmaqda, atəş açmaqda təcrübə qazanmış adamlar idilər. Bu da əvvəldən hazırlanan dövlət çevrilişinə cəhd idi. Ancaq biz bunun da qarşısını aldıq.

Xatirimdədir, təxminən mart ayının 5-də, yaxud 6-da Türkiyənin Azərbaycandakı səfiri Altan Karamanoğlu özünün bir neçə işçisi ilə xahiş etdi mən onları qəbul edim. Mən onları qəbul etdim. Onlar gəldilər, Azərbaycandakı vəziyyəti mənə izah etməyə başladılar ki, respublikada vəziyyət ağırlaşıbdır. Onlardan biri mənə məlumat verməyə başladı ki, «mən Azərbaycanın demək olar ki, bütün bölgələrini gəzmişəm. Ölkədə oktyabr ayında sizin xalqa çağırışınızla əlaqədar elə bir əhval-ruhiyyə yoxdur, narazılıq var». Onlar başqa belə sözlər də işlətməyə başladılar. Dedim ki, axı məqsədiniz nədir? Türkiyənin səfiri Altan Karamanoğlu mənə dedi ki, bəs, «Rövşən Cavadova bir vəzifə vermək, onu müəyyən qədər neytrallaşdırmaq lazımdır. Yoxsa biz hesab edirik ki, burada vəziyyət çox pis ola bilər. Əgər onlar qalxsalar, siz xalqa müraciət etsəniz, bu dəfə xalq sizi dəstəkləməyəcəkdir».

Mən onları dinlədim, düzü, çox narahat oldum. Onlara dedim ki, bilirsiniz, sizin fikirləriniz yanlışdır, doğru deyildir. Siz Azərbaycandakı vəziyyəti düzgün qiymətləndirmirsiniz. Mən onda bilmirdim ki, onların Rövşən Cavadovla belə əlaqəsi vardır. Yəni bilirdim ki, onların əlaqəsi var, amma bu

cür əlaqələrini bilmirdim. Dedim ki, sizin verdiyiniz məlumatları nəzərə alacağam. Ancaq mənim öz işim, sizin də öz işiniz var, gedə bilərsiniz.

Bilirsiniz ki, 1995-ci il martın 9-12-də mən Kopenhagendə idim. Mən Kopenhagenə getməmişdən əvvəl onlar vəziyyəti gərginləşdirirdilər. Yenə də səfir Altan Karamanoğlu mənə guya vasitəçilik edirdi ki, siz Rövşən Cavadovu qəbul edin. Ona dedim ki, mən onu bir-iki dəfə çağırmışam, gəlməyibdir. O dedi ki, mən təmin edərəm, gəlsin. Bildirdim ki, yaxşı, gəlsin. Yadımda deyil, ayın neçəsi idi, o mənə telefon etdi ki, Rövşən Cavadovla danışmışıq, nə vaxt gələ bilər? Mən də vaxtını təyin etdim, dedim ki, bu vaxt gəlsin. Gəlmədi. Sabahısı gün səfir yenə mənə telefon etdi ki, bəs dünən onun harasısa, içi ağrıyıb, nəsə olub, gələ bilməyib, amma bu gün gələcəkdir. Dedim ki, yaxşı, filan vaxt gələ bilər. Yenə də gəlmədi. Amma bunlar hesab edirdilər ki, hər şey onların əlindədir. O, görüşə gəlmədi.

Mən Kopenhagenə getdim. Azərbaycan xalqının böyük dostu, mənim əziz dostum, qardaşım, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl orada mənə dedi ki, Azərbaycanda vəziyyət ağırdır, sən tezliklə Bakıya qayıtmalısan. Mən işimi qurtarmışdım, qayıdırdım. Amma martın 14-də Pakistanda EKO təşkilatının üzvü olan ölkələrin dövlət başçılarının görüşü var idi. Mən də həmin görüşdə iştirak etməyi planlışdırmışdım. Hörmətli Süleyman Dəmirəl mənə dedi ki, sən Pakistana gəlmə, oraya gəlməyinin əhəmiyyəti yoxdur, nümayəndə heyətini göndər, ancaq sən Azərbaycana gedib vəziyyəti öyrən və lazımi tədbirlər gör.

Mən Azərbaycana gəlib gördüm ki, vəziyyət çox gərgindir. Bir-iki gündən sonra respublikamızın Qazax, Ağstafa rayonlarında onlar hakimiyyəti ələ keçirdilər. Mən Rövşən Cavadovu və daxili işlər nazirinin müavini Zahid Dünyamalıyevi, bir də keçmişdə xidmət etmiş polkovnik İsa Hüseynovu oraya

göndərdim ki, gedib onları başa salsınlar. Cinayətkarlar gəlib həmin rayonları zəbt etmişdilər, hakimiyyəti devirmişdilər.

Mən göndərdiyim adamlar oraya getdilər, bir şey edə bilmədilər. Ancaq sonra mənə məlumat verdilər ki, Rövşən Cavadov orada onlara deyib ki, siz düz etmisiniz, biz də Bakıda bunu edəcəyik, heç bir şeyə qulaq asmayın. Onlar oradan geriyə qatarla qayıtmışdılar. Rövşən Cavadov qatardan düşən kimi 8-ci Kilometr qəsəbəsindəki bazaya gedərək orada öz işlərinə başlamışdı.

Mənim onlara müraciətim, əfv haqqında fərmanım, ayrı-ayrı hörmətli adamların onların yanına getməsi – bunlar hamısı sizə məlumdur. Hesab edirdilər ki, artıq hakimiyyət onların əlindədir. Çünki onlar Moskva televiziyasına, özəl televiziya kanallarına belə müsahibələr vermişdilər. Ancaq biz bunun da qarşısını aldıq. Nə ilə? Azərbaycan dövlətinin artıq özünü müdafiə etmək qüdrəti ilə.

Həmin çevriliş cəhdini hazırlayanlar təkcə OMON dəstəsinin və Rövşən Cavadovun ağlının işi deyildi. Artıq bu, istintaqdan məlumdur ki, onlar Moskvadan Mütəllibovdan, Kələkidən Əbülfəz Elçibəydən dəstək almışdılar. Onların adamları gəlib burada görüşmüşdülər. Mütəllibovun emissarı həbs olunub, indi cəza çəkir. Amma Əbülfəz Elçibəyin emissarı qaçıb xarici ölkədə gizlənir.

Bəli, Dövlət Şurası yaratmaq istəyirdilər. Bu Dövlət Şurasında Mütəllibov da, Əbülfəz Elçibəy də, Rövşən Cavadov da olacaqdı, onlar guya Azərbaycanı idarə edəcəkdilər. Sonra məlum oldu, - Əbülfəz Elçibəy deyib ki, mən bunu qəbul edirəm, orada iştirak edəcəyəm, amma mən Mütəllibovla bir yerdə ola bilmərəm. Əgər siz onların tərəfindən adam götürmək istəyirsinizsə, keçmiş Baş nazir Rəhim Hüseynovu Dövlət Şurasının tərkibinə salın, onda hər şey yaxşı olar. Bunlar hamısı həqiqətdir, istintaqda məlum olubdur. Bu, adi söz

deyil, istintaqın nəticələridir. Biz bütün bunların da qarşısını aldıq.

Sonrakı hadisələr, Azərbaycan prezidenti xaricdən gələrkən təyyarəni vurmaq istəmələri sizə məlumdur. Mən artıq sizə deyə bilərəm, istintaq aydınlaşdırmışdır ki, bu, xarici xidmət orqanlarının Azərbaycanda bir neçə hərbi qulluqçunu – generalları, polkovnikləri bu işə cəlb etməsi ilə əlaqədardır. Raket də, onu atmaq istəyən adam da tapıldı, onların hamısı məsuliyyətə cəlb olundu.

Ancaq son vaxtlar mən şəxsən bu işin təşkilatçısı, indi Moskvada yaşayan bir azərbaycanlı ilə görüşdüm. O, mənə geniş məlumat verdi ki, bu, düşünülüb hazırlanmış plan idi. Demə, böyük silahlı dəstələr Dağıstandan gəlib Azərbaycanın Balakən rayonunda və Gürcüstandan keçib Balakənlə sərhəd rayonlarında toplaşmışdılar ki, Bakıda təyyarə vurulacaq, Heydər Əliyev məhv olacaq, ondan sonra onlar Azərbaycana daxil olub ölkədə qarmaqarışıqlıq yaradacaqlar, hakimiyyəti ələ alacaqlar. Allah bizi bundan saxladı.

Şübhəsiz ki, ogünkü hadisələrdə bizim o qədər də xidmətimiz yoxdur. Əgər külək o tərəfdən yox, bu tərəfdən əssəydi, ola bilər, raket gəlib bizim təyyarəni tutardı. Hətta o işi icra edən adamlardan biri deyib ki, əgər raket düzgün atılsaydı, təyyarə o tərəfdən gəlsə də, raket təyyarəni vuracaqdı. Ancaq bunu başa düşməmişdilər.

Sonra Sabunçu rayonundakı körpünü partlatmağa göstərilən cəhdi xatırlayırsınız. Bunlar heç vaxt unudulmamalıdır. Həmin körpünün altında 120–160 kiloqram trotil yerləşdirmişdilər. Ukraynanın prezidenti Kuçma ilə mən oradan keçərkən körpünü partlatmaq istəyirdilər.

Biz bu cür çətin dövrlərdən keçib gəldik və bu cür imtahanlardan, sınaqlardan keçdik. Amma bunu şərəflə keçdik. Bu cinayətkar dəstələr, terrorçular təkcə Azərbaycanın prezidentinə yox, xalqımıza düşmən olan insanlar idilər. Onların

bəzilərinə deyirdilər ki, sizə heç bir şey edə bilməzlər, amma demirdilər ki, düz yolda deyilsiniz.

Biz 1995-ci ildən sonra Azərbaycanda ictimai-siyasi sabitliyi demək olar ki, tam təmin edə bildik. Dediyim kimi, bu sabitlik artıq çox böyük, möhkəm təməl üzərində qurulubdur. Hesab edirəm ki, bu sabitlik dönməzdir, onu heç kim poza bilməz.

Kim nə edir-etsin, heç kəs bunu poza bilməz. Mən dedim, mən burada olmayanda bəzi müxalifət qəzetlərində çox mənəviyyatsız, əxlaqsız yazılar yazıblar. Bəzilərini mənə bildiriblər, bəzilərini isə mənə bildirmirdilər. Amma mən heç onlara baxmaq istəmirdim. Çünki bunlar əhəmiyyətsiz şeylərdir. Həmin o qəzet yazıları ilə bu insanlar özlərinin nə qədər mənəviyyatsız olduqlarını göstərirlər, əxlaqsız olduqlarını göstərirlər. Eyni zamanda özlərini xalqın qarşısında, millətin qarşısında ifşa edirlər. Ona görə də bu bizim üçün heç bir əhəmiyyət daşımır, nə yazırlar-yazsınlar.

Doğrudur, əxlaqsız şeyləri oxuyanda, görəndə deyirsən, əcəba, bu insan mənəviyyatca nə qədər pozulmuş olar. Amma nə edək, cəmiyyətimizdə bunlar da vardır və bizim yaratdığımız demokratik şəraitdən, siyasi plüralizmdən istifadə edərək bunlar bu cür yollara gedirlər.

Mən deyə bilərəm, əlbəttə ki, başqa ölkələrdəki müxalifət qəzetlərinin hakimiyyətə qarşı yazılarının hamısını oxumamışam, amma müəyyən qədər məlumatım vardır. Məndə belə bir fikir var ki, heç bir ölkədə müxalifət qəzetləri bu cür təhqiramiz, bu cür mənəviyyatsız, bu cür əxlaqsız yazılar yazmırlar. Ola bilər, bu da bizim cəmiyyətin bir xəstəliyidir. Amma güman edirəm ki, Azərbaycan xalqı, millətimiz bu xəstəlikdən də xilas olacaqdır.

Təsəvvür edin, 1993-cü ildən indiyədək biz Azərbaycan xalqını nə qədər xəstəliklərdən xilas edə bildik. Bundan da xilas edəcəyik. Ona görə bunlar bu cür çirkin işlərlə nə qədər

məşğul olurlarsa, məşğul olsunlar. Buna cavab dünən Azərbaycanda, yəni Bakıda sakinlərin göstərdiyi ruh yüksəkliyidir. Bu onu göstərir ki, o qəzetləri özləri yazırlar və özlərinə məxsus adamlar oxuyurlar. Ola bilər, başqaları da oxuyurlar. Amma özlərinə məxsus adamlar oxuyub bundan ləzzət alırlar və hesab edirlər ki, böyük iş görürlər. Amma başqaları oxuyurlarsa, yəqin bəziləri oxuyurlar. Güman etmirəm ki, çox adam bunları oxuyur. Hesab edirəm, əgər oxuyurlarsa, onlarda həmin yazılara görə bunu yazan adamlara daha da nifrət hissi oyanır. Mən belə düşünürəm.

Yəni mən bununla onu demək istəyirəm ki, mənim Azərbaycanda olmadığım bu dövr bir imtahan dövrü idi, bir sınaq dövrü idi və həmin qəzetlərin yazılarına və müxalifətin başqa hərəkətlərinə baxmayaraq xalqımız, millətimiz, dövlətimiz, hakimiyyətimiz bu sınaqdan, imtahandan şərəflə çıxdı. Bu, böyük nailiyyətdir.

Əlbəttə ki, heç kəs xəstələnmək istəməz. Heç kəs istəməz ki, cərrahiyyə əməliyyatı keçirilsin. Ancaq bəlkə də Allahın işi imiş, - belə bir şey olmalıydı ki, Azərbaycan bir daha öz qüdrətini göstərsin, yəni dövlətimiz öz qüdrətini göstərsin, biz bir daha dünyaya nümayiş etdirək ki, Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Azərbaycan dövləti möhkəmdir və Azərbaycan dövləti, dövlətçiliyi tutduğu yol ilə gedir. Yolumuz da məlumdur – məqsəd Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu inkişaf etdirmək, Azərbaycanın iqtisadiyyatını bazar iqtisadiyyatı əsasında inkişaf etdirmək, Azərbaycan xalqının rifah halını yaxşılaşdırmaq və Azərbaycanı inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaqdır. Biz bunu edəcəyik. Biz buna nail olacağıq.

Şübhəsiz ki, hamımızı incidən, hamımızı narahat edən məsələ torpaqlarımızın işğal olunmasıdır, bir milyondan artıq vətəndaşımızın qaçqın vəziyyətində çadırlarda yaşamasıdır və Azərbaycanın ərazi bütövlüyünün pozulmasıdır. Məlumdur,

bu barədə biz çox iş görmüşük. Əgər indiyə qədər bir nəticə əldə etməmişiksə, bu ona görə deyil ki, biz az işləmişik, az cəhdlər göstərmişik. Çox iş görmüşük, həddindən artıq çox! Mən dünyanın ən böyük dövlətlərinin başçıları ilə danışıqlar aparmışam və onlar söz veriblər ki, bu işdə Azərbaycana kömək edəcəklər. Bundan artıq nə etmək olar! Beynəlxalq təşkilatlarda açıq-aydın, cəsarətli çıxışlar etmişik. Həm Birləşmiş Millətlər Təşkilatında, həm ATƏT təşkilatında, həm İslam Konfransı Təşkilatında, başqa beynəlxalq təşkilatlarda – Avropa Şurasında, hamısında. Əgər biz indiyə qədər heç bir şeyə nail ola bilməmişiksə, - yəni «heç bir şey» deyəndə torpaqlarımızın işğaldan azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına nail ola bilməmişiksə, bu ona görə deyil ki, biz lazımi tədbirləri görməmişik. İndi bəzən yenə də müxalifət deyir ki, Qarabağ məsələsini həll etməyiblər. Bəs siz Qarabağ məsələsinin həlli üçün nə etdiniz? Azərbaycanı dağıtdınız. Amma biz Azərbaycanı möhkəmləndirdik və Dağlıq Qarabağ məsələsinin həll olunması üçün bütün mümkün tədbirləri görmüşük. Bundan artıq heç kəs görə bilməz.

Mən Vaşinqtonda olarkən Fransanın prezidenti cənab Jak Şirakla bu barədə danışırdım. O, çox təəssüf edirdi, - çünki çox çalışırdı ki, bu işləri görsün, - təəssüf edirdi ki, indiyə qədər bir nəticə əldə olunmayıbdır. Amma yenə də dedi ki, mən bu yolda çalışıram və çalışacağam.

Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla söhbətim zamanı o mənə yenə də dedi ki, bəli, biz əvvəllər də danışmışdıq, amma məsələ həll olunmayıbdır. Sonra dedi ki, mənim prezidentlik səlahiyyətim 2000-ci ildə bitir. Mən o vaxta qədər bu münaqişənin sülh yolu ilə həll edilməsinə nail olacağam. Belə bir söz dedi. Allah eləsin.

Yəni mən demək istəyirəm ki, bizim ən böyük problemimiz olan məsələlərlə də daim məşğuluq. O gün yoxdur ki, bu işlə

məşğul olmayaq. İnanıram ki, bizim indiyə qədər apardığımız işlər və bundan sonra görəcəyimiz işlər bu məsələnin həlli olunmasını təmin edəcəkdir və biz istədiyimizə nail olacağıq. Mən buna əminəm. İşğal edilmiş torpaqlar da azad olacaqdır, bizim vətəndaşlarımız da öz yerlərinə-yurdlarına qayıdacaqlar, Azərbaycanın ərazi bütövlüyü də təmin olunacaqdır. Mən buna əminəm.

Beləliklə, mən burada olmadığım zaman mənim bəzi fikirlərimlə sizi tanış etmək istədim. Baxmayaraq ki, televiziya vasitəsilə bunların bəzilərini sizə bildirmişəm.

Mənim müalicəm məsələsi də sizə məlumdur. Bilirsiniz ki, mən bizim nümayəndə heyəti ilə birlikdə Vaşinqtona getmişdim ki, orada NATO-nun 50 illik yubileyində iştirak edək və bir çox görüşlər keçirək. Məmnuniyyətlə deyə bilərəm ki, bizim bu səfərimiz çox uğurlu oldu, həddindən artıq uğurlu oldu. NATO-nun 50 illik yubileyində bizim iştirakımız, mövqeyimiz və mənim çıxışım, hesab edirəm ki, NATO ilə Azərbaycanın əlaqələrinin inkişafı üçün çox dəyərli addımlar oldu. Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonla, xarici işlər naziri xanım Olbraytla, nazirlərlə, konqresmenlərlə, senatorlarla çoxsaylı görüşlər oldu. Amerikanın təşəbbüsü ilə böyük bir tədbiri xarici işlər naziri xanım Olbrayt aparırdı. Qafqaz respublikalarının – Gürcüstan, Azərbaycan, Ermənistan respublikalarının prezidentlərinin orada keçirilən müştərək görüşü Qafqazda iş birliyinin inkişaf etdirilməsi ilə əlaqədar idi. Amma orada təkcə Amerikanın xarici işlər naziri yox, İngiltərənin, Almaniyanın, Fransanın, Norveçin, Türkiyənin xarici işlər nazirləri də iştirak edirdilər. Yəni bu, böyük bir hadisə idi.

Yaxud da ki, Ermənistan prezidenti ilə mənim görüşümün Amerika tərəfindən təşkil olunması. Və təkcə təşkil olunması yox. Xanım Olbraytla mən ayrıca görüşdüm və bütün fikirlərimi bildirdim. Eyni zamanda, xanım Olbrayt Ermənis-

tan prezidenti ilə görüşdü. Bundan sonra hər üçümüz bir yerdə görüşdük. Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması üçün hərə öz fikrini dedi və ondan sonra Ermənistan prezidenti ilə mən təkbətək görüşdüm. Bunun özü də böyük bir hadisədir və hesab edirəm ki, bu, öz nəticəsini verəcəkdir.

Yaxud, senator Braunbekin təşəbbüsü ilə İpək yolunun bərpası ilə əlaqədar qanunun böyük, geniş şəkildə müzakirə edilməsi. Bilirsiniz ki, senator Braunbek bu işlə bir neçə aydır məşğul olur. Bunu bir dəfə komitədə müzakirəyə çıxarıbdır və orada dəstək almayıbdır. Ancaq öz fəaliyyətini davam etdirib və bizim ölkələrin prezidentlərinin orada olması ilə əlaqədar o öz qanun layihəsini ümumi, böyük bir müzakirəyə çıxardı. Siz bunu televiziyada görmüsünüz, bilirsiniz, məlumatınız vardır. Mən hesab edirəm ilk dəfədir ki, Amerika Konqresinin, Senatının nümayəndələri Senatın binasında xarici ölkələrin prezidentləri ilə müzakirə apardılar. Qafqaz respublikalarının prezidentləri, Orta Asiya, Mərkəzi Asiya ölkələrinin hamısının prezidentləri, Türkiyənin prezidenti, Amerika hökumətinin nümayəndəsi, Amerika prezidentinin təhlükəsizlik məsələləri üzrə köməkçisi Sendi Berger, Amerikanın keçmiş xarici işlər naziri Beyker, Amerikanın keçmiş prezidentinin təhlükəsizlik məsələləri üzrə köməkçisi Bjezinski – hamısı nitq söylədilər. Orada senatorlar, konqresmenlər və bütün bu respublikaların nümayəndə heyətləri iştirak edirdilər. Bu, çox böyük bir hadisədir.

Məmnuniyyətlə deyə bilərəm ki, bu hadisənin də əsasını müəyyən qədər biz qoymuşuq. TASİS, TRASEKA proqramlarının həyata keçirilməsi ilə bağlı bizim gördüyümüz işlər imkan verdi ki, biz Avropa Birliyində təşəbbüs qaldıraq, bu barədə beynəlxalq konfrans keçirilsin. Bu beynəlxalq konfransı biz keçirdik. Keçən il sentyabrın 7-8-də Azərbaycanda ilk dəfə olaraq çox yüksək səviyyədə beynəlxalq

konfrans keçdi. 32 dövlətin nümayəndə heyətləri, 8-9 ölkədən prezidentlər, 15 beynəlxalq təşkilatın nümayəndələri – bundan böyük nə ola bilər!

Bu, nəyi göstərir? Bu onu göstərir ki, Azərbaycan dövləti dünya miqyasında böyük hörmətə malikdir. Əgər Azərbaycan dövlətinə inam olmasaydı, hörmət, ehtiram olmasaydı, bu qədər ölkələrdən, beynəlxalq təşkilatlardan nümayəndələr Azərbaycana toplaşa bilərdilərmi? Təbii ki, biz bu konfransı Avropa Birliyi ilə bərabər keçirdik. Amma bunu biz keçirdik. Bu, Azərbaycanda, Bakıda keçdi. İndi yenə bəzi müxalifət adamları onu deyirlər, bunu deyirlər. Hər bir şeyi qiymətləndirə bilirlərsə görsünlər ki, bu nədir. Bu, tarixi İpək yolunun bərpası ilə əlaqədar böyük bir təkan oldu. İndi də Amerika Konqresində böyük bir qanun layihəsi hazırlanmışdır. Mən inanıram ki, bu qanun layihəsi də qəbul edilib həyata keçiriləcək və bu da Azərbaycan üçün çox faydalı olacaqdır.

Bilirsiniz ki, mən Amerikada olarkən bir çox konqresmenlərlə, senatorlarla görüşdüm. Mən onların sayını bilmirəm, - ola bilər. Zülfüqarov, Quluzadə onların sayını bilirlər, - həddindən artıq çox idi. Konqresdə bizim görüşümüzə 17 konqresmen toplaşmışdı. Bu, adi bir hadisə deyildir.

Nəhayət, Azərbaycan Dövlət Neft Şirkəti Amerika Birləşmiş Ştatlarının böyük şirkətləri ilə çox əhəmiyyətli üç müqaviłə imzaladı. Bu müqavilələr «Eksson», «Mobil», «Monkrift Oyl» şirkətləri ilə imzalandı. Onların Azərbaycana sərmayəsi çox böyükdür. Bu müqavilələrin də imzalanma mərasimi yenə Senatın binasında, senatorların və konqresmenlərin iştirakı ilə və Amerika Birləşmiş Ştatlarının ticarət nazirinin iştirakı ilə keçirildi. Bu da böyük hadisədir.

1997-ci ildə mən Amerika Birləşmiş Ştatlarında rəsmi səfərdə olarkən dörd müqavilə imzaladıq. Bu müqavilələr Ağ evdə imzalandı. Bu da qeyri-adi bir hadisə idi. O müqavilələr Amerika Birləşmiş Ştatları prezidentinin sarayı, iqamətgahı

olan Ağ evdə, Birləşmiş Ştatların rəhbərliyinin iştirakı ilə imzalandı. İndi isə Senatın binasında üç müqavilə imzalandı. Bunlar hamısı Azərbaycanın gələcəyi üçündür. Mən cəsarətlə deyə bilərəm ki, Azərbaycanın gələcəyi üçün və çox xoşbəxt gələcəyi üçün, çox firavan, zəngin gələcəyi üçün biz əsaslı işlər görmüşük və görürük. Bir neçə ildən sonra bunların hamısının nəticəsini görəcəyik.

Neft müqavilələrimiz haqqında, Xəzər dənizi haqqında ayrı-ayrı ölkələrdə, əlbəttə ki, bizim əleyhimizə yazılar yazılır, işlər görülür. Bu təbiidir. Çünki bizim ölkənin bu cür inkişafını istəməyənlər də vardır. Yaxud da ki, Azərbaycanın Qərb ölkələri ilə, Amerika Birləşmiş Ştatları ilə bu cür əlaqələrinin yaranmasının əleyhinə olan ölkələr də vardır. Belə ölkələrin, bir tərəfdən də bizim əleyhimizə olan erməni lobbisinin – bunların fəaliyyəti nəticəsində meydana çıxan qəzet məqalələri, başqa yazılar və sairə – bunlar təbiidir, buna heç vaxt bir hadisə kimi baxmaq lazım deyildir. Ümumiyyətlə, belə hallarda buna müsbət münasibət göstərənlər də vardır, mənfi münasibət göstərənlər də vardır. Amma təəssüf edirəm ki, bizim daxilimizdə olan bəzi azərbaycanlılar da, bəzi müxalif qüvvələr də Azərbaycanın bu strategiyasının, Heydər Əliyevin bu neft strategiyasının guya uğursuz olduğunu sübut etməyə çalışırlar.

«Qarabağ» neft yatağından istənilən nəticə alınmadı. Amma – bu, artıq deyilibdir, məlumdur, - «Qarabağ» neft yatağına 120 milyon dollar sərmayə qoyuldu. Biz nə itirdik? Biz neft yataqlarımızı əvvəl yoxlamalıyıq, sonra da hansı nəticə verirsə, onları işlətməliyik. Bəziləri nə qədər ağılsız və elmdən, neft işindən xəbəri olmayan adamlardır. Hər neft yatağından neft çıxmır ki! Birindən çox neft çıxır, birindən az neft çıxır, birindən qaz çıxır. Bu təbiidir. Dənizdə neft hasilatı ilə məşğul olduğumuz 50 illik tarix, təcrübə bunu göstəribdir. Biz bu müqavilələri imzalayanda hamısını imzalayırıq. İki-üç

il kəşfiyyat işləri gedir və üç ildən sonra orada istənilən səviyyədə neft, qaz tapılırsa, ondan sonra onların hasil olunması işləri gedir. Bu, bizim müqavilələrin şərtləridir.

Amma «Qarabağ» neft yatağından neft çıxmamasına bəziləri sevinirdilər. Nəyə sevinirsiniz? Bu neft Heydər Əliyev üçündürmü? Yaxud bugünkü dövlət üçündürmü? Bu, Azərbaycana lazımdır. Gərək məyus olasınız ki, oradan neft çıxmadı. Amma mən məyus deyiləm, mən bunu təbii hesab edirəm. Ancaq onlar sevinirlər, məlumatlar yayırlar ki, olmadı, filan oldu, «Qarabağ» yatağı boş çıxdı. Burada olanlar da, xaricdə olan bəzi tiplər də.

Yenə də deyirəm: biz burada nə itirdik? Birincisi, biz yatağımızı özümüz yox, bir çox böyük neft şirkətlərinin vasitəsilə yoxladıq. Orada neft var. Amma o şirkətlər hesab edirlər ki, indi o yatağın infrastrukturu çox xərc götürürsə, bu, iqtisadi cəhətdən səmərəli deyildir. Gələcəkdə biz onu istifadə edəcəyik – həmin xarici neft şirkətləri də, başqaları da istifadə edəcəklər, biz oradan neft çıxaracağıq. Amma bu gün onun miqdarının istənilən səviyyədə olmamasına görə bunu səmərəli hesab etmədilər. Biz isə heç bir şey itirmədik. Biz ora bir dollar da vəsait qoymadıq. Azərbaycana 120 milyon dollar sərmayə gəldi. Nə qədər azərbaycanlılar onun vasitəsilə iş aldılar. Azərbaycana nə qədər xeyir gəldi. Yenə də deyirəm, bizim üçün ən əhəmiyyətlisi odur ki, «Qarabağ» yatağını yoxladıq. Biz orada nə var – bilirik və gələcəkdə bu, istifadə olunacaqdır.

Ancaq «Şahdəniz» yatağında birinci quyu qazılıbdır, ikinci quyu qazılır və «Bi-Pi-Statoyl» mən burada olmayanda təqdimat keçirib və ilkin məlumat verib ki, «Şahdəniz» neft yatağının istismarına dair müqaviləni imzalayarkən nəzərdə tutulmuşdur ki, oradan 400 milyard kubmetr qaz və təxminən 200 milyon ton kondensat almalıyıq. 400 milyard kubmetr qaz 400 milyon ton neftə bərabərdir. Bunu bilməlisiniz.

Yəni üst-üstə 600 milyon ton karbohidrogen xammalı. Amma indi təkcə birinci quyudan məlum olur ki, orada ən azı 700 milyard kubmetr qaz vardır. Artıq bunu aparılan işlər göstərir. Bizim yaratdığımız «Dədə Qorqud», «İstiqlal» qazma qurğularının vasitəsilə, şübhəsiz ki, şirkətlərin böyük işinin nəticəsində bu, aydın oldu. Kondensat da təxminən 200-300 milyon tondur. Görün – «Qarabağ» yatağı elədir, amma «Şahdəniz» yatağı beladir. Ona görə də o sevinənlər qoy sevinməsinlər. Bizim neft strategiyamız doğrudur, düzgündür.

İmzalanan müqavilələrlə Azərbaycana 50 milyard dollar sərmayə gəlməsi nəzərdə tutulubdur və bunlar da, şübhəsiz, gələcəkdir. Beləliklə, Azərbaycan böyük gələcəyə nail olacaqdır. Budur bizim gördüyümüz işlər! Yaxşı, bundan artıq nə iş görmək olar? Hamı da bilir ki, biz birinci neft müqaviləsini imzalayanda – artıq mən dedim – başımıza nə işlər gəldi. Ondan sonrakı müqavilələri imzalayanda bəzi böyük dövlətlər tərəfindən bizə nə qədər təsirlər edildi. Biz bir müstəqil dövlət kimi hamısının qarşısında durduq və dururuq. İki neft kəməri yaratmışıq: birincisi ilə Bakıdan Novorossiyskə, ikincisi ilə Bakıdan Supsaya neft axır və Bakı–Ceyhan neft kəmərinin inşasına başlanması üçün böyük işlər görmüşük. 1998-ci ilin oktyabr ayında Ankara Bəyannaməsini beş prezident imzaladı və ondan sonra görülən işlər, maliyyə-texniki məsələlərin həll olunması onu göstərir ki, yaxın vaxtlarda bu məsələlər başa çatacaq və Bakı–Ceyhan neft kəmərinin inşasına başlanacaqdır. O, qısa müddətdə tikiləcəkdir.

İndi biz «Şahdəniz» yatağından xeyli qaz gözləyirik və hər bir neft yatağından da səmt qazı alırıq. Məsələn, biz indi «Çıraq» neft yatağından böyük miqdarda səmt qazı alırıq. Ancaq təəssüf olsun ki, hamısını sahilə çatdıra bilmirik. Nə üçün? Çünki əvvəldə nəzərdə tutulduğundan çox qaz alınır. İndi biz konsorsiumu günahlandıra bilərik ki, siz niyə lazımi diametrdə boru qoymamısınız və lazımi cihazlar yaratmamı-

sınız. Amma oradan bu qədər qaz alınması nəzərdə tutulmamışdı, eləcə də neftin bu qədər alınması nəzərdə tutulmamışdı. İndi oradan nəzərdə tutulduğundan iki dəfə artıq neft çıxır, biz nəzərdə tutduğumuzdan iki-üç dəfə artıq qaz çıxır. Qazın böyük bir hissəsi havaya gedir. Bu da təbiidir. Bilirsiniz, bu, elə bir iş deyil ki, hər şeyi dəqiq edəsən.

Beləliklə, bu bizim neft strategiyamız, bu bizim işimiz və bu da bizim Azərbaycan xalqına xidmətimiz. Xalqımız bunu yüksək qiymətləndirir və inanır ki, bunlar hamısı xalqın rifah halını yaxın zamanlarda yaxşılaşdıracaq və Azərbaycanın iqtisadi inkişafını təmin edəcəkdir. Amma bədxahlar isə partlayırlar. Partladıqlarına görə də ağızlarına gələni yazırlar. Qoy yazsınlar. Bir karvan məsələsi var, mən onu demək istəmirəm. Karvan gedir...

Mən Vaşinqtonda işlərimizi qurtarandan sonra xəstəxanaya getməyim haqqında da televiziya vasitəsilə məlumat vermişəm. Mən xəstəxanaya cərrahiyyə əməliyyatı üçün getmədim. Bu ilin yanvar ayında mənim bir az xəstələndiyim və Türkiyədə müalicə olunduğum zaman Türkiyənin prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl mənə həkim təyin edibdir ki, o, mənim səhhətimə nəzarət etsin. O, Gülhanə Tibb Akademiyasının professorudur, hərbçidir, admiral rütbəsi var və o, böyük xəstəxananın kardioloji bölməsinin başçısı Ertən Dəmirtaşdır. O, çox təcrübəli bir həkimdir və çox da gözəl bir insandır. Onunla bu müddətdə bir neçə dəfə görüşmüşdük və mən Amerikaya səfər edərkən belə məsləhət oldu ki, o da mənimlə getsin. Bərabər getdik və orada bu mənə çox cəhd göstərdi ki, sizi bir müayinə edək. Mən isə bundan qaçırdım. Amma o, yoxlamanın, müayinənin lazımlığını o qədər inandırıcı dedi ki, mən buna razılıq verdim. O da dedi ki, Klivlend klinikası Amerika Birləşmiş Ştatlarının ən böyük və təcrübəli klinikasıdır. Çünki o, vaxtilə onlarla əlaqədə olub və indi də əlaqəsi vardır. Türkiyədən çox

böyük adamlar orada müalicə olunublar, cərrahiyyə əməliyyatları keçiriblər.

Mən buna razı oldum. Klivlendə getdik. Aprelin 27-si idi. Mən buraya dönməli idim. Nümayəndə heyətini göndərdim, biz isə Klivlendə getdik. Dedim ki, yəqin baxacaqlar, yoxlayacaqlar, ondan sonra evə gedəcəyik. Ora getdik, baxdılar. Orada bir anjioqrafiya vardır. Bu, bizdə, Azərbaycanda yoxdur. Başqa analizlər də etdilər, ondan sonra mənə dedilər ki, cərrahiyyə əməliyyatı lazımdır. Doğrusu, mən razı oldum. Bu işlərlə orada məşğul olan bizim türk qardaşımız Murat Tuzçudur. O, orada anjio bölməsinin, yəni kardiologiya şöbəsinin başçısıdır. Çox təcrübəli bir insandır, orada 7–8 ildir çalışır. O xəstəxanada, o kompleksdə iş almaq, yəni Amerika yox, Türkiyə vətəndaşının iş alması qeyri-adi bir hadisədir. Bu, böyük istedad tələb edir. Belə yerlərə Amerikada hər adam daxil ola bilməz, orada hər adam işləyə bilməz. O, çox təcrübəli bir insandır. O, mənimlə bir neçə saat söhbət apardı və həkimim Ertən Dəmirtaşla birlikdə məni inandırdı ki, əməliyyat keçirmək lazımdır. Mən də düşündüm, dedim ki, əgər lazımdırsa edin. Ayın 29-da səhər tezdən əməliyyatı keçirdilər. Bundan sonra da hər şey sizə məlumdur.

Biz əvvəllər bilmirdik ki, bu ürək, qəlb cərrahiyyə əməliyyatı nədir. Düzü, mən oradan-buradan eşitmişdim ki, kimsə keçirib. Amma belə çıxır ki, dünyada çox adamlar keçiriblər. Həmin Klivlend xəstəxanasında gündə təxminən 50–60 belə cərrahiyyə əməliyyatı aparırlar. Həddindən çox!

Sonra gəldim Türkiyəyə. Orada xəstəxanaların çoxunda bu əməliyyatı aparırlar. Hətta mən Antalyada istirahət edərkən, - mən Antalya şəhərindən təxminən yüz kilometr kənarda istirahət edirdim, - oradan yanıma cərrahlar gəlmişdilər. Dedilər ki, biz Antalyanın xəstəxanasında, - yəni orada tibb universiteti vardır, onun tərkibində olan xəstəxanada – indiyə qədər iki min belə cərrahiyyə əməliyyatı aparmışıq. Onlar

Gülhanədə nə qədər belə əməliyyat keçiriblər. Başqa yerlərdə də keçirirlər.

Mən Ankarada olarkən Milli Məclisin deputatı Zakir Zeynalov oraya gəldi. O, orada bəzi işlər görürdü. Xahiş elədi ki, mənimlə görüşmək istəyir. Düzü, mən Ankarada olarkən, Çankaya köşkündə, prezidentin iqamətgahında heç kəslə görüşmürdüm. Ancaq bizim səfir dedi ki, o, baypas əməliyyatı keçirib və sizə danışmaq istəyir. Ona görə də mən maraqlandım. Təbii, mən onunla görüşdüm. O, mənə danışdı. Amma heç bildirmirdi ki, o, belə əməliyyatı keçiribdir. Onun ürəyində əməliyyat aparılmasını mən bilmirdim. Amma keçiribdir və indi onun necə yaşadığını, işlədiyini siz bilirsiniz. Özü mənə dedi ki, gücüm, iş qabiliyyətim bir neçə dəfə artıbdır. Amma bir o deyildir.

Məsələn, yəqin siz mətbuatda oxumusunuz, - Kissincer mənə məktub yazmışdı. O da deyirdi ki, mən bu əməliyyatı bir neçə il bundan qabaq keçirmişəm.

Mən Klivlendə gəldim, ürəyimdə cərrahiyyə əməliyyatı aparılmasını təklif etdilər və mən əməliyyata razılıq verəndə xanım Olbrayta telefon etdim. Çünki onların ölkəsindəyəm, onlar bunu bilməliydilər. Amma bilirdim ki, mənim Klivlendə gəlməyimdən xəbərləri vardır. Ona telefon etdim və dedim ki, mən Klivlenddəyəm, mənə təklif edirlər ki, ürəyimdə cərrahiyyə əməliyyatı aparsınlar və buna razılıq vermişəm. Sadəcə, bunu sizə bildirmək istəyirəm.

O, mənə çox danışdı, dedi ki, narahat olmayın, mənim yaxın tanışlarımdan çoxu bu əməliyyatı keçiriblər, yaxşı yaşayırlar və işlərini uğurla davam etdirirlər. Mən hesab edirəm ki, siz düz edirsiniz.

Beləliklə, bu əməliyyatı keçirdilər. Mən bunu demişəm və yazdığım məktublardan da məlumdur, - Amerikanın hökuməti mənə həddindən çox qayğı, diqqət göstərdi. Əməliyyat keçirilməndən dərhal sonra Dövlət Departamentinin bir işçisi

xəstəxanaya gəldi və mən xəstəxanadan sonra oteldə olduğum zaman, Klivlenddən Ankaraya uçana qədər o, daim oradaydı və bütün işlərə nəzarət edirdi. Şübhəsiz, məlumatlar verilirdi. Mən əməliyyat keçirən kimi, - siz məktubu görmüsünüz, - prezident cənab Bill Klinton mənə çox hərarətli, səmimi bir məktub yazmışdı. Xanım Olbrayt əməliyyatdan sonra bir neçə dəfə telefon etmişdi. Prezident Bill Klinton telefon etdi, mənimlə danışdı. Bu da sizə məlumdur. Mən əməliyyat keçirəndən sonra bir çox nazirlərdən, konqresmenlərdən məktublar aldım.

Yəni Amerika Birləşmiş Ştatlarının hökuməti, prezident və onun ətrafında olan adamlar mənim Amerikada bu əməliyyat, müalicə dövrümə tam nəzarət etdilər və mənə çox böyük qayğı, diqqət göstərdilər. Mən öz məktublarımda bunu bildirmişəm. Amma bu gün sizinlə apardığım bu söhbətdən istifadə edərək bir daha hədsiz təşəkkürümü, minnətdarlığımı Amerikanın prezidenti cənab Bill Klintona və xarici işlər naziri xanım Olbrayta, Amerika hökumətinin üzvlərinə, Konqres üzvlərinə və başqa siyasi xadimlərə yetirirəm. Mənə göstərdikləri diqqət və qayğıya görə onlara hədsiz təşəkkür edirəm.

Bu, eyni zamanda Amerika–Azərbaycan əlaqələrinin hansı səviyyədə olduğunu göstərir. Hətta mən Ankaraya gələndən sonra haradansa Dövlət Departamentinə məlumat çatmışdı və Amerikanın Azərbaycandakı səfiri cənab Eskudero oğlum İlhama telefon etmişdi və demişdi ki, mənə Vaşinqtondan xəbər veriblər ki, orada nəsə düz getmir, yəni dərmanı düz verməyiblər, biz narahatıq. Mən Ankarada olduğum zaman da bunlar bu məsələləri izləyirdilər. Yenə də deyirəm, bu, Amerika–Azərbaycan əlaqələrinin yüksək səviyyədə olduğunu göstərir. Biz bunu bir çox hallarda görmüşük və bu hal da bunu sübut edir.

Mənim burada olmadığım müddətin ikinci hissəsi, bilirsiniz ki, Türkiyədə keçibdir. Mən artıq bunları bildirmişəm və

Antalyadan Azərbaycana qayıdarkən Türkiyənin prezidenti cənab Süleyman Dəmirələ məktub göndərmişəm. Həmin məktub mətbuatda dərc olunubdur, yəqin ki, siz oxumusunuz. O məktubda da öz fikirlərimi bildirmişəm və bir daha bildirmək istəyirəm ki, prezident Süleyman Dəmirəlin mən o əməliyyata gedən andan Türkiyəyə gələnədək nə qədər qayğı, diqqət, nə qədər insanpərvərlik göstərdiyini mən ağla sığışdıra bilmirəm. İnsan nə qədər qayğıkeş olar, diqqətli olar! İnsan nə qədər mehriban olar, dostpərvər, insanpərvər olar! Mən bunları əvvəlcə heç vaxt təsəvvür edə bilmirdim. Məlumdur, nə qədər telefon edibdir. Mənim xəstəxanada müalicə olunmağımın hamısı barədə daim məlumatlar alıbdır və orada mənim xəstəxana dövrüm başa çatarkən, - onda mən oteldə yaşayırdım, - dəvət etdi ki, mütləq Türkiyəyə gəl, orada müəyyən qədər istirahət et. Mən də bu dəvəti qəbul etdim. Gəldim üç gün Ankarada qaldım, ondan sonra Antalyada. Ankarada olduğum zaman dəfələrlə görüşmüşük. Məni oğlumla birlikdə dəvət edibdir öz iqamətgahına, demək olar ki, hər gün görüşmüşük.

Camlı köşk cənab Dəmirəlin qonaq iqamətgahıdır. O, prezident köşkü ilə yan-yanadır. Ona görə mən orada olanda prezidentin köşkünün ətrafında gəzirdim – orada bağ var, ağaclar var, orada gəzirdim. Bəzən də axşam vaxtı prezident Süleyman Dəmirəl öz iqamətgahından çıxıb mən olduğum yerə gəlirdi, bir yerdə otururduq. Ankarada olan görüşləri siz bilirsiniz. Onlar hamısı çox səmərəli oldu. Beş gün müddətində mən orada çox görüşlər keçirdim.

Sonra mənə Antalyaya getməyi məsləhət gördü. Mən getdim ora. Orada olduğum zaman, mən gedən günün sabahı həyat yoldaşı Nəzmiyyə xanımla birlikdə Antalyaya gəlibdir. Bilirsiniz, axı bu əziyyətdir. Birincisi, Ankaradan Antalyaya uçmaq lazımdır. İkincisi, mən istirahət etdiyim yer Antalya şəhərindən uzaqdır, oraya vertolyotla 15 dəqiqəyə gedilir.

Demək, həm təyyarə ilə gəlmək lazımdır, həm də vertolyotla gəlmək lazımdır. Eyni zamanda vertolyotla və sonra təyyarə ilə Ankaraya qayıtmaq lazımdır. Bilirsiniz, işin böyük olduğu halda özünə bir belə əziyyət verməsi unudulmazdır.

Ankaradan Antalyaya gələn gün onunla görüşdük. Həmin günün səhərisi gəldi oraya. Antalyada olduğum günlər mənə hər gün telefon edibdir. Hər gün, bəzən gündə iki dəfə telefon edibdir. Mən Bakıya gəlməmişdən, yəni iyunun 8-də bir də gəldi. Yenə mən dedim ki, bilirsiniz, mən çox sıxılıram, utanıram. Siz bu qədər əziyyət çəkirsiniz, bu qədər zəhmət çəkirsiniz. Mən bunu çox yüksək qiymətləndirirəm. Ancaq eyni zamanda, mən istəmirəm ki, siz bu qədər əziyyət çəkəsiniz. Dedi ki, heç bir əziyyəti yoxdur. Sənin sağlamlığın mənim üçün və təkcə Azərbaycan üçün yox, Türkiyə üçün də lazımdır. Ona görə də sənin sağlamlığın yolunda nə edirəmsə hamısını ürəkdən edirəm. Bu, onun sözləridir.

Nəhayət, iyun ayının 8-də Antalyaya gələndə görüşdük. Əvvəlcə dövlət işləri haqqında, dünyada gedən proseslər haqqında söhbətlər apardıq. Sonra isə onunla gələn adamlardan xahiş etdi ki, salondan çıxsınlar və mənimlə bir açıq söhbət apardı. O mənə dedi ki, bildirmək istəyirəm ki, sən iyunun 14-15-dəki tədbirlərlə öz səhhətini ağırlaşdıra bilərsən. Həqiqət belədir ki, həkimlər, həmin professor Ertən Dəmirtaş və prezident cənab Süleyman Dəmirəlin şəxsi həkimi Osman bəy, - o öz həkimini Ankarada da bu işə cəlb etmişdi, - mən Antalyaya gedəndə mənimlə bərabər getdi. Ondan sonra iki dəfə gəldi. İyunun 8-də prezident Süleyman Dəmirəllə Antalyaya gəldi və iyunun 9-da Antalyadan məni yola saldı. Bu iki böyük həkim dəfələrlə mənə demişdilər, şübhəsiz ki, əməliyyatı aparan Brüs Laytl da demişdi, sonra kardioloq Murat Tuzçu da demişdi ki, bu əməliyyatlatdan sonra iki ay yarım, bəzən üç ay, dörd ay çox ciddi rejimdə olmalısınız. Bu, hər bir adama aiddir. Mənə deyirdilər ki, ola bilər, bu gün

halsız olasınız, bir gün yaxşı olasınız, - bunlara təəccüb etməyin. Bunlar mənə qəti göstəriş vermişdilər. Hətta mən Antalyada olanda Murat Tuzçu telefon etmişdi və demişdi ki, cərrah Brüs Laytl da çox maraqlanır ki, Heydər Əliyev sonra nə edəcək, necə olacaqdır. Doğrudan da Amerikadan daim telefon edirdilər, mənim səhhətimlə maraqlanırdılar və bəzi məsələləri razılaşdırırdılar.

Ancaq yenə də deyirəm, bu həkimlər – professor Ertən Dəmirtaş, prezident Süleyman Dəmirəlin həkimi Osman bəy mənə dəfələrlə demişdilər ki, siz iyunun 14–15-i üçün nəzərdə tutulan tədbirləri ləğv etməlisiniz. Dedim ki, mən heç bunu təsəvvür edə bilmərəm. Artıq biz hər şeyi hazırlamışıq, dəvətləri göndərmişik. Mən bunu təsəvvür edə bilmərəm. Dedilər ki, şübhəsiz, siz bunları keçirəcəksiniz. Buna şübhə yoxdur. Amma bu gərgin proqram sizin səhhətinizə müəyyən qədər zərər verə bilər və ona görə sizin 2–3 aylıq vaxtınız bir az da artmalı olacaqdır. Bu sizə lazımdır, yoxsa yox? Mən bunların heç birisi ilə razı olmamışdım və bilirsiniz ki, hər gün əlaqə saxlayaraq bütün hazırlıq işləri ilə maraqlanırdım.

Ancaq iyunun 8-də cənab Süleyman Dəmirəl gəldi və axırda bizim özəl danışığımız oldu. Bu danışıq da ondan ibarətdir ki, mənə qəti dedi: Mən sənə kəskinliklə deyirəm, o tədbirləri ləğv etmək lazımdır və sən həkimlər müəyyən etdiyi rejimdən çıxmamalısan. Çox danışdıq, mübahisə apardıq. Mən dedim ki, axı biz adamlar dəvət etmişik, prezidentləri dəvət etmişik, «Dədə Qorqud»un yubileyinə dəvət etmişik. Nə edək, necə edək? O mənə dəfələrlə dedi ki, sənin sağlamlığın mənim üçün hər şeydən üstündür. O tədbirləri bu gün keçirmədin, sabah keçirəcəksən, iki, üç aydan sonra keçirəcəksən. Sənin sağlamlığın Azərbaycan xalqı üçün hər şeydən üstündür, sənin sağlamlığın Türkiyə üçün hər şeydən üstündür. Ona görə burada heç bir hadisə ola bilməz. Mən sənə deyirəm, sən buna riayət etməlisən.

Mən bir az da dedim ki, şübhəsiz, «Dədə Qorqud» yubiley tədbiridir, amma bu 6-cı zirvə görüşümüzə prezidentlər artıq hazırlaşırlar gəlməyə. Dedi ki, bu, sənin problemin deyildir. Mən bu gün axşam Ankaraya dönərkən türkdilli dövlətlərin prezidentlərinə məktub göndərəcəyəm və məktubda yazacağam ki, bu, mənim təşəbbüsümlə olubdur və xahiş edəcəyəm, hamısı bununla razı olsunlar, heç kəs narahat olmasın.

Həqiqətən, prezident Süleyman Dəmirəl türkdilli dövlətlərin prezidentlərinə məktub göndəribdir. Mənə məktubun surətini axşam Türkiyənin Bakıdakı səfiri çatdırdı.

Bunların nəticəsində, mən ondan ayrılandan sonra, ayın 8-də Ramiz Mehdiyevə telefon elədim, dedim ki, vəziyyət belədir, mən məcburam bu təklifi qəbul edim. Təklifi qəbul etdik və tədbirləri də təxirə saldıq. O deyir ki, bunu payızda etmək məsləhətdir. Məktubunda da yazıb, təklif edir ki, zirvə görüşü payızda keçirilsin və konkret gün diplomatik yollarla təyin olunacaqdır.

Bütün bu dediklərimin nəticəsində, - mən bunu demişəm, yazmışam, amma bir də deyirəm, - Türkiyə Cümhuriyyətinin prezidenti əziz Süleyman Dəmirəl mənə qardaşlıqdan da, dostluqdan da artıq qayğı göstəribdir. Mən bunu həyatımda heç kəsdən görməmişəm. Yəni mən ağır xəstə olmamışam. Düzdür, 1987-ci ildə Moskvada infarkt keçirdim. Bir neçə aya qədər xəstəxanada yatdım. Ancaq nə qədər acı olsa da bu keçmişdir, mən bunu heç vaxt deməzdim. Amma bu gün deməliyəm.

Azərbaycanın o vaxtkı rəhbərləri, mənim bəslədiyim, böyütdüyüm insanlar – Mərkəzi Komitənin birinci katibi Kamran Bağırov, Nazirlər Sovetinin sədri Həsən Seyidov, Ali Sovetin sədri Süleyman Tatlıyev bir dəfə də olsun xəstəxanaya telefon etmədilər. Görürsünüzmü, axı bu, mənim doğma vətənimdir. Mən işdə olanda onlar həftədə bir dəfə mənə telefon

edirdilər. Bəzi hallarda mən olmadığım zaman telefon edib qızımla danışırdılar, nəvələrimin vəziyyətini soruşurdular.

Mənim müalicəmin, demək olar ki, yarısı keçmişdi. Deyəsən, iyul ayı idi, Moskvada Mərkəzi Komitənin plenumu çağırılmışdı. Mən isə, bilirsiniz ki, may ayının 17-də xəstəxanaya düşmüşdüm. İyul ayı idi, bildim ki, bunlar gəlirlər. Bir gün plenum keçdi, iki gün sessiya keçdi, ya sessiya əvvəl keçdi, plenum sonra keçdi. Bir də gördüm telefon zəng edir. Kamran Bağırov idi. Dedi ki, Heydər Əliyeviç, biz də buradaydıq, tədbir oldu, nə bilim, plenum oldu. Gedirik, istəyirəm sizə də tezliklə sağalmağı arzu edəm.

Bunu indiyə qədər heç kəsə deməmişəm, amma indi deməyə məcburam. Çünki Türkiyə Cümhuriyyətindən, təkcə Süleyman Dəmirəldən yox, bütün cümhuriyyətdən, bütün hakimiyyətdən gördüyüm qayğı-diqqət, mənə olan yardım məni məcbur edir ki, bunu keçmişlə müqayisə edim. Onda bunun nə qədər qiymətli olduğu daha da çox məlum ola bilər.

Dedim yox, gəlin buraya. Mənim həkimim vardı, - Dmitri Dmitriyeviç Neçayev, bir-iki il bundan qabaq vəfat etdi. Çox gözəl həkim idi, Miçurinsk xəstəxanasında baş həkimin müavini idi, - bildi ki, mən bunları dəvət etmişəm və müəyyən danışıq olacaqdır. Gəlib dedi ki, bunu etmə. Dedim yox, mən bunu etməliyəm.

Orada Siyasi Büronun üzvləri üçün yeddi-səkkiz böyük otaq vardı, onlardan birində mən müalicə olunurdum. Dedi ki, onda sən salonda on dəqiqə oturacaqsan, mən də qapıda dayanacağam. On dəqiqədən sonra sənə deyəcəyəm ki, danışığı qurtarmaq lazımdır. Dedim, yaxşı.

Üçü də gəldi. Dedim ki, bilirsiniz nə var, dünyanın dövranı uzundur. Bəlkə siz hesab edirsiniz ki, Heydər Əliyev artıq ya öləcək, yaxud da işləməyəcək, ona görə belə üz göstərirsiniz. Amma bilin, sizə haram olacaqdır. Bilin, mən sizi 10 il, 14 il yetişdirmişəm, bəsləmişəm, xırda işlərdən böyük vəzifələrə

gətirmişəm. Bəs sizin insanlığınız haradadır? Mən hələlik Siyasi Büronun üzvüyəm və Baş nazirin birinci müaviniyəm. Hökumət də məni burada müalicə edir. Demək, siz mənim yanıma gəlməkdən qorxursunuz? Yaxud da o qədər mənəviyyatsız adamlarsınız ki, xəstəni də ziyarət etmək istəmirsiniz. Bizim Azərbaycanda adətdir – xəstə olan adamı ya gedib evində yoluxur, ya da ona xəstəxanada baş çəkirlər. Keçmişdə olanları deyirəm, - mən bir torbada alma, armud aparırdım. Bu, xəstəyə təsəlli verir, xalqımıza xas olan bir dəbdir – keçmişdə də olub, indi də var.

Burada işlədiyim zaman mən nə qədər insanları müalicə etməyə çalışmışam və xəstəlikdən xilas etmişəm. Nə qədər! Bu məlumdur. İnsanlara da məlumdur, onların ailə üzvlərinə də. Mən bir dəfə Həsən Seyidovu ölümdən xilas eləmişəm. Onu Moskvaya göndərdim, cərrahiyyə əməliyyatı apardılar. Həkimlər deyirdi ki, əgər belə olmasaydı, o öləcəkdi. Daim əlaqə saxlayırdım. Məsələn, Qurban Xəlilov Moskvada iki dəfə operasiya olundu. Mən hər dəfə səhiyyə nazirinə, dördüncü idarənin başçılarına telefon edirdim, əməliyyatı aparan adamlarla danışırdım. Əməliyyatdan qabaq və sonra onunla əlaqə saxlayırdım.

Xatirimdədir, Qurban Xəlilov birinci dəfə operasiya ediləndə əməliyyatdan əvvəl telefon etdim, on beş dəqiqə danışdım, ürək-dirək verdim. Gələndən sonra göz yaşları ilə mənə deyirdi ki, hər şeyi etdin, amma cərrahiyyə otağına gedərkən telefon etməyin mənə həqiqətən mənəvi ruh verdi. Bunlar hamısı olan şeylərdir.

Amma mən xəstə olanda nəinki xəstəliyimlə, müalicəmlə məşğul olsunlar, heç olmasa mənə bir diqqət göstərsinlər, - onu da etmədilər. Ona görə mən onlara dedim, bilirsiniz, dünyanın dövranı uzundur, həyat hələ qabaqdadır, siz nahaq elə başa düşürsünüz ki, Heydər Əliyev artıq fəaliyyətdən uzaqlaşıbdır, yox. Siz nahaq elə başa düşürsünüz ki, Heydər

Əliyev bəlkə də bu xəstəxanadan çıxmayacaq, yox. Amma siz öz sifətinizi göstərdiniz. Çıxın gedin, özünüz haqqında düşünün. Söhbət təxminən iki saatdan artıq çəkdi, baxmayaraq ki, həkim demişdi on dəqiqədən artıq ola bilməz.

İkincisi də, mən Moskvada Siyasi Büroda bu barədə olan mühiti demək istəyirəm. Mən Siyasi Büronun üzvüyəm, başqa üzvlər, Baş katib, Nazirlər Sovetinin sədri də var. Sovetlər İttifaqının başında duran 10–11 adamıq. Kremldə, iş otağımda ürəyim narahat oldu, məni xəstəxanaya apardılar. Doğrudur, orada çox diqqət göstərdilər. Səhiyyə naziri Çazov özü, dördüncü idarənin rəisi daim mənim müalicəmlə məşğul olurdular. Çox professorlar gəlib-getdi, buna da bir şey deyə bilmərəm. Ancaq on gün, iyirmi gün keçdi, iş yoldaşlarımdan maraqlanan yox idi.

Bir ay keçmişdi, SSRİ-nin o vaxtkı Baş naziri Rıjkov mənim yanıma gəldi. Mən dedim ki, Allaha şükür, demək, burada da belə insani keyfiyyətlərə malik adam varmış. Sonra bir dəfə də gəldi, amma mən onun gəlməyinin mənasını başa düşdüm. Hər halda gəlmişdi. Mən artıq xəstəxananın həyətində gəzirdim. Bir saatdan artıq gəzdik, söhbət etdik. Amma Baş katib Qorbaçov bir dəfə də telefon eləmədi. Beş dəqiqə telefon etmək nədir? Təbiidir, mən başqaları haqqında demək istəmirəm.

Müalicə olundum, çıxdım. Elə bil ki, heç bir şey olmayıb. Görənlər soruşurdu ki, nə təhər, nə cür oldu? Deyirdim ki, müalicə olunurdum.

Bilirsiniz, bu, tək mənə aid deyildir. Mən bunu müəyyən qədər bilirdim. Bunu sizə deyirəm ki, Moskvada, Siyasi Büroda, Sovet İttifaqının rəhbərliyində insanların bir-birinə nə qədər biganə olduğunu bildirim. Mən indiyə qədər heç vaxt bunu da deməmişəm.

Xatirimdədir, Nazirlər Sovetinin sədri Kosıgin xəstələnmişdi, infarkt keçirmişdi, xəstəxanada yatırdı. Bir dəfə Mosk-

va çayında xırda gəmidə üzərkən o aşmış və Kosıgin çaya düşmüşdü. Onu xilas eləmişdilər, ondan sonra xəstələnmiş, gedib xəstəxanada yatmışdı. Orada müalicə olundu, sonra işə çıxdı. Amma bir müddət – bir, ya iki il keçəndən sonra infarkt keçirdi. Həmin o Miçurinsk xəstəxanasında müalicə edilirdi. Mən Moskvaya gəlmişdim, deyəsən sessiya idi. Görürəm bəzi adamlar mənimlə danışıq aparırlar ki, Kosıgin də xəstədir, lazımdır ki, ərizə verib işdən getsin. Bu, Brejnevin vaxtında idi. Mən düşündüm, - a kişi, bu adam xəstədir, qoy xəstəliyi qurtarsın, çıxsın. Mən belə düşünürdüm. Amma gördüm yox, bu onu deyir, o bunu deyir.

Deyirdilər ki, Kosıgin artıq ərizəsini yazıb, amma onun qızının əri Qvişiani, - o vaxt Elm və Texnika Komitəsində sədrin müavini idi, - qoymur ki, o, ərizəsini göndərsin. Bunlar da istəyirlər müəyyən kanalla ona təsir etsinlər ki, ərizəsini göndərsin, elə xəstəxanada olduğu zaman işdən azad elə-sinlər. Düzü, mən bundan çox dəhşətləndim, amma nə deyə bilərdim? Mən onda Azərbaycanda işləyirdim. Siyasi Büro üzvlüyünə namizəd idim. Siyasi Büronun üzvlərinə nə deyə bilərdim? Mən sadəcə, dərin hissiyyatlara qapıldım ki, insanlar insana nə qədər biganə ola bilərlər.

Bir-iki gün sonra isə sessiya başlandı. Sessiyaya gedərkən Kosıgindən bu ərizəni aldılar. Brejnev sessiyada məlumat verdi ki, belə bir ərizə göndərilibdir. O vaxtlar sizin yadınız-dadırsa, bunu bilməlisiniz, - dedi mən təklif edirəm ki, Kosıgin azad olunsun. Ali Sovetin sessiyasında təklif elədi ki, Tixonov sədr seçilsin və o, sədr seçildi. Ondan üç-dörd gün sonra Kosıgin xəstəxanada öldü. Bu, heç vaxt mənim yadımdan çıxmır.

Yəni bunu da sizə danışarkən, sadəcə, oradakı hakimiyyətin nə qədər sərt küləkli, yaxud insanlara biganə münasibətini bildirmək istəyirəm. Mə onu görmüşdüm. Mən xəstələnəndə Kosıginin ölümündən beş-altı il, bəlkə də çox keçmiş-

di. Təxminən 1979, ya da 1980-ci il idi. Ondan sonra, 1982-ci ildə Brejnev öldü.

Ona görə mən xəstələnərkən belə münasibəti görəndə heç təəccüb eləmədim. Çünki Kosıgin hər halda ölkə üçün məndən də dəyərli adam idi, böyük xidmətləri olmuş bir adam idi. Ona belə münasibət göstərildi. Özü də onunla daim bir yerdə işləmişdilər. Stalinin vaxtından da Siyasi Büronun üzvü idi. Demək, Brejnevlə, o birisi, bu birisi ilə illər boyu bir yerdə işləmişdi. Ona belə münasibət gördüm. Mən onda bir az maraqlandım, - bir nəfər də xəstəxanaya onun yanına getməmişdi. Ona görə də 1987-ci ildə mənim başıma bu iş gələndə təəssüfləndim, amma heç də təəccüb etmədim.

Bunları xatırlayaraq fikrimi demək istəyirəm. Bu da ondan ibarətdir ki, mənim dostum, qardaşım, Azərbaycan xalqının böyük dostu Süleyman Dəmirəlin Azərbaycan xalqına, mənə olan münasibəti çox gözəldir. Görürsünüz, burada insanlıq, dostluq və qardaşlıq keyfiyyətləri, həqiqi insanlıq keyfiyyətləri, orada isə insanlığa xas olmayan, deyə bilərəm ki, mənəviyyatsız hərəkətlər. Bax, bunların fonunda mən prezident Süleyman Dəmirəlin və Türkiyə hakimiyyətinin başqa üzvlərinin Azərbaycana göstərdikləri bu qayğı-diqqəti həddindən artıq yüksək qiymətləndirirəm. Bu, tək mənə görə deyil, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilən qayğı-diqqətdir. Bu belədir. Mən adi adam, adi bir işdə olan adam deyiləm, mən Azərbaycan dövlətinin prezidentiyəm. Demək, mənim səhhətim haqqında bu qədər insanlar və xüsusən prezident Suleyman Dəmirəl zəhmət çəkirlərsə, qayğı-diqqət göstərirlərsə, bu, bizim ölkəmizə, xalqımıza, millətimizə göstərilən qayğı-diqqətdir.

Bütün bunlara görə mən hörmətli dostum, qardaşım, prezident Süleyman Dəmirələ bir daha, bir daha hədsiz təşəkkürümü, minnətdarlığımı bildirirəm və dediyim sözləri sizin yanınızda bir də bəyan edirəm. Güman edirəm, Türkiyə

– Azərbaycan əlaqələrinin nə qədər möhkəm, yüksək səviyyədə olması və bu əlaqələrin Türkiyə üçün nə qədər əziz olması bu dövrdə bir daha nümayiş etdirildi.

Bu da böyük hadisədir, yəni bu, bir şəxsi məsələ deyil, bir insanın başqa insana şəxsi münasibəti deyildir. Bu, bir dövlətin başqa dövlətə olan münasibətidir. Biz bunu qiymətləndirməliyik. Mən bəyan etmişəm və bir də bəyan edirəm ki, indiyə qədər olduğu kimi, Türkiyə–Azərbaycan dostluq, qardaşlıq əlaqələrinin inkişafı üçün əlimdən gələni əsirgəməyəcəyəm. Hesab edirəm ki, biz bundan sonra hələ çox iş görəcəyik. Ölkələrimiz bir-birinə daha da yaxın, daha da bağlı olacaqdır.

Ola bilər, vaxt çox getdi. Bax, mən bunları sizə çatdırmaq istəyirdim. Yəni siz bu fikirlərimi bilirsiniz, məktublarımdan və televiziya ilə bəyanatlarımdan bilirsiniz. Ancaq sizə bir az geniş izahat vermək istədim. Çünki qeyri-adi hadisə idi ki, mən xeyli vaxt ölkədən kənarda olmuşam. Ancaq ürəyim ölkə ilə olub, daim əlaqədə olmuşam və ölkədə gedən işlərə nəzarət, rəhbərlik etmişəm.

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS NİKOLAYEVİÇ YELTSİNƏ

Çox hörmətli Boris Nikolayeviç!

Sizi və bütün rusiyalıları milli bayram – Rusiya Federasiyasının dövlət suverenliyi haqqında bəyannamənin qəbul olunması günü münasibətilə ürəkdən təbrik edirəm.

Biz regionumuzda sülh, sabitlik və tərəqqi naminə həyatın bütün sahələrində Azərbaycan–Rusiya əməkdaşlığının inkişafına və möhkəmlənməsinə böyük əhəmiyyət veririk.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Rusiyanın bütün vətəndaşlarına firavanlıq və tərəqqi arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *11 iyun 1999-cu il*

ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

14 iyun 1999-cu il

H e y d ə r Ə l i y e v: Hörmətli cənab səfir, mən bu gün sizinlə öz təşəbbüsümlə görüşürəm. Adətən, çox vaxt görüşməyi siz arzu edirsiniz. İndi bu dəfə mən arzu etmişəm. Məqsədim də ondan ibarətdir ki, mən sizə Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonun, vitse-prezident Albert Qorun, dövlət katibi, xarici işlər naziri xanım Olbraytın və Amerika hökumətinin mənə Amerikada cərrahiyyə əməliyyatı keçirərkən, müalicəmi davam etdirərkən göstərdikləri qayğıya, diqqətə, hörmətə görə bir daha təşəkkür edim və bir daha sizə deyim ki, mən bu münasibətdən, göstərilən bu diqqət və qayğıdan həddən artıq şadam. Mən bu fikirlərimi artıq bir neçə dəfə mətbuata verdiyim bəyanatlarda, televiziya vasitəsilə bildirmişəm və xüsusən Amerika Birləşmiş Ştatlarından vətənə yola düşərkən prezident cənab Bill Klintona göndərdiyim məktubda bunların hamısını göstərmişəm.

Bilirsiniz ki, bu ayın 10-da, Azərbaycana dönməyimin ikinci günü mən Təhlükəsizlik Şurasının iclasını keçirdim və o iclasda da Amerika Birləşmiş Ştatlarına, onun hökumətinə, prezident cənab Bill Klintona hədsiz minnətdarlığımı bildirdim. Ancaq bu gün sizə Amerika Birləşmiş Ştatlarının Azər-

baycadakı fövqəladə və səlahiyyətli səfirinə bu sözləri bir daha deməyi özümə borc bilirəm.

Doğrusu, mən heç təsəvvür edə bilməzdim ki, mənə bu qədər qayğı və diqqət göstəriləcəkdir. Sizə təşəkkür edirəm. Çünki mən Klivlend xəstəxanasına daxil olandan oradan çıxana qədər, yəni Klivlendin hava limanından Amerika Birləşmiş Ştatlarını tərk edənə qədər Dövlət Departamentinin nümayəndəsi, sizin işçi də daim mənimlə olubdur.

Yenə deyirəm, təsəvvür edə bilməzdim ki, mənə bu qədər qayğı, diqqət göstəriləcəkdir. Ancaq eyni zamanda, mən bunu təkcə mənə göstərilən qayğı, diqqət kimi yox, Amerika Birləşmiş Ştatlarının Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına, Azərbaycan xalqına göstərdiyi qayğı və diqqət kimi qiymətləndirirəm. Bu, bir də onu göstərir ki, Amerika Birləşmiş Ştatları–Azərbaycan əlaqələri, münasibətləri yüksək səviyyədədir və biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi özümüz üçün həmişə çox əhəmiyyətli hesab etdiyimiz kimi, artıq mən belə düşünürəm ki, Amerika Birləşmiş Ştatlarının hökuməti də, prezidenti də Azərbaycanla əlaqəni öz ölkəsi, dövləti üçün əhəmiyyətli hesab edir.

Mən çox məmnunam ki, Vaşinqtonda səfərdə olduğum zaman NATO-nun 50 illik yubileyində, o mərasimlərdə iştirak etdim və 50 illik yubiley mərasimində Azərbaycanın NATO-ya aid fikirlərini, münasibətini açıqca bildirdim. Mən çox məmnunam ki, Amerika Birləşmiş Ştatlarında, Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla, dövlət katibi xanım Olbraytla, ticarət naziri cənab Deyli ilə, konqresmenlərlə, senatorlarla və hökumətin başqa nümayəndələri ilə görüşdüm, danışdım və lazımi söhbətlər apardım.

Bildirmək istəyirəm ki, NATO-nun 50 illik yubileyi Vaşinqtonda çox yüksək səviyyədə keçdi. Şübhəsiz ki, bu, birinci növbədə Amerika Birləşmiş Ştatları hökumətinin və prezident

Bill Klintonun xidmətləridir. Ağ evdə çox böyük, möhtəşəm və çox dostluq, mehribanlıq hisslərini əks etdirən böyük bir ziyafət keçdi. Bu, mənə çox böyük təsir bağışladı və prezident cənab Bill Klintonun həmin ziyafətdə söylədiyi nitqi də mənim üçün çox əhəmiyyətlidir. Mən cənab Bill Klintonla, xanım Olbraytla apardığım danışıqları çox yüksək qiymətləndirirəm.

Senator Braunbekin təşəbbüsü ilə Qafqaz və Orta Asiya ölkələri prezidentlərinin, Türkiyə prezidenti də burada olmaq şərti ilə, görüşünü keçirib və İpək yolunun bərpası haqqında qanun layihəsini müzakirə etməsi də çox böyük hadisədir. Əgər nəzərə alsaq ki, həmin müzakirədə Amerika prezidentinin təhlükəsizlik işləri üzrə köməkçisi Sendi Berger də iştirak etdisə və nitq söylədisə, demək, burada həm Senat, həm də hökumət eyni fikirdədir. Keçmiş dövlət katibi cənab Beykerin, keçmiş prezidentin təhlükəsizlik işləri üzrə köməkçisi cənab Bjezinskinin də bu mərasimdə söylədiyi nitqlər çox əhəmiyyətli idi.

Mən çox məmnunam ki, Konqresdə, Senatda çoxsaylı görüşlər keçirdim və bu görüşlərin hamısında bir daha xüsusən, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması müzakirə olunurdu və bu məsələnin həll olunması yolları müzakirə edilirdi. Mən bundan çox məmnunam.

Mən dövlət katibi xanım Olbraytın təşəbbüsü ilə Qafqaz ölkələri prezidentlərinin görüşünü xüsusi qeyd etmək istəyirəm. Belə bir görüş ilk dəfə keçirilmişdir. İndiyə qədər heç bir ölkədə, heç bir ölkənin təşəbbüsü ilə üç Qafqaz respublikası prezidentlərinin belə məhsuldar görüşü olmamışdır. Məlumdur ki, bu görüşdə təkcə Amerika Birləşmiş Ştatlarının xarici işlər naziri yox, eyni zamanda İngiltərənin, Fransanın, Almaniyanın, Norveçin və Türkiyənin xarici işlər nazirləri də iştirak edirdilər.

Nəhayət, Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının üç şirkəti – «Mobil», «Eksson» və «Monkrift oyl» şirkətləri arasında Amerika Senatının binasında böyük müqavilələr imzalanmışdır. Bu müqavilələr Azərbaycan ilə Amerika Birləşmiş Ştatlarının iqtisadi əlaqələrinin nə qədər sürətlə inkişaf etdiyini bir daha göstərir.

Məlumdur ki, 1997-ci ilin avqust ayında Vaşinqtonda, Ağ evdə Azərbaycan Dövlət Neft Şirkəti ilə Amerika Birləşmiş Ştatlarının dörd böyük neft şirkəti arasında böyük müqavilələr imzalanmışdır. Bu il Senatın binasında üç müqavilə imzalandı. Mən bunlardan çox məmnunam. Çox məmnunam ki, bu müqavilələrin imzalanmasında Amerika Birləşmiş Ştatlarının ticarət naziri cənab Deyli nitq söylədi, senatorlar, konqresmenlər iştirak etdilər, onlar nitq söylədilər və bu mərasim çox yüksək səviyyədə keçdi. Bütün bunlara görə mən Vaşinqtona səfərimdən, NATO-nun 50 illik yubileyindən iştirakımdan və eyni zamanda Amerika Birləşmiş Ştatlarının dövlət, hökumət başçıları ilə görüşümdən həddindən ziyadə məmnunam.

Klivlend klinikasında mənə göstərilən tibbi yardım, ürəyimdə cərrahiyyə əməliyyatı, ondan sonra müalicə zamanı, ümumiyyətlə, mənə göstərilən qayğı və dostluq münasibəti məni çox şad etmişdir və müalicəmin tezliklə keçməsinə əsas yaratmışdır.

Cənab səfir, mən sizə təşəkkür edirəm. Bilirəm ki, siz Amerika Birləşmiş Ştatlarında olduğum zaman həm rəsmi görüşlər keçirərkən, həm də xəstəxanada olduğum zaman mənim orada gördüyüm bütün işlərə, həm də xəstəxanada müalicə olunmağıma həmişə diqqət yetirmisiniz, qayğı göstərmisiniz. Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfiri kimi Azərbaycan xalqına, mənə öz yüksək münasibətinizi həmişə göstərmisiniz.

Mənim qəlbim hissiyyatlarla doludur, bu barədə çox danışa bilərəm. Ancaq hesab edirəm ki, dediyim sözlərlə qəlbimdə olan fikirləri qısaca ifadə etdim.

S t e n l i E s k u d e r o: Cənab prezident, mənim də qəlbim hisslərlə doludur. Həqiqətən, mən də öz sözlərimi tam ifadə edə bilmirəm. Lakin deməliyəm ki, Siz çox böyük bir iş görmüsünüz. Siz çox tezliklə sağalmısınız. Ümumiyyətlə, bütün dünyada dövlət başçıları ildən-ilə xəstələnirlər və müalicə prosesi keçirlər. Özünüzün də qeyd etdiyiniz kimi, Sizin sağalma prosesiniz Amerika Birləşmiş Ştatlarında keçdi. Sizin ölkəniz Azərbaycan və Sizin özünüz də bizim üçün çox vacibsiniz. Biz çox istəyirdik ki, Siz tezliklə sağalasınız, tam qüvvə ilə işə qayıdasınız və yenidən Azərbaycanı əvvəlkitək idarə edəsiniz.

Cənab prezident, Amerika Birləşmiş Ştatları Azərbaycan xalqı üçün çox işlər görmüşdür və çalışır ki, Azərbaycan xalqına daim yardım etsin. Lakin elə bilirəm ki, Azərbaycan xalqı üçün bu dəfəki kimi böyük hədiyyə ola bilməz. Biz çalışmışıq ki, Siz tam sağlam halda Azərbaycana dönəsiniz. Azərbaycan xalqına bundan böyük hədiyyə ola bilməz. Əgər bundan sonra da nəyəsə bir ehtiyacınız olarsa, hər hansı vasitə ilə Sizə yardımımız dəyə bilərsə, deməliyəm ki, bu, bizim üçün yalnız böyük şərəf olardı.

Cənab prezident, ürəkdən gələn sözlər dediyinizə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əlbəttə ki, Sizin bu səmimi sözlərinizin hamısını prezident Bill Klintona, vitse-prezident Albert Qora və dövlət katibi xanım Olbrayta çatdıracağam.

Cənab prezident, onu da bilməlisiniz ki, bizim hökumətin, amerikalıların Sizin sağlamlığınızla əlaqədar maraqları və qayğıları hələ də davam etməkdədir. Bununla əlaqədar olaraq mən prezident Bill Klintonun şəxsi məktubunu Sizə yetirmək

istəyirəm və cənab Riçardsonun məktubunu da Sizə təqdim etmək istəyirəm.

Cənab prezident, bir halda ki, yenidən işə başlamısınız, bilirəm ki, Sizin vaxtınız məhduddur. Fürsətdən istifadə edərək istərdim ki, bəzi məsələlərə də toxunaq.

H e y d ə r Ə l i y e v: Mən sizə bir daha minnətdarlığımı bildirirəm və sizin dediyiniz sözlərə görə təşəkkür edirəm. Allah eləsin ki, bir daha cərrahiyyə əməliyyatı olmasın. Çox sağ olun.

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TABO MBEKEYƏ

Hörmətli cənab prezident!

Cənubi Afrika Respublikasının prezidenti seçilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Cənubi Afrika Respublikası arasında təşəkkül tapmış dostluq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Cənubi Afrika Respublikasının xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

16 iyun 1999-cu il

TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ QƏDRİ ECVET TEZCAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

16 iyun 1999-cu il

H e y d ə r Ə l i y e v: Hörmətli səfir, birinci növbədə mən Amerika Birləşmiş Ştatlarında cərrahiyyə əməliyyatı keçirən andan indiyə qədər Türkiyə Cümhuriyyətinin, türk xalqının, Türkiyə hökumətinin və xüsusən, mənim əziz dostum, qardaşım, hörmətli prezident Süleyman Dəmirəlin mənə göstərdiyi qayğını, diqqəti, qardaşlıq, dostluq münasibətini yüksək qiymətləndirirəm. Bu münasibətlə bir daha öz minnətdarlığımı, təşəkkürümü bildirirəm.

Bilirsiniz ki, mən Amerikada, Klivlend xəstəxanasında olan zaman da, ondan sonra Ankaraya gələndə, sonra Antalyada olduğum zaman da dəfələrlə televiziya, mətbuat vasitəsilə bu fikirlərimi, bu hissiyyatlarımı bildirmişəm. İyun ayının 8-də Antalyada dostum, qardaşım, hörmətli Süleyman Dəmirəl ilə görüşən zaman bir daha bildirdim və ona böyük bir təbrik məktubu göndərdim. Bu məktub da Azərbaycan mətbuatında dərc olunubdur. Siz onu bilirsiniz. Ancaq bunlarla bərabər, mən Bakıya dönəndən sonra, bu gün və hər gün yenə də Türkiyənin, dostum Süleyman Dəmirəlin qayğısını hiss edərək bir daha sizə, Türkiyə Cümhuriyyətinin səfirinə bu sözləri deməyi özümə borc bilirəm.

Bu dövr Türkiyə – Azərbaycan dostluğunun, qardaşlığının nə qədər yüksək səviyyədə olduğunu, nə qədər möhkəm və nə qədər sarsılmaz olduğunu bir daha göstərdi. Siz də bunu

yaxşı bilirsiniz ki, mənim üçün də o vacibdir ki, mən artıq yanvar ayından öz səhhətimi, sağlamlığımı Türkiyənin həkimlərinə, Türkiyə Cümhuriyyətinə etibar etmişəm. İndi mənim səhhətimlə məşğul olan professor Ertən Dəmirtaşdır. Bunlar bir daha göstərir ki, Azərbaycan, Azərbaycanın prezidenti kimi şəxsən mən Türkiyəyə və Türkiyənin hökumətinə, əziz dostum Süleyman Dəmirələ güvənirik, inanırıq, etibar edirik. Bütün xalqımız da bunu görür ki, Türkiyə hökuməti və xüsusən prezident Süleyman Dəmirəl Azərbaycana nə qədər qayğı, diqqət göstərir və Azərbaycan prezidentinin səhhəti ilə, onun müalicəsi ilə şəxsən məşğul olur. Bu, bir daha sübut edir ki, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı möhkəm təməllər üzərində qurulmuşdur, möhkəm köklər üzərində qurulmuşdur və bu dostluq, qardaşlıq günü-gündən inkişaf edir. Mənim buna heç şübhəm yoxdur.

Mən Türkiyədə olduğum zaman Ankarada, Antalyada prezident hörmətli Süleyman Dəmirəl ilə bir çox görüşlər keçirdik, bir çox məsələləri müzakirə etdik. Məsələlərin bir qismi beynəlxalq aləmdə olan vəziyyətə aid idi, biz bunları birgə təhlil edirdik. Digər qismi isə Türkiyə–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi, Azərbaycanın erməni işğalından xilas olması, Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulması, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi, qaçqın vəziyyətində çadırlarda yaşayan bir milyondan artıq soydaşlarımızın öz yerlərinə, yurdlarına qayıtması idi. Bu məsələ bir neçə dəfə müzakirə olundu, çox geniş fikir mübadiləsi aparıldı.

Mən bunlardan çox məmnunam. Çünki bizim bu məsələni birgə müzakirə etməyimiz, şübhəsiz ki, bundan sonra görəcəyimiz işlər üçün çox vacibdir. Bəlkə də mənim bu xəstəlikdən sonra Türkiyədə istirahət etməyim çox gözəl bir fürsət oldu ki, bir dəfə yox, iki dəfə yox, - məsələn, başqa vaxt mən Türkiyəyə gələrəm, bir-iki saat danışarıq.Yaxud da ki,

dostum Süleyman Dəmirəl buraya, Azərbaycana gələr, bir-iki saat danışarıq, - amma indi nə qədər görüşdük. Siz onları televiziyada görmüsünüz. Bu görüşlərin hamısında Azərbaycan üçün ağır olan bu məsələni müzakirə etdik.

Mən hesab edirəm ki, bu dövr bir də Türkiyə – Azərbaycan münasibətlərinin sınaq dövrü oldu. Dünyaya bir də nümayiş etdirdik ki, biz bir-birimizə nə qədər yaxınıq, nə qədər dostuq, bir-birimizə nə qədər inanırıq. Çünki mən heç təsəvvür edə bilməzdim ki, cərrahiyyə əməliyyatı keçirməyim və müalicə olunmağım dünyada, çox ölkələrdə böyük maraq doğurmuşdur. Çox ölkələrin mətbuatında bu barədə yazılmışdır.

Bilirsiniz ki, mən Klivlenddə olarkən çox dövlət başçılarından, prezidentlərdən, siyasi xadimlərdən məktublar almışdım. Onlar Azərbaycan mütbuatında dərc olunubdur. Yəqin bunları siz bilirsiniz. Yəni ola bilər, indi hər bir dövlət başçısı müalicə olunsun, amma bu qədər geniş maraq göstərilməsini və buna geniş fikir cəlb olunmasını mən, hər halda, indiyə qədər görməmişdim.

Şübhəsiz ki, mən bundan məmnunam. Demək, mənim şəxsiyyətimlə, Azərbaycanla çox ölkələr maraqlanırlar. Amma eyni zamanda bu dövrdə hamı gördü ki, Türkiyə ilə Azərbaycan nə qədər yaxındırlar. Çünki mən Amerikada, Klivlenddə olarkən bizim əlaqələrimiz hər gün olubdur və bunların əksəriyyəti bizim mətbuatda gedibdir. Mən Ankarada beş gün qaldım. Beş gündə bizim görüşlərimizin çoxu mətbuata getdi. Antalyada yenə də cənab Süleyman Dəmirəl hər gün telefon edirdi. İki dəfə də Antalyaya gəldi. Yenə deyirəm, bunlar hamısı mənim üçün nə qədər qiymətli, nə qədər əzizdirsə, eyni zamanda Türkiyə – Azərbaycan əlaqələrinin nə qədər sıx olduğunu göstərir.

Mən Ankarada olarkən yeni seçilmiş Baş nazir hörmətli Büləvd Ecevitlə də görüşdüm. Çox yaxşı söhbətlər etdik. Çox məmnunam ki, hökumət formalaşan vaxt mən Ankarada

oldum, sonra Antalyada oldum və onu təbrik etdim. Bir çox məsələləri müzakirə etdik.

Böyük Millət Məclisinin yeni sədri Yıldırım Akbulutla görüşdük. Onunla öncə tanış deyildim. Mənə çox yaxşı təsir bağışladı. Onunla da bəzi məsələləri müzakirə etdik.

Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi hörmətli Hüseyn Kıvrıkoğlu ilə görüşdük, başqa siyasi xadimlərlə görüşdük. Bunlar sizə mətbuatdın məlumdur. Demək olar ki, mən orada həm istirahət etmişəm, həm də böyük işlər görmüşəm və bu işləri də Türkiyənin dövlət, hökumət orqanları ilə görmüşük. Bu, mənim müalicə və istirahət zamanı Türkiyə – Azərbaycan dostluğunun irəliyə getməsi üçün böyük bir işim olmuşdur. Mən bundan çox məmnunam.

Xahiş edirəm, bir daha, bir daha mənim minnətdarlığımı, təşəkkürümü, bizim xalqımızın minnətdarlığını çatdırasınız. Yəqin siz bilirsiniz ki, bizim xalqımızda Türkiyəyə və xüsusən Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirələ indiyə qədər olan hissiyyatlar bu dövrdə qat-qat artmışdır.

Siz bilirsiniz ki, nə qədər məktublar gəlibdir, hörmətli Süleyman Dəmirəlin şəxsiyyətinə nə qədər çox şerlər qoşublar. Bunlar hamısı çox böyük işlərdir. Yəni bu, adi şeylər deyildir, böyük işlərdir. Bu işlər əvvəlcədən planlaşdırılmayıbdır. Heç kəs bunu düşünmürdü və heç kəs də bilməzdi ki, belə bir şey olacaq. Amma Allahın işi belə gətirdi ki, mən müalicə olunmalı oldum və bu münasibətlər burada daha da geniş, açıq göründü. Bir daha təşəkkür edirəm. Xahiş edirəm, mənim təşəkkürlərimi çatdırasınız.

Artıq sizə məlumdur, mən fərman imzalanan kimi Vəfa Quluzadə vasitəsilə sizə çatdırmışdım, sonra da mətbuatdan bilirsiniz ki, mənim fərmanımla Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl Azərbaycanın «İstiqlal» ordeni ilə təltif olunubdur. Siz burada yaşayırsınız, bilirsiniz ki, bu, Azərbaycanın ən yüksək mükafatıdır. Biz orden deyirik, siz

dövlət nişanı deyirsiniz. Bu, ən yüksək ordendir və iş burasındadır ki, bunun adı «İstiqlal»dır. O fərmanda mən göstərmişəm ki, bu orden hansı xidmətlərə görə verilibdir. Onlardan biri də odur ki, Azərbaycanın istiqlaliyyətini daim dəstəklədiyinə görə hörmətli Süleyman Dəmirəl belə yüksək mükafata layiq olubdur. Fərmanda bunların hamısını geniş yazmaq mümkün deyildir. Çünki onun bir forması vardır. Amma mən dəfələrlə demişəm ki, Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə Türkiyə olubdur və bunu da məhz hörmətli Süleyman Dəmirəl edibdir. Bunları bizim xalqımız heç vaxt unutmur və unutmayacaqdır.

Mən təltifdən sonra telefon etdim, hörmətli Süleyman Dəmirəllə danışdım. O, çox məmnun olduğunu bildirdi. Mən də çox məmnun oldum ki, cənab Süleyman Dəmirəl bizim ölkəmizin, dövlətimizin mükafatını qəbul edibdir. Güman edirəm ki, indi bir fürsət tapacağıq, o, Azərbaycana gələcəkdir və mən bu ordeni böyük şərəf hissi ilə ona təqdim edəcəyəm.

Dünən bizim mətbuatda hörmətli Süleyman Dəmirəl haqqında böyük bir məqalə çıxıbdır. Onu da bilməlisiniz, - bu, mənim göstərişimlə olubdur. Bizim xalq, millətimiz hörmətli Süleyman Dəmirəli tanıyır. Amma mən istəyirdim ki, onun tərcümeyi-halı, keçdiyi həyat yolu, siyasi fəaliyyəti Azərbaycanda daha da geniş məlum olsun. Buna görə də belə bir məqalə dövlət qəzetlərində çıxıbdır.

Beləliklə, mən bu gün sizinlə görüşərkən ilk olaraq bunları sizə demək istədim. Hörmətli səfir, sizə də təşəkkür edirəm ki, bu işlərin təşkil olunmasında daim fəaliyyət göstərmisiniz və Türkiyə – Azərbaycan dostluğunun daha da möhkəmlənməsində xidmətlər göstərirsiniz. Sağ olun.

Qədri Ecvet Tezcan: Hörmətli cümhur başkanım, birinci növbədə mən Sizə öz minnətdarlığımı çatdırmaq istəyirəm ki, məni bu gün qəbul edirsiniz.

Siz müalicə olunarkən Türkiyənin, cümhur başkanımızın, türk xalqının Sizə olan qayğılarından, ehtiramından, diqqə-

tindən bəhs etdiniz. Mən bir Türkiyə səfiri kimi deyil, bir türk insanı kimi Sizə deyə bilərəm ki, bu, çox təbii bir haldır. Başqa cür də ola bilməzdi. Əgər siz Türkiyəyə gəlməsəydiniz, biz Sizdən ötrü darıxardıq. Sizdən ötrü darıxmamağımız mümkün deyildir. Ancaq deyərdik ki, hörmətli prezidentimiz Türkiyəyə niyə gəlməyibdir.

Cənab prezident, Siz çox gözəl bir fikir söylədiniz. Dediniz ki, mən özümü türk həkimlərinə əmanət etmişəm. Bu, bizim üçün ən yüksək şərəfdir. Əgər Azərbaycanın prezidenti öz sağlığını türk həkimlərinə əmanət etmişsə, onlara bu diqqəti, etimadı, inamı bəsləyirsə, bu, bizim üçün ən yüksək şərəfdir.

Hörmətli cümhur başkanım, icazənizlə, Sizə öz düşüncəmi çatdırmaq istəyirəm. Siz bəhs etdiyiniz məktubu, yəni Sizə göstərilən diqqət barədə Süleyman Dəmirələ yazdığınız məktubu mən iki-üç dəfə oxumuşam.

Heydər Əliyev: Bu, bizim mətbuatda da dərc olunubdur.

Qədri Ecvet Tezcan: Mətbuatda da dərc olundu, özünüz də mənə çatdırmışdınız. Məncə, bu məktub bir şah ədəbiyyat əsəridir. Türk dilinin işlənilməsi baxımından icazə verin Sizə minnətdarlığımı ifadə edim ki, bizə belə bir əsər yazmısınız.

Siz həm cümhur başkanımızın, həm Türkiyədəki digər siyasi xadimlərin, həm xalqımızın Sizə olan diqqətindən, məhəbbətindən danışdınız və bu cərrahiyyə əməliyyatını keçirəndə dünyanın müxtəlif yerlərindən istər prezidentlər, istər adi adamlar, kişilər, xanımlar olsun, - onlardan çoxlu məktublar aldığınızı söylədiniz. Hörmətli cümhur başkanım, bu da təbii bir haldır. Çünki biz belə hesab edirik ki, Siz Azərbaycanı dünyaya açan kişisiniz, prezidentsiniz, Azərbaycanı dünyaya tanıdan kişisiniz. Mən belə güman edirəm ki, Azərbaycan adı harada çəkiləndə onunla bərabər prezident

Heydər Əliyevin adı çəkilir. Bu baxımdan dünyanın Sizə göstərdiyi diqqəti normal və təbii hesab edirik.

Cənab prezident, Siz Antalyada olanda, istirahət edəndə hörmətli cümhur başkanımız Süleyman Dəmirəllə görüşlər, söhbətlər apardığınızı söylədiniz və Ermənistanla bağlı olan məsələlərdən söz açdınız. Hörmətli prezidentim, Siz çox yaxşı bilirsiniz ki, Türkiyənin siyasəti eyni olaraq qalır və heç dəyişməmişdir.

Onda siz özünüz Türkiyədə idiniz, bizdə yeni bir koalisyon hökumət quruldu, formalaşdı. Bildiyiniz kimi, bu hökumətin tərkibində üç partiya vardır. Onların dünya görüşləri bir-birindən fərqlidir, iqtisadi baxışları və başqa düşüncələri – hamısı fərqlidir. Amma bilmirəm, Sizin diqqətinizə çatdırdılarmı, - bunların bir koalisyon hökumət proqramı vardır.

Heydər Əliyev: Yox, onu bilmirəm.

Qədri Ecvet Tezcan: İcazə verirsinizsə, mən bunu olduğu kimi ifadə edib çatdıraram. Bu proqramda xarici siyasət bölməsi vardır. Bu bölmədə bir cümlə var: Türkiyə Cümhuriyyəti Azərbaycanın torpaqları işğaldan azad olana qədər Azərbaycanı Ermənistanla olan münaqişədə dəstəkləyəcəkdir. Bu o deməkdir ki, Türkiyədə hansı partiya, hansı hökumət, hansı prezident olursa-olsun, biz mütləq Azərbaycanı dəstəkləyəcəyik. Təkcə bu barədə deyil, hər sahədə.

Hörmətli cənab prezident, bilirəm, vaxtınızı alıram, amma bir türk diplomatı kimi, bu duyğumu da Sizə çatdırmaq istəyirəm.

Biz 7–8 il əvvəl hər hansı bir beynəlxalq konfransa gedəndə, - xüsusən Qərb dünyasının yığışdığı NATO, ATƏT olsun, - belə yığıncaqlarda özümüzü həmişə yalqız hiss edərdik. Tək müsəlman ölkə, tək müstəqil türk cümhuriyyəti biz idik. İndi Allaha çox şükürlər olsun, hansı türk diplomatı olursa-olsun, dünyanın harasında hansı beynəlxalq toplantıya getsə, - bilirsiniz, beynəlxalq toplantılarda hamısı əlifba sırası ilə

oturur, Türkiyə masada bir az uzağa düşür, - amma hər diplomat gedəndə əyilib masanın başına baxar və görər ki, Azərbaycanın nümayəndəsi oradadır. Əgər Azərbaycan nümayəndəsi oradadırsa, biz özümüzü artıq yalqız hesab etmirik. Hesab edirik ki, başqa qardaş ölkələr də, dostlar da orada bizim yanımızda olacaqlar. Zənn edirəm ki, bu, insan üçün ən önəmli şeydir.

Hörmətli cümhur başkanım, bir xüsusi məsələni də çatdırmaq istəyirəm. Siz Türkiyə – Azərbaycan əlaqələrinin günbəgün inkişafından bəhs etdiniz. Bu, yüz faiz doğrudur. Çünki Siz əvvəlki iclaslarda da demisiniz. Dünyada bir iqtisadi böhran mövcuddur. Məsələn, Rusiya Federasiyasında, Uzaq Şərqdə, çox yerdə. Amma bu çətinliklərə baxmayaraq, Türkiyənin Azərbaycanla ticarət əlaqələri günbəgün daha yüksəyə qalxacaqdır və daha da yaxşı olacaqdır. Bu işdə mütləq Sizin köməyiniz, Türkiyə Cümhuriyyətindəki prezidentimizin köməyi və digər hökumət rəhbərlərinin köməyi bizi mütləq bu yola gətirəcəkdir.

Hörmətli prezident, mən Süleyman Dəmirəl ilə bağlı dərc olunan məqaləni onun özünə çatdırmışam. O, dünən evində olmuş və bunlara baxmışdır.

Hörmətli prezidentim, son olaraq mən Türkiyə səfiri kimi, türk xalqı adından Sizə öz minnətdarlığımı çatdırmaq istəyirəm ki, Siz Azərbaycanın ən yüksək nişanını, ordenini bizim cümhur başkanımıza verdiniz. Əgər səhv etmirəmsə, bu orden ilk dəfədir Azərbaycanda xarici dövlət adamına verilir. Ümumiyyətlə, biz özümüzü yabançı hesab etmirik.

Heydər Əliyev: Yabançı deyil, ancaq yenə də başqa bir dövlətdir. Amma bu birincidir. İndiyə qədər heç bir dövlət başçısına, heç bir yabançı şəxsə bu orden verilməyibdir.

Qədri Ecvet Tezcan: Hörmətli cümhur başkanım, mən də belə bilirəm. Ona görə də Sizə çox təşəkkür edirik. Bu «İstiqlal» ordeninin qiymətinin nə qədər yüksək olduğunu,

bunun Türkiyənin cümhur başkanına zati-alilərinizin tərəfindən verilməsinin mənasının hər kəs tərəfindən yaxşı dərk edilməsinin gərəkliyini düşünürəm. Bizim üçün deyil, ətrafdakı başqa millətlər, ölkələr üçün bunun nə əhəmiyyəti olduğunu, - iki dost və qardaş ölkənin bir-birinə baxışını, bir-birinə olan əməkdaşlığını, məhəbbətini göstərməsi baxımından, - başa düşürəm. Mən Sizə həm hörmətli cümhur başkanım, həm hökumətim, həm də təkcə Türkiyədəki türk xalqı adından deyil, bütün dünyadakı türk xalqları adından öz minnətdarlığımı bir daha çatdırmaq istəyirəm. Çox sağ olun.

H e y d ə r Ə l i y e v: Təşəkkür edirəm.

LATVİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
XANIM VAYRA VİKE-FREYBERQƏ

Hörmətli xanım prezident!

Latviya Respublikasının prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Latviya Respublikası arasında təşəkkül tapmış dostluq münasibətlərinə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya Respublikasının xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

18 iyun 1999-cu il

AZƏRBAYCANIN CÜRCÜ İCMASINA

Əziz həmvətənlər!

Azərbaycanda yaşayan gürcülərin milli-mədəni təşkilatını yaratmaq məqsədi ilə Bakıda keçirilən toplantınızı ürəkdən salamlayır, təsis etməkdə olduğunuz gürcü icması təşkilatına gələcək fəaliyyətində uğurlar arzulayıram.

Qafqazın ən qədim xalqlarından olan azərbaycanlıları və gürcüləri bir-birinə həmişə səmimi dostluq və mehriban qonşuluq münasibətləri bağlamışdır. Xalqlarımız min illər boyu eyni coğrafi məkanda yaşayaraq bu diyarın acılı-şirinli bütün taleyini bölüşmüşlər. Cənubi Qafqazın çoxəsrlik tarixində xalqlarımızın sarsılmaz dostluğuna və əməkdaşlığına şahidlik edən şərəfli səhifələr çoxdur. Uzaqgörən ulu əcdadlarımızdan bizə miras qalmış bu şanlı ənənələri inkişaf etdirmək və onu gələcək nəsillərə ötürmək hər birimizin müqəddəs vəzifəsidir.

Qlobal siyasi hadisələrlə zəngin olmuş iyirminci yüzilliyin sonlarında Azərbaycan və Gürcüstan yenidən dövlət müstəqilliyi əldə etmiş, xalqlarımızın tarixi haqqı olan azad və suveren yaşamaq arzusunu gerçəkliyə çevirmişlər. İndi bu misilsiz milli sərvəti qoruyub saxlamaq və müstəqilliyimizi əbədi etmək üçün hər iki suveren respublika müstəqil daxili və xarici siyasət yeridir, beynəlxalq aləmdə xalqlarımızın mənafe və maraqlarını layiqincə təmsil edir. Yaşadığımız son dərəcə məsuliyyətli tarixi mərhələdə Gürcüstanın azərbaycanlı əhalisi və Azərbaycanda yaşayan gürcülər vətəndaşı olduqları ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməklə dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Bu gün hüquqi, demokratik dövlət quruculuğu yolu ilə inamla irəliləyən Azərbaycan Respublikasında dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın, o cümlədən milli azlıqların hüquq və azadlıqları beynəlxalq normalara uyğun şəkildə təmin edilmişdir. Respublikada yaşayan gürcülər də ölkə Konstitusiyasında təsbit edilmiş insan haqlarına sahib olmaqla Azərbaycanın tam və bərabər hüquqlu vətəndaşlarıdır.

Hazırda müstəqil Azərbaycan və Gürcüstan dövlətləri ictimai-siyasi, iqtisadi, elmi-mədəni sahələrdə hərtərəfli əməkdaşlıq edərək ölkələrimizin xoşbəxt gələcəyi naminə strateji tərəfdaşlıq nümayiş etdirirlər. Bu işdə, şübhəsiz ki, xalq diplomatiyasının, insanlar və xalqlar arasında mehriban dostluq və qonşuluq münasibətlərinin də rolu danılmazdır. Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın gürcü icması və əsasını qoyduğunuz milli-mədəni təşkilat xalqlarımızın və dövlətlərimizin daha da yaxınlaşmasına, zəngin tarixi köklərə malik əlaqələrimizin möhkəmlənməsinə öz layiqli töhfəsini verəcəkdir.

Əziz həmvətənlər!

Hamınıza xoşbəxtlik, əmin-amanlıq arzularımı yetirir, Azərbaycan Respublikasının dövlət müstəqilliyi, Azərbaycan və gürcü xalqlarının sarsılmaz dostluğu naminə xeyirxah fəaliyyətinizdə hər birinizə uğurlar diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *19 iyun 1999-cu il*

UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ MİXAİL QLADİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

23 iyun 1999-cu il

M i x a i l Q l a d i: Xoş gördük, cənab prezident. Vaxt tapıb məni qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm.

H e y d ə r Ə l i y e v: Mən də sizinlə görüşməyimə şadam. Leonid Daniloviç Kuçma mənə zəng etmişdi, bizim telefon söhbətimiz oldu. Budur, bizim Baş nazir məlumat verdi ki, siz gəlmisiniz. Mən bu görüşə şadam. Ukrayna ilə hər bir görüş bizim üçün xüsusi əhəmiyyətə malikdir.

M i x a i l Q l a d i: Heydər Əliyeviç, ən əvvəl dövlətlərimiz arasında münasibətlərin inkişafına böyük töhfə vermiş görkəmli siyasətçi kimi, Sizə Leonid Daniloviç Kuçmanın, bütün Ukrayna xalqının ən səmimi arzularını yetirmək istərdim. Səhhətinizin vəziyyətini biz həmişə diqqətlə izləmişik və şadıq ki, Siz tam sağlamsınız.

Biz Sizin dövlətinizin inkişafını da izləyirik və şadıq ki, iqtisadiyyatınızda yüksəliş var. Bakıda apardığımız danışıqlar zamanı biz Sizin yaxşı nəticələr əldə etdiyinizi eşidib sevindik. Ukrayna bu sahədə Sizin yolunuzla getməyə çalışacaqdır.

Şadıq ki, Sizin nəinki bir prezident kimi, həm də bir insan kimi Leonid Daniloviç ilə dostluq münasibətləriniz çox sıxdır, bu isə ölkələrimiz arasında qarşılıqlı münasibətlərin bütün sahələrində öz əksini tapır. Bizim Ukraynada hamı

başa düşür ki, qarşılıqlı münasibətlərin inkişafında uğurlarımız ancaq Sizin fəaliyyətiniz nəticəsində qazanılmışdır.

Biz Baş nazir Artur Tahiroviç Rasizadə ilə, başqa şəxslərlə danışıqlar apara bildik. Aramızda qarşılıqlı anlaşma var. Bu, çox mühümdür və bizi sevindirir. Belə düşünürəm ki, haqqında danışıqlar apardığımız məsələlərə dair qərarlar hazırlamağa müvəffəq olacağıq. Kiyevdə iqtisadi əməkdaşlıq üzrə ikitərəfli Ukrayna–Azərbaycan komissiyasının görüşü keçiriləcəkdir. Mövcud problemlərin həllinə dair bir çox təkliflər var. Ukrayna iqtisadi məsələlərdə əməkdaşlığa hazırdır. Biz şirkətlərin rəhbərləri ilə görüşüb, bəzi məsələlərdə razılığa gəldik.

Hazırda Ukraynada oktyabrda keçiriləcək ölkə prezidentinin seçkiləri ilə əlaqədar siyasi mübarizə başlanmışdır. Artıq indi prezidentliyə 18 namizəd var. Lakin biz əminik ki, Leonid Daniloviç prezident qalmaq üçün mümkün olan hər şeyi edəcəkdir.

Əlbəttə, iqtisadi problemlərimiz də var. Hazırda məhsul yığımı çağı başlayır, 12 min hektar sahədə dənli bitkilər əkmişdik, amma bəxtimiz gətirmədi. May ayında şaxtalar oldu, indi isə quraqlıqdır, isti 35–37 dərəcəyə çatır. Buna baxmayaraq, hər halda 28–30 milyon ton taxıl götürmək ümidindəyik.

Biz Sizdən ötrü çox sevinirik. Biz Sizi təkcə Qafqazda deyil, başqa bölgələrdə də sabitliyin təminatçısı olan böyük siyasətçi hesab edirik. Bir daha Sizə Ukrayna xalqının, Ukrayna prezidentinin, Baş nazirinin ən yaxşı arzularını yetirirəm.

Heydər Əliyev: Mən sizinlə görüşdən şadam. Leonid Daniloviç Kuçma telefonda mənə sizin gəlişinizdən danışdı. Səhhətimin vəziyyətinə böyük maraq göstərdiyinə görə Leonid Daniloviç Kuçmaya olduqca minnətdaram. Mən Birləşmiş Ştatlarda, Klivlend xəstəxanasında olarkən o, oraya zəng vurmuşdu, biz söhbət etdik. Təbii ki, o, mənə ürək-dirək verirdi. Bunun özü bizim münasibətlərimizi səciyyələndirir. Münasibətlərimiz isə həqiqətən dostluq münasibətləridir.

Dövlət xadimi kimi, prezident kimi Leonid Daniloviçə mənim böyük hörmətim var və hesab edirəm ki, Ukrayna özünün müstəqilliyi, azadlığı üçün, siyasi və iqtisadi islahatların həyata keçirilməsi üçün onun gördüyü işləri qiymətləndirməlidir. Hər halda, biz belə qiymətləndiririk. Zənnimcə, bu, Ukrayna üçün yeganə başlıca yoldur. Leonid Daniloviç isə bu yol ilə qətiyyətlə gedir, öz xalqını və öz ölkəsini irəli aparır. Buna görə də dünya siyasətinin bir çox məsələləri barəsində bizim aramızda tam qarşılıqlı anlaşma var.

Ukrayna ilə Azərbaycan arasında münasibətlərə gəldikdə isə Leonid Daniloviç də, mən də bu münasibətlərin möhkəmlənməsi və inkişafı üçün kifayət qədər iş görmüşük. Bununla bərabər, münasibətlərimizin daha geniş, daha dərin, daha möhkəm olması üçün hələ çox şey edilməlidir.

Mənim ünvanıma söylədiyiniz xoş sözlərə görə sağ olun. Səhhətim yaxşıdır. Əlbəttə, cərrahiyyə əməliyyatı sadə bir əməliyyat deyildi. Ancaq bütün bunlar kifayət qədər tez ötüb keçdi, mən işləyirəm və biz münasibətlərimizi bundan sonra da inkişaf etdirəcəyik.

Əlbəttə, mən Leonid Daniloviçin prezident olmasını istəyirəm. Oktyabrda seçkilər keçiriləcəkdir. Deyirsiniz ki, sizdə artıq 18 namizəd var. Bilirsiniz, belə hal yalnız bizdə – MDB ölkələrində ola bilər. Məsələn, məgər Amerikada və ya Almaniyada, Fransada 18 namizəd ola bilərmi? Bütün bəla bundadır ki, kommunist, totalitar rejimindən sonra, ölkələrimiz demokratiya yolu ilə getdiyi bir dövrdə ayrı-ayrı adamlar nə edə biləcəklərini, onlardan kimin nəyə qadir olduğunu başa düşmürlər. Hərə hesab edir ki, o, prezident ola bilər. Doğrudur, bizdə 18 yox, xeyli az namizəd olmuşdur. Amma bizdə də prezident olmağı arzulayan və istəyən insanlar var, onlar öz namizədliklərini irəli sürürlər. Axı gülməlidir. Gərək bir düşünsün ki, hər hansı kollektivi, hər hansı məktəbi, hər hansı kəndi, rayonu idarə etmişdirmi? O, küçə-

dən yenicə gəlib, amma prezident olmaq istəyir. Odur ki, bu, məsələn, mənim üçün təəccüblü deyildir.

Bununla belə, əminəm ki, Ukrayna xalqı düzgün qərar çıxaracaqdır. Biz Leonid Daniloviçin prezident olmasını istəyirik və istəyəcəyik, səy göstərəcək və ümid edəcəyik ki, o, yeni müddətə Ukrayna prezidenti seçiləcəkdir. Düşünürəm ki, siz orada hər şey edəcəksiniz.

O ki qaldı qaldırdığımız məsələlərə, Leonid Daniloviç telefonla söhbət əsnasında mənə bu barədə danışdı. İndi biz onları nəzərdən keçiririk.

AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN ŞƏXSİ HEYƏTİNƏ

Hörmətli generallar, admirallar, zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər, matroslar!

Sizi Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə xoş arzularımı diləyirəm.

Müstəqillik dövründə qazandığımız ən mühüm nailiyyətlərdən biri milli ordumuzun yaradılması olmuşdur. Son 8 il ərzində silahlı qüvvələrimizin şəxsi heyətinin döyüş qabiliyyətinin, texniki hazırlığının yüksəldilməsi Azərbaycanın müdafiə qüdrətini xeyli artırmış, ordu quruculuğunda, təlimlərdə, döyüş hazırlığında qazandığı nailiyyətlər, əsgərlərimizin cəbhə bölgələrində düşmənlə üz-üzə dayanaraq torpaqlarımıza göz dikən təcavüzkarların qarşısını mərdliklə alması hamımızı ürəkdən sevindirir. Bizim hazırda güclü, müasir silahlar və texnika ilə təmin edilmiş ordumuz, yüksək hazırlıqlı komandir və şəxsi heyətimiz vardır.

İndi milli ordumuz vətən, xalq qarşısındakı şərəfli missiyasını gözəl dərk edir, özünün fiziki, hərbi və mənəvi hazırlığını daim artırır, öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirir. Silahlı qüvvələrimizin hər bir əməkdaşı gözəl bilir ki, güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün əsas amildir, sülhün və əmin-amanlığın təminatçısıdır.

Vətəni qorumağa qadir silahlı qüvvələr yaratmaq, ölkənin müdafiə qabiliyyətini təmin etmək və daim yüksəltmək tək dövlətin, onun silahlı qüvvələrinin işi deyil. Hər bir Azərbay-

can vətandaşı vətən, müstəqil Azərbaycan qarşısında öz müqəddəs borcunu dərk edərək, əsgəri xidmətini şərəflə yerinə yetirməli, ordu quruculuğuna hərtərəfli yardım göstərməlidir.

Bu bayram günündə Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü və dövlətçiliyi uğrunda şəhid olmuş övladlarımızın xatirəsini bir daha yad edir, doğmalarına və yaxınlarına başsağlığı verərək, onların ruhu qarşısında baş əyirəm.

İnanıram ki, silahlı qüvvələrimizin şəxsi heyəti bundan sonra da vətən, xalq qarşısında qəbul etdiyi hərbi anda sadiq qalacaq, nümunəvi xidmətlərlə torpaqlarımızı düşmən tapdağından azad etməyə, şəhidlərimizin ruhunu şad etməyə hər an hazır olacaqdır.

Milli ordumuzun hər bir üzvünə cansağlığı, xoşbəxtlik, ailə səadəti, respublikamızın suverenliyi, müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, vətənimizin müdafiə qüdrətinin yüksəldilməsi naminə müvəffəqiyyətlər arzulayıram.

HEYDƏR ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti
Silahlı Qüvvələrin Ali Baş Komandanı

Bakı şəhəri, *25 iyun 1999-cu il*

AVROPA ŞURASININ BAŞ KATİBİ
ZATİ-ALİLƏRİ
CƏNAB VALTER ŞVİMMERƏ

Hörmətli Valter Şvimmer!

Avropa Şurasının Baş katibi seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Avropa Şurası ilə əlaqələrin genişlənməsinə və sıx əməkdaşlığa böyük əhəmiyyət verir, ümumavropa proseslərində Avropa Şurasının artan rolunu yüksək qiymətləndiririk.

Ümidvaram ki, Azərbaycan Respublikasının tezliklə Avropa Şurası üzvlüyünə qəbul edilməsi əməkdaşlığımızı yeni səviyyəyə yüksəldəcək, ölkəmizin Dünya Birliyi ilə inteqrasiyasına, regionumuzda sülhün və sabitliyin bərqərar edilməsinə güclü təkan verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar diləyir və ən xoş arzularımı yetirirəm.

Hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *25 iyun 1999-cu il*

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN ELMİ TƏDQİQAT AĞ CİYƏR XƏSTƏLİKLƏRİ İNSTİTUTU BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

26 iyun 1999-cu il

Hörmətli xanımlar və cənablar!
Hörmətli dostlar!

Mən sizi – Azərbaycan səhiyyəsinin nümayəndələrini səmimi-qəlbdən salamlayıram və sizinlə bu görüşümə görə çox şad olduğumu bildirirəm.

Həkimlik sənəti dövrü-qədimdən şərəfli sənət olmuşdur, hörmətli sənət olmuşdur. Həkimlik sənəti indi də ən şərəfli, ən hörmətli sənətlərdən biridir. Mən hesab edirəm ki, dünyada heç bir sənət tapa bilməzsən ki, o, həkimlik kimi hər bir insana lazım olsun. Biz mütəxəssislərin, alimlərin, mühəndislərin *gördükləri böyük işi qiymətləndiririk. Müəllimlərin işini* qiymətləndiririk, çünki təhsil verir, bizim gənc nəsli yetişdirir. Kənd təsərrüfatında çalışanları qiymətləndiririk, xidmət sahəsində çalışanları qiymətləndiririk. Bunların hamısı, şübhəsiz ki, hər bir cəmiyyətin inkişafını təmin edən sahələrdir. Cəmiyyət də insanlardan ibarətdir. İnsanların isə yaşayışı üçün, sağlamlığı üçün bütün başqa vasitələrlə bərabər, ən çox həkim yardımı lazımdır, səhiyyə yardımı lazımdır.

Yəqin ki, dünyada elə bir insan tapmaq olmaz ki, o, həkim yardımından istifadə etməsin. Uşaq doğularkən onun dünyaya gəlməsini həkim təmin edir və ilk günləri həkimin nəzarəti altında keçir. İnsanlar yaşbayaş artarkən daim həkimin yardımına ehtiyacı olur və nəhayət, insanlar yaşa dolduqca

həkimə daha da çox ehtiyacı olur. Amma həkim, səhiyyə təkcə insanları müalicə etmək üçün yox, həm də xəstəliklərin qarşısını almaq, geniş profilaktik iş aparmaq üçündür. Elə etmək ki, insanlar xəstələnməsinlər, insanlar, xəstələr tezliklə müalicə olunsunlar. Bu da böyük bir sahədir. Səhiyyə həddindən artıq geniş, həyatın bütün sahələrini əhatə edən və cəmiyyət üçün, dövlət üçün, hər bir insan üçün çox lazımlı bir sahədir. Ona görə də hər bir insan həkimə hörmət edir, səhiyyə işçisinə hörmət edir. Həkimlər də insanlara tibbi yardım göstərməklə, onları müalicə etməklə özlərinə böyük mənəvi hörmət, ehtiram qazanırlar.

Mən həkimi çox sevirəm, səhiyyəni çox sevirəm. Deyə bilərəm ki, mən sizlərin dostuyam. Siz isə mənim bir nömrəli dostumsunuz. Ona görə yox ki, mənim həkimə çox ehtiyacım olubdur. Allah mənə elə bir səhhət veribdir ki, demək olar, 1987-ci ilə qədər mənim heç vaxt heç bir həkimə ehtiyacım olmayıbdır.

O vaxt Moskvada xəstələndim. O xəstəlik keçdi və ondan sonrakı dövrdə, xüsusən 1990-cı ildə mən Azərbaycana qayıdandan bu ilə qədər heç bir həkimlə əlaqəm olmayıbdır, heç bir həkim yardımına ehtiyacım olmayıbdır. Yəni şəxsi nöqteyi-nəzərdən götürsək, mənim fikirlərim şəxsi əhəmiyyət daşımır. Mən sadəcə, uzun illər Azərbaycana rəhbərlik etdiyimə görə, sonra Moskvada Sovetlər İttifaqının rəhbərlərindən biri olduğuma görə və cəmiyyətin qayğısına qaldığıma görə cəmiyyət üçün həkimin, səhiyyənin nə qədər əhəmiyyətli olduğunu bildiyimə görə də həkimləri sevirəm və həkimləri özümə birinci nömrəli dost hesab edirəm.

Siz bilirsiniz ki, mən aprel ayının axırında Amerikada Klivlend klinikasında qəlb cərrahiyyə əməliyyatı keçirmişəm. Orada mən bir daha şahid oldum, gördüm, dərk etdim ki, tibb elmi, tibb texnologiyası, tibb yardımı nə qədər böyük nailiyyətlər əldə edibdir. Azərbaycana dönəndən sonra demək

olar ki, bu, mənim ilk kütləvi görüşümdür və bu da sizinlədir, səhiyyə işçiləri ilə, həkimlərlədir.

Azərbaycanın səhiyyəsi bütün keçmiş Sovetlər İttifaqı respublikalarının səhiyyəsi kimi indi ağır bir dövr yaşayır. Bunu siz də bilirsiniz, biz də bilirik və heç kəs bunu inkar edə bilməz. Ancaq bir səhiyyə deyil, bütün cəmiyyətimiz ağır bir dövr yaşayır, keçid dövrünü yaşayır.

Burada dediniz və çox demək olar ki, keçmiş zamanlarda, - məsələn, mən özüm haqqımda, öz dövrüm haqqında demək istəyirəm, - 1969-cu ildə mən Azərbaycana başçı seçiləndən sonra Azərbaycanda səhiyyənin inkişafı üçün nə qədər vəsait qoyulubdur, nə qədər kadrlar hazırlanıbdır, nə qədər xəstəxanalar, binalar tikilibdir. Həddindən artıq! Azərbaycan çarpayıların sayına görə çox-çox ölkələrdən irəlidir. Bunlar hamısı o illərin nailiyyətidir. O illərin ən böyük nailiyyəti isə ondan ibarətdir ki, Azərbaycanda güclü səhiyyə kadrları yaranıbdır, həkim ordusu yaranıbdır, tibb elmini inkişaf etdirən alimlərimiz yaranıbdır. Biz bununla fəxr edirik. Bu, bizim milli sərvətimizdir. Əgər bunlar olmasaydı, bizim cəmiyyətimiz indi yaşaya bilməzdi. O illər, sovet hakimiyyəti dövründə səhiyyəyə çox vəsait ayrılırdı və biz də Azərbaycanda bu vəsaitdən səmərəli istifadə edirdik, ilbəil səhiyyə sahəsini genişləndirirdik. Ancaq Sovetlər İttifaqı dağılandan sonra, hər bir respublika müstəqillik alandan sonra biz yeni bir iqtisadi-siyasi sistemə keçirik və artıq keçmişik. İndi təsəvvür edin, bir sistem dağılıb, yeni bir sistem qururuq. Şübhəsiz ki, bu dövr ağır dövrdür, cəmiyyət üçün, dövlət üçün ağır dövrdür, hər insan üçün ağır dövrdür. O cümlədən səhiyyə üçün də ağır dövrdür.

Məlumdur ki, indi səhiyyəyə biz 70–80-ci illərdə olduğu kimi vəsait ayıra bilmirik. Bunlar hamısı məlumdur. Amma bunu da təbii qəbul etmək lazımdır. Biz o sistemdən imtina etdik, onu dağıtdıq. Müstəqil olmaq istədik və müstəqil

olmuşuq. Azad olmaq istədik, azad olmuşuq. Özümüzün azad, müstəqil dövlətimizi qururuq. Mümkün deyil ki, bu, elə asan olsun ki, oradan tullandın, keçdin bura. Bu, ola bilməz. Bu, mümkün deyildir. Bu, hər sahəyə toxunur, hər sahədə çətinliklər yaradıbdır. O cümlədən, səhiyyə sahəsində. Hamımız birlikdə bu ağır, çətin dövrü yaşamalıyıq, keçməliyik və mən sizə bildirmək istəyirəm ki, bu dövrün ömrü uzun deyildir.

Azərbaycanın iqtisadiyyatı uzunmüddətli tənəzzüldən sonra son üç-dörd ildə inkişafa başlayıbdır. Biz Azərbaycanda bazar iqtisadiyyatı sistemi yaradırıq. Təsəvvür edin, inkişaf etmiş kapitalist ölkələrində bazar iqtisadiyyatı sistemi on illərlə yaranıbdır. Bəzi kapitalist ölkələrində hələ indi də özəlləşdirmə prosesi gedir.

Bizim qardaş, dost Türkiyəni götürün. Mən son vaxt Türkiyədə bir az istirahət edirdim. Çox adamlarla söhbət edirdim. Yeni hökumət qurulubdur. İndi yeni hökumət mübahisə aparır ki, özəlləşdirməni nə cür aparaq – bu cür aparaq, ya başqa cür aparaq. Mən dedim, əcəba, hələ siz də ölkənizin iqtisadiyyatını indiyə qədər özəlləşdirməmisiniz. Bu, o deməkdir ki, bu proses ağır, çətin prosesdir. Amma biz bu yol ilə gedirik və sizə deyə bilərəm ki, uğurla gedirik. Hər halda, onu bilməyiniz lazımdır ki, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, indi Müstəqil Dövlətlər Birliyinin daxilində olan respublikaların içərisində Azərbaycanın iqtisadiyyatı, iqtisadi vəziyyəti hamısından üstündür. Mən deyə bilərəm ki, bu, bizi təmin edir. Yox. Bəli, bizim çətinliklərimiz vardır. Cəmiyyətdə təbəqələşmə gedir. Kasıb vəziyyətdə, ağır vəziyyətdə yaşayan insanlar vardır. Biz onlara kömək etməliyik. Amma bunun üçün gərək biz iqtisadi islahatları sürətlə həyata keçirək, o iqtisadi islahatların həyata keçirilməsindən daha da çox gəlir əldə edək və bunun nəticəsində də əhalinin bütün təbəqələrinin rifah halının yaxşılaşdırılmasına nail olaq. Bu

yol belə yoldur. Başqa yol yoxdur. Amma bir şeyi bilməlisiniz ki, bu yol uğurlu yoldur. Biz bu yol ilə gedəcəyik və Azərbaycanın iqtisadiyyatı yaxın bir neçə ildə daha da sürətlə inkişaf edəcəkdir. İnsanların rifah halı yaxşılaşacaq və səhiyyənin də vəziyyəti daha da yaxşılaşacaqdır.

Səhiyyədə islahatlar aparılır. Bu da təbiidir. Apardığımız islahatların əsas məqsədləri, əsas mənası bundan ibarətdir ki, biz sosial ədalətli cəmiyyət qurmaq istəyirik. Bütün islahatlar sosial yönümlü olmalıdır, sosial ədaləti təmin etməlidir. Bu, asan məsələ deyildir. Amma bilin, bu, bizim qarşımızda olan strateji vəzifədir və biz özəlləşdirməni həyata keçirərək, torpaq islahatı keçirərək, başqa iqtisadi islahatları keçirərək, xarici ticarəti liberallaşdıraraq, ümumiyyətlə, iqtisadiyyatda liberallaşdırmanı daha da sürətlə yayaraq bir şeyi heç vaxt unutmamışıq və unutmayacağıq: sosial vəziyyət, sosial ədalət və bütün bu görülən işlərin sosial yönümü. Ona görə də biz bu işlərin hamısını birlikdə, kompleks şəklində apararaq, şübhəsiz ki, cəmiyyəti ilbəil, aybaay daha da yaxşı vəziyyətə gətirəcəyik.

Sizin səhiyyə sistemindəki islahatlar da sürətlə getməlidir. İndi dünyanın hər yerində səhiyyə əksərən pulludur, ödənişlidir. Siz bu islahatlarla buna keçirsiniz. Burada Səhiyyə naziri dedi ki, 47 milyard manat qazanmısınız. Bu lazımdır. Bunu etmək lazımdır.

Yenə də deyirəm, məsələn, bizim qardaş Türkiyəni götürün. Bu yaxın günlərdə mən oradaydım. Orada səhiyyə xidmətində pullu xidmət də var, eyni zamanda pulsuz xidmət də vardır. Azərbaycan da bu yol ilə getməlidir. Pullu xidmətdən qazanılan vəsaitin bir qismi səhiyyənin o biri sahəsinin yaşamasına, inkişaf etməsinə yönəldilməlidir.

Bu islahatlar haqqında mən daha geniş danışmaq istəmirəm. Onu bildirmək istəyirəm ki, hər yerdə, hər sahədə olduğu kimi, səhiyyədə də islahatlar həyata keçirilməlidir. Bu labüddür və o yerlərdə ki, islahatlar həyata keçirilib, o

yerlərdə ki, doğru, düzgün, ədalətli səhiyyə xidməti – həm pullu xidmət, həm pulsuz xidmət – təmin olunubdur, o yerlərdə işlər daha da yaxşı gedir. Ancaq mən etiraf edirəm ki, biz səhiyyəyə əvvəlki kimi vəsait ayıra bilmirik.

Mən bildirmək istəyirəm ki, səhiyyənin işində çox nöqsanlar da var, çox çatışmazlıqlar vardır. Bunu da anlayın. Səhiyyənin bugünkü vəziyyəti təkcə bu keçid dövrünün xüsusiyyətləri ilə bağlı deyildir. Bu, eyni zamanda ayrı-ayrı səhiyyə ocaqlarına rəhbərlik edən insanların işlərində buraxdıqları səhvlər, yaxud da vəzifəsindən sui-istifadə etməsi, yaxud da, təəssüflər olsun ki, dövlət əmlakını mənimsəməsi, rüşvətxorluqla məşğul olması nəticəsində olur. Demək, vəzifə nədən ibarətdir? Bir tərəfdən islahatları həyata keçirmək, ikinci tərəfdən isə səhiyyədə olan nöqsanları aradan götürmək. Nöqsanlar var, çoxdur. Bu gün mən sizin üzünüzə dik baxaraq deyirəm və heç kəs də düşünməsin ki, hər şey nöqsansızdır. Mən bunu nazirə də deyirəm, xəstəxana müdirinə də deyirəm, poliklinika müdirinə də deyirəm. Nöqsanlar çoxdur. Elə şeylər var ki, onları mövcud imkanlar vasitəsilə daha da yaxşı həll etmək olar. Amma həll edə bilmirlər, həll etmirlər. Nə üçün? Səhlənkarlıq edirlər. Nə üçün? Vəzifələrindən sui-istifadə edirlər. Nə üçün? Başqa-başqa pis yollara gedirlər. Mən arzu edərdim ki, səhiyyə bizim üçün əziz, qiymətli bir sahə olduğuna görə, səhiyyədə hər şey təmiz olsun, hər şey pak olsun.

Bilirsiniz ki, orduda and vardır. Orduya gedən hər bir şəxs vətənə sədaqətlə xidmət edəcəyinə and içir. Bir də həkimlərdə Hippokrat andı vardır. Mən bunu 70-80-ci illərdə dəfələrlə demişəm, - Hippokrat andını içib ona xəyanət etmək olmaz.

Mən Azərbaycanda əvvəllər işlədiyim zaman da səhiyyə ilə çox məşğul olmuşam və bilirsiniz ki, mən Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Siyasi Büronun üzvü olduğum zaman bütün Sovetlər İttifaqının səhiyyə

sistemi – Səhiyyə Nazirliyi və səhiyyə ilə əlaqədar olan başqa nazirliklər bilavasitə mənə tabe idi. Ona görə də beş il orada işlədiyim zaman Azərbaycan çərçivəsindən çıxıb bütün Sovetlər İttifaqında həm səhiyyənin, həm tibb elminin və səhiyyənin başqa sahələrinin vəziyyətini öyrənmişəm, bilirəm. Bu səhvlər, qüsurlar keçmişdə də, indi də təkcə Azərbaycanda deyil, başqa yerlərdə də çox olubdur. Mən bunları görmüşəm. O vaxt orada, Sovetlər Birliyinin başında olarkən də mən bu nöqsanlarla, bu qüsurlarla dəfələrlə mübarizə aparmışam.

Bu gün də sizə deyirəm, gəlin bu çətinliklərə dözək, ancaq imkanlardan hər bir sahənin inkişafı üçün, yaxşı işləməsi üçün səmərəli istifadə edək. Nə qədər çətin olsa da, şərəfi itirməyək, nə qədər çətin olsa da, Hippokrat andını ləkələməyək. Vəzifə bundan ibarətdir. Mən sizə bunları arzu edirəm.

Bu gün bir daha bildirmək istəyirəm ki, dövlət, hökumət bütün imkanlardan istifadə edib səhiyyənin inkişafı üçün əlavə tədbirlər görəcəkdir. Biz xaricdən kreditlər alırıq, qrantlar alırıq. Elə bu tibb ocağının bu səviyyəyə çatması da, artıq burada deyildi ki, Yaponiyadan alınmış qrantın nəticəsidir. Başqa şeylər də vardır. Bunların hamısından istifadə edəcəyik. Bunu edəcəyik. Amma hər bir səhiyyə işçisi, hər bir həkim öz sənətinə sadiq olmalıdır, öz şərəfini qorumalıdır. Şərəfdən yüksək heç bir şey yoxdur, Qalan şeylər gəldi-gedərdir. İnsan ləyaqəti, insan şərəfi, insan mənəviyyatı hər şeydən üstündür.

Bu gün biz buraya ağ ciyər xəstəlikləri klinikasının modernləşəndən, təmirdən sonra açılışına toplaşmışıq. Ancaq mən bu fürsətdən istifadə edib, qəlbimdə olan bəzi sözləri sizə çatdırmağı lazım bildim. O ki qaldı bu klinikaya, şübhəsiz ki, mənə verilən məlumatlara görə o, müasir tələblərə cavab verən bir klinikadır. Mən çox arzu edərdim ki, bu qurulan, yaradılan klinikadan elə istifadə olunsun ki, bütün başqa səhiyyə müəssisələrinə, ocaqlarına nümunə olsun. Hər bir

şeydə nümunə lazımdır və nümunənin əsasında başqalarını da o nümunənin səviyyəsinə çatdırmaq olar. Mən arzu edərdim ki, bu, nümunə olsun.

Mən sizi bugünkü bu hadisə münasibətilə, ağ ciyər xəstəlikləri klinikasının, yenidən yaranmış klinikanın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu klinikada çalışacaq, yaxud çalışan insanların hamısına yeni-yeni uğurlar arzu edirəm. Ümidvaram ki, yeni klinika Azərbaycanda ağ ciyər xəstəliyinin səmərəli müalicəsini təmin edəcək və ən əsası – o xəstəliyin qarşısını almaq üçün profilaktika işləri aparacaqdır. Çünki bütün təbabətdə, tibbdə profilaktika müalicədən həmişə vacibdir. Biz nə qədər çox xəstəliyin qarşısını ala bilsək, profilaktika tədbirlərini həyata keçirə bilsək, o qədər də cəmiyyətimiz daha da sağlam olacaqdır.

Mən bu kollektivə uğurlar arzulayıram. Eyni zamanda sizin hamınıza, buraya toplaşmış bütün səhiyyə işçilərinə cansağlığı, səadət arzu edirəm. Mən çox məmnunam ki, bu gün sizinlə görüşürəm. Sizin hər birinizə öz işinizdə yeni-yeni uğurlar, ailənizdə səadət arzulayıram. Sağ olun!

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UİLYAM C. KLİNTONA

Hörmətli cənab prezident!

Sizi və dost Amerika xalqını milli bayramınız – Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin iki yüz iyirmi üçüncü ildönümü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə, ailənizə və xalqınıza sülh, səadət və daim çiçəklənmə arzulayıram.

Bu ilin aprel ayında NATO-nun 50-ci ildönümü münasibətilə Vaşinqtonda keçirilən təntənələri və görüşləri məmnuniyyətlə xatırlayıram. Ümidvaram ki, bu görüşlər Azərbaycanın ABŞ-la partnyorluğunu, NATO ilə əməkdaşlığını daha da inkişaf etdirəcək, regionumuzun və xüsusilə Azərbaycanın problemlərinin, ələlxüsus Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə və məlum 907-ci əlavənin aradan götürülməsinə yönəldilmiş səyləri gücləndirəcəkdir.

Biz Amerika Birləşmiş Ştatları ilə dostluq əlaqələrinin daha da inkişaf etməsinə olduqca böyük əhəmiyyət veririk. Ölkələrimiz arasında sıx əməkdaşlıq Azərbaycanda demokratik cəmiyyətin qurulmasına, geniş siyasi və iqtisadi islahatların aparılmasına, ümumən Qafqaz regionunda sülhün, azadlığın və demokratiyanın bərqərar olmasına xidmət edəcəkdir.

Səmimiyyətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *28 iyun 1999-cu il*

TÜRK DÖVLƏTLƏRİ VƏ TOPLULUQLARININ VII DOSTLUQ, QARDAŞLIQ VƏ İŞBİRLİYİ QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!

Türk dövlətləri və topluluqlarının növbəti VII toplantısını ürəkdən salamlayır, hamınıza ən səmimi arzularımı yetirirəm.

Türk xalqlarının dostluq, qardaşlıq və işbirliyi qurultayları artıq gözəl ənənəyə çevrilmişdir. 1993-cü ildən bəri hər il qardaş Türkiyə Cümhuriyyətinin himayəsi ilə keçirilən bu forumlar eyni etnik soykökə, müştərək tarixə, dil və mədəniyyətə malik xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına, hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə və türk dünyasının milli-mənəvi bütövlüyünə xidmət edir.

Antitürk siyasəti yeridən müxtəlif qüvvələr uzun illər qardaş xalqlarımızı bir-birindən ayrı salmağa, təkləməyə, bizi möhtəşəm bir tarixi keçmişdən və böyük mədəni irsimizdən təcrid etməyə çalışmışdır. Lakin tarix boyu bəşər sivilizasiyasında misilsiz rol oynamış yenilməz türk əzmini qırmaq, türk ruhunu sarsıtmaq heç kimə müyəssər olmamışdır.

Bu gün – iyirminci yüzilliyin sonlarında xalqlarımız tarixi haqqına qovuşaraq müstəqillik əldə etmişdir. Hər birimizin qəlbini sonsuz qürur duyğularıyla döyündürən milli dövlətçilik atributlarımızı, türklüyün zəngin maddi və mənəvi dünyasını nümayiş etdirən tarixi abidələrimizi, ümumbəşəri dəyərlərimizi maneəsiz inkişaf etdirmək üçün hər cür şərait yaranmışdır. Bu böyük nailiyyəti qoruyub saxlamaq, dövlət müstəqilliyimizi daha da möhkəmləndirmək, ölkələrimiz və xalqlarımız arasında suverenlik, qarşılıqlı etimad və qardaşlıq

prinsiplərinə əsaslanan hərtərəfli əlaqələrə nail olmaq hər birimizin gələcək nəsillər qarşısında müqəddəs borcumuzdur. Sevindirici haldır ki, indi bizim əməkdaşlığımız təkcə rəsmi dövlətlərarası əlaqələrlə yekunlaşmır. Son illərdə bütöv xalqlarımız, ayrı-ayrı vətəndaş təsisatları, elm, təhsil, mədəniyyət və düşüncə adamları arasında sarsılmaz dostluq münasibətləri yaranmışdır.

Eyni tarixi taleyi bölüşən xalqlarımızın və dövlətlərimizin ümumi mənafeləri naminə strateji əməkdaşlığı etibarlı təməllər üzərində inkişaf etdirmək günümüzün zərurətidir. Qlobal siyasi hadisələrlə zəngin çağdaş dünyamızda üzərimizə düşən tarixi məsuliyyəti hər birimiz aydın dərk edərək işdə, əməldə, fikirdə birlik ideyasının gerçəkləşməsi üçün əlimizdən gələn yardımı göstərməliyik. Əmin ola bilərsiniz ki, müstəqil Azərbaycan Respublikası öz daxili və xarici siyasətində daim bu mövqeyə sadiq qalaraq türk dünyasının siyasi, iqtisadi və mədəni yüksəlişinə xidmət edəcəkdir.

Əziz dostlar!

Planetimizdə mühüm strateji mövqelərə, zəngin iqtisadi, elmi, mədəni potensiala malik dövlətlərimizin və xalqlarımızın parlaq sabahına dərin inamımı bir daha ifadə edərək sizə türk dünyasının tərəqqisi və böyük gələcəyi naminə gərəkli fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *29 iyun 1999-cu il*

MƏŞHUR RUSİYA RƏSSAMI NİKAS SAFRONOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Prezident sarayı

29 iyun 1999-cu il

Heydər Əliyev: Azərbaycana xoş gəlmişsiniz, Nikas Safronov. Sizin Gəncə və Lahıç səfəriniz barədə mənə məlumat verdilər. Səfər xoşunuza gəldimi?

Nikas Safronov: Sizinlə görüşdüyümə çox şadam, hörmətli cənab prezident. Gəncə və Lahıca səfərlərim zamanı məni valeh edən Azərbaycanın qəlbi riqqətə gətirən təbiəti oldu. Bu təbiətdə dünyanın bütün möcüzələri var. Orada elə nadir guşələr gördüm ki, onları heç nə ilə müqayisə etmək mümkün deyil.

Heydər Əliyev: Azərbaycanımız doğrudan da gözəldir. Bu gözəlliyi sizin kimi kamil rəssamın öz gözləri ilə görməsi və qiymətləndirməsi bir azərbaycanlı kimi mənə xoşdur.

Nikas Safronov: Azərbaycanın dövləti kimi xalqı da gözəldir, həm də çox sadəlövhdür. Heç zaman olub-qalanı ilə öyünmür, deyir ki, olanı budur. Azərbaycan xalqı böyük xalqdır.

Heydər Əliyev: Azərbaycan xalqı son dərəcə təvazökarlığı ilə fərqlənən bir xalqdır. Biz heç vaxt öyünən deyilik və əsrlərdən bəri belə olmuşdur. Biz öz məziyyətlərimizi göstərə bilmirik, bəzən də hətta onları gizlədirik. Bu, xalqımıza xas xüsusiyyətdir, nə etmək olar. Mən uzun illər ərzində çalışmışam ki, adamlarımız Azərbaycanı daha fəal təmsil etsin-

lər, xalqın, ölkənin məziyyətlərini göstərsinlər. buna baxmayaraq, xasiyyət xasiyyət olaraq qalır.

Nikas Safronov: Bilirsiniz, mən Azərbaycanda bir daha olmağımdan xoşbəxtəm, özümün bütün asudə vaxtımı burada keçirmək, adi bir qonaq yox, Azərbaycanın tam hüquqlu sakini olmaq istərdim.

Bu mümkündür. Lakin Nikas Safronova səfəri zamanı görüşüb tanış olduğu adamlar daha böyük təəssürat bağışlamışdır. Onlar rəssamın prezidentimizlə tanışlığından xəbər tutduqda dövlətimizin başçısına ən xoş arzularını yetirməyi, onun əlini sıxmağı xahiş etmişlər. Nikas Safronovun Lahıcda görüşdüyü adamlar oraya çəkilmiş yola görə prezident Heydər Əliyevə onların minnətdarlığını çatdırmağı xahiş ediblər.

Heydər Əliyev: Bəli, bir vaxtlar mən oraya yol çəkdirdim, körpü saldırdım. Bu, tarixi hadisədir və 70-ci illərin axırlarında – 80-ci illərin əvvəllərində olmuşdur.

Nikas Safronov: Cənab prezident, icazə verin ömürgün yoldaşınız mərhum Zərifə xanım Əliyevanin portretini Sizə təqdim edim.

Mən çox materialları nəzərdən keçirmişəm, çünki Zərifə xanımla şəxsən tanış deyildim. Zərifə xanımın sifətinin cizgilərindən görünür ki, Sizin birgə ömür-gün sürdüyünüz illər ərzində onun siması get-gedə daha gözəl və daha nəcib olmuşdur. Əvvəla, gözləri olduqca gözəldir, mən onları bir qədər kədərli, onun özünü isə hamının qeydinə qalan bir mələk kimi təsvir etmişəm. Bunlar tanış olduğum materiallardan aldığım şəxsi təəssüratımdır. Arxa planda dağlar təsvir olunmuşdur. Ümidvaram ki, vaxt ötdükcə Siz bu portretə öyrəşəcəksiniz.

Heydər Əliyev: Bəri başdan deyim ki, siz yaxşı portret çəkmisiniz. Ona görə yaxşı deyirəm ki, şübhəsiz, insan yaşa dolduqca dəyişir, Zərifə xanım da dünyasını dəyişməzdən bir neçə il əvvəl təxminən belə görünürdü. Bir sözlə, siz bu

məqamı həssaslıqla tutmusunuz. Lakin ən başlıcası budur ki, siz onun xarakterini canlandırmağa müvəffəq olmusunuz. Tam oxşarlıq var. Özü də məsələ təkcə oxşarlıqda deyil, obrazdadır. Siz onun obrazını çox yaxşı təsvir etmisiniz.

Nikas Safronov: Mən Zərifə xanımın portretini, zənnim məni aldatmırsa, onun xoşladığı paltarda çəkmişəm, çünki o, həmin paltarı tez-tez geymişdir.

Heydər Əliyev: O, geyimini dəyişməyi çox da xoşlamırdı heç vaxt, bəzək-düzəyi sevmirdi. Bəzi qadınlardan fərqli olaraq o, həmişə çox sadə geyinirdi. Yeri gəlmişkən, onun bir çox gözəl keyfiyyətləri ilə yanaşı, birgə ömür sürdüyümüz dövrdə mənim üçün ən mühüm xüsusiyyətlərdən biri onun hər cəhətdən təvazökar olması idi. Buna görə onun paltarı da sadə idi. Siz bu xüsusiyyəti düzgün sezmisiniz. Portret çox uğurlu alınmışdır. Mən onun üzündə nə isə bir qüssəkədər də sezirəm. Pozanı da düzgün müəyyənləşdirmisiniz. Yaxşıdır. Sağ olun. Əlbəttə, mən bunu gözləmirdim, bilmirdim ki, Siz bu portreti çəkirsiniz. Lakin Siz bu portreti yaratmısınız.

Nikas Safronov: Sizinlə hər bir görüş mənim üçün çox böyük şərəfdir. Mən bütün rəsmlərimi Sizə hədiyyə etməyə hazıram. Bir dəfə haqqınızda demişdim ki, Sizin kimi insanlar dünyaya yüz ildə bir dəfə gəlirlər. Amma sonra anladım ki, belə insanlar min ildə bir dəfə doğulurlar. Mənim üçün böyük şərəfdir ki, Sizinlə şəxsən tanışam. Sizin xalqınızla və mənim xalqımla bağlı həyata keçirmək istədiyim yeni planlar barəsində hər dəfə məmnunluqla düşünürəm. Sizin adamlarınızdan biri nə vaxtsa mənə demişdir ki, biz ikinci sağlığı həmişə Heydər Əliyeviçin şərəfinə qaldırırıq. Mən də dedim ki, bilirsiniz, mən bunu özümə bir qayda edəcək, həmişə və hər yerdə birinci sağlığı Heydər Əliyeviçin şərəfinə qaldıracağam.

İndi isə öz rəsmlərimin illüstrasiyalarından ibarət albomu, Sizin nəvənizin fotoşəkilləri əks olunmuş sanballı jurnalları, mənim Azərbaycanın rayonlarına səfərim zamanı insanların Azərbaycan rəhbərinə çatdırmaq istədikləri hədiyyələri təqdim edirəm.

Heydər Əliyev: Təşəkkürümü bildirirəm, bunlar mənim üçün çox qiymətli hədiyyələrdir, çünki bu hədiyyələri sadə insanlar ürəkdən hazırlamışlar.

Nikas Safronov: Elə mən də xalqın gözəlliyini qiymətləndirdiyimi qeyd etmək istəyirdim. Xalq Sizi rəsmi, vəzifə sahibi olan bir şəxs kimi deyil, ürəkdən sevib bağlı olduğu bir insan kimi qəbul edir. Bizim Sizinlə görüşəcəyimizdən xəbər tutan hər bir adam Sizə kiçik hədiyyələr göndərir və deyirdi ki, əgər gəlsəniz, Sizi çox böyük hədiyyə gözləyir. Onlar deyirdilər ki, Sizin çəkdirdiyiniz yol bir qədər xarab olmuşdur, lakin biz onu öz əllərimizlə düzəldib qaydaya salacağıq.

Cənab prezident, bir qadının adından da bu yun corabı Sizə verirəm. Bunu həmin qadın Azərbaycan prezidentinin sağlamlığının qayğısına qalaraq özü toxumuşdur.

Heydər Əliyev: Son dərəcə mütəəssir oldum. Çox qiymətli hədiyyədir, çünki bu corabı onun özü toxumuşdur. Bu hədiyyə məni təsirləndirir, çünki o, tanımadığım bir insanın mənə qayğısıdır. Mən çox təsirləndim.

Nikas Safronov: İndi isə Gəncədəki rus kilsəsinə ziyarətimdən danışmaq istəyirəm. Orada Mariya adlı bir qadın var. Onun sayəsində kilsə çox yaxşı vəziyyətdədir. Rusiyada belə şeyə rast gəlməzsən. Bu kilsədə hər şey – ikonalar, divar rəsmləri qorunub saxlanmışdır, hər şey tərtəmizdir, kilsəni sanki dünən tikmişlər, halbuki onun 200 ildən artıq yaşı var. O qadın öz məhəbbətini, rəğbətini Sizə çatdırmağı xahiş edərək deyib: «Biz Sizə minnətdarıq ki, burada hər şeyimiz var, heç kəs bizə dəyib-toxunmur, biz Sizi sevirik.

Sizə minnətdarıq». O qadın əlimi öpüb xahiş etdi ki, mən bu sözləri Sizə çatdırım. Bu epizod fotoşəkildə də əks olunmuşdur.

Bu isə Sizin 1998-ci ildə Gəncə parkında əkdiyiniz ağacın fotoşəklidir. Bunu Sizə verərək bildirmək istəyirəm ki, park səliqə-səhman içində, yaxşı vəziyyətdədir.

Heydər Əliyev: Təxminən 30 il bundan əvvəl, mən respublikanın rəhbərliyinə gələndə bir çox digər məsələlərlə yanaşı, Bakı şəhərinin yaşıllaşdırılması məsələsinə də möhkəm girişdim. İndi görürsünüz ki, Bakı yaşıllıq içindədir. Halbuki 30 il bundan əvvəl belə deyildi. Bakının mərkəzi küçələrində az ağac vardı, kənarlarda isə yaşıllıq, demək olar, yox idi. Mən bu işə girişdim. Aradan 30 il keçmişdi və indi Bakı yaşıllıq içindədir. Bu günlərdə yeni tikililər rayonunda bir klinikanın açılışına getmişdim, ətrafa nəzər saldım. Gördüm ki, ilahi, nə qədər ağac var, sanki bütöv bir meşədir! Yaşıllaşdırma hərəkatı Azərbaycanın digər rayonlarına da yayıldı. Əlbəttə, Lahıcda heç nə əkmək lazım deyildir.

Yaxud götürək Lənkəran zonasını – orada da ağac əkməyə ehtiyac yoxdur. Amma bizdə meşəsiz yerlər var. Misal üçün. Gəncə öz qədim çinarları ilə məşhurdur. Bununla bərabər, biz tikinti işləri aparıb Gəncəni abadlaşdırırdıq, deməli, evlər ucaltmaqla yanaşı, parklar da salmaq lazım gəlirdi. Bax, biz belə bir park saldıq. Əgər indi o, yaxşı vəziyyətdədirsə, mən bundan məmnunam.

Nikas Safronov: Puşkinin yubileyi ilə əlaqədar Gəncədə görülmüş işlər də xoşuma gəldi. Biz universitetdə olduq, orada gimnaziya var, yerli rəssamlar gimnaziyanın divarlarında rəsmlər çəkiblər. Onlar bu kitabı Sizə çatdırmağı xahiş etdilər.

Əyalətə getməyi məsləhət gördüyünüzə görə Sizə minnətdaram. Ən diqqətəlayiq hal budur ki, xalq Sizi sevir. Bu, xüsusilə əlamətdar bir haldır. Mən çox məmnunam.

Bir dəfə məndən soruşdular ki, harada yaşamaq istərdim? Dedim ki, İsveçrədə, bədəbəddə Şotlandiyada, öz qəsrimdə yaşamaq istərdim. Ancaq bu yaxınlarda dedim ki, yaşamaq istədiyim yeganə bir yer varsa, o da Azərbaycanın hər hansı bir əyaləti, dağlar qoynunda yerləşən kiçik bir qəsəbədir; elə bir guşə ki, orada göl olsun, sadəcə istirahət etmək və təmiz hava ilə nəfəs almaq mümkün olsun. Mən Lahıcda bir qocadan soruşdum ki, neçə yaşın var, cavab verdi ki, oğlum, bilmirəm, amma gərək ki, 100–120 yaşım var. Zənnimcə, orada insanlar özlərinə məxsus ömür sürürlər, sizi unutmur, tanıyır və çox sevirlər.

Arif Babayev (*Ulyanovsk Vilayət İcra Hakimiyyətinin nümayəndəsi, Ulyanovsk vilayətindəki azərbaycanlıların «Nizami» cəmiyyətinin vitse-prezidenti*): İcazə verin söhbətə qoşularaq deyim ki, biz yol gələrkən mən bu kitabı Nikasa göstərdim, onu mənə Sizin rəhmətlik qardaşınız Həsən Əliyev bağışlamışdır. Allah ona rəhmət eləsin. O, təbiətin məşhur qoruyucusu, akademik idi. Mən onun mühazirələrində tez-tez olurdum. Yadımdadır, o, bizə həmişə deyərdi və elə indi Nikas da belə bir qənaətə gəldi ki, Azərbaycanın təbiəti ilə müqayisədə İsveçrə bir şey deyildir. Həsən müəllim çox maraqlı ideyalar irəli sürürdü. O, çox təvazökar bir insan idi. Respublikada Sizin belə yüksək vəzifə tutmağınıza, yüksək nüfuzunuzun olmasına baxmayaraq, o, tələbələrlə, insanlarla özünü çox sadə aparırdı. Deyirdi ki, adamları xaricə göndərməzdən, - o vaxtlar biz buna çox aludə idik, - əvvəlcə öz *diyarımızı* tanımalıyıq.

Heydər Əlirza oğlu, demək istəyirəm ki, Nikasın buraya gəlməsi barədə fikir yarandıqda, sözün düzü, ona ölkəmiz haqqında, Sizin haqqınızda danışarkən düşündüm ki, bu görüş iki dahinin – rəngkarlıq dahisi ilə siyasət dahisinin görüşü olacaqdır.

Heydər Əliyev: Nikas dahidir, mən isə...

A r i f B a b a y e v: Əlbəttə, Heydər Əlirza oğlu, Siz özünüz də. Yaxşı oldu, bu tanışlıq mehriban, qarşılıqlı insani münasibətlərə çevrildi. Düzünü desək, Rusiyada, Ulyanovskda biz Nikasa görə şadıq, çünki səfərimiz zamanı adamların bizə göstərdikləri səmimiyyət, hörmət təkcə Nikasa görə deyil, həm də Sizə, Sizin dostluğunuza olan hörmətdir. Bu, çox qiymətlidir.

Ulyanovsk vilayətinin qubernatorundan, qanunvericilik məclisinin sədrindən, bizim azərbaycanlılar icmasından, çox adamlardan, - bunları uzun-uzadı sadalaya bilərəm, - Sizə xoş salamlar yetirmək istərdim. Nikasın sayəsində bu yaxınlarda Moskvada «Russkoye zoloto» şirkətinin prezidenti ilə görüşdüm. O, Sizin ünvanınıza nə qədər səmimi sözlər söylədi! Buraya gəlməzdən əvvəl «LUKoyl»un rəhbərliyi ilə görüşmüşəm. Onlar da Sizə ən yaxşı arzularını yetirməyi xahiş etdilər.

Sizinlə hər bir görüş məndən ötrü çox böyük hadisədir. Hər dəfə buradan gedərkən özümü günahlandırıram ki, hüzurunuzda oturmuşdum. Əgər icazə versəniz, Sizə hörmətimi bildirmək üçün ayağa qalxardım. Mən Sizin andiçmə mərasiminizi xatırlayıram, o zaman salondan çıxdınız və Sizə yaxınlaşmağıma icazə verdilər. Siz elə ilhamlı və gözəl idiniz ki. Açığını deyəcəyəm, indi də əla görünürsünüz, yaxşı siyasi formada, gözəl, yaxşı əhval-ruhiyyədəsiniz.Bu, ən başlıcasıdır. Əminəm ki, bizdə hər şey yaxşı olacaq və üçüncü minillikdə də ölkəmizə Sizin rəhbərlik etməyiniz barədə arzumuz da yerinə yetəcəkdir.

O zaman Sizə dediyim əsas fikir bu idi ki, Siz təkcə Azərbaycanın deyil, həm də dünyanın hər yerində yaşayan bütün azərbaycanlıların prezidentisiniz. Biz Sizin ürəyinizdən rica edirik ki, həmişə yaxşı, dəqiq vursun, çünki ürəyiniz Sizə məxsus deyil, o, ölkəmizin, xalqımızın ürəyidir.

Andiçmə mərasimində Nikasla biz gördük ki, Siz təxminən iki saat çox ciddi məsələlər haqqında necə qeyri-standart da-

nışdınız, bütün problemlərə cavab verdiniz. Cabir Novruz şer oxumağa başlayanda ötən illərin kadrlarını göstərdilər. Yeri gəlmişkən, bu yaxınlarda burada tanışlarımla görüşərkən biz, 1969-cu ildən başlayaraq bütün həmin dövrü xatırladıq. Mən o zaman dedim: bilirsiniz, biz nə üçün beləyik? Ona görə ki, biz heydərçilərik. Biz o cür tərbiyə almış insanlarıq, ayrı cür ola bilmərik. Əgər biz Sizin verdiyiniz çörəyi vicdanla yemişiksə, o tərbiyəni almışıqsa, deməli, bu gün də beləcə güclü qalmalı və yeni Azərbaycan qurmaqda Sizə kömək etməliyik. Andiçmə mərasimində həmin kadrlar göstərilərkən, yanımda əyləşmiş bir nəfər qolumdan dartıb soruşdu ki, nə üçün ağlayıram. Mən dedim: ona görə ki, bu, mənim ölkəmdir, bu, mənim prezidentimdir. Bir daha demək istəyirəm ki, Siz bizim prezidentimizsiniz, Sizi sevir, qiymətləndiririk, Sizə cansağlığı arzulayırıq.

Bir daha demək istəyirəm ki, bizim qubernator iqtisadi və siyasi dialoqu davam etdirmək üçün ən yaxın vaxtlarda Bakıya gəlib Sizinlə görüşməyə hazırdır.

H e y d ə r Ə l i y e v: Buyursun. Vaxtını razılaşdırarıq. Sağ olun.

N i k a s S a f r o n o v: Məni və Arif Babayevi səmimi qəbul etdiyinizə görə bir daha Sizə minnətdarlığımızı bildiririk.

ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ EVİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

Bakı,
Qaradağ rayonu, Lökbatan qəsəbəsi

30 iyun 1999-cu il

Hörmətli bacılar, qardaşlar!
Əziz dostlar!

Mən sizi, Qaradağ rayonunun bütün sakinlərini səmimi-qəlbdən salamlayıram və sizə ən xoş arzularımı bildirirəm.

Bizim bugünkü görüşümüz sizin üçün nə qədər əlamətdardırsa, mənim üçün ondan da çox əlamətdar və əzizdir. Çünki mən sizinlə görüşə gəlmişəm – Qaradağ rayonunun sakinləri ilə görüşə gəlmişəm, neftçilərlə görüşə gəlmişəm, başqa sənaye müəssisələrində çalışanlarla görüşə gəlmişəm. Mən şəhid ailələri ilə görüşə gəlmişəm, Qarabağ əlilləri ilə görüşə gəlmişəm. Mən bundan çox məmnunam.

Qaradağ rayonunun Azərbaycan xəritəsində, Azərbaycan iqtisadiyyatında, Azərbaycanın həyatında özünəməxsus yeri vardır. Qaradağ rayonunda böyük sənaye müəssisələri – neft idarələri, neft hasil edən təşkilatlar və başqa böyük sənaye müəssisələri yerləşir. Qaradağ rayonu bu gün, Azərbaycanın bu keçid dövründə bütün problemlərin həll olunmasında çox səylər qoyur və mən buraya gələrkən yolda düşünürdüm, bunu burada bəyan etmək istəyirəm ki, Bakı şəhərinin başqa ra-

yonları ilə müqayisədə Qaradağ rayonundakı işlər bizim üçün daha da qiymətlidir və mən bunu yüksək qiymətləndirirəm.

Burada ictimai-siyasi sabitlik daim qorunub saxlanır. Burada rayon rəhbərləri, rayon icra hakimiyyəti əhalinin bir çox problemlərinin həll olunmasına çalışır və onlara nail olurlar. Burada insanlara qayğı görürəm. Xüsusən şəhid ailələrinə qayğı görürəm, müharibə əlillərinə qayğı görürəm. Burada insanların rahat yaşamasını görürəm. Yəni bu, Bakı rayonlarının içərisində ən rahat bir rayondur, sakit bir rayondur. Burada hay-küy salmırlar, öz işlərini o qədər göstərməyə çalışmırlar, özlərini təvazökar aparırlar. Amma öz işlərini yaxşı aparırlar və mən də hesab edirəm ki, bundan sonra da yaxşı olacaqdır.

Bunların da əsas səbəbi odur ki, Qaradağ rayonunda yaşayan insanların əksəriyyəti əmək adamları, zəhmət adamlarıdır. Bu insanlar – keçmişdə də, indi də Qaradağın tərkibində olan qəsəbələrdə, kəndlərdə yaşayan insanlar həmişə fədakar, çalışqan, təvazökar insanlar olmuşlar, özləri öz həyatını qurmağa çalışmışlar və başqa iddiaları olmayıbdır. Ona görə əgər bu gün biz Qaradağ rayonundan razıyıqsa və Qaradağ rayonu bizim üçün başqa rayonlara nisbətən irəlidə gedən rayondursa, bu, birinci növbədə Qaradağ rayonu sakinlərinin, zəhmət adamlarının, təvazökar insanlarının xidmətidir.

Eyni zamanda bu, Qaradağ rayonu rəhbərliyinin təşkilatçılığının, bacarığının və əhaliyə, insanlara qayğı göstərməsinin səbəbidir, nəticəsidir.

Mən bunlara görə sizə bir daha, bir daha öz razılığımı bildirmək istəyirəm və əminəm ki, Qaradağ rayonu bundan sonra Azərbaycan iqtisadiyyatının inkişafında, Azərbaycanın ictimai-siyasi həyatında daha da böyük rol oynayacaqdır.

Bu gün buraya toplaşmağımızın ikinci səbəbi şəhid ailələri üçün, Qarabağ döyüşlərinin əlilləri üçün tikilmiş, hazırlanmış binanın açılışıdır. Bu, indi – həyatımızın ağır, çətin bir döv-

ründə, yeni-yeni binalar tikmək üçün böyük imkanlarımız olmadığı bir zamanda və hökumətin, dövlətin vəsaitinin az olduğu bir zamanda doğrudan da çox əlamətdar bir hadisədir. Mənə məlumat verilmişdi və İlham Əliyev mənə bildirmişdi ki, onun təşəbbüsü ilə burada şəhid ailələri üçün, Qarabağ döyüşlərinin əlilləri üçün yeni bir yaşayış binası tikilir. Şübhəsiz ki, mən də buna sevinmişdim və bu gün də sevinirəm. Ancaq indi buraya daxil olanda, bu evin nə qədər gözəl, nə qədər yaraşıqlı, nə qədər də sevindirici olduğunu görəndə mən həddindən artıq sevindim.

Mən o tərəfdən də, bu tərəfdən də baxıram, - bu ev demək olar ki, gözəl bir memarlıq nümunəsidir. Güman edirəm ki, evin zahiri görünüşü kimi, daxili şəraiti də, imkanları da bir-birinə uyğundur və beləliklə, şəhid ailələri üçün, Qarabağ döyüşlərinin əlilləri üçün burada, Qaradağ rayonunda İlham Əliyevin təşəbbüsü ilə gözəl bir bina tikilibdir və bu binanın da açılışına biz birlikdə toplaşmışıq.

Azərbaycanın suverenliyi, milli azadlığı, müstəqilliyi, torpaqlarının müdafiəsi yolunda şəhid olmuş insanlar bizim ən əziz insanlarımızdır. Onların qəhrəmanlıqları, onların Azərbaycan xalqı qarşısındakı böyük xidmətləri heç vaxt unudulmayacaqdır və Azərbaycan xalqının qəlbində onların xatirəsi daim yaşayacaqdır. Vətən yolunda, torpaq uğrunda şəhid olanların ailələri fəxr edə bilərlər ki, onlar müstəqil Azərbaycan üçün belə gözəl, qəhrəman övladlar yetişdiriblər. Eyni zamanda şəhid ailələrinə daim diqqət hər bir vətəndaşın borcudur, dövlətin borcudur, hökumətin borcudur, mənim borcumdur, sizin borcunuzdur. Biz bu borcumuzu heç vaxt unutmamalıyıq və çalışmalıyıq ki, nə qədər mümkündürsə o qədər də borcumuzu yerinə yetirək. Məhz bugünkü mərasim, inşa olunmuş bu ev – şəhid ailələrinə, Qarabağ əlillərinə təqdim olunan ev həmin borcumuzun yerinə yetirilməsinin parlaq bir nümunəsidir.

Qarabağ döyüşlərində əlil olmuş insanlar bizimlə bərabər cəmiyyətimizdə yaşayırlar. Onlar qəhrəmanlıq göstəriblər, onlar torpaqlarımızı müdafiə ediblər, xəsarət alıblar, onlar yaralanıblar və o yaraları da daim daşıyırlar.

Ancaq mən vətənin müdafiəsi uğrunda döyüşlərdə şikəst, əlil olmuş insanlarla dəfələrlə görüşərkən o qənaətə gəlmişəm ki, bu insanlar nəinki qəhrəmandırlar, nəinki Azərbaycan qarşısında böyük xidmətlər ediblər, o cümlədən də, bununla bərabər, onlar bugünkü cəmiyyətimizin çox dəyərli üzvləridirlər və Azərbaycanın bugünkü həyatında, cəmiyyətində böyük rol oynayırlar. Mən bu gün şəhid ailələrinə və Qarabağ döyüşlərində əlil olmuş soydaşlarımıza öz sevgi-məhəbbətimi bildirirəm və onlara cansağlığı arzu edirəm. Onlara həyatda uğurlar arzu edirəm və bəyan edirəm ki, biz bu şəhid ailələrinə, Qarabağ döyüşləri əlillərinə qayğını, diqqəti bundan sonra da azaltmayacağıq, artıracağıq.

Ölkəmiz ağır bir dövr yaşayır. Bu ağır dövr Azərbaycan üçün 1988-ci ildən başlayıbdır. 1988-ci ildə erməni qəsbkarları Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağı ələ keçirmək məqsədi ilə hərbi münaqişəyə başlayıblar və sonra bu, böyük bir müharibəyə çevrilibdir. O günlərdən 11 il keçibdir. Təəssüflər olsun ki, bütün bu dövrdə və xüsusən Dağlıq Qarabağ, Ermənistan–Azərbaycan münaqişəsi yaranan ilk illərdə Azərbaycan hakimiyyəti, Azərbaycan dövləti, hökuməti bu münaqişənin qarşısını ala bilməmiş, torpaqlarımızın müdafiəsini təmin edə bilməmiş və nəticədə Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuşdur, işğal edilmiş torpaqlardan bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin olmuşdur, onlar ağır vəziyyətdə yaşayırlar. Onların böyük bir hissəsi çadırlarda yaşayır, digər hissəsi isə ayrı-ayrı binalarda çox çətin vəziyyətdə yaşayır. Bu, Azərbaycanın böyük bir dərdidir.Bu dərd o qədər dərindir, o qədər ağırdır

ki, bunu çəkmək də çətindir və bu dərddən xilas olmaq da asan deyildir.

Bu dərddən, bu bəladan xilas olmaq üçün son illər biz çox işlər görmüşük və görürük. Burada şəhid anası qeyd etdi, beş il bundan öncə atəşi dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Bu, böyük bir hadisə idi. Götürün, təhlil edin. 1988-ci ildən 1994-cü ilin mayına qədər döyüş gedib, qan tökülüb, insanlar həlak olub, böyük itkilər vermişik. Nəyə nail olmuşuq? Torpaqlarımız gedibdir, ərazimizin bir hissəsi işğal olunubdur, işğal edilmiş torpaqlardan soydaşlarımız didərgin düşübdür, ağır vəziyyətdə yaşayırlar. Bax, o illərin nəticəsi bundan ibarətdir.

Ona görə də 1994-cü ilin may ayında atəşkəsin yaranması və bu barədə sazişin imzalanması o dövrün zərurətindən irəli gəlmişdi və biz bunu etdik. Ötən beş il onu göstərir ki, biz düzgün qərar qəbul etmişik, biz doğru qərar qəbul etmişik. Beş ildir ki, Azərbaycan atəşkəs şəraitində yaşayır. Yəni müharibə yoxdur, döyüşlər yoxdur, gənclərimiz tələf olmur. Eyni zamanda bu beş il müddətində biz ardıcıl olaraq çalışırıq ki, Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə həll edək. Sülh yolu ilə həll etməyin də yolu ondan ibarətdir ki, Azərbaycanın işğal olunmuş torpaqları azad edilməlidir, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilməlidir. Bu prinsiplər əsasında biz bu illərdə iş aparırıq.

Ancaq bu da asan deyildir. Ona görə ki, atəşkəsdən əvvəlki illərdə Azərbaycan çox şeylər itiribdir – Azəbaycanın torpaqları işğal olunubdur, işğalçı erməni silahlı dəstələri nəinki Dağlıq Qarabağda, həm də Dağlıq Qarabağın ətrafında olan rayonlarda yerləşiblər. İndi onları oradan çıxarmaq asan məsələ deyildir.

Şübhəsiz ki, müharibəni başlamaq olar, vuruşmaq olar və nəyəsə nail olmaq olar. Ancaq bu lazımdırmı? Biz ondan

öncəki illərdə gedən müharibələrin nəticəsini gördük. Ona görə də atəşkəsi qoruyub saxlamaq və məsələnin sülh yolu ilə həll olunmasına çalışmaq lazımdır. Bir də deyirəm, bu, asan məsələ deyildir. Ancaq biz addımbaaddım irəliyə gedirik.

Məsələn, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə ilk dəfə olaraq böyük bir nailiyyət əldə etdik. Yəni Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsinin prinsipləri orada öz əksini tapdı və ATƏT-in bəyanatında qeyd olundu. 1996-cı ilin dekabrından sonra biz bu prinsipləri həyata keçirmək üçün çalışırıq. Ancaq bu da asan deyildir.

Bilirsiniz ki, bu məsələlərlə ATƏT və onun yaratdığı Minsk qrupu məşğul olur. ATƏT-in Minsk qrupunun həmsədrləri var – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa. Bütün bu illər ərzində biz həm Minsk qrupuna daxil olan dövlətlərlə, həm də Minsk qrupunun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa ilə, onların hökumətləri ilə, dövlət başçıları ilə – şəxsən Amerikanın prezidenti cənab Bill Klinton ilə, Rusiyanın prezidenti cənab Boris Yeltsin ilə, Fransanın prezidenti cənab Jak Şirakla və başqa dövlət xadimləri ilə daim təmasdayıq, daim danışıqlar aparırıq, Azərbaycanın haqq işini daim sübut etməyə çalışırıq.

Bizim ən böyük çətinliyimiz bir də ondan ibarətdir ki, təəssüflər olsun, 1988-ci ildən başlayaraq Ermənistan Azərbaycana təcavüz etdiyi halda Ermənistan və bir çox ölkələrdə olan erməni diasporu öz imkanlarından istifadə edərək bu münaqişədə, bu müharibədə guya ermənilərin haqlı olduğunu, guya azərbaycanlıların haqsız olduğunu müəyyən qədər sübut edə biliblər. Dünyaya yayıblar ki, guya azərbaycanlılar Dağlıq Qarabağda yaşayan erməniləri qırırlar, ona görə də müharibə başlayıbdır. Təəssüflər olsun ki, o illər Azərbaycanın bu sahədə işi çox zəif olubdur və həqiqəti dünyaya, xüsusən dünyanın həlledici dövlətlərinə, beynəlxalq təşkilatlarına lazımi qədər çatdırmaq mümkün olmayıbdır.

Buna görə də son illər bizim apardığımız işlərin əsas nəticələrindən biri ondan ibarətdir ki, biz demək olar ki, beynəlxalq təşkilatları, bir çox dövlətləri, xüsusən Minsk qrupuna daxil olan dövlətləri, Minsk qrupunun həmsədri olan ölkələri inandıra bilmişik, fikri dəyişdirə bilmişik və sübut edə bilmişik ki, Ermənistan Azərbaycana qarşı təcavüz edibdir. Ermənistan qəsbkardır, Ermənistan Azərbaycan torpaqlarını işğal edibdir və Azərbaycan bu işğalın altında böyük əziyyətlərə və böyük çətinliklərə məruz qalmışdır.

Bunu etmək asan deyildi. Onu da bilməlisiniz ki, ermənilərin bütün ölkələrdə diasporları böyükdür: Amerikada da, Fransada da, Rusiyada da, bütün başqa ölkələrdə də. Onların çoxu imkanlı adamlardır. Onların bir çoxu o ölkələrin dövlət orqanlarında işləyirlər və şübhəsiz ki, bu dövlətlərə təsir edirlər.

Məsələn, mən sizə deyim ki, Amerikanın prezidenti cənab Bill Klinton ilə 1994-cü ildən indiyə qədər bir neçə dəfə görüşmüşəm. Bir neçə dəfə bu məsələləri – həm bu münaqişənin aradan götürülməsi və Azərbaycanın bu işğaldan xilas olması məsələsini, həm də ki, 1992-ci ildə Amerika Konqresi tərəfindən Azərbaycana qarşı ədalətsiz qəbul olunmuş 907-ci maddənin götürülməsi məsələsini müzakirə etmişəm. Bu məsələləri müzakirə edərkən prezident Bill Klinton deyir ki, haqlısınız, 907-ci maddəni götürmək lazımdır. Ancaq onu götürə bilmir və bəzən də deyir ki, bilirsiniz, bizim ölkəmizdə ermənilər çoxdur, ermənilər Konqresə təsir edirlər və Amerikanın Konqresində ermənipərəst qüvvələr çoxdur. Ona görə də bunu etmək çətindir. İndi təsəvvür edin, Amerika kimi bir ölkədə, Amerikanın prezidenti bu məsələdə çətinlik çəkdiyi halda biz hansı çətinliklərlə rastlaşırıq.

Ancaq bunlara baxmayaraq biz məsələnin sülh yolu ilə həll olunması üçün daim çalışırıq və bundan sonra da çalışacağıq. Mən əminəm ki, biz buna nail olacağıq. Mən əminəm. Mən

sizin qarşınızda, bütün Azərbaycan xalqı qarşısında bəyan edirəm ki, son beş ildə gördüyümüz işlər bizi məsələnin sülh yolu ilə həll olunmasında irəliyə aparıbdır və bundan sonra da irəliyə aparacaqdır. Əminəm ki, beləliklə, biz işğal edilmiş torpaqların azad olunmasına nail olacağıq, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız öz yerlərinə qayıdacaqlar, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcəkdir və vətən yolunda canlarını qurban vermiş şəhidlərin də ruhu şad olacaqdır.

Şübhəsiz ki, biz təkcə bu vasitə ilə yox, bütün başqa vasitələrlə də çalışırıq. Hər halda bilməlisiniz ki, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, Azərbaycan torpaqlarının işğalçılardan azad olunması bizim ali məqsədimizdir və bu məqsədə nail olmaq üçün biz həm sülh yolundan, bütün imkanlardan istifadə edəcəyik, həm də, lazım olarsa, bütün başqa imkanlardan istifadə edəcəyik, Azərbaycanın torpaqlarını azad edəcəyik.

Ancaq təəssüf ki, bizim Azərbaycanda ara qarışdırmaq cəhdi göstərənlər də, bu işə mane olmaq istəyənlər də vardır. Müxalifət qüvvələri vaxtaşırı deyir ki, «Qarabağ məsələsi həll olunmadı, nə üçün həll olunmur, niyə həll olunmur?» Amma heç birisi konkret təklif verə bilmir ki, biz gördüyümüz işlərdən başqa hansı işi görmək olar. Hansı işi görmək olar ki, biz görməmişik? Şübhəsiz ki, onların bu fikirləri bizim üçün əhəmiyyətli deyildir. Ancaq bəzən cəmiyyətimizdə qəzetlər vasitəsilə ayrı-ayrı adamların fikirlərini pozmaq istəyirlər, onları aldatmaq istəyirlər və onlarda müəyyən şübhə yaratmaq istəyirlər. Yaxud da, bu son vaxtlar bəzi müxalifət qüvvələri başlayıblar ki, «Dağlıq Qarabağa yürüş təşkil edək». Nədir bu yürüş, nə yürüş təşkil edəcəksiniz?

Bunlar o adamlardır ki, 1988-ci ildən «Dağlıq Qarabağ kartı»ndan istifadə edərək Azərbaycanın daxilində ictimai-siyasi sabitliyi pozmuş, hakimiyyət mübarizəsi aparmış və bu

da Azərbaycan torpaqlarının işğalının əsas səbəblərindən biri olmuşdur. Mən bu gün bəyan edirəm ki, bizim apardığımız işə, yəni torpaqlarımızın azad olunması, Qarabağ məsələsinin həll edilməsi sahəsində apardığımız işə heç kəs mane olmamalıdır. Əgər kim mane olarsa, biz onların qarşısını alacağıq. Ancaq eyni zamanda o qəzetlərdə - filanlarda vaxtaşırı Qarabağ məsələsini öz siyasi məqsədləri üçün qaldıranlara mən bu gün bəyan edirəm – hansının nə təklifi varsa, buyursun. Hansı bu yollardan daha da böyük yol, düzgün yol göstərə bilərsə, verə bilərsə, buyursun. Mən bir onlara demirəm, hamıya deyirəm. Biz hesab edirik ki, apardığımız iş, tutduğumuz yol düzgün yoldur. Əgər kimsə hesab edir ki, belə deyil, meydana çıxsın və gəlsin təklif versin, boş danışıqlarla məşğul olmasın.

Məsələn, təsəvvür edin, dediyim kimi, 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə biz böyük nailiyyət əldə etdik. Təsəvvür edin, ora 54 dövlət başçısı yığışmışdı. 54 dövlət başçısından 53-ü orada qəbul olunan sənədə səs verdi. Yəni Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması və Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə statusu verilməsi prinsiplərinə. Ancaq bizim ölkəmizdə, Azərbaycanda həmin o Lissabon zirvə görüşündə qazandığımız böyük nailiyyəti ayrı-ayrı müxalifət qüvvələri təhrif etməyə başladılar. Belə bir təbliğat apardılar ki, guya biz orada uduzmuşuq. Amma o biri tərəfdə – Ermənistanda bu qərarı – Lissabon sammitinin qərarını matəm kimi qəbul etdilər, onun əleyhinə çıxdılar, təbliğat apardılar. Mən sizə deyə bilərəm, indiyə qədər də biz Lissabon zirvə görüşünün prinsiplərini həyata keçirə bilmirik. Nə üçün həyata keçirə bilmirik? Çünki Ermənistan tərəfi bununla razı olmur. İndi gəlin, özünüz araşdırın. Burada Lissabon sammitində qazandığımız böyük nailiyyəti bizim içərimizdə olan adamlar qaralamaq istəyirlər, ləkələmək istəyirlər və bunu məğlubiy-

yət hesab edirlər. Ermənistanda isə ermənilər matəm elan etdilər və o vaxtdan indiyə qədər o prinsiplərin birini də onlara qəbul etdirə bilmirik. Bununla nəyi demək istəyirəm?

Bilirsiniz, indi Azərbaycanda siyasi plüralizm var, demokratiya var və biz bunları inkişaf etdirəcəyik. Ancaq öz şəxsi ambisiyalarına görə, öz şəxsi məqsədlərinə görə Azərbaycanın dövlət mənafeyinə zərər gətirmək, ləkə vurmaq xəyanətdir, cinayətdir. Bilin ki, biz bunların qarşısını bundan sonra da qətiyyətlə alacağıq.

İndi danışıqlar bir az zəif gedir. Amma güman edirəm ki, biz bunları sürətləndirəcəyik. Biz 1996-cı ilin dekabrından Lissabon zirvə görüşünün prinsipləri əsasında Ermənistanla razılığa gəlmək istəyirik. Onlar bunu qəbul etmirlər. Keçən ilin axırında ATƏT-in Minsk qrupunun həmsədrləri yeni bir təklif – «ümumi dövlət» prinsipi təklifi verdilər. Biz bunu qəbul etmədik. Amma biz qəbul etmədiyimiz prinsipləri Ermənistanda qəbul ediblər, Ermənistanda təbliğ edirlər və bütün dünyaya yayırlar ki, «Bilirsiniz, məsələ həll oluna bilər, ancaq Azərbaycan həmin o «ümumi dövlət» prinsipini qəbul etmir».

Görürsünüz, necədir! Lissabon zirvə görüşünün prinsipləri məsələni ədalətli həll edirdi. Təkcə Azərbaycanın xeyrinə yox, ədalətli, yəni həm Azərbaycanın, həm də Ermənistanın xeyrinə həll edirdi. Ancaq onlar bununla razı olmadılar. Çünki onlar Dağlıq Qarabağa müstəqillik verilməsi iddiasından əl çəkmirlər. Ancaq indi verilən «ümumi dövlət» prinsipi Azərbaycana qarşı ədalətsizlikdir. Ona görə də biz bundan imtina etdik. Amma Ermənistan onu dərhal qəbul etdi və bütün dünyaya yayır ki, «Azərbaycan məsələnin həll olunmasını istəmir».

Bax, vəziyyət belədir. Mən bunu sizə qısaca çatdırıram və fürsətdən istifadə edib Azərbaycanın vətəndaşlarına çatdırı-

ram ki, bunlar çox ağır və çətin proseslərdir. Biz bu proseslərlə məşğul oluruq.

Siz hamınız mənim həyat təcrübəmi, siyasi təcrübəmi bilirsiniz. Siz hamınız mənim keçmişimi və bu işlərdə nə qədər bilikli olduğumu bilirsiniz. Əgər mən bu işə başçılıq edirəmsə, mən bu işin üzərindəyəmsə, demək, nə mümkündür onu edirik. Bir də deyirəm, bütün gördüyümüz işlər öz müsbət nəticəsini verəcəkdir.

Əziz dostlar!

Əziz bacılar, qardaşlar!

Mən sizinlə bu görüşümdən çox şad olduğumu bir daha bildirmək istəyirəm. Mən hər dəfə Azərbaycanın vətəndaşları ilə ayrı-ayrı şəhərlərdə, bölgələrdə görüşərkən çox sevinirəm. Bu gün bu görüş mənim üçün çox böyük sevinc gətirdi. Mən buraya gələrkən bura çatmağıma bir neçə kilometr qalmış Qaradağ rayonunun sakinləri yol kənarında durub məni salamlayırdılar, xoş arzularını bildirirdilər. Siz burada mənə öz sevginizi, məhəbbətinizi bildirirsiniz. Bunların hamısına görə təşəkkür edirəm.

Mənim həyatımın mənası insanlarla, xalqla birlikdə olmaqdan ibarətdir və indiyə qədər həyatımda əldə etdiyim nailiyyətlər xalqın mənə göstərdiyi etimad, xalqın mənə göstərdiyi qayğı, xalqın mənə göstərdiyi hörmət və sevgi olmuşdur. Bu gün də sizin mənə göstərdiyiniz bu sevginin, bu məhəbbətin şahidi oldum.

Mən sizə bildirmək istəyirəm ki, Azərbaycan iqtisadiyyatı bizim üçün indi əsas məsələdir – Qarabağ məsələsindən sonra, yaxud onunla yanaşı. Azərbaycanın iqtisadiyyatı son illər inkişaf edibdir. Doğrudur, bəlkə bu inkişaf hələ hər bir insanın həyatında gözlənilən dəyişikliyi təmin edə bilmir. Ancaq bu inkişaf gedir.

Biz Azərbaycanda böyük islahatlar – siyasi, iqtisadi islahatlar aparırıq. Bu islahatların bəziləri bu gün çətinliklər

yaradır. Amma sabah onlar öz nəticələrini verəcəkdir. Mən bilirəm ki, əhalimizin bir qismi çətin vəziyyətdə, ağır vəziyyətdə yaşayır. Bu, bizi də incidir, şübhəsiz ki, belə vəziyyətdə yaşayanları da incidir. Ancaq əmin ola bilərsiniz ki, bizim həyata keçirdiyimiz siyasət, o cümlədən iqtisadi siyasət Azərbaycanı aybaay, ilbəil irəli aparacaqdır, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirəcəkdir və Azərbaycan vətəndaşlarının rifah halını yaxşılaşdıracaqdır. Mən sizi əmin edirəm və bu yolda indiyə qədər çalışmışam, bundan sonra da çalışacağam. Ancaq bu yol ilə bundan sonra da uğurla getmək üçün biz Azərbaycanda əldə etdiyimiz ictimai-siyasi sabitliyi qoruyub saxlamalıyıq.

Burada çıxışlarda deyildi, - 1993-cü ildə Azərbaycan nə vəziyyətdə idi? O dövrü unutmaq lazım deyildir. Əksinə, yeniyetmələrə, gənclərə də çatdırmaq lazımdır ki, Azərbaycan böyük təhlükədə idi. Vətəndaş müharibəsi başlamışdı. Azərbaycanı parçalayırdılar, dağıdırdılar. Biz Azərbaycanı bunlardan xilas etdik, ondan sonra Azərbaycanı nə qədər bəlalardan xilas etdik. Bunlar asan iş deyildi.

Siz görün, altı il müddətində biz haradan haraya gəlib çatdıq. 1993-cü ildə sizlər burada rahat yaşaya bilərdinizmi? Yox. Amma indi çətin də olsa rahat yaşayırsınız. Biz bunu təmin etmişik və bunu qoruyub saxlamaq, yaranmış ictimai-siyasi sabitliyi qoruyub saxlamaq hər bir vətəndaşın borcudur. Əmin ola bilərsiniz ki, biz bundan sonra da bu böyük nailiyyəti qoruyacağıq, saxlayacağıq və möhkəmləndirəcəyik. Əgər kimsə bu işdə bizə mane olacaqsa, biz onların qarşısını qətiyyətlə alacağıq.

Azərbaycanın ən böyük nailiyyəti onun dövlət müstəqilliyidir. Biz buna nail olmuşuq. Dövlət müstəqilliyini əldə etmək, şübhəsiz ki, tarixi bir hadisə idi. Biz buna 1991-ci ilin sonunda nail olduq. Amma bu müstəqilliyi qorumaq, saxlamaq və günü-gündən inkişaf etdirmək asan məsələ deyildir.

Azərbaycan isə öz dövlət müstəqilliyini bu illərdə çox ağır şəraitdə qoruyub, saxlayıb, inkişaf etdiribdir. Bir tərəfdən Azərbaycanın daxilində Azərbaycan xalqına zidd olan ayrı - ayrı qüvvələr, silahlı dəstələr, terror etmək istəyənlər, dövlət çevrilişi etmək istəyənlər, Azərbaycanı parçalamaq işləyənlər, digər tərəfdən də Azərbaycanın öz təbii sərvətlərindən səmərəli istifadə etdiyini görən ayrı-ayrı ölkələr Azərbaycana böyük təzyiqlər edirlər və Azərbaycanın müstəqilliyinə hər bir vəchlə mane olmaq istəyirlər.

Bizim böyük nailiyyətimiz ondan ibarətdir ki, artıq səkkizinci ildir ki, Azərbaycan müstəqil yaşayır, biz Azərbaycanın dövlət müstəqilliyini qorumuşuq, saxlamışıq, əbədi etmişik və əmin ola bilərsiniz ki, ilbəil bizim müstəqilliyimiz möhkəmlənəcək və Azərbaycan qüdrətli, inkişaf etmiş bir dövlət olacaqdır.

Mən bugünkü görüşə görə sizə təşəkkür edirəm. Sizin mənə göstərdiyiniz bu sevgiyə, məhəbbətə görə minnətdarlığımı bildirirəm. Sizin hər birinizə cansağlığı, xoşbəxtlik arzu edirəm. Bilin ki, həmişə sizinləyəm, xalqlayam və ömrümün sonuna qədər də sizinlə olacağam. Sağ olun.

CENEVRƏ DEMOKRATİYA QURUCULUĞU İNSTİTUTUNUN «MEDİA DƏSTƏYİ LAYİHƏSİ» ÇƏRÇİVƏSİNDƏ BAKIDA KEÇİRDİYİ KONFRANSDA İŞTİRAK EDƏN GÜRCÜSTAN VƏ ERMƏNİSTAN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

1 iyul 1999-cu il

H e y d ə r Ə l i y e v: Salaməleyküm, qamarcoba, barev!

Sizi Azərbaycanda salamlayıram. Bu görüşü əlamətdar hadisə hesab edirəm və indiki halda jurnalistlərin bir-biri barədə daha çox məlumata malik olması üçün, başlıcası isə, zənnimcə, münasibətlərin gələcək inkişafından ötrü müəyyən körpülər salmaq üçün yaxşı təşəbbüs göstərdiklərini vurğulayıram.

Burada Gürcüstan və Ermənistan jurnalistləri iştirak edirlər. Cənubi Qafqaz həmişə bununla şöhrətlənmişdir ki, burada xalqlar dostluq etmiş, bir-birini dəstəkləmişlər, hərçənd münaqişələrin, qarışıqlıqların yarandığı vaxtlar da olmuşdur. Ümumiyyətlə, Qafqaz bütün dünyada öz səciyyəvi xüsusiyyətləri, xarakterləri, adətləri, mərasimləri, ənənələri olan bölgə kimi məşhurdur. Bunlar dünyanın digər bölgələrindəkindən müəyyən dərəcədə fərqlənir. Ona görə də bütün dövrlərdə səyyahlar, tarixçilər Qafqaza, xüsusən də onun Cənubi Qafqaz adlanan hissəsinə – Gürcüstana, Ermənistan və Azərbaycana böyük maraq göstərmişlər.

Keçmişdə ölkələrimizdə dövlətlər olmuşdur. Bu əsrin əvvəllərində ölkələrimiz, xalqlarımız əslində eyni bir vaxtda azadlıq, müstəqillik əldə etmiş, lakin sonra onu da təxminən eyni vaxtda itirmişlər. 1991-ci ilin axırlarında Sovetlər İttifaqının süqutu ilə əlaqədar Cənubi Qafqaz respublikaları yenidən dövlət müstəqilliyi, suverenlik və azadlıq qazanmışlar. Səciyyəvi haldır ki, oktyabr inqilabından, çar imperiyasının süqutundan sonra, 1918-ci ildə Gürcüstan, Ermənistan və Azərbaycan nümayəndələri Tbilisiyə toplaşaraq, ən əvvəl Cənubi Qafqazın müstəqilliyi məsələsini birgə müzakirə etmişdilər. Gündəlikdə Zaqafqaziya seymi yaradılması və başqa məsələlər dururdu. Amma onlar razılığa gələ bilmədilər, dağılışdılar və demək olar, eyni vaxtda Gürcüstanda da, Ermənistanda da, Azərbaycanda da müstəqillik elan edildi. Bu, 1918-ci ilin mayında oldu. 1920-1921-ci illərdə sovet hakimiyyətinin yaradılması ilə əlaqədar ölkələrimizin müstəqilliyi keçmişdə qaldı və biz hamımız müttəfiq respublikalar kimi Sovetlər İttifaqının tərkibində yaşamağa başladıq.

Əlbəttə, keçmişdən o mənada danışmaq olar ki, o vaxt da yaxşı və müsbət cəhətlər çox olmuşdur, ancaq mənfi cəhətlər də çox idi. Müstəqilliyi itirməyimiz, əlbəttə, xalqlarımız – gürcü, erməni və Azərbaycan xalqları üçün fəlakət idi. 70 il Sovetlər İttifaqının tərkibində, daha doğrusu, sovet imperiyasında yaşamağımızın, əlbəttə, öz iradəmizdən asılı olmayaraq yaşamağımızın da o mənada öz xüsusiyyəti var idi, həmin dövrdə, necə deyərlər, respublikalarımız çox fəal əməkdaşlıq edir və xalqlarımız arasında dostluğu mümkün olan hər cür tədbirlərlə möhkəmləndirirdilər.

1991-ci ilin axırlarında Sovetlər İttifaqının süquta uğraması tarixi hadisədir. Ölkələrimiz dərhal öz müstəqilliyini elan etdilər. Bir diqqət yetirin, XX əsrdə xalqlarımızın talelərində eyni bir vaxtda nə qədər oxşar hadisələr baş vermişdir. İndi biz müstəqil dövlətlərik və biz Azərbaycanda bunu tarixi

nailiyyət, tarixi hadisə hesab edirik. Azərbaycanda dövlət müstəqilliyi bizim üçün dönməz və əbədi olmuşdur.

Əlbəttə, bu dövr hamımız üçün çətin dövrdür – iqtisadi və siyasi çətinliklər var. Lakin tale hökm edir – tab gətirmək və bütün zamanlarda müstəqil dövlət olmaq üçün biz bu çətinliklərdən keçməliyik. Azərbaycanda biz bu mövqelərdə dayanmışıq.

Ancaq bundan ötrü, məsələn, Cünubi Qafqaz bölgəsində fəal əməkdaşlıq etmək lazımdır. Bu baxımdan biz böyük imkanlara, böyük potensiala malikik. Belə ki, siyasi islahatlar aparılmasından, siyasi yenidənqurmadan, yəni demokratik, hüquqi dövlət qurulmasından, vətəndaş cəmiyyətinin təşəkkülü və inkişafı üçün bütün şəraitin yaradılmasından əlavə iqtisadiyyat da mühüm amildir. Bu sahədə biz hamımız bazar iqtisadiyyatı yolu, iqtisadi islahatlar aparılması yolu tutmuşuq. Ən böyük çətinliklər iqtisadiyyatda, sosial sahədədir. Odur ki, bizlərdən hər birinin, məsələn, Azərbaycanın bir çox ölkələrlə qarşılıqlı əlaqəsi, əməkdaşlığı böyük əhəmiyyətə malikdir. Biz belə əməkdaşlığı həyata keçiririk. Belə əməkdaşlığı Gürcüstan və Ermənistan da həyata keçirirlər.

Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq da vacibdir. Gürcüstanla Azərbaycan arasında mehriban münasibətlər, dostluq münasibətləri mövcuddur. Axı xalqlarımız əsrlərdən bəri yan-yana, qonşuluqda yaşayırlar. Məsələn, xatırlaya bilmərik ki, nə vaxtsa gürcülərlə azərbaycanlılar arasında hər hansı bir ciddi münaqişə baş vermişdir. Dövlət müstəqilliyi əldə edildikdən sonra da, Gürcüstanda da, Azərbaycanda da böyük çətinliklər, - daxili xarakterli çətinliklər, münaqişələrlə bağlı çətinliklər, - olmasına baxmayaraq, Gürcüstanla Azərbaycan arasında əməkdaşlıq müvəffəqiyyətlə gedir. Bu da qarşılıqlı fayda gətirir.

Məsələn, bilirəm ki, Gürcüstanla Ermənistan arasında yaxşı əməkdaşlıq gedir. Hesab edirəm ki, bu da vacib, Cənubi Qafqazın inkişafı üçün müsbət amildir.

Təəssüf ki, hələ 1988-ci ildə, Sovetlər İttifaqı dövründə baş vermiş münaqişə Ermənistanla Azərbaycan arasında nəinki çətinliklər, həm də, zənnimcə, tarixdə heç vaxt olmamış münasibətlər yaratmışdır. Tarixi vərəqləsək görərik ki, ermənilərlə azərbaycanlılar arasında müxtəlif səviyyələrdə münaqişələr baş vermişdir. Onlar qurbanlara, qan tökülməsinə gətirib çıxarmış, ancaq bir müddətdən sonra bu münaqişəni aradan qaldırmaq mümkün olmuş və dinc həyat bərpa edilmişdir. Məsələn, 1905-ci ili götürün, 1918-ci ili, bir neçə il sonra isə münasibətlər bərpa olunmuş, insanlar dostluq etmiş və pisliklər unudulmuşdur. Bu aydındır və təbiidir. İnsanlar pislik istəmirlər, onlar yaxşılıq istəyirlər. Bu, heç də təkcə, tutalım, Ermənistan və Azərbaycanın timsalında belə deyildir. Bir yada salın, İkinci dünya müharibəsinə nə qədər dövlət cəlb olunmuşdu, Rusiya, Sovetlər İttifaqı ilə Almaniya arasında necə müharibə getmişdi. Amma bir baxın, indi necə gözəl münasibətlər var. Bu sözləri öz aralarında on illərlə müharibə aparmış bir çox Avropa ölkələri barəsində də söyləmək olar. Bütün bunlar keçmişdə qalmışdır, indi onlar dostluq edirlər, Avropada hətta Avropa Birliyi yaradılmışdır, hər şey Avropa dövlətlərinin birliyinə, yaxınlaşmasına doğru gedir. Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında yaranmış münaqişə isə, təəssüflər olsun, davam edir.

Biz münaqişənin dincliklə nizama salınması mövqeyində qətiyyətlə dayanmışıq, 1994-cü ilin mayında biz atəşkəs haqqında saziş imzalamış və öz tərəfimizdən hər şeyi edirik ki, atəşkəs münaqişə ədalətlə həll olunana qədər qalsın.

Doğrudur, yəqin Ermənistanda da, Azərbaycanda da elə qüvvələr var ki, onlar hərbi əməliyyatlara təhrik edirlər. Ermənistanı bilmirəm, amma hər halda Azərbaycanda bizi

ittiham edirlər ki, artıq beş ildir atəşkəs qüvvədə qalır, heç nə yoxdur, siz isə başqa tədbirlər görmürsünüz. Hətta burada, bizim müxalifətdə elə qüvvələr meydana gəlmişdir ki, onlar ancaq öz siyasi iddialarını bildirmək üçün Qarabağa yürüş təşkil etməyə cəhd göstərirlər.

Dünən mən Qaradağ rayonunda oldum, - bu, Bakı şəhərinin rayonudur, - rayonun sakinləri ilə görüşdüm. Bu, neft, fəhlə rayonudur, orada xüsusi olaraq bu müharibənin qurbanları və əlillərinin ailələri üçün 50 mənzilli ev tikilmişdir. Mən orada çıxış etdim, dedim: O qurbanlar, o şikəst edilmiş insanlar məgər bəs deyilmi? Həmin ailələr şad idilər ki, onlar üçün belə ev tikilmişdir, onlar mənzil almışlar. Mən onların mənzillərinə baxdım. Məgər bu qurbanlar azdırmı? Kimsə bizi hələ başqa şeylərə təhrik edir.

Dünən mən çox qəti şəkildə bir daha bəyan etdim ki, biz məsələnin dinclikdə həllinə tərəfdarıq. Düşünürəm ki, biz bu məsələnin həlli yolunu tapacağıq, bu, Azərbaycanın da, Ermənistanın da maraqlarına uyğun olacaqdır. İnanmıram ki, Ermənistanla Azərbaycan həmişəlik münaqişə vəziyyətində olacaqlar. İnanmıram. Çünki ötən tarix inandırıcı surətdə göstərir ki, yox, belə ola bilməz.

Bununla əlaqədar qarşılıqlı etimad mühiti yaradılmasına böyük zərurət var. Çünki münaqişənin 11 ili ərzində Ermənistanda da, Azərbaycanda da hisslər, bir-birinə münasibət kəskinləşmişdir. Bu təbiidir: müharibədir, insanlar öldürülmüş, qan tökülmüşdür. Azərbaycan ərazisinin 20 faizinin erməni silahlı birləşmələri tərəfindən işğal olunduğunu və bu torpaqlardan təxminən bir milyon azərbaycanlının qovulduğunu və onların çadırlarda, ağır şəraitdə yaşadığını da buraya əlavə etsək, onda görərsiniz ki, o tərəfdə də, bu tərəfdə də hisslər necə kəskinləşmişdir. Lakin tələfat təkcə Azərbaycanda olmayıb, tələfat Ermənistanda da olubdur, şikəst edilmiş adamlar Ermənistanda da var.

Ona görə də həqiqətən sülhə doğru getmək, münaqişənin dinclikla aradan qaldırılmasma nail olmaq üçün etimad mühiti yaradılması vacibdir. Əlbəttə, bu, qısa müddətdə yaradıla bilməz. Etimad mühiti yaratmaq üçün hələ çox şey etmək lazımdır. Məsələn, mən bu mövqelərdə dururam. Bununla əlaqədar jurnalistlərin təşəbbüsü bəyənilməyə və dəstəklənməyə layiqdir. Üstəlik, hesab edirəm ki, jurnalistlər bu baxımdan çox iş görə bilərlər.

Mənə deyirlər ki, jurnalistlərin bu cür qrupu bir müddət əvvəl Ermənistanda olmuşdur. Onlar görüşmüş, həyatla tanış olmuş, müəyyən əlaqələr yaratmışlar. Halbuki bir neçə il bundan əvvəl təsəvvürə belə gətirmək çətin idi ki, hər hansı azərbaycanlı Ermənistan ərazisində görünə bilər və ya hansısa erməni Azərbaycan ərazisində görünə bilər. Hətta yadımdadır, ötən il sentyabrın 7-8-də Bakıda böyük İpək yolunun bərpası üzrə TRASEKA proqramına dair beynəlxalq konfrans keçirilirdi, bir çox ölkələrin nümayəndə heyətləri dəvət olunmuşdu. Bundan əvvəl qarşıya məsələ çıxdı – Ermənistanın nümayəndə heyətini dəvət etməli, yoxsa etməməli? Açığını deyim ki, bunun əleyhdarları çox oldu – yəni dəvət edilməsin, biz münaqişədə olduğumuz halda, Ermənistanın nümayəndə heyətini necə dəvət etmək olar? Lakin dəvət etmək lazımdır fikri üstün gəldi. Mən insanlara izah etdim ki, əvvəla, bu, beynəlxalq konfransdır, o, Bakıda keçirilir, Ermənistanı bu imkandan necə məhrum edə bilərik ki, o da İpək yolunun üstündə yerləşir, yaxud TRASEKA proqramının həyata keçirilməsində iştirak edir? Bu, doğru olmaz. Deyirdilər: Bəs necə olsun, tutaq ki, Koçaryan gəldi, ona necə münasibət göstəriləcəkdir? Mən dedim: Normal münasibət göstəriləcək, o Ermənistanın prezidentidir. Baş nazir Darbinyan gəldi, hər şey normal oldu.

Prezident Robert Koçaryan telefonla mənə dedi ki, onlarda da, - yəni təkcə bizdə deyil, Ermənistanda da, - böyük fikir

ayrılıqları olmuşdur ki, yüksək səviyyədə Ermənistan nümayəndə heyətinin Azərbaycana getməsi gərəkdirmi? Mən bunu sizə prezident Koçaryanın sözlərinə əsasən deyirəm. Yəni bu, bizdə də olmuşdur. Ermənistanda da. Ancaq bu əhval-ruhiyyəni orada da dəf etdilər, Azərbaycanda da. Konfrans keçirildi, Ermənistanın Baş naziri bütün tədbirlərdə iştirak etdi, sənədləri imzaladı. Etimad, qarşılıqlı anlaşma yaradılmasına doğru addım atıldı.

Belə tədbirlərdən çox həyata keçirmək olar. Təkrar edirəm, bununla əlaqədar jurnalistlərin belə mübadiləyə girişməsi strateji məqsədimizə xidmət edir. Mən buna jurnalistlərin hər hansı bir görüşü kimi deyil, Cənubi Qafqazda sülh yaradılması üçün həyata keçirməli olduğumuz tədbirlər silsiləsində bir vəsilə kimi baxıram.

Cənubi Qafqazda sülh hər bir kəsə gərəkdir – ərazisinin işğal edilməsindən əziyyət çəkən təkcə Azərbaycana deyil; abxaz münaqişəsindən əziyyət çəkən təkcə Gürcüstana deyil; Ermənistana da sülh gərəkdir, Azərbaycana da sülh gərəkdir, Gürcüstana da sülh gərəkdir. İnsanlara sülh gərəkdir. İndi biz XXI əsrə doğru gedirik, lazımdır ki, daha müharibələr, münaqişələr olmasın, gərək insanlar dinc yaşaya və inkişaf edə bilsinlər. Harada sülh münasibətləri bərqərar olubsa, orada böyük inkişaf gedir. Təkrar edirəm, götürün Avropanın təcrübəsini. İkinci dünya müharibəsi dövründə necə bir dəhşət olmuşdu: Avropa, o cümlədən Sovetlər İttifaqı tamamilə dağıdılmışdı və sizinlə biz – Cənubi Qafqaz respublikaları da zərər çəkmişdi. İndi baxın, Avropada sülh bərqərar edildikdən sonra necə sürətlə inkişaf başlamışdır.

Ona görə də sülhə doğru getmək üçün jurnalistlər çox şey edə bilərlər. Mən sizin təşəbbüsünüzü, bu görüşü alqışlayır və ümid edirəm ki, o, sülhə doğru kiçik də olsa, yol açacaqdır.

Yekaterina Axalkatsi (*Gürcüstan*): Cənab Əliyev, Sizin fikrinizcə, Cənubi Qafqazda münaqişələrin nizama salınmasında iqtisadiyyat nə kimi rol oynaya bilər?

Heydər Əliyev: Çox ciddi rol oynayır. Kaş biz bu çətinlikləri dəf edə biləydik. Gürcüstanla bizim aramızda məsələlər yoxdur. Biz Ermənistanla Azərbaycan arasında mövcud olan hər şeyi dəf edə və iqtisadi əməkdaşlığı həyata keçirə bilsəydik, imkanlar olduqca böyükdür. Mən Vaşinqtonda prezident Koçaryanla görüşdüm və biz bu barədə danışdıq. İmkanlar olduqca böyükdür. Odur ki, hesab edirəm, iqtisadiyyat çox ciddi rol oynayır.

Qayane Movsesyan (*Ermənistan*): Cənab Əliyev, Sizə elə gəlmirmi ki, vaxtı çatmış münaqişə problemlərini də tədricən həll etmək, iqtisadi əməkdaşlığı sahmana salmaq üçün hətta münaqişə şəraitində də qarşılıqlı maraqların axtarışına başlamaq olardı? Hətta bu cür şəraitdə də hər hansı qarşılıqlı iqtisadi marağı axtarıb tapmaq olarmı?

Heydər Əliyev: Bilirsiniz, biz prezident Koçaryanla məhz bu mövzuda danışdıq. Əvvəllər danışmışdıq, xüsusən Vaşinqtonda da danışdıq. Yeri gəlmişkən, Cənubi Qafqaz respublikaları –Gürcüstan, Ermənistan və Azərbaycan prezidentlərinin görüşünü çox maraqlı və faydalı hesab edirəm. Birləşmiş Ştatların dövlət katibi xanım Olbraytın və bir sıra ölkələrin, o cümlədən Fransa, İngiltərə, Almaniya, Norveç, Türkiyə xarici işlər nazirlərinin iştirakı ilə keçirilmiş və Amerika Birləşmiş Ştatlarının hökuməti tərəfindən təşkil edilmiş bu görüş məhz iqtisadi münasibətləri inkişaf etdirmək yolu ilə getməyə, bunun vasitəsilə digər məsələlərin də həllini asanlaşdırmağa yönəldilmişdi.

Aris Qazinyan (*Ermənistan*): Cənab prezident, bilmək istərdim, rəsmi Bakı Ermənistan Respublikasına necə baxır? Mən burada eşitdim və gördüm ki, Sizin müşaviriniz – hörmətli cənab Quluzadə də əslində qeyd etdi ki, erməni milli

şüuru Moskvanın təsiri altında formalaşır. Bilmək istərdim, rəsmi Bakı Ermənistanı Rusiyanın Qafqazda əlaltısı hesab edirmi?

Heydər Əliyev: Bilirsiz, siz çox kəskin ifadələr işlədirsiniz. Nə eşitmisiniz, eşitmisiniz. Mən burada nəsə deyə bilmərəm, bunu özümə rəva görmürəm. Ancaq fakt faktlığında qalır, Rusiyanın Ermənistanda silahlı qüvvələri, hərbi bazaları var. Ermənistanda sərhəd xidmətini əsasən Rusiya sərhədçiləri çəkirlər, amma təbii ki, Ermənistan sərhədçilərinin iştirakı ilə. Bu fakt özlüyündə onu göstərir ki, ölkənin suverenliyi müəyyən dərəcədə pozulmuşdur. Əlbəttə, bu, ölkənin öz işidir, buna yol verə də bilər, verməyə də. Məsələn, Moskvada da bəziləri deyirlər ki, bilirsinizmi, Ermənistan Cənubi Qafqazda bizim yeganə dayağımız və müttəfiqimizdir. Əlbəttə, bizə o da toxunur ki, məsələn, bəzən kimsə deyir ki, bu, xristian ölkəsidir. Başa düşürsünüzmü, XX əsrin sonunda ölkələri dinə görə bölmək, sadəcə olaraq, cinayətdir. Təəssüf ki, biz Rusiyada bu cür səslər eşidirik. Ermənistanın xristian ölkə olmasının məsələyə dəxli yoxdur. Amma nə olsun, belə bəyan edirlər, özü də yüksək vəzifəli adamlar bəyan edirlər. Xalq xristianlığa etiqad edir. Doğrudur. Azərbaycanda xalq müsəlmanlığa etiqad edir. Doğrudur. Axı bunu biz yaratmamışıq. Əcdadlarımız hələ çox-çox əsrlər əvvəl bu cür din qəbul etmişlər. İndi buna görə biz bir-birimizlə düşmənçilik etməli, inamsızlıq göstərməli, yaxud hesab etməliyik ki, görürsünüz, Moskva Ermənistanı xristian, Azərbaycanı isə müsəlman ölkəsi adlandırır?

Buna görə də, zənnimcə, fakt göz qabağındadır. Ermənistan öz ərazisində S-300 raketləri üçün də, MİQ-29 təyyarələri üçün də yer ayırmışdır. Biz Cənubi Qafqazda sülh olmasını, tərksilaha doğru getmək istədiyimiz halda, Ermənistan silahlandırılır. Yeri gəlmişkən, mən Rusiyanın rəhbərlərindən soruşmuşam: Bu, sizin nəyinizə gərəkdir? Mən Rusiya preziden-

tindən, başqa adamlardan açıq soruşmuşam: Bu, sizin nəyinizə gərəkdir? Onlar əvvəlcə bu sualın cavabından yayındılar, sonra da deməyə başladılar ki, bu, NATO-ya qarşıdır. Mən güldüm. Axı NATO Qərbdədir. Ermənistan ərazisindən NATO-ya qarşı nə etmək olar? Əgər Rusiya hesab edirsə ki, Ermənistan Rusiyanın NATO-ya qarşı bazasıdır, onda bunun nə demək olduğu barədə özünüz mühakimə yürüdün. Mənə bunu bildirirdilər. Ona görə də heç bir qiymət vermək istəmirəm, sadəcə olaraq faktı nəzərə çarpdırıram. Nəticəni isə hər kəs özü çıxarmalıdır.

J u r n a l i s t: Lakin Türkiyə NATO-nun üzvüdür.

H e y d ə r Ə l i y e v: Bilirsiniz, bu mövzuda söhbəti genişləndirmək istəmirəm. Bu da gülməlidir ki, Rusiya Ermənistan ərazisindən Türkiyə vasitəsilə NATO-dan müdafiə olunacaqdır. Bu, çox gülməlidir. Rusiyanın Qara dəniz vasitəsilə Türkiyə ilə çox böyük sərhədi var. Rusiyanın malik olduğu müasir silahlarla NATO-nun üzvü kimi Türkiyəni atəşə tutmaq heç bir çətinlik törətmir. Əgər Rusiyanın raketləri Amerika Birləşmiş Ştatlarının ərazisinə çata bilərsə, Türkiyə nədir ki? Ona görə də bu, məntiqi deyildir. Bir daha təkrar edirəm, *mən ancaq faktı nəzərə çarpdırıram və heç bir* qiymət vermirəm.

V a x r a m A ğ a c a n y a n (*Ermənistan*): Heydər Əliyeviç, bilmək istərdik, «ümumi dövlət» ideyası müəyyən edildikdən sonra Azərbaycan tərəfinin kompromisi nə dərəcədədir? Sizin çıxışlarınızda, Azərbaycanın digər rəsmi şəxslərinin çıxışlarında biz Dağlıq Qarabağa geniş muxtariyyət veriləcəyini eşidirik. Amma biz bu genişliyin mahiyyətini hələ başa düşməmişik. Geniş muxtariyyətin nə demək olduğunu konkret şəkildə olaraq, iki kəlmə ilə, iki detalla açıqlamaq olarmı? Bu muxtariyyət, məsələn, məhdud muxtariyyətdən nə ilə fərqlənir? Sağ olun.

Heydər Əliyev: Bilirsiniz, əvvəla, siz yəqin diqqət yetirirsiniz ki, mən «muxtariyyət» sözünü işlətmirəm, çünki Lissabon zirvə görüşünün sənədində «yüksək dərəcədə özünüidarə» yazılmışdır. Yəni artıq bunun özü hər cür muxtariyyətdən yüksəkdir.

Özünüidarə statusuna gəldikdə isə, mən dəfələrlə demişəm ki, o, dünya praktikasında mövcud olan hər hansı statusdan çox yüksək ola bilər. Amma bu məsələni, tutalım, təfsilatı ilə göstərmək üçün belə bir fikirlə razılaşmaq lazımdır ki, Dağlıq Qarabağ özünüidarənin yüksək dərəcəsinə Azərbaycanın tərkibində malik olmalıdır. Onda özünüidarənin bu yüksək dərəcəsinin nə demək olduğunu təfsilatı ilə göstərmək olar. İrəliyə doğru getmək və kompromislər axtarıb tapmaq olar. Tutalım, Ermənistan nəyəsə yox deyəcək, nəsə onun xoşuna gəlməyəcək, - onda güzəştə getmək olar. Azərbaycan nəyəsə yox deyəcək, bu yaramır, - onda güzəştə getmək olar. Hər halda, özünüidarənin yüksək dərəcəsi faktının özü böyük azadlıqdır, başa düşürsünüz, bu, müstəqillik həddindədir.

Aleksey Manvelyan (*Ermənistan*): Mənim belə bir sualım var. Siz hansı status verilməsindən və sairdən danışırsınız. Erməni tərəfi isə bunun danışıqlar stolu arxasında, özü də Qarabağ nümayəndələrinin iştirakı ilə müzakirə olunmasında təkid edir. Hansısa problemləri bir növ kənara qoyub, onları danışıqlara çağırmaq, haradasa əyləşdirmək və sizin söylədiklərinizin hamısını demək, sonra da onların buna necə reaksiya verdiyinə baxmaq olmazmı? Siz Ermənistanla danışırsınız. Orada isə təkid edirlər ki, onlarla da hesablaşsınlar. Bir dəfə hesablaşın və baxın, görün bu, bəlkə də nəyəsə gətirib çıxaracaq.

Heydər Əliyev: Bilirsiz, cavan oğlan, səmimi olmaq lazımdır. Bu nə deməkdir? Dağlıq Qarabağ defakto artıq Ermənistanın tərkibindədir. Buna nə qədər sübut var. Ermənistanın indiki prezidenti Dağlıq Qarabağın keçmiş rəhbəridir.

Bir nazir Dağlıq Qarabağdandır, başqa bir nazir Dağlıq Qarabağdandır. Artıq burada hər şey qarışmışdır. Bununla belə, siz bizə deyirsiniz, təkcə siz yox, bir çox başqaları da deyirlər, siz də təkrar edirsiniz ki, buyurun, Dağlıq Qarabağla danışın. Əvvəla, Dağlıq Qarabağ müstəqil deyildir, ikincisi, deyure Azərbaycanın bir hissəsi olaraq Azərbaycanla əlaqə yaratmağı heç cür istəmir. Buna görə də əgər Ermənistan bu prosesdə iştirak etməsəydi, əgər o, Dağlıq Qarabağı özünə defakto birləşdirməsəydi, onda, əlbəttə, birbaşa əlaqəyə getməkdən ayrı yol olmazdı. Başqa cür ola da bilməzdi.

Elə götürün abxaz münaqişəsini. Axı Abxaziyanın arxasında açıq-aşkar hər hansı bir ölkə yoxdur, baxmayaraq ki, əslində kimsə kömək edir, biz bunu bilirik. Buna görə də indiki halda, Gürcüstan hökuməti, rəhbərliyi Abxaziya rəhbərləri ilə dialoq aparır. Əks halda dialoq kiminlə aparılmalıdır? Bizdə isə lap əvvəldən münaqişə heç də təkcə Qarabağla Azərbaycan arasında deyildir, bu, Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında gedən münaqişədir.

Əlbəttə, əgər indi Ermənistan kənara çəkilib desə ki, mən tamamilə kənarlaşıram, Dağlıq Qarabağın işlərinə qarışmıram, buyurun, onlarla müzakirə edin, - *onda başqa bir yol olmayacaq* və biz onlarla müzakirə edəcəyik. Lakin bizim üçün başlıca subyekt Ermənistan olduğuna görə, biz onunla razılığa gəlmək istəyirik. Bununla bərabər, əgər biz Ermənistanla müəyyən razılaşmaya nail olsaq ki, iş, necə deyərlər, məsələnin həllinə doğru gedir, onda Dağlıq Qarabağ bunda, şübhəsiz, fəal iştirak edəcəkdir. Başa düşün və razılaşın ki, bizə indi bunun qətiyyən heç bir əhəmiyyəti yoxdur. Buna görə də deyəndə ki, bilirsiniz, gedin Dağlıq Qarabağla razılığa gəlin, onda bunu bizi bu işdən sadəcə olaraq uşaqlaşdırmaq cəhdi kimi qəbul edirik.

V i g e n Ç e t e r y a n (*İsveçrə*): Cənab prezident, mən Cenevrədənəm, sualı ingiliscə vermək istəyirəm. Siz istərdi-

nizmi ki, NATO-nun Azərbaycanda bazası olsun? Necə bilirsiniz, bu bazalar Azərbaycanın gələcək təhlükəsizliyinə kömək edəcəkmi?

Heydər Əliyev: Bəs siz istəyirsinizmi ki, Azərbaycanda NATO-nun bazaları olsun?

Jurnalist: Təəssüf ki, bu barədə öz mövqeyimi hələlik açıqlamaq istəməzdim.

Heydər Əliyev: Bilirsiz, Azərbaycan, görünür, onunla fərqlənir ki, müstəqillik əldə etdiyi vaxtdan bəri bu müstəqilliyi tam həcmdə həyata keçirir. Azərbaycanda xarici qoşunlar, xarici hərbi bazalar yoxdur. Hərçənd Rusiya tərəfindən cəhdlər olmuşdur. Məsələn, Rusiya sərhəd qoşunlarının komandanı general Nikolayev vardı, o, 2-3 il buna çalışdı, buraya gəlib-gedir və deyirdi ki, bilirsinizmi, gəlin, İranla sərhədi birlikdə qoruyaq. Soruşuram: Niyə? O deyir: Bilirsinizmi, oradan hansısa cinayətkarlar, casuslar, başqaları gəlir, biz MDB-ni qorumalıyıq. Mən deyirəm: MDB ittifaqdır, burada hər bir dövlət öz sərhədlərini qoruyur və beləliklə, biz MDB məkanını da qoruyuruq. Onların hətta belə bir termini var, - hüquqşünas kimi sizin hüquqla əlaqəniz var, - MDB-nin xarici sərhədləri. MDB-nin xarici sərhədləri nə olan şeydir? Mən dedim: Mənə izahat verin – MDB-nin xarici sərhədləri nə olan şeydir? Sən demə, Ermənistanda Türkiyə ilə sərhədi Ermənistan sərhədçiləri ilə yanaşı, Rusiya sərhədçiləri də qoruyurlar və bu, MDB-nin xarici sərhədləri adlanır. Mən deyirəm: Müsaidənizlə, bax, Avropa Birliyi var, o, hətta müstəqil Dövlətlər Birliyindən də sıx birlikdir. Nədir, onların orada xarici cəhdi var? Avropa Birliyində bəlkə də üstün mövqe tutan bir ölkə kimi Almaniya deyir ki, bilirsinizmi, gəlin, Çexiyanın sərhədini də, İtaliyanın sərhədini də birgə qoruyaq? Xeyr.

Başa düşürsünüzmü, bu anlaşılmazlıqdır, cəfəngiyyatdır. Amma di gəl ki, belə fikirlər geniş yayılmışdır. Buna görə də

o, buraya gəlir, bizə deyirdi ki, bilirsinizmi, gəlin biz sizinlə MDB-nin xarici sərhədlərini qoruyaq. Mən ona dedim: Bilirsiz, siz öz sərhədinizi etibarlı surətdə qorumağa çalışın, biz isə öz sərhədimizi bacardığımız kimi qoruyacağıq. Yaxud, məsələn, o, təklif irəli sürürdü: Gəlin Xəzərdə sərhəd qoyaq və qoruyaq. Mən deyirəm: Kimdən? İrandan. Mən deyirəm. Sizdə məlumat varmı ki, İran Xəzər dənizində nə isə etmək istəyir? Yoxdur. Yeri gəlmişkən, Xəzər dənizində İranla Sovetlər İttifaqı arasında köhnə sərhəd var. Bu ad sizə bəlkə də məlum deyildir – bu, Azərbaycandakı Astara məntəqəsindən Türkmənistandakı Həsənqulu məntəqəsinədək olan məhz həmin xətt üzrə sərhəddir. Mən Azərbaycanda çox işləmişəm, bunların hamısını yaxşı bilirəm. Bütün illər ərzində, on illərlə Sovetlər İttifaqı Xəzər dənizinin həmin hissəsini Astara-Həsənqulu xətti boyunca İrandan qorumuşdur. Keşikçi katerlərindən, təyyarələrdən və s. istifadə edirdilər. Hərçənd görürdüm ki, o vaxtlar Xəzər dənizində İranın hətta heç bir hərbi gəmisi yox idi. Bir dənə də hərbi gəmisi yox idi. Olmaya, İran Sovetlər İttifaqının sərhədini balıq ovlayan gəmi ilə və ya başqa bir gəmi ilə pozacaqdı? Amma buna qüvvə sərf edirdilər.

Sonra o, mənə təklif etdi: İcazə verin, biz bu sərhədi qoruyaq. Mən deyirəm: Nə üçün? Mən indiki halda oradan təhlükə olduğunu görmürəm. Yoxsa, siz isə burada olmağınızı təmin etmək üçün nə isə bir iş görmək istəyirsiniz? Niyə? Bu sizin nəyinizə gərəkdir?

İndi Rusiya ilə İran ümumiyyətlə, elə dostdurlar ki, bilmirəm, onlara sərhədi qorumaq lazımdır, ya yox.

Düzünü bilmək istəsəniz, sizin sualınıza mənim fikrim belədir. Yəni dövlətin tam suverenliyi, müstəqilliyi tələb edir ki, dövlət öz ərazisinin sahibi olsun.

Qalina Petreşvili (*Gürcüstan*): Cənab prezident, məni ölkənizdə daxili vəziyyət maraqlandırır. Siz müxalifəti

necə qiymətləndirir və onunla münasibətləri necə qurursunuz? Sağ olun.

Heydər Əliyev: Burada necə müxalifət olduğunu yəqin siz özünüz bilirsiniz. Siz burada olmusunuz, yəqin ki, görüşmüşsünüz. Müxalifət – demokratik dövlətdə normal təzahürdür. Bizdə müxalifət var. Amma nə deyə bilərəm? Təəssüf ki, o, əsl siyasi müxalifət səviyyəsinədək hələ yetişməmişdir. Mən istəyirəm ki, müxalifət həqiqətən sanballı olsun, necə deyərlər, sanballı məsələlər barəsində düşünsün. Əgər hər bir kiçik partiya oturub, hakimiyyəti ələ keçirmək barədə, hakimiyyəti devirmək barədə düşünürsə... Bilmirəm, bizdə nə qədər partiya var, gərək ki, 40 partiya var. Belə kiçik bir ölkədə 40 partiya. Bilmirəm, Gürcüstanda nə qədərdir?

Jurnalist: 127.

Heydər Əliyev: 127? (gülür). Siz rekord vurmusunuz. İstəmirəm ki, sizə çataq. Bununla belə, demək istəyirəm: Axı nə ediriksə, təzə-təzə edirik. Mən həmişə demişəm və bu gün sizin qarşınızda da deyirəm: Hesab etmək olmaz ki, bəli, Sovetlər İttifaqı süquta uğradı, biz müstəqillik qazanmışıq, indi biz bir sistemdən başqasına, özü də yüksək inkişaf səviyyəsinə malik olan sistemə sıçrayıb keçmişik. Məsələn, götürün Avropa ölkələrini – onlar demokratiya yoluna doğru necə getmişlər, orada həqiqətən demokratik hakimiyyətin və normal, sivilizasiyalı müxalifət olması üçün onlara neçə illər, onilliklər lazım gəlmişdir. Lakin Avropa xalqlarının mentalitetinin bizim, - mən öz xalqımızdan danışıram, - mentalitetimizlə müqayisədə bu baxımdan daha çox şeyə imkan vermiş olduğunu və imkan verdiyini nəzərə alsaq, onda bir görün ki, bizə nə qədər vaxt, nə qədər məsafə gərəkdir. Buna görə də bu gün deyəndə ki, Azərbaycanda demokratiya və sair yoxdur... Azərbaycanda demokratiya var. Amma Almaniyada olduğu kimi demokratiya yoxdur, ola da bilməz. Almaniya bu demokratiyaya doğru neçə illərlə, neçə onilliklərlə get-

mişdir. Lakin biz bu demokratiyaya doğru gedirik. Bax, buna görə müxalifət də yetişməli, yaşa dolmalı, daha sanballı olmalıdır. Onlar bu yoldadır. Arzum budur ki, onlar inkişaf etsinlər.

Mark Qriqoryan (*Ermənistan*): Xahiş edirəm deyəsiniz, Azərbaycanda, xüsusən Bakıda yaşayan bir neçə min erməni barəsində dövlət siyasəti varmı? Məsələ bundadır ki, mənə belə bir hadisə məlumdur, Nizami küçəsində yaşayan Anjela Ohanovanı qonşuları bir neçə dəfə, dəfələrlə döymüşlər, məhkəmədə onun sənədlərini qəbul etmirlər, çünki o ermənidir, o, azərbaycanlıya ərə getmək istəyir, lakin VVAQ-da sənədlərini qəbul etmirlər, ona görə ki, ermənidir. Bu milli azlığın müdafiəsi üçün dövlət siyasəti varmı?

Heydər Əliyev: Var. Belə siyasət var, o, mənim tərəfimdən - Azərbaycan prezidenti tərəfindən dəfələrlə bəyan edilmişdir. Taleyin hökmü ilə Azərbaycanda yaşayan ermənilər qarışıq nigahda olan ermənilərdir, yəni arvad erməni, ər isə azərbaycanlıdır. Belədir? Mən deyirəm: Yaxşı, bəs uşaqlar? Axı uşaqlarda da həm azərbaycanlı, həm də erməni qanı var. Onlardan heç kim – nə azərbaycanlıya ərə getdiyinə görə erməni, nə də ermənіyə evləndiyinə görə azərbaycanlı təqsirkar deyildir. Xüsusən də bu qarışıq nigahdan doğulmuş uşaqlar.

Mən qəti şəkildə xəbərdarlıq etmişəm. Azərbaycanda yaşayan ermənilərin hüquqlarının pozulduğu barədə mənə bir dənə də olsun fakt məlum deyildir. Keçmişdə mənimlə işləmiş və bu gün haradasa işləyən bir çox rəhbər əməkdaşlar tanıyıram ki, onların arvadları ermənidir və heç bir problem yoxdur. Əgər həmin Anjela ilə əlaqədar nə isə bir hadisə baş veribsə, onu sadəcə olaraq araşdırmaq lazımdır. Yazın, baxarıq.

Jurnalist: Mən sizdən çox xahiş edirəm.

Heydər Əliyev: Yaxşı, aydınlaşdırmaq lazımdır. Biz tədbir görərik. Siz isə arxayın ola bilərsiniz və Ermənistanda da deyin ki, tam təminat var. Heç bir sıxışdırma ola bilməz.

Onlar münaqişəyə görə təqsirkar deyillər və əziyyət çəkməməlidirlər.

Vaxram Ağacanyan: Heydər Əliyeviç, Siz Karen Seropoviç Dəmirçyanın parlamentimizin sədri seçilməsinə necə baxırsınız? Münaqişənin nizama salınması baxımından bu şəxsiyyətə ümumiyyətlə hansısa ümidlər bəsləyirsinizmi?

Heydər Əliyev: Bilirsiniz, biz suveren dövlətik, xalqın seçiminə hörmət etməliyik. Mən bu mövqeni əsas tuturam. İndiki halda hesab edirəm ki, erməni xalqı Karen Seropoviç Dəmirçyana böyük etimad göstərərək, onu Ermənistan parlamentinin sədri seçmişdir. Bundan əvvəl o, prezident vəzifəsinə səsə qoyulmuşdu və mətbuatın məlumatından bilirdik ki, çoxlu səs toplamışdı. Məncə, onlar Robert Koçaryanla hətta ikinci tura qalmışdılar. Doğrudurmu? Bu nəyi göstərir? Bu, onun siyasi populyarlığını, xalqın ona münasibət, etimad bəslədiyini göstərir. Mən buna qoşuluram. Xalqın iradəsi hər şeydən yüksəkdir.

O ki qaldı Karen Seropoviç Dəmirçyana, mən onu çoxdan tanıyıram. 1969-cu ildə mən Azərbaycanda MK-nın birinci katibi işləməyə başladım. Üç ildən sonra – 1972-ci ildə Gürcüstanda Eduard Amvrosiyeviç MK-nın birinci katibi seçildi, iki ildən sonra – 1974-cü ildə isə Karen Seropoviç Ermənistanda MK-nın birinci katibi seçildi. Deməliyəm ki, biz çox yaxşı əməkdaşlıq edirdik. Çox yaxşı. Bir-birimizə kömək edir, bir-birimizə qonaq gedirdik, başa düşürsünüz, ünsiyyətdə olurduq.

Ermənistandakı görüşlərimi xatırlayıram. Məni necə ruh yüksəkliyi ilə, necə hörmətlə qarşılayırdılar, özü də təkcə rəsmi şəxslər deyil. Mən kollektivlərdə, zavodlarda, fabriklərdə olurdum. Yadımdadır, bir dəfə ayaqqabı fabrikinin ərazisində böyük bir mitinq keçirildi, Eduard Şevardnadze də, Karen Dəmirçyan da, mən də orada idik. Biz çıxış etdik, Cənubi Qafqaz xalqlarının dostluğundan danışdıq. Karen

Seropoviç burada, Azərbaycanda dəfələrlə olmuşdur. Xalq onu böyük hörmət hissi ilə qarşılayırdı. Odur ki, həyatın bu səhifələrini unutmaq olmaz. O vaxtlar biz çox işlər gördük. Siz, cavanlar bilməlisiniz: respublikalarımızın indi onlara müstəqil yaşamağa imkan verdiyi elmi, iqtisadi, mədəni potensiala malik olması üçün biz o vaxtlar çox işlər görmüşük. Bunda isə insanların, o cümlədən, hesab edirəm, Ermənistanda Karen Dəmirçyanın da xidmətləri var. Yəqin ki, insanlar bunu unutmurlar. Başqa cür ola bilərmi? Bir fikir verin, 1988-ci ildə o, siyasi meydandan getdi. Birdən 1999-cu ildə, on bir ildən sonra insanlar ona çox böyük etimad göstərdilər. Deməli, bu unudulmur. Bu da qanunauyğundur, bu da doğrudur.

Qayane Movsesyan: Kiçik bir sual. Əgər hafizəm məni aldatmırsa, Vaşinqtonda Ermənistan prezidenti ilə görüşdə siz sərhəddə görüşmək barədə razılığa gəldiniz. Bu görüş nə vaxt olacaq?

Heydər Əliyev: Biz görüşmək barədə razılığa gəldik, amma sərhəddə yox. Biz Lüksemburqda görüşmək barədə razılığa gəlmişdik. Amma sizə məlum olan səbəbə görə mən oraya gedə bilmədim. Düşünürəm ki, yaxın vaxtlarda biz görüşmək üçün yer tapacağıq və görüşüb, Vaşinqtonda apardığımız dialoqu davam etdirəcəyik.

Qalina Petreşvili: Lap kiçik bir sual. Siz özünüzü necə hiss edirsiniz?

Heydər Əliyev: Siz məni necə görürsünüz?

Qalina Petreşvili: Yaxşı.

Yerdən səslər: Çox gözəl. Əla.

Heydər Əliyev: Mən sizin xoşunuza gəlirəmmi?

Qalina Petreşvili: Bəli.

Heydər Əliyev: Bax, bu mənim cavabımdır. Sağ olun, sizə uğurlar arzulayıram. Görüşənədək.

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MİLLİ BAYRAMI – 4 İYUL İSTİQLALİYYƏT GÜNÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

3 iyul 1999-cu il

Hörmətli cənab səfir!
Hörmətli xanımlar və cənablar!

Mən sizi, Amerika Birləşmiş Ştatlarının xalqını Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə təbrik edirəm. Amerika Birləşmiş Ştatlarının xalqına sülh, əmin-amanlıq, rifah arzulayıram.

Amerika Birləşmiş Ştatları, Amerika xalqı öz müstəqilliyini əldə edəndən sonra tarixi nöqteyi-nəzərdən qısa bir zamanda böyük nailiyyətlər qazanmış və Amerika Birləşmiş Ştatları dünyanın qüdrətli dövlətinə çevrilmiş, hüquqi, demokratik dövlət olaraq başqa ölkələr, xalqlar üçün də örnək, nümunə olmuşdur.

Məmnuniyyətlə qeyd edirəm ki, son bir neçə il ərzində Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında səmimi dostluq, tərəfdaşlıq əlaqələri yaranmışdır və bu əlaqələr sürətlə inkişaf edir. Biz Azərbaycanda buna çox böyük əhəmiyyət veririk və Amerika Birləşmiş Ştatları – Azərbaycan əlaqələrinin bütün sahələrdə inkişaf etməsi üçün öz səylərimizi qoyuruq.

Məlumdur ki, artıq bu sahədə böyük nailiyyətlər əldə edilibdir. Xüsusən Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında iqtisadi əlaqələr genişlənmişdir. Amerika Birləşmiş Ştatlarının neft şirkətləri Azərbaycanın zəngin neft yataqla-

rından müştərək istifadə olunması üçün Azərbaycana maraq göstərmiş, bir çox müqavilələr imzalanmış və bu gün məmnuniyyətlə deyə bilərəm ki, bu müqavilələr uğurla həyata keçirilir.

Ancaq Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında iqtisadi əlaqələr təkcə neft sektoru ilə məhdudlaşmır. Burada cənab səfir dedi ki, 30 şirkət bugünkü mərasimin keçirilməsinə yardım edibdir. Şübhəsiz ki, bunların içərisində təkcə neft şirkətləri yox, bir çox başqa şirkətlər də var. Mən hesab edirəm ki, neft-qaz sənayesi sahəsində əməkdaşlığımız başqa sahələrə də geniş yayılacaq və Amerika Birləşmiş Ştatlarının iş adamları, biznesmenləri, şirkətləri Azərbaycanın başqa sahələrinə də investisiya qoyacaq, ölkəmizin böyük imkanlarından istifadə edəcəklər.

Dövlətlərimiz arasında siyasi əlaqələr də sürətlə inkişaf edir. Güman edirəm ki, bundan sonra da inkişaf edəcək və Amerika Birləşmiş Ştatları – Azərbaycan əlaqələrinin böyük gələcəyi olacaqdır. Amerika Birləşmiş Ştatları dünyada qüdrətli dövlət olaraq, bütün dövlətlərə, ölkələrə örnək olaraq hər bir ölkəyə öz yardımını göstərir. Biz bu yardımı hiss edirik, bizim bu yardıma ehtiyacımız var və güman edirəm ki, gələcəkdə bu yardım daha da geniş olacaqdır. Bizim üçün əsas məsələ Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması, bir milyondan artıq Azərbaycan vətəndaşının öz yerinə-yurduna qayıtmasıdır. Amerika Birləşmiş Ştatları Rusiya və Fransa ilə bərabər, Minsk qrupunun həmsədri kimi, bu barədə çox səylər qoyub və güman edirəm ki, bundan sonra da bu işdə öz imkanlarından istifadə edəcəkdir.

Aprel ayında mən Vaşinqtonda olduğum zaman Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klintonla, dövlət katibi xanım Olbraytla, bir çox konqresmenlər və senator-

larla görüşlər keçirdik, çox əhəmiyyətli, məzmunlu və mənalı danışıqlar apardıq.

Mən Vaşinqtona səfərimdən və xüsusən NATO-nun 50 illik yubileyində iştirakımdan və orada apardığım danışıqların hamısından həddindən ziyadə məmnunam. Hesab edirəm ki, bu görüşlər, danışıqlar Amerika – Azərbaycan əlaqələrinin yeni mərhələsinin başlanğıcıdır. NATO-nun 50 illik yubileyi çox yüksək səviyyədə keçdi və bunda, şübhəsiz ki, Amerika Birləşmiş Ştatlarının rolunu xüsusi qeyd etmək lazımdır.

Axır zamanlar Amerika Birləşmiş Ştatları və NATO-ya daxil olan başqa dövlətlər Yuqoslaviyada – Kosovoda Yuqoslaviya hökuməti və onun başçısı Miloşeviç etnik albanlara qarşı təcavüz etdiklərinə görə, etnik təmizləmə apardıqlarına görə o xalqın, o vətəndaşların müdafiəsinə qalxmışlar. Biz bunu bəyənirik. Çox sevindirici haldır ki, bu əməliyyat artıq öz uğurlarını verir. Amerika Birləşmiş Ştatlarının dövləti bu dəfə də insan haqlarının, hüquqlarının qorunması üçün böyük işlər gördüyünü dünyaya nümayiş etdirdi.

Ən nəhayət, mən Amerika Birləşmiş Ştatlarında olduğum zaman, bildiyiniz kimi, xəstəxanaya getməli oldum və orada məni müalicə etdilər. Amerika Birləşmiş Ştatlarının hökuməti müalicəmə əvvəldən axıra qədər nəzarət edirdi. Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton, vitse-prezident cənab Albert Qor, dövlət katibi xanım Olbrayt bu barədə mənə çox böyük diqqət və qayğı göstərmişlər. Bunun sayəsində də mənim müalicəm uğurlu keçibdir və tezliklə müalicə olunub vətənimə dönmüşəm. Bu, mənim üçün həyatımda ən böyük hədiyyədir. Cənab səfirin dediyi kimi, eyni zamanda Azərbaycan xalqına böyük hədiyyədir. Buna görə mən bu fürsətdən istifadə edib bir daha təşəkkürümü, minnətdarlığımı bildirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bizim şəxsi əlaqələrimiz, dövlətlərarası əlaqələr bun-

dan sonra daha da səmimi, daha da yaxın, daha da yüksək olacaqdır.

Çox məmnunuq ki, Amerika Birləşmiş Ştatları bizim regionda Azərbaycanı özünə vacib bir ölkə hesab edir. Ölkələrimiz arasında dostluq, tərəfdaşlıq əlaqələri yaranıbdır. Biz bundan sonra da çalışacağıq ki, bu fikri, bu işləri davam etdirək və əlaqələrimiz daha da yüksəlsin.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyi və səfir cənab Eskudero bizim bu əlaqələrimizin inkişaf etməsində çox böyük xidmətlər göstərirlər. Mən bunu yüksək qiymətləndirirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyi bundan sonra da öz fəaliyyətini bu istiqamətdə davam etdirəcəkdir. Azərbaycan hökuməti, dövləti isə bu münasibətə, şübhəsiz ki, ona bərabər münasibət göstərəcəkdir.

Bu bayram münasibətilə sizi bir daha təbrik edirəm. Amerika xalqına səadət, uğurlar arzulayıram. Amerikanın Azərbaycandakı səfirliyinə bu gözəl işində yeni-yeni uğurlar arzu edirəm. Sağ olun.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ KOFİ ANNANA

Hörmətli baş katib, imkandan istifadə edərək, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit edilmiş insan hüquqlarının və əsas azadlıqlarının təmin edilməsi kimi yüksək amala nail olmaq üçün səy göstərdiyinizə və ölkəmizin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin məqsədlərinə daim sadiq olduğu barədə verdiyiniz qiymətə görə Sizə minnətdarlığımı bildirirəm.

Bununla belə, qeyd etməyi zəruri hesab edirəm ki, Azərbaycan Respublikası mütərəqqi bəşəriyyətlə birlikdə ümumdünya bəyannaməsinin müddəalarının həyata keçirilməsinə yönəldilmiş tədbirlərdə fəal iştirak edir.

Dövlət müstəqilliyini əldə etmiş Azərbaycan Respublikası demokratik prinsiplərə, insan hüquqlarına və əsas azadlıqlarına hörmət və riayət edilməsinə sadiq olduğunu bəyan etmişdir.

Ümumdünya bəyannaməsinin məqsəd və vəzifələrini yerinə yetirən Azərbaycan Respublikası 125 beynəlxalq konvensiyalara, o cümlədən insan hüquqlarının müdafiəsi sahəsində çoxtərəfli müqavilələrə – «İqtisadi, sosial və mədəni hüquqlar haqqında beynəlxalq pakt»a, «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt»a, «İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında beynəlxalq konvensiya»ya, «İşgəncələrə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalara qarşı konvensiya»ya, «Qadınlara qarşı ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında konvensiya»ya və «Uşaq hüquqları haqqında konvensiya»ya qoşulmuşdur.

İnsan hüquqları sahəsində beynəlxalq sazişlərdə və Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş yaşamaq hüququna təminat verilməsi məqsədi ilə Şərqdə ilk dəfə olaraq 1998-ci il fevralın 10-da Azərbaycan Respublikasında ölüm cəzasının ləğv edilməsi haqqında qanun qəbul edilmişdir. 1998-ci il dekabrın 11-də isə ölkəmiz «Mülki və siyasi hüquqlar haqqında beynəlxalq pakt»ın ölüm cəzasının ləğv edilməsinə yönəldilmiş ikinci fakültativ protokoluna qoşulmuşdur.

Əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin olunması, onların müdafiəsi məqsədi ilə Azərbaycan Respublikasında müvafiq qanunlar, prezidentin fərman və sərəncamları, o, cümlədən «Məlumat azadlığı haqqında», «Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikası prezidentinin «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında», «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» fərmanları, «Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında», «İnsan hüquqlarının müdafiəsinə dair dövlət proqramının təsdiq edilməsi haqqında» sərəncamları və digər normativ-hüquqi aktlar qəbul edilmişdir.

Hal-hazırda beynəlxalq təşkilatların dəstəyi ilə insan hüquqlarının müdafiəsi sahəsində bir sıra qanunların layihələri hazırlanır.

Ölkəmiz insan hüquqlarının müdafiəsi sahəsində nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin İnsan Hüquqları Üzrə Ali Komissarının İdarəsi ilə əməkdaşlığı yüksək qiymətləndirir və daim inkişaf etdirir.

Azərbaycan Respublikası hökuməti ilə BMT-nin İnsan Hüquqları üzrə Mərkəzi arasında 1998-ci il avqustun 18-də

imzalanmış «İnsan hüquqlarının inkişaf etdirilməsi və müdafiəsi üzrə potensialının gücləndirilməsi və infrastrukturunun yaradılması»na dair layihə sənədinin əhəmiyyətini xüsusilə vurğulamaq istərdim.

Son illər ərzində Azərbaycan dilində orta və ali təhsil müəssisələri üçün insan hüquqlarının müdafiəsi sahəsində müxtəlif dərsliklər və tədris vasitələri dərc edilmişdir.

Azərbaycan Respublikası Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin bütün maddələri ilə yanaşı, 30-cu maddədə əks olunmuş müddəaları tamamilə dəstəkləyir və onların həyata keçirilməsinə səy göstərir.

Bütün yuxarıda göstərilənlərlə bərabər, beynəlxalq ictimaiyyətin və Birləşmiş Millətlər Təşkilatının nəzərini bir daha Ermənistanın ölkəmizə qarşı təcavüzü nəticəsində bir milyondan artıq soydaşlarımızın Ermənistandakı və Azərbaycanın işğal olunmuş ərazilərindəki daimi yaşayış yerlərindən didərgin salınmasına, etnik təmizləmə və ayrıseçkiliyə, bununla da insan hüquq və azadlıqlarının kütləvi surətdə pozulmasına yetirmək istərdim.

Göstərilənləri qeyd etməklə, öz doğma yurdlarından qovulmuş azərbaycanlıların pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədi ilə işğal edilmiş Azərbaycan ərazilərinin azad olunması, qaçqınların və məcburi köçkünlərin öz torpaqlarına tezliklə qayıtması üçün səylərinizi əsirgəməməyə və Azərbaycan xalqının qanuni mənafelərini dəstəkləməyə çağırıram.

Dərin hörmətlə,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *5 iyul 1999-cu il*

BAM-ın 25 İLLİYİNİN KEÇİRİLMƏSİ ÜZRƏ TƏŞKİLAT KOMİTƏSİNƏ

Baykal – Amur Magistralının əziz inşaatçıları!

XX əsrin böyük tikintilərindən biri olan Baykal – Amur Magistralının inşasına başlanmasının 25 illiyi ilə əlaqədar ən səmimi təbriklərimi qəbul edin.

Sovet İttifaqının rəhbərlərindən biri, SSRİ Nazirlər Sovetinin xüsusi komissiyasına başçılıq etmiş bir şəxs kimi, mənə 1984-cü ildə magistralın çəkilmiş hissəsindən keçmək və tikintidə iştirak etmiş adamların bir çoxu ilə şəxsən görüşmək nəsib olmuşdur. Sibirin və uzaq Şərqin təbii ehtiyatlarından istifadə edilməsi və məhsuldar qüvvələrinin inkişafının sürətləndirilməsi ilə əlaqədar BAM-a böyük ümidlər bəslənilirdi. SSRİ-nin süqutuna gətirib çıxarmış mürəkkəb siyasi proseslər 1984-cü ildə magistralın tikintisi üzrə SSRİ Nazirlər Soveti komissiyasının səyyar iclasında nəzərdə tutulanların hamısını tam həcmdə həyata keçirməyə imkan vermədi.

Mənim xatirimdə BAM mənən güclü, böyük işlərə qadir insanları birləşdirən bir tikinti kimi qalmışdır. Biz fəxr edirik ki, bu magistralın tikintisində Azərbaycanın bir çox nümayəndələri iştirak etmiş, onlar digər obyektlər sırasında Ulkan şəhərini də salmışlar.

BAM tayqa, yolsuzluq və daimi donuşluq şəraitində işləmiş insanların, dostluq və qardaşlıq amallarına sadiq insanların mərdlik və dəyanətinin nümunəsi kimi tarixdə həmişəlik qalacaqdır.

Bu tarixi magistralı inşa etmiş adamların hamısına, bu gün BAM-ın şəhər və qəsəbələrində yaşayıb çalışanların hamısına səadət, cansağlığı və uğurlar arzu edirəm.

Ən yaxşı arzularla,

HEYDƏR ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, *7 iyul 1999-cu il*

AZƏRBAYCAN RESPUBLİKASI ƏSİLZADƏLƏR MƏCLİSİNİN SƏDRİ, XALQ YAZIÇISI, MİLLİ MƏCLİSİN DEPUTATI MAQSUD İBRAHİMBƏYOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

Prezident sarayı

7 iyul 1999-cu il

Maqsud İbrahimbəyov: Möhtərəm prezident! Sizi səmimi-qəlbdən salamlayıram. Siz müalicədən qayıdandan sonra birinci dəfədir Sizi görürəm və çox şadam ki, Allaha şükür, səhhətiniz yaxşıdır. Siz bizim dahi rəhbərimiz, dahi prezidentimizsiniz. Fəxr edirəm ki, bu gün mən Azərbaycan Respublikası Əsilzadələr Məclisinin adından Sizə 1 nömrəli şəhadətnaməni təqdim edirəm. Çünki bir növrəli əsilzadə Sizsiniz.

Heydər Əliyev: Əgər siz belə qiymət vermisinizsə, təşəkkür edirəm. Deməli, bu məclis artıq fəaliyyətə başlayır?

Maqsud İbrahimbəyov: Bəli, məclis yaradılıb, ilin sonunadək onun qurultayı keçiriləcəkdir.

Heydər Əliyev: Siz məclisin yaradılması barədə mənim fikrimi öyrənmişdiniz və mən demişdim ki, yaradın. Çünki bu, Azərbaycanın bu günü və gələcəyi üçün lazımdır. Məni bir sual maraqlandırır. Əsilzadələr məclisinə üzvlər qəbul etmək üçün hansı meyarlar əsas götürülür?

Maqsud İbrahimbəyov: Biz vətəni, prezidenti sevən əsl ziyalıları qəbul edirik. Üzvlər çoxdur, amma hələlik heç kimə şəhadətnamə verməmişik. Qəbul olunmaq istəyənlər də çoxdur.

Heydər Əliyev: Sizin bu təşəbbüsünüzə uğurlar arzulayıram. Arzu edirəm ki, yaradılan Əsilzadələr məclisi gələcəkdə Azərbaycanın həm dövlətinin, həm cəmiyyətinin naminə, bizim milli ənənələrimizə uyğun, amma eyni zamanda demokratik, hüquqi, dünyəvi dövlət prinsipləri əsasında fəaliyyət göstərsin və Azərbaycan xalqına öz yardımını göstərə bilsin.

(Maqsud İbrahimbəyov prezident Heydər Əliyevə Azərbaycan Respublikası Əsilzadələr Məclisi üzvünün 1 nömrəli şəhadətnaməsini, habelə Əsilzadələr Məclisi adından hədiyyə olaraq qədim xəncər təqdim etdi).

AVSTRİYA RESPUBLİKASININ VİTSE-KANSLERİ, XARİCİ İŞLƏR NAZİRİ VOLFQANQ ŞÜSSEL BAŞDA OLMAQLA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

Prezident sarayı

9 iyul 1999-cu il

H e y d ə r Ə l i y e v: Hörmətli cənab nazir, hörmətli qonaqlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Bu, Avstriya xarici işlər nazirinin Azərbaycana ilk səfəri olduğuna görə bunu çox əlamətdar hadisə hesab edirəm.

Azərbaycan gənc müstəqil dövlətdir. Ona görə də biz çox maraqlıyıq, çox istəyirik ki, Azərbaycanı daha da yaxından tanısınlar, onun bugünkü gününü bilsinlər. Buna görə də belə səfərlərin bizim üçün çox əhəmiyyəti var.

Avstriya iqtisadi cəhətdən, bütün başqa sahələrdə dünyanın inkişaf etmiş ölkələrindən biridir. İndi Avropada Avstriyanın mövqeyi çox əhəmiyyətlidir. Ona görə də mən hesab edirəm ki, Avstriyanın xarici işlər nazirinin Azərbaycana səfəri, o cümlədən onu müşayiət edən nümayəndə heyətinin səfəri Azərbaycanı tanımaq, əlaqələrimizin inkişafı üçün daha da böyük imkanlar yaradacaqdır.

Biz Avstriya ilə əlaqələrimizə böyük əhəmiyyət veririk və bunların bütün sahələrdə inkişaf etməsini arzulayırıq. Şübhəsiz, öz tərəfimizdən lazımi addımlar atmalıyıq ki, bu əlaqələr daha geniş, daha yüksək səviyyədə olsun. Cənab nazir, sizin

səfəriniz təkcə Azərbaycana deyil, Cənubi Qafqaz ölkələrinə, respublikalarınadır. Bildiyimə görə, siz Ermənistanda, Gürcüstanda olmusunuz, indi də Azərbaycandasınız. Hesab edirəm ki, səfərinizi bu cür qurmaq çox əhəmiyyətlidir, çünki təkcə bir ölkə ilə yox, Cənubi Qafqaz respublikaları ilə tanış olub bu ölkələrlə Avstriyanın əlaqələrini inkişaf etdirmək, şübhəsiz ki, sizin üçün də vacibdir. Buna görə də hesab edirəm ki, qonşu ölkələrdə, yəni Ermənistanda, Gürcüstanda aldığınız təəssüratlar, Azərbaycanda alacağınız təəssürat Avstriyanın Cənubi Qafqaza və xüsusən Azərbaycana marağını artıracaqdır. Sizi bir daha salamlayıram.

Volfqanq Şüssel: Çox sağ olun, cənab prezident, Sizi Avstriya nümayəndə heyəti adından salamlayıram. Siz həqiqətən doğru buyurdunuz ki, bu, Avstriya xarici işlər nazirinin, ümumiyyətlə, Avstriyadan olan nazirin Azərbaycana ilk səfəridir. Çox şadam və məmnunam ki, bu missiya məhz mənim üzərimə düşübdür.

Sizinlə tam razıyam ki, ikitərəfli münasibətlər hər iki ölkə üçün üstün xarakter daşıyır. Azərbaycanla münasibətləri inkişaf etdirmək Avstriya üçün də çox əhəmiyyətlidir. Ona görə də ilk növbədə sizin xarici işlər nazirinə minnətdarlığımı bildirmək istəyirəm ki, məni Azərbaycana dəvət etmiş və bugünkü görüş baş tutmuşdur. Hesab edirəm ki, bir neçə gündən sonra Siz ölkənizə təyin etdiyimiz səfirlə görüşəcəksiniz. Elə bilirəm, Vyanada da bizim görüşlərimiz davam edəcəkdir.

Siz doğru dediniz ki, bu, bizim yalnız Azərbaycana deyil, eyni zamanda Gürcüstana, Ermənistana olan səfərimizdir. Bu da Avropa Birliyində qəbul olunmuş yanaşmadır – biz bütün bu əraziyə bir region kimi yanaşırıq. Məlumdur ki, Avstriya 1998-ci ildə Avropa Birliyinin prezidenti idi, tərəfdaşlıq, əməkdaşlıq işində çox fəal olmuşdur. İndi bir həftədir ki, biz bu işimizi uğurla davam etdiririk.

O da məlumdur ki, tərəfdaşlıq və əməkdaşlığı geniş çərçivədə – bütün ölkələrlə mədəni, siyasi, iqtisadi sahələrdə genişləndirməkdə görürük.

Buraya səfərimizin ikinci məqsədi 2000-ci ildə ATƏT-ə sədrliyimiz dövründə işimizə daha yaxından yardım edə biləcək vasitələri axtarıb tapmaqdan ibarətdir. Bu mənada bizim fikrimiz kənardan təkliflər gətirmək deyil, məsələni daxildə öyrənmək, daxildəki adamlarla ünsiyyətə girib onların fikirlərini öyrənməkdən ibarətdir. Cənab prezident, elə bilirəm ki, bu mənada Siz xüsusi fikrə maliksiniz. Ona görə də hər şeydən əvvəl Sizin fikrinizi öyrənmək istəyirik ki, bizim ATƏT-də, Avropa Birliyində rolumuzu və ümumiyyətlə, gələcək əməkdaşlığımızı necə görürsünüz.

Mən bilirəm ki, Azərbaycan keçid dövrünü, özünün çox vacib bir dövrünü yaşayan ölkədir. Cənab prezident, bu gün səhər mən Şəhidlər xiyabanında oldum, 1990-cı ildə müstəqillik uğrunda qurban gedənlərin məzarlarını gördüm. Bu, həqiqətən çox ağır bir səhnə idi. Lakin bununla belə, bilirəm ki, bütün bu qurbanlara baxmayaraq, siz irəliyə doğru getməkdəsiniz. Mən sizi ruhlandırmaq istəyirəm ki, Avropaya doğru, demokratiyaya, bazar iqtisadiyyatına doğru getməkdə davam edəsiniz və Avropa dəyərlərinə yaxınlaşasınız.

Heydər Əliyev: Birincisi, Azərbaycanın iqtisadi vəziyyəti və ölkəmizdə gedən proseslər haqqında xarici işlər naziri, Baş nazir və parlamentin sədri yəqin ki, sizə geniş məlumat veriblər. Azərbaycan həqiqətən keçid dövrünü yaşayır. Ümumiyyətlə, bu dövr totalitar rejimdən demokratiya yoluna çıxan ölkələrin hamısı üçün çox ağır, çətindir. Biz də bu çətinlikləri hiss edir, öhdəsindən gəlirik və demək olar ki, irəliyə gedirik. 1990-1994-cü illərdə Azərbaycan böyük iqtisadi-maliyyə böhranı içərisində yaşayıbdır. O vaxt biz çox çətinliklər çəkdik. Təxminən 1995-ci ildən, 1996-cı ildən bu böhranın qarşısını ala bilmişik, ümumiyyətlə, iqtisadiyyatın

ilbəil tənəzzülünün qarşısını ala bilmişik. Son üç ildə iqtisadiyyatda inkişaf mərhələsini yaşayırıq. Biz iqtisadiyyatı inkişaf etdirmək üçün iqtisadi islahatlar həyata keçiririk. Bunların bir qismi həyata keçirilib və müsbət nəticələrini verir. Biz bazar iqtisadiyyatını inkişaf etdirir, geniş özəlləşdirmə proqramı, torpaq islahatı proqramı həyata keçiririk. Ümumiyyətlə, iqtisadiyyatı liberallaşdırmaq, insanlara sərbəstlik vermək və bunun sayəsində də inkişafa nail olmaq yolundayıq və bu yolla da irəliyə gedirik.

Dövlət quruculuğu sahəsində tutduğumuz yol Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu davam etdirmək və buna nail olmaqdır. Hesab edirəm ki, son illərdə bu sahədə də böyük nailiyyətlər əldə etmişik.

Bütün bunlara nail olmaq üçün Azərbaycanda böyük bir problemi həll etmək – ictimai-siyasi sabitliyi təmin etmək lazım idi. 1990-cı ildən, sovet ordusunun Azərbaycana hərbi təcavüz etdiyi zamandan sonrakı illərdə Azərbaycanda ictimai-siyasi sabitlik pozulmuşdu. Bu da Azərbaycanın inkişaf etməsinə çox maneələr törədirdi. Bu sabitliyi təmin etmək üçün biz çox ciddi tədbirlər gördük və çox çətinliklərlə rastlaşdıq. Çünki o illərdə Azərbaycanda qanunsuz silahlı dəstələr, hakimiyyətsizlik, hakimiyyət uğrunda mübarizə aparan bəzi insanların silahdan istifadə etməsi halları geniş yayılmışdı.

Artıq 1995-ci ildən biz ictimai-siyasi sabitliyi təmin edə bilmişik və ötən illərdə Azərbaycanda daxili vəziyyət tam sabitdir. Məhz 1995-ci ildən sonra iqtisadiyyatda tənəzzülün qarşısını ala bildik, islahatlar həyata keçirməyə başladıq və inkişafa nail olduq. Dövlət quruculuğu sahəsində lazımi islahatların, tədbirlərin həyata keçirilməsinə nail ola bildik. 1995-ci ildə Azərbaycanın ilk Konstitusiyasını qəbul etdik, müstəqil Azərbaycanın ilk parlamenti seçildi.

Son illərdə Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi yolunda atdığımız ciddi addımlardan biri, çox əhəmiyyətlisi

ölkəmizə xarici investisiyanın cəlb olunmasıdır. Biz bu sahədə Azərbaycanın zəngin təbii sərvətlərinin – neft və qaz yataqlarının dünyanın böyük şirkətləri ilə müştərək işlənilməsi üçün bir çox müqavilələr imzalamışıq və bunlar da artıq öz müsbət nəticəsini verir.

Biz Avropa ilə, Qərblə əlaqələrimizi gündən-günə genişləndirir, Avropanın beynəlxalq strukturlarında geniş fəaliyyət göstərməyə çalışırıq. O cümlədən, vaxtilə Avropa Birliyi ilə tərəfdaşlıq haqqında imzaladığımız müqavilənin bu yaxın günlərdə, yəni keçən ayın 21-də ratifikasiya olunması da bizim üçün çox əhəmiyyətlidir. 1996-cı ildə Avropa Birliyi ilə imzaladığımız müqavilənin sonra parlamentlər tərəfindən təsdiq edilməsi böyük proses olmuşdur. Bu prosesdə Avstriya da Avropa Birliyinə sədrlik edən zaman çox səylər qoymuşdur. Ona görə də mən sizə xüsusi təşəkkürümü bildirirəm.

Biz Avropa Şurası ilə çox geniş əməkdaşlıq edirik və Avropa Şurasına daxil olmaq istəyirik. Bizə qonaq statusu verilib və ümid edirik ki, gördüyümüz işlər nəticəsində Azərbaycan Avropa Şurasına qəbul olunacaqdır.

Azərbaycan son illərdə öz dövlət müstəqilliyini möhkəmləndiribdir. Biz bunu çox vacib hesab edirik, çünki bundan sonra Azərbaycan daim müstəqil ölkə kimi yaşamaq istəyir, daha heç bir ölkənin təsiri altına düşmək, yaxud onun vassalına çevrilmək istəmir.

Bunlar hamısı Azərbaycanın dünyəvi dəyərlərə, Avropa dəyərlərinə daha da yaxınlaşmasını, bu dəyərlərlə daha sıx bağlı olmasını göstərir. Azərbaycan Avropanın tərkibində, Avropanın Şərq sərhədində olan bir ölkədir. Biz istəyirik ki, Azərbaycan coğrafi nöqteyi-nəzərdən Avropada olduğu kimi, eyni zamanda iqtisadi, siyasi nöqteyi-nəzərdən də həqiqətən Avropanın bir hissəsi olsun.

Ancaq, güman edirəm, artıq siz bunu yaxşı bilirsiniz və burada olduğunuz vaxtda da sizi tanış ediblər – bizim ən ağır

problemimiz Ermənistanla Azərbaycan arasında olan hərbi münaqişədir. Cənubi Qafqaz respublikaları haqqında danışarkən bildirmək istəyirəm ki, həqiqətən, bu regionun bir çox xüsusiyyətləri var. Azərbaycan da bu xüsusiyyətlərin bir çoxunun daşıyıcısıdır. Biz çalışırıq ki, Cənubi Qafqazda sülh, əmin-amanlıq, sabitlik yaransın. Gürcüstanla dostluq əlaqələrimiz, çox geniş əməkdaşlığımız var və bunu özümüz üçün çox əhəmiyyətli hesab edirik. Ermənistanla münasibətlər isə, bilirsiniz ki, hələ 1988-ci ildən, Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində pozulmuşdur. O illərdə Ermənistan Azərbaycana qarşı torpaq iddiası ilə çıxış edib, Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağı özünə bağlamağa çalışıb, bu da böyük müharibəyə gətirib çıxarıbdır. Qan tökülüb, qurbanlar verilibdir. Nəticədə, bəzi məlum səbəblərdən Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı zorla çıxarılmış, etnik təmizləmə aparılmışdır və indi onlar Azərbaycanın başqa bölgələrində çox ağır şəraitdə, çadırlarda yaşayırlar. 1994-cü ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşin kəsilməsi haqqında saziş imzalanıbdır. O vaxtdan indiyə qədər biz, - Ermənistan tərəfi də, - buna riayət edirik, atəşkəs rejimini qoruyub saxlayırıq. Bizim məqsədimiz bu dövrdə sülh danışıqları apararaq münaqişəni sülh yolu ilə həll etməkdən ibarətdir.

Təəssüf ki, biz hələ buna nail ola bilməmişik, sülh yaranmayıbdır. Azərbaycanın ərazi bütövlüyü pozulmuş, torpaqlarımız Ermənistan silahlı qüvvələrinin zəbti altında qalmışdır.

Bilirsiniz ki, bu məsələlərlə ATƏT-in Minsk qrupu məşğul olur. Biz Minsk qrupu ilə və xüsusilə onun həmsədrləri olan Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa ilə çox sıx əməkdaşlıq edirik. Bunun nəticəsində müəyyən nailiyyətlər

əldə etmək mümkün olmuşdur. Bu baxımdan 1996-cı ilin dekabrında ATƏT-in Lissabon zirvə görüşündə əldə edilmiş nailiyyət, yəni Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması haqqında qəbul edilmiş bəyanat çox əhəmiyyətlidir. Fürsətdən istifadə edib, ATƏT-in Lissabon zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün qəbul olunmuş çox vacib bir sənədi dəstəklədiyinə və bu sahədə göstərdiyi xidmətə görə Avstriya hökumətinə təşəkkürümü bildirirəm.

Xatirinizdədir ki, o vaxt Lissabonda ATƏT-in üzvü olan 54 dövlətdən 53-ü bu sənədin qəbul olunmasına səs verdi, ancaq Ermənistan etiraz etdi. Bu sənəd məsələnin sülh yolu ilə həll olunması üçün ən optimal bir sənəddir və həm Azərbaycanın, həm də Ermənistanın maraqlarını təmin edir.

Həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Dağlıq Qarabağda yaşayan azərbaycanlıların və ermənilərin təhlükəsizliyinin təmin edilməsi, Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində yüksək dərəcəli özünüidarə hüququ verilməsi barədə prinsiplər müəyyən edilibdir. Ancaq Ermənistanın bu sənədə qeyri-konstruktiv münasibətinə görə münaqişə ondan sonra da həll olunmayıbdır. İndi açıq-aydın görünür ki, Ermənistan Dağlıq Qarabağa tam müstəqillik statusu əldə etmək istəyir.

Biz danışıqları davam etdiririk. Azərbaycan Minsk qrupunun fəaliyyətinin bundan sonra da davam etməsini arzu edir. Mən bu ilin aprel ayında Ermənistan prezidenti Robert Koçaryanla Vaşinqtonda görüşdüm. Biz məsələni geniş müzakirə etdik. Biz gələcəkdə də birbaşa görüşlər keçirmək haqqında razılığa gəldik. Yəni biz bütün vasitələrdən istifadə edirik ki, məsələ sülh yolu ilə həll olunsun. Bu məsələnin həll olunması Ermənistan tərəfindən, eyni zamanda, Minsk qrupundan və Minsk qrupunun həmsədrləri olan dünyanın

ən böyük dövlətləri – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransadan asılıdır.

Avstriyanın Minsk qrupunun üzvü olması bizi sevindirir. Bir də ona görə ki, Avstriya 2000-ci ildən ATƏT-ə sədrlik edəcəkdir. Ona görə də Avstriyanın üzərinə böyük məsuliyyət düşür. Biz Avstriyadan çox şeylər gözləyirik. Onu da nəzərə alırıq ki, ATƏT-in Baş Qərargahı Vyanada yerləşir. Bizim Avstriyadakı səfirimiz həm də ATƏT-in Azərbaycanın nümayəndəsi vəzifəsini həyata keçirir.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması sahəsində 2000-ci ildən başlayaraq Avstriyanın böyük rolu ola bilər. Mən ümid edirəm ki, siz bu sahədə öz səylərinizi əsirgəməyəcəksiniz. Bir daha qeyd edirəm ki, Azərbaycan bütün dünyada, o cümlədən Cənubi Qafqazda sülhün, əmin-amanlığın yaranması üçün çalışır və bunu arzu edir. Güman edirəm ki, mənim sizə verdiyim məlumatlar, indiyə qədər aldığınız məlumatlarla bərabər, yetərlidir.

V o l f q a n q Ş ü s s e l: Cənab prezident, verdiyiniz məlumatlara və şərhlərinizə görə çox sağ olun. Hər şeydən əvvəl onu demək istəyirəm ki, səfər proqramında mənə müəyyən güzəştlər edilibdir. Bu gün vaxt tapıb Rostropoviçin doğulduğu evdə olduq. Rostropoviçin ev muzeyində çoxlu fotolar vardır. Cənab prezident, orada əsrin ən görkəmli musiqiçilərindən biri olan Rostropoviçlə Sizin şəkliniz də vardır. Mənə isə ən çox təsir edən çadır şəhərciyində Rostropoviçin azərbaycanlı qaçqınlarla çəkdirdiyi şəkil oldu. Bu, həqiqətən nadir bir şəkildir. Çünki bu şəkildə onun sifətində həm qorxu, həm də anlaşılmazlıq bir-birini əvəz edir.

Cənab prezident, mənə elə gəlir ki, qaçqınların ağır vəziyyətini, əzablarını bu şəkil bütün statistik məlumatlardan daha aydın göstərir. Aydındır ki, bir milyondan artıq qaçqının olması sizin ölkəniz üzərində çox ağır bir yükdür. Sizə məlumdur ki, Avstriya da Azərbaycan kimi kiçik bir ölkədir. O,

Avropanın ürəyində yerləşən, 8 milyon əhalisi olan bir ölkədir. Ancaq biz çalışırıq ki, humanitar yardım sahəsində ən qabaqcıl ölkələrdən biri olaq.

Avstriya, eyni zamanda Kanada, Meksika, Tailand kimi ölkələrlə, yəni özündən qat-qat böyük olan dövlətlərlə təxminən eyni miqdarda yardım göstərir. Biz siyasətdə, ümumiyyətlə, humanitar məqamın olmasını çox vacib hadisə hesab edirik. ATƏT-in üzvü olan Avstriya həm humanitar yardım haqqında düşünür, həm də Azərbaycanın probleminin həll edilməsi üçün ciddi səylər göstərir.

Cənab prezident, mən Sizin məlumatınıza çox diqqətlə qulaq asdım, əsas məqamları tutmağa çalışdım. Mən Sizinlə tam razıyam ki, Lissabon sammitində qəbul olunmuş prinsiplər çox vacib prinsiplərdir. Ona görə çox vacibdir ki, bunlar problemin həlli üçün əsas prinsiplərdir. Bunlar Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, qaçqınların öz daimi yerlərinə qayıtmaq haqları, Dağlıq Qarabağa Azərbaycanın tərkibində özünüidarəetmə statusu verilməsi məsələlərini əhatə edir.

Düşünürəm ki, Ermənistan prezidentindən eşitdiklərimizi söyləsək bu, Sizin üçün maraqlı olar. O, birbaşa əlaqələrlə maraqlanır. Sizin haqqınızda yüksək fikirdədir, çox yaxşı sözlər deyir, keçirdiyiniz görüşləri yüksək qiymətləndirir. Ermənistan prezidenti, əlbəttə, həmsədrlərin «ümumi dövlət» yaratmaq barədə son təkliflərini çox bəyənir və dəstəkləyir. Onun fikrincə, digər məqamların bir o qədər də əhəmiyyəti yoxdur. Hər halda, mənim çıxardığım nəticə belədir, xahiş edirəm, bu barədə bir qədər ehtiyatlı olasınız.

Mənə elə gəlir ki, Ermənistan müstəqillikdən bir qədər az, lakin muxtariyyətdən bir qədər çox nə isə istəyir. Onlar «ümumi dövlət» ifadəsi işlətməklə bu aranı tapmağa çalışırlar.

V ə f a Q u l u z a d ə: İcazə verin, mən bu məsələyə bir qədər aydınlıq gətirim. Cənab nazir qeyd edir ki, Robert Koçaryan bu «ümumi dövlət» konsepsiyasının üzərində bir o qədər də durmur. İkincisi, cənab nazir onu da deyir ki, «ümumi dövlət» konsepsiyası bir qədər ikimənalı, ikibaşlı ifadədir.

V o l f q a n q Ş ü s s e l: Cənab prezident, Ermənistan prezidenti Koçaryan dedi ki, o, Sizinlə birbaşa əlaqələri tezliklə bərpa etmək barədə düşünür.

Cənab prezident, mən Gürcüstana səfərim barədə də danışmaq istəyirəm. Gürcüstan prezidenti Eduard Şevardnadze Azərbaycanla yaxşı qonşuluq əlaqələri barədə bizə danışdı. Əlbəttə, onların daxili problemləri – Osetiya və Abxaziya ilə problemləri də vardır. Görünür, Osetiyada bir qədər sabitlik yaranmaq üzrədir. Çünki Avropa Birliyi orada bir sıra layihələr işləyib hazırlayır. Avropa Birliyi orada orta məktəblərin fəaliyyət göstərməsi, suvarma işlərinin sahmana salınması və digər sahələr üzrə layihələrin həyata keçirilməsinə kömək edir. Əlbəttə, Gürcüstanın ən mühüm problemi Abxaziya ilə olan problemdir.

Cənab prezident, Siz sovet dövründən miras qalmış problemlərə toxundunuz, o vaxtkı totalitar rejimdən bəhs etdiniz. Biz Gürcüstanda olanda da təxminən eyni sözləri işlətdilər.

Cənab prezident, Avropa Birliyi buraya ümumi bir bölgə kimi baxır. ATƏT isə, əlbəttə, hər şeydən əvvəl demokratik dəyərləri əsas götürür. Belə hesab edirəm ki, bütün bunlar region ölkələrinin Avropa Şurasına üzv qəbul edilməsinə yardım göstərəcəkdir.

Cənab prezident, mən minnətdarlığımı bildirmək istəyirəm ki, Siz 1998-ci ilin noyabr ayında çox mühüm bir sənədə imza atmısınız. Həmin sənəddə seçkilər, mətbuat azadlığı haqqında və bir sıra digər məsələlər öz əksini tapmışdır. Bütün bunlar isə Azərbaycanın Avropaya inteqrasiyasına yardım göstərmiş olacaqdır.

Cənab prezident, Avstriya Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasını dəstəkləyir. Yeri gəlmişkən, Avropa Şurasında baş katib vəzifəsini avstriyalı cənab Şvimmer icra edir və o da Azərbaycanın bu şuraya qəbul olunmasının tərəfdarıdır.

İcazə verin, mən bir rəvayət barədə söhbət açım. Rəvayətə görə, Avropa Finikiya kralının qızıdır. Zevs ona vurulduqdan sonra ağ öküz simasında yanına gəlir və götürüb Aralıq dənizinə – Krit adasına gedir. Bu əhvalatı danışmaqda məqsədim ondan ibarətdir ki, Avropa həqiqətən macəralarla doludur. Əgər onunla hansısa bir dənizə səyahətə çıxmaq fikrində olarsansa, uğur taparsan. Elə bilirik ki, Siz də bu sahədə uğur qazana bilərsiniz.

Heydər Əliyev: Söylədiyiniz fikirlərə və verdiyiniz məlumatlara görə Sizə təşəkkür edirəm.

Cənab nazir, bu macəra haqqında onu demək istəyirəm ki, Avropa hansı dənizə gedirsə, biz onunla birlikdə həmin dənizə getməyə hazırıq.

Sizin mənə verdiyiniz məlumatlardan bir məqama toxunmaq istəyirəm. Son zamanlar Rusiyanın təşəbbüsü ilə Minsk qrupu həmsədrlərinin verdiyi «ümumi dövlət» formulası demək olar ki, müstəqillik deməkdir. Ermənistanın sizə bəyan etdiyi – onlar müstəqillikdən bir az aşağı, muxtariyyətdən bir az yuxarı status tələb edirlər – fikrə gəldikdə, Lissabon zirvə görüşündə qəbul olunmuş prinsiplərdən biri, yəni Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verilməsi məhz elə onların istədikləridir. Bu status muxtariyyətdən yüksəkdir və müstəqillikdən də aşağıdır. Amma onlar istəyirlər ki, daha da yüksəyə qalxsınlar. Biz bunu qəbul etməmişik. Mənə elə gəlir, indi Minsk qrupunun həmsədrləri də anlayırlar ki, onların düşdüyü bu yol səhv yoldur. Hər halda, mən sizi bir daha əmin etmək istəyirəm ki, biz Ermənistanla münaqişənin sülh yolu ilə həll olunması üçün

bundan sonra da öz səylərimizi əsirgəməyəcəyik. Avropa dəyərlərini, dünya dəyərlərini Azərbaycanda getdikcə yaratmağa, inkişaf etdirməyə çalışacağıq.

Volfqanq Şüssel: Cənab prezident, icazə Verin, ölkəmizin prezidentinin məktubunu Sizə təqdim edim. Prezidentimiz həmin məktubunda ümid edir ki, Siz gələn il Avstriyanı ziyarət edəcəksiniz. O, bu məktub vasitəsilə ən xoş arzularını Sizə yetirir.

Heydər Əliyev: Avstriya prezidentinin mənə göndərdiyi məktuba görə minnətdarlığımı bildirirəm. Əvvəlcədən deyirəm ki, mən bu təklifi qəbul edirəm. Eyni zamanda, mən Avstriya prezidentini Azərbaycana dəvət edirəm. Xahiş edirəm, mənim bu dəvətimi prezidentə çatdırasınız. Mən gələn il Avstriyaya gəlməyə hazıram. Bir daha təşəkkür edirəm.

BAKININ SURAXANI RAYONUNDA «HEYDƏR BULAĞI» KOMPLEKSİNİN, «HEYDƏR PARKI»NIN VƏ «HEYDƏR MƏSCİDİ»NİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ SÖHBƏT VƏ NİTQ

Yeni Suraxanı qəsəbəsi

10 iyul 1999-cu il

H e y d ə r Ə l i y e v: Bu yeni dini ocaqla yaxından tanış oldum. Bura toplaşan dindarları səmimi-qəlbdən təbrik edirəm. Bu, yeni bir Allah evidir və böyük hadisədir. Bizim həyatımızın belə ağır, çətin bir dövründə zəhmət çəkib bu cür binalar tikmək böyük bir şücaət tələb edir. Bunu yaratmısınız, tikmisiniz. Mən də bunu himayə etmişəm. Allah bu məscidə çox uzun ömür versin və bizim dindarlara da bu məsciddə Allaha, dinə, Qurana itaət etmək üçün daha da güc versin, daha da iradə versin.

H a c ı b a l a A b u t a l ı b o v *(Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı)*: Cənab prezident, 3500 il bundan qabaq burada atəşgah məbədgahı olub. Makedoniyalı İsgəndərin yürüşü zamanı o atəşgah məbədgahı sökülüb dağıdılıbdır. Ondan sonra Suraxanı qəsəbəsinin yerli camaatı həmin atəşgahı bir də bərpa edibdir. Ərəb xəlifələrinin yürüşü zamanı bu atəşgah bir də dağıdılıb. Sonra Suraxanı qəsəbəsinin əhalisi bu məbədgahı yenə də bərpa edib. O vaxtdan bu qəsəbədə məscid olmayıbdır. Bu ilk məsciddir. Bu, Suraxanı qəsəbəsi sakinlərinin təşəbbüsü ilə, cənab

prezident, Sizə olan sevgini və məhəbbəti göstərmək xatirinə tikilən böyük bir Allah evidir.

Arif Babayev (*Suraxanı maşınqayırma zavodunun direktoru*): Cənab prezident, mən fərəh hissi ilə deyə bilərəm ki, Allah-təala elə qismət edib ki, bu gün bizim prezidentimizin adına məscidimiz vardır. Biz bununla fəxr edirik və fərəh hissi keçiririk.

Cənab prezident, mən Sizi 1974-84-cü illərdən, Siyasi Büronun üzvü olandan tanıyıram.

Heydər Əliyev: Sən o vaxtdan orada işləyirsən? Mənim o zavoda gəlməyim yadınızdadır? Mən 1974-cü ildə o zavoda gəlmişdim. Böyük bir iclas keçirdik. Yəqin ki, yadınızdadır. O vaxtlar mən sizə tapşırırdım ki, məhsulun – dərinlik nasoslarının keyfiyyətinə fikir verəsiniz. Biz böyük neft ölkəsi olduğumuz halda bu dərinlik nasoslarını keyfiyyətli edə bilmirdik. Yadınızdadır, biz onları Tuladan alıb gətirirdik. Mən sizin məsələnizi dəfələrlə müzakirə etmişdim. Sonra 1974-cü ildə zavoda gəldim, böyük bir iclas keçirdik. Sizin qarşınızda məsələ qoydum ki, bu nasosların keyfiyyətini qaldırmalısınız. Çünki bu nasoslar neft sənayesinə çox lazım idi. Ondan sonra mən sizə kömək etdim ki, bunun keyfiyyətini qaldırasınız.

Sonra 1984-cü ildə mən Moskvada işləyəndə buraya, Bakıya seçicilərlə görüşməyə gəlmişdim. Siz o vaxtlar həm də mənim seçicilərim idiniz. Onda sizin zavoda yenə gəldim. Yenə də soruşdum, - bu işlər nə cür gedir? Mən çox məmnunam ki, sən o vaxtdan işləyirsən.

Arif Babayev: Cənab prezident, fəxrlə deyə bilərəm ki, bu gün zavod işləyir. Son beş ildə bir nəfər də ixtisar olunmayıbdır. Ev tikirik, keçən il 40 ailəyə mənzil vermişik. Bu il də ev tikirik. İnşallah, gələn il də tikəcəyik. Hər şəhid ailəsinə ayda 200 min manat, milli qəhrəman ailəsinə 300 min manat, Qarabağ müharibəsi əlillərinə 140 min manat, hər bir

qaçqına 35 min manat yardım göstəririk. Çətinliklər olmasına baxmayaraq, çıxış yolu tapıb işimizi görürük.

Heydər Əliyev: İndi nasosları hara satırsınız?

Arif Babayev: 1998-ci ilin may ayına kimi Rusiya ilə əlaqəmiz var idi. Ondan sonra Rusiyada inflyasiya baş verdiyinə görə bir balaca çətinlik çəkirik. Respublikamızı isə təmin edirik.

Heydər Əliyev: Amma orada vəziyyət düzələcək, o bazarınızı heç vaxt itirməyin.

Arif Babayev: Cənab prezident, yeni bir müqaviləmiz vardır. Allah qoysa, gələn aydan yaxşı olacaqdır. Mən «Azərneftyağ» zavodunda keçirilən mitinqdə «Əsrin müqaviləsi» ilə bağlı çıxış etdim. Dedim ki, Bakı neft maşınqayırma zavodlarında lazım olan neft avadanlığı istehsal edəcəyik.

Heydər Əliyev: Bəli, elədir. Bazarınızı itirməyin. Sən mənim köhnə dostlarımdansan. Gör neçə il keçibdir.

Mən sizi bu məscidin açılması münasibətilə təbrik edirəm, burada belə gözəl bir muzeyin yaradılması münasibətilə təbrik edirəm. Bunu təkcə Suraxanı üçün yox, bütün Bakı üçün, bütün Azərbaycan üçün əlamətdar hadisə hesab edirəm. Çünki indi biz milli, dini, mənəvi dəyərlərimizə dönürük. Biz uzun illər bundan uzaqda olmuşuq, bizi təcrid ediblər. İndi isə insanlara vicdan azadlığı, din azadlığı verilibdir və insanlar öz hüquqlarını həyata keçirməlidir. Kim dindardırsa, gəlsin məsciddə ibadətini eləsin. İnsanlar üçün böyük şərait yaradılıbdır.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Sizin din sahəsində xidmətlərinizə bundan sonra da uğurlar arzulayıram.

Təntənəli mərasimdə nitq

Əziz bacılar, qardaşlar, dostlar!

Hörmətli Suraxanı sakinləri!

Mən sizi səmimi-qəlbdən salamlayıram və sizə hədsiz hörmət, ehtiramımı bildirirəm.

Bu gün mən sizinlə, Suraxanının vətəndaşları, sakinləri ilə görüşə gəlmişəm. Çox sevindirici haldır ki, bu görüş eyni zamanda Suraxanının, Bakının, demək olar, Azərbaycanın həyatında baş verən əlamətdar hadisələrlə bağlıdır.

Burada sizinlə birlikdə çox gözəl bir bulaq kompleksi açdıq. Bulaq, su həmişə insanlara xoşbəxtlik, sağlamlıq, səadət gətiribdir. Su verən, bulaq yaradan, çay açan hər bir insan həmişə xalqın, millətin, insanların məhəbbətini qazanır. Mən sizi bu münasibətlə təbrik edirəm.

Burada yeni bir park açıldı. Mən çox məmnunam ki, Suraxanıda yaşıllaşdırma işi davam edir və insanların istirahəti üçün böyük imkanlar yaradılır. Onlardan biri də bu gözəl parkdır. Bu park haqqında düşünərkən keçmişi xatırlayıram. Mən 1970-ci ildə Bakının yaşıllaşdırılması planını hazırlayıb həyata keçirməyə başladım və o vaxt bir çağırışla çıxış etdim: hər bir bakılı iki ağac əkib böyütməlidir. Mənim bu çağırışıma bakılılar cavab verdilər və qısa bir müddətdə Bakının yaşıllaşması planının həyata keçirilməsinə başlandı. Siz bunu bilirsiniz. Siz onu da bilirsiniz ki, keçmiş zamanlarda, qədim dövrlərdə Bakı ağacsız, yaşıllıqsız olubdur, bundan insanlar çox əziyyət çəkiblər.

Həmin planın həyata keçirilməsində suraxanılıların da böyük rolu vardır. İndi baxıram – ətrafda, hər yerdə ağaclar, yaşıllıq vardır. Təkcə burada deyil, Bakının hər yerində yaşıllıq vardır. İndi mən şəhərdən buraya Suraxanı rayonunun ərazisində yerləşən hava limanına gedən yolla gəlirdim. Bu

yolun o tərəfi də, bu tərəfi də ağaclardır. Təkcə ağaclar deyil, artıq hər yerdə meşələr yaranıbdır.

Mən o illəri xatırlayıram. O illərdə mən hər bir rayonun rəhbərinə müəyyən bir hissə vermişdim və ona demişdim ki, bütün nailiyyətlərlə bərabər, sənin bu yaşıllıq sahəsində gördüyün işlər də qiymətləndiriləcəkdir. Xatirimdədir, rayonlar bir-biri ilə yarışırdı, çalışırdı. Bununla da biz Bakını yaşıllaşdıra bildik.

Suraxanı hissəsində buruqlar torpağı neftlə bulamışdı. Mənə deyirdilər ki, burada ağaclar bitməyəcəkdir. Ancaq nəinki yol qıraqlarında – siz bunları görürsünüz – yoldan kənarda da, həmin buruqların yanında da, neftə bulaşmış torpaqda da ağaclar əkilibdir. İndi bu ağaclar böyüyübdür, onlar xalqa xidmət edir, Bakının iqlimini yaxşılaşdırır, Bakıda havanın təmizliyini təmin edir. Bunların böyük əhəmiyyəti vardır.

Təəssüflər olsun ki, mən respublikadan getdikdən sonra və xüsusən Azərbaycanda hərc-mərclik, hakimiyyətsizlik dövründə bizim gördüyümüz bu böyük işləri pozmaq istədilər. Bir çox yerlərdə ağaclar kəsildi, ayrı-ayrı adamlar bundan öz şəxsi məqsədləri üçün istifadə etdilər. Mən 1993-cü ildə Bakıya dönərkən, Azərbaycanda yenidən hakimiyyətə gələrkən bunları araşdırdım, bildim və ürəyim çox ağrıdı. Yenə də müraciət etdim ki, gəlin Bakının yaşıllaşdırılmasını davam etdirək. Mən çox məmnunam, sevinirəm ki, indi Bakıda hər bir rayonda, o cümlədən sizin Suraxanı rayonunda yeni-yeni parklar açılır, yaşıllaşdırma işi gedir. Bu işlərə görə sizə təşəkkür edirəm və bu hadisələr münasibətilə sizi təbrik edirəm.

Burada artıq deyildi ki, Suraxanıda dindar olub, ancaq heç vaxt məscid olmayıb. Bir ona görə yox ki, sovet hakimiyyəti qurulandan sonra məscidləri qadağan etdilər. Çıxış edənlər bunu qeyd etdilər ki, ondan əvvəl də məscid olmayıbdır. İndi mən çox şadam ki, burada gözəl bir məscid tikilibdir,

dindarların istifadəsinə verilibdir. Bu məscid də Azərbaycanda xalqın mənəvi, milli, dini dəyərlərinin yaşamasına kömək edəcək və xalqımızın yüksək əhval-ruhiyyəyə malik olması üçün çox işlər görəcəkdir.

Suraxanı Azərbaycanın qədim rayonlarındandır. Suraxanının neftçiləri, ümumiyyətlə, fədakar insanları Azərbaycan tarixinə qızıl hərflərlə səhifələr yazmışlar. İlk dəfə XIX əsrin ortalarında Azərbaycanda sənaye üsulu ilə neft çıxarılmasına Suraxanıda başlanmışdır. Ondan sonrakı illərdə Suraxanının zəhmətkeşləri, neftçiləri Azərbaycan Respublikasına, təkcə Azərbaycan Respublikasına deyil, - o vaxt biz böyük Sovetlər ölkəsinə xidmət edirdik, - milyonlarla, yüz milyonlarla ton neft çıxarıb istifadəyə vermişlər. Bunlar Suraxanının gözəl tarixidir, keçmişidir.

Eyni zamanda xatırlayıram, 1970-80-ci illərdə biz burada həm neft sənayesinin, həm də maşınqayırma sənayesinin, başqa müəssisələrinin fəaliyyətini artırmağa çalışırdıq və buna da nail olduq. O illərdə Azərbaycanın hər yerində olduğu kimi, Suraxanıda da böyük abadlıq işləri getmişdi, insanların sosial vəziyyətini təmin etmək üçün çox böyük tədbirlər görülmüşdü, yaşayış evləri tikilmişdi, bir çox başqa işlər görülmüşdü. Mən onları böyük məhəbbət hissi ilə xatırlayıram. Çünki o illərdə biz bu işləri sizinlə bərabər görürdük. Güman edirəm ki, mənim göstərdiyim diqqəti, qayğını suraxanılılar heç vaxt unutmayacaqlar.

Mən 1970-80-ci illərdə Sovetlər İttifaqının Ali Sovetində sizin deputatınız olmuşam. Siz o illərdə mənə böyük etimad göstərmisiniz, mənim seçicim olmusunuz, mənə səs vermisiniz. Mən də çalışmışam sizin etimadınızı doğruldum. Mən o illəri heç vaxt unutmayacağam. Mən o illərdə sizinlə tez-tez görüşürdüm, biz bütün işləri birgə həll edirdik.

İndi isə, 1993-cü ildən sonra siz yenə də mənim seçicilərimsiniz. 1993-cü ilin oktyabrında və 1998-ci ilin oktyabrında

siz etimad göstərib məni müstəqil Azərbaycanın prezidenti seçmisiniz. Mən sizə təşəkkür edirəm və bir daha bəyan edirəm ki, sizin etimadınızı daim doğruldacağam və etimadınıza həmişə layiq olacağam.

Mən bizim bugünkü görüşümüzü müəyyən mənada öz seçicilərimlə görüş hesab edirəm. Ona görə də mən sizin qarşınızda durmuşam və sizə hesabat verirəm. Hesabat verərək bildirmək istəyirəm ki, müstəqil Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, inkişaf etdirilməsi bizim əsas vəzifəmizdir. Biz bu işi, bu vəzifəni hər il ardıcıl surətdə həyata keçirməyə çalışırıq və bundan sonra da çalışacağıq.

Azərbaycan keçid dövrünü yaşayır. Keçid dövrünün böyük problemləri, çətinlikləri vardır. Bilirsiniz ki, Azərbaycan üçün bu keçid dövrü daha da ağırdır. Ona görə ki, Azərbaycan müstəqillik əldə edən zaman respublikamızda daxili ictimai-siyasi vəziyyət çox ağır idi. Qanunsuz silahlı dəstələrin yaradılması, hakimiyyət uğrunda mübarizə, cinayətkarlığın artması, bir çox belə hallar Azərbaycan vətəndaşlarını incidirdi və daxili vəziyyəti pozmuşdu. Ona görə də Azərbaycan bu keçid dövrünü daha da ağır keçirirdi. Digər tərəfdən, 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzünün başlanması və buna görə baş vermiş müharibə nəticəsində o illər respublikamızda sabitlik pozulmuşdu. Bəziləri «Dağlıq Qarabağ kartı»ndan istifadə edərək hakimiyyət uğrunda mübarizə aparırdılar və bunlar hamısı Azərbaycanı böyük bəlalara gətirib çıxarmışdı. Bunların nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və işğal edilən torpaqlardan bir milyondan artıq qaçqın öz yerlərindən zorla qovulmuşdur, indi onlar başqa yerlərdə yaşayırlar.

Biz şəhidlər vermişik, qan tökmüşük, torpağımızı qorumuşuq. Mən bu gün sizə bəyan edirəm ki, biz beş ildir sülh danışıqları aparırıq. Bu danışıqları bundan sonra da

aparacağıq. Əmin olun ki, işğal edilmiş torpaqlar azad olunacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və köçkünlər, qaçqınlar, o cümlədən, burada çıxış edən zəngilanlı bacım öz yerinə, yurduna qayıdacaqdır.

Azərbaycan bu keçid dövründə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu ilə məşğuldur. Azərbaycan dövləti bu keçid dövründə iqtisadiyyatını inkişaf etdirmək üçün müxtəlif tədbirlərin həyata keçirilməsi ilə məşğuldur. O cümlədən, iqtisadi islahatlar və onların nəticələri bizim əldə etdiyimiz nailiyyətlərin əsas səbəbləridir.

Azərbaycan dövləti insanlara rahatlıq, sakitlik yaradıbdır. Ən böyük nailiyyətimiz odur ki, biz 1993-cü ildən başlayaraq Azərbaycanda daxili ictimai-siyasi vəziyyəti normallaşdırmağa çalışmışıq. Doğrudur, bu, bizim üçün asan olmayıbdır. Bizə qarşı çevriliş cəhdləri olubdur, bizə qarşı güllələr atıblar, terrorlar ediblər. Ancaq bunların heç birisi bizi sarsıtmayıbdır. Biz tutduğumuz yolla getmişik və nəhayət, Azərbaycanın bu cinayətkar, düşmən ünsürlərdən təmizlənməsini təmin etmişik.

İndi Azərbaycanda ictimai-siyasi sabitlik hökm sürür. Bu, dövlət, millət üçün, hər bir vətəndaş üçün lazımdır. Ona görə də bu ictimai-siyasi sabitliyi qorumaq həm dövlətin borcudur, həm də hər bir Azərbaycan vətəndaşının şərəfli borcudur. Əmin ola bilərsiniz ki, biz bu yolla gedirik və bundan sonra da bu yolla gedəcəyik.

Şübhəsiz ki, bu keçid dövrünün sosial-iqtisadi sahələrdəki çətinlikləri insanların həyatına da təsir edibdir. Biz yaxşı bilirik ki, Azərbaycanda insanların bir qismi istənilən səviyyədə yaşamır. Onların həyat tərzini yaxşılaşdırmaq üçün biz bəzi tədbirlər görürük. Bu tədbirlərin nəticəsində də 1995-ci ildən başlayaraq Azərbaycanda iqtisadiyyat yüksəlir, istehsal artır. Bunun nəticəsində də Azərbaycan vətəndaşlarının rifah halı tədricən yaxşılaşır.

Bilirsiniz ki, 1995-ci ilə qədər Azərbaycanda hər il iqtisadiyyat tənəzzülə uğrayırdı və Azərbaycan vətəndaşları bundan çox əziyyət çəkirdilər. Artıq biz inkişaf dövründəyik, yolundayıq. Sizi əmin edirəm ki, aparılan iqtisadi, siyasi islahatlar, bütün tədbirlər Azərbaycanın sosial-iqtisadi vəziyyətini ilbəil yaxşılaşdıracaq, iqtisadiyyatı inkişaf etdirəcək və vətəndaşlarımızın həyat tərzini xeyli yüksəldəcəkdir.

Amma buna görə təkcə dövlət, hökumət yox, hər bir vətəndaş, məsul vəzifəli hər bir şəxs, hər bir rayon, müəssisə, kollektiv rəhbəri çalışmalıdır. Xalqımız çalışır. Bizim əldə etdiyimiz bütün bu nailiyyətlər məhz Azərbaycan xalqının fədakar əməyinin nəticəsidir. Mən bu gün xalqımıza, millətimizə, vətəndaşlarımıza Azərbaycanın müstəqilliyinə sadiq olduqlarına, bu keçid dövründə iqtisadiyyatın inkişaf etdirilməsində fədakarlıq göstərdiklərinə, vətəndaşlıq borclarını yerinə yetirdiklərinə görə səmimi-qəlbdən təşəkkür edirəm.

Ancaq eyni zamanda, hər yerdə vəziyyət istədiyimiz səviyyədə deyildir. Təəssüflər olsun ki, bəzi rayonların, şəhərlərin işinin səviyyəsində fərqlər çoxdur. Mən Suraxanı rayonunun son illərdə əldə etdiyi nailiyyətlər haqqında demək istəyirəm. Şübhəsiz ki, Suraxanı rayonu da bu keçid dövrünün bəlaları, problemləri ilə üzləşibdir.

Mən bir neçə gün bundan əvvəl Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbovun məruzəsini aldım, göstəricilərlə tanış oldum. Mən bunları əvvəl də bilirdim, amma bir daha tanış oldum və gördüm ki, Suraxanı rayonu rəhbərlərinin, bu rayonun müəssisə, təşkilat rəhbərlərinin son illərdəki səyləri nəticəsində daxili imkanlardan səmərəli istifadə olunaraq başqa rayonlara nisbətən çoxlu nailiyyətlər əldə edilmişdir. Burada həm sənaye məhsulu istehsalı, həm də neft istehsalı artmış, inkişaf etmişdir. Sizin rayonunuz Azərbaycanda hasil edilən qazın 32 faizini verir.

Bunu siz – Suraxanı neftçiləri təmin edirsiniz. Buna görə mən Suraxanı neftçilərinə bir daha təşəkkür edirəm.

Suraxanının rəhbərliyi istehsalın artımı ilə bərabər, rayonda sosial məsələlərin həll edilməsinə də çox fikir verir. Bu, bizim əsas vəzifəmizdir. Əgər keçmişdə əsas vəzifə istehsal idisə, indi əsas vəzifə istehsalla yanaşı, xalqın, millətin, insanların sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Sizin rayonda bu sahədə çox işlər görülübdür.

Suraxanıda abadlıq işləri çox görülübdür, yaşayış binaları inşa edilibdir, yeni qaz, su kəmərləri çəkilibdir, yeni bulaqlar tikilibdir. Bunlar hamısı rayonun daxili imkanları çərçivəsində edilibdir. Bütün bunlar çox sevindiricidir.

Mən neftçilərin fəaliyyəti haqqında dedim. Eyni zamanda başqa sənaye müəssisələrində də işlər yaxşı gedir. Mən indi burada keçmiş dostum, Suraxanı neft maşınqayırma zavodunun direktoru Arif Babayevlə görüşdüm. Onunla xatırladıq ki, 1970-80-ci illərdə biz bu zavodun inkişaf etməsi üçün nə qədər böyük səylər qoyurduq. O illərdə dərinlik nasosları istehsal edən zavod Sovet İttifaqının neft sənayesinin bir çox hissəsini təmin etməli idi. Amma şikayətlər də var idi ki, nasoslar keyfiyyətli deyil. Mən bir neçə dəfə bu zavoda gəldim, zavodun işini müzakirə etdim, müəssisəyə yardım göstərdim. Bu zavod ayağa qalxdı, inkişaf etdi.

Doğrusu, mən hesab edirdim ki, bu keçid dövründə bizim başqa sənaye müəssisələri kimi, bu zavod da geriləyibdir. Ancaq yox, göstəricilər onu sübut edir ki, zavod işləyir, çalışır. Bu gün Arif Babayev mənə çox gözəl məlumatlar verdi. Bunlar məni sevindirdi. Zavodda istehsal da var, bütün kollektiv də işləyir. O mənə dedi ki, bu dövrdə biz bir nəfəri də işdən azad etməmişik, ixtisara yol verməmişik. Demək, çalışan, işləyən elə bu şəraitdə də hər bir iş görə bilər. Bax, bu, neft maşınqayırma zavodunun, neftçilərin və Suraxanı rayonunun timsalıdır.

Arif Babayev qaçqınlara da yaxşı baxır. Bəli, onları da mənə dedi. Mən vaxtınızı alıb bu məsələlərin hamısını demək istəmirəm, bunlar sizə məlumdur. Bir də deyirəm, zavodun timsalında, rayonun əldə etdiyi ümumi nailiyyətlərin timsalında qətiyyətlə demək olar ki, hansı müəssisədə, hansı təşkilatda, hansı kollektivdə, hansı rayonda iş yaxşı qurulursa və daxili imkanlardan istifadə olunursa, orada inkişaf daim olacaqdır. Suraxanıda inkişaf var. Məsələn, əgər 1995-ci ildə rayon sakinlərinin orta əmək haqqı 137 min manat olmuşdusa, keçən ilin nəticələrinə görə 370 min manatdır. Görürsünüz, nə qədər artım olubdur. Amma təəssüf ki, bəzi rayonlarda belə deyildir.

Ona görə də mən bu gün Suraxanı rayonunun həm sənaye müəssisələrinin işini, həm sosial sahəsinin işini, həm də rayon icra hakimiyyətinin və onun başçısı Hacıbala Abutalıbovun işini bir nümunə kimi göstərir və hesab edirəm ki, bu təcrübə Azərbaycanın bütün rayonlarına, bütün müəssisələrinə yayılmalıdır. Mən xüsusi sərəncam verəcəyəm və rayonun göstəricilərini əks etdirən arayışı bütün rayon icra hakimiyyətlərinə, şəhər icra hakimiyyətlərinə göndərəcək və onlardan tələb edəcəyəm ki, onlar da suraxanılılar kimi, Suraxanı icra hakimiyyəti kimi işləsinlər.

Əziz dostlar, mən bu gün çox şad olduğumu sizə bir daha bildirirəm. Hər dəfə belə görüşlər mənə daha çox ümid, enerji və inam verir. Sizin verdiyiniz bax, bu inamla mən Azərbaycanın dövlət müstəqilliyini inkişaf etdirəcəyəm və Azərbaycan prezidenti kimi, ölkəmizi bundan sonra da yüksəklərə qaldıracağam.

Yoldan bu tərəfə gələndə görmüşəm ki, insanlar xoş, yüksək əhval-ruhiyyədə, buraya toplaşanların hamısı gözəl əhval-ruhiyyədə yaşayırlar. Bunun da səbəbi məhz ondan ibarətdir ki, Suraxanı rayonunda insanlara qayğı var, Suraxanı rayonunda görülən işlər insanların sosial problemlərinin

çoxunu həll edə bilər. Bu da sevindiricidir, mənim üçün çox böyük əsasdır.

Əziz dostlar, bu gün mənə göstərdiyiniz mehribanlığa görə, hərarətli duyğularınıza, hissiyyatlarınıza görə və bu dostluq görüşünə görə sizə bir daha təşəkkür edir, hamınıza cansağlığı, səadət arzu edirəm.

Eşq olsun Suraxanıya! Eşq olsun suraxanılılara! Eşq olsun Suraxanı neftçilərinə!

XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDAKI «ŞAHDƏNİZ» YATAĞINDA ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏRİN TƏQDİMAT MƏRASİMİNDƏ* GİRİŞ NİTQİ

Prezident sarayı

12 iyul 1999-cu il

Hörmətli xanımlar və cənablar!

Bu gün biz çox əlamətdar bir hadisə münasibətilə buraya toplaşmışıq. Azərbaycan dövlətinin yeni neft strategiyası, neft doktrinasının əməli surətdə həyata keçirilməsinin müsbət nəticəsi ilə tanış olmaq və bu məsələni müzakirə etmək məqsədi ilə biz bu gün buradayıq.

Məlumdur ki, 1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da *əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvət*lərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir.

Gənc, müstəqil Azərbaycan bu arzularla yaşayaraq, eyni zamanda dərk edirdi ki, bu böyük işləri təkbaşına görə bil-

---

* Təqdimat mərasimində ARDNŞ-nin birinci vitse-prezidenti İlham Əliyev, Böyük Britaniyanın, ABŞ-ın, Norveçin, Rusiyanın, İtaliyanın, Fransanın, İranın, Türkiyənin ölkəmizdəki səfirləri – Deyvid Rocer Tomas, Stenli Eskudero, Olaf Berstad, Aleksandr Bloxin, Alessandro Fallovollita, Jan Pyer Kinyut, Əlirza Bikdeli, Qədri Ecvet Tezcan, «Şahdəniz» müqaviləsinin həyata keçirilməsinin iştirakçısı olan xarici şirkətlərin nümayəndələri, ARDNŞ-nin rəhbər işçiləri iştirak edirdilər.

məz. Ona görə də bizim zəngin neft, qaz yataqlarının işlənilməsini və xalqın mənafeyi üçün istifadə olunmasını, yalnız dünyanın inkişaf etmiş ölkələri ilə, onlara məxsus olan neft şirkətləri ilə, yüksək texnologiyası ilə həyata keçirmək mümkündür. Məhz buna görə də 1994-cü ilin sentyabr ayının 20-də Azərbaycan, Azərbaycanın Dövlət Neft Şirkəti dünyanın bir çox böyük neft şirkətləri ilə ilk böyük müqaviləni imzaladı. Bu müqaviləyə də «Əsrin müqaviləsi» adı verildi. Bu müqavilə ardıcıl surətdə həyata keçirilir, onun müsbət nəticələrini biz artıq bir müddət bundan öncə müşahidə, hiss etmişik və ondan istifadə edirik.

Məlumdur ki, «Azəri», «Çıraq» və «Günəşli» yataqlarından çıxarılan neft ilə əlaqədar olan bu konsorsium çox müvəffəqiyyətlə işləmişdir və 1997-ci ilin noyabr ayının 12-də biz «Çıraq» neft yatağından ilkin nefti almışıq.

Bu münasibətlə Azərbaycanda çox işlər görülübdür. Onlardan biri də ondan ibarətdir ki, biz neftin dünya bazarına ixrac edilməsi üçün neft kəmərləri yarada bilmişik: birinci – Bakı – Novorossiysk, ikinci – Bakı – Supsa. Onların hər ikisi Qara dənizdəki limanlara çıxır – biri Rusiyaya, biri Gürcüstana. Təəssüf ki, *bizim ilk qurduğumuz neft borusu – Bakı* – Novorossiysk neft kəməri normal işləmir, vaxtaşırı orada neftin hərəkəti bağlanır və son üç ayda tamamilə bağlanıbdır. Bu bizə bir çox çətinliklər yaradır.

Mən bu münasibətlə onu deyə bilərəm ki, biz 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzalayanda Rusiya hökuməti bizə vədlər verirdi ki, siz bu hasil olan neftin hamısını Rusiya vasitəsilə ixrac edin və başqa marşrutlara göz dikməyin, biz bunların hamısını təmin edəcəyik.*

---

* Mərasimdə konsorsiumun prezidenti «Bi Pi-AMOKO Eksploreyşn, Azərbaycan» şirkətinin prezidenti Endi Honvud, «Statoyl» şirkətinin maliyyə nəzarəti meneceri İnge Layf Rulendsholm, ARDNŞ-nin vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış edərək məlumat verdilər.

Biz buna inandıq və ona görə də ilkin neftin ixracı üçün birinci neft kəmərini Rusiyanın ərazisindən Novorossiysk limanına çəkdik. Ancaq təəssüflər olsun ki, Rusiyanın hökuməti verdiyi vədləri yerinə yetirmir və bizim bu boru xətti üzrə neft ixracımız çox çətinliklərlə rastlaşır. Bununla da həm xarici şirkətlər çox şey itirir, həm də Azərbaycan Respublikası çox şey itirir.

Ancaq inşa etdiyimiz və bu ilin aprel ayında istifadəyə verdiyimiz Bakı-Supsa neft kəməri işləyir. Tam gücü ilə işləyir və «Çıraq» neft yatağından hasil olunan neft bu kəmər vasitəsilə dünya bazarına çıxarılır. Yaxşı ki, biz bu neft kəmərini vaxtilə planlaşdırdıq və tikdik.

Bizim böyük nefti ixrac etmək üçün planlaşdırdığımız böyük neft kəməri – Bakı – Ceyhan, Bakı – Gürcüstan – Türkiyə – Ceyhan neft kəməri də mütləq tikilməlidir və məlumdur ki, biz bu sahədə çox işlər görmüşük. Son zamanlar Azərbaycan Dövlət Neft Şirkəti Türkiyə hökuməti ilə, Türkiyənin bu barədə səlahiyyətli şəxsləri ilə danışıqlar aparıbdır. Bildiyimə görə, Türkiyənin Böyük Millət Məclisi bu məsələyə baxıbdır və zəmanət haqqında hökumətə razılıq veribdir. Beləliklə, biz tezliklə Bakı- Ceyhan xəttinin də tikilməsinə başlayacağıq. Bu, mütləq lazımdır. Bizim bu tədbirlərimizi bəyənməyən, yaxud onun əleyhinə çıxanlar artıq görürlər ki, bir müqavilə – «Azəri», «Çıraq», «Günəşli» müqaviləsi işləyir, neft verir. İndi digər bir müqavilə haqqında da biz burada danışacağıq. Burada da artıq böyük imkanlar açılır və beləliklə, Azərbaycan nəzərdə tutduğu kimi, öz neft strategiyasını həyata keçirir. Əvvəldə nəzərdə tutulduğu kimi, Azərbaycanda böyük neft ehtiyatları vardır, böyük qaz ehtiyatları vardır və bunların işlənilməsi, dünya bazarlarına çıxarılması

bizim bugünkü və gələcək vəzifələrimizdir. Bunları həyata keçirmək üçün biz bu boru xətlərini mütləq tikməliyik.

1996-cı ilin iyun ayının 4-də Azərbaycan Dövlət Neft Şirkəti dünyanın bir neçə böyük şirkətləri ilə yeni bir müqavilə imzalamışdır. Bu müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən çox böyük, zəngin «Şahdəniz» neft yatağının işlənilməsi üçün imzalanmışdır. Müqavilə imzalanandan sonra konsorsium təşkil olunmuşdur. Bu konsorsiuma Böyük Britaniyanı təmsil edən «Bi Pi-AMOKO», Norveçi təmsil edən «Statoyl», Fransanı təmsil edən «Elf agiten», həm Rusiyanı, həm İtaliyanı təmsil edən «LUKoyl-ACİP», Türkiyəni təmsil edən «Türk petrolları şirkəti», İranı təmsil edən «OPEK» şirkətləri daxildir. Bilmirəm, hamısını dedim, yoxsa yox. Deyəsən çatışmayan olmadı.

Siz bu konsorsiumun tərkibinə fikir verin. Burada Avropanın bir neçə böyük dövlətinin böyük neft şirkətləri vardır. Amerikanın neft şirkəti var, Rusiyanın, Türkiyənin, İranın neft şirkətləri vardır. Görürsünüz, biz nə qədər böyük dairəni əhatə etmişik. Bu müqavilə 1996-cı ilin oktyabr ayında Azərbaycanın Milli Məclisi tərəfindən təsdiq olunubdur və ondan sonra da yaranmış konsorsium işə başlayıbdır.

«Şahdəniz» yatağı Azərbaycanın Xəzər dənizindəki sektorunda demək olar ki, ən böyük və ən zəngin neft və qaz yataqlarından biridir. Bu, daha çox qaz yatağıdır, nəinki neft yatağıdır. Bu yatağı ilk dəfə Azərbaycanın neftçiləri, neft kəşfiyyatçıları 1954-cü ildə kəşf etmişlər. 1976-cı ildə bu yataqda müəyyən qazma, geoloji işlər aparılıbdır və yatağın zəngin qaz sərvətlərinə malik olduğu müəyyən edilibdir. Ondan sonra 1980-ci illərdə müəyyən işlər aparılıbdır. Hətta mənim xatirimdədir, Xoşbəxt Yusifzadə bir dəfə mənə dedi ki, onlar, - bilmirəm, 1990-cı ildə idi, haçan idi, - orada bir quyu qazıb qaz çıxarmaq istəmişdilər. Ancaq o illər belə böyük yataqları işlətmək, şübhəsiz ki, asan məsələ deyildi.

Mən sizə açıq deyim, biz Sovetlər İttifaqının tərkibində olarkən sovet hökuməti də bu yataqların işlənilməsinə o qədər fikir vermirdi və Azərbaycana vəsait ayırmırdı. Ancaq bu, çox yaxşı olubdur. Çünki biz bu yataqları, demək olar, qoruyub saxlamışıq ki, indi, Azərbaycan müstəqil olduğu zaman bu yataqlardan sərbəst, özü istədiyi kimi istifadə etsin. Yəni bu «Şahdəniz» yatağının böyük tarixi vardır. Azərbaycan neftçilərinin, geoloqlarının, kəşfiyyatçılarının bu yatağın kəşf olunmasında və orada qazma işləri aparılmasında, bu yatağın imkanlarının müəyyən edilməsində böyük xidmətləri vardır. Mən bunu həmişə olduğu kimi xüsusi qeyd etmək istəyirəm.

«Şahdəniz» neft yatağında yaranmış konsorsium tərəfindən aparılan işlər bizim, Azərbaycan neftçilərinin ondan əvvəl gördüyü işlərin nə qədər səmərəli və nə qədər dəqiq olduğunu təsdiq edir. Bu müqaviləni imzalayarkən, şübhəsiz ki, biz hamısına çox diqqət veririk və hər bir şeyi ölçüb-biçirik. Bunu imzalayarkən bizim geoloqların, neftçilərin proqnozu belə idi ki, buradan, «Şahdəniz» yatağından 400 milyard kubmetr qaz almaq olar və xeyli miqdarda da kondensat almaq olar. Azərbaycanda olan bu yataq haqqında materiallarla tanış olan «Bi Pi», «Statoyl» və başqa şirkətlər də bu müqaviləni imzalamaqdan əvvəl bunu bilirdilər və inanaraq bu müqaviləni imzalamağa getmişdilər.

1997-1998-ci illərdə və bu ilin birinci hissəsində konsorsium tərəfindən çox böyük iş görülübdür. Mənə verilən məlumatlara görə, yaxşı nəticələr əldə olunubdur. Bu nəticələri dinləmək üçün mən konsorsiumun üzvlərini və bu məsələ ilə əlaqədar olan başqa şəxsləri, o cümlədən xarici ölkələrin – bu şirkətlərin mənsub olduqları ölkələrin səfirlərini buraya dəvət etmişəm.

YEKUN NİTQİ

Birinci növbədə mən Azərbaycan Dövlət Neft Şirkətini, «Şahdəniz» konsorsiumunu və bu konsorsiuma daxil olan şirkətləri bu böyük nailiyyət münasibətilə ürəkdən təbrik edirəm. «Şahdəniz» konsorsiumunun prezidentinin və başqa natiqlərin burada verdikləri məlumatlar bizi həddən artıq sevindirir və güman edirəm ki, bu, dünya miqyasında böyük bir hadisəyə çevriləcəkdir. Əgər «Şahdəniz» konsorsiumunun prezidenti bu gün bu ilkin məlumatı verərək, eyni zamanda hasil olunacaq qazın dünya bazarlarına ixrac edilməsi haqqında məsələ qoyursa və bunun da müvafiq marşrutunu göstərirsə, bu o deməkdir ki, əldə olunan nailiyyət o qədər əsaslıdır ki, - bu nailiyyət təkcə rəqəmlərlə sayılmır, yəqin ondan da çoxdur, çünki dünyaya qaz ixrac etmək üçün gərək lazımi qədər qaz olsun, - demək, «Şahdəniz» yatağında deyilən qədər və bəlkə də deyiləndən çox qaz var. Bu, ən sevindirici haldır.

Bu gün şəxsən mənim üçün böyük bir bayramdır. Çünki hörmətli Xoşbəxt Yusifzadə burada xatırlatdı, 1969-cu ildə mən Azərbaycana başçılıq etdiyim zamandan – 70-80-ci illərdə Azərbaycanın neft sənayesinin inkişaf etdirilməsi üçün çox böyük işlər görmüş və böyük xidmətlər göstərmişdim. Xoşbəxt Yusifzadə düz deyir, əgər o illərdə biz Xəzərin dərinliklərində olan neft və qaz yataqlarından istifadə edilməsi üçün lazımi maddi-texniki baza yaratmasaydıq və bu işləri aparmasaydıq, şübhəsiz ki, indiki nailiyyətləri əldə edə bilməzdik.

Mən vaxtilə böyük məmnuniyyətlə «Dədə Qorqud» qurğusunun və «İstiqlal» qazma qurğusunun açılışında iştirak etdim. Ona görə ki, bu qurğular bizim qarşıda duran planlarımızın həyata keçirilməsi üçün ən vacib vasitələrdən

biri idi. Amma bir də ona görə ki, bu qurğular yeni deyildir, onlar məhz mənim təşəbbüsümlə 70-ci və 80-ci illərdə Azərbaycana, Xəzər dənizinə gətirilmiş «Şelf-2», «Şelf-3», «Şelf-4», «Şelf-5» qazma qurğularıdır. Onları o vaxt biz gətirdik, mənim təşəbbüsümlə gətirdik. Gətirdik ki, Xəzər dənizində suyun dərinliyi artıq 20 metr yox, 80 metr, 90 metr, 120 metr, 200 metr olan sahələrdə quyu qaza bilək.

Biz bunlara nail olduq. O «Şelf»lər öz işlərini gördülər, çox quyular qazdılar. Doğru deyirsən, əgər o «Şelf» olmasaydı, biz «Günəşli» yatağından neft ala bilməzdik. İndi sən buyurdun ki, «Günəşli» yatağı Azərbaycan neftinin 60 faizini verir. Bunları biz etdik. Əgər onu etməsəydik, o qurğuları buraya gətirməsəydik, Sovet İttifaqının, necə deyərlər, əlindən çətinliklə dartıb alıb buraya gətirməsəydik, indi «Günəşli» yatağı yox idi, Azərbaycan neft ölkəsi olaraq neftsiz qalacaqdı.

İndi isə onlar bizim müasir həyatımıza xidmət edirlər. Amma onlardan ikisi modernləşdirilib, gör növbədə neçəsi qalıb! Onların da modernləşdirilməsindən söhbət gedir, eləmirmi? Olacaq, çünki biz 20-yə qədər müqavilə imzalamışıq. Bunların hamısını iki qazma qurğusu ilə etmək olmaz. Bunlar da olacaqdır.

Demək, biz bunun əsasını o vaxt yaratmışdıq. Bu da bu gün gördüyümüz işlər üçün çox böyük əhəmiyyət kəsb edir.

«Şahdəniz» Azərbaycan alimləri, neftçiləri, geoloqları tərəfindən kəşf olunan yataqlar içərisində ən böyüklərindən biridir. Burada onun sahəsi haqqında slaydlar da göstərildi və hamıya məlum oldu ki, nə qədər sahəni əhatə edir. Amma bu gün bizim üçün daha da əhəmiyyətli odur ki, «Şahdəniz» konsorsiumunun prezidenti bəyan etdi ki, «Şahdəniz» yatağı dünya əhəmiyyətli yataqdır.

Mən görüşümüzün əvvəlində dedim ki, biz «Şahdəniz» yatağının potensialını bilirdik. Ona görə də bu yatağın

əsasında müqavilə imzalamışdıq və bilirdik ki, bundan yaxşı nəticələr əldə edəcəyik. Onlar hamısı proqnozlar idi. Amma indi görünür ki, bu proqnozlar əsaslı olub, düz olubdur. Bu, Azərbaycan neftçilərinin, alimlərinin, Azərbaycan geoloqlarının nə qədər yüksək səviyyəli biliyə malik olduqlarını göstərir ki, belə bir şəraitdə proqnoz verirlər və bu proqnoz da artıqlaması ilə təsdiq olunur.

Bu gün «Şahdəniz» konsorsiumunun prezidenti bəyan etdi ki, 400 milyard kubmetr qaz var, ancaq 700 milyard kubmetrə qədər çata bilər. Bizim çox hörmətli geoloqumuz isə, - demək olar ki, Azərbaycanda Xəzər dənizini Yusifzadə kimi bilən ikinci adam yoxdur, - deyir ki, orada bir trilyon kubmetrə qədər qaz olacaqdır.

Bu gün fürsətdən istifadə edərək, «Şahdəniz» yatağını kəşf edənlərə və Xəzər dənizindəki bütün başqa yataqları kəşf edən bizim alimlərə, neftçilərə, geoloqlara, - dünyasını dəyişənlərə də, bu gün yaşayanlara da, bütün Azərbaycan neftçilərinə bir daha, bir daha təşəkkür edirəm.

Eyni zamanda bugünkü məlumat, dünyaya bəyan etdiyimiz təqdimat bir çox adamlara artıq onların nə qədər yanlış fikirdə olduqlarını, yaxud da qəsdən Azərbaycanın əleyhinə fikir söylədiklərini göstərəcəkdir. 1994-cü ilin sentyabrında biz Azərbaycanda ilk müqaviləni – «Əsrin müqaviləsi»ni imzalayandan sonra başımıza böyük bəlalar gəldi: terror aktları, dövlət çevrilişinə cəhdlər və başqa cinayətlər. Xarici və daxili düşmənlər artıq gördülər ki, Azərbaycan *öz iqtisadiyyatının inkişaf yolunu müəyyən* edib və bu yolla gedir. Ancaq heç kəs heç bir şeyə nail ola bilmədi, - Azərbaycan dövləti öz iradəsi ilə gedib, getdi və bu gün də gedir. Təəssüf ki, Azərbaycanın daxilində olan Azərbaycan vətəndaşları – müxalifət qrupları da bu müqavilələrin imzalanmasının, bu sahədə görülən işlərin əleyhinə çıxdılar.

Onların bu məsələlər barədə lazımi təsəvvürləri olmadığı halda, sadəcə, «Azərbaycanda hər şey yaxşı yox, pis olsun» mövqeyindən çıxış edirdilər, ona görə də bunun əleyhinə çıxırdılar.

Xatirimdədir, ilk neft müqaviləsi – «Əsrin müqaviləsi» Azərbaycanın Milli Məclisində müzakirə olunarkən müxalifət qüvvələri bunun əleyhinə çıxaraq belə fikirlər söyləyirdilər ki, nə üçün biz öz sərvətlərimizi xarici ölkələrə, şirkətlərə veririk, bu sərvətləri saxlamalıyıq, nefti sonra özümüz çıxarmalıyıq və ondan xalqımız üçün istifadə etməliyik. Ancaq anlaya bilmirdilər ki, özümüz bu işləri hələ 10,15,20 il də bundan sonra görə bilmərik. Mən bunu Azərbaycanın və Sovetlər İttifaqının neft sənayesi ilə 30 il məşğul olan bir adam kimi deyirəm. Lakin neft sənayesinin nə olduğunu bilməyən, küçədən gələrək Azərbaycan parlamentinə girən və gündə orada cürbəcür müxalifət fikirlər söyləyən adamlar bunu bilmirdilər və bilə də bilməzdilər. Onlara yalnız o lazım idi ki, bu müqavilə müzakirə zamanı qəbul edilməsin.

1996-cı ildə, «Şahdəniz» müqaviləsinin imzalanması ərəfəsində ölkəmizdə bizimlə işləyən bir şəxs bu müqavilənin imzalanmasının tam əleyhinə çıxdı. Həmin adam üç il bundan əvvəl Azərbaycanı tərk edəndən sonra mən onun adını heç vaxt çəkməmişəm. Çünki o, layiq deyil ki, mən onun adını çəkim. Ancaq bu gün həqiqəti bildirmək üçün mən onun adını çəkməliyəm. O, Milli Məclisin həmin dövrdəki sədri Rəsul Quliyev idi.

Bu müqavilə bir neçə ay idi ki, hazırlanırdı, bütün şirkətlərlə razılaşdırılmışdı, artıq imzalanmağa hazır idi. Müqavilənin imzalanmasından bir həftə əvvəl o, mənim yanıma gəlib dedi ki, bu müqaviləni imzalamaq olmaz. Soruşdum ki, nə üçün? Dedi ki, Dövlət Neft Şirkətindən olan adamlar Sizə düzgün məlumat verməyiblər, burada çoxlu səhvlər, bizim üçün zərərli olan çoxlu şeylər var, ona görə də bunu imzala-

maq olmaz. Mən soruşdum ki, bəs sən indiyə qədər harada idin? O, Milli Məclisin sədri səlahiyyətini daim aşaraq neft şirkəti ilə həmişə əlaqədə idi və çalışırdı ki, bu şirkətin işlərinə rəhbərlik etsin. O, bu müqavilənin hazırlanması prosesi ilə yaxşı tanış idi. Bilirdi ki, hər şey yaxşıdır.

Biz burada neft-qaz sərgisi keçirirdik. Bu müqavilə həmin gün imzalanmalı idi. O, bu məsələni bir həftə qabaq ortaya atdı ki, işi pozsun. Mən hər fikri nəzərə alıram. Ona görə də onun fikrini nəzərə aldım, Dövlət Neft Şirkətinin bütün rəhbərlərini bax, bu otağa dəvət etdim. Rəsul Quliyev də, Artur Rasizadə də və Dövlət Neft Şirkətinin bütün rəhbərləri də orada idilər. Mən ona dedim, - dur fikrini sübut et ki, bu müqaviləni niyə imzalamaq olmaz. Şübhəsiz ki, o, cəfəngiyat danışdı, Dövlət Neft Şirkətinin nümayəndələrini təhqir etməyə başladı. Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti Natiq Əliyev, bu sahədə ən böyük mütəxəssis Xoşbəxt Yusifzadə, yadımdadır, Valeh Ələsgərov və başqaları bir-bir onun üzünə durub dedilər ki, sənin fikirlərinin heç bir əsası yoxdur. Sən sadəcə, işə mane olmaq istəyirsən. Ümumiyyətlə, sənin bu məsələlərdən başın çıxmır. O, çox pərt oldu. Bəyan etdi ki, mən bu barədə Sizə rəsmi yazacağam. Bildirdim ki, sən nə istəyirdin dedin, cavabını da aldın, yazırsan yaz. Ancaq o heç nə yazmadı, çünki axı yaza bilməzdi.

Bu adam, əlbəttə, neft sənayesində neftin emalı işini bilirdi. Mən vaxtilə, 1981-ci ildə onu neft emalı zavoduna direktor təyin etmişdim, bu işi bilirdi. Ancaq o, neftdən nə qədər qanunsuz qazanc götürmək işini yaxşı bilirdi. Amma onun neft sənayesindən, qurğulardan, quyulardan, neftçıxarmadan, dənizdən – bütün bu işlərdən xəbəri yox idi. Təkcə ona görə yox ki, onun bu işlərdən xəbəri yox idi, - o, sadəcə, həmin məqamda, işimizi qurduğumuz zaman bizə zərbə vurmaq, təxribat törətmək istəyirdi, ancaq buna nail ola bilmədi. Biz heç vaxt heç kəsə bunu etməyə imkan verməmişik.

Müqavilə imzalandı, oktyabrın 4-də Milli Məclisdə təsdiq edildi və indi həyata keçirilir. İndi biz bunun gözəl nəticələrini görürük. O isə deyirdi ki, bunu nə üçün indi edək, saxlayaq, biz birinci müqavilədən gəlir götürəcəyik, sonra texnika alacağıq, imkanlarımızı yaradacağıq və bütün bu işləri özümüz edəcəyik. Bilirsiniz, bunlar hamısı cəfəngiyatdır. Birincisi, o gəliri nə vaxt götürəcəyik? İkincisi, o gəliri götürüb neft sənayesinə yönəltsək, onda Azərbaycanın başqa sosial-iqtisadi məsələləri necə olacaq? Aydındır ki, buna heç izahat vermək lazım deyil. O, sadəcə, belə fikirləri irəli sürərək bizim işimizə mane olmağa çalışırdı. Ancaq mane ola bilmədi, ona görə də qaçdı, indi Amerika Birləşmiş Ştatlarında gizlənir. Neft sənayesindən xəbəri olmayan adam guya neft haqqında kitab yazır, özü də rus dilini «yaxşı bilən» adam kimi, rus dilində yazır.

Bizim bu işimizə indi də mane olmağa çalışanlar vardır. Ancaq heç kəs heç bir şeyə nail ola bilməyəcəkdir. Azərbaycan dövlətinin yeni neft strategiyası müəyyənləşdirilibdir. Biz bu strategiyanı bundan sonra da ardıcıl surətdə həyata keçirəcəyik.

«Şahdəniz» neft yatağına qoyulan 367 milyon dollar sərmayə haqqında burada söhbət açıldı. Təsəvvür edin, cəmi 2 il müddətində Azərbaycana 367 milyon dollar sərmayə qoyulubdur. Konsorsiumun prezidenti bəyan etdi ki, onun böyük bir hissəsi işlədiklərinə görə həm Azərbaycanın müxtəlif şirkətlərinə verilib, həm əmək haqqı, həm də vergi ödənilibdir. Demək, bunun əsas hissəsi bu gün Azərbaycana xeyir, gəlir gətirir.

Bizim bu neft müqavilələri hələ son nəticəyə qədər – bu iş başlayandan, iş prosesində həm ölkəmizə sərmayə gətirir, həm də xalqımızın böyük bir hissəsini, Azərbaycan şirkətlərini, gəmilərini, qurğularını, mütəxəssislərini işə cəlb edir, işlə təmin edir, onlara əmək haqqı verir. Demək, hələ son

nəticəyə qədər Azərbaycan bu sərmayələrdən bəhrələnir ki, bu da çox əlamətdar bir hadisədir.

«Şahdəniz» konsorsiumunun prezidentinin verdiyi məlumatlar tam aydındır. Ona əlavə etməyə bir şey yoxdur. Mən bir daha deyirəm ki, bu məlumatlar çox sevindiricidir. Ancaq məni daha da sevindirən o oldu ki, konsorsiumun prezidenti məsələ qaldırdı: qazın ixracı üçün artıq bu gün iş görmək lazımdır. Bəli, mən də belə hesab edirəm. Ona görə də mən bu gün Azərbaycan Dövlət Neft Şirkətinə və konsorsiuma göstəriş verirəm ki, onlar indiyə qədər əldə etdikləri nailiyyətlər əsasında yeni quyuların qazılmasını sürətləndirsinlər. Bəlkə də özləri bilirlər. Amma mən tövsiyə edərdim ki, bir geniş plan hazırlayıb onun həyata keçirilməsi ilə məşğul olsunlar. Çünki yeni quyular nə qədər tez qazılarsa, orada olan qazın və neft kondensatının həcmi daha da dəqiq olacaqdır. Bu da qazın ixracı üçün lazımi işlər görməkdə bizə kömək edəcəkdir.

Mən Nazirlər Kabinetinə tapşırıram ki, Dövlət Neft Şirkəti və konsorsiumla birlikdə Azərbaycan Respublikasının qaza olan ehtiyaclarını ödəmək üçün lazımi infrastrukturun yaranmasını təmin etsin, bu infrastrukturun, qurğuların yaranması üçün planlar hazırlasın və mənə təqdim etsin.

Qazı dünya bazarlarına ixrac etmək üçün, şübhəsiz ki, boru kəməri lazımdır. Biz indi bununla bilavasitə məşğul olmalıyıq. Mən konsorsiumun rəhbərinin təklifi ilə tam razıyam ki, bizim üçün ən əlverişli bazar Türkiyədir. Bir müddət bundan əvvəl, Türkiyənin prezidenti hörmətli cənab Süleyman Dəmirəl ilə danışarkən o mənə dedi ki, Türkiyənin gələcəkdə, bəlkə də 2010-cu ilə qədər 40 milyard kubmetr qaza ehtiyacı vardır. Biz bu ehtiyacı təmin edə bilərik.

Güman edirəm, verilən məlumatlar, əldə etdiyimiz yeni nailiyyətlər əsasında demək olar ki, Azərbaycan «Şahdəniz» yatağından 25 il müddətində ildə 16-20 milyard kubmetr qaz ixrac edə bilər. Nazirlər Kabinetinə göstəriş verirəm ki, bu

məsələnin kompleks şəklində həll olunması üçün müəyyən təkliflər hazırlayıb mənə təqdim etsinlər.

Demək, beləliklə, biz indi yeni bir mərhələyə keçirik. Neft kəmərləri ilə yanaşı, Azərbaycandan dünya bazarına qaz ixrac etmək üçün də boru kəməri tikməliyik və bu işə başlamalıyıq. Bir daha deyirəm ki, bu kəmər də Bakı-Gürcüstan-Türkiyə istiqamətində olmalıdır. Beləliklə, «Əsrin müqaviləsi»ndən sonra ikinci böyük müqavilədir ki, biz qısa bir müddətdə bunun gözəl nəticələrini görürük.

Azərbaycanın gələcəyinə nəzər salın. İmlazanmış bütün müqavilələr üzrə Azərbaycana 60 milyard dollar sərmayə qoyulacaqdır. Təsəvvür edin, bu sarmayələr birinci növbədə həmin sərmayəçilərə, xarici ölkələrin şirkətlərinə və Azərbaycana nə qədər böyük yeni sərvətlər gətirəcəkdir. Mən buna beş il bundan əvvəl də inanırdım, bu gün də inanıram. Mən bu inamla, bu nikbinliklə də bugünkü toplantını bağlayıram.

«Şahdəniz» konsorsiumunu və Azərbaycan Dövlət Neft Şirkətini bir daha təbrik edirəm!

Sağ olun.

QEYDLƏR

1. **Zərifə xanım**, Əliyeva Zərifə Əziz qızı (1923-1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. – 5-6,387-388.

2. **«Kaspian – Amerika Telekom»** (KATEL) – Azərbaycan-Amerika birgə müəssisəsi. Azərbaycanda ilk simsiz telefon stansiyası. – 7-9.

3. **Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km², əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı iki palatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 7-9,18,19,20,21,26,28,38,39,40,50-209,216,218,219,221,223,224,227,228, 231,232,241,242,243,245,247,248,250,252,261,267,273,275,277,284,285, 286,287,300,307,310,327,328,329,330,331,334,336,337,349-354,356,358, 369,370,376,383,399,400,414,416,425-428,441,443,463,469.

4. Beynəlxalq Atatürk Sülh mükafatı – Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün «Yurdda sülh, cahanda sülh» prinsiplərinə uyğun olaraq regionda, beynəlxalq aləmdə və ölkələrarası münasibətlərdə sülh, dostluq, anlaşma və xoş məramlı əməkdaşlıq yaradılmasına xidmət edən görkəmli şəxsiyyətlərə verilir. Mükafat 1986-cı ildə təsis edilmişdir. Sülh mükafatı Atatürkün qızıl suyuna salınmış gümüş barelyefi, qızıl döş nişanı, diplom və miqdarı hər il müəyyən edilən maddi mükafatdan ibarətdir. – 10,11,13,225,231,241, 256,257.

5. Mustafa Kamal Atatürk, Qazi Mustafa Kamal (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923-38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 10,11,12,13,225,231,241,256,263,272,278.

6. Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km², əhalisi 62,7 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 10,11-12,13-14,19,20,35,48,69,73,84,97,105,110,115, 144,185,198,199,213-216,220,221,223,224,225,231,237-314,321,328, 334,335,337,338,341,342,346,351,378,384,399,400,414,416,462,463, 471.

7. Süleyman Dəmirəl (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasi-

bətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 11-12,198,199,214,221,225,239,240,241,245-252,257,258,266,267-268,271, 278,287,288,296,297,305-308,309-312,313,322,334,338,339,340,341, 346,347,356,357,358,359,360,361,362,363,471.

8. Büləd Ecevit (1925-2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978-79 və 1997-2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972-80-ci illərdə Respublika Xalq Partiyasının, 1978-88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi olmuşdur. – 13-14,240-244,252,267,278,288,296,358.

9. Bakı-Supsa neft kəməri – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı-Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Sursada ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı-Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 15-22,57,69,77, 81,91,94,109,137,144,148,243,260,277,283,461-462.

10. Şevardnadze Eduard Amvrosiyeviç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972-85-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1985-90-cı illərdə SSRİ xarici işlər naziri, 1994-2003-cü illərdə Gürcüstan Respublikasının prezidenti olmuşdur. – 15-22,23-24,34,93,95,129,423,445.

11. Leonid Daniloviç Kuçma (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994-2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. – 15-22,23-24,324,368-371.

12. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 15,21, 109,110,283.

13. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 15,17,141,149,150,151,204,208,243,282,283,330,352, 461,462,463,465,468,469,471,472.

14. «Əsrin müqaviləsi» – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 16,17,20,21,69,88,104,105,126,128,137,148, 259,283,461,467,468,472.

15. Neft Daşları – Abşeron yarımadasından 42 km cənub-şərqdə, açıq dənizdə, polad dirəklər üzərində salınmış «neft» şəhəri. Bu ərazi oradakı daşların (təqribən 20 ədəd) bəzilərində neft-qaz nişanələrinin olması ilə əlaqədar Neft Daşları adlandırılmışdır. Neft Daşları rayonunda geoloji kəşfiyyat işlərinə 1946-cı ildən başlanmışdır. Çıxarılan neft həm tankerlər, həm də boru kəmərləri vasitəsilə sahilə nəql edilir. – 16.

16. Bakı-Novorossiysk – 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı-Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 17,21,69,94,104,137,148,243,277,283,461.

17. Rusiya, R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km², əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı iki palatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 18,20,26,28, 33-49,53,56,62,66,67,71,72,73,74,87,91,102,103,104,105,111,112,113,120, 124,125.127,128,129,134,135,137,162,164,217-222,223-230,242,243,244, 254,257,273,277,284,348,363,392,399,410,415.416,419,420,426,441,443, 446,450,461,462,463.

18. İran, İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km², əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 18,66,74,105,122,123,137,160, 292-296,419,420,463.

19. Bakı-Ceyhan – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı-Tbilisi-Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 19,20,56,69,110,241, 243,246,250,255,259,260,261,277,278,283,462.

20. Yan Kalitski (d.1948) — ABŞ hökumətinin yeni müstəqillik qazanmış ölkələr üzrə energetika və ticarət məsələlərinə dair əlaqələndirici, ticarət nazirliyinin xüsusi müşaviridir. – 19,154.

21. Transxəzər qaz kəməri – Xəzər dənizi vasitəsilə Azərbaycandan Gürcüstana və Türkiyəyə Orta Asiya qazını nəql edəcəkdir. Türkiyədən isə Avropa bazarlarına çatdırılacaqdır. – 20,110,241,246.

22. Bill Klinton, U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992-2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 21,30,56,77-78,87,115,

123,149,167,180,182,197,203-205,213,214,216,218,219,221,242,243,249, 253,273,274,276,285,286,287,300,307,327,328,337,349,350,351,353,383, 426,427.

23. Avropa Birliyi (AB) – 1951-57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi - AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun - vahid valyutaya keçməsi - AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra - AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 21,24,96,139,243,254,285, 329,330,410,419,437,438,445.

24. Poti – İliçovsk – Varna bərə keçidi – Ukrayna ərazisi ilə, Qara dəniz, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan vasitəsilə yüklərin Qərbdən Şərqə, Şərqdən Qərbə hərəkətini təmin edəcəkdir. 1999-cu il aprelin 17-də açılmışdır. – 23,24,82.

25. Transxəzər nəqliyyat dəhlizi (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 23-24,81,82,84,94,139,243,254, 329,412.

26. İpək yolu, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda

33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 23,58,70,81,82,83,84,85,94,139,182,243,275,286,329,330,351, 412.

26. Fransa, Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min km², əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 25-28, 29-32,39,40,53,56,67,79-80,91,95,102,111,115,120,134,213,220,227,228, 242,273,284,307,327,328,351,370,399,414,426,441,443.

27. Jak Şirak (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-76 və 1986-88-ci illərdə Fransanın Baş naziri, 1977-95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974-76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 25-28,29-32,56,79-80,87,242,307, 327,399.

28. Dağlıq Qarabağ Muxtar Vilayəti – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı (70% erməni, 30% azərbaycanlı). Ərazisi 4 min km²-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853, 874,884 qətnamələrinə görə erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 25-28,30,35,36,40,42,51,56,67,68,78,79,86,87, 91,95,96,97,99,100,102,103,111,115,116,118,121,123,156,166,190,208, 213,220,226,242,246,254,273,274,288,305,308,318,327,357,397,398,399, 401,402,403,404,415,416,417,418,441,442,444,446,454.

29. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamna-

məsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə *qəbul olunmuş* sayılır. – 25.

30. ATƏT-in Minsk qrupu – 1992-ci il martın 24-də yaradılmışdı. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 25,26,31,38,45,53,56,67,72,78,79-80,86,87, 91,92,93,95,96,102,103,104,111,115,116,134,135,208,226,227,242,248, 254,273,284,399,400,403,426,441,442,446.

31. ATƏT-in Budapeşt Zirvə görüşü – 1994-cü il dekabrın 3-7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – 26,28,190,204.

32. ATƏT-in Lissabon Zirvə görüşü – 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən

qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 26,28,30,38,39,40,56,68,91,102,116,190,213,220,242,254,273,399,402,403, 442,444,446.

33. Denver görüşü – 1997-ci il iyunun 20-də Denver şəhərində Rusiya dövlət başçısının da iştirak etdiyi «Yeddilər» yığıncağında ATƏT-in Minsk konfransının həmsədrləri olan dövlətlərin prezidentləri – Bill Klinton, Boris Yeltsin və Jak Şirak Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair birgə bəyanat imzalamışlar. Münaqişənin tarixində ilk dəfə olaraq üç dövlət başçıları bəyanat vermişlər ki, münaqişəni tezliklə aradan qaldırmaq lazımdır. – 26.

34. «Ümumi dövlət» – ATƏT-in Minsk qrupu həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) Azərbaycana etdiyi təklif; yəni Azərbaycan ərazisində yeni bir erməni dövlətinin yaradılması. Beynəlxalq hüquqda isə «ümumi dövlət» adında anlayış yoxdur. Azərbaycan Dağlıq Qarabağa ancaq öz daxilində yüksək özünüidarəetmə statusu verə bilər. – 27,40,79,87,254, 445,446.

35. Atəşkəs – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 26,46,86,91,96,102,116,134,220,271,284,398.

36. Şarl de Qoll (1890-1970) – Fransanın görkəmli dövlət, hərbi və siyasi xadimi. İkinci dünya müharibəsinə qədər müxtəlif hərbi rəhbər vəzifələrdə olmuşdur. Alman faşist qoşunları Parisə daxil olduqdan (1940,14 iyun) sonra B.Britaniyaya getmiş, Londonda «Azad Fransa» hərəkatının əsasını qoymuşdur. 1943-cü ilin noyabrından Fransa Milli Azadlıq Komitəsinin, 1944-cü ilin iyunundan isə Fransa Respublikası Müvəqqəti hökumətinin sədri olmuşdur. Fransada prezidentlik rejimi yarada bilmədiyindən istefaya çıxmışdı. 1958-ci ildə Əlcəzairdəki hərbi qiyamla yaranan siyasi böhranla əlaqədar Fransa parlamenti (1958) Şarl de Qollu yenidən hakimiyyətə gətirdi. Şarl de Qoll iki dəfə (1958,1965) Fransa Respublikasının prezidenti seçilmişdir. – 30.

37. Yeltsin Boris Nikolayeviç (d.1931) – Rusiyanın siyasi və dövlət xadimi. 1991-2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 30,31,47,56,87,112,124,125,242,244,348,399.

38. Vaşinqton şəhəri – Amerika Birləşmiş Ştatlarının paytaxtı. Ölkənin siyasi, elm və mədəniyyət mərkəzi. Şəhər 1791-ci ildə salınmış və ABŞ-ın ilk prezidenti C.Vaşinqtonun şərəfinə adlandırılmışdır. – 31,32, 50,51,52-166,179,181,183,203,204,214,216,218,219,224,228,231,232,241, 242,253,254,274,276,277,285,290,327,328,337,350,352,383,414,424,442.

39. Yuqoslaviya böhranı – 1980-ci illərdən başlayaraq Yuqoslaviyada (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikasını (SRY) yaratdılar. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılığa başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülh məramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovaya girdi. 2002-ci ildə SRY Serbiya və Çernoqoriya adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Çernoqoriya da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 33-49,53, 56,87,115,118,119,124,136,157,226,427.

40. Viktor Çernomırdin, V i k t o r S t e p a n o v i ç (d.1938) – Rusiya Federasiyasının dövlət xadimi. 1992-98-ci illər Rusiya Federasiyasının Baş naziri olmuş, hazırda isə Rusiya Federasiyasının Ukrayna Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. – 33-49,51.

41. Artur Rasizadə, A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 34,369, 469.

42. Balkan böhranı – bax, Yuqoslaviya böhranı.

43. İslam Kərimov, İ s l a m Ə b d u q ə n i o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989-90-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 34,81,129.

44. Kipr problemi – 1974-cü ildə Yunanıstanda hakimiyyətə gəlmiş hərbi xunta Kiprin yunan irticaçıları ilə birlikdə Kipri Yunanıstana birləşdirmək məqsədilə ölkədə hərbi çevriliş etdilər və prezident Makariosu hakimiyyətdən uzaqlaşdırdılar. Bundan narahat olan Türkiyə Respublikası Kiprin türk icmasını müdafiə etmək məqsədilə oraya hərbi qüvvələr yeritdi və türk icması yaşayan ərazini yunan irticaçılarından təmizlədi. 1975-ci ildə Türkiyə-Kipr administrasiyası bu ərazidə federativ türk dövləti – Kipr Respublikasını elan etdilər. 1983-cü ildə bu dövlətin qanunverici orqanı Şimali Kipr Türk dövləti (ŞKTR) – Kıbris elan etdi. – 35.

45. NATO (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 35,47,48,50-166,179, 181,203,209,218,223,227,229,245,247,253,257,276,285,328,350,352,362, 383,416,419,427.

46. Sovetlər İttifaqı, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) – 1922-1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə

imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 36,37,62,66,72,100,107,120,124,125,132, 133,134,257,281,282,318,376,377,378,380,381,408,410,413,420,453,464, 468.

47. Separatizm – azlıqda qalan millətlərin, yaxud bir əyalətin dövlətdən ayrılaraq müstəqil dövlət qurmağa çalışması. – 36,40,41,42.

48. Qorbaçov, M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985-91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990-91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin, həmçinin Tbilisi və Vilnusdakı qanlı hadisələrin təşkilatçısı və günahkarıdır. – 37,344.

50. Kosovo hadisələri – 1999-cu ildə Serbiya hakimiyyəti tərəfindən Kosovoda yaşayan alban əhalisinə qarşı etnik zor tətbiq edilməyə başlandı. Bunun nəticəsində milyona yaxın dinc alban əhalisi vəhşicəsinə öldürüldü. Bunun qarşısını almaq üçün NATO hərbi qüvvələri işə qarışdı. Yuqoslaviya hərbi qüvvələri öz qoşunlarını Kosovodan çıxarmağa məcbur edildi və NATO sülh məramlı qüvvələri Kosovoya gətirildi. – 37,38,40,41, 42,45,46,53,99,115,117,118,119,124,136,209,227,305,427.

51. Müstəqil Dövlətlər Birliyi (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əmək-

daşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 40,45,47,227,228,229,244,285,301-302,318, 378,419,420.

52. Miloşeviç Slobadan (1941-2006) – 1992-97-ci illərdə Serbiyanın 1997-2000-ci illərdə Yuqoslaviya Respublikası İttifaqının prezidenti olmuşdur. 1999-cu ildə Miloşeviç Kosovonun muxtariyyətini ləğv etmiş və Kosovoda yaşayan müsəlman albanlara qarşı soyqırımı tətbiq etmişdir. Nəticədə milyona yaxın dinc əhali vəhşicəsinə öldürülmüşdü. Bunun qarşısını almaq üçün NATO hərbi qüvvələri Yuqoslaviyanı hərbi qüvvələrini Kosovodan çıxarmağa məcbur etdi. Məhz bu soyqırıma görə 2002-ci ildə yeni Serbiya hakimiyyəti Miloşeviçi Haaqa məhkəməsinə verməyə məcbur oldu. 2006-cı ildə məhkəmə başa çatmamış Miloşeviç həbsxanada ürək çatışmazlığından öldü. – 41,42,45, 46,118,119,120,219.

53. Xocalı soyqırımı – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 41.

54. Helsinki aktı – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 45.

55. Olbrayt Madlen (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin edilmişdir. 1997-2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 50,93-97,114-

116,123,124,180,182,207-209,213,216,218,220,221,242,253,254,275,276, 285,286,300,328,337,350,351,353,414,426,427.

56. Amerika Konqresi, A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 50,57,83,84,88,123,138,139,143, 147,149,155-165,214,218,243,246,253,275,286,329,330,337,351,400.

57. Varşava müqaviləsi – 1955-ci il mayın 14-də Varşavada sosialist ölkələrini qorumaq, Avropada sülhü və təhlükəsizliyi təmin etmək məqsədilə yaradılmışdı. Bura ADR, Albaniya, Bolqarıstan, Macarıstan, Polşa, Rumıniya, SSRİ və Çexoslovakiya daxil idi. 1991-ci ildə SSRİ süqut etdikdən sonra bu təşkilat da öz-özünə dağılmışdır. – 52,257.

58. NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10-11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 53,70, 108,276.

59. Şimali Atlantika Müqaviləsi Təşkilatı – bax, NATO

60. «907-ci maddə» – ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını

qadağan edir. Buna baxmayaraq istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 57,58,78,88,123,138,139,157,158,159,160, 162,165,213,243,246,253,286,383,400.

61. Senat – ABŞ-da (Konqresin) yuxarı palatası nəzərdə tutulur. – 58,139,149,183,204,208,218,243,286,329,330,351,352.

62. «Xolokost» – xatirə muzeyi. 1963-cü ildə Vaşinqtonda yaradılmışdır. Muzeyin məqsədi İkinci dünya müharibəsi illərində və əvvəllər yəhudi xalqına qarşı soyqırımın tarixini sənədləşdirmək, öyrənmək və informasiya yaymaqdır. Muzeyin divarındakı saxsı lövhədə soyqırıma məruz qalmış milyon yarım yəhudi uşağının xatirəsi anılır. –60-64.

63. İkinci dünya müharibəsi (1939-45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942-43-cü illərdə Sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də Sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 62,157, 413.

64. Sabsay Pinxos Vladimiroviç (1893-1980) – Azərbaycan heykəltəraşı. SSRİ xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı. 1926-cı ildən Bakıda yaşayıb yaratmışdır. M.F.Axundovun Bakıda qoyulmuş abidəsi Sabsayın ilk monumental abidəsidir. O, əsasən büst-portretlər («Neftçi Babayev»,

yazıçı Süleyman Rəhimov və A.S.Ruşkinin portretləri) ustası kimi tanınmışdır. Onun əsərləri üçün obrazın psixoloji ifadəliliyi, plastik forma dəqiqliyi və aydınlığı səciyyəvidir. – 62.

65. Benyamin Netanyahu (d.1949) – İsrailin siyasi və dövlət xadimi. 1988-ci ildən «Likud» partiyasından Knessetə deputat seçilmişdir. 1993-cü ildən «Likud» partiyasının sədridir. 1996-99-cu illərdə İsrailin Baş naziri olmuşdur. – 63.

66. ABŞ-ın Hərbi Dəniz Akademiyası – dünyanın ən nüfuzlu hərbi təhsil ocaqlarından biri. Hərbi dəniz məktəbi kimi 1845-ci ildə təşkil edilmiş, beş il sonra isə Hərbi Dəniz Akademiyasına çevrilmişdir. Akademiyada təhsil müddəti 4 ildir. 1976-cı ildən etibarən akademiyaya qadınlar da qəbul edilir.

Akademiya şəhərciyinin sahəsi 338 akrdır. Burada 4 min kursant təhsil alır. – 65-76,118,183.

67. «AMOKO» – dünyanın ən böyük neft və qaz istehsalçılarından biri. 1989-cu ildə yaradılmışdır. Müxtəlif ölkələrdə 42.000 işçisi var. Şirkət energetika, neft və qaz emalı, kimya və neft-kimya sahələrində də fəaliyyət göstərir. – 70,137.

68. «Yunokal» – neft şirkəti. 1980-ci ildə ABŞ-ın Santa-Paula şəhərində «Kaliforniya neft şirkəti» adı ilə yaradılmışdır. «Yunokal» Azərbaycanda fəaliyyət göstərən ilk beynəlxalq neft şirkətlərindəndir. – 70,137.

69. «Pennzoyl» – neft və təbii qaz ehtiyatlarının kəşfiyyatı, istismarı, sürtkü yağlarının istehsalı və satışı ilə məşğul olan şirkət. 1989-cu ildə yaradılmışdır. Mərkəzi ofisi ABŞ-ın Hyüston şəhərindədir. 10 min işçisi var.

«Pennzoyl» şirkəti Azərbaycanda 1992-ci ilin əvvəllərindən fəaliyyət göstərir. – 70,137.

70. «Eksson» – dünyanın ən iri və Amerikanın qocaman sənaye korporasiyalarından biri. Mənzil-qərargahı Amerikanın Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam

və ya şərikli sahibidir. – 70,126,141,143,145,146,149,151,161,204,208, 330,352.

71. «Mobil» – dünyanın ən iri neft şirkətlərindən biri. 1986-cı ildə yaradılmışdır. Şirkət neft və qaz yataqlarının kəşfiyyatı, neft və qaz hasilatı, satışı, emalı və nəql olunması ilə, kimyəvi maddələr istehsalı və elmitədqiqat işləri ilə məşğul olur. – 70,126,141,143,145,149,151,161,204, 208,330,352.

72. «Şevron» – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Amerikanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı, tərəfdaşı və birgə müəssisəsi fəaliyyət göstərir. Müxtəlif ölkələrdə 41 000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. 1996-cı ildə gəliri 43 milyard dollara yaxın olub.

«Sevron» təbii qaz və maye enerji daşıyıcıları istehsalında dünyada birincilər sırasındadır. ABŞ-ın ən iri neft emalçılarından olan «Şevron»un ABŞ-da 6, xaricdə 2 neft emalı zavodu var. Bundan əlavə, «Şevron»un «Kalteks» filialının dünyanın digər 13 neft emalı zavodunda payı var. O, həmçinin ABŞ-da ən iri yanacaq satıcısıdır. ABŞ, Kanada və İngiltərədə 8400 satış məntəqəsində emal etdiyi məhsulları satır. – 70, 297-300.

73. Ağ ev – Vaşinqtonda ABŞ prezidentinin iqamətgahı və dəftərxanası (1800-cü ildən).1792-1829-cu illərdə inşa edilmişdir. ABŞ hökumətinə çox zaman Ağ ev deyilir. – 77-78,150,204,330,331,351,352.

74. Birləşmiş Millətlər Təşkilatı (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 78,119,319, 327,429-431.

75. ÇUÖAM - Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 81-82, 129.

76. Özbəkistan, Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km², əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 81-82,112,129,215,260,277,283.

77. TASİS – 1991-ci ildə Avropa Şurası tərəfindən MDB dövlətlərinə texniki cəhətdən kömək etmək üçün yaradılan proqram. Proqram 2 hissədən – hər bir ölkəyə, o cümlədən Azərbaycana; region ölkələrinə texniki köməkdən ibarətdir.

Azərbaycan Respublikası TASİS proqramına 1992-ci ildə daxil olmuşdur. – 81,329.

78. Sem Braunbek (d.1956) – hüquqşünas. ABŞ Konqresi Nümayəndələr palatasının üzvü, 1996-cı ildən senator, Xarici Əlaqələr Komitəsinin üzvü. – 83-85,139,182,243,275,329,351.

79. Zbiqnev Bjezinski (d.1928) – Amerikanın siyasi və dövlət xadimi, politoloq. 1966-88-ci illərdə Dövlət Departamentinin Siyasi Planlaşdırma Şurasının üzvü olmuşdur. 1977-81-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri, Təhlükəsizlik Şurasının əməkdaşı olmuşdur. 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəridir. 1987-91-ci illərdə ABŞ prezidentinin xarici kəşfiyyat üzrə müşavirlər komitəsinin üzvü olmuşdur. 1989-cu ildən Con Norkins universitetinin Nitse adına Dərinləşdirilmiş Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri müşaviridir.

10-dan çox kitabın və bir sıra tədqiqatların müəllifidir. – 84,286,329, 351.

80. Henri Kissincer (d.1923) – Tanınmış Amerika dövlət xadimi, politoloq. 1952-ci ildən Beynəlxalq Harvard Seminarının icraçı direktoru ol-

muşdur. 1969-75-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi işləmişdir. 1973-77-ci illərdə ABŞ-ın Dövlət Katibi olmuşdur.

Beynəlxalq problemlərə dair bir sıra kitabın müəllifidir. Beynəlxalq Nobel sülh mükafatı (1973-cü il) və bir sıra digər mükafatların laureatıdır. – 86-89,336.

81. Brend Skoukroft (d.1925) – ABŞ Beynəlxalq Xarici Siyasət Forumunun prezidenti, ehtiyatda olan aviasiya general-leytenantı. «Pennzoyl» şirkətinin direktorlar şurasının üzvüdür. – 89-92.

82. «Statoyl» – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 90,137.

83. Maqne Bondevik – (d.1947) – 1997-2000-ci və 2001-2005-ci illərdə Norveçin Baş naziri olmuşdur. Hazırda Norveçdə «Sülh və insan hüquqları» mərkəzinin prezidentidir. – 90-92.

84. Cənubi Qafqaz dövlətləri – burada Azərbaycan, Gürcüstan, Ermənistan respublikaları nəzərdə tutulur.

85. Böyük Britaniya, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km², əhalisi 58.8 milyon nəfərdir. İnzibati cəhətdən qrafliqlara və qrafliq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 96,115,213-234.

86. Robin Kuk (d.1946) –İngiltərənin siyasi və dövlət xadimi. 1974-cü ildən İngiltərə parlamentinin deputatıdır. 1997-2001-ci illərdə İngiltərənin xarici işlər naziri vəzifəsində çalışmışdır. 2001-2003-cü illərdə İngiltərə parlamentində Nümayəndələr palatasının lideri olmuşdur. – 96,214.

87. İsmayıl Cəm – (1940-2007) – Türkiyənin siyasi və ictimai xadimi, 1997-2003-cü illərdə Türkiyə Respublikasının xarici işlər naziri vəzifəsin-

də işləmişdir. Türkiyə-Yunanıstan münasibətlərinin yaxşılaşmasında mühüm rolu olmuşdur. – 97.

88. Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzi (SBAM) – Amerika Birləşmiş Ştatlarının ən məşhur və nüfuzlu siyasi mərkəzlərindən biri. 1962-ci ildə yaradılmışdır. Əsasən ayrı-ayrı korporasiyalar tərəfindən maliyyələşdirilir. SBAM-ın əsas işi strateji təhlildən və ABŞ rəhbərliyinə müvafiq tövsiyyələr verməkdən ibarətdir. Mərkəzin Xəzər hövzəsi dövlətləri üzrə (enerji və təhlükəsizlik məsələlərinə dair) xüsusi proqramları var. SBAM-ın əməkdaşları arasında tanınmış analitiklər və keçmiş dövlət xadimləri də var. – 98-113.

89. 1993-cü il iyun hadisələri – Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, Heydər Əliyevin xalqın tələbilə Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 101,272,405.

90. 1994-cü il oktyabr hadisələri – Oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan Prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 101,106,127,128, 188-190,272,319.

91. 1995-ci il mart hadisələri – Martın 12-13-də Qazax və Agstafa, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstələrinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 101,106,127,128,272.

92. 1990-cı ilin qanlı yanvarı – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilməden Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanması-

nın və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – *109,318.*

93. Saparmurad Niyazov, S a p a r m u r a d A t a o ğ l u (1940-2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ildən 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi. 1990-cı ildən Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 111,117.

94. «Vaşinqton post» – ABŞ-da gündəlik qəzet. Əsası 1877-ci ildə qoyulmuşdur. Tirajı təxminən 500 min nüsxədir. – 117-130,183.

95. İraq – Küveyt müharibəsi. 1990-cı ilin avqustunda İraq ordusu Küveyti işğal etdi. 1991-ci ilin fevralında isə ABŞ başda olmaqla, çoxmillətli silahlı qüvvələr tərəfindən Küveyt azad edildi. Səddam Hüseyn məcbur olub öz hərbi silahlı qüvvələrini Küveytdən çıxartdı. – 120.

96. Xatəmi, M ə h ə m m ə d X a t ə m i (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989-92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri, 1997-2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 122,123,292,293,294,295-296.

97. Şovinizm və millətçilik – a) Şovinizm millətçiliyin ifrat, mürtəce formalarından biridir. Şovinizm siyasəti guya «ikinci dərəcəli» millət və irqlər üzərində hökmranlıq etməli olan bir millətin müstəsnalığını təbliğ edir. b) Millətçilik milləti ictimai birliyin ali fövqəltarixi və fövqəlsinfi forması kimi izah edir, milli müstəsnalıq ideyası irəli sürür. Millətçilik *bəzən rasizmlə yaxınlaşır, daxili və dövlətlərarası konfliktlərə çevrilir.* – 124.

98. İlham Əliyev, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Prezident Heydər Əliyevin oğludur. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci

vitse-prezident. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin ordenləri ilə təltif olunmuşdur.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini vəzifəsinə seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuşdur. – 126,143,151,184-185,310,337,396.

99. Beynəlxalq Valyuta Fondu – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 128,133,134.

100. Luçinski Petru (d.1940) – Moldovanın siyasi və dövlət xadimi. 1971-ci ildən 1989-cu ilə qədər dövlət və partiya işlərində müxtəlif vəzi-

fələrdə çalışmışdır. 1997-2002-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdir. – 129.

101. «Poçt» muzeyi – XX əsrin əvvəllərində tikilib istifadəyə verilmişdir. Muzeyin binası Amerika paytaxtının ən gözəl memarlıq nümunələrindən sayılır. ABŞ prezidentlərinin andiçmə mərasimi, bir qayda olaraq burada keçirilir. – 131-140.

102. Amerika-Azərbaycan Ticarət Palatası. 1996-cı ildə yaradılmışdır. Özəl, qeyri-kommersiya təşkilatıdır. 160 üzvü var. – 131-140.

103. «Soyuq müharibə» – keçmiş SSRİ və müttəfiqləri, digər tərəfdən isə ABŞ və onun müttəfiqləri arasında olan hərbi-siyasi konfrantasiya. «Soyuq müharibə» İkinci dünya müharibəsindən sonra yaranmış və ona 90-cı illərin əvvəlinə qədər SSRİ-də və digər sosialist ölkələrində siyasi və sosial dəyişikliklər nəticəsində son qoyulmuşdur. – 132,157.

104. Dünya Bankı – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafına kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 133,134,183,290-291.

105. «Bi-Pi», «B r i t i ş P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. Bi-Pi 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 137,214.

106. Uilyam Deyli (d.1949) – ABŞ-ın ticarət naziri. Çikaqoda Con Marşall hüquq institutunu və Loyola universitetini bitirmişdir. Çikaqo Birləşmiş Bankının vitse-prezidenti (1989), sonra isə həmin bankın prezidenti (1990-93) işləmişdir. 1997-ci ilin yanvarında ABŞ-ın ticarət naziri vəzifəsinə təyin olunmuşdur. – 141,142,144,145,147,148,152,153-154,350,352.

107. Maykl Debeyki (d.1908) – dünya şöhrətli kardioloq. Hyüstondakı tibb mərkəzində kardioloji xəstəliklərin müalicəsi üzrə professordur. Tibb

mərkəzində 1949-cu ildən çalışır. Debeyki tərəfindən hazırlanan müvəqqəti işləməkdən ötrü süni ürəkdən ilk dəfə 1966-cı ildə istifadə edilmişdir. – 141,142,152,224.

108. Natiq Əliyev, N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993-2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 143,151, 469.

109. Tofiq Zülfüqarov, T o f i q N a d i r o ğ l u (d.1959) – diplomat, fövqəladə və səlahiyyətli səfir. 1998-99-cu illərdə Azərbaycan Respublikasının xarici işlər naziri vəzifəsində işləmişdir. 2006-cı ildən Latviya Respublikasında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiridir. – 152,330.

110. Hafiz Paşayev, Hafiz Mir Cəlal oğlu (d.1941) – diplomat. Fizika-riyaziyyat elmləri doktoru. 1992-2006-cı illərdə Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası xarici işlər nazirinin müavini və Ali Diplomatiya Akademiyasının rektorudur. – 152.

111. Kapitoli – Vaşinqtonda, ABŞ Konqresinin binası. 1793-1865-ci illərdə klassisizm üslubunda inşa edilmişdir. ABŞ ştatlarının paytaxtlarında *yerli qanunvericilik məclislərinin iclaslarının keçirildiyi binalar da* kapitoli adlanır. – 155-166.

112. Piter Kinq (d.1944) – 1973-1993-cü illərdə müxtəlif vəzifələrdə olmuş, 1992-ci ildə Nyu-York ştatından Konqresin üzvü seçilmişdir. Respublikaçıdır. – 155-165.

113. Nümayəndələr palatası – ABŞ-da parlamentin aşağı palatasının adı. Nümayəndələr palatası ABŞ-da 1787-ci il Konstitusiyasına əsasən yaradılmışdır. – 155,159,182.

114. Nazarbayev Nursultan, N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989-91-

ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 164.

115. «Amerikanın səsi» – ABŞ hökumətinin xarici radioverilişləri idarəsinin adı. 1942-ci ildən fəaliyyət göstərir. Verilişləri 38 dildədir. Retranslyasiya xidmətləri ABŞ-dan başqa, B.Britaniyanın, Almaniyanın, Yunanıstanın, bir sıra Asiya və Afrika ölkələrinin ərazisində yerləşir. – 166.

116. Ohayo – ABŞ-ın şimalında ştat. Sahəsi 116,1 min km², əhalisi 11,2 milyon nəfərdir. İnzibati mərkəzi Kolumbus şəhəridir. – 166,204.

117. Klivlend – ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə-ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. – 166,174-209,224, 277,300,334,335,336,350,356,358,376.

118. Şuntlama – tibbdə işemiya ürək xəstəliyi zamanı geniş istifadə edilən aorta koronar şuntlama cərrahiyyə əməliyyatı. Bu zaman aorta ilə vena arteriyasının aşağı hissəsinin daralan yerinə, yaxud okklyuziyaya şunt qoyulur. – 166.

119. 28 may müstəqillik günü – Azərbaycanın müstəqil respublika elan edildiyi gün.

120. Romano Prodi (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. 1996-cı ildən Prodinin təmsil olunduğu «Zeytun ağacı» partiyası seçkilərdə qalib gəlir və 2006-cı ildə yenidən Baş nazir seçilir. – 172.

121. Avropa İttifaqı – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niqerlandiya, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını,

malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta-avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 172.

122. Böyük Vətən müharibəsi – bax, İkinci dünya müharibəsi.

123. Albert Qor (d.1948) – Amerikanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1992-2000-ci illərdə ABŞ-ın vitse-prezidenti olmuşdur. – 180, 206,221,349,353,427.

124. ABŞ Dövlət Departamenti – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi, dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 182,207,336,337,350.

125. İhsan Doğramacı (d.1915) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963-65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977-93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968-73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektorudur. Azərbaycan Respublikasının «İstiqlaliyyət» ordeni ilə təltif olunmuşdur. – 185-186,187.

126. İslam Konfransı Təşkilatı (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 190,293,295,327.

127. London (B ö y ü k L o n d o n) – Böyük Britaniyanın paytaxtı. Dünyanın ən böyük şəhərlərindən və limanlarından biri. Əhalisi 7 milyon nəfərdir. İdarəçilik funksiyalarının çoxunu Böyük Londonun Bələdiyyə Şurası və dairə şuraları həyata keçirir. XI əsrin sonu XII əsrin əvvəlində London rəsmən İngiltərənin paytaxtı oldu. – 213-234.

128. Toni Bleyr, E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir.1997-ci ildən B.Britaniyanın Baş naziridir. – 216.

129. Mahmud Məmmədquliyev, M a h m u d Ə h m ə d o ğ l u (d.1949) – 1974-cü ildən Bakı və Moskva şəhərlərində hüquq mühafizə orqanlarında işləmiş, 1993-cü ildən Azərbaycan xarici işlər nazirinin müavini, Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Krallığında fövqəladə və səlahiyyətli səfiri olmuşdur. Hazırda Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 215.

130. «NTV» – Rusiya Federasiyasının müstəqil televiziya kanallarından biri. 1991-ci ildən fəaliyyət göstərir. – 217-222.

131. Yevgeni Maksimoviç Primakov (d.1929) – Rusiyanın siyasi və dövlət xadimi, diplomat. REA-nın akademiki. 1990-cı illərdə Rusiya Federasiyasının xarici işlər naziri, Nazirlər Sovetinin sədri vəzifələrində çalışmışdır. Hazırda Rusiya Federasiyası Sənaye-Ticarət Palatasının prezidentidir. – 217.

132. Duma, D ö v l ə t D u m a s ı – 1906-cı ildə Rusiyada nümayəndəli qanunvericilik müəssisəsi. 17 oktyabr Manifesti əsasında yaradılmışdı. Burada qanunlar müzakirə edilərək Dövlət Şurasına təqdim edilir və çar tərəfindən təsdiq edilirdi. Duma 1917-ci il 6 oktyabra qədər fasilələrlə fəaliyyət göstərdi. 1993-cü il Rusiya Federasiyasının Konstitusiyasına əsasən Duma təzədən bərpa olundu. – 217,230.

133. Rusiya İctimai Televiziyası, ORT –. Rusiyanın birinci telekanalı. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB-də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 223-230.

134. Hyuston – ABŞ-ın cənubunda şəhər və port. Texas ştatındadır. Əhalisi təqribən 2 milyon nəfərdir. Hyüston ABŞ-ın neft biznesinin mərkəzidir. – 224.

135. **Antalya** – Türkiyənin cənubunda Aralıq dənizi sahilində kurort şəhəri və liman. Əhalisi 497 min nəfərdir. – 225,241,265-314,335,338, 339,340,356,357,358.

136. **Bi-Bi-Si,** Britiş Brodkastinq Korporeyşen – Böyük Britaniya radio və televiziyaverilişləri korporasiyası. Əsası 1927-ci ildə Londonda qoyulmuşdur. 1936-cı ildə televiziya ilə verilişlərə başlamışdır. 1932-ci ildən xarici verilişlər şöbəsi bütün sutka ərzində ingilis və 37 xarici dildə dünyanın hər yerinə xəbərlər yayır. – 231-233.

137. **Samsun** – Türkiyənin şimalında şəhər, Qara dəniz sahilində liman. Əhalisi 327 min nəfərdir. – 231.

138. **Sovetlər Birliyi** – bax, Sovetlər İttifaqı.

139. **İqtisadi Əməkdaşlıq Təşkilatı** – bax, EKO.

140. **EKO** – İqtisadi Əməkdaşlıq Təşkilatı. Qərargahı Tehrandadır. 1992-ci ildən Azərbaycan Respublikası bu beynəlxalq təşkilatın üzvüdür. – 235-236,292,294,322.

141. **Böyük Millət Məclisi (BMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 237,238-239,267,288,359,462.

142. **Türk Petrolları, TRAO,**– 1954-cü ildə Türkiyənin neft və qaz sənayesinin inkişafı üçün yaradılmışdır. Karbohidrogen istehsalı və emalı sahəsində Türkiyənin ən böyük şirkətidir. TPAO hazırda MDB, Şimali Afrika və Orta Şərqdə fəaliyyət göstərir. Azərbaycana gələn ilk xarici neft şirkətlərindəndir. – 249,463.

143. **Məsud Yılmaz** (d.1947) – Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. Ana Vətən Partiyasının başqanıdır. – 252,253-255,288.

144. **Turqut Özal,** Özal Turqut (1927-1993) –Türkiyənin görkəmli dövlət və siyasi xadimi. 1980-82-ci illərdə Dövlət naziri, 1983-89-

cu illərdə Türkiyənin Baş naziri, 1989-93-cü illərdə Türkiyənin prezidenti olmuşdur. – 258.

145. «Kitabi-Dədə Qorqud» – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 258.

146. OMON – 1992-95-ci illərdə Daxili İşlər Nazirliyinin tərkibində olan Xüsusi Təyinatlı Polis Dəstələri (XTRD) – 272,320,321,323.

147. Azərbaycan Xalq Cümhuriyyəti – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919-20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı-Batum neft kəməri bərpa edildi. – 281-289.

148. Məmməd Əmin Rəsulzadə (1884-1955) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli ictimai-siyasi xadim, publisist, «Müsavat» partiyasının yaradıcılarından biri. 1922-ci ildən mühacirətdə yaşamış, 1955-ci ildə Ankarada vəfat etmişdir. – 281.

149. Fətəli Xan Xoyski (1875-1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, daxili işlər, ədliyyə və xarici işlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 281.

150. Əlimərdan bəy Topçubaşov (1865-1934) – Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri. Görkəmli hüquqşünas, ictimai-siyasi və dövlət xadimi, diplomat. 1917-1920-ci illərdə Bakı Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin sədri, Azərbaycan parlamentinin sədri. Paris (Versal) sülh konfransında Azərbaycan nümayəndə heyətinin başçısı olmuşdur. 1934-cü ildə Parisdə vəfat etmişdir. – 281.

151. Nəsib bəy Yusifbəyli, U s u b b ə y o v N ə s i b b ə y Y u ş i f o ğ l u (1881-1920) – Azərbaycanın görkəmli dövlət və siyasi xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri. Azərbaycan Xalq Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinələrinə başçılıq etmişdir. Bakı Dövlət Universitetinin yaradılması, 100 nəfərə yaxın azərbaycanlı gəncin Avropanın müxtəlif ali məktəblərinə göndərilməsi, torpaq islahatları haqqında qanun layihəsinin hazırlanması, savadsızlıqla mübarizə kurslarının açılması, məktəb dərsliklərinin hazırlanması və nəşrinə başlanması Usubbəyov hökumətinin mühüm qərarlarındandır. Ysubbəyov hökumətinin qəbul etdiyi son qərarlardan biri hərbi ordenlərin, milli himnin, dövlət gerbi və möhürü layihələrinin hazırlanması haqqında qərar idi.

Bakının On birinci ordu tərəfindən işğalından sonra təqibdən yaxa qurtarmaq məqsədilə şəhəri tərk edən N.B. Usubbəyli yolda faciəli surətdə qətlə yetirilir. – 281.

152. Avropa Şurası (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, sahə nazirliklərinin müşavirəsi və katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 285,327, 374,440,446.

153. Ceym Vulfenson (d.1933) – Dünya Bankının prezidenti. Dünya Bankına işə keçməzdən əvvəl «Ceyms Vulfinson» şirkətinin prezidenti olmuşdur. Ceyms Vulfinson 1995-ci il iyunun 1-də Dünya Bankının 5 il müddətinə prezidenti təyin edilmişdi. – 290-291.

154. Məmməd Əliyev, M ə m m ə d N o v r u z o ğ l u (d.1942) – fövqəladə və səlahiyyətli səfir, fizika-riyaziyyat elmləri doktoru. 1992-2005-ci illərdə Türkiyə Respublikasında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri olmuşdur. – 292.

155. Xərrazi Seyid Kamal (d.1945) – İranın siyasi və dövlət xadimi, pedaqoji elmləri doktoru, professor. 1998-2005-ci illərdə İran İslam Respublikasının xarici işlər naziri olmuşdur. Hazırda İran İslam Respublikasının Ali Məsləhət Şurasının üzvü və Strateji Tədqiqatlar Mərkəzinin rəhbəridir. – 292,293.

156. Ayətullah Xamnei, H ü s e y n X a m n e i S e y i d Ə l i (d.1939) – İranın dini və dövlət xadimi. 1981-89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 294.

157. Nigeriya, N i g e r i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km², əhalisi 103,9 milyon nəfərdir. Paytaxtı Abudya şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. – 298.

158. Anqola, A n q o l a R e s p u b l i k a s ı – Cənub-Qərbi Afrikada dövlət. Sahəsi 1246,7 min km², əhalisi 11,9 milyon nəfərdir. Paytaxtı Luanda şəhəridir. Dövlətin və hökumətin başçısı prezidentdir. Qanunverici orqanı Milli Məclisdir. – 298,299.

159. Duş Santuş, J o z e E d u a r d u (d.1942) – Anqolanın prezidenti və MPLA-nın sədri – 1975-ci ildən nazir vəzifələrində olmuşdur. Ordu generalıdır. Azərbaycan Neft və Kimya İnstitutunda (Azərbaycan Neft Akademiyası) təhsil almışdır. – 298,299.

160. Kuba, K u b a R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km², əhalisi 11,1 milyon nəfərdir. Paytaxtı Havana şəhəridir. Dövlətin ali orqanı bir palatalı xalq hökumətinin Milli

assambleyasıdır. Dövlətin və hökumətin başçısı – Dövlət Şurasının sədridir. – 298.

161. San-Fransisko – ABŞ-ın Kaliforniya ştatında Sakit okean sahilində şəhər və liman. 735 min əhalisi (şəhər ətrafı ilə 1,5 milyon nəfər) var. San-Fransiskoda 1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının əsası qoyulmuşdur. – 300.

162. Rudolf Şuster (d.1934) – 1990-92-ci illərdə Slokakiyanın Kanadada səfiri, 1994-99-cu illərdə Kosiçi şəhərinin meri, 1999-2004-cü illərdə Slovakiya Respublikasının prezidenti olmuşdur. – 300.

163. Saratov vilayəti – Rusiya Federasiyasında Privoljskidə federal mahal. Sahəsi 100,2 min km², əhalisi 2723,4 min nəfərdir. Vilayətdə 18 şəhər, 30 şəhər tipli qəsəbə var. Mərkəzi Saratov şəhəridir. – 304.

164. Gülhanə Hərbi Tibb Akademiyası – Türkiyədə məşhur tibb ocaqlarından biri. 1898-ci ildən fəaliyyət göstərir. Akademiya ən müasir tibb avadanlığı ilə təmin edilmişdir. Burada həm müalicə edilir, həm də elmi tədqiqatlar aparılır. – 310,334,336.

165. Afiyəddin Cəlilov, A f i y ə d d i n C ə l i l o ğ l u **(1946-1994)** – dövlət xadimi. 1993-94-cü illərdə Azərbaycan Milli Məclisi sədrinin müavini idi. 1994-cü ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən qüvvələr tərəfindən qətlə yetirilmişdir. – 319.

166. Şəmsi Rəhimov, Ş ə m s i N u r u o ğ l u **(1924-1994)** – polkovnik. Azərbaycan Respublikası Prezidenti yanında Xüsusi İdarənin rəisi olmuşdur. 1994-cü ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən qüvvələr tərəfindən qətlə yetirilmişdir. – 319.

167. Surət Hüseynov, S u r ə t D a v u d o ğ l u **(d.1959)** – 1993-94-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 320.

168. Gəncə – Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km², əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir. Gəncənin salındığı tarix dəqiq məlum

deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336-323) salındığını qeyd etmişlər. – 320,386,389,390.

169. Zahid Dünyamalıyev, Z a h i d V ə l i o ğ l u (d.1944) – Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis generalmayoru. – 322.

170. Ayaz Mütəllibov, A y a z N i y a z i o ğ l u (d.1938) - 1989-90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-cı ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1992-ci ildə Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 323.

171. Elçibəy, Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938-2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-93-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 323.

172. Rəhim Hüseynov, R ə h i m Ə l i h ü s e y n o ğ l u (d.1936) – Elmi və Texniki Cəmiyyətləri İdarə Heyətinin sədri. Müxtəlif illərdə Azərbaycan Maddi-Texniki Təchizat Komitəsi sədrinin müavini, sədri, Azərbaycan Dövlət Plan Komitəsinin sədri, Azərbaycan Respublikası Baş naziri vəzifələrində işləmişdir. – 323.

173. Vəfa Quluzadə, V ə f a M i r z ə a ğ a o ğ l u (d.1940) – fövqəladə və səlahiyyətli səfir. 1975-ci ildən Azərbaycan KP MK-da mədəniyyət şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1990-cı illərdə Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə dövlət müşaviri olmuşdur. – 330,359,414,445.

174. Zakir Zeynalov, Z a k i r Ə l i x a n o ğ l u (1939 - 2000) – 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı və Hüquq Siyasəti və Dövlət quruculuğu Məsələləri Komissiyasının sədri olmuşdur. – 336.

175. «Dədə Qorqud» – burada «Kitabi-Dədə Qorqud» nəzərdə tutulur.

176. Ramiz Mehdiyev, Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın tanınmış siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978-80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da təşkilat partiya işi şöbəsinin müdiri, 1983-88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. – 341.

177. Kamran Bağırov, Bağırov Kamran Məmməd oğlu (d.1933-2001) – Azərbaycanın partiya və dövlət xadimi. Müxtəlif məsul vəzifələrdə çalışmışdır. 1982-88-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. – 341,342.

178. Həsən Seyidov, Həsən Nemət oğlu (1932-2005) – dövlət xadimi. Azərbaycan Respublikasının əməkdar mühəndisi. Müxtəlif məsul vəzifələrdə çalışmışdır. 1971-1981-ci illərdə Azərbaycan KP MK katibi, 1981-87-ci illərdə Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri olmuşdur. – 341,343.

179. Süleyman Tatlıyev, Süleyman Bayram oğlu (1925) – Azərbaycan Ticarət - Sənaye Palatasının prezidenti. Müxtəlif illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir. – 341.

180. Qurban Xəlilov, Qurban Əli oğlu (1906-2003) – dövlət xadimi. Müxtəlif illərdə Azərbaycan SSR yerli sənaye naziri, maliyyə naziri, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifələrində çalışmışdır. – 343.

181. Çazov Yevgeni İvanoviç (d.1929) – rus terapevti. REA-nın akademiki. İnfarkt, miokard, ürək-damar sisteminin və klinik kardiologiyanın müxtəlif problemlərini müalicə edir. SSRİ və Lenin mükafatları laureatıdır. – 344.

182. Rıjkov Nikolay İvanoviç (d.1929) – Rusiyanın dövlət və siyasi xadimi. SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. 1995-ci ildən Dövlət Dumasının üzvü və Rusiya Xalq Vətənpərvərlik İcraiyyə İttifaqının sədridir. – 344.

183. Kosıgin Aleksey Nikolayeviç (1904-1980) – Rusiyanın dövlət və siyasi xadimi. Müxtəlif illərdə nazir, Sov. İKP MK Siyasi Bürosunun üzvü, 1964-80-ci illərdə SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. – 344, 345.

184. Brejnev Leonid İliç (1906-1982) – Rusiyanın partiya və dövlət xadimi. 1964-82-ci illərdə Sov. İKP MK-nın Baş katibi, 1977-ci ildən həmçinin SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. – 345,346.

185. Stalin İosif Vissarionoviç (1879-1953) – 1922-53-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. Sosializm quruculuğuna dair Lenin planını, SSRİ-nin Böyük vətən müharibəsində (1941-45) müdafiə qabiliyyətinin möhkəmləndirilməsində və s. rəhbər kimi iştirak etmişdir. Fəaliyyətində nəzəri və siyasi səhvlərin çoxluğu, kobud qanun pozuntuları, bəzi mənfi xüsusiyyətləri Stalinin şəxsiyyətinə pərəstişin yaranması ilə nəticələndi. 30-cu illərdə baş verən və milyonlarla insanın repressiyasına səbəb olan qanlı cinayətlər məhz onun səhvlərinin nəticəsidir. Təkcə 1937-ci ildə Azərbaycanda «xalq düşməni» kimi 29 min nəfər güllələnmiş və ya sürgün edilmişdi. – 346.

186. Qədri Ecvet Tezcan (d.1949) – Türkiyə diplomatı. 1998-2001-ci illərdə Türkiyə Cümhuriyyətinin Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri olmuşdur. – 356-364.

187. Valter Şvimmer (d.1942) – Tanınmış Avstriya dövlət xadimi. 28 il Avstriya parlamentinin üzvü, 1999-2004-cü illərdə isə Avropa Şurasının Baş katibi olmuşdur. – 374.

188. Lahıc – Azərbaycan Respublikasında şəhər tipli qəsəbə. Lahıc Azərbaycanın qədim yaşayış mərkəzlərindəndir. Əsasının erkən orta əsrlərdə qoyulduğu ehtimal olunur. Lahıc XVIII-XIX əsrlərdə Azərbaycanın misgərlik və silah istehsalı mərkəzlərindən idi. – 386,387,390, 391.

189. Həsən Əliyev, Həsən Əlirza oğlu (1907-1993) – torpaqşünas, ümumi əkinçilik və təbiəti mühafizə sahəsində alim, ictimai-siyasi xadim. Elmlər doktoru, professor. Azərbaycan Milli EA-nın akademiki, Azərbaycan Dövlət mükafatı laureatı. Ayrı-ayrı illərdə Azərbaycan Milli EA Botanika İnstitutunun direktoru, Azərbaycan Kənd Təsərrüfatı nazirinin birinci müavini və Azərbaycan KP MK katibi, Azərbaycan Milli EA-nın akademik katibi, Azərbaycan Milli EA Coğrafiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 391.

190. «LUKoyl» – «LUKoyl» neft şirkəti 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 391.

191. Zaqafqaziya seymi. 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya seyminin yaradılması və yerli hakimiyyətin bu orqana verilməsi haqqında qərar qəbul olundu. Fevralın 23-də üç əsas partiya fraksiyasının nümayəndələrindən ibarət Zaqafqaziya seymi öz işinə başladı. Seymdə Gürcüstandan sosial-demokratlar (menşeviklər) – 32 nəfər, Azərbaycandan müsavatçılar və onlara qoşulmuş bitərəf demokratlar – 30 nəfər, erməni «Daşnaksutyun» partiyası – 27 nəfər deputat iştirak edirdi. Zaqafqaziya seymində 4 müsəlman partiyasının 44 nümayəndəsi var idi. Seymin fəaliyyətində Qafqaz cəbhəsində vəziyyət və Cənubi Qafqazın müstəqilliyinin elan edilməsi məsələləri mühüm yer tuturdu. 1918-ci il mayın 26-da seymin buraxıldığı elan olundu. Zaqafqaziya seyminin buraxılması Cənubi Qafqazda öz müstəqilliklərini elan edən dövlətlərin, o cümlədən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi. – 408.

192. 1905-18-ci illər soyqırımı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi geniş miqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci il fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi; yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbay-

canlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla ermənileşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 410.

193. VVAQ, ZAQS – vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı şöbəsi. – 422.

194. Kofi Annan (d.1938) – 1997-2006-cı illərdə Birləşmiş Millətlər Təşkilatının Baş katibi olmuşdur. Nobel mükafatı laureatı. – 429-431.

195. BAM, Baykal-Amur magistralı- Şərqi Sibirdə və Uzaq Şərqdə Rusiyanın Sakit okeana dəmir yolu ilə çıxışı. Ümumi uzunluğu 4300 km-dir. – 432-433.

196. Maqsud İbrahimbəyov, M a q s u d M ə m m ə d i b r a h i m o ğ l u (d.1935) – görkəmli nasir, dramaturq, ssenarist, ictimai və siyasi xadim, Azərbaycan xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. Respublikada və xaricdə nəşr edilən onlarla povest və hekayələrin müəllifidir. Onun pyesləri keçmiş SSRİ məkanında onlarla teatrlarda tamaşaya qoyulmuşdur. Ssenariləri əsasında bir çox film çəkilmişdir. Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədridir. 1995-ci ildən Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 434-435.

197. Avstriya, A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km², əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 436-447.

198. Vyana – Avstriyanın paytaxtı. Sahəsi 415 km², əhalisi 1,5 milyon nəfərdir. XII əsrin ortalarından Avstriya hersoqlarının iqamətgahı, 1867-1918-ci illərdə Avstriya – Macarıstanın paytaxtı, 1918-ci ildən isə Avstriya Respublikasının paytaxtıdır. ATƏT-in Baş qərargahı Vyanadadır. – 437,443.

199. Rostropoviç, M s t i s l a v L e o p o l d o v i ç (d.1927) – Bakıda doğulmuş görkəmli musiqiçi, violençelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycanın «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 443.

200. Finikiya – Aralıq dənizinin şərq sahilində qədim ölkə. Finikiya şəhər-dövləti dəniz və quru yollarda aktiv ticarət edir, Aralıq dənizi hövzəsində və Karfagendə koloniyalar salırdılar. E.ə. 6-cı əsrdə Finikiyanı farslar, e.ə. 332-ci ilə qədər Makedoniyalı İsgəndər işğal etmişdi. – 446.

201. Avropa, Y e v r o p a – qədim yunan mifologiyasında Zevs öküz şəklinə girərək Finikiya padşahının oğurladığı qız. Bu öküzün belində Avropa dənizi üzərək Kritə düşür və Zevsdən oğlu Minosu doğur. – 446.

202. Zevs – qədim yunan mifologiyasında baş allah Zevs öz atası – titan Kronosu devirmiş və allahların və insanların hökmdarı olmuşdur. Zevsin atributları egida, əsa, bəzən qartal idi. Daimi məskəni Olimp idi. Bəzən Zevslə Yupiteri eyniləşdirirlər. – 446.

203. Krit – Yunanıstanın tərkibində, Aralıq dənizində ada. Sahəsi 8,3 min km², əhalisi 537,2 min nəfərdir. Krit qədim egey mədəniyyətinin mərkəzlərindən biridir. E.ə. 67-ci ildə Krit Roma tərəfindən işğal edilmişdi. 395-823, 961-1204-cü illərdə Bizansa, 823-961-ci illərdə ərəblərə məxsus idi. 1204-cü ildə Səlibçilər Kriti zəbt etmiş və Venetsiyaya satmışdılar. 1715-ci ildən Osmanlı imperiyasının tərkibində idi. 1898-ci ildə Krit böyük dövlətlərin «himayəsində» muxtariyyət aldı. 1913-cü ildən Yunanıstana məxsusdur. – 446.

204. Suraxanı – Abşeron yarımadasında yaşayış məntəqəsi. XIX əsrin əvvəllərində Suraxanıda neft sənayesi yaranmış və inkişaf etmişdi. 1825-ci ildə Suraxanıda 15 ağ neft quyusu var idi. 1859-cu ildə Suraxanıda ilk neftayırma zavodu istifadəyə verilmişdi. 1878-80-ci illərdə Bakı-Suraxanı dəmir yol xətti çəkilmişdi. – 448-459.

205. Atəşgah, Suraxanı atəşgədəsi – Suraxanı qəsəbəsində atəşpərəst məbəd. Beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülən dördbucaqlı «od məbədindən» ibarətdir. Atəşgahın əsası, şübhəsiz ki, qədim zamanlarda qoyulmuşdur. Lakin indiki binanı XVIII əsrdə Hindistanın Multan vilayətindən gələn

ataşpərəst tacir və zəvvarlar tikdirmişlər. Hücrələrin üzərindəki hind dilində yazılmış kitabələrdə ataşgədənin 1713-cü ildə tikildiyi göstərilir. – 448.

206. Hacıbala Abutalıbov, H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 448,456.

207. Makedoniyalı İsgəndər, Böyük Aleksandr, İsgəndər Zülqərneyn (e.ə. 356-323) – qədim dünyanın ən böyük sərkərdələrindən biri, 336-cı ildən Makedoniyanın çarı. Çar II Filippin oğlu; Aristotelin yanında tərbiyə almışdır. O, Orta Asiyanı və Hindistanı fəth edərək ucu-bucağı görünməyən bir dövlət yaratdı. Makedoniyalı İsgəndərin Azərbaycanda olması haqqında rəvayətlər var. – 448.

208. «Elf Aqiten» – Fransada ən böyük neft korporasiyası. 80 ölkədə fəaliyyət göstərən 833 şirkətdən ibarətdir. Karbohidrogenlərin kəşfiyyatı, hasilatı və satışı, kimya və neft-kimya sənayesi, farmokologiya və kosmetologiya sahələri şirkətin əsas fəaliyyət istiqamətləridir. Elmi-tədqiqat fəaliyyətində 8 min elmi işçi çalışır. – 463.

209. OPEK (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanadadır. – 463.

210. Rəsul Quliyev, R ə s u l B a y r a m o ğ l u (d.1947) – 1993-1996-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 468,469.

211. Valeh Ələsgərov (d.1946) – neftçi mühəndis. SSRİ Nazirlər Soveti yanında Xalq Təsərrüfatı Akademiyasını bitirmişdir. Müxtəlif illərdə neft sənayesi sahəsində rəhbər vəzifələrdə çalışmışdır. 2005-ci ildən Milli Məclisdə sədr müavinidir. Qubkin adına Qızıl medal və Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 463.

212. Xoşbəxt Yusifzadə, X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1994-2000-ci illərdə Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 463,465,469.

Şəxsi adlar göstəricisi

Abutalibov Hacıbala – 448,456
Ağacanyan Vaxram –416,423
Axalkatsi Yekaterina – 414
Akbulut Yıldırım –237,238-239,252,267,288,359
Annan Kofi – 429-431
Atatürk Mustafa Kamal –10,11,12,13,225,231,241,256, 263,272,278
Ayatskov Dmitri – 304
Azelio Karlo – 210
Babayev Arif – 391,392-393,449,450,457,458
Bağırov Kamran – 341,342
Bekker – 84
Berger Stenli – 286
Berger Sendi – 84,329,351
Beyker Hovard – 58,286,329,351
Bikdeli – 293
Biman Triza – 144
Byezinski Zbiqnev – 84,286,329,351
Bleyr Toni – 216
Bondevik Maqne – 90-92
Braunbek Sem – 83-85,139,182,243,275,329,351
Brejnev Leonid – 345,346
Bzejinski – 84
Butuflək Əbdüləziz – 173
Cavadov Rövşən – 320,321,322,323
Ceylan (qardaşları) – 313-314
Cəlilov Afiyəddin – 319
Cəm İsmayıl – 97
Çazov Yevgeni – 344
Çerkasov Andrey – 222
Çernomırdin Viktor – 33-49,51
Çeteryan Vigen – 418
Darbinyan – 412
Debeyki Maykl – 141,142,152,224
De Qoll Şarl – 30

Deyli Uilyam –141,142,144,145,147,148,152, 153-154,350,352
Dəmirəl Nəzmiyyə – 245-252,338
Dəmirəl Süleyman – 11-12,198,199,214,221,225,239, 240,245-252,257,266,267-268,271, 278,287,288,296,297,305-308,309-312,313,322,334,338,339,340,341, 362,363,471
Dəmirtaş Ertən – 252,277,334,335,339,340,357
Dəmirçyan Karen – 423,424
Dits – 142
Doğramacı İhsan – 185-186,187
Draçevski – 47
Duş Santuş – 298,299
Dünyamalıyev Zahid – 322
Ecevit Büləәnd – 13-14,240-244,252,267,278,288, 296,358
Edvards Çet – 155-165
Elçibəy – 323
Eskudero Stenli – 180-183,337,349-354
Əliyev Həsən – 391
Əliyev İlham – 126,143,151,184-185,310,337, 396
Əliyev Məmməd – 252
Əliyev Natiq – 143,151,469
Əliyeva Zərifə xanım – 5-6,387-388
Ələsgərov Valeh – 469
Fişer Yoşka – 96
Frey Nensi – 152
Ginyut Jan Pyer – 29-32
Hatçinson Key – 143,144,147,150,151,152
Hüseynov İsa – 322
Hüseynov Rəhim – 323
Hüseynov Surət – 320
Xamnei – 294
Xatəmi – 122,123,292,293,294,295-296
Xəlilov Qurban – 343
Xərrazi – 292,293
Xoyski Fətəli Xan – 281

İbrahimbəyov Maqsud – 434-435
İqlberger Lourens – 57,59,86-89,135
İsmayılov Famil – 233
Kalitski Yan – 19,154
Kapuana Maykl – 163
Karamanoğlu Altan – 321,322
Kennet Ley – 86-89
Kərimov İslam – 34,81,129
Kinq Piter – 155-165
Kunts Terri – 144
Kıvrıqoğlu Hüseyn – 267,288,359
Kissincer Henri – 86-89,336
Klinton Bill –21,30,56,77-78,87,115,123,149, 167,180,182,197,203-205,213, 214,216,218,219,221,242,243,249, 253,273,274,276,285,286,287,300, 307,327,328,337,349,350,351,383, 426,427
Koçaryan Robert –32,50,95,231,232,412,413,414, 442, 445
Kosıqin Aleksey – 344,345
Kuk Robin – 96,214
Küçma Leonid – 15-22,23-24,324,368-371
Qazinyan Aris – 414
Qlatye Cey –143
Qor Albert – 180,206,221,349,353,427
Qorbaçov – 37,344
Qriqoryan Mark – 422
Quliyev Rəsul – 468,469
Quluzadə Vəfa – 330,359,414,445
Qvişiani – 341
Laytl Brüs – 187,204,221,224,339,340
Luqar Riçard – 58
Lüçinski – 129
Makedoniyalı İsgəndər – 448
Manvelyan Aleksey – 417
Mariya – 389
Matske Riçard – 297-300
Mehdiyev Ramiz – 341

Məmmədquliyev Mahmud – 131
Miloşeviç Slobadan – 41,42,45,46,118,119,120,219
Monkrift Riçard – 144,147,151
Morninqstar – 19,144
Movsesyan Qayane – 414,244
Mütəllibov Ayaz – 323
Nazarbayev Nursultan – 164
Neçayev Dmitri – 342
Netanyahu Benyamin – 63
Niyazov Saparmurad – 111,117
Ohonova Anjela – 422
Olbrayt – 50,93-97,114-116,123,124,180, 182,207-209,213,216,218,220,221, 242,253,254,275,276,285,286,300, 328,337,350,351,353,414,426,427
Osman bəy – 339,340
Özal Turqut – 258
Panov Aleksandr – 230
Paşa Ertən – 186,187,193,214
Paşayev Hafiz – 152
Petreşvili Qalina – 420,424
Primakov Yevgeni – 217
Prodi Romano – 172
Puşkin Aleksandr – 390
Rasizadə Artur – 34,369,469
Rau İohanes – 264
Rayan Con – 76
Rəhimov Şəmsi – 319
Rəsulzadə Məmməd Əmin – 281
Riçardson – 277
Rıjkov – 344
Rostropoviç – 57
Rozenfeld Stiv – 117,129,130
Sabsay – 62
Safronov Nikas – 386-393
Sanber Özdəm – 213-216
Savimbi – 299
Seyidov Həsən – 341,343
Skaqins Uilyam – 144,151

Skoukroft Brend – 89-92
Snayder Vik – 163
Stalin – 346
Stepaşin Sergey – 217,218,229,230
Şestanoviç – 180
Şevardnadze Eduard –15-22,23-24,34,93,95,129,423, 445
Şirak Jak – 25-28,29-32,56,79-80,87,242,307, 327,399
Süssel Volfqanq – 436-447
Şuster Rudolf – 303
Şvimmer Valter – 446
Tatliyev Süleyman – 341
Ter-Petrosyan Levon – 27,80,103
Teşşinz – 144
Tezcan Qədri Ecvet – 356-364
Tixonov – 345
Tomson – 142
Topçubaşov Əlimərdan bəy – 281
Tuzçu Murat – 186,205,221,224,335,339,340
Uorner Con – 58
Vedrin Yuber – 95-96
Vədat Məhmət – 263
Vike-Freyberq Vayra – 365
Viper – 142
Vollebek Knut – 96,115
Vulfenson Ceym – 290-291
Vulfenson Eleyn – 290-291
Yeltsin Boris – 30,31,47,56,87,112,124,125,242, 244,348,399
Yetrin Mural – 262
Yılmaz Məsud – 252,253-255,288
Yusifbəyli Nəsib bəy – 281
Yusifzadə Xoşbəxt – 463,465,469
Zeynalov Zakir – 336
Zoyelik Robert – 98-100
Zurufçu Yaqub – 193-194
Zülfüqarov Tofiq – 152,330

Coğrafi adlar göstəricisi

Abxaziya – 35,226,418,445
Ağ dəniz – *260*
Ağdam – 41
Agstafa – 322
Albaniya – 49
Almaniya Federativ Respublikası – 96,115,213,220,242,264,328,351, 370,410,414,419,421
Amerika Birləşmiş Ştatları –7-9,18,19,20,21,26,28,38,39,40, 50-209,216,218,219,221,223,224, 227,228,231,232,241,242,243,245, 247,248,250,252,261,267,273,275, 277,284,285,286,287,300,307,310, 327,328,329,330,331,334,336,337, 349-354,356,358,369,370,376,383, 399,400,414,416,425-428,441,443, 463,469
Anadolu – 10
Ankara –19,214,238-264,266,268,277,333, 336, 337,338,339,358
Anqola – 298,299
Antalya –225,241,265-314,335,339,340,356, 357,358
Aralıq dənizi – 69,73,84,105,144
Asiya – 23,52,66,70,96,139
Avrasiya *(qitə)* – 83
Avropa –15,21,23,38,52,66,70,84,87,96, 106,127,139,183,226,246,257,410, 413,421,436,440,447
Avstriya Respublikası – 436-447
Bakı –7-9,12,14,15-22,23,28,30,36,58, 69,73,84,86,100,105,130,141,142, 146,164,176,179,181,185,214,218, 224,228,232,241,243,245,254,271, 277,279,294,298,300,306,316,319, 323,324,326,333,339,368,394,395,

412,414,415,449,450,451,452
Balakən – 324
Balkan (*yarımada*) – 34,136,157,160,164,226,257
Belarus – 113
Belqrad – 218
Böyük Britaniya – 96,115,213-234
Brodi – 21
Ceyhan – 19,20,84,105,144
Cəbrayıl – 41
Cənubi Afrika Respublikası – 355
Cənubi Qafqaz – 93-97,112,179,182,183,190,207, 220,366,407,408,413,414,415,437, 441,443
Çeçenistan – 45,37,44,218
Çexiya – 53,419
Dağıstan – 218,324
Dağlıq Qarabağ Muxtar Vilayəti –25-28,30,35,36,40,42,51,56,67,68, 78,79,86,87,91,95,96,97,99,100, 102,103,111,115,116,118,121,123, 156,166,190,208,213,220,226,242, 246,254,273,274,288,305,308,327, 357,397,398,399,401,402,403,404, 415,416,417,418,441,442,444,446, 454
Denver – 26
Əlcəzair Xalq Demokratik Respublikası – 173
Fransa – 25-28,29-32,39,40,53,56,67,79-80, 91,95,102,111,115,120,134,213, 220,227,228,242,273,284,307,327, 328,351,370,399,414,426,441,443
Füzuli – 41
Gəncə – 320,386,389,390
Gürcüstan –15-22,23-24,48,50,66,69,84,94,95, 110,112,115,137,144,182,207,213, 215,220,226,242,246,260,276,277, 283,324,328,366,367,407,408,409, 418, 423,437,445,461
Hyuston – 224

Xəzər dənizi – 8,16,17,18,20,56,58,66,70,71,73, 78,84,94,98,104,105,106,110,126, 127,136,137,144,145,149,162,164, 204,241, 243,246,259,420,465,466
Xocalı – 41
İliçovsk – 23-24,82
İngiltərə – 213,215,242,328,351,414
İraq – 120
İran – 18,66,74,105,122,123,137,160, 292-296,419,420,463
İsrail – 63
İstanbul – 19
İsveçrə – 391
İtaliya Respublikası – 210,220,419
Kanada – 444
Kanzas (*ABŞ-da şəhər*) – 167
Kəlbəcər – 41
Kələki – 323
Kipr – 35
Klivlend – 166,174-209,224,277,300,334,335, 336,350,356,358,376
Kopenhagen – 322
Kosovo – 37,38,40,41,42,53
Krit (*ada*) – 446
Kuba – *298*
Küveyt – 120
Qafqaz – 20,23,37,38,50,54,56,66,73,77, 83-85,86,87,93,97,99,108,112,134, 135, 136,139,156,157,161,162,163, 213, 215,216,220,226,242,257,260, 276,286,306,305,328,351
Qafqaz dağları – 66
Qara dəniz – 20,48,69,84,104,137,461
Qazax – 322
Qazaxıstan – 18,20,73,105,113,127,137,164, 215, 260,277,283
Qırğızıstan – 113,215
Qubadlı – 41
Laçın – 27,41,103

Lahıc – 386,387,390,391
Latviya Respublikası – 365
Lənkəran – 390
London – 213-234
Lökbatan – 394-406
Macarıstan – 53
Meksika – 444
Mərkəzi Asiya – 23,71,77,98,162,286
Moldova – 37,112
Moskva –45,112,232,244,298,323,324,341, 342,343,344,345,376,380,392,415, 449
Naxçıvan – 271,279
Nigeriya – 298
Norveç –90-92,96,115,213,220,242,328, 351,414
Novorossiysk – 260,277,333,462
Odessa – 21
Ohayo (*ABŞ-da ştat*) – 166
Oklahoma (*ABŞ-da ştat*) – 167
Orta Asiya – 83-85,215,246,351
Osetiya – 226
Özbəkistan –24,81-82,112,129,215,260,277, 283
Pakistan – 322
Paris – 31
Polşa – 21,53
Poti – 23-24,82
Rambuye – 120
Rusiya – 18,20,26,28,33-49,53,56,62,66,67, 71,72,73,74,87,91,102,103,104,105, 111,112,113,120,124,127,128,129, 134,135,137,162,164,217-222,223-230,242,243,244,254,257,273,277, 284,348,363,392,399,410,415,416, 419,420,426,441,443,446,450,461, 462,463
Samsun – 231
San-Fransisko – 300

Saratov (*vilayət*) – 304
Səudiyyə Ərəbistanı – 294
Slovakiya Respublikası – 303
Strasburq – 27,179
Supsa – 15-22,277,333
Suraxanı – 448-459
Şimali Qafqaz – 226
Şotlandiya – 391
Şuşa – 41,103
Tacikistan – 113
Tailand – 444
Tbilisi – 19,20
Tehran – 293
Türkiyə –10,11-12,13-14,19,20,35,48,69, 73,84,97,105,110,115,144,185,198, 199,213-216,220,221,223,224,225, 231,237-314,321,328,334,335,337, 338,341,342,346,351,378,384,399, 400,414,416,462,463,471
Türkmənistan –18,19,20,23,24,73,105,110,137, 246
Ulkan – 432
Ukrayna –15-22,23-24,34,62,112,324,368-371
Ulyanovsk (*vilayət*) – 391,392
Uzaq Şərq – 363
Varna – 23-24
Vaşinqton –31,32,50,51,52-166,179,181,183, 203,204,214,216,218,219,224,228, 231,232,241,242,253,254,274,276, 277,285,290,327,328,337,350,352, 383, 414,424,442
Vayominq (*ABŞ-da ştat*) – 142
Vyana – 437,443
Yaponiya – 275,381
Yuqoslaviya – 33-49,53,56,57,87
Yunanıstan – 35
Zaqafqaziya – 408
Zəngilan – 41

KİTABIN İÇİNDƏKİLƏR

GÖRKƏMLİ ALİM, AKADEMİK ZƏRİFƏ ƏLİYEVAYA HƏSR EDİLMİŞ «ZƏRİFƏ XANIM ƏLİYEVA» KİTAB-ALBOMUNUN TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

14 aprel 1999-cu il 5

BAKIDA «KASPİAN-AMERİKAN TELEKOM» (KATEL) AZƏRBAYCAN-AMERİKA BİRGƏ MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

14 aprel 1999-cu il 7

TÜRKİYƏNİN ANADOLU ACANSI MÜXBİRİNİN SUALINA CAVAB

14 aprel 1999-cu il 10

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

16 aprel 1999-cu il 11

TÜRKİYƏ CÜMHURİYYƏTİNİN BAŞ NAZİRİ, ATATÜRK BEYNƏLXALQ SÜLH MÜKAFATI KOMİTƏSİNİN SƏDRİ CƏNAB BÜLƏND ECEVİTƏ

16 aprel 1999-cu il 13

BAKI-SUPSA NEFT KƏMƏRİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

17 aprel 1999-cu il 15

POTİ-İLİÇOVSK-VARNA BƏRƏ KEÇİDİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

17 aprel 1999-cu il 23

FRANSA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JAK ŞİRAKA

20 aprel 1999-cu il *25*

FRANSANIN AZƏRBAYCANDAKI SƏFİRİ JAN PYER GİNYUT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

20 aprel 1999-cu il *29*

RUSİYA PREZİDENTİNİN YUQOSLAVİYADA BÖHRANIN ARADAN QALDIRILMASI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ VİKTOR ÇERNOMIRDİN VƏ ONU MÜŞAYİƏT EDƏN ŞƏXSLƏRLƏ GÖRÜŞDƏ SÖHBƏT

20 aprel 1999-cu il *33*

NATO-nun 50 İLLİK YUBİLEYİ MƏRASİMLƏRİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

22 aprel 1999-cu il *50*

NATO-nun 50 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

22 aprel 1999-cu il *52*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ SENATORLARI VƏ GÖRKƏMLİ İCTİMAİ-SİYASİ XADİMLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

22 aprel 1999-cu il *55*

YƏHUDİ XALQININ SOYQIRIM TARİXİNİ ƏKS ETDİRƏN «XOLOKOST» XATİRƏ MUZEYİNDƏ ÇIXIŞ

22 aprel 1999-cu il *60*

ABŞ-ın HƏRBİ DƏNİZ AKADEMİYASINDA KURSANTLAR QARŞISINDA ÇIXIŞ

23 aprel 1999-cu il *65*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ BİLL KLİNTON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

24 aprel 1999-cu il *77*

FRANSA PREZİDENTİ JAK ŞİRAK İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

24 aprel 1999-cu il *79*

GUÖAM ÖLKƏLƏRİNİN DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ BƏYANAT

24 aprel 1999-cu il *81*

QAFQAZ VƏ ORTA ASİYA ÖLKƏLƏRİ RƏHBƏRLƏRİNİN VƏ XARİCİ İŞLƏR NAZİRLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ

24 aprel 1999-cu il *83*

ABŞ-ın KEÇMİŞ DÖVLƏT KATİBİ, GÖRKƏMLİ SİYASİ XADİM HENRİ KİSSİNCER İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

24 aprel 1999-cu il *86*

NORVEÇ KRALLIĞININ BAŞ NAZİRİ KELYE MAQNE BONDEVİK İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

24 aprel 1999-cu il *90*

ABŞ-ın DÖVLƏT KATİBİ MADLEN OLBRAYTIN SƏDRLİYİ İLƏ AZƏRBAYCAN, GÜRCÜSTAN, ERMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

25 aprel 1999-cu il *93*

STRATEJİ VƏ BEYNƏLXALQ ARAŞDIRMALAR MƏRKƏZİNDƏKİ (SBAM) GÖRÜŞDƏ NİTQ

26 aprel 1999-cu il 98

ABŞ-ın DÖVLƏT KATİBİ XANIM MADELİN OLBRAYT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

26 aprel 1999-cu il 114

«VAŞİNQTON-POST» QƏZETİNİN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞ

26 aprel 1999-cu il 117

AMERİKA–AZƏRBAYCAN TİCARƏT PALATASINDA RƏSMİ QƏBULDA NİTQ

26 aprel 1999-cu il 131

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ (ARDNŞ) İLƏ ABŞ-ın «MONKRİFT OYL», «EKSSON» VƏ «MOBİL» ŞİRKƏTLƏRİ ARASINDA ÜÇ NEFT MÜQAVİLƏSİNİN VƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ ABŞ-ın TİCARƏT VƏ İNKİŞAF AGENTLİYİ ARASINDA BAKIDA ÜRƏK-DAMAR XƏSTƏLİKLƏRİNİN MÜALİCƏSİ ÜZRƏ MAYKL DEBEYKİ VƏ HEYDƏR ƏLİYEV ADINA MƏRKƏZİN TİKİNTİSİNİN TEXNİKİ-İQTİSADİ ƏSASLARININ HAZIRLANMASI BARƏDƏ MÜQAVİLƏNİN İMZALANMASI MƏRASİMİNDƏ NİTQ

27 aprel 1999-cu il 141

ABŞ-ın TİCARƏT NAZİRİ UİLYAM DEYLİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

27 aprel 1999-cu il 153

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ NÜFUZLU KONQRESMENLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ SÖHBƏT

27 aprel 1999-cu il 155

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB UİLYAM C.KLİNTONA

5 may 1999-cu il *167*

AVROPA KOMİSSİYASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ROMANO PRODİYƏ

7 may 1999-cu il *172*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTUFLƏKƏ

7 may 1999-cu il *173*

TELEVİZİYA İLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

9 may 1999-cu il *175*

TELEVİZİYA İLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

9 may 1999-cu il *177*

ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

10 may 1999-cu il *180*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AD GÜNÜ MÜNASİBƏTİLƏ KLİVLEND KLİNİKASINDA KEÇİRİLƏN MƏRASİM

10 may 1999-cu il *184*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN BƏYANATI

12 may 1999-cu il *188*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA MÜALİCƏSİ UĞURLA BAŞA ÇATMIŞDIR

15 may 1999-cu il *191*

MƏŞHUR MÜĞƏNNİ YAQUB ZURUFÇU İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

16 may 1999-cu il *193*

AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEV KLİVLENDDƏ GƏZİNTİDƏ OLMUŞDUR

16 may 1999-cu il *195*

TELEVİZİYA VASİTƏSİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

17 may 1999-cu il *197*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB BİLL KLİNTONA

18 may 1999-cu il *203*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ VİTSE-PREZİDENTİ CƏNAB AL.QORA

18 may 1999-cu il *206*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ XANIM MADELİN OLBRAYTA

18 may 1999-cu il *207*

İTALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KARLO AZELİO ÇAMPİYƏ

18 may 1999-cu il *210*

İSRAİL DÖVLƏTİNİN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB EHUD BARAKA

18 may 1999-cu il 211

TÜRKİYƏ RESPUBLİKASININ BÖYÜK BRİTANİYADAKI SƏFİRİ ÖZDƏM SANBER İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

19 may 1999-cu il 213

RUSİYANIN NTV TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

19 may 1999-cu il 217

RUSİYA İCTİMAİ TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

19 may 1999-cu il 223

Bİ-Bİ-Sİ RADİOSUNUN MÜXBİRİNƏ MÜSAHİBƏ

20 may 1999-cu il 231

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI NAZİRLƏR ŞURASININ DOQQUZUNCU GÖRÜŞÜNÜN İŞTİRAKÇILARINA

21 may 1999-cu il 235

TÜRKİYƏ RESPUBLİKASI BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB YILDIRIM AKBULUTA

22 may 1999-cu il 237

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ YILDIRIM AKBULUT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

22 may 1999-cu il 238

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

22 may 1999-cu il 240

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL VƏ HƏYAT YOLDAŞI NƏZMİYYƏ XANIMLA GÖRÜŞÜ VƏ DÖVLƏT BAŞÇILARININ JURNALİSTLƏR QARŞISINDA BƏYANATI

23 may 1999-cu il *245*

TÜRKİYƏNİN ANA VƏTƏN PARTİYASININ SƏDRİ, MİLLƏT VƏKİLİ MƏSUD YILMAZ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

23 may 1999-cu il *253*

TÜRKİYƏNİN «NƏRGİZ-TV» TELEKANALININ MÜXBİRİNƏ MÜSAHİBƏ

23 may 1999-cu il *256*

MUSTAFA KAMAL ATATÜRKÜN ÇANKAYA KÖŞKÜNDƏKİ EV MUZEYİNDƏ

24 may 1999-cu il *263*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İOHANES RAUYA

24 may 1999-cu il *264*

ANTALYAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL ÇANKAYANIN CAMLI KÖŞKÜNDƏKİ FƏXRİ QONAQLAR KİTABINA YAZDIĞI ÜRƏK SÖZLƏRİ

25 may 1999-cu il *265*

ANTALYANIN HAVA LİMANINDAKI ALİ QONAQLAR OTAĞINDA TELEVİZİYA VƏ MƏTBUAT İŞÇİLƏRİNƏ BƏYANAT

25 may 1999-cu il *266*

TÜRKİYƏNİN «SAMANYOLU» TELEVİZİYASINA MÜSAHİBƏ

28 may 1999-cu il *269*

28 MAY – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

28 may 1999-cu il *281*

DÜNYA BANKININ PREZİDENTİ CEYM VULFENSON VƏ XANIMI ELEYN VULFENSON İLƏ GÖRÜŞDƏN SONRA ONLARIN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

29 may 1999-cu il *290*

İRAN İSLAM RESPUBLİKASININ TÜRKİYƏDƏKİ SƏFİRİ MƏHƏMMƏD HƏSƏN YƏVASANİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

29 may 1999-cu il *292*

ABŞ-ın «ŞEVRON» ŞİPKƏTİNİN PREZİDENTİ RİÇARD MATSKE İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

31 may 1999-cu il *297*

MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK VƏ XÜSUSİ XİDMƏT ORQANLARININ RƏHBƏRLƏRİ ŞURASININ V İCLASININ İŞTİRAKÇILARINA

2 iyun 1999-cu il *301*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RUDOLF ŞUSTERƏ

3 iyun 1999-cu il *303*

SARATOV VİLAYƏTİNİN QUBERNATORU CƏNAB DMİTRİ AYATSKOVA

7 iyun 1999-cu il *304*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

8 iyun 1999-cu il *305*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ

8 iyun 1999-cu il *309*

TÜRKİYƏNİN «CEYLAN-TV» TELEVİZİYASI MÜXBİRİNİN SUALLARINA CAVAB

8 iyun 1999-cu il *313*

RESPUBLİKA TƏHLÜKƏSİZLİK ŞURASININ GENİŞ İCLASINDA NİTQ

10 iyun 1999-cu il *315*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS NİKOLAYEVİÇ YELTSİNƏ

11 iyun 1999-cu il *348*

ABŞ-ın AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

14 iyun 1999-cu il *349*

CƏNUBİ AFRİKA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB TABO MBEKEYƏ

16 iyun 1999-cu il *355*

TÜRKİYƏNİN AZƏRBAYCANDAKI SƏFİRİ QƏDRİ ECVET TEZCAN İLƏ GÖRÜŞDƏ SÖHBƏT

16 iyun 1999-cu il *356*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM VAYRA VİKE-FREYBERQƏ

18 iyun 1999-cu il 365

AZƏRBAYCANIN CÜRCÜ İCMASINA

19 iyun 1999-cu il 366

UKRAYNA BAŞ NAZİRİNİN MÜAVİNİ MİXAİL QLADİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

23 iyun 1999-cu il 368

AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİNİN ŞƏXSİ HEYƏTİNƏ

25 iyun 1999-cu il 372

AVROPA ŞURASININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ CƏNAB VALTER ŞVİMMERƏ

25 iyun 1999-cu il 374

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN ELMİ TƏDQİQAT AĞ CİYƏR XƏSTƏLİKLƏRİ İNSTİTUTU BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ

26 iyun 1999-cu il 375

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UİLYAM C. KLİNTONA

28 iyun 1999-cu il 383

TÜRK DÖVLƏTLƏRİ VƏ TOPLULUQLARININ VII DOSTLUQ, QARDAŞLIQ VƏ İŞBİRLİYİ QURULTAYINA

29 iyun 1999-cu il 384

MƏŞHUR RUSİYA RƏSSAMI NİKAS SAFRONOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

29 iyun 1999-cu il 386

ŞƏHİD AİLƏLƏRİ VƏ QARABAĞ MÜHARİBƏSİ ƏLİLLƏRİ ÜÇÜN TİKİLMİŞ YAŞAYIŞ EVİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

30 iyun 1999-cu il 394

CENEVRƏ DEMOKRATİYA QURUCULUĞU İNSTİTUTUNUN «MEDİA DƏSTƏYİ LAYİHƏSİ» ÇƏRÇİVƏSİNDƏ BAKIDA KEÇİRDİYİ KONFRANSDA İŞTİRAK EDƏN GÜRCÜSTAN VƏ ERMƏNİSTAN JURNALİSTLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

1 iyul 1999-cu il 407

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MİLLİ BAYRAMI - 4 İYUL İSTİQLALİYYƏT GÜNÜ MÜNASİBƏTİLƏ BU ÖLKƏNİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

3 iyul 1999-cu il 425

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ BAŞ KATİBİ ZATİ-ALİLƏRİ KOFİ ANNANA

5 iyul 1999-cu il 429

BAM-ın 25 İLLİYİNİN KEÇİRİLMƏSİ ÜZRƏ TƏŞKİLAT KOMİTƏSİNƏ

7 iyul 1999-cu il 432

AZƏRBAYCAN RESPUBLİKASI ƏSİLZADƏLƏR MƏCLİSİNİN SƏDRİ, XALQ YAZIÇISI, MİLLİ MƏCLİSİN DEPUTATI MAQSUD İBRAHİMBƏYOV İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

7 iyul 1999-cu il 434

AVSTRİYA RESPUBLİKASININ VİTSE-KANSLERİ, XARİCİ İŞLƏR NAZİRİ VOLFQANQ ŞÜSSEL BAŞDA OLMAQLA NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

9 iyul 1999-cu il 436

BAKININ SURAXANI RAYONUNDA «HEYDƏR BULAĞI» KOMPLEKSİNİN, «HEYDƏR PARKI»NIN VƏ «HEYDƏR MƏSCİDİ»NİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ SÖHBƏT VƏ NİTQ

10 iyul 1999-cu il *448*

XƏZƏRİN AZƏRBAYCAN SEKTORUNDAKI «ŞAHDƏNİZ» YATAĞINDA ƏLDƏ EDİLMİŞ NƏTİCƏLƏRİN TƏQDİMAT MƏRASİMİNDƏ GİRİŞ NİTQİ

12 iyul 1999-cu il *460*

YEKUN NİTQİ *465*

QEYDLƏR *473*

ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ *512*

COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ *517*

Kitabı çapa hazırlayan *Tofiq Babayev*

Rəssamı *Fuad Fərəcov*
Texniki redaktoru *Zoya Nəcəfova*
Yığım üzrə operator *İlhamə Kərimova*
Kompüter tərtibatı *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Taymss» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 33,5. Uçot vərəqi 34,0. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2/3.
"Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.